www.vivo-book.com

QADINLAR

ÇARLZ BUKOVSKİ



“Nə qədər yaxşı kişilər qadınların ucbatından körpü altında qalmağa məcbur olublar.”

HENRY ÇİNASKİ

1

Mənim artıq 50 yaşım vardı. Dörd il idi ki, qadınla yatağa girməmişdim. Qadın dostlarım da yox idi. Hər dəfə küçədə ya da başqa bir yerdə qadınların yanından keçəndə, onlara istəksiz və boş nəzərlərlə baxırdım. Masturbasiya ilə müntəzəm məşğul olsam da, bir qadınla münasibət qurmaq fikri, heç olmasa platonik bir münasibət, təxəyyülümün imkanları xaricindəydi.

6 yaşında nikahsız doğulmuş bir qızım vardı. O öz anası ilə yaşayırdı, mən isə aliment ödəyirdim. Uzun illər bundan əvvəl, 35 yaşında ailə qurmuşdum. Həmin evlilik cəmi iki il yarım sürdü. Arvadım məndən boşandı. Mən isə ömrümdə bircə dəfə sevmişdim. Sevgilim əyyaşlıqdan vəfat etmişdi. O, 48 yaşında vəfat edəndə mənim 38 yaşım vardı. Arvadımsa məndən 12 yaş cavan idi. Güman edirəm, indi o da vəfat edib, amma əmin deyiləm. Boşanandan sonra o, 6 il ərzində mənə hər Milad bayramında uzun-uzadı məktublar yazardı. Bir dəfə də olsun ona cavab yazmadım...

Lidiya Vansı ilk dəfə nə vaxt gördüyümü xatırlamıram. Bəlkə də 6 il bundan əvvəl, on iki il əmək sərf etdiyim və yazar olmağa çalışdığım poçt idarəsindəki işimə yenicə xitam vermişdim. Dəhşət içindəydim. Həmişəkindən daha çox içirdim. İlk romanımı yazmağa çalışırdım. Hər dəfə axşam yazarkən mən bir pinta[1] viski və iki dənə altı pivəlik qutunu boşaldırdım. Səhərə qədər ucuz siqarlar çəkir, makinada yazır və klassik musiqiyə qulaq asırdım. Özümə hər gecə on səhifə yazmağı hədəfləmişdim. Əslində, neçə səhifə yazdığımı növbəti günə qədər bilmirdim. Mən, adətən, yerimdən qalxar, qusandan sonra ön otağa keçib divanın üstündə neçə vərəq olduğuna baxardım. Həmişə on səhifədən artıq yazırdım. Bəzən orada 17, 18, 23, 25 səhifə olurdu. Əlbəttə, hər gecə gördüyüm işə ya düzəliş etmək, ya da onu atmaq lazım gəlirdi. Birinci romanımı yazmağa iyirmi bir gecə sərf etməli oldum.

Qaldığım həyətin arxasında yaşayan ev sahibləri məni dəli hesab edirdilər. Hər səhər yuxudan duranda, artırmada

[1]İngiltərə və ABŞ-da 0,56 litrə bərabər maye və quru maddələr üçün ölçü vahidi

qəhvəyi rəngli bir bağlama görürdüm. Bağlamanın içindəkilər dəyişilirdisə də, adətən, onun içində pomidorlar, qırmızı turp, portağal, yaşıl soğan, sup bankaları və qırmızı soğan qoyulurdu. Ara-sıra, ev sahibləri ilə səhər saat 4-5-ə qədər pivə içirdim. Qoca dəmləşib huşunu itirəndə, onun arvadı ilə əl-ələ tutardıq və bəzən mən onu öpərdim. Qapıda ayrılanda isə onu əsl ehtirasla öpərdim. Qadının üz-gözü qırış-qırış olsa da, buna müqavimət göstərmək iqtidarında deyildi. O katolik idi və hər bazar səhəri öz çəhrayı şlyapasını geyinib kilsəyə gedəndə çox qəşəng görünürdü.

Məncə, Lidiya Vans ilə ilk bədii qiraətim zamanı tanış olmuşdum. Bu, Açılan Körpüdə, Kenmor Avenyudakı kitab dükanında baş tutmuşdu. Yenə də mən dəhşət içindəydim. Təkəbbürlü, amma dəhşət içində. Dükana daxil olanda, orada yalnız ayaq üstə dayanmaq üçün yer olduğunu görmüşdüm. Dükanın sahibi və zənci bir qızla yaşayan Piterin önündə nağd pul qalağı vardı.

– Zibil, – məni görən kimi o dedi, – əgər onları bura həmişə belə doldura bilsəydim, Hindistana daha bir səfər etməyə pulum olardı!

İçəri daxil olanda onlar məni alqışladırlar. Bədii qiraətə gəlincə, öz bakirəliyimi pozmalıydım.

Mən 30 dəqiqəlik qiraətdən sonra fasilə istədim. Hələlik ağlım başımdaydı və qaranlıqda mənə zillənmiş gözləri hiss edə bilirdim. Bir neçə nəfər söhbət eləmək üçün yaxınlaşdı. Sonra, sükut çökəndə, Lidiya Vans yaxınlaşdı. Mən masanın arxasında oturub pivə içirdim. O, hər iki əlini masanın kənarına dayayıb irəli əyildi və mənə baxdı. Onun uzun xurmayı saçları, irəli çıxan burnu vardı və bir gözü o birisi ilə elə də uyuşmurdu. Lakin ondan ətrafa həyat ehtirası saçılırdı – onu görməmək, sezməmək mümkün deyildi. Aramızda keçən titrəyişləri hiss edə bilirdim. Bu titrəyişlərin bəzisi tələşlı və xoşagəlməz olsa da, onlar da vardı. O mənə, mən isə ona baxırdım. Lidiya Vansın əynində yumşaq maral dərisindən, yaxalığı saçaqlı kovboy gödəkçəsi vardı. Onun döşləri qəşəng idi. Mən ona:

– Sənin gödəkçənin saçaqlarını qoparmaq istərdim – biz bundan başlaya bilərdik – dedim

Lidiya uzaqlaşdı. Bu işə yaramamışdı. Qadınlara nə deyəcəyimi heç vaxt bilməmişəm. Amma onun dalı da əla

idi. Məndən uzaqlaşdıqca əla dalına tamaşa edirdim. Cins şalvarın arxası dalını sıx-sıx qucaqlamışdı və addımladıqca gözlərimi onun dalından çəkə bilmirdim.

Qiraətin ikinci hissəsini də bitirdim və səkidə yanından ötüb keçdiyim bütün qadınlar kimi, Lidiyanı da unutdum. Pulumu aldım, bir neçə salfetə, bir neçə vərəqə imza atdım və oranı tərk edərək evimə yollandım.

Mən yenə də hər gecə ilk romanımın üzərində işləyirdim. Heç vaxt axşam saat 18:18-dək yazmağa başlamırdım. Məhz həmin vaxtda mən poçtamtda öz terminal bölməmin buraxılış keçidində qeydiyyata düşürdüm. Onlar gələndə isə saat 18.00 idi: Piter və Lidiya Vans. Mən qapını açdım. Piter dedi:

– Bir bax, Henri, bax gör sənə nə gətirmişəm!

Lidiya qəhvə masasının üstünə tullandı. Mavi cins şalvarı ona həmişəkindən daha sıx otururdu. O, uzun xurmayı saçlarını ora-bura yellədirdi. Elə bil ağlını itirmişdi; yenə də çox ecazkar görünürdü. İlk dəfə olaraq onunla, həqiqətən, sevişmək ehtimalı haqqında düşündüm. O, şeir

oxumağa başladı. Öz şeirini. Çox bərbad şeir idi. Piter onu susdurmağa çalışdı:

– Yox! Yox! Henry Çinaskinin evində qafiyə söyləmək olmaz!

– Dəymə, qoy oxusun, Piter!

Mən ona tamaşa etmək istəyirdim. O, köhnə qəhvə masasının üstündə ora-bura gəzişirdi. Sonra rəqs etməyə başladı. Qollarını havada oynadırdı. Poeziyası bərbad olsa da, bədəni və ehtirası isə əsla...

Lidiya masanın üstündən döşəməyə atıldı.

– Hə necədi, xoşuna gəldimi, Henry?

– Nə?

– Poeziyanı deyirəm.

– Çətin ki... düşünmürəm.

Lidiya əlində şeir vərəqləri ilə yerində donub qalmışdı. Piter onu qucaqladı.

– Gəl sikişək! – O, Lidiyaya dedi. – Hə, nə durmusan, gəl qayırışaq!

O, Piteri özündən kənara itələdi.

– Yaxşı, – Piter dedi. – Onda mən gedirəm!

– Gedirsən, yaxşı yol. Mənim öz maşınım var, – deyə Lidiya cavab verdi. Mən evimə sənsiz də qayıda bilərəm.

Piter qapıya tərəf qaçdı, birdən dayandı və geri çevrilərək dedi:

– Yaxşı, Çinaski! Sənə nə gətirdiyimi unutma!

Piter sözünü bitirib qapını çırpdı və gözdən itdi. Lidiya divanın qapıya yaxın ucunda oturdu. Mən ondan bir fut aralı əyləşdim və ona baxdım. O çox ecazkar görünürdü. Mən isə qorxurdum. Əlimi uzadıb onun uzun saçlarına toxundum. Saçları füsunkar idi. Cəld əlimi geri çəkdim.

– Bütün bu saçlar, həqiqətən də sənindirmi? – soruşdum. Baxmayaraq ki, bu saçların onun əsl saçları olduğunu bilirdim.

– Hə, – deyə o cavab verdi, – mənimdir.

Mən əlimlə yöndəmsiz bir tərzdə onun çənəsindən tutdum və başını özümə tərəf çevirməyə cəhd elədim. Belə vəziyyətlərdə heç vaxt özgüvənim olmayıb. Mən onu yüngülcə öpdüm.

Lidiya yerindən ayağa sıçradı.

– Mən getməliyəm. Dayə tutmuşam. Ona pul ödəyirəm.

– Bura bax, –dedim, – qal. Mən pul verərəm. Heç olmasa bir az qal.

– Yox, qala bilmərəm, – getməliyəm.

Qapıya tərəf getdi, mən isə onun ardınca. O qapını açdı. Sonra geri çevrildi. Mən bir də, sonuncu dəfə ona tərəf uzandım. O başını qaldırıb mənə çox zərif bir öpüş bəxş etdi. Sonra geri çəkildi və əlimə makinada yazılmış bir neçə vərəq verdi. Qapı bağlandı. Mən əlimdə o kağızlarla taxtda oturdum və onun maşınının mühərrikinin necə işə düşdüyünə qulaq asdım.

Surəti çıxarılmış şeir vərəqləri bir-birinə bəndlənmişdi və "HERRRR" adlanırdı. Mən onlardan bir neçəsini oxudum. Şeirlər maraqlı, yumor və seksual duyumla dolu olsa da, yaxşı yazılmamışdı. Müəlliflər – Lidiya və onun üç bacısı – onlar hamısı necə şən, cəsarətli və seksual idilər. Mən vərəqləri bir kənara atıb bir şüşə viski açdım. Bayırda hava artıq qaralmışdı. Radioda əsasən Motsartın, Bramsın və Binin əsərləri ifa olunurdu.

2

Bir neçə gün sonra poçtla mənə Lidiyadan bir poema gəldi. Bu çox uzun bir şeir idi və belə başlayırdı:

Bayıra çıx qoca troll,

Öz qaranlıq yuvandan bayıra çıx, qoca troll,

Bizimlə gün işığına çıx və izn ver saçlarına qızçiçəyi hörək. . .

Sonra poemada mənə sevinc və əsl bilik verəcək qadın cinsindən olan cavan varlıqlarla boş çöllükdə rəqs etməyin necə gözəl olacağı haqqında söhbət açılırdı. Məktubu komodun siyirməsinə qoydum.

Ertəsi gün səhər küçə qapısının şüşəsinin döyülməsi ilə yuxudan oyandım. Saat 10:30 idi.

– Çıxın gedin, – dedim.

– Mənəm, Lidiya.

– Yaxşı bir dəqiqə gözləyin.

Əynimə köynəklə şalvar geyindim və qapını açdım. Sonra hamamxanaya qaçdım və qusdum. Dişlərimi fırçalamağa çalışdım, amma sadəcə, yenə qusdum, diş

pastasının şirin dadı mədəmi bulandırmışdı. Hamamxanadan çıxdım.

– Sən xəstələnmisən, Lidiya dedi, – mənim getməyimi istəyirsənmi?

– Oh, yox, mən yaxşıyam. Mən yuxudan ayılanda, həmişə belə oluram.

Lidiya çox gözəl görünürdü. Pərdələrdən süzülən işıq onun üzərində bərq vururdu. Onun əlində portağal vardı və onu havaya atıb tuturdu. Portağal havada uçarkən səhər günəşinin işığında fırlanırdı.

– Mən qala bilmərəm, o dedi, – amma səndən bir şey xahiş edəcəm.

– Əlbəttə.

– Mən heykəltaraşam və sənin kəllənin heykəlini düzəltmək istəyirəm.

– Yaxşı.

– Bunun üçün sən mənim yanıma gəlməlisən. Mənim emalatxanam yoxdur. Biz bunu mənim evimdə etməli olacağıq. Bu sənin sinirlərini gərməz, elə deyilmi?

– Yox.

Mən onun ünvanını və ora necə getməli olduğum haqqında təlimatları bir kağıza yazdım.

– Çalış ki, səhər saat on birdə mənim evimdə olasan. Uşaqlar günortadan sonra məktəbdən gəlirlər və bizi işimizdən yayındıra bilərlər.

– Səhər saat on birdə orda olacam, – dedim.

...Mən düz söz verdiyim vaxtda yemək üçün ayrılmış küncdə Lidiyanın qarşısında oturmuşdum. Bizim aramızda böyük bir gil qalağı vardı. O mənə suallar verməyə başladı.

– Sənin valideynlərin sağdırlarmı?

– Yox.

– Los-Ancelesdən xoşun gəlirmi?

– Mənim sevimli şəhərimdir.

– Qadınlar haqqında nədən belə şeylər yazırsan?

– Necə şeylər?

– Özün yaxşı bilirsən.

– Yox, bilmirəm.

– Hmmm, məncə, qadınlar haqqında heç bir şey bilmədən sənin kimi yazılar yazan insanlar utanc hissləri keçirməlidirlər.

Mən ona cavab vermədim.

– Lənət şeytana! Liza bu ... hara soxuşdurub? – Lidiya otaqda nəsə axtarmağa başladı. – Ax bu canı yanmamış kiçik qızlar, həmişə analarının alətlərini də götürüb aradan çıxırlar!

Lidiya başqa bir alət tapdı.

– Bunu bir təhər uyğunlaşdıraram. İndi isə tərpənmədən otur, özünü çox da gərmə, amma tərpənmədən otur.

Mən üzüm ona tərəf oturmuşdum. O isə ucunda məftil ilgək olan taxta bir alətlə gil topasının üzərində işləyirdi. Sonra aləti qalağın üzərindən ara-sıra mənə tərəf yellədirdi. Mən onun hərəkətlərini izləyirdim. Onun gözləri mənə baxırdı. Bu gözlər iri və tünd qonur rəngdə idi. Hətta onun pis gözü, digər gözünə bir qədər uyuşmayanı da gözəl görünürdü. Mən də gözlərimi ondan çəkmirdim. Vaxt isə keçirdi. Mən trans halına düşmüşdüm. O birdən dedi:

– Fasilə etməyə necə baxırsan? Pivə istəyirsənmi?

– Əla. Hə istəyirəm.

O, yerindən qalxıb soyuducuya tərəf gedəndə, mən də onun arxasınca getdim. O bir şüşə götürüb qapını bağladı. Lidiya geri çevriləndən mən onun belindən tutaraq özümə tərəf çəkdim. Ağzım və bədənimlə ona yapışdım. O, pivə şüşəsini kənara uzatdığı əlində saxlamışdı. Mən onu öpdüm. Sonra bir də öpdüm. Lidiya məni kənara itələdi.

– Yaxşı, – o dedi, – daha bəsdir. Biz işləməliyik.

Biz yenə öz yerlərimizə oturduq. Lidiya siqaret çəkdiyi vaxt mən öz pivəmi içirdim, gil qalağı isə yenə bizim aramızda idi. Qapının zəngi çaldı. Lidiya ayağa qalxdı. Orada bərəlmiş və yalvarış dolu gözlərini bizə zilləmiş bir kök qadın dayanmışdı.

– Bu mənim bacım Qlendolinadir.

– Salam.

Qlendolina bir stul çəkib danışmağa başladı. Danışmağı o gözəl bacarırdı. Əgər o, sfinks də olsaydı, yenə də danışardı, daş olsaydı, yenə də danışardı. Məni, sadəcə, onun yorulacağı və bizi tərk edəcəyi vaxt maraqlandırırdı. Daha ona qulaq asmasam da, elə bil kimsə məni kiçik pinq-ponq şarları ilə vururdu. Qlendolinanın, deyəsən, zaman, ya

da maneə ola biləcəyi haqqında heç bir təsəvvürü yox idi. O susmadan danışırdı, elə hey danışırdı.

– Bir dinləyin, – mən nəhayət dedim, – siz nə vaxt gedəcəksiniz?

Məhz bundan sonra bacı səhnəsi başladı. Onlar bir-biri ilə danışmağa başladırlar. Onlar ayaq üstə bir-birinin qarşısında durub qollarını havada oynadırdılar. Səslər getdikcə yüksəlirdi. Onlar bir-birini fiziki xəsarətlərlə təhdid edirdilər. Nəhayət – dünyanın sonuna yaxın – Qlendolina bədəni ilə nəhəng bir qövs cızaraq setka qapının geniş boşluğundan özünü bayıra atdı və gözdən itdi. Lakin həyətin arxasındakı evinə çatanadək onun qəzəbli səsi və giley-güzarı eşidilirdi.

Lidiya ilə mən yenidən yemək köşəsinə dönüb öz yerimizə oturduq. O özünün heykəl işləmə alətini götürdü və gözlərini yenidən mənim gözlərimə zillədi.

3

Bir neçə gün sonra bir səhər mən onun həyətinə daxil oldum, elə həmin vaxt Lidiya da döngədə göründü. O,

tindəki çoxmənzilli binada yaşayan rəfiqəsi Tinagildən gəlirdi. Çox cazibədar görünürdü, lap ilk dəfə əlində portağal ilə mənim yanıma gələndə gördüyüm kimi.

– Aaaaa, – o dedi, – yeni köynək geyinmisən!

O düz deyirdi. Bu köynəyi onun haqqında düşündüyüm üçün, onunla görüşmək istədiyim üçün almışdım. Onun bunu bildiyini və məni ələ saldığını bildiyim halda, yenə də etiraz etmədim.

Lidiya qapını açdı və biz içəri girdik. Üstünə nəm əsgi salınmış gil yemək üçün ayrılmış küncdəki masanın düz ortasında dururdu. O, əsgini götürdü.

– Hə, necədir?

Lidiya mənə rəhm eləməmişdi. Çapıqlar da, əyyaş burnu da, meymun ağzı da, dar bir xəttəcən qıyılmış gözlər hamısı yerində idi, və hətta gülünc, öz xoşbəxtliyini hiss etsə də bunun səbəbini anlamayan, xoşbəxt bir adamın səfeh, xoşhal təbəssümü də orada idi. Onun yaşı 30-u, mənimki isə 50-ni keçmişdi. Vecimə də deyildi.

– Hə, – dedim, – məni yaxşı düzəltmisən. Xoşuma gəlir. Amma belə görürəm, sən onu demək olar ki,

bitirmisən. Sən onu bitirəndən sonra mən qüssələnəcəm. Bizim bir neçə çox gözəl səhərlərimiz və günortalarımız olmuşdu.

– Bu iş sənin yazmağına mane oldumu?

– Yox, mən yalnız hava qaralandan sonra yazıram. Heç vaxt gündüzlər yaza bilməmişəm.

Lidiya özünün şəkilvermə alətini əlinə alıb mənə baxdı.

– Narahat olma. Hələ görüləsi işim çoxdu. Bu heykəlin yaxşı alınmasını istəyirəm.

Birinci fasilədə o soyuducudan bir şüşə viski çıxardı.

– Aaa, – deyə mən ufuldadım.

– Nə qədər? – o mənə uzun su stəkanını göstərib dedi.

– Yarısınacan.

İçki süzdü və dərhal da başına çəkdi.

– Mən sənin haqqında eşitmişəm, – o dedi.

– Məsələn, nə eşitmisən?

– Kişiləri öz artırmandan necə atdığın haqqında. Öz qadınlarını kötəklədiyin haqqında.

– Öz qadınlarımı kötəkləyirəm?

– Hə, mənə bu haqda deyiblər.

Mən Lidiyanı tutdum və biz bütün bu vaxt ərzindəki ən uzun öpüşə daldıq. Mən onu mətbəx çanağının kənarına sıxdım və öz şeyimi ona sürtməyə başladım. O məni kənara itələdi, amma mən yenə onu mətbəxin ortasında yaxaladım.

Lidiya mənim əlimdən tutub öz cins şalvarının önünə tərəf itələdi və tumanının içinə saldı. Barmağımın ucu onun amının üst tərəfinə toxundu. O yaş idi. Onu öpməyə davam edərək barmağımı onun amının içinə saldım. Sonra əlimi çıxardım, ondan aralandım, viski şüşəsinə uzandım və özümə bir az da içki süzdüm. Keçib mətbəx masasının arxasında oturdum, Lidiya isə əks tərəfdən keçib mənimlə üz-üzə oturdu və mənə baxdı. Sonra o yenə gil ilə işinə davam etdi. Mən aramla viskidən balaca udumlar alırdım.

– Bura bax, – mən dedim, – sənin faciənin nə olduğunu bilirəm.

– Nə?

– Sənin faciənin nə olduğunu bilirəm

– Nə demək istəyirsən?

– Qulaq as, – mən dedim, – sadəcə, unut getsin.

– Mən bilmək istəyirəm.

– Sənin hisslərini incitmək istəmirəm.

– Lənət şeytana, sənin nə haqda danışdığını bilmək istəyirəm.

– Yaxşı, bir az da içki süzsən, deyərəm.

– Yaxşı, – Lidiya mənim boş bardağımı götürdü və içinə yarısınacan su, yarısınacan isə viski töküb mənə verdi. Mən yenə bardağı birnəfəsə boşaltdım.

– Hə nə oldu? – deyə Lidiya sual etdi.

– Zibil, sən özün yaxşı bilirsən.

– Nəyi bilirəm?

– Sənin amın çox böyükdür.

– Nə?

– Bu elə də nadir rast gəlinən şey deyil. Sənin iki uşağın var.

Lidiya dinməzcə oturub gillə əlləşirdi. Sonra əlindəki aləti bir kənara qoydu. Yerindən qalxıb mətbəxin arxa qapısının yanındakı küncə tərəf getdi. Mən onun əyilərək ayağındakı çəkmələri çıxarmağına baxırdım. Sonra o cins şalvarını və tumanını soyundu. Onun amı orada idi və düz mənə baxırdı.

– Yaxşı, düdəmə, – o dedi. Sənin səhv etdiyini indi sənə göstərərəm.

Mən də öz ayaqqabılarımı, şalvarımı və tumanımı soyundum, linolium döşəmədə diz çökdüm və sonra ehmalca onun üstünə uzandım. Onu öpməyə başladım. Şeyim çox tez bərkidi və onun içinə necə daxil olduğumu hiss etdim.

Mən irəli-geri hərəkətə başladım... bir, iki, üç...

Birdən bayır qapı döyüldü. Qapını uşaq döyürdü – balaca yumruqları ilə, özü də inadkarcasına. Lidiya cəld məni öz üstündən kənara itələdi.

– Gələn Lizadır! O bu gün məktəbə getməyib! O getmişdi ki...

Lidiya sözünü yarımçıq kəsib bir sıçrayışla ayağa qalxdı və paltarlarını geyinməyə başladı.

– Paltarlarını geyin, – o mənə dedi.

Mən əlimdən gəldiyi qədər cəld geyindim. Lidiya qapıya tərəf getdi – orada onun beş yaşlı qızı dayanmışdı:

– ANA! ANACAN! Mən barmağımı kəsmişəm!

Mən ön otağa keçdim. Lidiya Lizanı dizlərinin üstünə otuzdurdu.

– Oooo, qoy mama baxsın. Oooo, qoy mama sənin barmağını öpsün. Mama indi sənin barmağını yaxşı eləyər!

– ANA, ağrıdır!

Mən kəsilmiş yerə baxdım. Kəsik demək olar ki, görünmürdü.

– Bura bax, – mən nəhayət, Lidiyaya dedim, – sabah görüşərik.

– Mən təəssüf edirəm, – deyə o cavab verdi.

– Bilirəm.

Liza başını qaldırıb mənə baxdı. Onun gözlərindən durmadan elə hey yaş damcıları süzülürdü.

– Liza anasını incitməyə qoymaz, – Lidiya dedi.

Mən qapını açdım, sonra bağladım və özümün 1962-ci il buraxılışı olan "Merkuri Komet"imə tərəf addımladım.

4

O vaxtlar mən "Yumşaldıcı Yanaşma" adlı balaca bir jurnalı redaktə edirdim. İki köməkçi redaktorum da vardı.

Biz düşünürdük ki, dövrümüzün ən yaxşı şairlərini çap edirik. Həmçinin başqa şairləri də. Redaktorlardan birisi yarımçıq orta təhsilli, boyu 6 fut iki düym olan zənci Kennet Malok idi. Onun güzəranına qismən anası, bir az da bacısı yardım edirdi. O biri redaktor isə 27 yaşlı Semmi Levinson idi. O valideynləri ilə yaşayır və onların hesabına dolanırdı.

Vərəqlər artıq çap edilmişdi. İndi isə biz onları tutuşdurmalı və üz qabıqlarına salmalı idik.

– Sənin etdiyin şeyin adı, – Semmi dedi, – çeşidləmə qrupunu atmaqdır. Hamıya bir qədər içki verib boş-boş danışmaq. Başqaları isə qoy işləsinlər.

– Qonaqlıqlardan zəhləm gedir, – mən dedim.

– Dəvətləri mən edəcəyəm, – Semmi dilləndi.

– Yaxşı, – mən dedim və Lidiyanı dəvət etdim.

Qonaqlıq gecəsi Semmi artıq çeşidlənmiş vərəqlərlə gəldi. O, bir balaca əsəbi tip idi. Həyəcanlananda başını əsdirirdi və öz şeirlərinin jurnalda çap ediləcəyi vaxtı gözləməyə heç vaxt səbri çatmazdı. O, “Yumşaldıcı Yanaşma” jurnalını təkbaşına yoxlayaraq çeşidləmiş və sonra da onları üzləmişdi. Kennet Malok heç yerdə

görünmürdü. Çox güman ki, o ya həbsxanaya düşmüş, ya da hansısa bir işə ilişmişdi.

Camaat yavaş-yavaş toplaşırdı. Mən onlardan çox azını tanıyırdım. Arxa həyətə, öz ev sahibəmin yanına getdim. O gəlib qapını açdı.

– Missis O'Kif, mən böyük bir qonaqlıq verirəm. İstəyirəm ki, siz ərinizlə birlikdə bu qonaqlıqda iştirak edəsiniz. Çoxlu pivəmiz, kredellərimiz və yaxşıca qızarmış kartof yonqarımız var.

– Ah, aman Allahım, yox!

– Nə olub, problem nədir?

– Mən ora necə insanların girdiyini gördüm! O saqqallılar, bütün o saçlı-qıllılar və o dalı yırtıq paltarlılar! Bilərziklər və muncuqlar... onlar kommunistlər bandasına oxşayırlar. Belə insanlara necə qatlaşa bilirsən?

– O insanlardan mənim də xoşum gəlmir, missis O'Kif. Biz, sadəcə, pivə içib söhbət edirik. Bunun heç bir anlamı yoxdur.

– Onlarla ehtiyatla davran. Belə insanlardan nə desən gözləmək olar, onlar boruları da oğurlayarlar.

Qadın qapını örtdü.

Lidiya gec gəldi. Qapıdan aktrisa kimi daxil oldu. Diqqətimi özünə ilk çəkən şey onun başındakı kənarına lavanda lələyi taxılmış böyük kovboy şlyapası oldu. O mənimlə heç nə danışmadan dərhal kitab mağazasının cavan satıcısının yanına oturdu və onunla nəsə haqqında gərginliklə söhbət etməyə başladı. Mən daha çox içməyə başladım və mənim danışığımdakı yumor və enerji harasa qeyb oldu. Kitab satıcısı pis oğlan deyildi, sadəcə, yazar olmağa çalışırdı. Onun adı Rnedi Evans idi, lakin o Kafkanın elə dərininə dalmışdı ki, bədii aydınlığa nail olması mümkün görünmürdü. Biz onun xatirinə dəyməkdənsə, onu "Yumşaldıcı Yanaşma" jurnalında çap etməyi, üstəlik onun mağazası vasitəsi ilə öz jurnalımızı satmağı daha məqsədəuyğun görmüşdük.

Mən pivəmi bitirdim və ətrafda bir qədər dolaşdım. Arxa artırmaya çıxdım, dalana enən pilləkəndə oturdum və yekəpər bir qara pişiyin zibil qabına girmək üçün çabalamasına tamaşa etməyə başladım. Mən pillələr ilə enərək ona yaxınlaşdım. Lakin ona yaxınlaşdığım an pişik

cəld zibil qabından yerə tullandı. Bir neçə metr aralanıb dayandı və məni izləməyə başladı. Zibil qabının qapağını götürdüm. Qabdan gələn üfunət dözülməz idi. Qabın içinə qusdum və qapağı əlimdən səkiyə saldım. Pişik zibil qabının üstünə atılaraq dörd ayağı ilə onun kənarında dayandı. Bir anlıq tərəddüddən sonra o, hilal şəkilli ayın parlaq işığında qabın içinə girərək gözdən itdi.

Lidiya hələ də Rendi ilə söhbət edirdi və masanın altında onun bir ayağının Rendinin ayağına toxunduğunu gördüm. Mən bir pivə də açdım.

Semmi öz söhbəti ilə hamını güldürürdü. Camaatı güldürmək istədiyim vaxtlarda mən bu işi daha yaxşı bacarırdım. Amma həmin gecə o ovqatda deyildim. Qonaqlıqda 15-16 kişi və cəmisi iki qadın vardı – Lidiya və Eypril. Eypril çox kök idi və pəhriz saxlayırdı. O, döşəməyə sərilmişdi. Təxminən bir saatdan sonra o döşəmədən qalxdı və məclisi yanıb tükənmiş anfetamin manyakı narkoman Karl ilə birlikdə tərk etdi. Bundan sonra məclisimizdə 15-16 kişi və Lidiya qaldı. Mətbəxdə bir pinta skoç tapdım. Şüşəni

də götürüb arxa artırmaya çıxdım və ara-sıra ondan udumlar almağa başladım.

Gecə keçdikcə, kişilər yavaş-yavaş məclisi tərk etməyə başladılar. Hətta Rendi Evans da getdi. Nəhayət, yalnız Semmi, Lidiya və mən qalmışdıq. Lidiya Semmi ilə söhbət edirdi. Semmi nəsə gülməli şeylər danışırdı. Onun danışdıqlarına mən də gülürdüm. Sonra o getmək istədiyini söylədi.

– Getmə xahiş edirəm, – Lidiya dedi.

– İmkan ver adam getsin, – mən araya girdim.

– Hə, mən artıq getməliyəm, – Semmi dilləndi.

Semmi gedəndən sonra Lidiya mənim üstümə düşdü:

– Onu qovmaq məcburiyyətində deyildin. Semmi çox məzəli oğlandır, Semmi, həqiqətən, çox məzəli oğlandır. Sən isə onun qəlbini qırdın.

– Amma mən səninlə təklikdə danışmaq istəyirəm, Lidiya.

– Sənin dostlarından çox xoşum gəlir. Mən sənin kimi bu qədər müxtəlif insanlarla görüşə bilmirəm. Mən insanları sevirəm!

– Mən isə yox.

– Sənin insanları sevmədiyini bilirəm, amma mən onları çox sevirəm. Onlar sənin görüşmək üçün bura gəlirlər. Bəlkə də onlar sənin görüşə gəlməsəydilər, sənin onlardan daha çox xoşun gələrdi.

– Yox, nə qədər az görsəm, onlardan bir o qədər çox xoşum gələr.

– Sən Semminin xətrinə dəydin.

– Sən elə bil. Amma o, evə, öz anacığının yanına getdi.

– Sən qısqanc, həm də etibarsız adamsan. Sən elə düşünürsən ki, mən söhbət etdiyim hər kişi ilə yatağa girməyə hazıram.

– Yox, elə düşünmürəm. Bura bax, bir qədəh içkiyə necə baxırsan?

Mən yerimdən qalxıb ona bir içki qarışdırdım. Lidiya uzun bir siqaret alışdırdı və içkisindən bir udum aldı.

– Bu şlyapa sənə çox yaraşır, – mən dedim. – Hələ o bənövşəyi lələyi demirəm.

– Bu mənim atamın şlyapasıdır.

– Bəs atan öz şlyapasını axtarmayacaq?

– O vəfat edib.

Mən Lidiyanı divana tərəf dartdım və bərk-bərk öpdüm. O mənə öz atası haqqında danışdı. O öləndə dörd bacıya bir az pul miras qoymuşdu. Bu da onlara müstəqil yaşamaq, Lidiyaya isə öz ərindən boşanmaq imkanı vermişdi. Bir də o mənə dedi ki, o bir növ psixi sarsıntıya bənzər bir şey keçiribmiş və hətta bu səbəbdən bir müddət dəlixanada da yatıbmış. Mən onu bir də öpdüm.

– Bura bax, – mən dedim, – gəl yatağa uzanaq. Mən çox yorulmuşam.

Nə qədər təəccüblü olsa da, o mənim arxamca yataq otağına keçdi. Mən çarpayıya uzandım və onun çarpayının kənarına oturduğunu hiss etdim. Mən gözlərimi yummuş olsam da, onun çəkmələrini necə soyunduğunu təsəvvür edə bilirdim. Əvvəlcə birinci, sonra isə ikinci çəkmənin döşəməyə düşdüyünü eşitdim. Mən çarpayıda uzanmış vəziyyətdə soyunmağa başladım. Əlimi uzadıb başımızın üstündəki lampanı söndürdüm və soyunmağa davam etdim. Biz bir qədər də öpüşdük.

– Sonuncu dəfə bir qadınla yatağa girdiyin vaxtdan nə qədər keçib?

– Dörd il.

– Dörd il?

– Hə.

– Düşünürəm ki, sən bir balaca sevgi payı üçün haqq qazanmısan, – Lidiya dedi. – Səni yuxumda görmüşdüm. Yuxumda sənin köksünü bir dolabçaymış kimi açdım. Orada qapılar vardı və mən qapıları açanda, sənin içində çoxlu yumşaq şeylərin olduğunu gördüm – yumşaq plyuş ayı, kiçik tüklü heyvanlar, bir sözlə, adamın oxşayıb əzizləmək istədiyi bütün yumşaq şeylər. Sonra yuxumda başqa bir adamı gördüm. O mənə yaxınlaşıb bir qalaq kağız verdi. O yazıçı idi. Mən kağızları alıb onların içində yazılanlara baxdım. Bu kağızlarda xərçəng vardı. Onun yazısında, xəttində xərçəng vardı. Mən öz yuxularıma itaət edirəm. Sənin azacıq da olsa sevgiyə haqqın var.

Biz yenidən öpüşdük.

– Bura bax, – Lidiya dedi, – O şeyi mənim içimə salandan sonra qurtarmamışdan əvvəl onu çıxarmağı unutma, yaxşımı?

– Başa düşdüm.

Mən onun üstünə çıxdım. Hər şey çox yaxşı idi. Deyəsən, nəsə baş verirdi, nəsə real bir şey, özü də məndən ən azı 20 yaş cavan və həqiqətən də gözəl hesab edilə biləcək bir qızla. Mən təxminən 10 dəfə dala qabağa təkanlar edəndən sonra onun içinə qurtardım.

O sıçrayaraq yerindən qalxdı.

– Ay səni qancıq oğlu! Sən mənim içimə qurtardın!

– Lidiya, çox uzun müddət idi ki... özümü elə gözəl hiss edirdim ki... əlimdən heç nə gəlmədi. Necə oldu bilmirəm, heç özümün də xəbərim olmadı! Məsih İsaya and içirəm ki, əlimdə deyildi.

O cəld hamamxanaya qaçdı və vannaya suyu açdı. Güzgünün qarşısında dayanıb uzun xurmayı saçlarını darayırdı. O, həqiqətən də gözəl görünürdü.

– Ay səni qancıq oğlu! Aman Allahım, nə axmaq bir orta məktəb hoqqasıdır bu. Bu əsl orta məktəb zibilidir!

Bundan daha pis bir vaxt seçə bilməzdin! İndi belə çıxır ki, biz sənlə birlikdə yaşayırıq, oynaşıq! İndi biz sənlə oynaşıq!

Mən hamamxanaya, ona tərəf getdim.

– Lidiya mən səni sevirəm.

– Cəhənnəm ol başımdan!

O məni itələyərək hamamxanadan çıxardı, qapını bağladı və mənin dəhlizdə dayanıb vannaya suyun axmasına qulaq asmaqdan başqa çarəm qalmadı.

5

Mən bir neçə gün Lidiyanı görə bilmədim, baxmayaraq ki, bu müddətdə ona 6, ya da 7 dəfə zəng edə bilmişdim. Sonra istirahət günləri gəldi. Onun keçmiş əri Cerald həmişə istirahət günlərində gəlib uşaqları özü ilə aparardı.

Şənbə günü, təxminən saat 11 radələrində mən maşınımla onun məhəlləsinə gəldim və qapısını döydüm. Onun əynində damdar mavi cins şalvar, çəkmələr və narıncı bluzka vardı. Qonur gözləri həmişə olduğundan daha tünd

görünürdü və o mənə qapını açanda, günəşin işığında onun tünd saçlarının arasında təbii kürən saçların da olduğu diqqətimdən qaçmadı. Şaşırdıcı mənzərə idi. O özünü öpməyə icazə verdi, sonra qapını kilidlədi və biz mənim maşınıma tərəf getdik. Çimərliyə getməyə qərar vermişdik, çimmək üçün yox, qışın oğlan çağı idi, nəsə bir şeylə məşğul olmaq üçün.

Biz yola düşdük. Lidiyanın mənim maşınımda mənimlə yanaşı oturması mənə xüsusi bir zövq verirdi.

– O günkü yaman əla qonaqlıq idi, – o dedi. – Siz o içki məclisinə cildləmə qonaqlığı deyirsiniz? O, əsl cütləşmə gecəsi idi, hə o qonaqlığın əsl adı budur. Cütləşmə gecəsi!

Mən maşını bir əlimlə idarə edir, o biri əlimi isə onun budlarının arasına salmışdım. Özümlə heç cür bacara bilmirdim. Deyəsən, Lidiyanın heç nədən xəbəri yox idi. Biz yolla irəlilədikcə, mənim əlim də onun ayaqlarının arası ilə dərinlərə doğru irəliləyirdi. O isə bir şey olmamış kimi söhbətinə davam edirdi. Birdən o dedi:

– Əlini çək. Bu mənim amımdır!

– Bağışla, – mən dedim.

Venesiya çimərliyindəki maşın duracağına çatana qədər heç birimiz bir söz belə söyləmədik.

– Koka-Kola ilə buterbrod, ya da nəsə başqa bir şey istəyirsənmi? – mən soruşdum.

– Olar, – o cavab verdi.

Biz özümüz üçün yemək almaq üçün balaca bir yəhudi ərzaq dükanına girdik və aldığımız şeyləri də götürüb dənizə gözəl mənzərə açılan ot basmış balaca bir təpəciyə qalxdıq. Bizim buterbrodlarımız, turşu xiyarımız, çipslərimiz və spirtsiz içkilərimiz vardı. Çimərlikdə, demək olar ki, ins-cins yox idi, yeməklərimiz də əla dadırdı. Lidiya danışmırdı. Onun necə sürətlə yeməsini görəndə mən bir xeyli təəccübləndim. O, yırtıcı heyvan iştahası ilə öz buterbrodundan böyük bir dişlək aldı, Koka-Kolanı iri udumlar ilə içdi, bir dişləkdə duzlu xiyarın yarısını qopardı və uzanaraq kartof çipslərindən bir ovuc götürdü. Mən isə, əksinə, öz qidamı tələsmədən yeməyi xoşlayıram.

Ehtiras, mən düşündüm, onun içində qarşısı alınmaz ehtiras var.

– Buterbrod necədər? – mən soruşdum.

– Pis deyil. Mən əməlli-başlı acmışdım.

– Onlar buterbrodları çox əla hazırlayırlar. Yenə nəsə bir şey istəyirsənmi?

– Hə, şokolad pis olmazdı.

– Hansından istəyirsən?

– Eh nə fərqi var. Nə olur-olsun, bircə yaxşısı olsun.

Mən öz buterbrodumdan bir dişlək aldım, Koka-Kolamdan içdim, sonra onları yerə qoydum və dükana tərəf addımladım. Ona seçim imkanı vermək üçün iki fərqli şokolad plitkası aldım. Dükandan çıxıb geri qayıdanda, hündür boylu bir zənci oğlanın bizim təpəciyimizə tərəf hərəkət etdiyini gördüm. Həmin gün hava əməlli-başlı soyuq olsa da, zənci oğlan köynəyini soyunmuşdu və onun oynaq əzələli bədəni vardı. Xarici görünüşünə baxıb onun iyirmi yaşlarında olduğunu təxmin etmək olardı. Çox asta və qamətini dik tutaraq hərəkət edirdi. Onun nazik uzun boynu vardı, sol qulağında da qızıl sırğa asılmışdı. O, təpəciyin okeana baxan tərəfi ilə qumluqla Lidiyanın önündən keçib getdi. Mən təpəciyə gəldim və Lidiyanın yanında oturdum.

– O oğlanı gördünmü? – Lidiya məndən soruşdu.

– Hə, gördüm.

– Aman Allahım, mən burada sənlə oturmuşam, sən isə məndən iyirmi yaş böyüksən. Amma mənim yanımda onun kimi birisi də ola bilərdi. Lənət şeytana, məndə tərs olan şey nədir görəsən?

– Bura bax. Budur iki cür şokolad plitkası almışam. Birini seç.

O, şokolad plitkalarından birisini götürdü, kağızını cırdı, ondan bir dişlək alıb sahil ilə bizdən uzaqlaşmaqdan olan zənci oğlanın arxasınca heyran-heyran baxmağa başladı.

– Bu çimərlik məni bezdirdi, – o dedi, – gəl mənim evimə gedək.

...Biz bir həftə görüşmədik. Sonra bir dəfə gündüz vaxtı Lidiyanın evində idim, biz çarpayıda uzanıb öpüşürdük. Birdən Lidiya geri çəkildi.

– Sən qadınlar haqqında heç nə bilmirsən, elə deyilmi?

– Nə demək istəyirsən?

– Demək istədiyim odur ki, sənin yazdığın şeir və hekayələri oxuyandan sonra deyə bilərəm ki, sən qadınlar haqqında heç nə bilmirsən.

– Danış. İstədiyini de.

– Bilirsənmi? Demək istəyirəm ki, bir kişi məni maraqlandırmaq üçün gərək mənim amımı yesin. Sən heç am yemisənmi?

– Yox.

– 50 yaşını keçmisən və bir dəfə də olsun am yeməmisən?

– Yox.

– Onda çox gecikmisən.

– Nə üçün?

– Qoca itə yeni tryuklar öyrədə bilməzsən.

– Öyrətmək olar.

– Yox, sənin üçün artıq çox gecdir.

– Mən hər şeyə həmişə ləng başlamışam.

Lidiya yerindən qalxıb o biri otağa keçdi. Oradan əlində bir vərəq kağız və karandaşla geri qayıtdı.

– İndi bax, sənə bir şey göstərmək istəyirəm.

O, kağızda rəsm çəkməyə başladı.

– Budur bax, bu amdır və bu isə haqqında sənin anlayışının olmadığını güman etdiyim şeydir – klitor. Bütün hissiyyatın cəm olduğu yer burasıdır. Klitor gizlənir, görürsən, ara-sıra o bayıra da çıxır, onun rəngi çəhrayıdır və çox həssasdır. Bəzən o səndən gizlənəcək və sən onu tapmağa çalışmalısan, ona, sadəcə, dilinin ucu ilə toxun...

– Yaxşı, – deyə mən cavab verdim, – başa düşdüm.

– Sənin bunu edə biləcəyini düşünmürəm. Sənə dedim axı, qoca itə yeni tryuklar öyrədə bilməzsən.

– Gəl paltarlarımızı da soyunub yatağımıza uzanaq.

Biz soyunub yatağa girdik. Mən Lidiyanı öpüşlərə qərq etməyə başladım. Onun dodaqlarından boynuna, sonra isə döşlərinə keçdim. Ondan sonra isə bir az da aşağı enərək onun göbəyinə çatdım və nəhayət, bir az da aşağı endim.

– Yox bacarmayacaqsan, – o dedi. – Oradan qan və sidik çıxır, bir düşün, qan və sidik…

Mən onun dediyi yerə çatdım və yalamağa başladım. O mənim üçün çox dəqiq şəkil çəkmişdi. Hər şey onun cızdığı yerdə idi. Mən, əvvəlcə, onun necə ağır-ağır nəfəs aldığını,

sonra isə inildədiyini eşitdim. Bu səslər məni daha da coşdurdu. Mənimki də dəmir kimi durmuşdu. Klitor bayıra çıxmışdı, onun rəngi tam çəhrayı deyildi, qırmızımtıl çəhrayı idi. Mən klitora əzab verirdim. İfraz olunan şirə amın tüklərinə qarışmışdı. Lidiya isə durmadan elə hey inildəyir, inildəyir, inildəyirdi. Sonra mən bayır qapının açılıb bağlandığını eşitdim. Addım səsləri eşidiləndə, başımı qaldırıb baxdım. Çarpayının yanında 5 yaşlarında balaca bir zənci oğlan uşağı dayanmışdı.

– Lənət şeytana, sənə nə lazımdır? –ondan soruşdum.

– Sizdə boş şüşələr var? – deyə uşaq soruşdu.

– Yox, məndə boş butulka yoxdu, – deyə ona cavab verdim.

O, yataq otağından ön otağa keçdi, sonra da bayır qapısından çıxaraq getdi.

– Aman Allahım, – Lidiya ufuldadı, – elə bilirdim ki, bayır qapı bağlıdır. O, Bonninin balaca oğludur.

Lidiya yataqdan qalxdı və bayır qapını bağladı. Sonra geri qayıdıb yenə yatağa uzandı. Şənbə günün axşam saat təxminən 4 olardı.

Mən yenidən dərinlərə daldım.

6

Lidiyanın əyləncə gecələrindən, qonaqlıqlardan xoşu gəlirdi. Harri isə belə qonaqlıqları verməkdən həzz alırdı. Ona görə də, biz Harri Askotgilə getmək üçün yola çıxmışdıq. Harri "Etiraz" adlı balaca bir jurnalın redaktoru idi. Onun arvadı əyninə uzun və şəffaf paltarlar geyinir, öz qısa tumanını kişilərə nümayiş etdirir və ayağıyalın gəzirdi.

– Səndə ilk xoşuma gələn şey, – Lidiya dedi, – sənin evində televizorun olmaması oldu. Mənim keçmiş ərim hər gecə və bütün istirahət günləri boyu elə hey televizora baxardı. Biz, hətta öz sevişmə saatlarımızı da televizor proqramlarının saatlarına görə tənzimləməli olmuşduq.

– Hmm...

– Sənin evinlə bağlı xoşuma gələn başqa şey isə oranın çirkli olması oldu. Döşəmənin hər yerinə səpələnmiş pivə şüşələri. Hər yerdə çoxlu zir-zibil qalaqları. Çirkli qab-qacaq, tualetindəki unitazın suburaxan halqası və hamamxanadakı vannanı basmış qartmaq. Hamamxanadakı

çanağının ətrafına səpələnmiş bütün paslı ülgüc tiyələri. Mən bilirdim ki, sən am yalamaqdan çəkinməyəcəksən.

– Sən insanlar haqqında onları əhatə edən şeylərə əsasən fikir yürüdürsən, düzdürmü?

– Hə, düzdür. Evində səliqə-səhman olan bir adamla rastlaşanda, onun nəsə bir problemi olduğunu düşünürəm. Əgər onun evi həddən artıq təmizdirsə, o mavidir.

Biz Harrinin evinə çatıb maşından düşdük. Mənzil yuxarı mərtəbədə idi. Musiqinin səsi qulaq batırırdı. Mən qapının zəngini basdım. Qapını Harri Askot açdı. Onun üzündə xoş və alicənab bir təbəssüm vardı.

– İçəri gəlin, – o dedi.

Bütün ədəbi kütlə artıq tam sürətlə əylənirdi, şərab və pivə içə-içə qruplar halında toplaşaraq söhbət edirdilər. Bu mənzərə Lidiyanı əməlli-başlı həyəcanlandırmışdı. Mən bir qədər nəzərlərimi ətrafda gəzdirəndən sonra oturdum. Bir azdan süfrəyə yemək gətiriləcəkdi. Harri balıq tutmaqda yazı yazmaqdan və hətta yazıları redaktə etməkdən qat-qat daha məharətli idi. Askotlar Harrinin istedadının heç olmasa

azacıq gəlir gətirəcəyini gözlədikləri bu müddət ərzində güzəranlarını yalnız balıq ilə keçirirdilər.

Onun arvadı Diana içində balıq olan boşqablar ilə otağa gəldi və onları paylamağa başladı.

– Baxın, – o dedi, – balığı belə yemək lazımdır. Mən kəndli qızıyam. Məni izləyin.

O balığın qarnını yardı və əlindəki bıçaqla onun onurğasına nəsə elədi. Balıq səliqəli şəkildə iki parçaya ayrılmışdı.

– Oh, mənim, həqiqətən, xoşuma gəldi, – Diana dedi. – siz haralı olduğunuzu demişdiniz?

– Yutalıyam. Mulzhed,[2] Yuta. Əhalisi cəmi 100 nəfər. Mən Rançoda böyümüşəm. Mənim atam əyyaş idi. Artıq vəfat edib. Bəlkə də məhz ona görə mən indi onunla birlikdəyəm… O, barmağı ilə mənə tərəf işarə elədi.

Biz yeməyə başladıq.

[2]Hərfi mənası – qatırın başı

Balıqlar yeyildikdən sonra Diana sümükləri yığışdırıb apardı. Sonra süfrəyə şokoladlı tort və tünd (ucuz) qırmızı şərab gəldi.

– Ah, bu tort necə də dadlıdır, Lidiya dedi, – bir tikə də götürə bilərəmmi?

– Əlbəttə, əzizim, – deyə Diana cavab verdi.

– Mister Çinaski, – otağın o biri başından qarasaçlı bir qız səsləndi, – sizin alman dilinə tərcümə edilmiş kitablarınızı oxumuşam. Siz Almaniyada çox məşhursunuz.

– Çox gözəl, – mən dedim, – onlar mənə bir az qonorar da göndərsəydilər bu lap əla olardı...

– Bura baxın, – deyə Lidiya dilləndi, – gəlin bu başağrıdan bədii söhbətlərə girməyək. Gəlin nəsə başqa bir şey edək.

O yerindən sıçrayaraq qalxdı və yoluna çıxan hər şeyi əzib devirərək irəli çıxdı.

– GƏLİN RƏQS EDƏK!

Harri Askot özünün ən xoş və alicənab təbəssümünü nümayiş etdirərək stereonun səsini artırdı. Özü də nəyi var artırdı.

Lidiya otaqda dövrələr vura-vura rəqs etməyə başladı və qıvrım telləri alnına yapışmış sarışın bir cavan oğlan da ona qoşuldu. Onlar birlikdə rəqs etməyə başladırlar. Başqaları da yerlərindən qalxıb rəqsə başladılar. Mən isə oturduğum yeri tərk etməmişdim.

Rendi Evans mənim yanımda oturmuşdu. Onun da Lidiyaya tamaşa etdiyini görə bilirdim. O danışmağa başladı. Elə hey danışır, danışırdı. Yaxşı ki, styereonun səsi çox yüksək olduğundan mən onu eşidə bilmirdim.

Mən Lidiyanın o qıvrımsaç oğlanla rəqs etməsinə tamaşa edirdim. Lidiya hərəkət etməyi bacarırdı. Onun bütün hərəkətlərində seksual məna gizlənirdi. Mən rəqs edən başqa qızlara baxdım. Onların rəqsi belə deyildi. Lakin düşündüm ki, bunun səbəbi Lidiyanı tanımağımda, onları isə tanımamağımdadır.

Rendi hələ də danışmağına davam edirdi, baxmayaraq ki, mən ona cavab vermirdim. Rəqs başa çatdı və Lidiya geri qayıdaraq mənim yanımda oturdu.

– Uffff, tamam əldən düşdüm! Yəqin formamı itirmişəm.

Başqa bir val oxutma yerinə düşdü. Lidiya yerindən qalxdı və sarışın telli oğlana qoşuldu. Mən isə pivə ilə çaxır içməyə davam edirdim.

Orada çoxlu vallar vardı. Lidiya ilə həmin oğlan durmadan otağın mərkəzində rəqs edir başqaları isə onların ətrafında dairəvi hərəkət edirdilər, hər növbəti rəqs isə bir əvvəlkindən daha məhrəmanə, daha intim xarakter alırdı.

Mən əvvəlki kimi pivə ilə çaxır içirdim.

Qulaqbatıran musiqi sədaları altında rəqslər davam edirdi... Sarışın telli oğlan hər iki əlini başının üstünə qaldırmışdı. Lidiya isə bütün bədəni ilə ona sıxılırdı. Bu, dramatik, eyni zamanda erotik bir mənzərə idi. Onlar əllərini başlarının üzərində havada saxlayaraq bədənlərini bir-birinə sıxırdılar. Bədən bədənə. O, növbə ilə ayaqlarını bir-bir arxaya atırdı, Lidiya isə onun hərəkətlərini təkrar edirdi. Onlar bir-birinin düz gözlərinin içinə baxırdılar. Boynuma almalıyam ki, qəşəng görünürdülər. Val isə durmadan elə hey fırlanırdı. Nəhayət ki, o da bitdi.

Lidiya geri qayıtdı və mənim yanımda əyləşdi.

– Həqiqətən, nəfəsim kəsildi, – o dedi.

– Bura bax, – mən dedim, – deyəsən, mən bir qədər çox içmişəm. Bəlkə də bizim artıq bu məclisi tərk etmək vaxtımız çatıb.

– Sənin necə içdiyini görürdüm.

– Gəl gedək. Bundan sonra da belə qonaqlıqlar olacaq.

Biz məclisi tərk etmək üçün yerimizdən qalxdıq. Lidiya Harri ilə Dianaya nəsə dedi. O geri qayıdandan sonra biz qapıya tərəf addımladıq. Mən qapını açanda, sarışın telli oğlan mənə yaxınlaşaraq dedi:

– Hey, adamım, necədi mən və sənin qızın xoşuna gəldikmi?

– Pis deyildiniz.

Biz küçəyə çıxanda mən qusmağa başladım, içdiyim bütün pivə və çaxırın hamısı bədənimi tərk etdi. Mədəmdən bayıra çıxan maye küçə səkisinin kənarında bitmiş kolların üstünə ay işığında fontan kimi tökülürdü. Nəhayət ki, mən qəddimi düzəltdim və ağzımı əlimlə sildim.

– O oğlan səni narahat edirdi, elə deyilmi?

– Hə.

– Niyə?

– Adama elə gəlirdi, elə bil siz rəqs etmir, sevişirsiniz, bəlkə də ondan da artıq.

– Onun heç bir mənası yoxdur, sadəcə, rəqs idi.

– Küçədə bir qadını o cür tutduğumu təsəvvür edirsənmi? Musiqi bu mənzərəni günahsız hala sala bilərmi?

– Sən heç nə başa düşmürsən. Hər dəfə rəqs bitəndə mən geri dönüb sənin yanında otururdum.

– Yaxşı, yaxşı, – mən dedim, – bir dəqiqə gözlə.

Kiminsə son günlərini yaşayan qazonunun üstünə başqa bir qusuntu fontanı buraxdım. Biz yamacla enərək Exo Parkdan Hollivud Bulvarına tərəf getdik.

Maşına mindik. Mühərriki işə saldım və maşını Hollivud ilə qərbə, Vermont istiqamətində sürdüm.

– Sənin kimi adamlara nə ad verdiyimizi bilirsənmi? – Lidiya soruşdu.

– Yox.

– Biz sənin kimiləri, – o dedi, – oyun pozan adlandırırıq.

7

Kanzas Siti üzərində enişə başladıq. Pilot havanın temperaturunun 20 dərəcə olduğunu dedi. Amma mən isə əynimə özümün nazik Kaliforniya idman gödəkcəsini və köynəyini, nazik şalvarlarımı, yay corablarımı, dəlikli ayaqqabılarımı geyinmişdim. Biz yerə enib dayanacaq yerinə tərəf hərəkət edərkən, hamı öz paltosuna, əlcək və şərflərinə tərəf uzanırdı. Hamının təyyarədən düşməsinə imkan verəndən sonra, mən də portativ trap ilə aşağı endim. Orada bir fransızcığaz binaya söykənərək məni gözləyirdi. Bu fransız dram sənətini tədris edir və kitablar toplayırdı, əsasən də mənim kitablarımı.

– Kanzas Şitiyə xoş gəlmisiniz, Çinaski! – o dedi və mənə bir şüşə tekila uzatdı. Mən tekiladan böyük bir udum aldım və sonra onun arxasınca avtoduracağına getdim.

Yanımda heç bir baqaj yox idi. Bircə içi şeirlərlə dolu bir portfeldən başqa. Maşının salonu isti və rahat idi. Biz şüşəni bir-birimizə ötürərək növbə ilə tekila içirdik.

Yolları buz bağlamışdı.

– Bu içinə zibil olmuş buzun üstü ilə hər adam maşın sürə bilməz, – fransız dedi. – Nə etdiyini bilməyin lazımdır.

Mən portfeli açdım və Lidiyanın hava limanında mənə verdiyi sevgi haqqında şeiri fransıza oxumağa başladım:

–... sənin əyilmiş bənövşəyi sikin...

–... sənin sızanaqlarını sıxanda, ordan çıxan irin spermaya bənzəyir...

– Ax ZİBİL! – deyə fransız hiddətlə qışqırdı. Maşın fırlanaraq sürüşməyə başladı. Fransız sükanla manevrlər edirdi.

– Fransız, – tekila şüşəsindən bir udum alaraq dedim, – deyəsən, biz salamat qurtarmayacağıq axı.

Maşın yoldan çıxıb şosse zolaqlarını bir-birindən ayıran xəndəyə düşdük. Mən tekila şüşəsini ona verdim.

Biz maşından düşdük və dırmaşaraq xəndəkdən çıxdıq. Şüşənin içində qalmış tekilanı bir-birimiz ilə paylaşa-paylaşa yoldan keçən maşınlara əl edirdik. Nəhayət, maşınlardan biri dayandı. Maşının sükanının arxasında 20-25 yaşlarında sərxoş bir cavan əyləşmişdi.

– Uşaqlar yolunuz hansı tərəfədir?

– Poeziya gecəsinə, – fransız cavab verdi.

– Poeziya gecəsinə?

– Hə, universitetə.

– Yaxşı, minin.

O spirtli içki taciri idi. Avtomobilin arxa oturacağı ağzınacan pivə qutuları ilə dolu idi.

– Özünüzə pivə açın, – deyə sürücü bizə səsləndi, birini də mənə ötürün.

O bizi getdiyimiz yerə çatdırdı. Biz maşını düz tələbə şəhərciyinin mərkəzinə sürdük və auditoriya zalının önündəki çəmənlikdə saxladıq. Tədbirə cəmi 15 dəqiqə gecikmişdik. Mən maşından düşən kimi qusdum və biz binaya daxil olduq. Bədii qiraətə dözüş gətirməm üçün biz yolda cəmi bir dəfə bir pinta araq almaq üçün dayanmışdıq.

Mən təxminən 20 dəqiqə qiraət etdim, sonra şeir vərəqlərini bir kənara qoydum.

– Bu zibil məni əməlli-başlı bezdirdi, – dedim, – gəlin bir az öz aramızda söhbət edək.

Bu söhbət mənim zala nəsə qışqırmağım və onların da mənə qışqırmaları ilə bitdi. Qarşımdakı tamaşaçı elə də pis deyildi. Onlar bütün bunları müftə edirdilər. Təxminən

yarım saat sonra bir neçə professor məni oradan bayıra çıxardılar.

– Sizin üçün otağımız var, Çinaski, – onlardan biri mənə dedi, – qadın yataqxanasında.

– Qadın yataqxanasında?

– Hə, məni düz başa düşdünüz, çox qəşəng otaqdır.

... Onun söylədikləri düz çıxdı. Dördüncü mərtəbədə. Professorlardan birisi bir az viski gətirmişdi. O biri professor isə mənə qiraət üçün çek, üstəlik də bilet pulunu verdi. Və biz oturub viski içə-içə söhbət eləməyə başladıq. Mən huşumu itirdim. Ayılanda yanımda artıq heç kim yox idi, amma viskinin yarısı hələ qalırdı. Mən orada oturub viski içə-içə düşünməyə başladım: hey, sən Çinaskisən, Çinaski – Əfsanə. Sənin öz imicin var. İndi sən qadın yataqxanasındasan. Burada yüzlərlə qadın var, yüzlərlə.

Əynimdə paltar adlandırıla biləcək şeylərdən yalnız qısa tuman və corablar vardı. Mən dəhlizə çıxdım və ən yaxınlıqdakı qapıya yaxınlaşıb onu döydüm.

– Ey, mən Henri Çinaskiyəm. Ölməz yazar! Qapını açın! Sizə bir şey göstərmək istəyirəm!

Qızların qıqqıltı ilə gülüşdüklərini eşitdim.

– Yaxşı, daşı ətəyinizdən tökün, – mən dedim, – orada neçə nəfərsiniz? 2? 3? Heç fərqi yoxdur. Üç nəfərin də öhdəsindən gələ bilərəm! Problem deyil! Məni eşidirsinizmi? Qapını açın! Mənim BÖYÜK bənövşəyi şeyim var! Bir qulaq asın, mən indi onunla sizin qapınızı döyəcəyəm!

Mən əlimi düyünləyib yumruğumla qapını döydüm. Onlar qaqqıldaşaraq gülməyə davam edirdilər.

– Hə, deməli belə oldu, Siz Çinaskini içəri buraxmaq fikrində deyilsiniz? Onda GEDİN SİKDİRİN!

Mən bəxtimi növbəti qapıda sınadım:

– Ey, qızlar! Sizin qapınızı döyən son 18 əsrin ən yaxşı şairidir! Qapını açın! Sizə bir şey göstərəcəyəm. Sizin vaginal dodaqlarınız üçün şirin ət parçası!

Növbəti qapıya yaxınlaşdım.

Bu minvalla həmin mərtəbədəki bütün qapılarda bəxtimi sınadım, sonra pilləkənlər ilə aşağı, üçüncü mərtəbəyə endim və oradakı bütün qapıları döydüm, sonra yenə aşağı endim və ikinci mərtəbədəki bütün qapıları

döydüm. Viski zəhrimar da yanımda idi və mən əməlli-başlı yorulmuşdum. Öz otağımdan sanki saatlar öncə çıxmışdım. Dəhlizlə irəlilədikcə, viskidən də udumlar almağı unutmurdum. İşlərim heç düz gətirmirdi.

Mən otağımın harada, hansı mərtəbədə olduğunu da unutmuşdum. İndi arzuladığım yeganə şey öz otağıma qayıtmaq idi. Mən yenə bütün qapıları döyməyə başladım, amma bu dəfə daha səssiz və öz qısa tumanım və corablarımdan xəcalət çəkə-çəkə. Yenə də qapını açan olmadı. "Dahi insanlar həmişə yalqız olur".

Dördüncü mərtəbəyə qalxandan sonra bir qapıya yaxınlaşıb onun dəstəyini burdum və qapı açıldı. Budur mənim içində şeirlər olan portfelim... boş içki bardaqları, siqaret kötükləri ilə dolu külqabı... mənim şalvarım, mənim köynəyim, mənim ayaqqabılarım və pencəyim... Çox gözəl mənzərə idi. Qapını örtdüm, çarpayının kənarına oturdum və bayaqdan əlimdə gəzdirdiyim viski şüşəsinin dibini qurutdum.

Oyandım. Artıq gün-günorta idi. Mən iki çarpayılı, pərdəli, televizorlu və vannalı qəribə təmiz bir yerdə idim.

Bura motel otağına bənzəyirdi. Mən yerimdən qalxıb qapını açdım. Bayırda hər yan qar və buz altında idi. Qapını bağladım və ətrafa göz gəzdirdim. Bunun heç bir izahı yoxdu. Harada olduğum haqqında heç bir təsəvvürüm yox idi. Dünənki içkinin xumarlığı hələ keçməmişdi və özümü çox əzgin hiss edirdim. Mən telefonun dəstəyinə tərəf uzandım və Los Ancelesə, Lidiyaya şəhərlərarası zəng sifariş etdim.

– Əzizim, harada olduğumu bilmirəm!

– Mən elə bilirdim sən Kanzas Sitiyə getmisən?

– Hə, elədir. Lakin indi harada olduğumu bilmirəm, başa düşürsənmi? Mən qapını açıb baxdım və donmuş yollardan, qardan və buzdan başqa heç nə görmədim!

– Səni harada yerləşdirmişdilər?

– Son yadımda qalan şey, qadınlar yataqxanasında mənə bir otaq vermişdilər.

– Hə, yəqin sən öz eşşəkliyini göstərmisən, onlar da səni bir motelə köçürüblər. Narahat olma. Yəqin sənin qayğına qalmaq üçün kimsə gələr.

– İlahi, mənim düşdüyüm bu vəziyyətə görə içində mənə qarşı azacıq da olsa şəfqət duymursanmı?

– Özünü eşşək kimi aparmısan. Sən, adətən həmişə özünü eşşək kimi aparırsan.

– "Adətən həmişə" deyəndə, nəyi nəzərdə tutursan?

– Sən, sadəcə, yaramaz əyyaşsan, – Lidiya dedi. – İsti duş qəbul elə.

Lidiya dəstəyi asdı.

Mən isə gedib çarpayıma uzandım. Çox qəşəng motel otağı olsa da, elə bil nəsə çatmırdı. Əgər duşa girsəm, məndən pis adam yoxdur. Televizoru qoşmaq haqqında düşündüm.

Nəhayət, yuxuya getdim…

Kimsə qapını döyürdü. Kandarda məni hava limanına aparmaqdan ötrü iki gülərüzlü kollecli oğlan hazır dayanmışdı. Ayaqqabılarımı geyinmək üçün çarpayının kənarına oturdum.

– Uçuşdan öncə hava limanının barında bir-iki qədəh girlətmək üçün bizim vaxtımız olacaqmı? – deyə mən onlardan soruşdum.

– Əlbəttə, mister Çikanski, – deyə onlardan birisi cavab verdi, – ürəyiniz nə istəsə, edə bilərik.

– Yaxşı, – mən dedim, – onda gəlin burdan arxamıza baxmadan elə cəhənnəm olaq ki heç izimiz-tozumuz da qalmasın.

8

Mən evimə geri döndüm. Lidiyanı bir neçə dəfə qayırdım, onunla dalaşdım və bədii qiraət etmək üçün Los Ancelesin beynəlxalq hava limanından Arkanzasa uçdum. Bəxtim əməlli-başlı gətirmişdi, yanımdakı yerlər tamamilə boş idi. Təyyarənin kapitanı, əgər səhv eşitmədimsə, özünü sərxoşqafa deyə təqdim etdi. Stüardessa yanımdan keçəndə özümə bir qədəh içki sifariş etdim.

Stüardessalardan birisini tanıdığıma əmin idim. O Lonq-Biçdə yaşayırdı, mənim bir neçə kitabımı oxumuşdu, hətta mənə içinə öz şəklini və telefon nömrəsini də qoyduğu bir məktub da göndəribmiş. Mən onu şəklindən tanıdım. Onunla görüşmək mənə heç vaxt müyəssər olmamışdı,

amma ona bir neçə dəfə zəng vurmuşdum və sərxoş gecələrimin birində bir-birimizin üstünə telefonda bağırmışdıq.

Mən gözlərimi onun sağrılarına, baldırlarına və döşlərinə zilləyərək baxanda, o qamətini dik tutaraq özünü məni görmürmüş kimi göstərməyə çalışırdı.

Biz qəlyanaltı etdik. "Həftənin Oyunu"na baxdıq. Qəlyanaltıdan sonra şərab boğazımı qaşındırdığından iki qədəh "Qanlı Meri" sifariş etdim.

Arkanzasa enəndən sonra iki motorlu sınıq-salxaq kiçik bir zibilə mindim. Təyyarənin pərləri işə düşəndə, onun qanadları vibrasiya etməyə və silkələnməyə başladı. Adama elə gəlirdi ki, elə bil qanadlar bu saat qırılıb yerə düşəcəklər. Biz havaya qalxdıq və stüardessa bizdən içki istəyib-istəmədiyimizi soruşdu. Həmin anda artıq hamımızın içki ehtiyacı vardı. O, oturacaqların arasındakı keçiddə ilişə-ilişə, ora-bura ləngər vura-vura içki satırdı. Sonra o ucadan elan etdi:

– İÇKİNİZİ BİTİRİN! İNDİ YERƏ ENƏCƏYİK!

Biz içkimizi bitirdik və təyyarə yerə endi. Təxminən on beş dəqiqə sonra biz yenə havaya qalxmışdıq. Stüardessa yenə bizdən içki istəyib-istəmədiyimizi soruşdu. Həmin anda da hamımızın içki qəbul etməyə ehtiyacı vardı. Sonra o ucadan elan etdi:

– İÇKİNİZİ BİTİRİN! İNDİ YERƏ ENƏCƏYİK!

Professor Piter Cams və onun arvadı Selma məni qarşılamaq üçün hava limanında idilər. Selma kino ulduzuna bənzəyirdi, amma onda daha çox kübarlıq hiss olunurdu.

– Siz çox əla görünürsünüz, – Piter dedi.

– Burada əla görünən birisi varsa, o da sənin arvadındır.

– Qiraətə qədər sənin iki saat vaxtın var.

Pit maşını öz evlərinə sürdü. Onların iki mərtəbəli evi vardı, qonaq otağı birinci mərtəbədə yerləşirdi. Aşağı mərtəbədə mənə yataq otağımı göstərdilər.

– Sən yeməyə bir şey istəyirsənmi, – deyə Piter soruşdu.

– Yox, sağ ol. Mənim ürəyim bulanır.

Biz yuxarı mərtəbəyə qalxdıq.

Səhnə arxasında, mənim səhnəyə çıxmağımdan bir az öncə, Pit su qrafinini vodka və portağal şirəsi ilə doldurdu.

– Qiraət gecəsinə qoca bir qadın rəhbərlik edir. Əgər qiraətdən öncə sənin içdiyindən xəbəri olsaydı, altını batırardı. O pis qarı deyil, amma hələ də poeziyanın qürub və göydə süzən göyərçinlər haqqında olduğunu düşünür.

Mən səhnəyə çıxdım və oxumağa başladım. Mənim naxışım hələ də işləyirdi. Onların da başqa dinləyicilərdən fərqi yox idi: yaxşı şeirlər eşidəndə nə edəcəklərini bilmədikləri kimi, başqa şeirlərə qulaq asanda da lazım olmayan yerlərdə gülürdülər. Mən qiraətə davam edir və qrafindən özümə içki süzürdüm.

– O içdiyin nədir elə?

– Bu, – mən cavab verdim, – həyat gücü ilə qarışdırılmış portağal suyudur.

– Sizin rəfiqəniz varmı?

– Mən bakirəm.

– Siz nə üçün yazar olmaq istədiniz?

– Növbəti suala keçin lütfən.

Mən bir az da oxudum. Mən buraya Kapitan Sərxoşqafa ilə gəldiyim və “Həftənin Oyunu”na baxdığım haqqında onlara danışdım. Bir də onlara dedim ki, ovqatım xoş olanda, mən bir boşqab yeməyin hamısını yeyib dərhal onu yuyuram. Onlara bir neçə şeir də oxudum. Qrafinin dibi quruyana qədər şeirlər oxudum. Sonra bədii qiraət axşamının başa çatdığını elan etdim. Dinləyicilərə bir neçə avtoqraf verəndən sonra Piterin evində düzənlənmiş qonaqlığa getdik...

Mən öz hindu rəqsimi, göbək rəqsimi və Utanmasan-Oynamağa-Nə-Var-Ki rəqsini ifa etdim. Rəqs edə-edə içmək çox çətindir. Və içərkən də rəqs etmək çətindir. Piter nə etdiyini çox gözəl bilirdi. Rəqs edənləri içki içənlərdən ayırmaq üçün o, divan və stulları xüsusi formada düzmüşdü. Bir başqasını narahat etmədən hər kəs öz işi ilə məşğul ola bilərdi.

Pit mənə yaxınlaşdı və otaqdakı bütün qadınlara göz gəzdirdikdən sonra dedi:

– Onlardan hansını istəyirsən?

– Yəni bu belə asandır?

– Bu, sadəcə, cənublu qonaqpərvərliyidir.

Qadınlardan birini gözaltı eləmişdim. Digərlərindən daha yaşlı və dişləri önə çıxan birisini. Amma onun dişləri elə qəşəng önə çıxırdı ki, elə bil o dodaqlar ehtirasla açılmış bir gül idi. Mən öz ağzımın o ağıza qovuşmasını istəyirdim. Onun əynində çox qısa bir ətək vardı və kolqotkaları gözəl qıçlarının formasını büruzə verirdi. Qadın gülüb danışdıqca bu qıçlar gah çarpazlaşır, gah da yan-yana gəlirdi. Arada bir qısa ətəyini nə qədər aşağı dartsa da, paltar heç cür aşağı çəkilmək istəmirdi. Mən onun yanında oturdum.

– Mən, – deyərək sözə başladım...

– Sizin kim olduğunuzu mən bilirəm. Sizin bədii qiraət gecənizdə var idim.

– Sağ olun. Mən sizin amınızı yemək istərdim. Mən bu işdə bir xeyli təcrübəliyəm. Sizi dəliyə döndərə bilərəm.

– Allen Ginzberq haqqında nə düşünürsünüz?

– Bura baxın, məni yolumdan çaşdırmağa çalışmayın. Mən sizin ağzınızı, qıçlarınızı və sağrılarınızı istəyirəm.

– Yaxşı, – deyə qadın cavab verdi.

– Onda görüşənədək. Mən aşağı mərtəbədəki yataq otağında olacam.

Mən yerimdən qalxıb ondan uzaqlaşdım və bir qədəh də içki içdim. Boyu ən azı 1,95 metr olan bir cavan oğlan mənə yaxınlaşdı

– Bura bax, Çinaski, mən sənin xarabalıqda yaşadığın, bütün norkotik alverçilərini, sutenyorları, fahişələri, uybalaları, qumarbazları, küçə döyüşçülərini və əyyaşları tanıdığın haqqında söylənən boş sözlərə inanmıram.

– Qismən də olsa, söylənilənlər doğrudur.

– Boş sözdür, – o dedi və məndən uzaqlaşdı. Ədəbi tənqidçi.

Sonra gözünə sağanaqsız eynək taxmış təxminən 19 yaşında bir sarışın qız üzündə xoş təbəssümlə mənə yaxınlaşdı. Onun üzündən təbəssüm heç əskilmirdi.

– Mən səni qayırmaq istiyirəm, – qız dedi. – Məni sizdə cəlb edən şey üzünüzdür.

– Mənim üzümə nə olub ki?

– O çox vüqarlıdır. Mən onu öz amımla məhv eləmək istiyirəm.

– Birdən hər şey sənin dediyinin əksinə olsa?

– Sizin yerinizdə olsaydım, bu qədər əmin olmazdım.

– Sən haqlısan. Amları məhv eləmək mümkün deyil.

Mən yenə divandakı yerimə döndüm və əyninə qısa ətək geyinmiş Lillianın qıçları və gül ləçəyinə bənzər nəmli dodaqları ilə oynamağa başladım.

Qonaqlıq başa çatdı və mən Lillia ilə birlikdə aşağı mərtəbəyə endim. Biz əynimizi soyunduq və yastıqlara dirsəklənmiş bir vəziyyətdə oturub vodka və vodka kokteyli içməyə başladıq. Otaqda radio vardı və o oxuyurdu. Lilli mənə öz hekayəsini danışdı, danışdı ki, əri kolleci bitirə bilsin deyə uzun illər işləmək məcburiyyətində olmuş, əri isə professor vəzifəsi alan kimi onu boşamışdır.

– Çox pis edib, – mən dedim.

– Siz evli olubsunuzmu?

– Bəli.

– Bəs, nə baş verdi?

– Boşanma haqqında şəhadətnamədə yazıldığına görə, “mental qəddarlıq”

– Bu dorudurmu? – o soruşdu.

– Əlbəttə. Hər iki tərəf üçün də doğrudur.

Mən Lillini öpdüm. Bu çox gözəl oldu, elə mən təsəvvür etdiyim kimi. Gül formalı ağız açıq idi. Biz bir-birimizə sarıldıq, mən onun dişlərini sorurdum. Sonra ayrıldıq.

– Düşünürəm ki, siz, – o, böyük gözləri ilə mənə baxaraq dedi, – bu günümüzün ən yaxşı iki, ya da üç yazarından birisiniz.

Mən cəld yatağın yanındakı lampanı söndürdüm. Bir müddət onu öpdüm, onun döşləri və bədəni ilə oynaqladım, sonra isə onun üstünə çıxdım. Mən sərxoş idim, amma düşünürəm ki, hər şeyin öhdəsindən əla gəlmişdim. Ondan sonra daha mən başqa şey edə bilmirdim. Elə hey onun üstündə atılıb düşürdüm. Şeyim bərkimiş olsa da, mən heç cür qurtara bilmirdim. Nəhayət yorularaq onun üstündən düşdüm və yuxuya getdim...

Səhər Lilli arxası üstə yayılaraq uzanmışdı və xoruldayırdı. Mən hamamxanaya getdim, işədim, dişlərimi fırçaladım və əl üzümü yudum. Sonra yenə ehmalca sivişib yatağıma girdim. Onu özümə tərəf çevirdim və onun bədən

hissələri ilə oynamağa başladım. Səhər-səhər içki xumarlığı zamanı mən həmişə istəkli oluram – özü də yemək üçün yox, sevişmək üçün. Sevişmək içki xumarlığına qarşı əla əlacdır. Yenə hər tərəfim qıcıqlanmağa başladı. Onun ağzından elə pis iy gəlirdi ki, daha bu gül formalı ağıza yaxınlaşmaq istəmirdim. Onun üstünə çıxdım. O astadan inildədi. Mənə görə, hər şey çox yaxşı idi. Məncə, heç iyirimi dəfə ora-bura itələməmiş qurtardım.

Bir müddət sonra onun yerindən qalxıb hamamxanaya keçdiyini eşitdim. O geri qayıdanadək artıq arxamı ona tərəf çevirmişdim və demək olar ki, yuxuya getmişdim.

Təxminən 15 dəqiqə sonra o yataqdan qalxıb geyinməyə başladı.

– Nə olub? –mən soruşdum.

– Mən burdan getməliyəm. Uşaqları məktəbə aparmaq lazımdır.

Lillian qapını bağladı və pilləkənlər ilə yuxarı qaçdı.

Mən yerimdən qalxdım, hamamxanaya keçdim və bir müddət güzgüdə öz əksimə baxdım.

Səhər saat onda qəlyanaltı üçün yuxarı mərtəbəyə qalxdım. Pit və Selmanın da orada olduğunu gördüm. Selma şahanə görünürdü. Selma kimi gözəlləri, görəsən, bunlar haradan tapırdılar? Bu dünyanın itlərinə Selma kimilər qismət olmur. İtlərin qismətinə elə özləri kimi itlər düşür. Selma bizə səhər yeməyi verdi. O çox gözəl qadın idi və ona bir nəfər sahiblənmişdi, kollec professoru. Bilmirəm nədən, amma bu mənə heç də ədalətli gəlmədi. Ziyalı bambılılar, zirək həriflər. Təhsil yeni ilaha, ziyalılar isə istismarçı torpaq sahiblərinə çevrilmişdilər.

– Bu inanılmaz dərəcədə gözəl qəlyanaltı idi, – mən onlara söylədim. – Çox sağ olun.

– Lilli necə idi? – Pit soruşdu.

– Lilli möhtəşəmdi.

– Bu axşam yenə qiraət eləməlisən, bilirsən. Daha balaca və daha konservativ kollecdə.

– Yaxşı. Mən diqqətli olaram.

– Nə oxumağa hazırlaşmısan?

– Yəqin ki, nəsə köhnə şeylərdən.

Biz kofemizi bitirdik və ön otağa keçib oturduq. Telefon zəng çaldı, Pit cavab verdi, bir qədər danışandan sonra mənə tərəf dönüb dedi:

– Yerli qəzetimizin müxbiridir, səndən müsahibə almaq istəyir. Ona nə deyim?

– De ki, yaxşı.

Pit mənim cavabımı ona çatdırdı, dəstəyi asandan sonra yaxınlaşıb mənim son kitabımı və bir qələm götürdü.

– Düşündüm ki, bəlkə burada Lilli üçün nəsə yazmaq istəyərsən.

Kitabın titul vərəqini açdım. "Əziz Lilli", – mən yazdım. "Sən həmişə mənim həyatımın bir parçası olacaqsan!..

Henry Çinaski".

9

Lidiya ilə mən hər zaman dalaşırdıq. O çox yüngülxasiyyət qadın idi və bu da məni əsəbiləşdirirdi. Bir evdən kənarda yemək yeyəndə, mən əmin idim ki, o, gözlərini yeməkxananın o biri ucunda oturmuş hansısa

kişiyə zilləyib. Dostlarım yanıma gələndə və Lidiya da mənim evimdə olanda, onun söhbətlərinin necə intim və seksual xarakter aldığını eşidə bilirdim. O həmişə mənim dostlarıma mümkün olduqca yaxın oturmağa çalışırdı. Lidiyanı isə mənim əyyaşlığım acıqlandırırdı. O seksi çox sevirdi, mənim əyyaşlığım isə bizim sevişməmizi əngəlləyirdi.

– Ya axşamlar sevişmək üçün sən çox içmiş olursan, ya da bunu səhərlər etmək üçün özünü çox pis hiss edirsən, – o həmişə deyərdi. Hatta onun yanında bir şüşə pivə açanda belə Lidiya qəzəbindən əsim-əsim əsirdi. Ən azı həftədə bir dəfə biz onunla "Həmişəlik" ayrılırdıq, lakin hər dəfəsində biz necəsə barışmağa müvəffəq olurduq. O mənim başımın heykəlini yapıb bitirəndən sonra, onu mənə bağışladı. Biz hər dəfə onunla ayrılanda, mən başımın heykəlini maşınımın ön oturacağına qoyub onun evinə gedər və kəlləni onun qapısının önündə, artırmanın üstündə tərk edərdim. Sonra yaxınlıqdakı telefon avtomatından ona zəng edər və deyərdim:

– Sənin qayırdığın zibilə qalmış kəllə qapının önündədir.

Bu kəllə elə beləcə ora-bura gedib gələrdi...

Biz yenə ayrıldıq və mən kəlləni aparıb onun qapısına qoydum. İstədiyim kimi içirdim, çünki artıq azad bir insan idim. Mənim Bobbi adında cavan bir dostum vardı, kifayət qədər yumşaq xasiyyətli, nəzakətli oğlan idi. O, pornoqrafik kitab dükanında işləyirdi, əlavə qazanc üçün isə boş vaxtlarında fotoqraflıq edirdi. Məndən bir neçə məhəllə aralı yaşayırdı. Bobbinin həm özü, həm də arvadı Valeri ilə problemləri vardı. Bir axşam mənə zəng edib dedi ki, gecə bizdə qalması üçün Valerini mənim evimə gətirir. Bu xəbər mənim qulağıma xoş gəldi. Valerinin cəmi 22 yaşı vardı. O çox sevimli, uzun sarışın saçlı, dəlisov mavi gözlü və gözəl qamətli bir qadın idi. Lidiya kimi o da bir müddət dəlixanada yatmışdı. Çox keçmədən onların maşınının mənim həyətimin önündəki çəmənliyə gəldiyini eşitdim. Valeri maşından düşdü. Birdən Bobbinin Valerini ilk dəfə öz valideynləri ilə tanış etməsi haqqında mənə danışdıqlarını xatırladım. Bobbinin valideynləri Valerinin paltarını çox

bəyəndiklərini deyəndə, Valeri onlara – Aha, bəs mənim qalan hissələrim necə? – demiş və paltarının ətəklərini qaldırıb onlara ombalarını göstərmişdi. Sən demə onun əynində qısa tuman yox imiş.

Valeri qapını döydü. Bobbinin uzaqlaşan maşınının səsini eşitdim. Mən qapını açıb onu içəri buraxdım. O çox gözəl görünürdü. Mən su ilə iki skoç süzdüm. Nə o, nə də mən bir söz deyirdim. Biz içkilərimizi içdik və mən bir də süzdüm. Sonra dedim:

– Gəl bara gedək.

Biz mənim maşınıma mindik. "Kley Maşını" barı düz tində yerləşirdi. Həmin həftə bir neçə gün öncə mənə daha içki satılmayacağı haqqında əmr verilmiş olsa da, biz içəri daxil olanda, heç kimdən səs çıxmadı. Biz masalardan birinə oturduq və içki sifariş etdik. Biz hələ də danışmırdıq. Mən, sadəcə, o dəlisov mavi gözlərin içinə baxırdım. Biz yan-yana oturmuşduq və mən onu öpdüm. Onun dodaqları sərin və bir balaca aralı idi. Mən onu bir də öpdüm və ayaqlarımız bir-birinə qısıldı. Bobbinin çox gözəl arvadı vardı. Onu

kiminlə gəldi paylaşdığına görə, Bobbi ağlını itirmiş olmalıydı.

Biz nahar eləmək qərarına gəldik. Hər ikimiz də steyk sifariş elədik və yeməyin gətirilməsini gözlədiyimiz müddətdə gah içdik, gah da öpüşdük. Bufetçi qadın dedi:

– Ah, siz aşiqlərsiniz! – və biz hər ikimiz də gülüşdük. Steyklərimiz gələndən sonra Valeri dedi:

– Mən özümünkünü yemək istəmirəm.

– Mən də özümünkünü yemək istəmirəm, – deyə cavab verdim.

Təxminən bir saat da orada oturub içəndən sonra evə qayıtmağa qərar verdik. Maşını həyətin önündəki çəmənliyə döndərəndə, giriş yolunda bir qadının durduğunu gördüm. Bu, Lidiya idi. O, əlində bir zərf tutmuşdu. Valeri ilə mən maşından düşdük və Lidiya bizə tərəf baxdı.

– Bu kimdir? – Valeri soruşdu.

– Sevdiyim qadın, – deyə cavab verdim.

– Bu fahişə kimdir? – Lidiya var gücü ilə bağırdı.

Valeri geri dönüb yolun kənarındakı səki ilə qaçmağa başladı. Onun hündürdabanlı ayaqqabılarının çıxardığı səsi eşidirdim.

– Hə, içəri gəl görüm, – mən Lidiyaya səsləndim. O mənim arxamca evə girdi.

– Sənə bu məktubu vermək üçün buraya gəlmişəm və belə görürəm ki, lap vaxtında gəlmişəm. O qadın kim idi?

– Bobbinin arvadı. Biz, sadəcə, dostuq.

– Sən onu sikmək fikrində idin, düz demirəmmi?

– Bir dayan görüm, ona səni sevdiyimi dediyimi öz qulaqlarınla eşitdin ki.

– Sən onu sikmək fikrində idin, düz deyirəm?

– Bir dayan, qulaq as əzizim...

Qəfildən o məni itələdi. Mən divanın qarşısında qoyulmuş qəhvə masasının önündə durmuşdum. Mən arxası üstə qəhvə stolunun və qəhvə stolu ilə divanın arasındakı boşluğa yıxıldım. Qapının zərblə çırpıldığını eşitdim. Yerdən qalxmağa macal tapmamış, Lidiyanın maşınının işə düşən mühərrikinin səsini eşitdim. Sonra o maşını sürüb getdi.

Qancıq oğlu, deyə düşündüm, gah sənin iki qadının olur, gah da növbəti an heç biri də.

10

Növbəti gün səhər Eypril mənim qapımı döyəndə, çox təəccübləndim. Eypril Harri Askotun məclisində iştirak edən, amfetamin narkomanı ilə məclisdən gedən və pəhriz saxlayan o qadın idi. Səhər saat 11 olardı. Eypil içəri girdi və oturdu.

– Sizin işlərinizə həmişə heyran olmuşam, – o dedi.

Bir pivə ona, birini də özümə açdım.

– Allah göylərdə qarmaqdır, – o dedi.

– Yaxşı, – mən dedim.

Eypril şaqqa-bədən olsa da, həddən artıq piyli deyildi. Onun iri ombaları və çox böyük sağrıları vardı, saçları isə dümdüz aşağı, arxasına tökülürdü. Ölçülərində nəsə qəribəlik vardı. Adama elə gəlirdi ki, nahamar bədəni ilə o, lap meymunun da öhdəsindən gələr. Onun ağıldan bir balaca əskik olması da məni özünə cəlb edirdi, çünki o, oyun

oynamaq iqtidarında deyildi. Bir ayağını o birinin üstünə aşırdı, ağ və azman budlarını mənə göstərdi.

– Mən yaşadığın çoxmənzilli binanın zirzəmisində pomidor toxumları əkmişəm, – o dedi.

– Yetişəndə bir-iki dənəsini səndən alaram, –mən cavab verdim.

– Mənim heç vaxt sürücülük vəsiqəm olmayıb, – Eypril dedi. – Mənim anam Nyu Cersidə yaşayır.

– Mənim anam isə vəfat edib, –cavab verdim.

Sonra divana yaxınlaşıb onun yanında oturdum. Onu qucaqlayıb öpdüm. Mən onu öpən zaman o düz mənim gözlərimin içinə baxırdı. Mən ondan aralandım.

– Gəl sikişək, – mən ona təklif elədim.

– Məndə yoluxucu xəstəlik var, – deyə Eypril dilləndi.

– Nə?

– Bu bir növ göbələk xəstəliyidir. Ciddi bir şey deyil.

– Mənə də yoluxa bilərmi?

– Bu, bir növ südə bənzər ifrazatdır.

– Deyirəm, mənə də yoluxa bilərmi?

– Məncə, yox.

– Onda gəl sikişək.

– Sikişmək istəyib-istəmədiyimi bilmirəm.

– Özünü lap yaxşı hiss edəsəksən. Hə, gəl yataq otağına keçək.

Eypril yataq otağına keçib paltarlarını soyunmağa başladı. Mən də soyundum. Biz yatağa, mələfələrin altına girdik. Mən onun bədəni ilə oynamağa və onu öpüşlərə qərq eləməyə başladım. Sonra onun üstünə çıxdım. Çox qəribə idi. Onun vaginası elə bil ora-bura hərəkət edirdi. Mən içəri daxil olduğumu bilirdim, hiss edirdim ki, onun içinə daxil olmuşam, lakin durmadan elə hey yana sürüşürdüm, sol tərəfə. Onun üstündə durmadan elə hey işləyirdim. Bu proses məni daha da cuşa gətirirdi. Sonra qurtardım və onun üstündən yana yumalandım.

Bir müddət keçəndən sonra mən onu maşınımla evinə apardım və biz onun mənzilinə qalxdıq. Oturub uzun-uzadı söhbət elədik. Mən yalnız onun ünvanını və mənzilinin nömrəsini yazandan sonra mənzili tərk etdim. Vestibüldən keçərkən mənzillərin poçt qutularını gördüm. Bir zamanlar poçtalyon işləyərkən bura dəfələrlə poçt bağlamaları

gətirmişdim. Binadan çıxıb maşınıma oturdum və sürüb oradan uzaqlaşdım.

11

Lidiyanın iki uşağı vardı; Tonto adında 8 yaşındakı oğlu və bizim ilk seksimizə mane omuş 5 yaşındakı kiçik qızı Liza. Bir axşam biz masa arxasında oturub şam edirdik. Həmin vaxt Lidiya ilə aramızda hər şey yaxşı gedirdi və mən demək olar ki, hər axşam onun evində şam yeməyinə qalırdım, Lidiya ilə gecəni birlikdə keçirir və növbəti gün poçtumu yoxlamaq və bir az da yazılarım ilə məşğul olmaq üçün səhər saat 11-də onun evinə tərk edib öz evimə gəlirdim. Uşaqlar yan otaqda içi su ilə doldurulmuş çarpayıda yatırdılar. Köhnə və balaca bir ev idi, Lidiya onu bir zamanlar yapon güləşçisi, indi isə daşınmaz əmlak işi ilə məşğul olan bir adamdan kirayəyə götürmüşdü. Onun, deyəsən, Lidiyaya gözü düşmüşdü. Bu mənim vecimə deyildi. Əsas olan bu gözəl və köhnə ev idi.

– Tonto, – biz yemək yeyəndə mən dedim, – sənin anan gecələr qışqıranda onu döymədiyimi yəqin ki, bilirsən. Əslində, kimin vəziyyətinin həqiqətən ağır olduğunu da yəqin bilirsən.

– Hə, bilirəm.

– Bəs onda niyə içəri gəlib mənə kömək eləmirsən?

– Ah ha ha, mən ona yaxşı bələdəm.

– Bura bax, Henk, – Lidiya müdaxilə etdi, – uşaqlara mənə qarşı təbliğat aparma.

– O, dünyada ən idbar kişidir, – Liza dedi.

Lizadan xoşum gəlir. Nə vaxtsa, bir gün o çox seksi bir qadın olacaqdı, özü də elə-belə seksi deyil, şəxsiyyətli birisi.

Şam yeməyindən sonra, Lidiya ilə mən yataq otağına keçib yatağa uzandıq. Lidiyanın sızanaq və çivzələri sıxmaqdan dəlicəsinə xoşu gəlirdi. Mənim üzümün dərisi isə çox pis idi. O, lapasını mənim üzümə yaxınlaşdırıb sevdiyi işə başladı. Bu prosesdən mənim də xoşum gəlirdi.

O mənim sızanaqlarımı sıxanda, bəzən bütün bədənim gicişir, bəzən də şeyim bərkiyirdi. Çox intim bir prosesdir. Lidiya sızanaqlarımı sıxarkən arada məni öpməyi də

unutmurdu. Həmişə o, əvvəlcə, mənim üzümdəki sızanaqları sıxır, sonra isə belimdəkilərə və sinəmdəkilərə keçirdi.

Məni sevirsənmi?

– Hə.

– Ufff, hələ bir buna bax!

Bu, ucunda uzun sarı quyruğu olan sızanaq idi.

– Lap əladır, – mən dedim.

O bütün bədəni ilə üstümə uzanmışdı. Lidiya bir anlıq civzə sıxma işinə ara verib mənə baxdı.

– Səni hələ qəbrə də qoyacam, səni piyli dümbələk!

Mən onun bu sözlərinə güldüm. Sonra Lidiya məni öpdü.

– Mən də səni yenə dəlixanaya salacam, – ona dedim.

– Çevril görüm. İmkan ver belinlə də məşğul olum.

Mən çevrilərək qarnı üstə uzandım. O, boynumun dalındakı civzələri sıxdı.

– Axxx, burda çox qəşəng birisi var! Güllə kimi çıxdı! Düz gözümə dəydi!

– Qoruyucu gözlük geyinməlisən.

– Gəl balaca bir Henri düzəldək! Bir düşün, balaca Henri Çinaski.

– Gəl bir az gözləyək.

– Mən uşağı elə indi istəyirəm!

– Gəl bir az gözləyək.

– Bizim elədiyimiz də elə budur: yatırıq, yeyirik, harda gəldi sərələnirik və sonra sevişirik. Lap ilbizlər kimiyik. İlbiz sevgisi, bax mən bunu belə adlandırıram.

– Bu ad xoşuma gəlir.

– Sən əvvəllər burada da yazardın. Sən bir şeylə məşğul idin. Sən bura mürəkkəb gətirərdin və şəkillər çəkərdin. İndi isə evinə gedirsən və bütün maraqlı şeyləri orada eləyirsən. Burda isə sadəcə, yeyirsən, içirsən, yatırsan və səhər açılar-açılmaz çıxıb evinə gedirsən. Bu axmaqlıqdır.

– Bu mənim xoşuma gəlir.

– Gör neçə aydır ki, sənlə heç bir qonaqlığa getmirik! İnsanlar ilə görüşmək çox xoşuma gəlir! Artıq bezmişəm! Elə bezmişəm ki, az qalıram ağlımı itirim! Nəsə eləmək istəyirəm! RƏQS etmək istəyirəm! Yaşamaq istəyirəm!

– Amannnn! Bütün bunlar boş şeylərdi.

– Sən çox qocasan. Sən yalnız bir yerdə oturub qalmağı və bir də hamını və hər şeyi tənqid etməyi xoşlayırsan. Sən heç nə eləmək istəmirsən. Heç nə sənin üçün kifayət qədər yaxşı deyil.

Mən çevrilərək yataqdan çıxdım və ayağa qalxdım. Köynəyimi geyinməyə başladım.

– Sən nə edirsən? – Lidiya soruşdu.

– Burdan cəhənnəm olub gedirəm.

– İstədiyin yerə gedə bilərsən, yol açıqdır! Nəsə bir şey sənin dediyin kimi olmayanda, tez yerindən atılıb aradan çıxırsan. Sən heç nə haqqında oturub danışmaq istəmirsən. Evinə gedib o zəhrimara qalmışı cırılanacan içirsən, sonra da səhərisi gün özünü elə pis hiss edirsən ki, deyirsən bir azdan canın çıxacaq. Bircə o vaxt sənin yadına düşürəm, bircə o hala düşəndə mənə zəng vurursan!

– Mən burdan cəhənnəm olub gedirəm!

– Niyə axı?

– İstənmədiyim yerdə qalmaq istəmirəm. Sevilmədiyim yerdə qalmaq istəmirəm.

Lidiya bir müddət dinməyərək susdu və sonra dedi:

– Yaxşı. Gəl yerinə gir. Gəl işıqları söndürək və sakitcə birlikdə uzanaq.

İndi bir müddət mən susdum və sonra dedim:

– Yaxşı, qoy sən deyən olsun.

Mən əynimdəki paltarların hamısını soyunub odeyalın və mələfənin altına girdim. Mən öz budumu Lidiyanın buduna sıxdım. İkimiz də arxası üstə uzanmışdıq. Sisəy böcəklərinin səsini eşidirdim. Bu ətraflar çox gözəldir. Bir neçə dəqiqə keçdi. Sonra Lidiya dedi:

– Mən dahi birisi olacam.

Mən heç nə demədim. Bir neçə dəqiqə də keçdi. Sonra Lidiya sıçrayaraq yerindən qalxdı. Birdən o əllərini tavana tərəf qaldırıb havada oynada-oynada ucadan bağırdı:

– MƏN HƏQİQƏTƏN DAHİ BİRİSİ OLACAM! NECƏ BİR DAHİ OLACAĞIMI HEÇ KİM BİLMİR!

– Yaxşı, – mən dedim.

Sonra o alçaq səslə əlavə etdi:

– Sən heç nə anlamırsan. Mən dahi olacağam. Mənim potensialım sənինkindən böyükdür!

– Potensial, – mən dedim, – heç nə demək deyil. Sən nəsə bir iş görməlisən. Bəlkə də beşikdə yatan hər körpənin potensialı mənimkindən çoxdur.

– Amma mən bunu EDƏCƏYƏM! MƏN HƏQİQƏTƏN DAHİ BİRİSİ OLACAM!

– Yaxşı, – mən dedim. – Hələlik isə gəl yerinə gir.

Lidiya yenə yatağa qayıtdı. Biz bir-birimizi heç öpmədik də. Sekslə də məşğul olmayacaqdıq. Özümü çox yorğun hiss edirdim. Sisəy böcəklərinə qulaq asırdım. Nə qədər vaxt keçdiyi haqqında heç bir fikrim yox idi. Lidiya qəfildən qalxıb yataqda oturanda, tam olmasa da, demək olar ki, yuxuya getmişdim. Və birdən o bağırdı. Bu qışqırığın səsi çox ucadan oldu.

– Yenə nə olub? – deyə ondan soruşdum.

– Səsin çıxmasın.

Mən yerində uzanıb gözləməyə başladım. Lidiya isə tərpənmədən yerində oturmuşdu, məncə, təxminən on dəqiqə. Sonra özünü yenidən yastığın üstünə atdı.

– Mən Allahı gördüm, – o dedi, mən elə indicə Allahı gördüm.

– Bura bax, səni qancıq, sən, deyəsən, məni dəli eləmək fikrindəsən!

Mən yerindən qalxıb paltarlarımı geyinməyə başladım. Bərk qəzəblənmişdim. Qısa tumanımı heç cür tapa bilmirdim. Cəhənnəm olsunlar, deyə düşündüm. Hara atmışamsa, qoy elə orda da qalsınlar. Əynimi tamam geyinəndən sonra stulda oturub yalın ayaqlarıma ayaqqabılarımı geyinirdim.

– Sən nə edirsən? – Lidiya soruşdu.

Ona cavab verə bilmədim və ön otağa keçdim. Mənim paltom stulun söykənəcəyindən asılmışdı. Onu götürüb geyindim. Lidiya qaçaraq ön otağa əynində mavi penuar, qısa tumanda, özü də ayağı yalın gəlmişdi. Onun topuqları çox iri idi. Onları gizlətmək üçün o adətən ayağına çəkmələr geyinərdi.

– SƏN HEÇ YERƏ GETMƏYƏCƏKSƏN! – deyə Lidiya nəyi var bağırdı.

– Zəhrimar, – mən dedim, mən burdan gedirəm.

O qəfildən mənim üstümə atıldı. O, adətən, mən sərxoş olanda mənim üstümə hücum çəkirdi. Amma indi mən

sərxoş deyildim. Mən cəld kənara çəkildim, o, döşəməyə çırpıldı və çevrilərək arxası üstə uzandı. Mən onun üstündən adlayaraq bayır qapısına tərəf addımladım. Qəzəbindən onun ağzı köpüklənirdi, o dişlərini qıcadaraq vəhşi heyvan kimi nərildəyirdi. Həmin an o dişi bəbirə bənzəyirdi. Mən üstdən aşağı ona baxdım. O, yerdə belə uzandığına görə özümü daha təhlükəsizlikdə hiss etdim. O bərkdən bir nərə çəkdi və mən qapıdan çıxmaq istəyəndə, əlini uzadıb dırnaqlarını paltomun qoluna keçirdi, onu var gücü ilə özünə tərəf çəkərək dibindən qopardı. Paltomun qolu çiyin yerindən qopmuşdu.

– Aman Allahım, – mən dedim, – bax gör mənim yeni paltomun qolunu neylədin! Axı bunu lap yenicə almışdım!

Mən qapını açdım və bir qolum açıq şəkildə özümü bayıra atdım.

Maşının qapısını açar-açmaz, arxamda onun yalın ayaqlarının asfaltda necə şappıldadığını eşitdim. Mən cəld maşının içinə atıldım, qapını kilidlədim və dərhal starterə basdım.

– Mən bu maşını məhv edəcəyəm! – deyə o bağırdı. – Mən bu maşını məhv edəcəyəm!

O, yumruqları ilə kapotu, damı və ön şüşəni döyəcləyirdi. Ona xəsarət yetirməmək üçün mən maşını astaca irəli verdim. Mənim 62-ci il istehsalı olan "Merküri-Kometa"m sökülüb dağıldığından bu yaxınlarda 67-ci ilin folksvagenini almışdım. Mən onu həmişə təmiz saxlayırdım, silib parıldadırdım. Saxlanc yerində, hətta lələkli süpürgəm də vardı. Mən yavaş-yavaş irəlilədikcə, Lidiya yumruqları ilə maşını döyəcləməyə davam edirdi. Ondan bir balaca aralanan kimi, sürət ötürücüsünü ikinci pilləyə atdım. Arxa görünüş güzgüsünə baxanda, əynində mavi penuar, qısa tumanda onun ay işığında tərpənmədən yapyalnız dayandığını gördüm. Bütün içim alt-üst oldu. Birdən özümü xəstə, lazımsız və bədbəxt hiss etdim. Mən ona aşiq olmuşdum.

12

Evimə getdim və içməyə başladım. Radionu qoşdum. Nəsə klassik bir musiqi tapdım. Koulman lampasını şkafdan

çıxardım. İşıqları söndürdüm və Koulman lampası ilə oynamağa başladım. Koulman lampası ilə bir çox oyunlar çıxarmaq mümkündür. Məsələn, onu yandırıb söndürmək olar, ya da fitilin istiliyindən onun necə alışdığına tamaşa etmək olar. Həmçinin lampanı pompalayaraq içindəki təzyiqi artırmaqdan çox xoşum gəlirdi. Bundan əlavə, sadəcə, ona tamaşa etmək özü də adama ləzzət verirdi. Mən içirdim və lampaya tamaşa edirdim, musiqiyə qulaq asır, siqar çəkirdim.

Birdən telefon zəng çaldı. Bu Lidiya idi.

– İndi sən neyləyirsən?

– Elə-belə oturmuşam.

– Sən indi elə-belə oturub içki içirsən, simfoniya musiqisinə qulaq asırsan və o lənətə gəlmiş Koulman lampası ilə oynayırsan!

– Hə, düz tapdın.

– Geri qayıdacaqsanmı?

– Yox.

– Yaxşı, içə bildiyin qədər iç! İç və sonra da xəstələn! Özün çox yaxşı bilirsən ki, bir dəfə o zibil az qala səni qəbirə salacaqdı. Xəstəxana yadına gəlirmi?

– Oranı heç vaxt unutmaram.

– Yaxşı, bildiyini elə, iç, İÇ! ÖZÜNÜ MƏHV ELƏ! BAXARSAN MƏNİM HEÇ VECİMƏ DƏ OLMAYACAQ!

Lidiya telefonun dəstəyini asdı, elə mən də. İçimdə bir hiss mənə deyirdi ki, Lidiya mənim mümkün ölümümdənsə, gələn dəfə kiminlə sikişəcəyi ilə bağlı daha çox narahatlıq keçirir. Amma mənim tətilə ehtiyacım var. İstirahətə ehtiyacım var. Lidiya həftədə ən azı beş dəfə qayrışmağı xoşlayırdı. Mən isə üç dəfəyə üstünlük verirdim. Yerimdən qalxdım və yemək küncünə getdim, orada masanın üstündə yazı makinam vardı. İşığı yandırdım, masanın arxasına oturdum və Lidiyaya dörd səhifədən ibarət bir məktub yazdım. Sonra hamamxanaya keçdim, ülgücü götürdüm, geri döndüm və oturub araqdan yaxşıca vurdum. Daha sonra isə ülgüclə sağ əlimin orta barmağını yüngülcə çərtdim. Qan axmağa başladı. Məktubun altına qanımla imza atdım.

Sonra döngədəki poçt qutusunun yanına gedib məktubu atdım.

Bir neçə dəfə telefon zəng çaldı. Zəng vuran yenə Lidiya idi. O, müxtəlif şeylər söyləyərək mənim üstümə bağırırdı.

– Mən RƏQS etməyə gedirəm! Sən evində oturub zəhərləndiyin vaxt mən burada tək-tənha oturmaq fikrində deyiləm!

Mən ona dedim:

– Sən mənim içki içməyimi başqa bir qadınla gəzməyim ilə eyni tutursan.

– İçməyin daha da pisdir!

O dəstəyi asdı.

Mən içməyimə davam etdim. Yatmaq istəmirdim. Tezliklə gecə yarısı oldu, sonra gecə saat 1, 2. Koulman lampası isə hələ də yanırdı...

Saat 3:30-da telefon zəng çaldı. Yenə Lidiya idi.

– Sən hələ də içirsən?

– Əlbəttə!

– Ax səni murdar qancıq oğlu!

– Əslində, sən zəng vuranda, mən elə indicə “Katti Sark” şüşəsinin sellofanını qoparırdım. Əla içkidi. Onun necə gözəl olduğunu görməliydim!

O yenə dəstəyi atdı. Mən özüm üçün bir içki də qarışdırdım. Radioda gözəl bir musiqi çalınırdı. Mən arxaya söykəndim. Özümü əla hiss edirdim.

Qapım zərblə açıldı və Lidiya qaça-qaça otağa daxil oldu. O, güclə nəfəs alıb, tövşüyə-tövşüyə otağın ortasında dayanmışdı. İçki şüşəsi qəhvə masasının üstündəydi. İçki şüşəsini görən kimi, Lidiya cəld bir hərəkətlə onu qamarladı. Mən isə yerimdən sıçrayaraq Lidiyanı qamarladım. Mən sərxoş, Lidiya isə qəzəbindən ağlınıitirmiş vəziyyətdə olanda, biz demək olar ki, tən gələrdik. Lidiya şüşəni məndən uzaq tutmaq üçün onu boyu çatdığı qədər yuxarı qaldırıb şüşə ilə birlikdə qapıdan bayıra çıxmaq istəyirdi. Mən onun şüşə tutan qolundan yapışdım və şüşəni onun əlindən almağa çalışdım.

– SƏNİ FAHİŞƏ! SƏNİN BUNA HAQQIN YOXDUR! O LƏNƏTƏ GƏLMİŞ ŞÜŞƏNİ MƏNƏ VER!

Sonra bir beləcə güləşə-güləşə artırmaya çıxdıq. Pilləkənlərdə ayaqlarımız ilişdi və səkiyə yıxıldıq. Butulka zərblə yerə dəyib çilik-çilik oldu. Lidiya cəld ayağa qalxıb qaçdı. Onun maşınının işə düşdüyünü eşitdim. Mən isə yerdə uzanıb sınmış butulkaya baxırdım. Sınmış butulka məndən cəmi bir addım aralıda idi. Lidiya maşınını sürərək getdi. Ay hələ də səmada parlayaraq işıq saçırdı. Sınmış şüşədən qalan qırığın dibində bir udum skoç qaldığını gördüm. Yerdə uzanmış vəziyyətdə əlimi uzadıb onun götürdüm və ağzıma yaxınlaşdırdım. Qırığın dibində qalmış skoçu içəndə, qırıq şüşənin uzun ucu az qala gözümü çıxarmışdı. Sonra yerimdən qalxıb içəri keçdim. İçimdə dözülməz bir susuzluq hiss edirdim. Otaqda gəzə-gəzə boş pivə şüşələrini yığır, onların içində qalan damcıları içirdim. Boş pivə şüşələrindən birisini başıma çəkəndə ağzıma siqaret külü getdi. Bəzən onlardan külqabı kimi də istifadə edirdim. Saat artıq səhər 4:14-ü göstərirdi. Mən oturub saata baxırdım. Elə bil yenə poçt idarəsində işləyirdim. Zaman elə bil dayanmış, varlıq isə nəbz kimi döyünən dözülməz bir şeyə çevrilmişdi. Mən isə gözləyirdim. Mən isə gözləyirdim.

Mən isə gözləyirdim. Mən isə gözləyirdim. Nəhayət ki, saat səhər 6 oldu. Özümü döngədəki şərab dükanına çatdırdım. Satıcı dükanı yenicə açırdı. O məni içəri buraxdı. Mən bir dənə də "Katti Sark" skoç şüşəsi aldım. Sonra evə qayıtdım, qapını kilidlədim və Lidiyaya zəng vurdum.

– Burada mənim bir dənə də "Katti Sark" şüşəm var və elə indi onun sellofanını cırıram. Oturub yaxşıca içəcəm. Şərab dükanı isə hələ bundan sonra 20 saat açıq olacaq.

O, dəstəyi atdı. Bir qədəh skoç içdim, sonra isə yataq otağına keçib çarpayıya uzandım və elə əynimdəki paltarlarla da yuxuya getdim.

13

Bir həftə sonra yanımda Lidiya ilə maşınımı Hollivud Bulvar ilə sürürdüm. O zaman Kaliforniyada çıxan həftəlik əyləncə jurnalından mənə Los-Ancelesdə yazarın həyatı ilə bağlı bir məqalə yazmaq sifariş edilmişdi. Mən həmin məqaləni yazmışdım və onu redaksiyaya vermək üçün gedirdim. Biz maşını Mosli Skverdə dayanacağa qoyduq. Mosli Skver musiqi nəşriyyatçılarının, agentlərin,

antreprenörlərin və onlara bənzər başqa insanların bahalı bunqalolardan ofis kimi istifadə etdikləri bir məhəlləydi. Bu məhəllədə icarə haqları çox yüksək idi.

Biz bunqalolardan birinə daxil olduq. Masanın arxasında çox gözəl bir qız oturmuşdu – o, təhsilli və soyuqqanlı görünürdü.

– Mən Çinaskiyəm, – dedim, – və bu da mənim məqaləm.

Yazını masanın üstünə atdım.

– Ah, mister Çinaski, mən həmişə sizin yazılarınıza valeh olmuşam!

– Burda içmək üçün bir şey tapılarmı?

– Bircə dəqiqə...

O, xalı döşənmiş pilləkənlərlə üst mərtəbəyə qalxdı və əlində bahalı bir qırmızı şərab şüşəsi ilə geri qayıtdı. Şüşəni açdı və xəlvəti-bardan bir neçə qədəh çıxardı. Onunla yatağa girə bilsəm, nə gözəl olardı, deyə düşündüm. Amma bu imkansız görünürdü. Bununla belə, kimsə onunla müntəzəm olaraq yatağa girirdi.

Biz oturub şərablarımızdan balaca udumlar alırdıq.

– Biz tezliklə sizə məqalə haqqında məlumat verəcəyik. Onu qəbul edəcəyimizə mən əminəm... Lakin siz mənim təsəvvürümdə canlandırdığım kimi deyilsiniz...

– Bununla nə demək istəyirsiniz?

– Sizin necə mülayim səsiniz var. Siz necə də yaraşıqlısınız.

Lidiya güldü. Biz şərabımızı bitirəndən sonra oranı tərk etdik. Biz mənim maşınıma tərəf addımlayarkən kiminsə məni arxadan səslədiyini eşitdim.

– Henk!

Mən dönüb ətrafa baxdım və birdən yeni bir mersedesin içində Di Di Bronsonun oturduğunu gördüm.

– İşlər necədir, Di Di?

– Pis deyil. “Kapital Rekordz”dan istefa etdim. İndi bax oradakı yerə rəhbərlik edirəm, – deyərək Di Di əli ilə bizə göstərdi. Bu, daha bir musiqi şirkəti idi, həm də çox məşhur. Baş ofisi də Londonda. Di Di əvvəllər öz oğlanı ilə mənim evimə tez-tez gələrdi. O zamanlar bizim hər ikimizin də Los-Ancelesin gizli qəzetlərindən birində köşələrimiz vardı.

– Aman Allahım, deməli, sənin işlərin əladır, – mən dedim.

– Hə, ancaq...

– Ancaq nə?

– Ancaq mənim bir adama ehtiyacım var. Özü də yaxşı bir adama.

– Elə isə öz telefon nömrəni mənə ver ki, baxım görüm sənin üçün belə bir adam tapa bilirəm, ya yox.

– Yaxşı.

Di Di bir kağız parçasına telefon nömrəsini yazdı və mən onu öz portmanemə qoydum. Sonra Lidiya ilə mən ondan aralandıq, mənim köhnə "Foksvagen"imə tərəf getdik və maşına oturduq.

– Sən ona zəng edəcəksənmi? – Lidiya məndən soruşdu. – Sən bu nömrəyə zəng edəcəksən?

Mən maşının mühərrikini işə saldım və Hollivud Bulvara çıxdım.

– Sən bu nömrəyə zəng edəcəksən, – Lidiya dedi. – Mən bilirəm ki, sən o nömrəyə zəng edəcəksən!

– Bəsdi boş-boş çərənləyib başımı ağrıtdın! – dedim.

Belə görünürdü ki, bizi qabaqda daha bir pis gecə gözləyirdi.

14

Yenə dalaşmışdıq. Bir müddət sonra mən öz evimə qayıtmışdım, amma evdə tək-tənha oturub içmək arzum yox idi. Həmin gecə löhrəm yerişli atların yarışı vardı. Özümlə bir şüşə skoç götürüb yarışlara baxmağa getdim. Oraya vaxtından bir qədər tez çatdığımdan oturub düşünməyə, fikirlərimi səhmana salmağa vaxtım oldu. Birinci yarış başa çatanda, nə qədər təəccüblü də olsa, mənim şüşəm yarıdan keçmişdi. İçkini isti qəhvə ilə qarışdırdığımdan, o yağ kimi gedirdi.

Mən ilk dörd yarışın üçündə qalib gəldim. Bir qədər sonra ekzaktanı (bir yarışda həm qalibə, həm də ikinci gələnə pul qoymaq) da qazandım və 5-ci yarışın sonunda təxminən $200 dollar qabağa düşmüşdüm. Bara getdim və oradakı totalizator lövhəsindən oynamağa davam etdim. Həmin gecə onlara mənə “yaxşı lövhə” deyə biləcəyim şeyi

vermişdilər. Lidiya bütün bu nağd pulları necə çəkib apardığımı görsəydi, altını batırardı. Lidiya mənim cıdırda pul udmağımı heç cür həzm edə bilmirdi, xüsusilə də özü uduzanda.

Mən içməyə və yarışa pul qoymağa davam edirdim. 9-cu yarış başa çatanda, həm $950 dollar udmuşdum, həm də lül-qəmbər olmuşdum. Mən portmanetimi yan ciblərimin birinə qoyub ləngər vura-vura maşınıma tərəf getdim.

Maşına oturdum və uduzanların maşın duracağından çıxmaqlarına tamaşa etməyə başladım. Duracaqdakı maşın axını seyrələnə qədər gözlədim. Nəhayət, mühərriki işə saldım. Cıdırın düz yaxınlığında bir supermarket vardı. Duracağın o biri başında işığı yanan bir telefon budkası gördüm, ona yaxınlaşıb maşından düşdüm. Telefon köşkünə girdim və Lidiyaya zəng vurdum.

– Qualq as, – mən dedim, – qulaq as, qancıq. Mən at yarışına baxmaq üçün cıdıra getdim və $950 dollar pul uddum. Mən qalibəm! Mən həmişə qalib olacam! Sən mənə layiq deyilsən, qancıq! Sən mənimlə oyun oynayırdın! Hə, indi bu oyunlar da bitdi! Daha bəsdir! Cana doydum! Daha

nə sən, nə də sənin lənətə gəlmiş axmaq oyunların mənə lazımsınız! Nə dediyimi anladınmı? Verdiyim ismarışı aldınmı? Yoxsa sənin başın topuqlarından da qalındır?

– Henk…

– Nədi?

– Bu Lidiya deyil. Bu Bonnidir. Lidiya evdə olmadığından uşaqlarla mən oturmuşam. Bu gecə o gəzməyə gedib.

Mən dəstəyi asdım və maşınıma tərəf addımladım.

15

Səhər tezdən Lidiya mənə zəng etdi.

– Hər dəfə sən içib əyyaşlıq edəndə, – o dedi, – mən rəqs etməyə gedəcəyəm. Keçən gecə "Qırmızı Çətir"ə getmişdim və kişiləri rəqsə dəvət edirdim. Qadınların buna haqqı var.

– Sən fahişəsən.

– Hə? Əgər fahişədən daha pis bir şey varsa, o da darıxmaqdır.

– Əgər darıxmaqdan daha pis bir şey barsa, o da darıxdırıcı fahişədir.

– Əgər sənə mənim amım lazım deyilsə, – o dedi, – onu kimsə başqasına verərəm.

– Bu sənin ixtiyarında olan bir şeydir.

– Rəqsdən sonra mən Marvini görməyə getdim. Mən onun rəfiqəsinin ünvanını almaq və onunla görüşmək istəyirdim. Fransina ilə. Yadındadırsa, bir gecə sən özün də onun rəfiqəsini görməyə getmişdin, – Lidiya dedi.

– Bura bax, mən o qızı heç vaxt qayırmamışam. Qonaqlıqdan sonra evə getmək üçün mən, sadəcə, çox sərxoş idim. Biz heç öpüşmədik də. O mənə divanında yatmağa icazə verdi və səhər tezdən mən öz evimə qayıtdım.

– Bunun mənimçün heç bir fərqi yoxdur. Amma Marvinin evinə çatanda, Fransinanın ünvanını almaq fikrindən daşındım.

Marvinin valideynləri varlı adamlardılar. Onun evi düz sahilin qarşısındaydı. Marvin şeirlər yazırdı. Özü də bir çoxlarından yaxşı yazırdı. Marvindən xoşum gəlirdi.

– Hə, ümid edirəm ki, vaxtını xoş keçirmisən, – mən dedim və dəstəyi asdım.

Dəstəyi asmağımla telefonun yenə zəng çalması bir oldu. Bu dəfə zəng vuran Marvin idi.

– Ey, tap görüm dünən gecədən bir xeyli keçmiş bizə gələn kim idi? Lidiya. O mənim pəncərəmi döydü, mən də onu içəri buraxdım. O mənim şeyimi durğuzdu.

– Yaxşı, Marvin. Mən hər şeyi başa düşürəm. Səni də günahlandırmıram.

– Sən mənə qəzəblənmirsən?

– Sənə yox.

– Onda sağ ol...

Mən kəllə heykəlini götürüb maşınıma qoydum. Maşını düz Lidiyanın evinin qabağında saxladım və kəlləni onun qapısının qabağına qoydum. Heç qapının zəngini də basmadım. Elə ordan uzaqlaşmaq istəyirdim ki, qapıdan Lidiya çıxdı.

– Sən niyə belə haramzadasan axı? – Lidiya dedi.

Mən geri çevrildim.

– Sən heç seçici deyilsən. Sənə görə fərqi yoxdur kim olur, olsun – bircə kişi olsun. Mən sənin arxanca poxlarını yığışdıran deyiləm.

– Mən də sənin poxlarını yığışdıran deyiləm!– deyə o bağırdı və qapını çırparaq bağladı.

Mən maşınıma tərəf getdim, mindim və mühərriki işə saldım. Sürət rıçaqını birinci pilləyə keçirdim. O yerindən tərpənmədi. İkiyə atdım. Yenə tərpənmədi. Sonra yenə birə atdım. Əyləcin buraxıldığına əmin olmaq üçün bir də yoxladım. Maşın yenidən tərpənmidi ki tərpənmirdi. Rıçaqı arxaya hərəkət pilləsinə atdım. Maşın arxaya hərəkət edirdi. Əyləcə basıb onu saxladım və sürət rıçaqını birinci pilləyə atdım. Maşın yenə tərpənmədi. Mən hələ də Lidiyaya çox acıqlı idim. Ona görə də düşündüm ki, bu lənətə gəlmiş arabada evə qədər dal-dalı gedəcəyəm. Sonra yolda məni saxlayacaq və nə pox yediyimi soruşacaq polislər haqqında düşündüm. Hə, cənab polislər, başa düşürsünüzmü, mən öz rəfiqəm ilə dalaşmışam və evə qayıtmağım üçün indi bu yeganə çıxış yoludur.

Daha Lidiyaya o qədər də acığım tutmurdu. Maşından çıxdım və qapıya tərəf getdim. O, kəlləmin heykəlini evə aparmışdı. Qapını döydüm. Lidiya qapını açdı.

– Bura bax, – mən dedim, – bəlkə sən cadugərsən?

– Yox, mən fahişəyəm, unutmusan?

– Sən məni evimə aparmalısan. Mənim maşınım ancaq dal-dalı gedir. Elə bil bu lənətə gəlmiş dəmir yığınına cadu oxuyublar.

– Sən nə danışırsan, ciddisən?

– Mənimlə gəl, indi sənə göstərərəm.

Lidiya mənim arxamca maşının yanına gəldi.

– Sürət qutusu normal işləyirdi. Sonra birdən maşın ancaq geriyə getməyə başladı. Mən evə dal-dalı getmək fikrindəydim.

Maşına mindim.

– İndi özün bax.

Mühərriki işə saldım və sürət ötürücüsünün rıçaqını birinci pilləyə keçirib muftanı buraxdım. Maşın qəfildən irəli atıldı. Rıçaqı ikinci pilləyə keçirdim. Rıçaq keçən kimi maşın daha sürətlə hərəkət etməyə başladı. Sonra üçə atdım,

maşın çox rəvan hərəkət edirdi. Mən sükanı çevirib maşını döndərdim və geri qayıdıb küçənin əks tərəfində saxladım. Lidiya maşına yaxınlaşdı.

– Qulaq as, sən mənə inanmalısan. Bir dəqiqə öncə bu zibil yalnız geriyə hərəkət edirdi. İndi isə hər şey qaydasında görünür. Lütfən, mənə inan.

– Səni inanıram, – o dedi. Bu Allahın işidir. Mən belə şeylərə inanıram.

– Bunun nəsə bir anlamı olmalıdır.

– Əlbəttə, mənası var.

Mən maşından çıxdım və biz birlikdə onun evinə getdik.

– Köynəyini və ayaqqabılarını soyun, Lidiya dedi, – və çarpayıya uzan. Əvvəlcə, sənin sızanaqlarını sıxmaq istəyirəm.

16

Daşınmaz əmlak biznesi ilə məşğul olan keçmiş yapon güləşçisi Lidiyanın evini satdığından, Lidiya evi boşatmaq

məcburiyyətində qalmışdı. Lidiya ilə birlikdə bu evdə Tonto, Liza və onların Baqbatt adlı iti yaşayırdı. Los Ancelesdəki ev sahiblərinin böyük əksəriyyəti qapıdan eyni nişanı asırdılar: YALNIZ YETKİNLƏR ÜÇÜN. İki balaca uşaq və itlə ev tapmaq çox müşkül bir iş idi. Yalnız Lidiyanın cazibədarlığı onun karına gələ bilərdi. Deməli, bizə erkək ev sahibi lazım idi.

Onları maşınıma mindirib bütün şəhəri gəzdirdim. Heç bir xeyri olmadı. Çox yerdə mən gözə görünməmək üçün maşından düşmürdüm. Amma bu priyomum da işə yaramadı. Biz maşınla şəhəri gəzərkən, Lidiya pəncərədən qışqırırdı:

– Bu şəhərdə iki uşağı və bir iti olan bir qadına evini kirayə verəcək bir kimsə varmı?

Gözlənilmədən mənim yaşadığım həyətdə bir boş ev tapdıq. İnsanların köçdüyünü gördüm və dərhal gedib missis O'Kif ilə danışdım.

– Missis O'Kif, – dedim, – mənim rəfiqəmə ev lazımdır. Onun iki uşağı və bir iti var, amma onlar hamısı

çox tərbiyəlidirlər və özlərini yaxşı aparacaqlar. Onlara icazə verərsinizmi bu evə köçsünlər?

– Mən o qadını görmüşəm, – missis O'Kif dedi. – Onun gözlərinə diqqət vermisənmi? O dəlidir axı.

– Onun dəli olduğunu mən də bilirəm, amma onun bu vəziyyətinə biganə qala bilmərəm. Onun çox gözəl xüsusiyyətləri də az deyil, həqiqi sözümdü.

– O sənin üçün çox cavandı! O cür cavan qadın sənin nəyinə lazımdı?

Bu sözləri eşidəndə güldüm.

Mister O'Kif arxadan arvadına yaxınlaşdı və setkalı qapıdan mənə baxdı.

– O, am dəlisidir, vəssalam. Burda çətin başa düşüləsi nə var ki, o am dəlisidir.

– Yaxşı, bəs ev necə olacaq? – mən soruşdum.

– Yaxşı.., yaxşı, – mister O'Kif dedi. – Gətir onu...

Beləliklə, Lidiya bir qoşqu kirayələdi və mən onu təzə evə köçürdüm. Onun əşyaları əsasən, pal-paltardan, düzəltdiyi baş heykəlləri və bir də böyük bir paltaryuyan maşından ibarət idi.

– Missis O'Kifdən heç xoşum gəlmir, – Lidiya dedi. – Onun əri normal görünür, amma arvaddan xoşum gəlmir.

– Qadın dindar katoliklərdəndi. Sənə isə başını soxmaq üçün bir yer lazımdı.

– Sənin bu adamlar ilə oturub içməyini istəmirəm. Onların məqsədi səni məhv eləməkdir.

– Mən onlara ayda cəmi 85 dollar kirayə haqqı ödəyirəm. Onlar mənimlə oğulları kimi rəftar edirlər. Heç olmasa, arada bir onlarla pivə içməliyəm, ya yox...

– Oğulları kimi.., budu eee! Sən demək olar ki, onlarla həmyaşsan.

Təxminən üç həftə keçdi. Şənbə səhər yerini günortaya vermək üzrəydi. Keçən gecə Lidiyagildə yatmamışdım. Mən vanna qəbul edib pivə içəndən sonra əynimi geyindim. Həftə sonlarından xoşum gəlmirdi. Hamı küçələrə tökülüşmüşdü. Hər kəs pinq-ponq oynayır, ya öz qazonunu biçir, ya maşınlarını silib parıldadır, ya supermarketə, ya da çimərliyə və ya parka gedir. Hər tərəfdə insan əlindən tərpənmək olmur. Bazar ertəsi mənim ən sevimli günümdür. Hamı öz işinə qayıdır və heç kim gözə dəymir. Bir belə insan

kütləsinə baxmayaraq, mən cıdır yarışlarına getmək qərarına gəlmişdim. Orada şənbə gününü keçirmək bir qədər asan olardı. Bərk bişirilmiş soyutma yumurta yedim, bir şüşə də pivə içdim, artırmaya çıxdım və qapını kilidlədim. Lidiya həyətdə itlə, Baqbatla oynayırdı.

– Salam, – Lidiya dedi.

– Salam, –mən də cavab verdim. – Mən cıdır yarışlarına gedirəm.

Lidiya mənə yaxınlaşdı.

– Qulaq as, cıdır yarışlarının səni nə günə saldığını bilirsən axı.

O demək istəyirdi ki, cıdır yarışlarından qayıdanda, mən onunla sevişmək üçün çox yorğun oluram.

– Dünən də sərxoş idin, – deyə Lidiya sözünə davam etdi. – Biabırçı vəziyyətə düşmüşdün. Lizanı da bərk qorxutdun. Ona görə də səni evimdən qovmağa məcbur oldum.

– Mən cıdır yarışlarına gedirəm.

– Yaxşı, istədiyini elə, get o zibilə qalmış cıdırına. Amma əgər cıdıra getsən, sən geri qayıdanda, mən artıq burda olmayacam.

Evin önündə saxladığım maşınıma mindim. Qapının şüşəsini endirdim və mühərriki işə saldım. Lidiya yolumun üstündə dayanmışdı. Onunla vidalaşmaq üçün əlimi yellədim və maşını küçəyə çıxardım. Gözəl bir yay günü idi. Maşını Hollivud Parkla sürürdüm. Yeni bir sistem düşünmüşdüm. Hər yeni sistem məni var-dövlətə bir qədər də yaxınlaşdırırdı. Bu, sadəcə, zaman məsələsi idi.

Mən $40 dollar uduzdum və evə qayıtdım. Maşını evin önündəki çəmənlikdə saxladım və maşından düşdüm. Artırmanın yanından keçib öz qapıma tərəf gedəndə, dalanla mənə tərəf gələn missis O'Kifi gördüm.

– O getdi.

– Nə?

– Sənin qızını deyirəm. O, şey-şüyünü də yığışdırıb getdi.

Mən ona cavab vermədim.

– O bir qoşqu kirayələdi və bütün əşyalarını ona yüklədi. Qəzəbindən az qalmışdı ağlını itirsin. Onun böyük paltaryuyan maşınını görmüsən də?

– Bəli.

– O zibil deyəsən çox ağırdı axı. Mən özüm onu heç yerindən tərpədə bilməzdim, amma o öz oğluna kömək eləməyə də qoymadı. O, paltaryuyanı təkbaşına qaldırıb qoşquya yüklədi. Sonra uşaqları, iti də götürdü və maşınını sürüb getdi. Mənə əvvəlcədən ödədiyi həftənin pulu da qaldı.

– Oldu, missis O'Kif. Çox sağ olun.

– Bu gecə bizimlə içməyə gələcəksənmi?

– Hələ bilmirəm.

– Gəlməyə çalış.

Qapını açdım və evə daxil oldum. Ona öz kondisionerimi ödənc vermişdim. İndi o, şkafın yanındakı stulun üstündə dururdu. Onun üstünə bir mesaj və bir də qısa mavi tuman qoyulmuşdu. İsmarıcda əyri-üyrü xəttlə yazılmışdı:

“Al, əclaf, bu da sənin kondisionerin. Mən getdim. Mən həmişəlik getdim, səni qancığın oğlu! Özünü yalqız hiss etdiyin vaxtlarda, əlinlə özünü bu tumanın içinə boşalda bilərsən. Lidiya.”

Mən soyuducuya yaxınlaşdım və bir şüşə pivə götürdüm. Pivəni içdim və kondisionerə yaxınlaşdım. Onun üstündəki mavi tumanı əlimə alıb düşünməyə başladın ki, görəsən, həqiqətən də bir şey alınar, ya yox. Sonra dedim:

– Zibil! – və onu döşəməyə atdım.

Telefona yaxınlaşdım və Di Di Bronsonun nömrəsini yığdım. O evdə idi.

– Allo? – o dedi.

– Di Di, – mn dedim, danışan Henkdir...

17

Di Dinin evi Hollivud Təpələrində yerləşirdi. Di Di həmin evdə öz rəfiqəsi Byanka ilə birlikdə yaşayırdı. O da xanım icraçı direktor idi. Byanka üst mərtəbədə, Dİ Dİ isə altda yerləşmişdi. Mən qapının zəngini çaldım. Di Di qapını açanda axşam saat 8:30 olardı. Di Di 40 yaşlarında, qara

saçları qısa kəsilmiş, yəhudi və bir az da havalı bir qadın idi. Onun bütün işləri Nyu-York ilə əlaqəli idi və lazımlı adamların hamısını adbaad tanıyırdı: lazımlı nəşriyyatçıları, ən yaxşı şairləri, ən istedadlı karikaturaçı rəssamları, lazımlı inqilabçıları, kimi istəsən, hamını. O aramsız olaraq ot çəkir və özünü 1960-cı illərdə yaşayırmış kimi aparırdı. Təbii ki, həmin zamanlarda o daha məşhur və daha gözəl idi.

Heç bir yaxşı nəticə ilə sonuclanmayan sevgi macəralarının uzun silsiləsi onun axırına çıxmışdı. İndi isə onun qapısında mən dayanmışdım. Bədəni hələ də öz gözəlliyini tam itirməmişdi. Balacaboy olsa da, forması çox gözəgəlimli idi və gənc qızların bir çoxu onun bədən formalarına sahib olmaq üçün çox şeylərindən keçərdilər.

Onun arxasınca evə daxil oldum.

– Deməli, Lidiya ilə ayrılmısız? – Di Di məndən soruşdu.

– Mənə elə gəlir ki, o, Yutaya gedib. Mulzheddə 4 İyul şərəfinə keçirilən rəqslərin başlamasına az qalıb. O heç vaxt bu rəqsləri buraxmır.

Di Di bizim üçün qırmızı şərab açdı. Mən keçib yemək üçün ayrılmış küncdə oturdum.

– Onun üçün darıxırsanmı?

– İlahi, hə. Az qalıram ağlayam. Mənim bütün içalatım çeynənib. Bəlkə də bu vəziyyətdən salamat çıxmadım.

– Çıxarsan, çıxarsan. Biz sənə Lidiyanı unutmağa kömək eləyərik. Biz səni bu vəziyyətdən dartıb çıxararıq.

– Onda belə çıxır ki, sən mənim nə hisslər keçirdiyimi bilirsən?

– Bizim hamımızın başına belə şeylər gəlib, özü də bir neçə dəfə.

– Ondan başlayaq ki, o qancıq məni heç vaxt vecinə almayıb.

– Səhv edirsən, o səni vecinə alıb. Hətta indi də o səni vecinə alır.

Mən belə qərara gəldim ki, Di Dinin Hollivud Təpələrindəki böyük evində olmaq öz evimdə təkbaşına kürt toyuq kimi yumurtaların üstündə oturmaqdan yaxşıdır.

– Belə çıxır ki, qadınlarla o qədər də yaxşı davrana bilmirəm, – mən dedim.

– Sənin qadınlarla rəftarında heç bir problem yoxdur, – Di Dİ dedi. – Və sən son dərəcə də gözəl yazıçısan.

– Ondansa, qadınlarla yaxşı ünsiyyət qura bilməyə üstünlük verərdim.

Di Di bir siqaret yandırdı. O, siqareti çəkib bitirincəyə qədər gözlədim, sonra masanın üstündən uzanıb onu öpdüm.

– Sən mənim ovqatımı düzəltdin. Lidiya isə daim mənə hücumlar edirdi.

– Bu heç də sənin düşündüyün mənaya gəlmir.

– Lakin o xoşagəlməz də ola bilər.

– Əlbəttə xoşagəlməz ola bilər.

– Özünə bir sevgili tapmısanmı?

– Hələ yox.

– Bura mənim xoşuma gəlir. Bəs buranı belə tər-təmiz saxlamağa necə müvəffəq olursan?

– Biz evimizdə qulluqçu saxlayırıq.

– Hə?

– O sənin xoşuna gələcək. O iricüssəli bir zənci qadındır və mən gedəndən sonra ev işlərini bacardığı qədər tez bitirir. Sonra o, yatağa girir və peçenye yeyə-yeyə

televizora baxır. Hər gecə öz yatağımda peçenye qırıqları tapıram. Sabah səhər işə gedəndə, ona deyəcəyəm ki, sənin səhər yeməyini hazırlasın.

– Danışdıq.

– Yox, dayan. Sabah şənbə günüdür. Şənbə günləri mən işləmirəm. Biz yeməyimizi restoranda yeyərik. Yaxşı bir yer tanıyıram. Sənin xoşuna gələcək.

– Oldu.

– Yəqin sən də bilirsən, mən həmişə səni sevmişəm.

– Nə?

– Uzun illərdir. Bilirsənmi, əvvəlcə, Berni, sonra isə Cek ilə sənin evinə gələrdim, əslində, istədiyim adam elə sən idin. Lakin sənin gözlərin israrla məni görmək istəmirdi. Sən daim ya öz pivə bankanı əmirdin, ya da bütün fikrin-zikrin başqa bir şeylə məşğul olurdu.

– Axmaq olmuşam, düşünürəm ki, əbləh olmuşam. Poçt xidmətinin aşıladığı axmaqlıq. Məni bağışla ki, səni görməzlikdən gəlmişəm.

– Eybi yox, indi mənim də qadın olduğumu sezə bilərsən.

Di Di bir qədəh də şərab süzdü. Yaxşı şərab idi. Mənim çox xoşuma gəlirdi. İşlər pis olanda, gedəsi bir yerinin olması çox gözəldir. İşlər pis olanda gedəsi bir yerimin olmadığı əvvəlki günlərimi xatırladım. Bəlkə də vəziyyətin elə olması mənim xeyrimə olub. O vaxt demək istəyirəm. Amma indi mənim üçün xeyirli olan şeyin marağında deyildim. İndi maraqlandığım bir şey vardı, o da özümü necə hiss etməyim və işlərim pis getməyə başlayanda, ovqatımın təlx olmasının qarşısını necə alacağım idi. Əhval-ruhiyyəmi yenidən necə yüksəldəcəyim.

– Sənin beynini sikmək istəmirəm, Di Di, – mən dedim. – Mən qadınlarla hər zaman yaxşı davranmıram.

– Sənə dedim axı, səni sevirəm.

– Lazım deyil. Məni sevmə.

– Yaxşı, – o razılaşdı, səni sevməyəcəyəm, sənə sevməyə yaxın bir hiss bəsləyəcəyəm. Hə, belə desəm yarıyar?

– Birincidənsə, ikinci daha yaxşıdır.

– Biz şərablarımızı bitirdik və yatağa girdik...

18

Ertəsi gün Di Di səhər yeməyi üçün məni Sanset Strip restoranına apardı. Onun Mersedesi qara rəngli idi və günün şüaları altında par-par yanırdı. Maşınımız reklam lövhələrinin, gecə klublarının və dəbdəbəli restoranların yanından keçirdi. Mən isə çəkdiyim siqaretin tüstüsündən boğularaq öskürə-öskürə oturacaqda qısılıb oturmuşdum. Bundan da pis günlərimin olduğu haqqında düşünürdüm. Xəyalımda bir-iki səhnə canlandı. Bir dəfə Atalantada qış mövsümündə donurdum, pulsuz qalmışdım, yatmağa yerim yox idi və içəri girib bir az qızınmaq ümidilə kilsənin pillələri ilə onun qapısına yaxınlaşmışdım. Amma kilsənin qapısı bağlı idi. Bir başqa vaxt El Pasoda mən parkda skamyada yatmışdım və səhər tezdən ayaqqabılarımın altına öz dəyənəyi ilə vuran bir polis məni yuxudan oyatmışdı. Mən hələ də Lidiya haqqında düşünməkdən vaz keçə bilmirdim. Bizim aramızdakı münasibətlərin yaxşı tərəfi mədəmin içində ora-bura gəzərək bütün içalatımı gəmirən siçovula bənzəyirdi.

Di Di öz Mersedesini dəbdəbəli bir restoranın qarşısında saxladı. Orada stullar və masalar qoyulmuş günəşli bir terras vardı. İnsanlar burada oturub yemək yeyir və qəhvə içə-içə bir-biri ilə söhbət edirdilər. Biz ayağına çəkmə, əyninə cins geyinmiş və boynuna ağır gümüş zəncir sarınmış bir zəncinin yanından keçdik. Onun motosikl dəbilqəsi, gözlükləri və əlcəkləri masanın üstündə idi. Yanında əyninə yaşıl rəngli kombinezon geyinmiş və öz balaca barmağını soran arıq, sarışın bir qız vardı. Bu yer müştəri ilə dolu idi. Burdakılar hamısı cavan, səliqəli və nəzakətli görünürdülər. Heç kim gözünü bərəldib bizə baxmırdı. Hamı asta səslə söhbət edirdi.

Biz içəri girdik və əyninə dar gümüşü rəngli şalvar və parıldayan qızılı rəngli köynək geyinmiş, belinə 8 düylük qadaqlı remen taxmış, dar sağrılı, solğun bənizli arıq bir oğlan bizə masamızı göstərdi. Onun qulaqları deşilmişdi və qulaqlarından balaca mavi sırğalar asılmışdı. Qələmlə çəkilmiş kimi nazik bığları bənövşəyi rəngə çalırdı.

– Di Di, – o dedi, – nə baş verir?

– Qəlyanaltı, Donni.

– Bir də içməyə bir şey, Donni, – mən dedim.

– Ona nə lazım olduğunu mən bilirəm, Donni. Ona "Qızıl Gül" gətir, özü də ikiqat.

Biz səhər yeməyi sifariş elədik və Di Di dedi:

– Yeməyi hazırlamaq üçün onlara bir qədər vaxt lazım olacaq. Burada onlar hər şeyi sifarişə görə hazırlayırlar.

– Çox pul xərcləmə, Di Di.

– Bütün xərclərimiz cari xərclər hesabına yazılacaq.

Di Di balaca bir qara bloknot çıxardı.

– Hə, gəl baxaq. Bu gün kimi səhər yeməyinə dəvət eləmişəm? Elton Con?

– O, Afrikada deyilmi?..

– Ah, düz deyirsən. Bəs onda Kat Stivens necə?

– Bəs o kimdir?

– Sən onu tanımırsan?

– Yox.

– Onu mən kəşf eləmişəm. Bu gün sən Kat Stivens ola bilərsən.

Donni içkini gətirdi və Di Dİ ilə söhbət eləməyə başladı. Belə anladım ki, onların çoxlu ortaq tanışları vardı.

Mən isə onların tanıdıqlarından heç kimi tanımırdım. Məni heyrətə gətirmək elə də asan iş deyildi. O adamlar mənim vecimə deyildi. Nyu-Yorkdan da xoşum gəlmirdi. Holivudu da sevmirdim. Rok musiqisi də mənlik deyildi. Ümumiyyətlə, mənim heç nədən xoşum gəlmirdi. Bəlkə də qorxurdum, ona görə. Hə düz tapmışdım – mən qorxurdum. Mən pərdələri də qapanmış bir otaqda tək-tənha oturmaq istəyirdim. Bax bundan həqiqi həzz alırdım. Mənim ağlım çatmır. Mən əbləhin biriyəm. Lidiya isə çıxıb getmişdi.

Mən öz içkimi bitirən kimi, Di Dİ birini də sifariş etdi. Özümü alfons kimi hiss etməyə başladım. Və bu çox əla bir hiss idi. İçimdəki kədəri dağıtmağa kömək edirdi. Sevgilinlə ayrılmaqdan və sevdiyin qadının səni atıb getməsindən pis şey ola bilməz. Nə içməyə bir şeyin olur, nə də işin. Sadəcə, otaqda oturub divarlara baxmaqdan və düşünməkdən başqa əlindən bir şey gəlmir. Bax, qadınlar beləcə səni pis günə qoyurlar, lakin bundan onlar özləri də əziyyət çəkir və zəifləyirlər. Bəlkə də bunun belə olduğuna inanmaq, sadəcə, mənim xoşuma gəlir.

Səhər yeməyi əla idi. Müxtəlif meyvə xuruşları ilə yumurta... ananas, şaftalı, armud... bir azca üyüdülmüş qoz, ədviyyat. Həqiqətən, qəlyanaltımız əla alınmışdı. Biz yeməyimizi bitirdik və Di Dİ mənim üçün daha bir içki sifariş elədi. Mən, hələ də içimdən çıxara bilmədiyim Lidiya haqqında düşündüm, amma Di Di də qəşəng qadın idi. Onun söhbətləri qəti və əyləndirici idi. O məni gülməyə məcbur edə bilirdi. Əslində, mənə də elə bu lazım idi. Mənim gülüşüm bütünlüklə içimdə həbs olunmuşdu və qəhqəhə ilə bayıra çıxacağı anı gözləyirdi: HAHAHAHAHA, ah, aman allahım, aman, HAHAHAHAHA. Bu baş verəndə mən özümü elə yaxşı hiss elədim ki. Di Di həyat haqqında bəzi şeyləri çox gözəl bilirdi. Di Di bilirdi ki, birimizin başına gələn şey bizim əksəriyyətimizin başına gəlib. Sürdüyümüz həyat tərzləri bir-birindən elə də fərqlənmirdi – bunun belə olmadığını düşünməyi, belə olmadığına özümüzü inandırmağa çalışmağı xoşlasaq belə.

Ağrı çox qəribə bir hissdir. Quşu öldürən pişik, avtomobil qəzası, yanğın… Ağrı qəfildən gəlir, TARAP və budur o artıq sizin içinizdə oturub. O realdır. Və sizi

müşahidə edən hər kəs üçün siz axmaq kimi görünürsünüz. Elə bil siz qəfildən əbləhə çevrilmisiniz. Bunun əlacı yoxdur. Əlbəttə ki, əgər sizin keçirdiyiniz bu hissləri anlayan və sizə necə kömək ediləcəyini bilən birisini tanımırsınızsa. Biz maşının yanına qayıtdıq.

– Sənin ovqatını düzəltmək üçün səni hara aparmaq lazım olduğunu bilirəm, – Di Di dedi. Mən ona cavab vermədim. Mənə elə qulluq olunurdu, elə bil mən əlil idim. Əslində, mən elə əlil idim.

Di Didən xahiş etdim ki, maşını bir barın yanında saxlasın. Onun sevdiyi yerlərdən birində. Barmen onu tanıyırdı.

– Bura, – biz bara daxil olanda, o dedi, – bir çox ssenari yazarlarının toplaşdığı yerdir. Və bir də xırda özfəaliyyət teatrlarının üzvlərindən bəzi insanlar burada toplaşırlar.

Onların hamısından dərhal zəhləm getdi. Çünki bu insanlar hamısı özlərinə ağıllı görkəm verib boş-boş oturmuşdular. Onlar bir-birini heçə sayırdılar. Bir yazar üçün ən pis, ən dözülməz şey bir başqa yazarı tanımaqdır.

Ondan da pisi isə bir neçə yazarı tanımaqdır. Lap bir təzəyin üstünə toplaşmış milçəklər kimi.

– Gəl özümüz üçün bir masa götürək, – mən dedim.

Budur mən yazar idim, həftəsi $1000 dollar olan başqa yazarlar ilə bir məkanda oturan və həftəsi $65 dollarlıq bir yazar. Lidiya, mən düşündüm, artıq hədəfimə çox yaxınam. Sən çox peşman olacaqsan. Bir gün gələcək mən dəbdəbəli restoranlardan çıxmayacağam və məni hər kəs oralarda tanıyacaq. Onlar mənim üçün arxa tərəfdə, mətbəx yaxınlığında daim xüsusi bir masanı hazır saxlayacaqlar. Biz içkilərimizi aldıq və Di Di mənə baxdı.

– Sən çox əla yalayırsan. İndiyədək məni yalayanlar arasında sən ən yaxşısısan.

– Bunu mənə Lidiya öyrədib. Sonra da özümdən bir-iki xırdalıq əlavə etmişəm.

Tünsdərili bir cavan oğlan yerindən sıçrayaraq bizim masamıza yaxınlaşdı. Di Di bizi bir-birimizə təqdim elədi. Oğlan Nyu-Yorkdan idi, “Villic Voys” və digər Nyu York qəzetləri üçün yazılar yazırdı. Onlar tanınmış adlar çəkərək

bir-biri ilə bir müddət yarışandan sonra, oğlan Di Didən soruşdu:

– Bəs sənin ərin nə ilə məşğul olur?

– Mənim at tövləm var, – mən dedim. – Yumruq döyüşçülərim, dörd əla meksikalı oğlanım və bundan əlavə əsl rəqqas olan bir zəncim var. Sizin çəkiniz nə qədərdir?

– 158. Siz özünüz də döyüşlərdə iştirak etmisinizmi? Sizin üzünüzə baxanda, bəlli olur ki, bir neçə sanballı zərbə almısınız.

– Bir neçə zərbə almışam. Sizi 135-lik çəki kateqoriyasına qoya bilərik. Mənə yüngül çəkidə solaxay bir boksçu lazımdır.

– Mənim solaxay olduğumu hardan bildiniz?

– Siz siqaretinizi sol əlinizdə tutmusunuz. Main Stritdəki idman zalına gəlin. Bazar ertəsi səhər tezdən. Sizinlə məşqlərə başlayaq. Siqaret çəkmək olmaz. O zəhrimara qalmış qancıq oğlunu da söndürün!

– Bura bax, dostum, mən yazaram. Mən çap makinası ilə işləyirəm. Mənim yazdıqlarımdan bir şey oxumamısınızmı?

– Mən yalnız paytaxt qəzetlərini oxuyuram – qətllər, zorlamalar, döyüşlərin nəticələri, fırıldaqçılar, avia qəzalar və Ənn Lenders haqqında.

– Di Di, – oğlan dedi, – yarım saatdan sonra Rod Stüratdan müsahibə almalıyam. İndi getməliyəm. – O getdi.

Di Di bizə yenə içki sifariş elədi.

– Sən niyə insanlarla düz dolana bilmirsən? – o soruşdu.

– Qorxduğuma görə, – mən cavab verdim.

– Budur gəlib çatdıq, – Di Di dedi və maşını Hollivud qəbiristanlığının içinə sürdü.

– Əla, – mən dedim, – çox əla. Mən ölümü tamam yaddan çıxarmışdım.

Biz maşınla orada bir balaca gəzişdik. Qəbirlərin böyük əksəriyyəti torpaqdan yuxarı ucalırdı. Önlərindəki giriş pilləkənləri və sütunları ilə onlar balaca evləri xatırladırdı. Və hər birinin qıfıllanmış dəmir qapısı vardı. Di Di maşını bir tərəfdə saxladı və biz maşından düşdük. O qapılardan birini açmağa çalışdı. Qapını açmaq üçün əlləşərkən mən onun sağrılarının necə yırğalandığına tamaşa edirdim.

Birdən yadıma Nitşe düşdü. Baxın bu da biz: alman ayğırı və yəhudi madyanı. Ata yurdum mənimlə fəxr edərdi.

Biz qayıdıb Mersedesə oturduq və Di Di maşını böyük bloklardan birinin yanında saxladı. Burada qəbirlərin hamısı divarın içində idi. Onlar cərgə-cərgə düzülmüşdü. Bəzilərinin önündəki balaca vazalarda güllər vardı, amma onlar da solmuşdu. Divardakı oyuqların əksəriyyətində isə, ümumiyyətlə, gül yox idi. Onların bəzilərində ərlə arvadı yatırdı, səliqəli cərgə ilə. Bəzi qoşa qəbirlərdə oyuqlardan biri boş idi və öz sakinini gözləyirdi. Oyuqlarından birisinin boş olduğu qəbirlərin hamısında vəfat edənlər yalnız kişilər idi.

Di Di mənim əlimdən tutub tinin arxasına apardı. Hə, budur bu da o, ən aşağıda, Rudolf Valentino. Vəfat edib: 1926. Çox da uzun ömür sürməyib. Mən 80 yaşına qədər yaşamaq qərarını vermişdim. Bir təsəvvür edin – 80 yaşınız var və 18 yaşlı bir qızı qayırırsınız. Əgər ölümlə oyunda onu aldatmağın bir yolu varsa o da bu olmalıdır.

Di Di balaca gül vazalarından birini götürüb çantasına qoydu. Standart oyundur. Boş duran hər şeyi götürə bilərsən.

Hər şey hamıya məxsusdur. Biz oradan çıxdıq və Di Di dedi:

– Tayron Pauerin skamyasında oturmaq istəyirəm. O mənim sevimlim idi və mən onu sevirdim!

Biz gedib Tayronun qəbrinin yanındakı skamyada oturduq. Ondan sonra ayağa qalxdıq və Duqlas Ferbanksın qəbrini ziyarət etdik. Onun qəbri qəşəng idi. Qəbrin önündə özəl su hovuzu da vardı. Hovuz su zanbaqları və çömçəquyruqlar ilə dolu idi. Biz pilləkənlərlə qalxdıq və qəbrin arxa tərəfində də oturmaq üçün yerlər olduğunu gördük. Oturduq. Qəbrin divarında balaca bir çat olduğunu sezdim, xırda qırmızı qarışqa ordusu həmin çatdan yorulmaq bilmədən içəri-çölə şütüyürdü. Mən bir müddət bu balaca qırmızımtıl qarışqalara tamaşa elədim, sonra isə qolumu Di Dinin boynuna doladım və onu öpdüm, bu öpüş, həqiqətən, çox uzun çəkdi. Biz dost olaraq qalmaq qərarına gəlmişdik.

19

Di Di hava limanında oğlunu qarşılamalı idi. O, İngiltərədən evə tətilə gəlirdi. Di Di mənə demişdi ki, onun oğlunun 17 yaşı var və oğlanın atası keçmiş konsert pianoçusu idi. Di Dinin dediyinə görə, uşağın atası spid həbləri və kokainə aludə olmuş və sonra hansısa qəzada barmaqlarını yandırmışdı. O, pianoda daha çala bilmirdi. Bir müddət olar ki, onlar ayrılmışdılar.

Onun oğlunun adı Renni idi. Trans-Atlantik telefon danışıqları zamanı Di Di ona bir neçə dəfə mənim haqqımda danışıbmış. Renninin gəldiyi təyyarənin sərnişinləri bayıra çıxanda biz hava limanına çatmışdıq. Di Di ilə Renni qucaqlaşdılar. O, uzun boylu, arıq və solğun bənizli bir oğlan idi. Saçları bir gözünün üstünə düşürdü. Biz əl tutub görüşdük.

Di Di ilə Renni söhbət etdikləri zaman mən baqajı almağa getdim. O, Di Diyə "Anacan" deyə müraciət edirdi. Biz maşının yanına geri qayıdanda o, arxa oturacağa keçdi və dedi:

– Anacan, sən mənə velosiped almısanmı?

– Sifariş eləmişəm. Biz onu sabah götürməliyik.

– Yaxşı velosipeddirmi, anacan? Mən on sürət ötürücülü, əl əyləcli və pedallarında bəndləri olanından istəyirəm.

– Mənim sifariş etdiyim də yaxşı velosipeddir, Renni.

– Onun sabah hazır olacağına əminsənmi?

Biz maşınla geri qayıdırdıq. Mən gecəni onlarda qaldım. Renninin öz yataq otağı vardı.

Ertəsi gün səhər tezdən hamımız birlikdə yemək üçün ayrılmış küncdə oturub xadimənin gəlişini gözləyirdik. Nəhayət, Di Di yerindən qalxdı və bizim üçün qəlyanaltı hazırlamağa başladı. Renni dedi:

– Anacan, sən yumurtanı necə sındırırsan?

Di Di mənə tərəf baxdı. Mənim nə düşündüyümü o bilirdi. Mən səsimi çıxarmadım.

– Yaxşı, Renni yanıma gəl, sənə göstərim.

Renni sobanın yanına yaxınlaşdı. Di Di əlinə bir dənə yumurta aldı.

– Görürsənmi, sadəcə, yumurtanın qabığını tavanın qırağına vurub sındırırsan... bax belə... sonra da yumurtanın

içindəki mayenin tavaya düşməsinə imkan verirsən... bax belə...

– Aaaa...

– Bu çox asandır.

– Bəs onu necə bişirirsən?

– Biz onu qızardırıq. Yağda.

– Niyə?

– Çünki onun sarısı dağılıb!

Di Di geri çevrilərək mənə baxdı. Onun gözləri mənə yalvarırdı: “Henk, bir lənətə gəlmiş söz belə demə...”

Bir neçə gün sonra biz yenə yemək üçün ayrılmış küncdə toplaşmışdıq. Xadimə mətbəxdə öz işləri ilə məşğul ikən, biz yeməyimizi yeyirdik. Di Di Ronniyə dedi:

– İndi sənin velosipedin var. Mən istəyirəm ki, bu gün sən, nə vaxt istəsən, 6 paket koka-kola alasan. Mən evə gələndə, bir-iki koka-kola içmək istəyirəm.

– Anacan, o koka-kolalar elə ağır olur ki! Onları özün ala bilməzsənmi?

– Renni, mən bütün günü işləyirəm və yorğun oluram. Ona görə də kolaları gərək sən alasan.

– Amma anacan, orada yoxuş var. Yoxuşu qalxmaq üçün pedal fırlatmalı olacam.

– Heç bir yoxuş zad yoxdur. Nə yoxuş?

– Bilirsənmi, onu gözlərinlə görmək olmur, amma yoxuş var...

– Renni, o kolaları alacaqsan, məni anladınmı?

Renni yerindən qalxıb öz yataq otağına getdi və qapını da zərblə çırpdı. Di Di kənara baxırdı.

– O məni dişinə vurur. O bilmək istəyir ki, onu sevirəm, ya yox.

– Kolaları mən alaram, – mən dedim.

– Yox, lazım deyil, – Di Di dedi, – özüm alaram.

Nəticə etibarı ilə onu heç birimiz də almadıq...

Bir neçə gün sonra Di Di ilə mən ətrafa baxmaq və poçtu götürmək üçün mənim evimə getmişdik və həmin vaxt telefonum zəng çaldı. Zəng edən Lidiya idi.

– Salam, – o dedi, – mən Yutadayam.

– İsmarışını almışam, – mən dedim.

– Necəsən? – o soruşdu.

– Hər şey qaydasındadır.

– Yayda Yuta çox gözəl olur. Sən bura gəlməlisən. Biz təbiətin qoynunda gəzintiyə çıxar, düşərgə salardıq. Mənim bacılarımın hamısı burdadır.

– İndi gələ bilmərəm.

– Niyə?

– Bilirsənmi, mən indi Di Di ilə birlikdəyəm.

– Di Di?

– Hə, Di Di ilə...

– O telefon nömrəsinə zəng edəcəyini bilirdim, – Lidiya dedi. – Sənə demişdim axı, o nömrəyə zəng eləyəcəksən!

Di Di mənim yanımda dayanmışdı.

– Lütfən, ona de ki, – Di Di dedi, – mənə sentyabr ayına qədər vaxt versin.

– Onu yaddan çıxar, – Lidiya dedi. – Qoy cəhənnəm olsun. Bura gəl və mənimlə görüş.

– Sən mənə zəng vurmusan deyə, mən burda hər şeyi ata bilmərəm axı. Bundan əlavə, – mən dedim, – sentyabr ayına qədər Di Dinin yanında olmalıyam.

– Sentyabr?

– Hə.

Lidiya qulaqbatırıcı bir səs çıxardı. Bu çox uzun bir bağırtı idi. Sonra o dəstəyi asdı.

Ondan sonra Di Di məni evimə getməyə qoymurdu. Bir dəfə mənim evimdə oturub poçtumu nəzərdən keçirəndə, telefonun dəstəyinin kənara qoyulduğunu gördüm.

– Bir də heç vaxt belə eləmə, – mən ona dedim.

Di Di məni sahilboyu aşağı-yuxarı uzun gəzintilərə aparırdı. O məni dağ səyahətinə də aparmışdı. Biz onunla qarajların hərracına, kinoya, rok konsertlərə, kilsələrə, dostlarımızın yanına, nahar və qəlyanaltılara, illüzionist tamaşalarına, pikniklərə və sirk tamaşalarına getmişdik. Onun dostları bizim birgə fotoşəkillərimizi çəkmişdilər.

Katalinaya səfərimiz çox pis olmuşdu. Di Di ilə limanda gözləməli olmuşduq. İçkinin xumarlığından əziyyət çəkirdim. Di Di mənim üçün "Alka-Zeltser" və bir bardaq su tapdı. Mənim bu ağır vəziyyətimə kömək edən bir şey vardısa da, o da bizdən bir azca aralıda oturmu gənc qız oldu. O, əyninə qısa ətək geyinmişdi. Onun çox qəşəng bədəni və uzun gözəl qıçları vardı. Qısa ətəyin altında qız

uzun corablar və rezinli kəmər geyinmişdi. Ətəyinin altından onun əynindəki çəhrayı qısa tumanı görünürdü. Ayaqlarında, hətta dikdabanlı ayaqqabılar da vardı.

– Sən ona baxırsan, elə deyilmi? – Di Di məndən soruşdu.

– Gözlərimi ondan ayıra bilmirəm.

– O fahişədir.

– Əlbəttə.

Fahişə oturduğu yerdən ayağa qalxdı və çin bilyardı oynamağa getdi. Şarların lazım olan dəliklərə düşməsinə yardım etmək üçün o, dalını ora-bura yellədirdi. Sonra yenə öz yerinə oturdu və ora-burasını əvvəlkindən də çox açdı.

Hidroplan suya oturdu, yükünü boşaltdı, sonra biz pirsə yaxınlaşdıq və təyyarəyə minişin başlanmasını gözlədik. Hidroplan qırmızı rəngdə, 1936-cı il istehsalı idi, onun iki pəri, bir pilotu və 8, ya da 10 sərnişin oturacağı vardı.

Əgər bu şeyin içində qusmasam, – deyə düşündüm, deməli bütün dünyanı oyuna gətirdiyimi hesab edə bilərdim.

Qısa ətəkli qız təyyarəyə minmək fikrində deyildi.

Allahım, niyə hər dəfə belə bir qadınla rastlaşanda, adamın yanında həmişə başqa bir qadın olur?

Biz təyyarəyə mindik və oturacaq kəmərlərimizi bağladıq.

– Ah, – Di Di dedi, – Elə həyəcanlıyam ki! Kabinəyə gedib düz pilotun yanında oturacağam!

– Yaxşı, necə istəyirsən elə də elə.

Biz havaya qalxdıq və Di Di gedib düz pilotun yanında oturdu. Onun oturub pilotla söhbət etdiyini görə bilirdim. O, deyəsən, həyatdan ləzzət alırdı, ya da sadəcə, bu mənə elə görünürdü. Son vaxtlar onun nə hisslər keçirməsi mənim vecimə deyildi – onun həyata həyəcanlı və xoşbəxt reaksiyasını demək istəyirəm: onun bu davranışları məni bir qədər qıcıqlandırırdı, amma əsas etibarı ilə bu davranışlara qarşı heç nə hiss etmirdim. Bu məni, hətta darıxdırmırdı da.

Biz bir qədər uçduq və yerə endik, yerə enişimiz elə də yumşaq olmadı. Alçaqdan sürətlə uçaraq bəzi qayalıqların yaxınlığından süzdük, suya çırpıldıq və çoxlu su tozu havaya qalxdı. Elə bil sürətli qayıqda oturmuşduq. Sonra bizim təyyarəmiz başqa bir pirsə yan aldı. Bu zaman artıq Di

Di yanıma gəldi və pilot ilə hidroplan, bir də onunla elədiyi söhbət haqqında hər şeyi mənə danışdı. Döşəmənin iri bir parçası qopub aralanmışdı. O, pilotdan soruşdu:

– Bu şey təhlükəsizdirmi?

Pilot da cavab verdi:

– Allah bilir.

Di Di düz sahilin yaxınlığında yerləşən bir otelin ən hündür mərtəbəsində bizə otaq tutmuşdu. Oteldə soyuducu olmadığından, o, balaca bir plastmas qab alıb içini buzla doldurmuşdu ki, mən öz pivə bankalarımı orada sərinlədə bilim. Otel nömrəsində ağ-qara televizor və hamamxana vardı. Əla.

Biz sahilin kənarı ilə gəzintiyə çıxdıq. Qarşımıza iki formada turist çıxırdı – onlar ya çox cavan idilər, ya da çox qoca. Qocalar ətrafda cüt-cüt gəzişirdilər – ayaqlarında səndəl, gözlərinə tünd şüşəli eynək taxmış, başlarında saman şlyapa, əyinlərinə isə qısa şalvar və al-əlvan rəngli köynəklər geymiş qadın və kişilər. Onlar, əsasən, kök və solğun bənizli idilər. Onların ayaqlarının göm-göy venaları şişib çölə çıxmışdı, üzləri isə günün şüaları altında şişkin və

solğun görünürdü. Onların hər yeri sallanırdı, yanaqlarının və çənələrinin altından dəri qatları və torbaları asılmışdı.

Cavanlar isə çox qədd-qamətli görünürdülər. Elə bil onları yumşaq rezindən düzəltmişdilər. Qızların döşləri qabarmamışdı və sağrıları çox balaca idi, oğlanların zərif və yumşaq üzləri isə durmadan gülümsəyir, qızarır və gülürdü. Lakin onlar hamısı həyatlarından çox razı görünürdülər: həm cavan tələbələr, həm də qocalar. Onların görəcək işləri demək olar ki, yox idi. Günəş şüalarının altında uzanıb xoşhallanır və vəzifə borclarını yerinə yetirmiş kimi məmnun görünürdülər.

Di Di mağazaları gəzməyə getmişdi. O, mağazaları gəzib özünə muncuqlar, külqabılar, oyuncaq itlər, açıqcalar, boyunbağılar, kiçik heykəlciklər almaqdan xüsusi zövq alırdı və belə görünürdü ki, bütün bunlar onu xoşbəxt etməyə yetərlidi.

– Ah, bir ora bax! – o mağazanın sahibləri ilə söhbət edirdi.

Deyəsən, onlar Di Dinin xoşuna gəlirdilər. O, bir xanıma materikə qayıdandan sonra ona məktub yazacağına

söz verdi. Sən demə, onların ortaq erkək tanışı varmış və o bir rok qrupda zərb alətində çalışırmış.

Di Di özünə içində iki dənə balaca tutuquşu olan bir qəfəs aldı və biz otelə qayıtdıq. Mən özümə bir pivə açdım və televizoru qoşdum. Proqram seçimi də məhdud idi.

– Gəl çıxıb bir az da gəzişək, – Di Di dedi. – Bayırda hava elə xoşdur ki.

– Mən burada oturub dincəlməyə hazırlaşmışam, – deyə mən cavab verdim.

– Əgər mən sənsiz getsəm, inciməzsən ki?

– Əsla incimərəm, hər şey qaydasında olacaq, narahat olma.

O məni öpdü və getdi. Mən televizoru söndürdüm və özümə bir pivə də açdım. Bu adada sərxoş olmaqdan başqa bir iş-güc yox idi. Pəncərəyə yaxınlaşdım. Di Di çimərlikdə bir cavan oğlanla yanaşı oturmuş, xoşbəxtcəsinə onunla söhbət edir, gülümsəyir və əlləri ilə nəsə işarələr edirdi. O cavan adam da ona gülümsəyirdi. Nə yaxşı ki, bu boşboğazlıqda mən iştirak etmirdim. Mən heç kimə vurulmuş olmadığıma və bu səbəblə də bütün dünyadakı hər

şeydən xoşbəxtlik duymadığıma görə şad idim. Hər şeylə, hər kəslə ixtilafda olmaqdan xoşum gəlirdi. Sevən insanlar çox vaxt tündməcaz və təhlükəli olurlar. Onlar çox vaxt perpektiv hisslərini itirirlər. Onlar yumor hissini itirir, əsəbi və psixi zəhlətökənlərə çevrilir, hətta qatil də olurlar.

Di Dinin getdiyi vaxtdan artıq 2, ya da 3 saat keçmişdi. Mən bir az televizora baxdım, sonra isə yazı makinasında iki-üç şeir çap elədim. Lidiyaya həsr edilmiş sevgi şeirləri. Onları çamadanımda gizlətdim və yenə bir az pivə içdim.

Sonra Di Di qapını döydü və otağa daxil oldu.

– Ah, mən vaxtımı son dərəcə gözəl keçirdim! Əvvəlcə, döşəməsi şüşədən olan qayıqda gəzintiyə çıxdım. Biz döşəmədən dənizin içində üzən müxtəlif balıqları gördük, oradan dənizin içindəki hər şeyi görmək olurdu! Sonra isə mən başqa bir qayıq tapdım. Bu qayıq insanları onların qayıqlarının lövbərdə dayandığı yerə aparırdı. Bu cavan oğlan cəmi bir dollara məni qayığında saatlarla gəzdirdi! Onun kürəyi günün altında tamam yanmışdı və mən onun kürəyinə lasyon sürtdüm. O çox pis yanmışdı. Biz insanları qayığa mindirib onları öz yaxtalarına daşıyırdıq. O

yaxtalarda olan adamları bir görəydin! Hamısı qoca adamlardı, cavan qızlarla əylənən qoca kaftarlar. O cavan qızların hamısı ayaqlarına çəkmə geyinmişdilər, ya sərxoşdular, ya da narkotik maddə qəbul etmişdilər. Bitkin bir halda inildəşirdilər. Bu qoca kaftarların bəzilərinin yanında gənc oğlanlar da vardı. Amma əsasən, onların yanlarındakılar gənc qızlardı, bəzilərinin yanında, hətta iki, və ya üç, yaxud da dörd cavan qız vardı. Hər bir qayıqdan narkotik, içki və pozğunluq iyi gəlirdi. Bu əla idi.

– Sənin danışdıqların qulağıma, həqiqətən də yaxşı gəldi. Kaş sənin maraqlı adamları axtarıb tapmaq bacarığın məndə olaydı.

– İstəyirsən, sabah sən də mənimlə gəl. Bütün günü cəmi bir dollara qayıqda gəzə bilərik.

– Mən pas.

– Bu gün nəsə yazmılsanmı?

– Hə, bir az.

– Yaxşı alınıbmı?

– Üstündən 18 gün keçməsə bunu bilmək mümkün deyil.

Di Di yaxınlaşıb balaca tutquşlarına baxdı, onlarla danışdı. O yaxşı qadın idi. Ondan xoşum gəlirdi. Həqiqətən, mənə görə narahat olur, mənə ancaq yaxşılıq arzulayırdı. O mənim yaxşı yazmağımı, yaxşı sikişməyimi və yaxşı görünməyimi istəyirdi. Mən bunu hiss edə bilirdim. Bunu hiss etmək əla idi. Bəlkə də bir gün biz birlikdə Havay adalarına uçarıq. Mən arxadan ona yaxınlaşdım və onun sağ qulağını öpdüm, lap qulağının məməsindən.

– Ah, Henk, – o dedi.

Katalinada bir həftəlik istirahətdən sonra Los-Ancelesə geri qayıtmışdıq və nə qədər qeyri-adi olsa da bir axşam mənim evimdə oturmuşduq. Gecədən bir xeyli keçmişdi. Yan otaqda telefonun zəng səsi eşidiləndə, biz mənim çarpayımda lüt uzanmışdıq.

Zəng edən yenə Lidiya idi.

– Henk?

– Buyurun?

– Sən hardaydın?

– Katalinada.

– Onunla birlikdə?

– Hə.

– Bura bax, sən onun haqqında mənə danışanda, mən əsəbiləşmişdim. Mənim eşq macəram olub. Bir homoseksual ilə. Bu çox iyrənc idi.

– Sənin üçün darıxmışam, Lidiya.

– Mən Los-Ancelesə qayıtmaq istəyirəm.

– Bu lap əla olardı.

– Əgər mən geri dönsəm, sənin onunla əlaqələrini kəsərsənmi?

– O çox yaxşı qadındır, amma sən geri dönsən, onunla əlaqəmi kəsərəm.

– Onda mən qayıdıram. Səni sevirəm, qoca adam.

– Mən də səni sevirəm.

Bizim söhbətimiz uzandıqca, uzandı. Nə qədər danışdığımızı bilmirəm. Söhbətimiz bitəndən sonra mən yenidən yataq otağına qayıtdım. Deyəsən, Di Di yatmışdı.

– Di Di? – deyə onu astadan səslədim.

Sonra onun bir qolunu qaldırdım. Onun qolu iradəsiz və boş idi. Onun bədəninə toxunanda, elə bil rezinə toxunurdun.

– Bəsdi mənimlə məzələndin, Di Di, bilirəm ki, yatmamısan.

O tərpənmirdi. Mən dönüb ətrafa baxdım, onun yuxu dərmanı olan qabın boş olduğunu gördüm. O qabın dolu olduğunu xatırlayırdım. O dərmanlardan mən də içmişdim. Onlardan birini qəbul etmək sizin dərin yuxuya dalmanız üçün kifayət edərdi. Lakin o dərmanı içəndə adama elə gəlirdi ki, başına ağır bir şeylə vurublar və sizi diri-diri basdırıblar.

– Sən həblərin hamısını udmusan...

– Mənim... heç... vecimə də deyil... sən onun yanına qayıdacaqsan... Mənim vecimə... deyil...

Mən cəld mətbəxə qaçdım və bir ləyən götürdüm, geri qayıtdım və onu döşəməyə, düz çarpayımın yanına qoydum. Sonra Di Dinin başını və çiyinlərini çarpayının kənarına tərəf dartdım və barmaqlarımı onun boğazına soxdum. O qusmağa başladı. Onun başını bir qədər qaldırdım və nəfəs dərməsinə yardım etdim. Sonra bu prosesi bir də təkrar etdim. Sonra bunu dəfələrlə təkrarladım. Di Di isə qusmağına davam edirdi. Nəfəsini dərməsinə kömək eləmək

üçün onun başını bir də qaldıranda dişləri yerindən çıxdı. Onun üst və altı çənə dişləri orada, eləcə mələfənin üstündə qalmışdı.

– Axxx… mənim dişlərim, – dedi. Ya da belə demək istədi.

– Dişlərin üçün narahat olma.

Mən yenə öz barmaqlarımı dibinə qədər onun boğazına soxdum.

– Mən işştəmiyəm ki, – o davam etdi, – şşən mənim dişləyimi göyəsən...

– Narahat olma, Di Di, hər şey qaydasındadır. Onlar, əslində, elə də qorxunc görünmür.

– Aaahhh...

O, dişlərini yenidən ağzına taxacaq qədər özünə gəlmişdi.

– Məni evimə apar, – o dedi, – mən evə getmək istəyirəm.

– Mən də sənlə qalacağam. Bu gecə səni yalqız qoymayacağam.

– Əvvəl-axır, onsuz da bir gün məni atıb gedəcəksən, düzdümü?

– Gəl əynimizi geyinək, – mən dedim.

Valentino həm Lidiyanı, həm də Di Dini əlindən buraxmazdı. Ona görə də elə cavan yaşlarında vəfat etdi.

20

Lidiya geri qayıtdı və Börbank rayonunda özünə qəşəng bir mənzil tapdı. Deyəsən, indi o mənimlə əvvəllər, ayrılıncaya qədər olduğundan, daha çox maraqlanır, qayğıma qalırdı.

– Mənim ərimin şeyi çox böyükdü, bax bu boyda, amma ondan başqa da heç nəyi yox idi. Nə şəxsiyyəti vardı, nə də hissiyyatı. Bircə zorba bir şey və o elə düşünürdü ki, ona bundan başqa da heç nə lazım deyil. Aman Allahım, o necə taxtabaş idi! Sən isə tamam başqasan, səninlə bütün hissləri hər zaman ala bilirəm... aramızda cərəyan edən bu elektrik axını heç vaxt kəsilmir.

Biz yataqda uzanmışdıq.

– Bilirsənmi, mənim hətta onun şeyinin böyük, ya da kiçik olduğu haqqında da heç bir fikrim yox idi, çünki onun şeyini görüncəyə qədər mən həyatımda bir dənə də olsun kişi şeyi görməmişdim.

Lidiya diqqətlə mənə baxırdı.

– Mən elə düşünürdüm ki, elə hamının şeyi mənim əriminki kimidir.

– Lidiya...

– Nədi?

– Mən sənə bir şey deməliyəm.

– Nə deməlisən?

– Mən gedib Di Dini yoluxmalıyam.

– Gedib Di Dini yoluxmalısan?

– Özünü gülünc aparma. Bunun ciddi səbəbi var.

– Sən dedin axı, dedin ki, sizin aranızda hər şey bitib.

– Hə, elədir. Mən onu belə etibarsızcasına atmaq istəmirəm. Nə baş verdiyini ona izah etmək istəyirəm. İnsanlar bir-birinə qarşı çox soyuq davranırlar. Mən onu geri qaytarmaq fikrində deyiləm, sadəcə, nə baş verdiyini ona

izah etmək üçün cəhd eləmək istəyirəm ki, o məni başa düşsün.

– Sən onu qayırmaq istəyirsən.

– Yox. Mən onu qayırmaq istəmirəm. Onunla birlikdə olanda da onu qayırmaq istəməmişəm, demək olar. Mən, sadəcə, ona bəzi şeyləri izah etmək istəyirəm.

– Bu heç mənim xoşuma gəlmir. Nə bilim... bu bir az... ürəkbulandırıcı səslənir.

– İmkan ver, düşündüyüm şeyi eləyim. Lütfən. Mən, sadəcə, hər şeyin aydınlığa qovuşmasını istəyirəm. Tezliklə qayıdacağam.

– Yaxşı, amma tez qayıt ha.

Mən öz folksvagenimə mindim, fontanın yanındakı küncü kəsərək döndüm, bir neçə mil getdikdən sonra şimala, Bronsona tərəf istiqamət aldım və icarə haqqlarının yüksək olduğu məkana çatdım. Maşını bayırda bir yerdə saxladım və düşdüm. Uzun pilləkənlərlə yuxarı qalxdım və qapının zəngini basdım. Qapını Byanka açdı. Bir gecə Byankanın qapıya lüt çıxdığını xatırladım, o vaxt onu qəfildən

qamarlamışdım və biz onunla öpüşən zaman Di Di aşağı enib demişdi:

– Burada nə baş verir, lənət şeytana?

Bu dəfə vəziyyət keçən dəfəkindən fərqli idi. Byanka dedi:

– Sənə nə lazımdır

– Di Di-ni görmək istəyirəm. Onunla danışmalıyam.

– O xəstələnib. O, həqiqətən, xəstədir. Di Di ilə belə davranışından sonra onunla görüşməməli olduğunu düşünürəm. Məncə, sən birinci dərəcəli əclafsan.

– Mən, sadəcə, onunla bir az danışıb bəzi şeyləri ona izah eləmək istəyirəm.

– Yaxşı. İndi o, yataq otağındadır.

Mən dəhlizdən keçərək yataq otağına daxil oldum. Di Di çarpayıda uzanmışdı, əynində bircə qısa tuman vardı. Bir qolunu gözlərinin üstünə qoymuşdu. Döşləri əla görünürdü. Onun yatağının yanında, döşəmədə yarımçıq viski şüşəsi və bir də ləyən vardı. Ləyəndən içki və qusuntu iyi gəlirdi.

– Di Di…

O qolunu gözlərinin üstündən qaldırdı.

– Nə? Henk, sən geri qayıtdın?

– Yox, bir dayan, mən, sadəcə, sənlə danışmaq istəyirəm…

– Ah, Henk, Mən sənin üçün elə darıxmışdım ki. Az qala dəli olacaqdım, içim ağrıdan elə qıvrılırdı ki. Bu lap kabus idi...

– Mən sənin vəziyyətini yüngülləşdirmək istəyirəm. Ona görə də bura, sənin yanına gəlmişəm. Bəlkə də mən axmaq adamam. Amma mən açıq-aşkar qəddarlığa inanmıram...

– Mənim nə hislər keçirdiyimi sən hardan biləsən...

– Bu hisslərin nə olduğunu yaxşı bilirəm. Oralarda mən də olmuşam.

– İçmək istəyirsənmi? – o əli ilə şüşəyə işarə elədi.

Mən boş viski şüşəsini qaldırdım və hüznlə onu yenə yerinə qoydum.

– Bizim dünyamızda həddən ziyadə soyuqluq var, – mən ona dedim. – Əgər insanlar öz müşkülləri haqqında bir-biri ilə danışaraq razılığa gələ bilsəydilər, dünyamız tamam dəyişərdi.

– Mənimlə qal, Henk. Onun yanına qayıtma, yalvarıram sənə. Lütfən. Mən kifayət qədər uzun ömür sürmüşəm və yaxşı qadın olmaq üçün nə lazım olduğunu yaxşı bilirəm. Bunu sən özün də bilirsən. Mən həm sənə qarşı, həm də sənin üçün yaxşı olacağam.

– Mən Lidiyanın caynaqlarına keçmişəm. Bunu izah edə bilmərəm, çünki özüm də bilmirəm necə.

– O yüngülxasiyyət qadındır. O tezqızışan qadındır. O səni bir gün atıb gedəcək.

– Bəlkə də məni onda cəlb eliyən şey də elə budur.

– Sənə fahişəmi lazımdır? Sən təmiz sevgidən qorxursan?

– Bəlkə də sən haqlısan.

– Məni öp, sadəcə, məni öp. Məni öpməyini istəməklə səndən çox şey istəmiş olmuram ki?

– Yox.

Mən onun yanında çarpayıya uzandım. Biz qucaqlaşdıq. Di Dinin ağzından qusuntu iyi gəlirdi. O məni öpdü, biz öpüşdük və o məni özünə tərəf çəkərək bərk-bərk

qucaqladı. Mən mümkün olduğu qədər nəzakətlə ondan aralandım.

– Henk, – o dedi. – Mənimlə qal! Onun yanına qayıtma! Bax, mənim çox qəşəng qıçlarım var!

Di Di bir ayağını yuxarı qaldırdı və mənə nümayiş etdirdi.

– Mənim topuqlarım da qəşəngdir! Bax!

O mənə öz topuqlarını da göstərdi. Mən onun çarpayısının kənarında oturmuşdum.

– Mən sənlə qala bilmərəm, Di Di...

O birdən qalxıb yerində oturdu və məni kötəkləməyə başladı. Onun yumruqları elə bərk idi, elə bil qaya parçalarıydı. O hər iki əli ilə də mənə ağır zərbələr endirirdi. O mənə bu zərbələri endirdiyindən mən sakitcə onun yanında oturmuşdum. Onun zərbələri mənim gözümün üstünə, gözümün içinə, alnıma və yanaqlarıma dəyirdi. Zərbələrdən biri, hətta düz hulqumuma tuş gəldi.

– Al, səni alçaq! Alçaq, alçaq alçaq! SƏNƏ NİFRƏT EDİRƏM!

Mən onun biləklərindən yapışdım.

– Yaxşı, Di Di, daha bəsdir.

Mən çarpayıdan qalxanda, o yenə arxası üstə yatağına sərildi. Mən yataq otağından çıxdım, dəhlizdən keçdim və qapıdan bayıra çıxdım.

Mən evə qayıdanda, Lidiya kresloda oturmuşdu. Onun üzündən zəhrimar yağırdı.

– Bu qədər vaxt hansı cəhənnəmdəydim! Gözümün içinə bax! Sən onunla sikişdin, düz demirəmmi?

– Yox, düz demirsən.

– Sən getdiyindən sonra həddən çox vaxt keçib. Bax, o sənin üzünü də cırmaqlayıb!

– Sənə deyirəm ki, heç nə baş verməyib.

– Köynəyini soyun. Mən sənin kürəyinə baxmaq istəyirəm!

– Aahhh, qurtar bu zibili, Lidiya.

– Köynəyini də soyun, maykanı da.

Mən köynəyimlə maykamı soyundum. O mənim ətrafımda bir dövrə vuraraq baxdı.

– Bəs kürəyindəki bu cırmaq izi nədir?

– Nə cırmaq, nə iz?

– Bax burdakını deyirəm, uzun bir cırmaq izidir... qadın dırnağının izinə oxşayır.

– Əgər orda cırmaq izi varsa, deməli o sənin dırnaqlarının izidir...

– Yaxşı. Bunu necə aydınlaşdıracağımı yaxşı bilirəm.

– Necə?

– Gəl yatağa girək.

– Yaxşı, qoy sən deyən olsun!

Mən sınaqdan üzüağ çıxdım. Lakin sonra öz-özümə düşündüm. Görəsən, bəs qadının sədaqətli olub-olmadığını necə yoxlamaq olar? Bu mənə çox ədalətsiz göründü.

21

Məndən təxminən bir mil aralı yaşayan bir qadından aramsız olaraq məktublar alırdım. Bu qadın məktublarını Nikol adı ilə imzalayırdı. O yaxırdı ki, mənim bir neçə kitabımı oxuyub və onları çox bəyənib. Mən onun məktublarından birini cavablandırdım. O, əlinə çoxdan gözlədiyi bir fürsət düşmüş kimi, dərhal məni öz evinə

qonaq çağırdı. Bir gün, Lidiyaya bir söz demədən, mən öz "Folksvage"nimə mindim və onun evinə getdim. Qadının mənzili Santa Monika bulvarındakı quru təmizləmə şirkətinin üst mərtəbəsində yerləşirdi. Onun giriş qapısı düz küçəyə çıxdığından, şüşədən baxanda yuxarı qalxan pilləkənləri görmək olurdu. Mən qapının zəngini basdım.

– Kimdir? Qapının yanına quraşdırılmış balaca metal dinamikdən qadın səsi gəldi.

– Mən Çinaskiyəm, – dedim. Şaqqıltı səsi gəldi və mən qapını itələyərək açdım.

Nikol pilləkənlərin başında dayanıb yuxarıdan aşağıya mənə baxırdı. Onun üzündə çox mədəni, hətta deyərdim ki, bir az da faciəli bir ifadə vardı. O, əyninə ön tərəfində kəsik olan yaşıl rəngli uzun ətəkli ev xalatı geyinmişdi. Deyəsən, onun çox gözəl bədəni vardı. O, tünd qəhvəyi rəngli iri gözləri ilə mənə baxırdı. Gözlərinin ətrafında çoxlu xırda qırışların olduğu da asanlıqla sezilirdi: bəlkə də bunun səbəbi çox içməsi, ya da çox ağlaması olmuşdu.

– Siz evdə təksinizmi? – ondan soruşdum.

– Bəli, – o gülümsəyərək cavab verdi, – buyurun içəri.

Mən pilləkənlərlə yuxarı qalxdım. Mənzil çox geniş idi, iki yataq otağı və çox az sayda mebel əşyaları vardı. Gözümə ilk dəyən şey küncdəki kitab şkafı və klassik musiqi valları yığılmış rəf oldu. Mən keçib divanda əyləşdim. O da gəlib yanımda oturdu.

– Mən elə indicə, – o dedi, – "Pikassonun Həyatı" kitabını bitirdim.

Qəhvə masasının üstündə "Nyu-Yorker" jurnalının bir neçə nömrəsi vardı.

– Sizə bir fincan çay təklif edə bilərəmmi? – Nikol məndən soruşdu.

– Ən yaxşısı, mən çıxım içməyə bəzi şeylər alım.

– Buna ehtiyac yoxdur. Mənim evimdə də içməyə nəsə tapılar.

– Nə?

– Çox gözəl qırmızı şəraba nə deyirsiniz?

– Hə, lap yaxşı olar, – mən dedim.

Nikol ayağa qalxdı və mətbəxə keçdi. Mən isə arxadan onun necə hərəkət etdiyinə marıtladım. Mənim uzun paltar geyən qadınlardan həmişə xoşum gəlib. Onun hərəkətlərində

zərafət vardı. Onda kübarlıq əlaməti də çox hiss olunurdu. Əlində iki qədəh, bir şüşə qırmızı şərabla geri qayıtdı və qədəhlərə şərab süzdü. O mənə "Benson an Hegiz" təklif etdi və mən birini alıb yandırdım.

– Siz "Nyu Yorker"i oxuyursunuzmu? – deyə o məndən soruşdu. – Onlar çox maraqlı hekayələr çap edirlər.

– Sizinlə razı deyiləm.

– O hekayələrdə xoşunuza gəlməyən nədir?

– Həddən artıq savadlıdırlar.

– Amma mənim xoşuma gəlir.

– Boş verin, zibil yazılardır.

Biz oturub siqaret çəkir və şərab içirdik.

– Mənim mənzilimi bəyəndinizmi?

– Hə, çox qəşəng mənziliniz var.

– Bu mənzil mənə bir zamanlar Avropada sahib olduğum bəzi mənzillərimi xatırladır.

– Avropa, hə?

– Bəli, Yunanıstanı, İtaliyanı... xüsusilə də Yunanıstanı.

– Bəs Parisi necə, xatırlatmır?

– Əlbəttə, xatırladır. Parisdən çox xoşum gəlir, amma Londonu sevmirəm.

Sonra o mənə bir az özü haqqında danışdı. Onun ailəsi bir vaxtlar Nyu-York şəhərində yaşayırmış. Atası kommunistlərdən olub, anası isə bir atelyedə dərzi işləyirmiş. Anası oradakı işçilər arasında ən yaxşısı və nömrə bir olduğundan ön dəzgahda işləyibmiş. Sərt və cazibədar. Nikol özü müstəqil olaraq təhsil almış, Nyu-Yorkda böyüyüb boya-başa çatmış, bir məşhur həkimlə necəsə rastlaşmış, onunla ailə qurmuş və onunla on il birlikdə yaşadıqdan sonra boşanmışdı. İndi o, ayda sadəcə $400 dollar aliment alırdı və bu pulla dolanmaq da getdikcə çətinləşirdi. Yaşadığı bu mənzil artıq onun cibinə görə deyildi. Amma mənzilini çox sevdiyindən oranı tərk edib gedə bilmirdi.

– Sizin yazı üslubunuz, – o mənə dedi, – məncə, bir balaca kobuddur. Gürz kimi ağırdır, amma bununla belə onun içində zəriflik və yumor da tapmaq mümkündür...

– Bəli, – deyərək onunla razılaşdım.

Mən əlimdəki qədəhi masanın üstünə qoydum və ona baxdım. Çənəsinin altından tutub onu özümə tərəf çəkdim. Onu çox incə bir tərzdə öpdüm.

Nikol isə söhbətinə davam edirdi. O mənə bir neçə çox maraqlı rəvayət də danışdı. Hətta bu rəvayətlərin birindən ya hekayə, ya da şeir kimi istifadə edə biləcəyimi də düşündüm. O irəli əyilərək bizim üçün şərab süzəndə, mən onun döşlərinə baxırdım. Lap kinofilmdəki kimi, deyə düşündüm, lap hansısa sikilmiş kinofilmdəki kimi. Özümə də gülməli gəlirdi. Bir anlıq içimdə sanki kamera qarşısındaymışıq kimi bir hiss də yarandı. Bu hiss də mənə ləzzət verirdi. Bu, cıdır yarışlarından da, boks döyüşlərindən də yaxşı idi. Biz durmadan elə hey içirdik. Nikol ikinci şərab şüşəsini də açmışdı. Onun ağzı bağlanmaq bilmirdi, ara vermədən danışırdı. Ona qulaq asmaq məni qətiyyən bezdirmirdi. Onun mənə danışdığı hər rəvayətdə bir müdriklik və ya nəsə gülməli bir şey olurdu. Nikol məndə, özünün güman etdiyindən də güclü təəssürat yarada bilmişdi. Bu da məni niyəsə narahat edirdi.

Biz əllərimizdə şərab dolu qədəhlərlə eyvana çıxdıq və maşınların günorta axınına baxmağa başladıq. O mənə İtaliyadakı Haksli və Lourens haqqında danışırdı. Boş söhbətlər. Mən ona dedim ki, Knut Hamsun indiyədək dünyadan gəlmiş-keçmiş ən yaxşı yazar olub. Mənim bu adam haqqında nəsə bildiyimi eşidəndə, təəccüblə mənə baxdı və sonra mənim dediklərimlə razılaşdı. Biz eyvanda öpüşməyə başladıq, mən küçədən biz tərəf qalxan işlənmiş qazın iyini hiss edə bilirdim.

Onun bədəni mənimkinə sıxılanda aldığım hissi bəyəndim. Mən yaxşı bilirdim ki, biz dərhal, elə bu gün sikişməyəcəyik, amma onu da bilirdim ki, mən hökmən bir də buraya qayıdacağam. Elə Nikol özü də bunu dərk edirdi.

22

Lidiyanın bacısı Anjela Lidiyanın yeni evinə baxmaq üçün Yutadan gəlmişdi. Lidiya bu balaca ev üçün ilkin ödənişi etmişdi və ona görə də aylıq ödənişlər çox kiçik məbləğlər idi. Bu çox sərfəli sövdələşməydi. Evi satan adam tezliklə vəfat edəcəyini düşündüyündən mənzilini çox ucuz

qiymətə satmışdı. Yuxarı mərtəbədə uşaqlar üçün yataq otağı, evin arxasında isə içi müxtəlif ağaclar və bambuk pöhrəliləri ilə dolu inanılmaz dərəcədə böyük bir həyətyanı sahə vardı.

Anjela bacıların ən böyüyü, ən ağıllısı, ən qəşəng bədənə və ən realist düşüncəyə malik olanı idi. O daşınmaz əmlak biznesi ilə məşğul olurdu. Amma Anjelanın harada yerləşəcəyi ilə bağlı problem yaranmışdı. Bizim evimizdə ona ayıra biləcəyimiz boş yer yox idi. Lidiya onu Marvinin evində yerləşdirməyi təklif etdi.

– Marvin? – mən ondan soruşdum.

– Hə, Marvin, – deyə Lidiya cavab verdi.

– Yaxşı, onda gəlin gedək, – mən dedim.

Biz hamımız Lidiyanın narıncı rəngli sınıq-salxaq zibilinə doluşduq. Əsl "Zibil". Onun maşınını biz belə adlandırırdıq. O, çənə oxşayırdı. Köhnə və idbar bir çənə. Axşamdan bir xeyli keçmişdi. Yola çıxmazdan əvvəl, telefonla zəng edib Marvini xəbərdar etmişdik. O bizə bütün axşamı evdə olacağını söyləmişdi.

Biz maşını çimərliyə sürdük. Çünki onun balaca evi düz sahilin yaxınlığında yerləşirdi.

– Ah, – Anjela dilləndi, – nə gözəl evdir.

– Üstəlik, o çox varlıdır, – Lidiya dedi.

– Və çox gözəl şeirlər yazır, –mən əlavə etdim.

Biz maşından düşdük. Marvin isə öz evində, balıqlar üçün içi duzlu su ilə dolu çənlər və çəkdiyi rəsm əsərlərinin arasında oturmuşdu. Onun çəkdiyi rəsmlər, həqiqətən də çox gözəl idi. Varlı bir ailənin övladı üçün o öz gücü ilə özünü pis dolandırmırdı, yəni adam olub ortaya çıxa bilmişdi. Mən yanımdakıların hamısını ona təqdim elədim. Anjela ətrafda gəzişərək Marvinin çəkdiyi şəkillərə tamaşa elədi.

– Ah, çox gözəl əsərlərdir, – Anjela da rəsm çəkirdi, amma onun rəsmləri elə də qəşəng alınmırdı.

Özümlə bir neçə şüşə pivə gətirmişdim. Gödəkcəmin cibində isə ara-sıra balaca udumlarla içdiyim bir şüşə viskini gizlətmişdim. Marvin də bir neçə şüşə pivə çıxarıb ortalığa qoydu və Anjela ilə Marvin arasında yüngülcə flirt hərəkətləri sezilməyə başlandı. Marvinin bu qadına meyli olduğu açıq-aşkar görünsə də, Anjelanın isə, deyəsən, ona əl

çalıb gülmək, onunla məzələnməkdən başqa fikri yox idi. Qadının Marvindən xoşu gəlirdi, amma onunla elə ilk gecədəcə sikişmək üçün kifayət edəcək qədər yox. Biz içki içə-içə söhbət edirdik. Marvinin bonqo[3] barabanları, pianinosu və bir az da çəkməli otu vardı. Onun evi çox gözəl və rahat idi. Belə bir evdə mən daha yaxşı yaza bilərdim, deyə düşündüm, bəxtim də daha çox gətirərdi. Buradan okeanın səsi eşidilirdi və yazı makinasının şaqqıltısından şikayət edəcək qonşular da yox idi.

Mən öz viskimi balaca udumlar ilə içməyə davam edirdim. Biz iki-üç saat oturandan sonra çıxıb getdik. Evə qayıdarkən, Lidiya maşını sürətli yolla sürdü.

– Lidiya, – mən dedim, – sən Marvinlə sikişmisən, elə deyilmi?

– Sən nə danışırsan?

– Gecədən xeyli keçmiş onun evinə getdiyin o gündən danışıram.

[3] Bonqo – qoşa barabanlar, Afrika və Kuba musiqi aləti

– Səni görüm lənətə gələsən. Sənin bu zibilinə qulaq asmaq istəmirəm!

– Hə, deməli düz fikirləşirəm, həmin gecə onunla sikişmisən!

– Bura bax, əgər belə davam eləsən, mən öz hərəkətlərimə zamin deyiləm!

– Sən onunla sikişmisən.

Anjela qorxmuş görünürdü. Lidiya maşını yolun kənarına sürdü, saxladı və mən tərəfdəki qapını itələyib açdı.

– Düş maşından!

Mən maşından düşdüm. O, maşını sürüb uzaqlaşdı. Mən isə yolun kənarı ilə getməyə başladım. Cibimdən viski şüşəsini çıxardım və ondan bir udum aldım. Bu minvalla, təxminən 5 dəqiqə piyada irəlilədim və birdən Lidiyanın "Zibili" düz mənim yanımda dayandı. Lidiya qapını açdı və dedi:

– Otur.

Maşına oturdum.

– Daha o haqda bir söz belə eşitmək istəmirəm.

– Sən onunla sikişmisən. Mən bunu dəqiq bilirəm.

– Ah, aman Allahım!

Lidiya yenə maşını yolun kənarına sürdü, saxladı və yenə mən tərəfdəki qapını açdı.

– Düş maşından!

Mən yenə də maşından düşdüm və yenə də yolun kənarı ilə getməyə başladım. Sonra şosedən boş bir küçəyə aparan bir enişə çatdım. Yoldan aşağı endim və bu küçə ilə addımlamağa başladım. Hər tərəf zülmət qaranlıq idi. Bəzi evlərin pəncərələrinə baxırdım. Belə məlum olurdu ki, zəncilərin yaşadığı rayonda idim.

Qabaqda, yol ayrıcında nəyinsə işıqları görünürdü. Orada "hot doq[4]" satan bir köşk vardı. Mən köşkə yaxınlaşdım. Piştaxtanın arxasında zənci bir kişi dayanmışdı. Ətrafda bizdən başqa heç kim gözə dəymirdi. Bir fincan qəhvə sifariş etdim.

– Lənətə gəlmiş qadınlar, – mən ona dedim, – onları ağılla dərk eləmək mümkün deyil. Mənim qızım məni yolda maşından düşürdü. İçmək istəyirsənmi?

[4] Çörəyin arasında qoyulmuş sosiska

– Əlbəttə, – deyə o cavab verdi.

O, şüşədən yaxşı bir udum alıb onu mənə qaytardı.

– Sənin telefonun varmı, – deyə ondan soruşdum. – Pulunu verərəm.

– Zəng yerlidirmi?

– Hə.

– Onda pulsuz zəng vura bilərsən.

O, piştaxtanın altından telefon aparatını çıxarıb mənə uzatdı. Mən içkidən bir udum alıb şüşəni ona verdim. O da şüşədən bir udum aldı.

Mən "Sarı Kab" şirkətinə zəng vurdum və olduğum yerin ünvanını onlara söylədim. Mənim bu dostumun mərhəmətli və ağıllı siması vardı. Bəzən, hətta cəhənnəmin ortasında da mərhəmət tapmaq olarmış. Mən taksini gözləyərkən biz şüşəni bir-birimizə növbə ilə ötürərək içirdik. Taksi gələndə, mən maşının arxa qapısından mindim və sürücüyə Nikolun ünvanını verdim.

23

Ondan sonra isə söndüm. Zənnimcə, o gün mən düşündüyümdən daha çox viski içmişdim. Nikolun evinə necə gəldiyimi də xatırlamıram. Ertəsi gün yad bir çarpayıda kürəyimi kiməsə söykəmiş bir vəziyyətdə yuxudan ayıldım. Mən önümdə duran divara baxdım və orada nəhəng dekorativ bir hərf asıldığını gördüm. Bu "N" hərfi idi. Yəqin ki, "N" hərfinin mənası Nikol olmalıydı. Özümü çox pis hiss edirdim. Yataqdan qalxıb hamamxanaya getdim. Nikolun diş fırçası ilə dişlərimi fırçalayanda, az qaldım boğulam. Əl-üzümü yudum, saçlarımı daradım, işədim və sıçdım, sonra əllərimi yudum və hamamxanadakı su kranından bir xeyli su içdim. Sonra geri qayıdıb yatağa girdim. Nikol çarpayıdan qalxdı, üz-gözünü qaydaya saldı, yanıma qayıtdı və çarpayıda mənimlə üz-üzə uzandı. Biz öpüşməyə və bir-birimizi oxşamağa başladıq. Mən də öz məntiqimə görə günahsızam, Lidiya, deyə düşündüm. Mən də öz aləmimdə sənə sədaqətliyəm.

Oral sekslə məşğul olmaq yoxdur. Son zamanlar mədəm məni yaman incidir. Mən məşhur həkimin keçmiş arvadının üstünə dırmaşdım. Mədəni dövr-aləm

səyahətçisinin üstünə. Onun kitab şkafında Bront bacıları da vardı. Bizim hər ikimizin də Karson MakKallersdən xoşumuz gəlirdi. “Ürək – Yalqız Ovçi”. Mən şeyimi üç-dörd dəfə onun içinə sərt şəkildə salıb çıxardım və o çətinliklə nəfəs almağa başladı. İndi yazarın nə demək olduğu haqqında onun bildikləri ondan-bundan eşitdiyi şeylər deyildi. Əlbəttə, o qədər də məşhur yazar haqqında yox, lakin mən öz evimin kirayə haqqını özüm ödəyə bilirdim və bu faktın özü insanı heyrətə gətirəcək bir iş idi. Bir gün o mənim hansısa kitabımın personajına çevrilə bilərdi. Mən mədəni bir qancığı sikirdim. Yavaş-yavaş son həddə necə yaxınlaşdığımı hiss edirdim. Mən öz dilimi onun ağzının dərinliyinə soxdum, onu öpdüm və qurtardım. Sonra yuvarlanaraq onun üstündən kənara düşdüm, özümü səfeh kimi hiss edirdim. Onu bir müddət buraxmayaraq ağuşumda tutdum, sonra isə o yataqdan qalxıb hamamxanaya keçdi. Onu Yunanıstanda sikmək, bəlkə də daha çox ləzzət verərdi. Amerika sikişmək üçün çox yaramaz yer idi.

Həmin gündən sonra, mən həftədə iki, ya da üç dəfə günorta saatlarında Nikolun yanına gedirdim. Biz oturub

şərab içə-içə söhbət edir, bəzən də sevişirdik. Mən anladım ki, o məni elə çox də maraqlandırmır, amma özümü bir şeylə məşğul etməliydim. Növbəti gün Lidiya ilə mən nəhayət ki, barışdıq. O məni sorğu-sual edərək günorta vaxtı hara getdiyimi soruşardı.

– Supermarketə getmişdim, – deyə cavab verərdim və bu da doğru idi. Çünki əvvəlcə, mən, həqiqətən də supermarketə gedərdim.

– İndiyədək sənin spupermarketlərdə bu qədər vaxt sərf etdiyini heç görməmişdim.

Bir gecə sərxoş olandan sonra Lidiyaya Nikol adında bir qadın tanıdığımı etiraf etdim. Nikolun harada yaşadığını da ona dedim, lakin onu da söylədim ki, "narahat olmalı bir şey yoxdur". Bunu ona nə üçün danışdığım heç özümə də aydın deyildi, lakin insan spirtli içki qəbul edəndə, bəzən aydın düşünə bilmir...

Bir gün mən spirtli içki dükanından qayıdırdım və Nikolun evinin yanına təzəcə çatmışdım. Əlimdə 6 paket butulka pivəsi və bir şüşə də viski vardı. Bu yaxınlarda Lidiya ilə mən yenə dalaşmışdıq. Ona görə də bu gecəni

Nikol ilə birlikdə keçirmək qərarına gəlmişdim. Elə indidən bir balaca sərməst halda öz yolumla yavaş-yavaş gedirdim ki, birdən arxadan kiminsə qaça-qaça mənə yaxınlaşdığını eşitdim. Geri çevrildim. Gələn Lidiya imiş.

– Aha! – o dedi. – Aha!

O, içki paketini mənim əlimdən dartıb aldı və onun içindən pivə şüşələrini çıxarmağa başladı. Sonra onları bir-bir yolun kənarındakı səkiyə çırparaq sındırdı. Şüşələr yerə çırpılarkən partlayışa bənzər səs çıxarırdı. Santa Monika Bulvarı adamların daim gur olduğu bir yerdir. Günorta hərəkətlənməsi elə yenicə artmağa başlamışdı. Bütün bu hadisələr düz Nikolun qapısının ağzında baş verirdi. Sonra Lidiyanın əlinə viski şüşəsi keçdi. O, şüşəni başı üzərinə qaldırdı və mənim üstümə qışqırdı:

– Aha! Sən bu şüşəni içib sonra da onu SİKMƏYİ planlaşdırırdın! – sözünü bitirən kimi Lidiya viski şüşəsini də səkiyə çırpdı.

Nikolun qapısı açıq idi və Lidiya pilləkənlər ilə yuxarı qaçdı. Nikol pilləkənlərin yuxarı meydançasında dayanmışdı. Lidiya əlindəki böyük çanta ilə Nikolu

kötəkləməyə başladı. Çantanın uzun qayışları vardı. O, çantanı var gücü ilə yellədib Nikolun başına tolazlayırdı.

– O mənim erkəyimdi! O mənim erkəyimdi! Mənim erkəyimdən uzaq dur!

Sonra pilləkən ilə aşağı qaçaraq mənim yanımdan keçdi və qapıdan küçəyə çıxdı.

– Aman Allahım, – Nikol dedi, – bu kimdir?

– Bu Lidiya idi. Mənə bir süpürgə və böyük kağız torba ver.

Mən aşağı enərək küçəyə çıxdım və şüşə qırıntılarını süpürərək qəhvəyi rəngli kağız torbaya yığmağa başladım. Bu qancıq bu dəfə lap həddini aşmışdı, deyə düşündüm. Gedib yenə içki alacağam. Bu gecəni də Nikolun yanında qalacağam, bəlkə də bir neçə gecəni.

Mən yerə əyilib şüşə qırıntılarını yığarkən, arxamda qəribə bir səs eşitdim. Dönüb arxaya baxdın. Bu öz Zibili ilə gələn Lidiya idi. O, maşını səkiyə çıxarmışdı və saatda 30 mil sürətlə düz mənim üstümə gəlirdi. Mən cəld kənara sıçradım və maşın cəmisi bir düym məndən aralı keçdi. Onun Zibili məhəllənin sonuna qədər getdi, səkinin kənarına

çırpılandan sonra küçəyə çıxdı və sonra növbəti döngədə sağa burularaq gözdən itdi.

Mən şüşə qırıntılarını süpürməyə davam etdim. Bütün qırıntıları süpürüb bir yerə yığdım və torbaya doldurdum. Sonra şüşələrin olduğu birinci torbanın içinə baxdım və orada salamat qalmış bir pivə şüşəsinin olduğunu gördüm. Şüşə normal görünürdü. Mənim, həqiqətən, ona ehtiyacım vardı. Mən onun qapağını açmaq istəyirdim ki, birdən kimsə onu dartaraq mənim əlimdən aldı. Bu yenə Lidiya idi. O, əlində pivə butulkası ilə Nikolun qapısına tərəf qaçdı və butulkanı qapının şüşəsinə tolazladı. O bunu elə sürətlə etdi ki, butulka nəhəng bir güllə kimi qapını dələrək keçdi və şüşəni tamam sındırmayaraq onda böyük və yumru bir dəlik açdı.

Lidiya qaçıb getdi və mən pilləkənlər ilə yuxarı qalxdım. Nikol isə hələ də yuxarı meydançada dayanmışdı.

– Allah xatirinə, Çinaski, nə qədər ki, o burda hamını həlak eləməyib, sən də onunla çıx get!

Mən geri çevrilib pilləkənlərlə enməyə başladım. Lidiya səkinin kənarında saxladığı maşının içində

oturmuşdu və mühərrik işləyirdi. Mən qapını açıb maşına oturdum və maşın yerindən tərpəndi. Heç birimizin ağzından bir söz belə çıxmadı.

24

İndi isə Nyu-Yorkda yaşayan bir qızdan məktublar almağa başlamışdım. Onun adı Mindi idi. O təsadüfən mənim bir neçə kitabıma rast gəlibmiş, amma onun məktublarında ən xoşuma gələn şey onun çox nadir hallarda yazıçılıqdan bəhs etməsiydi. O da özünün yazıçı olmadığını dediyi məqamlar idi. O öz məktublarında, ümumiyyətlə, müxtəlif şeylərdən, o cümlədən kişilər və seks haqqında yazırdı. Mindinin cəmi 25 yaşı vardı, o məktubları əllə, səliqəli və aydın bir xətlə, amma incə bir yumorla yazırdı. Mən onun məktublarına həmişə cavab yazırdım və öz poçt qutumda ondan gələn məktubların olduğunu görəndə də çox sevinirdim. Bəzi insanlar öz fikirlərini məktublarda söhbət zamanı olduğundan daha yaxşı ifadə edə bilirdilər, bəziləri isə bədii və yaradıcı məktublar yaza bilsələr də, şeir, hekayə

və ya roman yazmağa başlayanda, təşəxxüslü varlıqlara çevrilirlər.

Bir müddət sonra Mindi özünün bir neçə şəklini göndərdi. Əgər şəkillər yalan demirdilərsə, Mindi kifayət qədər gözəl bir qız idi. Biz bir neçə həftə də yazışandan sonra, Mindi məktubların birində mənə yaxın zamanlarda onu iki həftəlik məzuniyyət gözlədiyini yazdı.

Bəs niyə təyyarə ilə uçub mənim yanıma gəlmirsən? – deyə ona təklifdə bulundum.

Yaxşı, – o cavabında yazdı.

Biz bir-birimizlə zəngləşməyə başladıq. Nəhayət ki, o mənə Los-Anceles Beynəlxalq Hava Limanına enişinin tarixini söylədi.

Mən orada olacağam, deyə ona cavab verdim, məni heç nə saxlaya bilməz.

25

Onun gəliş tarixini yaddaşıma həkk eləmişdim. Lidiya ilə ayrılmaq üçün, səbəb yaratmaq heç vaxt çətin bir problem olmamışdı. Mən təbiətim etibarı ilə əslində, bir

qadınla yaşamaq, onunla birlikdə qida qəbul eləmək, onunla yatmaq, küçədə onunla birlikdə gəzməklə kifayətlənən tənha bir adam idim. Mənim söhbətlərə, ya da harasa getməyə ehtiyacım yox idi. Əlbəttə cıdır və boks yarışları istisna olmaqla. Televiziya da mənə çatmırdı. Bir kinoteatra getmək və orada başqa insanlarla birlikdə oturub onların emosiyaların paylaşmaq üçün pul vermək lazım gələndə də özümü axmaq kimi hiss edirdim. Qonaqlıqlardan da zəhləm gedirdi. Qumar oyunlarına, çirkin fırıldaqçı oyunlarına, eşqbazlığa, həvəskar sərxoşluğa və zəhlətökənlərə nifrət edirdim. Lakin qonaqlıqlar, rəqslər və xırda söhbətlər Lidiyaya əlavə enerji verirdi. O özünün çox seksapil olduğunu güman edirdi. Amma onun bu "məziyyəti" həddən artıq açıq-saçıq idi. Beləliklə, bizim aramızda yaranan mübahisələrin böyük əksəriyyəti mənim ümumiyyətlə-heç-bir-yad-adam olmasın arzuma qarşı onun mümkün-olduqca-çox-adam-mümkün-olduqca-tez-tez arzusu səbəbilə baş verirdi.

Mindinin gəlişinə bir neçə gün qalmış mən münaqişənin təməlini atmağa başladım. Biz çarpayıda yan-yana uzanmışdıq.

– Lidiya, Allah xatirinə, de görüm sən niyə belə kütbeyinsən? Sən başa düşmürsənmi ki, mən tənha bir insanam? Guşənişin birisiyəm? Yazılarımı yazmaq üçün mən məhz belə bir həyat tərzi sürməliyəm.

– Sən insanlarla ünsiyyətdə olmasan, onlar haqqında necə nəsə öyrənə bilərsən?

– Onlar haqqında artıq hər şeyi bilirəm.

– Biz yemək yemək üçün restorana gedəndə belə sən başını aşağı dikib otursan və heç kimə baxmırsan.

– Nə üçün onlara baxıb ürəyimi bulandırmalıyam axı?

– Mən insanları müşahidə edirəm, – o dedi. Onları öyrənirəm.

– Boş sözlərdi!

– Sən insanlardan, deyəsən, qorxursan axı!

– Mən onlara nifrət edirəm.

– Sən bu düşüncə ilə necə yazıçı ola bilərsən? Sən onları müşahidə belə eləmirsən!

– Yaxşı, deyək ki, mən insanlara baxmıram, lakin mən öz yazılarımla öz evimin kirayə pulunu verə bilirəm. Bu da qoyun otarmaqdan daha çətin bir işdir.

– Sən uzun müddət belə davam edə bilməzsən. Bu gedişlə, sən heç nəyə nail ola bilməyəcəksən. Sən hər şeyi lazım olduğunun tərsinə edirsən.

– Elə məhz ona görə də məndə hər şey alınır.

– Alınır? Lənət şeytana, sənin kim olduğunu bilən varmı? Bəlkə sən Meyler kimi məşhur birisisən? Bəlkə Kapote kimi məşhursan?

– Onlar heç yazı yaza bilmirlər.

– Amma sən yaza bilirsən! Bircə sən, Çinaski, yaza bilirsən!

– Bəli mən məhz belə düşünürəm.

– Sən məşhursanmı? Əgər Nyu-Yorka getsən, orada səni tanıyan bir kimsə varmı?

– Bura bax, bu dediklərin mənim heç vecimə deyil. Mən, sadəcə, öz yazılarımı yazmağa davam eləmək istəyirəm. Mənə zurna-balaban lazım deyil.

– Sən əlin yetən bütün zurna-balabanlardan imtina etməzdin.

– Bəlkə də.

– Sənin özünü artıq məşhur birisi kimi qələmə verməkdən xoşun gəlir.

– Mən yazarlığa başlamazdan əvvəl də özümü indiki kimi aparırdım.

– Sən həyatımda gördüyüm ən tanınmamış məşhur adamsan.

– Mən, sadəcə, şöhrətpərəst deyiləm.

– Şöhrətpərəstsən, amma tənbəlsən. Sən hər şeyə heç bir əziyyətsiz-filansız nail olmaq istəyirsən. Sən, ümumiyyətlə nə zaman yazırsan? Sən bunu nə vaxt edirsən? Nə vaxt baxırsan, sən ya çarpayıda uzanmısan, ya sərxoşsan, yaxud da at yarışlarına getmisən.

– Bilmirəm. Bu elə də vacib deyil.

– Bəs onda vacib olan nədir?

– Bizim bilici quşumuz sənsən, sən mənə de, – mən ona dedim.

– Yaxşı, nəyin vacib olduğunu indi mən sənə deyərəm! – Lidiya qeyzlə dedi. – Uzun müddətdən bəri bir dənə də olsun qonaqlıqda olmamışıq. Uzun müddətdən bəri bir insan övladı görməmişəm! Mən insanları SEVİRƏM! Mənim bacılarım əyləncəli gecələri SEVİRLƏR! Bir qonaqlıqda iştirak etmək xatirinə onlar min mil məsafəni qət etməyə hazırdırlar! Bax, Yutada bizi belə tərbiyə ediblər! Əyləncəli gecələrdə qəbahətli heç nə yoxdur. Qonaqlıqda insanlar, sadəcə, MƏNƏVİ İSTİRAHƏT EDİRLƏR və vaxtlarını gözəl keçirirlər! Bu axmaq fikir bircə sənin beynində özünə yer eləyə bilib. Sənin düşüncənə görə, əylənmək sonunda birmənalı olaraq hökmən sikişməklə bitəcək! Aman Allahım, axı insanlar namusludurlar! Sən, sadəcə, öz vaxtını gözəl keçirməyi bacarmırsan!

– Mənim insanlardan xoşum gəlmir, – dedim.

Lidiya çarpayıdan dik atıldı.

– İlahi, sənə baxanda ürəyim bulanır!

– Yaxşı, onda mən sənə bir az “boş məkan” verərəm.

Mən ayaqlarımı çarpayıdan aşağı salladım və ayaqqabılarımı geyinməyə başladım.

– Bir az boş məkan? – Lidiya dedi. – Boş məkanla nə demək istəyirsən?

– Demək istəyirəm ki, burdan cəhənnəm olub gedirəm!

– Yaxşı, amma qulaqlarını aç, deyəcəklərimə yaxşı-yaxı qulaq as: əgər bu qapıdan çıxsan, məni bir də görməyəcəksən!

– Mənim üçün hava xoşdur, – mən dedim.

Mən yerimdən qalxdım, qapıya yaxınlaşdım, onu açdım, arxamca bağladım və pilləkənlərlə aşağı enib öz folksvagenimə tərəf getdim. Mühərriki işə saldım və maşını sürərək oradan uzaqlaşdım. Mən, əslində, Mindi üçün bir balaca sərbəst məkan hazırlamışdım.

26

Hava limanında oturub gözləyirdim. Həmişə fotoşəkillər adamı aldadır. Onlara baxıb heç vaxt heç nəyi dəqiq söyləmək olmur. Mən həyəcan keçirirdim. Ürəyim bulanır, qusmağım gəlirdi. Siqaret yandırdım. Tüstüsü məni boğdu. Bütün bunları niyə edirəm? İndi Mindini heç

istəmirdim. Mindi isə ta Nyu-Yorkdan bura qədər uçaraq mənim yanıma gəlirdi. Mənim çoxlu qadın tanışlarım vardı. Niyə həmişə onların sayı çox olmalıdır? Mən nə etməyə çalışırdım? Yeni məhəbbət macəraları, əlbəttə ki, adamı həyəcana gətirir. Amma bu da artıq danılmaz faktdır ki, özləri ilə bərabər yeni və ağır qayğılar da gətirirlər. Birinci öpüşdə, birinci sikişmədə nəsə bir dramatizm var. Səbəbi elə də dərində deyil. Başlanğıcda yeni insanlar həmişə adama maraqlı gəlir. Nəhayət, bir müddət sonra, yavaş-yavaş olsa da onların bütün qüsur və çatışmazlıqları özünü mütləq qaçılmaz bir şəkildə büruzə verir. Mən onlar üçün öz əhəmiyyətimi getdikcə itirməyə başlayıram; onlar da getdikcə mənim üçün öz dəyərlərini itirirlər.

Mən qoca və kifir idim. Bəlkə də elə buna görə cavan qızlara soxmaq mənə belə ləzzət verirdi. Mən Kinq Konq, onlar isə zərif və incə məxluqlar idilər. Bəlkə mən sikişmək yolu ilə ölümün yanından salamat keçmək istəyirəm? Bəlkə mən cavan qızlarla birlikdə olmaqla daha qocalmayacağıma və özümü qoca kimi hiss etməyəcəyimə ümidliydim? Mən, sadəcə, çox pis şəkildə qocalmaq istəmirdim. Ölüm gəlib

məni haqlamağa macal tapmamış həyatla bütün əlaqələrimi bitirmək və rahatca ölmək istəyirdim.

Mindinin təyyarəsi yerə enib öz duracağına tərəf hərəkət etməyə başladı. İçimdə baş qaldıran hiss məni təhlükə gözlədiyindən xəbər verirdi. Qadınların, qiyabi də olsa, məni əvvəlcədən tanımaq imkanları olurdu. Çünki onlar mənim kitablarımı oxuyurdular. Kitablarımla özümün bütün sirlərimi faş edirdim. Mənim özümünsə onlar haqqında heç bir bilgim olmurdu. Belə çıxırdı ki, mən əsl qumarbaz idim. Məni öldürə bilərdilər, xayalarımı kəsə bilərdilər. Xayaları kəsilmiş Çinaski. Xədimin Sevgi Şeirləri.

Dayanıb Mindini gözləyirdim. Sərnişinlər qapıdan çıxmağa başladılar.

Ah, ümid edirəm ki, Mindi onlardan birisi deyil.

Ya da odur.

Yaxud da bu odur.

Bax, bu o olsaydı lap əla olardı! O ayaqlara bir bax, o sağrılara, o gözlərə bəh, bəh...

Onlardan birisi mənə tərəf gəldi. Ümid etdim ki, bu gələn o olar. Bu lənətə gəlmiş böyük kütlənin içində o ən gözəli idi. Mənə belə bəxtəvərlik üz verə bilməzdi. O mənə yaxınlaşdı və gülümsəyərək dedi:

– Mən Mindiyəm.

– Sizin Mindi olduğunuza çox sevindim.

– Sizin də Çinaski olduğunuza mən sevindim.

– Siz baqajı gözləməlisinizmi?

– Hə, özümlə o qədər şey-şüy gətirmişəm ki, burada uzun müddət qalmağıma bəs edər!

– Onda gəl sənin baqajını barda gözləyək.

Biz bara girdik və özümüz üçün boş bir masa tapdıq. Mindi vodka ilə tonik sifariş elədi. Mən isə vodka-7 sifariş elədim. Ah, demək olar ki, tam həmahəngliklə. Mən onun siqaretini yandırdım. O çox gözəl, demək olar ki, lap bakirə, lap məsum görünürdü. Buna inanmağım gəlmirdi. Balaca, sarışın saçlı və qüsursuz qədd-qamətli. O, mürəkkəb sünilikdən daha çox təbii görünürdü. Onun yaşımtıl maviyə çalan gözlərinin içinə baxmaqda çətinlik çəkmədiyimi anladım. Qulaqlarından iki dənə balaca sırğa asılmışdı.

Dikdaban ayaqqabılar geyinmişdi. Xatırladım... Mindiyə dikdaban ayaqqabıların məni həyəcanlandırdığını yazmışdım.

– Hə, nədir, – o dedi, – qorxursunuz?

– Daha elə də yox. Siz mənim xoşuma gəlirsiniz.

– Həyatda fotoşəkillərdə olduğunuzdan daha yaxşı görünürsünüz, – Mindi dedi. – Siz mənə heç də çirkin gəlmədiniz.

– Sağ olun.

– Aaa, mən heç də sizin yaraşıqlı olduğunuzu demək istəmədim, yəni insanların yaraşıqlı deyəndə nə anladıqları mənada yox. Sizin üzünüzdə xeyirxah bir ifadə var. Gözləriniz isə – gözləriniz çox, xüsusilə gözəldir. Onlar yanan meşədən baxan yırtıcı heyvanın gözləri kimi vəhşi və dəlisovdur. İlahi, hə, nəsə buna bənzər bir şey demək istəyirdim. Fikrimi sözlərlə ifadə etməkdə elə də məharətli deyiləm.

– Sizin çox gözəl olduğunuzu düşünürəm, – mən dedim. – Və çox sevimlisiniz. Sizin yanınızda özümü olduqca xoşbəxt hiss edirəm. Məncə, yaxşı ki, biz indi

birlikdəyik. İçkinizi bitirin. Biz bir-bir də içməliyik. Siz yazdığınız məktublara bənzəyirsiniz.

Biz ikinci qədəhləri də boşaldandan sonra baqajı almaq üçün bardan çıxdıq. Mindi ilə yanaşı yürüməkdən fəxarət hissi keçirirdim. Onun gəzişində də xüsusi bir tərz vardı. Ağır yük vurulmuş canlılar kimi yöndəmsiz şəkildə hərəkət edən o qədər gözəl qamətli qadınlar var ki. Mindinin yerişi isə axına bənzəyirdi.

“Bu, həqiqət olmaq üçün həddən artıq yaxışdır”, – fikri heç cür başımdan çıxmırdı. Real həyatda bu cür olmur.

Mənim evimə çatandan sonra Mindi vanna qəbul elədi və əyin-başını dəyişdi. Hamamxanadan yüngül mavi paltarda çıxdı. Saç düzümünü də dəyişdirmişdi, sadəcə, bir az. Biz əlimizdə vodka və vodka kokteyli ilə divanda oturmuşduq.

– Hə, – mən dedim, – mən hələ də qorxuram. Ona görə də, indi mən bir balaca sərxoş olmağa hazırlaşıram.

– Sizin evinizi elə belə də təsəvvür edirdim, – deyə o dilləndi.

O mənə baxaraq gülümsəyirdi. Mən əlimi uzadıb onun boynunun arxasına yüngülcə toxundum, onu özümə tərəf çəkdim və ehtiyatla, yavaşca öpdüm.

Telefon zəng çaldı. Lidiya idi.

– Sən nə ilə məşğulsan?

– Bir dostumla birlikdəyəm.

– Bu, dost dediyin qadındır, elə deyilmi?

– Lidiya, bizim aramızdakı münasibətlər artıq bitib, – mən dedim. – Bunu sən də bilirsən.

– BU DOSTUN QADINDIR, DÜZ DEYİRƏM?

– Bəli.

– Hə, yaxşı.

– Oldu. Di salamat qal.

– Salamat qal, – o dedi.

Lidiyanın danışıq tonu qəfildən çox yumşalmışdı. Bundan sonra mən özümü daha yaxşı hiss etdim. Onun hiddətlənməsi məni qorxudurdu. O həmişə iddia edirdi ki, bizim aramızda qısqanc olan mənəm və həqiqətən də bu beləydi – mən tez-tez onu qısqanırdım. Lakin hər şeyin mənim əksimə işlədiyini görəndə, içimdə, sadəcə, nifrət

hissi baş qaldırırdı və mən geri çəkilirdim. Lidiya isə tamamilə fərqli idi. O hər şeyə reaksiya verirdi. Zorakılıq Oyununda Dəstək Qrupunun Başçısı idi.

Amma danışıq tonundan anladım ki, o daha təslim olub. Anladım ki, daha qəzəblənmir. Səsindən hansı ovqatda olduğunu artıq yaxşı başa düşürdüm.

– Bu mənim keçmiş sevgilim idi, – mən Mindiyə dedim.

– Aranızda hər şey bitibmi?

– Hə.

– O sizi hələ də sevirmi?

– Məncə, hə.

– Onda hələ heç nə bitməyib.

– Yox bitib.

– Mənim qalmağımı istəyirsinizmi?

– Əlbəttə. Lütfən.

– Siz məndən, sadəcə, istifadə etmirsiniz, deyilmi? Sizin Lidiyaya... yazdığınız bütün sevgi şeirlərini oxumuşam.

– O zaman ona aşiq olmuşdum. Və sizdən də istifadə etmək fikrində deyiləm.

Mindi öz bədəni ilə mənə qısıldı və məni öpdü. Bu çox uzun bir öpüş oldu. Bu öpüşdən sikim də qalxdı. Son zamanlar çoxlu vitamin "E" qəbul edirdim. Seks haqqında mənim öz düşüncələrim vardı. Mən həmişə tətikdə olurdum. Özümsə davamlı şəkildə masturbasiya ilə məşğul olurdum. Axşamlar Lidiya ilə sevişəndən sonra evimə gəlirdim və səhərlər yenə masturbasiya ilə məşğul olurdum. Seks haqqında qadağan olunmuş bir şey kimi düşünmək özü məni bütün başqa səbəblərdən daha çox həvəsə gətirir, hətta məni davamlı seksə təhrik edirdi. Sanki bir heyvan başqasını bıçaqla öz iradəsinə itaət etməyə məcbur edirdi.

Mən qurtaranda içimdə elə hiss yaranırdı, elə bil bütün əxlaq və tərbiyə dəyərlərinin önündə qurtarıram, ağ sperma mənim vəfat etmiş valideynlərimin başlarına və ruhlarına damcılayır. Əgər dünyaya qadın olaraq gəlsəydim, heç şübhəsiz, mən fahişə olardım. Madam ki, kişi olaraq doğulmuşam, fasiləsiz olaraq yanımda bir qadının olmasını arzulayıram, nə qədər balaca olsa, bir o qədər yaxşıdır.

Bununla belə qadınlar – yaxşı qadınlar – məni qorxudurdular, çünki nəhayətində səndən bütün ruhunu onlara verməyi tələb edirdilər, mən isə ruhumdan qalan nə varsa, özümə saxlamaq istəyirdim. Əsas etibarı ilə mən fahişə qadınları arzulayırdım: alçalmış qadınları. Çünki onlar nə qədər təhlükəli və qəddar olsalar da, səndən özəl heç nə tələb eləmirdilər. Onlar səni tərk edib gedəndə, heç nəyini itirmirsən. Bununla belə, eyni zamanda, ödənməsi tələb olunan yüksək qiymətə baxmayaraq, mən zərif və mərhəmətli qadınların da həsrətini çəkirdim, onları arzulayırdım. Hara fırlatsan da, buradan mənim üçün çıxış yolu görünmürdü. Güclü kişi bunların hər ikisindən də imtina edərdi. Mən isə güclü deyildim. Ona görə də qadınlar və qadın ideyasının özü ilə mübarizəyə davam edirdim.

Mindi ilə içki şüşəsini boşaldandan sonra yatağa girdik. Mən bir müddət onun ora-burasın öpdüm, sonra ondan üzr istəyərək kənara çəkildim. Yataqda nəsə eləmək iqtidarında olmaq üçün mən həddən artıq çox içmişdim. Lənətə gəlmiş nəhəng sevgili, yox bir pox. Ona çox yaxın gələcəkdə

yaşayacağı çox gözəl yataq macəraları vəd edəndən sonra, onun mənə qısılmış bədəninin yanında yuxuya getdim.

Ertəsi gün səhər yuxudan ayıldım, ürəyim bərk bulanırdı. Dönüb yanımda lüt yatmış Mindiyə baxdım. Axşamkı sərxoşluqdan sonra da o bir möcüzə idi. Həyatımda heç vaxt belə gözəl, həm də belə ağıllı və incə bir cavan qız görməmişdim. Bəs onun erkəkləri hara yox olublar? Onlar harda yanılıblar?

Mən hamamxanaya keçdim və özümü qaydaya salmağa çalışdım. "Lavoris"dən az qala boğulacaqdım. Üzümü qırxdm və bir az lasyon vurdum. Saçlarımı nəmləndirib daradım. Sonra soyuducya yaxınlaşdım və onun içindən bir şüşə "7-UP" götürüb başıma çəkdim.

Yenə yataq otağına qayıtdım və yatağa girdim. Mindinin bədəni ilıq idi. Deyəsən, o hələ yuxudan ayılmamışdı. Bu vəziyyət də xoşuma gəlirdi. Mən öz dodaqlarımı yumşaqlıqla onun dodaqlarına sürtdüm. Şeyim dərhal bərkidi. Onun döşlərini öz sinəmə sıxdım. Məmənin birisini ağzıma alıb əmdim. Məmənin bərkidiyini hiss elədim. Mindi yerində qurcalandı. Mən əlimi bir az da aşağı

saldım və onun bütün qarnında gəzdirdim, sonra bir az da aşağı endim və amına yüngülcə toxundum.

Elə bil qızılgül qönçəsini açılmağa məcbur edirdin, deyə düşündüm. Bunda bir məna var. Bu əladır. Bu, iki böcəyin bağçanın içi ilə yavaş-yavaş bir-birinə tərəf hərəkət etməsinə bənzəyirdi. Erkək tələsmədən öz ovsununu yayır. Dişi isə yavaş-yavaş açılır. Bu xoşuma gəlir, çox xoşuma gəlir. İki böcək. Mindi də açılır, yavaş-yavaş nəmlənirdi. O çox gözəl görünürdü. Sonra onun üstünə çıxdım və ağzımı ağzına dayayaraq şeyimi içinə soxdum.

27

Biz bütün günü spirtli içkilər içdik və həmin axşam mən yenə Mindi ilə sevişməyə cəhd elədim. Mindinin amının çox böyük olduğunun fərqinə varanda heyrətləndim. Əməlli-başlı hürkdüm. Böyükdən də böyük. Keçən gecə mən bunu hiss eləməmişdim. Bu, faciə idi. Qadının ən böyük qüsuru. Mən durmadan elə hey onun üstündə işləyirdim. Mindi isə tərpənmədən yataqda uzanmışdı, guya

bu prosesdən həzz alırdı. Allaha ümid edirdim ki, bu, həqiqətən, onun xoşuna gəlsin. Mən artıq tərləməyə başlamışdım. Belimdə ağrılar hiss edirdim. Başım gicəllənirdi, ürəyim bulanırdı. Onun amı isə, deyəsən, getdikcə böyüyürdü. Heç nə hiss eliyə bilmirdim. Elə bil böyük bir kağız torbanı sikməyə çalışırdım. Onun uşaqlıq yolunun divarlarına demək olar ki, təmas etmirdim. Bu, iztirablı, heç bir mükafatı olmayan ağır bir işə bənzəyirdi. Özümü çox pis hiss edirdim. Onun duyğularını incitmək istəmirdim. Mən şiddətlə qurtarmaq istəyirdim. Məsələ yalnız mənim sərxoşluğumda deyildi. Mən sərxoş ikən bir çoxlarından daha yaxşı nəticələr göstərirdim. Öz ürəyimin döyüntülərini eşidirdim. Öz ürəyimi hiss edirdim. Ürəyimin köksümdə necə çırpındığını hiss edirdim. Ürəyimi boğazımda hiss edirdim. Ürəyimi başımda hiss edirdim. Buna daha dözümüm qalmamışdı. Təngənəfəs olduğumdan çətinliklə nəfəs ala-ala onun üstündən yan tərəfə yuvarlandım.

– Bağışla məni, Mindi, Allah xatirinə, məni bağışla.

– Hər şey qaydasındadı, narahat olma, Henk, – o dedi.

Qarnımın üstünə çevrildim. Məndən tər iyi gəlirdi. Yerimdən qalxdım və iki qədəh içki süzdüm. Biz yataqda yan-yana dik oturub içkilərimizi içdik. Mən bir şeyi başa düşə bilmirdim, necə olmuşdu ki, mən birinci dəfə qurtara bilmişdim. Bizim problemimiz vardı. Bütün bu gözəllik, bütün bu zəriflik və bütün bu mehribanlığa baxmayaraq, bizim problemimiz vardı. Bunun səbəbini Mindiyə demək iqtidarında deyildim. Onun amının böyük olduğunu ona necə deyəcəyimi bilmirdim. Bəlkə də bunu ona heç kim heç vaxt söyləməmişdi.

– Bu qədər çox içmədiyim zaman hər şey daha yaxşı olacaq, – mən ona dedim.

– Xahiş edirəm, Henk, bu qədər narahat olma.

– Yaxşı.

Biz yatdıq, ya da özümüzü yatmış kimi göstərdik. Nəhayət mən yuxuya getdim...

28

Mindi mənim evimdə təxminən bir həftə qonaq qaldı. Onu öz dostlarımla da tanış elədim. Birlikdə bir çox yerləri

gəzib dolaşdıq. Amma aramızdakı problemi çözə bilməmişdik. Mən heç cür orqazma çata bilmirdim. Deyəsən, heç nə onu narahat etmirdi. Təəccüblü olan da elə bu idi.

Bir axşam, saat təqribən 22:45 radələrində Mindi ön otaqda oturub içki içərək jurnal oxuyurdu. Mən isə əynimdə, sadəcə, qısa tumanla, sərxoş bir vəziyyətdə, siqaret çəkə-çəkə və yanımdakı stulun üstündə dolu bir qədəh içki ilə çarpayıda uzanmışdım. Heç nə hiss etmədən və heç nə haqqında düşünmədən gözlərimi mavi tavana zilləmişdim.

Birdən bayır qapı döyüldü.

Mindi dedi:

– Qapını açımmı?

– Əlbəttə, – deyə cavab verdim, – get aç.

Mindinin qapını açmasını eşitdim. Sonra isə Lidiyanın səsi eşidildi.

– Sadəcə gəlmişəm ki, mənim rəqibimin kim olduğunu görüm.

Aha, mən düşündüm, bu lap əla oldu ki. İndi yerimdən qalxıb onların hər ikisinə də içki süzərəm. Hamımız birlikdə

içər və söhbət edərik. Qadınlarımın bir-birini anlaması, çox xoşuma gəlir.

Sonra Lidiyanın, – "Sən arıq və balaca zibilsən, düz demirəmmi?" – dediyini eşitdim.

Bundan sonra Mindinin qışqırdığını eşitdim. Lidiya da qışqırdı. Orada mübarizə, hıqqıltı və yerə çırpılan bədən səsləri eşitdim. Mindi yenə qışqırdı – elə bil ona hücum eləmişdilər. Lidiya bağırdı – bu qışqırıq öz qurbanının başının üstünü almış pələngin nərəsinə bənzəyirdi. Mən sıçrayaraq yataqdan qalxdım. Onları bir-birindən ayırmaq istəyirdim. Cəld əynimdəki bircə qısa tumanla ön otağa qaçdım. Orada dəli bir səhnənin şahidi oldum: onlar bir-birinin saçını didir, bir-birinə tüpürür və cırmaqlaşırdılar. Onları ayırmaq üçün irəli şığıdım, amma xalçanın üstündəki öz ayaqqabılarıma ilişərək kökündən kəsilmiş ağac kimi döşəməyə çırpıldım. Mindi cəld bir hərəkətlə qapıdan çıxaraq bayıra qaçdı, Lidiya isə vaxt itirmədən onun arxasında cumdu. Onlar cığırla küçəyə tərəf qaçırdılar. Bir fəryad səsi də eşitdim.

Bir neçə dəqiqə keçdi. Mən döşəmədən ayağa qalxıb qapını bağladım. Görünür Mindi qaçıb canını qurtara bilmişdi. Çünki qəfildən qapı açıldı və Lidiya otağa daxil oldu. O, qapının yanındakı stula oturub mənə baxdı.

– Məni bağışla. Mən işəyib altımı batırmışam.

O doğru deyirdi. Onun qasığında tünd bir ləkə izi vardı və şalvarının bir qıçı islanmışdı.

– Boş ver, eybi yoxdur, –dedim.

Mən Lidiyaya bir qədəh içki süzdüm və o qədəhi əlində tutaraq elə oradaca oturmuşdu. Öz qədəhimi isə əlimdə düz tuta bilmirdim. Heç birimiz danışmırdıq. Qısa bir müddət keçəndən sonra qapı döyüldü. Mən bircə qısa tumanda yerimdən qalxdım və qapını açdım. Mənim nəhəng, ağ və sallaq qarnım tumanın rezininin üstündən aşaraq aşağı sallanırdı. Qapıda iki polis məmuru dayanmışdı.

– Salam, – mən onlara dedim.

– Biz ictimai asayişin pozulması ilə bağlı bizə daxil olmuş telefon zənginə görə gəlmişik.

– Bu, sadəcə, xırda ailə-məişət zəminində baş vermiş mübahisə idi, – deyə onlara cavab verdim.

– Mübahisənin bəzi təfsilatları haqqında da bizə məlumat verilib, – Mənə yaxın dayanmış polis məmuru dedi. – Söhbət iki qadından gedir.

– Adətən həmişə elə belə də olur, – deyə cavab verdim.

– Yaxşı, – birinci polis məmuru dedi. – Yalnız sizə bir sualım var.

– Buyurun.

– Bu iki qadından hansını qəbul edirsiniz?

– Mən bunu qəbul edirəm, – deyərək işəyib bütün üst başını batırmış halda kresloda oturan Lidiyaya əlimlə işarə elədim.

– Yaxşı, ser, siz əminsinizmi?

– Hə, əlbəttə.

Polis məmurları çıxıb gedəndən sonra, mən yenə Lidiya ilə birlikdə idim.

29

Ertəsi gün telefon zəng çaldı. Lidiya artıq öz evinə qayıtmışdı. Zəng vuran Bobbi idi. Qonşu məhəllədə yaşayan və pornoqrafik kitablar dükanında işləyən oğlan.

– Mindi mənim yanımdadır. O xahiş edir ki, sən bura gəlib onunla danışasan.

– Yaxşı.

Mən özümlə 3 şüşə pivə götürüb ora getdim. Mindinin ayaqlarında hündürdaban ayaqqabılar və əynində "Federiks"dən şəffaf paltar vardı. Bu geyim gəlincik paltarını xatırladırdı və onun altından Mindinin qara qısa tumanı görünürdü. Əynində lifçik yox idi. Valeri də ətrafda gözə dəymirdi. Mən əyləşdim, pivə şüşələrinin qapaqlarını buraraq açdım və onların hərəsinə bir şüşə verdim.

– Sən Lidiyanın yanına qayıdırsan, Henk? – Mindi məndən soruşdu.

– Bağışla məni, hə. Qayıdıram.

– Bu baş verənlər çox pis oldu. Mən elə bilirdim Ldiya ilə sənin aranda hər şey bitib.

– Mən də elə düşünürdüm. Bu işlər qəribədir, həmişə bizim düşündüyümüz kimi olmur.

– Mənim bütün paltarlarım sənin evindədir. Onları götürmək üçün sənin evinə gəlməli olacağam.

– Əlbəttə.

– Onun sənin evindən getdiyinə əminsənmi?

– Hə.

– O, öküz kimi hərəkət edir, o qadın, o elə bil kişidir.

– Məncə, o elə deyil.

Mindi ayağa qalxıb vanna otağına keçdi. Bobbi mənə tərəf baxdı.

– Mən onu qayırmışam, – o dedi. – Buna görə onu günahlandırma. Onun gedəcək yeri yox idi.

– Onu günahlandırmıram.

– Onun ovqatını bir qədər yaxşılaşdırmaq üçün Valeri onu "Frederiks"ə apardı və ona yeni paltarlar aldı.

Mindi vanna otağından çıxıb yanımıza gəldi. O ağlayırdı.

– Mindi, – mən dedim. – İndi mən getməliyəm.

– Paltarlarımı almaq üçün mən sonra gələrəm.

Mən ayağa qalxdım və qapıdan çıxdım. Mindi də arxamca bayıra çıxdı.

– Qucaqla məni, – o dedi.

Mən onu qucaqladım. O yenə ağlamağa başladı.

– Sən məni heç vaxt unutmayacaqsan... heç vaxt!

Mən evimə piyada gedir və öz-özümə düşünürdüm: maraqlıdır, görəsən Bobbi Mindini doğrudanmı qayırıb? Bobbi ilə Valeri bir çox yeni və qəribə işlərlə məşğul olurdular. Onlarda adi hisslərin olmaması mənim heç vecimə də deyildi. Mənə maraqlı gələn şey onların bu işləri heç bir emosiya göstərmədən edə bilmələri idi. Başqa birisi eynilə əsnəyə və ya kartof qaynada bilərdi.

30

Lidiyanı bir qədər sakitləşdirmək üçün Mulzhedə – Yuta ştatına getməyə razılıq verdim. Onun bacısı dağlıq ərazidə gəzintiyə çıxaraq orada düşərgə salmışdı. Əslində, o ərazinin böyük bir hissəsi bu bacıların mülkiyyətindəydi. Onlar bu torpaqları öz atalarından miras almışdılar. Bacılardan birisi, Qlendolina, meşəlikdə çadır qurdurmuşdu. O, “Dağların Vəhşi Qadını” adlı bir roman yazırdı. O biri bacıların isə yaxın günlərdə gəlmələri gözlənilirdi. İlk gələn Lidiya ilə mən olduq. Bizim balaca bir səhra çadırımız

vardı. İlk gecə bir təhər sıxışaraq oraya yerləşdik, amma ağcaqanadlar da bizimlə birlikdə çadıra soxula bilmişdilər. Dəhşət idi.

Ertəsi gün səhər biz düşərgə tonqalının ətrafında oturmuşduq. Qlendolina ilə Lidiya səhər yeməyi hazırlayırdılar. Mən təxminən $40 dollarlıq ərzaq almışdım, bunun içinə bir neçə dənə 6 pivəlik paket də daxil idi. Pivələri soyutmaq üçün onları dağ bulağının içinə qoymuşdum. Səhər yeməyini bitirəndən sonra, mən qabları yumaqda onlara kömək elədim. Sonra isə Qlendolina öz romanını çıxarıb bizə oxumağa başladı. Əslində roman elə də pis yazılmamışdı, amma mətn çox qeyri-peşəkar bir tərzdə yazılmışdı və yazının dərindən redaktə olunmasına ehtiyac vardı. Qlendolina elə güman edirdi ki, oxucu da bu qadının həyatına onun özü kimi heyran qalacaq – bu isə ölümcül bir səhv idi. Onun buraxdığı başqa ölümcül səhvlərin sayı burada qeyd edilməsi üçün həddən ziyadə çoxdur.

Mən çeşməyə tərəf getdim və əlimdə 3 şüşə pivə ilə geri döndüm. Qızlar pivədən imtina etdilər, pivə içmək

istəmirdilər. Onlar ümumiyyətlə pivəyə qarşı idilər. Biz Qlendolinanın romanını müzakirə etdik. Mən belə bir nəticəyə gəlmişdim ki, hər kim öz romanını ucadan başqalarına oxumağa can atırsa, onlarla ehtiyatla davranmaq lazımdır. Əgər bu, məşhur ölüm öpüşü deyildisə, deməli ümumiyyətlə belə bir şey mövcud deyildi.

Bizim söhbətimiz öz məcrasını dəyişdi və qızlar kişilər, əyləncə gecələri, rəqs və seks haqqında çərənləməyə başladılar. Qlendolinanın zil və həyəcanlı səsi vardı. O əsəbi bir tərzdə gülürdü, özü də fasiləsiz olaraq gülürdü. Onun yaşı qırxdan bir xeyli keçmişdi, çox tosqun və səliqəsiz bir qadın idi. Bundan əlavə, o lap mənim kimi, çox kifir idi.

Qlendolina bir saatdan artıq bir müddət nəfəs almadan elə hey aramsız danışdı. Özü də yalnız seks haqında. Mənim başım yavaş-yavaş dönməyə başlamışdı. O, qollarını başı üzərində havaya qaldırıb ora-bura yellədirdi.

– DAĞLARIN VƏHŞİ QADINI MƏN ÖZÜMƏM! AH HARDADIR, AH HARDADIR O KİŞİ, MƏNİ RAM ETMƏYƏ CÜRƏTİ ÇATACAQ O ƏSL KİŞİ HARADADIR?

Hə, qəti şəkildə iddia etmək olar ki, o indi burda deyil, deyə düşündüm.

Mən çönüb Lidiyaya baxdım.

– Gəl gedib bir az gəzişək.

– Yox, – deyə o etiraz etdi. – Mən bu kitabı oxumaq istəyirəm. – Kitabın adı "Sevgi və Orqazm" idi: Cinsi İcraya dair İnqilabi Təlimat.

– Yaxşı, – mən dedim, – onda təkbaşına gəzişəcəyəm.

Mən dağ çeşməsinə yaxınlaşdım. Əlimi uzadıb bir pivə də götürdüm, qapağını açdım və orada oturub pivəni içməyə başladım. Bu dağlarda tələyə düşmüşdüm, özü də iki zır dəli qadınla birlikdə. Onlar durmadan seks haqqında danışmaqla sikişməyin də ləzzətini qaçırmışdılar. Mənim də sikişməkdən xoşum gəlir, amma bu iş mənim dinim deyildi axı. Bu işin içində həddən çox gülməli və faciəli şeylər var. Gördüyüm qədərilə insanlar onunla necə rəftar edəcəyini bilmədiklərindən, onu oyuncağa çevirmişdilər. İnsanların həyatını qaraldan oyuncağa.

Qərara gəldim ki, ən əsası düzgün qadını tapmaqdı. Amma necə tapmalı? Yanımda qırmızı bloknot ilə bir qələm

vardı. Bloknota meditativ bir şeir cızma-qara elədim. Sonra gölə tərəf getdim. Bu yer "Vans Otlaqları" adlanırdı. Bu örüşlərin böyük bir hissəsi bacıların mülkiyyətiydi. Mən sıçmaq istəyirdim. Ona görə də, şalvarımı çıxardım. Milçək və ağcaqanadlarla birlikdə kolluğun arasında yerə çöməldim. Şəhərin rahatlığından istənilən an istifadə edə bilərdim. Lakin burada dalımı yarpaqlarla silməliydim. Sonra gölə yaxınlaşıb bir ayağımı suya saldım. Su buz kimi soyuq idi.

Kişiliyin olsun, qoca adam. Suya gir.

Dərim fil dişi kimi ağarmışdı. Özümü çox qocalmış, çox boşalmış hiss etdim. Buz kimi donduran su ilə irəlilədim. O qədər getdim ki, su mənim belimə çatdı, sonra dərindən nəfəsimi dərdim və özümü irəli atdım. Bütün bədənimlə suya dalmışdım! Gölün dibindəki lil sorularaq yuxarı qalxdı. Lil qulağıma, ağzıma və saçlarımın arasına doldu. Lilli suyun ortasında durmuşdum. Soyuqdan bir-birinə dəyən dişlərim bərk şaqqıldayırdı.

Suyun durulub təmizlənməsi üçün uzun müddət gözləməli oldum. Sonra quruya tərəf addımladım.

Paltarlarımı geyindim və gölün kənarı ilə getməyə başladım. Gölün sonuna çatanda, şəlalə səsinə bənzər bir gurultu eşitdim. Meşənin içinə girib səs gələn tərəfə getməyə başladım. Yarğandan keçmək üçün bir neçə qayanın ətrafından dönərək irəliləməli oldum. Səs isə getdikcə yaxınlaşır, daha da gurlaşırdı. Milçək və ağcaqanadlar hər tərəfimi bulud kimi sarmışdılar. Buradakı milçəklər çox böyük, acıqlı və ac idilər. Üstəlik şəhərdəki həmcinslərindən qat-qat böyük idilər və uzaqda hərəkət edən bir şey görəndə, onun yeməli olub-olmadığını dəqiq bilirdilər.

Özümə birtəhər yol açıb sıx kolluqdan keçdim və budur: həyatımda ilk kəşf etdiyim şəlalə. Su dağdan aşağı durmadan elə hey axaraq qaya çıxıntısının üstünə tökülürdü. Bu çox gözəl mənzərə idi. Su elə hey axır, axır, axırdı. Bu su haradansa gəlirdi. Və harayasa axıb gedirdi. Şəlalənin 3, ya da 4 qolu vardı. Və yəqin ki, bu qollar axıb hardasa gölə tökülürdü.

Nəhayət, ona tamaşa etməkdən yoruldum və geri qayıtmaq qərarına gəldim. Üstəlik geri qayıdarkən daha yaxın olan başqa kəsə bir yolla gedəcəyimi qərar almışdım.

Mən yeni seçdiyim yolla gölün qarşı tərəfinə çıxdım və kəsə yolla düşərgəyə tərəf getməyə başladım. Düşərgənin yerini təxmini bilirdim. Mənim qırmızı bloknotum, həmişə olduğu kimi, yanımda idi. Ayaq saxlayıb başqa bir şeir yazdım, bu dəfə daha az mediativ, sonra isə yoluma davam etdim. Mən durmadan elə hey addımlayırdım. Düşərgə isə görünmək istəmirdi ki, istəmirdi. Bir az da irəlilədim. Sonra dayanıb gölün yerini bəlirləmək üçün ətrafa baxdım. Daha göl də gözə dəymirdi. Gölün hansı istiqamətdə ola biləcəyi haqqında heç bir fikrim yox idi. Birdən başa düşdüm: mən YOLU AZMIŞDIM. O seks düşkünü qancıqlar mənim başımı xarab eləmişdilər və indi mən YOLU AZMIŞDIM. Dayanıb diqqətlə ətrafa baxdım. Uzaqda, arxa planda dağlar görünürdü. Amma mənim ətrafımı yalnız sıx ağac və kol cəngəlliyi dövrəyə almışdı. Nə bir mərkəz, nə bir başlanğıc nöqtəsi, nə də hər hansı bir şeylə əlaqələndirilməsi mümkün olan yer tapmaq mümkün deyildi. Mən qorxmağa başladım. Bu qorxu hissi həqiqi idi. Axı niyə onlara məni şəhərdən, mənim Los-Ancelesimdən ayırıb bu uzaq yerlərə aparmağa imkan verdim? Orada insan taksi çağıra bilər, ya da telefonla

zəng edə bilər. Orada məntiqə uyğun problemlərin məntiqə uyğun da həlli yolları var.

Vans Otlaqları mənim ətrafımda dörd bir tərəfə göz işlədikcə elə hey uzanıb gedirdi. Öz qırmızı bloknotumu harasa fırıldatdım. Amma yazıçı üçün nə ölümdü! Mən qəzetlərdəki başlıqları xəyalımda canlandıra bilirdim:

HENRİ ÇİNASKI, AZ TANINMIŞ ŞAİR, YUTA MEŞƏLƏRİNDƏ ÖLÜ TAPILMIŞDIR.

Keçmiş poçt məmuru, sonradan isə yazıçı olmuş Henri Çinaskinin çürüməkdə olan cəsədi meşədə meşəbəyi V. K. Bruks tərəfindən tapılmışdır. Cəsədin yaxınlığında balaca qırmızı bir bloknot da aşkar edilib. Yəqin ki, bu bloknotda mister Çinaskinin ən son əsərləri yazılmışdır.

Bir az da irəlilədim. Tezliklə su ilə dolu ona islaq bir əraziyə çıxdım. Ara-sıra ayaqlarımdan birisi dizə qədər bataqlığa batırdı. Mən onu dartıb çıxarmalı olurdum.

Tikanlı məftillərdən düzəldilmiş bir hasarın yanına çatdım. Dərhal başa düşdüm ki, bu hasarın üstündən o biri tərəf aşmalı deyiləm. Bunu etməyin yanlış bir şey olduğunu bilsəm də, başqa bir alternativ yol da görmürdüm. Hasarın

üstündən aşaraq o biri tərəfə keçdim və orada dayanıb əllərimi ağzımın kənarında yumurlayaraq var gücümlə qışqırdım:

– LİDİYA!

Heç bir cavab gəlmədi.

Bir də qışqırdım:

– LİDİYA!

Səsim bu dəfə daha yalvarışlı səsləndi. Lap qorxaq səsi kimi.

Mən irəliləməyə davam etdim. Bacıların yanına geri qayıtmaq və onların seks, kişilər, rəqslər və qonaqlıqlar haqqında danışıb-gülmələrinə qulaq asmaq lap əla olardı, deyə mən düşündüm. Hətta Qlendolinanın da səsini eşitməyə həvəslə razı idim. Əlimi Lidiyanın uzun saçlarının arasına salmaq da yaxşı olardı. Mən vicdanla onu şəhərdəki bütün əyləncə gecələrinə aparardım. Hətta oradakı bütün qadınlarla rəqs edər və hər şey haqqında əla zarafatlar edərək hamını əyləndirərdim. Mən hətta üzümdə təbəssümlə onların anormal gəvəzəliklərinə də dözərdim. Mən az qala öz səsimi eşidirdim:

– Ey, bu, rəqs üçün əla melodiyadır. Kim bədəninin tozunu tökmək istəyir? Kim əsl buqi-vuqi rəqs etmək istəyir?

Mən bataqlığın içi ilə yoluma davam edirdim. Nəhayət ki, quru torpağa çıxdım. Bir yola çıxmışdım. Bu, köhnə torpaq yol olsa da, pis görünmürdü. Yolda təkər və heyvanların dırnaq izlərini görə bilirdim. Başımın üzərindən, hətta harayasa elektrik aparan naqillər də keçirdi. Mənə, sadəcə, bu naqilləri izləmək qalırdı. Yolla getməyə başladım. Günəş səmada zirvəyə qalxmışdı, yəqin indi günorta vaxtı olmalıydı. Özümü axmaq kimi hiss edərək yoluma davam edirdim.

Yolun düz önündə kilidlənmiş bir darvazaya çatdım. Bu nə demək idi? Darvazının yan tərəfində kiçik bir alaqapı da vardı. Yəqin bu darvaza mal-qaranın önünü kəsmək üçün buraya qoyulmuşdu. Bəs onda mal-qara niyə gözə dəymirdi? Bəlkə də heyvanlar buraya altı aydan bir gətirilir.

Başımın düz təpəsi ağrımağa başladı. Mən əlimi qaldırıb otuz il bundan öncə Filadelfiya barında başıma vurulan dəynəyin yerinə toxundum. Həmin yerdə çapıq

qalmışdı. İndi isə günəş şüalarının yandırdığı çapıq yeri əməlli-başlı şişmişdi. Bu hissə lap balaca buynuz kimi qabarmışdı. Mən çapıqdan balaca bir parça qoparıb yola atdım.

Daha bir saatlıq məsafəni də qət edəndən sonra geri dönmək qərarına gəldim. Bu isə bütün yolu piyada geri qayıtmaq anlamına gəlirdi, amma qayıtmalıydım. Köynəyimi soyunub onu başıma sarıdım. Yolla geri qayıdarkən bir-iki dəfə də ayaq saxlayıb – "Lidiya!" – deyə qışqırdım. Cavab verən olmadı.

Bir müddət sonra, üstündən adladığım həmin darvazaya yetişdim. Mənə, sadəcə, onun ətrafından dolanıb keçmək lazım idi, amma yolumun üstündə dayanmış bir şey məni keçməyə qoymurdu. O, darvazanın önündə məndən təxminən on beş fut aralı dayanmışdı. Bu, ya dişi maral, ya maral balası və ya bunlara bənzər başqa bir canlıydı.

Mən yavaş-yavaş ona tərəf getdim. O heç yerindən qımıldanmadı da. Məni yanından keçməyə qoyaqcaqdımı? Onun məndən qorxub çəkindiyi hiss olunmurdu. Məncə, yəqin ki, o mənim içimdəki təşviş və qorxunu hiss etmişdi.

Mən getdikcə ona daha da yaxınlaşırdım. Onun isə, deyəsən, mənim yolumdan qətiyyən çəkilmək fikri yox idi. Onun gözəl qəhvəyi rəngli gözləri vardı, mənim həyatımda gördüyüm bütün qadınların gözlərindən daha gözəl. İnana bilmirdim. Mənimlə onun arasında cəmisi 3 fut məsafə qalmışdı. Artıq geri çəkilmək barədə ürəyimdə götür-qoy etdiyim an, o yerindən sıçrayaraq yoldan qaçıb meşəliyin içində gözdən itdi. O çox gözəl formada idi. Qaçışına da söz ola bilməzdi.

Yolla bir müddət beləcə irəlilədikdən sonra haradasa qarşıda axar su səsi eşitdim. Mənə su lazım idi. Su içmədən uzun müddət yaşamaq mümkün deyil. Yoldan kənara çıxdım və axan suyun səsi istiqamətində getdim. Önümdə üstünü ot basmış balaca bir təpə vardı, onun üstündən o biri tərəfə aşanda suyu gördüm: su bəndin divarındakı bir neçə sement boru ilə axaraq su anbarına bənzər bir yerə tökülürdü. Mən bu su anbarının kənarında oturdum, ayaqqabılarımı və corablarımı soyundum, şalvarımın balaqlarını yuxarı çırmaladım və ayaqlarımı suyun içinə saldım. Sonra suyu bir

az başımdan aşağı tökdüm. Nəhayət sudan içdim, amma çox yox. Özü də asta-asta, kinofilmlərdə gördüyüm kimi.

Bir qədər yorğunluğumu alandan sonra, su anbarının üstündən keçən bir körpü gördüm. Körpünün üstünə çıxdım. Bir qədər irəliləyəndən sonra körpünün yanına boltlarla bərkidilmiş bir metal yeşiyə rast gəldim. Onun qapağı qıfılla kilidlənmişdi. Yəqin onun içində telefon vardı! Mən zəng edib kömək çağıra bilərdim!

Gedib bir böyük daş tapdım və qıfılı sındırmaq üçün onunla qıfıla zərbələr endirməyə başladım. Qıfıl heç cür sınmaq istəmirdi. Belə bir vəziyyətdə Cek London nə edərdi? Bəs Heminquey nə edərdi? Bəs Jan Jene?

Fasiləsiz olaraq əlimdəki daşla qıfıla zərbələr endirirdim. Bəzən hədəfi şaşırırdım. Belə anlarda əlim qıfıla, ya da metal qutuya çırpılırdı. Ona görə də əlimin dərisi qopmuşdu və yaramdan qan axırdı. Bütün gücümü toplayıb qıfıla son zərbəni endirdim. Qıfılın dili qırıldı. Onu çıxardım və metal qutunu açdım. Orada telefon-zad yox idi. Qutunun içində dəyişdirici açarlar sırası və bir neçə qalın kabel vardı. Mən əlimi qutunun içinə uzadın kabellərdən birisinə

toxundum və elektrik cərəyanı məni çox güclü çarpdı. Sonra açarlardan birini özümə tərəf dartdım və qəfildən suyun uğultusunu eşitdim. Beton divardan çıxan 3, ya da 4 borudan nəhəng, ağ su şırnaqları fışqırırdı. Başqa bir açarı dartdım. Tonlarla suyu buraxan daha bir neçə boru açıldı. Üçüncü açarı dartdım və elə o andaca bənddəki bütün borular açıldı. Mən körpüdə dayanıb sürətlə axan suya tamaşa edirdim. Bəlkə də mən burada daşqın yarada bilsəydim, kovboylar at belində, ya da sınıq-salxaq balaca pikaplarda gəlib məni xilas edərdilər. Mən artıq qəzet manşetlərini də görə bilirdim:

HENRİ ÇİNASKI, AZ TANINMIŞ ŞAİR, ÖZ LOS-ANCELESLİ YUMŞAQ DALINI XİLAS ETMƏK ÜÇÜN YUTA MEŞƏLƏRİNİ DAŞQINA QƏRQ EDİB.

Qərara gəldim ki, bunu etməsəm daha yaxşı olar. Mən bütün açarları öz normal yerlərinə qaytardım, metal qutunu bağladım və sınıq qıfılı yerinə asdım.

Sonra su anbarından çıxıb bir az yuxarıda başqa bir yol tapdım və onunla da yoluma davam etdim. O bir yola nisbətən, deyəsən, bu yoldan, daha çox istifadə edilmişdi.

Mən yoluma davam edirdim. Həyatımda heç vaxt belə yorulduğumu xatırlamırdım. Gözlərim demək olar ki, heç nə görmürdü. Birdən qarşıdan beş yaşlarında balaca bir qız uşağının mənə tərəf gəldiyini gördüm. Onun əynində mavi rəngli don, ayaqlarında isə ağ rəngli ayaqqabılar vardı. Uşaq məni görüb qorxmuşdu. Mən ona tərəf yanakı irəlilədikcə, qızın gözünə xoş və mehriban görünməyə çalışdım.

– Ay qız, məni burda qoyub getmə. Sənə pis heç nə eləmərəm. MƏN BURALARDA AZIB QALMIŞAM! Sənin anan-atan hardadılar? Ay qız, məni öz valideynlərinin yanına apar!

Balaca qızcığaz barmağı ilə harasa işarə elədi. Qarşıda bir qoşqu ilə avtomobilin dayandığını gördüm.

– EY, mən YOLUMU AZMIŞAM! – deyə qışqırdım. – AMAN ALLAHIM SİZİ GÖRMƏYİMƏ NECƏ SEVİNDİYİMİ BİR BİLSƏYDİNİZ.

Qoşqunun arxasından Lidiya çıxdı. Onun saçlarının arasında qırmızı biqudilər görünürdü.

– Bura gəl görüm, səni şəhər uşağı, o dedi. – Gəl evimizə gedək.

– Səni görməyimə necə də şadam, əzizim, öp məni!

– Yox. Arxamca gəl.

Lidiya məndən iyirmi fut öndə qaça-qaça getməyə başladı. Onunla ayaqlaşmaqda çətinlik çəkirdim.

– Onlardan soruşdum ki, bu ətraflarda şəhərli bir oğlan görüblərmi, – Lidiya başını çiyninin üstündən geri çevirərək dedi. – Onlar da görmədiklərini söylədilər.

– Lidiya səni sevirəm!

– Tez elə, tələs görüm! Lap tısbağasan elə bil!

– Dayan, Lidiya, bir az məni gözlə!

Lidiya bir göz qırpımında tikanlı məftilli çəpərin üstündən o biri yana adladı. Amma məndə heç nə alınmadı. Mən məftilin tikanlarına ilişib qaldım. Hərəkət edə bilmirdim. Elə bil tələyə düşən inək idim.

– LİDİYA!

O, başında qırmızı biqudiləri ilə geri qayıtdı və mənim tikanların cəngindən qurtulmağım üçün yardım etməyə başladı.

– Mən sənin izimlə gedirdim. Sənin qırmızı bloknotunu da tapdım. Sən qəsdən yolu azmısan, çünki qəzəblənmişdin.

– Yox, mən naşılığımın ucbatından, içimdəki qorxu üzündən azmışdım. Mən yarımçıq şəxsiyyətəm – mən inkişafı ləngimiş şəhər adamıyam. Mən müəyyən mənada təklif etməyə heç nəyi olmayan çiskinləyən nəcisəm.

– Aman Allahım, – o dedi, sən elə düşünürsən ki, bütün bu söylədiklərindən xəbərsizəm?

O məni məftilin tikanlarından azad etdi. Ləngər vura-vura onun arxasınca getdim. Mən yenə öz Lidiyama qovuşmuşdum.

31

Bədii qiraət üçün 3 və ya 4 gün sonra Hyustona uçmalı idim. Əvvəlcə, at yarışlarına getdim, orada yaxşıca vurdum, sonra Holivud Bulvardakı bara getdim. Evə isə ancaq axşam təxminən saat doqquz, ya da onda qayıtdım. Yataq otağından hamamxanaya tərəf hərəkət edərkən ayağım telefonun şnuruna ilişdi. Yıxıldım və çarpayının bıçaq kimi iti olan polad küncünə çırpıldım. Ayağa qalxandan sonra topuğumdan bir azca yuxarıda dərin bir kəsik yarası olduğunu gördüm. Yaradan axan qan xalının üstünə

tökülürdü. Hamamxanaya gedərkən arxamda qanlı izlər qoyurdum. Vanna otağındakı kafellərin üstünə də qan axdığından, hamamxanada ora-bura gəzişərkən yerdə qanlı ayaq izlərim qalırdı.

Qapı döyüldü və mən qapını açıb Bobbini içəri buraxdım.

– Böyük Allahım, dostum, burada nə baş verib?

– Bu, ÖLÜMDÜR, – deyə cavab verdim. – Mən ölümcül dərəcədə qan itirmişəm...

– Bura bax, dost, – o dedi, – yaxşısı budur, ayağına bir şey eliyəsən.

Bu dəfə qapını Valeri döydü. Mən onu da içəri buraxdım. Mənim vəziyyətimi görəndə o bərkdən qışqırdı. Mən Bobbiyə, Valeriyə və özümə bir qədəh içki süzdüm. Sonra telefon zəng çaldı. Zəng edən Lidiya idi.

– Lidiya, əzizim, məni qan aparır!

– Bu sənin dramatik fəndlərindən biridir?

– Yox, məni, həqiqətən, qan aparır. İstəyirsən, Valeridən soruş.

Valeri dəstəyi məndən aldı.

– O doğru deyir. Onun topuğunda dərin kəsik yarası var. Burada hər yer onun qanına bulaşıb, özününsə heç nə vecinə deyil, qanı saxlamaq üçün heç nə eləmir. Yaxşısı budur ki, sən bura gələsən...

Lidiya gələndə mən divanda oturmuşdum.

– Bax, Lidiya: ÖLÜM!

Yaradan spagettiyə bənzəyən çox balaca damarlar bayıra sallanırdı. Mən onlardan bir neçəsini dartdım. Sonra siqaretimi götürdüm və yaranın içinə bir az kül tökdüm.

– Mən KİŞİYƏM! Lənət şeytana, mən ERKƏYƏM!

Lidiya gedib bir az hidrogen peroksid məhlulu gətirdi və onu yaranın içinə tökdü. Əla idi. Yaradan dərhal sürətlə ağ köpüklər çıxmağa başladı. Məhlul fışıldayaraq köpüklənirdi. Lidiya yaraya bir az da bu məhluldan tökdü.

– Yaxşısı budur, xəstəxanaya gedəsən, – deyə Bobbi dilləndi.

– Mənim o sikilmiş xəstəxanadı, nədi... ona ehtiyacım yoxdur, – deyə cavab verdim. Öz-özünə keçib gedər....

Ertəsi gün səhər yara qorxunc görünürdü. Yaranın ağzı hələ də bağlanmamışdı, amma deyəsən, onun üstü yaxşıca

qaysaqlamaqda idi. Yenə bir az hidrogen peroksidi, bint və bir də Epsom duzu almaq üçün aptekə getdim. Vannanı isti su ilə doldurdum, içinə də bir az da Epsom duzu tökdüm və sonra vannaya girdim. Özümü bir ayağını itirmiş birisi kimi xəyalımda canlandırmağa başladım. Bunun üstün cəhətləri də vardı:

HENRİ ÇİNASKİ ŞÜBHƏSİZ DÜNYADA ƏN YAXŞI TƏKAYAQLI ŞAİRDİR.

Həmin gün Bobbi məni yoluxmağa gəldi.

– Bir ayağın amputasiya edilməsi üçün nə qədər pul lazım olduğundan xəbərin varmı?

– "$12,000 dollar.

Bobbi gedəndən sonra mən öz həkimimə zəng vurdum.

Bir ayağım bintlə bərk-bərk sarınmış vəziyyətdə Hyustona uçdum. İnfeksiyanı sağaltmaq məqsədilə antibiotik həblər qəbul edirdim. Həkimim məni xəbərdar eləmişdi ki, istənilən növ və dərəcədə içki qəbulu antibiotik həblərinin bütün müsbət təsirini heçə endirəcək.

Müasir incəsənət muzeyində keçirilən bədii qiraət gecəsinə ayıq başla gəldim. Elə bir neçə şeir oxumuşdum ki, zaldan kimsə ucadan soruşdu:

– Necə olub ki, siz bu gün sərxoş deyilsiniz?

– Henri Çinaski sizin görüşünüzə gələ bilmədi, – deyə cavab verdim, – Mən onun qardaşı Eframam.

Mən bir dənə də şeir oxudum və sonra antibiotik həblərlə bağlı vəziyyəti onlara etiraf etdim. Bir də onlara dedim ki, muzeyin qaydalarına görə də onun otaqlarında içki qəbul etmək qadağandır. Tamaşaçılardan birisi əlində pivə şüşəsi ilə səhnəyə yaxınlaşdı. Mən pivəni içdim və qiraətə davam elədim. Tamaşaçılardan bir başqası da pivə ilə səhnəyə yaxınlaşdı. Bundan sonra pivə səhnəyə çay kimi axmağa başladı. Şeirlər də getdikcə daha yaxşı səslənməyə başlamışdı.

Bədii qiraətdən sonra kafedə əyləncə gecəsi və şam yeməyi olacaqdı. Masanın arxasında, demək olar ki, mənimlə üzbəüz heç şübhəsiz həyatımda gördüyüm ən gözəl bir qız oturmuşdu. O, Katrina Höpbörnün cavan vaxtlarını xatırladırdı. Onun təxminən 22 yaşı olardı. Qız bütün ətrafa

gözəllik saçırdı. Mən hazırcavabcasına zarafatlar edir və onu durmadan Katrina Höpbörn adlandırırdım. Deyəsən, etdiyim zarafatlar onun da xoşuna gəlirdi. Bundan bir şey çıxacağını heç gözləmirdim. O kafeyə öz rəfiqəsi ilə gəlmişdi. Dağılışmaq vaxtı gəlib çatanda, evində yerləşdirildiyim muzeyin direktoru, Nana adlı qadına dedim:

– Onun üçün çox darıxacağam. Onun real olduğuna inanmaq üçün. O çox gözəl qızdır.

– O da bizimlə evə gedir.

– Mən buna inanmıram.

... Lakin nəticə etibarı ilə o qız Nananın evində, yataq otağında mənimlə birlikdəydi. Onun əynində nazik və şəffaf bir gecə paltarı vardı və o, çarpayının kənarında oturub öz uzun saçlarını daraya-dayara mənə baxıb gülümsəyirdi.

– Sənin adın nədir? – deyə ondan soruşdum.

– Laura, – qız cavab verdi.

– Hə, Laura, qulaq as gör sənə nə deyirəm. Mən səni elə Katrina deyə çağıracağam.

– Danışdıq, – o dedi.

Onun qırmızımtıl xurmayı və çox uzun saçları vardı. Özü bəstəboy olsa da, bədəni gözəl və mütənasibdi. Onun bədənində ən gözəl yeri üzü idi.

– Sənə içki süzə bilərəmmi? – deyə ondan soruşdum.

– Ah yox, mən spirtli içki içmirəm. Ondan xoşum gəlmir.

Əslində, o məni bir balaca qorxudurdu da. Onun mənimlə burada nə işi olduğunu heç cür özümə izah edə bilmirdim. O qətiyyən pərəstişkara da oxşamırdı. Mən hamamxanaya keçdim, sonra geri qayıtdım və işıqları söndürdüm. Onun yatağıma girib mənim yanımda necə uzandığını hiss elədim. Mən onu qucaqladım və biz öpüşməyə başladıq. Öz xoşbəxtliyimə inana bilmirdim. Mənim buna haqqım vardımı? Bir neçə şeir kitabı belə bir şeyin baş verməsinə necə səbəb ola bilərdi? Bunları dərk etmək iqtidarında deyildim. Əlbəttə ki, mən belə bir xoşbəxtlikdən imtina etmək fikrində də deyildim. Mən çox qızışmışdım, bütün bədənimi şəhvət hisləri sarmışdı. Birdən o, aşağıya tərəf sürüşdü və mənim şeyimi ağzına aldı. Mən ayın işığında onun başının və bədəninin aramla necə hərəkət

etdiyinə tamaşa edirdim. O başqaları kimi bu işdə elə də məharətli deyildi, amma məni təəccübləndirən əsas məsələ bunu məhz onun etməsi faktı idi. Mən qurtarmaq anının yaxınlaşdığını hiss edən kimi, dərhal əlimi onun saçlarının arasına saldım və ayın işığında onun saçlarından yapışaraq düz Katrinanın ağzına tökdüm.

32

Lidiya məni hava limanında qarşıladı. Həmişə olduğu kimi yenə onun amı qaşınırdı.

– Aman Allahım, – o dedi. – Mən yanıram! Özümlə nə qədər oynayıram, özümü nə qədər barmaqlayıram bir xeyri olmur.

Biz onun maşınında mənim evimə gedirdik.

– Lidiya mənim qıçım hələ də çox pis vəziyyətdədir. Belə ayaqla əlimdən bir şey gəlib gəlməyəcəyinə əmin deyiləm.

– Nə?

– Düz sözümdü. Ayağım belə vəziyyətdə ikən sikişə biləcəyimi düşünmürəm.

– Onda, de görüm, sən mənim nə poxuma lazımsan?

– Hmm, mən yumurta qaynada bilərəm, sonra cürbəcür sehrli fokuslar göstərə bilərəm.

– Camaatı özünə güldürmə. Səndən soruşuram, de görüm, onda sən mənim nəyimə lazımsan?

– Ayağım, əlbəttə, bir gün sağalacaq. Əgər sağalmasa onu kəsib atacaqlar. Bir az səbrli ol.

– Əgər sən sərxoş olmasaydın, ilişib yıxılmazdın və ayağını da yaralamazdın. Bütün bu zibillər hamısı o butulka zəhrimara qalmışa görə sənin başına gəlir!

– Həmişə butulka günahkar deyil, Lidiya. Biz sənlə həftədə təxminən 4 dəfə sikişirik. Mənim bu ahıl yaşımda, bu məncə, heç də pis nəticə deyil.

– Bəzən mənə elə gəlir ki, sən bundan heç həzz belə almırsan.

– Lidiya, seks hər şey demək deyil axı! Sən seks mübtəlasısan. Allah xatirinə, seksə bir balaca ara ver.

– Sənin ayağın sağalana qədər, deyirsən, ara verim? Bəs o vaxta qədər mən nə edim, necə yaşayım?

– Mən sənlə Skrabbl[5] oynayaram.

Lidiya fəryad qopardı. Maşın yolda ora-bura ləngər vurmağa başladı.

– AY SƏNİ QANCIĞIN BALASI! SƏNİ ÖLDÜRƏCƏM!

O, yüksək sürətlə sarı qoşa xətti keçdi və düz qarşıdan gələn maşınların üstünə sürdü. Klaksonlar siqnal çalmağa başladı. Qarşıdan gələn avtomobillər pərən-pərən düşdülər. Biz bütün hərəkət axınının əksinə gedirdik. Qarşıdan gələn avtomobillər bizə yaxınlaşanda, cərgədən kənara çıxaraq sağa və sola yayınırdılar. Sonra Lidiya kəskin bir hərəkətlə sükanı döndərərək yenə qoşa sarı xətti kəsdi və avtomobili bayaq tərk etdiyimiz zolağa qaytardı.

Bəs polislər hara itiblər? – öz-özümə düşündüm. Niyə Lidiya belə hoqqabazlıqlar edəndə, polislər yoxa çıxırlar?

– Yaxşı, – Lidiya dedi. – Mən səni evə aparıram və biz sağollaşırıq. Daha bezmişəm, bəsdir. Mən evimi satıram, sonra da Feniksə köçürəm. Qlendolina indi Feniksdə

[5]Skrabbl – oyun taxtasında əldə olan hərflərdən ən uzun sözləri düzəltmək oyunu

yaşayır. Sənin kimi qoca dümbələk ilə yaşamağın nə ilə bitəcəyi haqqında bacılarım mənə xəbərdarlıq etmişdilər.

Yolun qalan hissəsini heç birimiz danışmadıq. Maşın evimə çatanda mən çemodanımı maşından götürdüm və Lidiyaya baxaraq dedim:

– Hələlik, sağ ol.

O səs çıxarmadan için-için ağlayırdı. Onun bütün üzü göz yaşlarına qərq olmuşdu. Birdən maşını yerindən kəskin şəkildə tərpədərək Vestern Avenyu tərəfə sürdü. Mən həyətə daxil oldum. Daha bir bədii qiraətdən evə qayıtmışdım...

Adətim üzrə poçt qutusunu yoxladım və sonra Katrinə zəng vurdum. O, Texas ştatının Ostin şəhərində yaşayırdı. Deyəsən, o, həqiqətən, mənim səsimi eşitməyinə şad olmuşdu. Mən də onun Texaslı ləhcəsini və ucadan gülüşünü eşitməyimə şad olmuşdum. Telefonda ona dedim ki, onun mənim yanıma gəlməsini çox istərdim. Hətta dedim ki, hər iki tərəfə yol pulunu da verməyə hazıram. Biz cıdır yarışlarına baxmağa gedərik, Malibuya gedərik, biz... o nə istəsə, onu edə bilərik.

– Henk, bəs sənin rəfiqən necə olsun?

– Mənim heç bir rəfiqəm zadım yoxdur. Mən guşənişin bir həyat sürürəm.

– Bəs sən həmişə qadınlar haqqında şeirlər yazırsan axı.

– Onlar hamısı keçmişdə qaldı. Biz isə indiki zamanda yaşayırıq.

– Bəs Lidya necə olsun?

– Lidiya?

– Hə, sən axı onun haqqında mənə hər şeyi danışmısan.

– Onun haqqında sənə nə danışmışam ki?

– Sən mənə onun başqa iki qadını necə kötəklədiyini danışmışdın. Onun məni də döyməsinə imkan verərdinmi? Mən axı elə də böyük və qüvvətli deyiləm, bunu sən özün də bilirsən.

– Belə şey ola bilməz. O, Feninksə köçüb. Sənə deyirəm, Katrina, sən mənim illərlə arzuladığım, axtardığım müstəsna qadınsan. Lütfən mənə inan.

– Bəzi işləri qaydasına salmalıyam. Pişiyimə göz olması üçün bir adam tapmalıyam.

– Yaxşı. Amma sənin bilməni istəyirəm – burada qaranlıq heç nə qalmayıb.

– Amma, Henk, öz qadınların haqqında mənə danışdıqlarını unutma.

– Nə danışmışam axı?

– Sən deyirdin ki, onlar həmişə sənin yanına geri dönürlər.

– Bu, sadəcə, erkək boşboğazlığıdır.

– Yaxşı, mən gələrəm, – o dedi. – Bu arada işlərimi qaydasına salan kimi, bilet sifariş edib sənə xəbər edərəm.

Mən Texasda olanda, Katerina öz həyatı haqqında mənə danışmışdı. Mən onun yatdığı, sadəcə, üçüncü kişi idim. Onun həyatında üç kişi olmuşdu: onun əri, əyyaş bir ippodrom ulduzu və mən. Onun keçmiş əri Arnold müəyyən mənada şou-biznes və incəsənətlə məşğul olurdu. Bunun onda necə alındığı haqqında məlumatım yoxdur. O, rok ulduzları, rəssamlar və buna bənzər insanlar ilə daim müqavilələr imzalayırdı. Onun biznesi $60,000 dollar borca düşsə də çiçəklənməkdə idi. Bu: – "Nə qədər borca çox

batsan, deməli işlərin bir o qədər yaxşı gedir”, – deyilən vəziyyətlərdən biri idi.

İppodrom ulduzuna nə olduğunu bilmirəm. Məncə, o, sadəcə, əkilərək aradan çıxmışdı. Sonra isə Arnold kokainə qurşanmış və bu zibil onu bir gecədə tamam dəyişmişdi. Katrina mənə demişdi ki, bundan sonra o daha öz ərini tanıya bilmirdi. Vəziyyət dəhşətverici idi. Təcili yardım maşını ilə xəstəxanaya yürüşlər. Növbəti gün isə, o, heç nə olmayıbmış kimi öz ofisinə qayıdardı. Sonra Coanna Dover adlı bir qadın meydana çıxdı. Hündür və vüqarlı yarımmilyoner. Təhsilli və kəmağıl. İş belə gətirir ki, Arnold ilə o qadın ortaq bizneslə məşğul olmağa başlayırlar. Coanna Dover incəsənətlə elə davranırdı, elə bil qarğıdalı fyuçersləri satırdı. O, şan-şöhrət yolunda irəliləməkdə olan tanınmamış rəssamları axtarıb tapır, onların əsərlərini çox ucuz qiymətə alır və sonra onlar məşhurlaşanda bu əsərləri qat-qat bahasına satırdı. Onun belə sərrast gözü vardı. Və 6 futluq gözəl qaməti. O, Arnoldla getdikcə daha tez-tez görüşməyə başlayır. Bir gecə Coanna əynində çox bahalı və bədəninə damdar oturan bir gecə paltarı ilə Arnoldu evdən

almağa gəlir. O zaman Katrina başa düşür ki, Coannanı, həqiqətən, yalnız biznes maraqlandırır. O gündən sonra, Arnold ilə Coanna bir yerə gedəndə Katrina da onlarla birlikdə getməyə başlayır. Onlar trio idilər. Arnoldun seksə meyli zəif olsa da, Katrinanı narahat eləyən bu deyildi. O yalnız biznesə görə narahat olurdu. Sonra Coanna gözdən itdi, ortalıqda görünmədi və Arnold isə kokain bataqlığında daha da dərinə batdı. Təcili yardım çağırışlarının sayı da artdı. Sonunda, Katrina ondan boşandı. Amma onlar hələ də görüşməyə davam edirlər. Katrina hər səhər təxminən saat 10:30-da bütün işçilər üçün qəhvə apardığına görə Arnold onu maaş cədvəlinə daxil edir. Bu da Katrinaya evi saxlamağa imkan verdi. O və Katrina ara-sıra birlikdə şam da edirlər, amma sekslə məşğul olmurlar. Onun hələ də Katrinaya ehtiyacı vardı və Katrina da ona qəyyumluq etməyə çalışırdı. Katrina həmçinin sağlam qidaya inanırdı və onun yediyi ət yalnız toyuq və balıq idi. O çox gözəl qadındı.

33

İki-üç gün sonra təxminən günorta saat 1-də qapım döyüldü. Bu, Monti Riff adlı bir rəssam idi. Ən azından o özünü mənə belə təqdim etdi. Bir də o mənə dedi ki, bir zamanlar DeLongpre Avenyuda mənimlə birlikdə sərxoşluq da edibmiş.

– Sizi xatırlamıram, – mən dedim.

– Mən Di Di ilə birlikdə gələrdim.

– Ah eləmi? Hə onda buyurun içəri gəlin. Monti özü ilə 6 pivəlik paket, bir də hündür və gözəl qamətli bir qadın gətirmişdi.

– Bu, Coanna Doverdir, – deyərək o, qadını mənə təqdim elədi.

– Sizin Hyustondakı bədii qiraətinizdə iştirak edə bilmədim, – o dedi.

– Laura Stenli sizin haqqınızda mənə hər şeyi danışıb, – mən dedim.

– Siz onu tanıyırsınızmı?

– Bəli. Amma Katrina Höpbörnünün şərəfinə onun adını dəyişdirib Katrina qoymuşam.

– Siz, həqiqətən, onu tanıyırsınız?

– Kifayət qədər yaxşı tanıyıram.

– Nə qədər yaxşı tanıyırsınız?

– Bir-iki gündən sonra o mənim qonağım olmaq üçün təyyarə ilə buraya gələcək.

– Ciddi deyirsiniz?

– Əlbəttə.

Biz 6 pivəlik paketi içib qurtardıq və bir az da pivə almaq üçün onları evdə qoyub çıxdım. Mən evə qayıdanda, Monti artıq orada yox idi. Coanna onun kiminləsə görüşü olduğunu mənə dedi. Coanna ilə mən rəsm əsərləri haqqında söhbətə girişdik və sonra mən öz əl işlərimdən bir neçəsini çıxarıb ona göstərdim. O mənim əsərlərimə baxandan sonra dedi ki, onlardan ikisini almaq istəyir.

– Şəkillər üçün nə qədər istəyirsiniz? – deyə o məndən soruşdu.

– Hmm, yaxşı kiçiyi üçün $40, böyüyü üçün $60 dollar versəniz kifayət edər.

Coanna mənə $100 dollar məbləğində çek yazdı və sonra da dedi:

– İstərdim ki, sən mənimlə birlikdə yaşayasan.

– Nə? Bu kifayət qədər gözlənilməz bir təklif oldu.

– Bu hər ikimiz üçün də sərfəli olacaq. Mənim pulum var. Bircə nə qədər pulum olduğunu məndən soruşma, yetər. Bizim nə üçün birlikdə yaşamalı olduğumuz üçün mən, hətta bəzi səbəblər də düşünmüşəm. Eşitmək istərdinmi?

– Yox.

– Birincisi, əgər biz birlikdə yaşasaydıq mən səni özümlə Parisə aparardım.

– Mənim səyahət etməkdən zəhləm gedir.

– Mən sənə xoşlayacağın bir Paris göstərərdim.

– Onda mənə bir az vaxt ver düşünüm.

Mən ona tərəf uzanaraq onu öpdüm. Sonra onu bir də öpdüm, amma bu dəfə öpüş bir balaca uzun sürdü.

– Ay səni zəhrimara qalasan, – mən dedim, – gəl yatağa girək.

– Yaxşı, – deyə Coanna Dover razılaşdı.

Biz platarlarımızı soyunub yatağa girdik. Onun boyu 6 fut olardı. Buna qədər mənim bütün qadınlarımın boyu qısa olmuşdu. Bu çox qəribə bir hiss idi: hara əlini uzadırdınsa,

adama elə gəlirdi ki, orada daha çox qadın vardı. Biz bir balaca qızışdıq, ona 3 və ya 4 dəqiqəlik oral seks ləzzəti bəxş edəndən sonra onu mindim. O, yataqda yaxşı idi, həqiqətən, yaxşı idi. Biz yuyunub özümüzü qaydaya saldıq, paltarlarımızı geyindik və o məni şam yeməyi üçün Mlibuya apardı. Mənə dedi ki, Texas ştatının Qalveston şəhərində yaşayır. Biz ayrılarkən, o mənə öz telefon nömrəsini, ünvanını verdi və dedi ki, gəlib orada onun qonağı olum. Mən də ona gələcəyimi söylədim. Bir də dedi ki, Paris və başqa şeylər haqında söylədiklərində ciddidir. Onunla əla sikişmişdik, elə şam yeməyinin özü də əla olmuşdu.

34

Ertəsi gün Katrina mənə zəng vurdu. Dedi ki, artıq biletləri alıb və cümə günü günorta saat 14:30-da Los-Anceles Hava Limanında yerə enəcək.

– Katrina, – mən dedim, – sənə bir söz deməliyəm.

– Henk, sən daha məni görmək istəmirsənmi?

– Tanıdığım bütün insanlar arasında ən çox görmək istədiyim adam sənsən.

– Onda de görüm nə olub axı?

– Hmm, sən Coanna Doveri tanıyırsan...

– Coanna Dover?

– Onu deyirəm... sən onu tanıyırsan... sənin ərin...

– Henk, ona nə olub ki?

– O mənim yanıma gəlmişdi.

– Demək istəyirsən ki, o sənin evinə gəlmişdi?

– Hə.

– Sonra nə oldu?

– Söhbət elədik. Mənim iki rəsm əsərimi aldı.

– Başqa nəsə də baş verib?

– Hə.

Bu cavabı eşidəndə, Katrina susdu. Sonra birdən dilləndi:

– Henk, indi səni görmək istəyib-istəmədiyimi daha bilmirəm.

– Mən səni başa düşürəm. Dinlə, ən yaxşısı bütün bunları yaxşıca götür-qoy elə və sonra da mənə zəng vur, yaxşı? Mən çox təəssüf edirəm, Katrina. Mən çox təəssüf

eləyirəm ki, bu baş verib. İndi sənə söyləyə biləcəklərim yalnız bunlardır.

O bir söz demədən dəstəyi asdı. O bir də mənə zəng vurmayacaq, deyə düşündüm. Qarşıma çıxmış ən yaxşı qadın idi. Ancaq mən onu əlimdən qaçırdım. Mən bu məğlubiyyətə layiqəm, dəlixanada tək-tənha qalıb məhv olmağa layiqəm.

Telefon aparatının yanında oturdum və qəzet oxumağa başladım, əvvəlcə, idman bölməsini, sonra maliyyə bölməsini oxudum, sonda isə komikslərə baxdım. Birdən telefon yenə zəng çaldı. Bu yenə Katrina idi.

– Coanna Dover QOY SİKDİRSİN! – deyə o bərkdən güldü. Katrinanın belə küçə söyüşləri söydüyünü heç vaxt eşitməmişdim.

– Deməli, onda sən gəlirsən?

– Hə, gəlirəm. Mənim təyyarəmin eniş saatını qeyd eləmisənmi?

– Hər şeyi yazmışam. Səni qarşılamaq üçün orda olacam.

Biz sağollaşdıq. Katrina mənim yanıma gəlirdi, özü də ən azı bir həftəlik gəlirdi – o bədənlə, o üzlə, o saçlarla, o gözlərlə, o gülüşlə...

35

Mən bardan çıxdım və məlumat lövhəsindəki yazılara baxdım. Təyyarə vaxtında çatmalı idi. İndi Katrina havadaydı və mənə tərəf hərəkət edərək durmadan yaxınlaşırdı. Mən bir yer tapıb oturdum və gözləməyə başladım. Mənimlə üzbəüz yaxşı qulluq görmüş səliqəli bir qadın oturmuşdu. Kitab oxuyurdu. Əynindəki paltarı yuxarı dartılaraq onun qıçlarını ombalarına qədər açmışdı, onun neylona bürünmüş budlarının yan tərəflərini, qıçlarını tamamən açaraq hamının gözünün önünə sərgiləmişdi. Niyə bu qadın bunu belə israrla edir? Mənim əlimdə qəzet vardı. Mən onun üstündən qadının donunun altına baxırdım. Onun çox cazibədar budları vardı. Görəsən, bu budların arasına kim girirdi? Gözlərimi onun paltarının altına zillədiyim zaman özümü lap səfeh kimi hiss edirdim, amma bunu etməkdən özümü saxlaya da bilmirdim. Onun çox gözəl

qəddi-qaməti vardı. O nə vaxtsa balaca qızcığaz olub, bir vaxt da gələcək vəfat edəcək, amma indi o mənə öz qıçlarının dizdən yuxarı hissələrini nümayiş etdirirdi. Lənətə gəlmiş qəhbə, mən ona yüz dəfə soxardım, yeddi-tam-onda-beş düymlük ürək kimi döyünən göyərmiş şeyimi ona dibinə kimi tıxayardım! Qadın bir qıçını o biri qıçının üstünə aşırdı və onu paltarı bir qədər də yuxarı dartıldı. O, gözlərini kitabdan çəkib başını qaldırdı. Əlimdəki qəzetin üstündən onun ayaqlarına tamaşa etdiyim zaman bizim nəzərlərimiz toqquşdu. Onun üzündə hər şeyə biganə bir ifadə vardı. O öz çantasında eşələndi və oradan bir saqqız plitkası çıxardı, kağızını soyandan sonra onu ağzına atdı. Yaşıl saqqız. Saqqızı çeynədikcə ona tamaşa edirdim. Qadın paltarının ətəklərini aşağı dartmadı. Amma mənim ona tamaşa etdiyimdən də xəbəri vardı. Mənim əlimdən gələn bir şey yox idi. Portmanatımı çıxarıb açdım və içindən iki dənə əlli dollarlıq əskinas çıxardım. O, başını qaldırıb əskinaslara baxdı və nəzərlərini yenə aşağı dikdi. Sonra bir kök kişi guppultu ilə özünü mənim yanımadakı oturacağa yıxdı. Onun turp kimi qıpqırmızı üzü və yekə burnu vardı.

Əynində idman kostyumu vardı. Açıq-qəhvəyi rəngli idman kostyumu. O osdurdu. Qadın paltarının ətəyini düzəltdi və mən də əskinasları qaytarıb portmanatıma qoydum. Sikim də boşaldı və yerimdən qalxıb içməli su fəvvarəsinə yaxınlaşdım.

Bayırda eniş ərazisində, Katrinanın təyyarəsi dayanacaq yerə tərəf hərəkət edirdi. Mən isə orda dayanıb gözləyirdim. Katrina, mən sənə məftunam.

Katrina trapla aşağı endi. Əla görünürdü. Saçları qırmızımtıl şabalıdı, bədəni incə, yeriyərkən onun bədənini qucaqlayan dar don, ağ rəngli ayaqqabılar, incə və gözəl topuqlar, elə bil gəncliyin özü idi. Onun başında yanları enli bir şlyapa vardı. Şlyapanın enli kənarları lap lazım olduğu qədər aşağı endirilmişdi. İri, qəhvəyi rəngli gülən gözləri düz şlyapanın kənarlarının altından ətrafa baxırdı. Onun açıq-aşkar bir tərzi vardı. O öz götünü heç vaxt hava limanın gözləmə zalında açıb hər kəsə nümayiş etdirməzdi.

Və bir də mənə baxın – 225 funt çəki, daim dalğın və çaşqın, qısa ayaqlar, meymundan fərqlənməyən gövdə, yalnız sinə – boyundan əsər-əlamət yoxdur, həddən artıq

böyük baş, bulanıq gözlər, daranmamış səliqəsiz saçlarla, 6 fut boyunda bir heyvərə dayanıb onu gözləyirəm.

Katrina mənə yaxınlaşdı. Ah, o uzun qırmızımtıl şabalıdı saçlar. Texaslı qadınlar necə də sərbəst, necə də təbii olurlar. Mən, əvvəlcə onu öpdüm, sonra baqajının olub-olmadığını soruşdum. Bara gedib orada gözləməyi təklif elədim. Ofisiant qadınların əynində qısa, qırmızı rəngli donlar vardı və donun altından onların büzməli manjetli ağ, qısa tumanları görünürdü. Donlarının boğazları sinəyə qədər açıq olduğundan onların döşləri, demək olar ki, çöldə qalmışdı. Onlar öz məvaciblərinin və onlara verilən çaypullarının hər sentini haqq edirdilər. Bu qadınlar şəhərətrafı qəsəbələrdə yaşayır və kişilərə nifrət edirdilər. Onlar anaları və qardaşları ilə birlikdə yaşayır və öz psixiatrlarına vurulurdular.

Biz içkiləri bitirib Katrinanın baqajını almağa getdik. Yanımızdan keçən bütün erkəklər onun nəzərlərini özlərinə cəlb etmək istəyirdilər, amma o mənim əlimdən tutaraq mənə yaxın addımlayırdı. Gözəl qadınların çox az bir hissəsi insanlar arasında ikən özlərinin kiməsə məxsus olduqlarını

göstərmək arzusunda olur. Bunu dərk eləmək üçün mən qadınları kifayət qədər tanıyırdım. Mən onları olduqları kimi qəbul edirdim. Əsl sevgi-məhəbbət hissləri isə çox çətin və nadir hallarda bizim münasibətlərimizə təşrif gətirirdi. Bu baş verəndə isə, adətən səbəbləri yanlış şeylər olurdu. Bəzən sevgi hisslərini boğmaqdan yorulursan və onun başını boş buraxırsan. Çünki o kiməsə qismət olmalıdır. Bundan ötüşdükdən sonra isə, adətən problemlər başlayır.

Biz evə çatandan sonra, Katrina öz çamadanını açdı və oradan bir cüt rezin əlcək çıxardı. Qəhqəhə çəkib güldü.

– Bu nədi belə? – deyə ondan xəbər aldım.

– Darlina – mənim ən yaxın rəfiqəm – mənim şeylərimi yığdığımı görəndə dedi: "Lənət şeytana, sən nə edirsən?" Dedim: "Henkin evini heç vaxt görməmişəm, amma bildiyim bir şey var – orada bir şey bişirə bilmək. Orada yaşamaq və yatmazdan əvvəl, mən orada təmizlik işləri ilə məşğul olmalıyam!"

Bu sözləri söyləyəndən sonra, Katrina öz xoşbəxt Texas gülüşü ilə güldü. Sonra o, hamamxanaya keçdi. Əyninə mavi cins şalvar və narıncı köynək geyindi. Oradan

ayağı yalın geri qayıdaraq əllərində rezin əlcəklə mətbəxə girdi.

Mən də vanna otağına keçib əyin-başımı dəyişdim. Belə qərara gəldim ki, işdi birdən Lidiya buralara gəlsə, Katrinə barmağını belə toxunmağa qoymayacağam. Lidiya? Görəsən, indi o hardadı? Nə edir?

Məni qoruyan allahlara balaca bir dua elədim: lütfən Lidiyanın bura gəlməsinə mane olun. Qoyun kovboyların buynuzlarını sorsun və səhər saat 3-ə qədər rəqs eləsin, amma onu buradan aralı tutun, bura ayağı da dəyməsin, lütfən...

Mən hamam otağından çıxanda, Katrina mətbəxdə diz çöküb döşəmədəki iki ilin çirkini qaşıyırdı.

– Katrina, – mən dedim, – yaxşısı budur gəl şəhərə çıxaq. Gedib bir yerdə şam edək. Başlamaq üçün düzgün yol seçməmisən.

– Yaxşı, Henk, amma əvvəlcə bu döşəmə ilə işimi bitirməliyəm. Ondan sonra hara istəyirsən, gedək.

Mən oturub gözləməyə başladım. Sonra o, mətbəxdən çıxdı, mən isə kresloda oturub onu gözləyirdim. O əyilib məni öpdü və gülməyə başladı.

– Sən əxlaqsız qocasan! – dedi və sonra yataq otağına getdi. Mən yenə aşiq olmuşdum, deməli, başım yenə bəlada idi...

36

Şam yeməyindən sonra evə döndük və söhbət etməyə başladıq. O, sağlam qida dəlisiydi, toyuq və balıq ətindən başqa ət yemirdi. Heç şübhəsiz bunun ona xeyri olduğu bəlli olurdu.

– Henk, – o dedi, – sabah sənin hamam otağında təmizlik edəcəyəm.

– Yaxşı, – deyə içkimdən bir udum alaraq razılaşdım.

– Bir də hər səhər mən öz məşqimi eləməliyəm. Bu səni narahat etməz ki?

– Yox, yox. Əsla!

– Mənim burada ora-bura vurnuxmam sənin yazmağına maneəçilik törətməz ki?

– Heç bir problem olmaz.

– Mən çıxıb bayırda da gəzişə bilərəm.

– Yox, təkbaşına olmaz, ən azından bu qonşuluqda olmaz.

– Mən sənin yazmağına mane olmaq istəmirəm.

– Mən onsuz da, yazmağı ata bilmərəm, bu özü bir növ dəlilikdir.

Katrina mənə yaxınlaşdı və divanda yanıma oturdu. O, qadından daha çox qızı andırırdı. Mən əlimdəki qədəhi yerə qoydum və onu öpdüm: asta, uzun-uzadı bir öpüşlə. Onun dodaqları sərin və yumşaq idi. Onun uzun, qırmızımtıl qəhvəyi saçlarının fərqində idim. Ondan aralanıb özümə içki süzdüm. O məni təşvişə salırdı. Mən əxlaqsız, sərxoş qadınlara öyrəşmişdim.

Biz bir saat da beləcə söhbət elədik.

– Gəl yataq, – mən ona dedim, – özümü çox yorğun hiss edirəm.

– Əla. Amma, əvvəlcə, gərək hazırlaşam, – deyə o cavab verdi.

Oturub içkimi içirdim. Mənim daha çox içkiyə ehtiyacım vardı. Katrina mənim üçün həddən artıq çox gözəl idi.

– Henk, – deyə o məni çağırdı, – mən artıq yataqdayam.

– Yaxşı.

Mən vanna otağına keçdim, əynimi soyundum, dişlərimi fırçaladım və əl-üzümü yudum. Katrina durub o boyda yolu Texasdan bura gəlib, – deyə düşündüm, o, təyyarə ilə uçaraq bura gəlib ki, bircə mənimlə görüşsün və indi o mənim yatağımda uzanıb məni gözləyir.

Mənim pijamam yox idi. Çarpayıya tərəf getdim. Onun əynində isə gecə köynəyi vardı.

– Henk, – o dedi, – bizim təxminən altı təhlükəsiz günümüz qalıb, ondan sonra isə nəsə başqa bir şey düşünməli olacağıq.

Mən yatağa, onun yanına girdim. Balaca qız-qadın hazır idi. Onu qucaqlayaraq özümə tərəf çəkdim. Uğur yenə

mənim tərəfimdəydi, ilahlar gülümsəyirdilər. Öpüşlər getdikcə daha ehtiraslı olurdu. Mən onun əlini öz sikimin üstünə qoydum və sonra onun gecə köynəyinin ətəyini yuxarı qaldırdım. Amı ilə oynamağa başladım. Katrinanın amı var? Klitor üzə çıxdı və mən nəvazişlə ona toxundum, sonra yenə, yenə. Nəhayət onun üstünə qalxdım. Mənim şeyim yarısına qədər onun içinə daxil olmuşdu. Ora çox dar idi. Sikimi dala-qabağa itələməyə başladım, sonra isə dibinə qədər itələdim və sikimin çöldə qalan hissəsi də yuvaya girdi. Valehedici idi. O məndən bərk-bərk yapışdı. Mən hərəkət edirdim, o isə məni özünə tərəf sıxırdı. Özümə nəzarət etməyə çalışırdım. Hərəkətimi dayandırdım ki, bir balaca soyuyum. Onu öpdüm, dodaqlarını aralayıb üst dodağını əmməyə başladım. Onun saçlarının yastığın üstünə necə səpələndiyini görmək istəyirdim. Sonra ona həzz vermək cəhdlərindən əl çəkib, onu vəhşi kimi, cıra-cıra sikməyə başladım. Bu sikiş sanki bir qətlə, edama bənzəyirdi. Artıq heç nə mənim vecimə deyildi; mənim sikim ağlını itirmişdi. Bütün bu saçlar, onun gənc və gözəl üzü. Bu, bakirə Məryəmi zorlamağa bənzəyirdi. Mən

qurtardım. Can çəkişərək düz onun içinə qurtardım, spermamın onun bədəninə necə axdığını his edirdim. O köməksiz idi və mən öz toxumlarımı lap dərinə, düz onun bədəninin və ruhunun özəyinə tökürdüm – təkrar-təkrar...

Sonra biz yatdıq. Ya da Katrina yuxuladı. Mən isə onu arxadan qucaqlamışdım. Həyatımda ilk dəfə evlənmək haqqında düşünürdüm. Onun hələ üzə çıxmamış bəzi qüsurlarının olduğunun, əlbəttə ki, fərqində idim. Münasibətlərin başlanğıcı işin asan olan hissəsidir. Əsl sifətlər sonra açılmağa başlayır və bunun sonu olmur. Bununla belə, mən evlənmək haqqında düşünürdüm. Mən ev, it, pişik və supermarketdən bazarlıq etmək haqqında düşünürdüm. Henri Çiknaskinin başı xarab olmağa başlamışdı. Amma heç nə onun vecinə deyildi.

Nəhayət, mən də yuxuya getdim. Ertəsi gün səhər yuxudan ayılanda, Katrinanın çarpayının kənarında oturub qulac-qulac qırmızımtıl şabalıdı rəngli saçlarını daradığını gördüm. Mən yuxudan ayılanda onun iri tünd gözləri mənə baxırdı.

– Sabahın xeyir, Katrina, – mən dedim, – mənə ərə gələrsənmi?

– Xahiş edirəm, lazım deyil, – o dedi, – bu mənim xoşuma gəlmir.

– Mən ciddi deyirəm.

– Ah, boş-boş danışma, Henk!

– Nə?

– Dedim ki, boş-boş danışma. Əgər belə danışmağa davam eləsən, elə birinci təyyarə ilə evə gedərəm.

– Yaxşı.

– Henk?

– Nədi?

Mən Katrinaya baxdım. O öz saçlarını daramağa davam edirdi. Onun iri qonur gözləri mənə baxırdı və o gülümsəyirdi.

– Bizim aramızdakı, sadəcə, seksdir, Henk, sadəcə, seks! – o dedi və sonra o ucadan güldü. Bu, rişxəndli gülüş deyildi, əksinə sevinc dolu bir gülüş idi. O öz saçlarını darayırdı, mən isə qolumu onun belinə dolayıb başımı onun

dizinin üstünə qoydum. Mən daha heç bir şeydən tam əmin deyildim.

37

Mən öz qadınlarımı, adətən ya boks matçlarına, ya da cıdır yarışlarına aparırdım. Həmin cümə axşamı günü mən Katrinanı "Olimpik" idman zalında keçirilən boks matçlarına apardım. O həyatında heç vaxt bir boks matçına canlı-canlı tamaşa etməmişdi. Biz birinci döyüş başlamazdan bir xeyli əvvəl ora çatdıq və düz rinqin yaxınlığında oturduq. Mən pivə içə-içə, siqaret çəkə-çəkə oturub gözləyirdim.

– Çox qəribədir, – mən ona dedim, – insanlar bura gəlir və oturub iki nəfərin rinqə çıxmasını və sonra da eşşək sudan gəlincəyə qədər bir-birini kötəkləməsini gözləyirlər.

– Bu dəhşətli səslənir.

– Bu arena uzun illər bundan əvvəl inşa edilib, – o ərafa nəzər salıb bu qədim zala tamaşa elədiyi vaxt, mən ona dedim. – Burada yalnız iki ayaqyolu var, biri kişilər, o birisi isə qadınlar üçün, onların ikisi də çox darısqaldır. Ona görə

də, oralıq işin varsa, gərək ya fasiləyə qədər, ya da fasilədən sonra gedəsən.

– Yaxşı.

“Olimpik” idman zalına, əsasən, latın amerikalılar, aşağı təbəqələrdən olan zəhmətkeş ağdərililər, bir neçə kino ulduzu və məşhur adamlar gəlirdilər. Burada çoxlu sayda əla meksikalı boksçular vardı və onlar ürəklə döyüşürdülər. Yalnız ağlar, ya da qaradərililər qarşılaşanda pis döyüşlər olurdu, xüsusilə də ağır çəkili idmançıların döyüşləri.

Katrina ilə burada oturmaq mənə qəribə gəlirdi. Ümumiyyətlə, insanların arasındakı münasibətlərin özü qəribə idi. Demək istədiyim odur ki, siz bir müddət bir insanla münasibətdə olursunuz, onunla birlikdə yemək yeyirsiniz, birlikdə yatırsınız, birlikdə yaşayırsınız, onu sevirsiniz, onunla söhbət edirsiniz, onunla gəzirsiniz və birdən hər şey bitir. Sonra heç kim ilə birlikdə olmadığınız çox qısa bir müddət başlayır. Onda sonra isə başqa bir qadın peyda olur və sən artıq onunla birlikdə yemək yeməyə gedirsən, onu sikirsən və bütün bunlar adama çox normal gəlir, elə bil sən bütün həyatın boyu bu qadının, o isə sənin

gəlişini gözləyirdi. Mən yalqız qalanda heç vaxt özümü rahat hiss etməmişəm; bəzən özümü yaxşı hiss etdiyim vaxtlar olub, amma rahat hiss etdiyim vaxtlar olmayıb.

İlk döyüş əla alındı, çoxlu qan və cəsarət. Boks matçlarına və cıdır yarışlarına tamaşa etməklə necə yazmaq haqqında bəzi şeyləri öyrənmək olar. Bu fikir mənə aydın olmasa da, köməyi dəyirdi. Əsas məqam da elə bu idi: fikir aydın deyildi. Burada söz yox idi, lap yanan ev kimi, ya da zəlzələ kimi, yaxud da maşından düşərkən öz ayaqlarını açıb göstərən qadın kimi. Başqa yazıçılara nə lazım olduğunu bilmirdim; bu heç mənim vecimə də deyildi, onsuz da onların yazdıqlarını oxuya bilmirdim. Mən öz vərdişlərimin, öz zehniyyətimin əsiri idim. Səfeh olmaq elə də pis şey deyil, əgər nadanlıq tamamilə sənə məxsusdursa. Mən dəqiq bilirdim ki, bir gün gələcək və mən Katrina haqqında nəsə yazacağam. Üstəlik bunun çətin olacağını da bilirəm. Fahişələr haqqında yazmaq çox asandır, amma yaxşı bir qadın haqqında nəsə yazmaq müqayisəyə gəlməyəcək qədər çətindir.

İkinci döyüş də pis olmadı. Tamaşaçı kütləsi gah qışqırır, gah bağırır, gah da pivə gillədirdi. Onlar öz fabriklərindən, anbarlarından, sallaqxanalarından, avtomobilyuma stansiyalarından müvəqqəti olaraq qaça bilmişdilər – ertəsi gün onlar yenə də öz əsirlik həyatlarına qayıdacaqdılar, amma indi nə qədər ki azadlıqda idilər – bu azadlıq onları vəhşiləşdirmişdi. Onlar yoxsulluğun onlara bəxş elədiyi əsarət və köləlik haqqında düşünmürdülər. Yaxud rifah və ərzaq talonlarının yaratdığı köləlik barədə. Yoxsullar öz zirzəmilərində oturub atom bombası düzəltməyi öyrənənə qədər, yerdə qalanlarımız rahat yaşaya bilərlər.

Bütün döyüşlər çox maraqlı keçdi. Mən yerimdən qalxdım və ayaqyoluna getdim. Geri qayıdanda, Katrina çox sakit oturmuşdu. O elə oturmuşdu, elə bil ona baxanda buranı balet, ya da konsert zalı hesab etmək olardı. O necə də incə görünürdü, amma yenə də onunla sikişmək çox ləzzətli idi.

Mən içməyə davam edirdim, Katrina isə döyüş həddən ziyadə amansızlaşanda mənim əlimdən bərk-bərk tuturdu.

Tamaşaçıların nokautlardan çox xoşu gəlirdi. Döyüşçülərdən birisi yerə yıxılanda olar ucadan qışqırırdılar. Axı zərbələri bir-birinə onlar özləri endirirdilər. Bəlkə də bir-birinə zərbələri endirəndə gözlərinin önündə öz bosslarını, ya da arvadlarını canlandırırdılar. Kim bilir? Kimin nə vecinəydi? Bir az da pivə.

Mən Katrinaya zalı sonuncu döyüş başlamazdan öncə tərk eləməyi təklif elədim. Gördüklərim mənə bəs eləmişdi.

– Yaxşı, – deyə o razılaşdı.

Biz dar keçiddəki pilləkənlərlə yuxarı qalxmağa başladıq, zalın havası siqaret tüstüsündən gömgöy idi. Biz keçidlə irəliləyərkən, heç kim bizə fit çalmadı, nalayiq işarələr eləmədi. Mənim əzilmiş və çapıqlarla dolu sifətim bəzən belə yerlərdə kara gəlirdi.

Biz sürət avtomagistralının altındakı balaca maşın dayanacağına gəldik. 67-ci il modelli folksvagen orada gözə dəymirdi. 67-ci il modeli ən son yaxşı “Folks” idi və cavan uşaqlar da bunu bilirdilər.

– Höpbörn, onlar bizim sikilmiş maşınımızı oğurlayıblar.

– Ah, Henk, bu ola bilməz!

– O yoxdur. Onu bura qoymuşdum, – deyərək əlimlə maşını qoyduğum yerə işarə elədim. – İndi isə burda yoxdur.

– Henk, bəs indi biz neyləyək?

– Taksi tutarıq. Özümü, həqiqətən, çox pis hiss edirəm.

– İnsanlar niyə belə şeylər edirlər?

– Yəqin başqa cür yaşaya bilmirlər. Bu da onların çıxış yoludur.

Biz bir qəhvəxanaya girdik və mən telefonla zəng edib taksi çağırdım. Özümüzə kömbə qoğal ilə qəhvə sifariş elədik. Biz döyüşlərə tamaşa edərkən, onlar maşının qapısını qarmaqla açıblar və naqilləri qıraraq mühərriki işə salıblar. Mənim bir sözüm vardı: "Qadınımı apar, amma maşınıma dəymə". Qadınımı məndən aparmış adama heç vaxt toxunmaram, amma maşınımı aparanı elə yerindəcə öldürərdim.

Taksi gəlib çıxdı. Xoşbəxtlikdən evimdə pivə ilə vodka vardı. Sevişə bilmək üçün kifayət qədər ayıq qalmaq ümidimi tamamilə itirmişdim. Katrina da bunu başa düşürdü. Mən evdə var-gəl edə-edə öz 67-ci il modeli

“Folks”umdan danışırdım. Yaxşı modellərin ən sonuncusu. Hətta polisə də zəng vura bilmirdim, çünki sərxoş vəziyyətdə idim. Ona görə də, sabaha qədər, sabah günortaya qədər gözləməliydim.

– Höpbörn, – mən dedim, – bu sənin günahın deyil, onun sən oğurlamamısan axı!

– Kaş onu mən oğurlamış olaydım, indi maşının sənin yanında olardı.

Mən xəyalımda bir neçə gəncin mənim maşınımla Sahilyanı Şosse ilə şütüdüklərini, şey çəkdiklərini və gülərək maşınımı dağıtdıqlarını canlandırdım. Sonra Santa Fe Avenyunun yanı ilə düzülmüş bütün köhnə avtomobil ölüxanaları haqqında düşündüm. Dağ kimi yığılmış bamperlər, ön şüşələr, qapı dəstəkləri, şüşə silənlər üçün motorlar, mühərrik hissələri, təkərlər, şinlər, kapotlar, domkratlar, yumşaq oturacaqlar, ön təkərin podşipnikləri, əyləc başmaqları, radioqəbuledicilər, porşenlər, klapanlar, karbüratorlar, paylayıcı vallar, transmissiya qutuları, oxlar – mənim maşınım da çox keçmədən ehtiyat hissələr qalağına çevriləcək.

Həmin gecə Katrinaya sığınaraq yatsam da, ürəyim qəm və kədərlə dolu idi.

38

Xoşbəxtlikdən avtomobilimin sığortası vardı və ordan aldığım pul başqa bir maşın kirayələməyimə bəs elədi. Həmin maşınla Katrinanı cıdır yarışlarına apardım. Katrina ilə mən finiş xəttindən əvvəlki son döngənin yaxınlığındakı Hollivud Parkda günəşli meydançada oturmuşduq. Katrina mərcə pul qoymaq istəmədiyini söyləsə də, onu içəri apardım və ona totalizator lövhəsini və mərcə pul qoyma pəncərələrini göstərdim.

Mən beşinci yürüşdəki 7-ci atın qələbəsinə pul qoydum. O mənim sevimli atım idi. Mən belə düşünürdüm: əgər alnına uduzmaq yazılıbsa, bunu əvvəlcədən eləmək daha yaxşıdır; kimsə səni ötməyincə, sən yarışı qazanmış sayılırsan. Atlar burun-buruna gedirdilər, sadəcə, yürüşün sonunda, irəli çıxan, geri qalan oldu. Buna görə $9.40 qazandım və cəmisi $17.50 dollar qabaq idim.

Növbəti yarış üçün pul qoymağa gedəndə Katrina öz yerində qaldı. Mən geri qayıdanda, o mənə bizdən iki sıra aşağıda oturmuş bir kişini göstərib dedi:

– O adamı görürsənmi?

– Hə.

– O mənə dedi ki, dünən bu yarışlardan $2,000 dollar udub və indi $25,000 dollar qabaqdır.

– Sən özün də pul qoymaq istəyirsənmi? Bəlkə hamımız bir şey udduq.

– Ah yox, mən bu yarışlar haqda heç nə bilmirəm.

– Burda hər şey çox sadədir: sən onlara bir dollar verirsən, onlar da sənə 84 sent geri qaytarırlar. Buna "qənimət" deyirlər. Ştat ilə ippodrom bu məbləği öz aralarında təxminən tən yarıdan bölürlər. Yarışı kimin qazanacağı onların vecinə deyil, çünki onların qəniməti ümumi məbləğdən götürülür.

İkinci yarışda mənim atım, favoritə 8-in 5-ə nisbəti ilə, ikinci gəldi. Uduş imkanı aşağı qiymətləndirilən bir at gözlənilmədən finişdə mənim atımı keçdi. Buna görə qazancım azalaraq $45.80 dollar oldu.

Bizdən iki cərgə aşağıda oturmuş kişi geri çevrilərək Katrinaya baxdı.

– O məndə idi, – o, Katrinaya dedi, – Burnunda mənim onluğum vardı.

– Ayyy, – Katrin gülümsəyərək dedi, – bu əladır.

Mən üçüncü yarışa keçdim. Bu yarışda heç vaxt yarışa çıxarılmamış iki yaşlı madyan və axtalanmış erkəklər yarışacaqdı. Pul qoyuluşunun sonuna beş dəqiqə qalmış totalizator lövhəsinə baxdım və pul qoymağa getdim. Mən oradan uzaqlaşarkən, bizdən iki cərgə aşağıda oturmuş kişinin geri çevrilərək Katrina ilə söhbətə başladığını gördüm. At yarışlarında belə insanlar həddən artıq çox idi, onlar bir gözəl qadın görəndə, qadına özlərinin bu yarışlarda necə pullar udduqları haqqında əfsanələr danışırdılar və ümid edirdilər ki, belə əfsanələr onlara bu gözəl qadın ilə yatağa girməyə necəsə yardımçı ola bilər. Bəlkə də onlar hər şeyi belə dərinliyinə qədər heç düşünmürdülər; bəlkə də onlar dumanlı şəkildə nəyəsə ümid edirdilər, bunun nə ola biləcəyi haqqında dəqiq təsəvvürləri olmasa belə. Yarış hesablarını götür-qoy etməkdən onların başı xarab olmuş,

ağıllarını itirmişdilər. Onlara kimsə nifrət edə bilərdimi? Dahi qaliblər. Lakin onlara diqqət versən, onların yalnız iki dollarlıq pəncərəyə yaxınlaşdığını, ayaqqabılarının dabanlarının yeyildiyini, paltarlarının isə çirkli olduğunu görərsən. Bəşər övladının tör-töküntüləri.

Mən cütləri pulla aldım və o 6-lıq uddu və hər uduşa $4.00 verilirdi. Çox deyil, amma qalib üçün onluq vardı. O adam geri çevrilərək Katrinaya baxdı.

– O məndə idi, – o, Katrinaya dedi, – qalibə $100 dollar.

Katrina ona cavab vermədi. O artıq nə baş verdiyini anlamağa başlamışdı. Qalib olanlar ağızlarını Allah yoluna qoymurdular. Çünki onlar avtomobil duracağında qətlə yetiriləcəklərindən qorxurdular.

Dördüncü yarışdan sonra, $22.80 dollar udaraq, o yenə arxaya çevrildi və Katrinaya dedi:

– Bunu da qazandım, on çarpaz.

Katrina üzünü yana çevirdi:

– Onun üzü necə də sapsarıdı, Henk. Onun gözlərinə fikir verdinmi? O xəstədi.

– O arzular xəstəsidir. Biz hamımız arzular, xəyallar xəstəsiyik, elə ona görə də burada oturmuşuq.

– Henk, gəl burdan gedək.

– Yaxşı.

Həmin gecə Katrina yarım şüşə qırmızı şərab içdi, əla qırmızı şərab. O çox qəmgin və susqun görünürdü. Mən bilirdim ki, o məni ippodromdakı və boks yarışlarındakı insanlar ilə müqayisə edir – hə bu doğrudur, mən onlarla idim, onlardan birisi idim. Katrina bilirdi ki, mənim içimdə nəsə sağlam olmayan bir şey var. Yəni "sağlam insan sağlam işlər görər" mənasında. Məni hər zaman yanlış şeylər özünə cəlb edirdi: spirtli içki qəbul eləməyi xoşlayırdım, tənbəl idim, mənim Allahım, siyasətim, ideyalarım və ideallarım yox idi. Mən yoxluğun içində kök atmışdım; mövcud olmamaq kimi bir şey... və mən bunu qəbul edirdim. Bu, insanın maraqlı birisi olmasına xidmət eləmir. Heç mən özüm də maraqlı birisi olmaq istəmirdim, çünki maraqlı birisi olmaq çox çətindir. Əslində isə, mən heç kim tərəfindən narahat edilmədən içində yaşaya biləcəyim yumşaq və dumanlı bir məkandan başqa bir şey

istəmirdim. Digər tərəfdən isə, içki içib sərxoş olanda, qışqır-bağır salırdım, ağlımı itirirdim və tamamilə özümə nəzarəti itirirdim. Mənim bir andakı davranışım, başqa bir andakı ilə uyğun gəlmirdi. Amma qəribə burasıdır ki, bütün bunlar heç mənim vecimə də deyildi.

Həmin gecə yaxşıca sikişdik, amma elə həmin gecə də onu itirdim. Bunun qarşısını almaq üçün əlimdən bir şey gəlməzdi. Onun üstündən yatağa yuvarlanıb özümü mələfə ilə sildim, o isə vanna otağına keçdi. Haradasa bir polis vertalyotu Hollivud səmasında dövrələr vururdu.

39

Növbəti gecə Bobbi ilə Valieri evimə qonaq gəldilər. Onlar bu yaxınlarda mənim yaşadığım binaya köçdüklərindən indi həyətimizin qarşı tərəfində yaşayırdılar. Bobbinin əynində hörgülü bir köynək vardı. Bobbinin paltarları həmişə onun əyninə əla oturardı: onun şalvarı rahat və lazım olan uzunluqda olardı. Həmişə ayağına düzgün ayaqqabı geyinərdi, saç düzümü də həmişə dəbə uyğun

olardı. Valeri özü də dəbə uyğun geyinərdi, amma əri qədər bunun fərqində olmazdı. İnsanlar onları "Barbi Kuklaları" adlandırırdılar. Valeri ilə işlər həmişə qaydasında olurdu, yəni mən onunla təklikdə olanda, o çox ağıllı, zirək və həddən ziyadə dürüst olurdu. Bobbi özü də, biz onunla təklikdə olanda, özünü insan kimi aparardı, amma yanımızda yeni bir qadın peyda olan kimi o korafəhmləşir və müdafiəsiz bir varlığa çevrilirdi. O bütün diqqətini və söhbətini bu qadına yönəldərdi, elə bil onun burda yanımızda olması özü çox maraqlı və heyrətamiz bir hadisə idi. Amma onun söhbətləri darıxdırıcı və qabaqcadan təxminedilən olurdu. Mənim üçün maraqlısı Katrinanın onunla necə davranacağını görməkdi.

Onlar əyləşdilər. Mən pəncərənin yaxınlığındakı kresloda oturmuşdum. Valeri isə divanda Bobbi ilə Katrinanın arasında oturmuşdu. Bobbi başladı. O, Valeriyə heç bir əhəmiyyət verməyərək irəli əyildi və bütün diqqətini Katrinaya yönəltdi.

– Los-Anceles xoşunuz gəlirmi? – o, Katrinadan soruşdu.

– Hə, pis deyil, – Katrina cavab verdi.

– Siz burada çoxmu qalacaqsınız?

– Hə, hələ bir müddət qalmağı düşünürəm.

– Texasdansınız?

– Bəli.

– Sizin valideynləriniz də Texasdandılar?

– Bəli.

– Oradakı televiziya kanalları maraqlı verilişlər verirlərmi?

– Təxminən elə burdakı kimi.

– Mənim dayım da Texasda yaşayır.

– Aaa.

– Bəli. O, Dallasda yaşayır.

Katrina daha ona cavab vermədi. Amma sonra dedi:

– Məni bağışlayın, amma mən buterbrodlar hazırlamaq üçün sizi tərk etməliyəm. Kimsə nəsə başqa bir şey istəyirmi?

Biz istəmədiyimizi söylədik. Katrina yerindən qalxıb mətbəxə keçdi. Bobbi də yerindən qalxıb onun arxasınca getdi. Onun mətbəxdə nə dediyi aydın eşidilməsə də,

Katrinaya yenə suallar yağdırdığı bizə aydın idi. Valeri dinməzcə qapıya baxırdı. Katrina ilə Bobbi uzun müddət mətbəxdə qaldılar. Birdən Valeri başını qaldırdı və mənimlə söhbətə başladı. O çox sürətlə və əsəbi bir tərzdə danışırdı.

– Valeri, – deyərək onu dayandırdım, – bizim söhbətə ehtiyacımız yoxdu. Biz söhbət eləməyə də bilərik.

O yenə başını aşağı dikdi.

Sonra mən ona dedim:

– Ay uşaqlar, siz nəsə orda lap çox qaldınız. Nədi, siz orda döşəmənimi silirsiniz?

Bobbi güldü və ayaqları ilə döşəmədə ritm vurmağa başladı.

Nəhayət, Katrina mətbəxdən çıxdı, arxasınca da Bobbi. Katrina mənə yaxınlaşdı və mənə öz buterbrodunu göstərdi: sərt ağbuğda çörəyinin üstündə dilimlənmiş banan və küncüt toxumu ilə yerfındığı yağı.

– Ləzzətli görünür, – mən ona dedim.

O oturdu və öz buterbrodunu yeməyə başladı. Hə tərəfə sükut çökdü. Bu sükut bir müddət davam etdi və birdən Bobbi dedi:

– Hə, məncə, bizim getmək vaxtımız gəldi...

Onlar getdilər. Onların arxasınca qapı bağlanandan sonra Katrina mənə tərəf baxaraq dedi:

– Pis heç nə düşünmə, Henk. O, sadəcə, məndə özü haqqında xoş təəssürat yaratmağa çalışırdı.

– Onu tanıdığım gündən bəri, o bütün qadınlarla belə davranır.

Telefon zəng çaldı. Bu, Bobbi idi.

– Ey, dostum, sən mənim arvadıma neyləmisən?

– Nə olub ki?

– O burda dinməzcə oturub, tam depressiyadadır, danışmaq belə istəmir!

– Sənin arvadına heç nə eləməmişəm.

– Heç nə anlamıram!

– Gecən xeyrə qalsın, Bobbi.

Mən dəstəyi asdım.

– Zəng vuran Bobbi idi, – deyə Katrinaya izah etdim. – Onun arvadı depressiyaya düşüb.

– Doğrudan depressiyaya düşüb?

– Deyəsən, hə.

– Buterbrod istəmədiyinə əminsənmi?

– Özün üçün hazırladığın buterbrodun eynisini mənim üçün də düzəldə bilərsənmi?

– Ah, əlbəttə.

– Onda yeyərəm.

40

Katrina daha dörd-beş gün qaldı. Biz ayın elə bir vaxtına gəlib çatmışdıq ki, Katrina ilə sikişmək artıq təhlükəli idi. Mənim prezervativlərdən zəhləm gedirdi. Katrinada hansısa qoruyucu köpük vardı. Bu arada, polis də mənim folksvagenimi tapmışdı. Biz maşının müsadirə edildiyi yerə getdik. Yatmış akkumulyatoru nəzərə almasaq maşın yaxşı vəziyyətdə idi, elə bir xəsarət gözə dəymirdi. Maşınımı Hollivud qarajına apartdırdım və onu orada saz vəziyyətə gətirdilər. Yataqda sonuncu vidalaşmadan sonra, Katrinanı öz mavi TRK 469 folksvagenmdə hava limanına apardım.

Həmin gün mənim üçün xoşbəxt sayıla biləcək bir gün deyildi. Biz, demək olar ki, söhbət etmədən oturmuşduq. Sonra onun reysini elan etdilər və biz öpüşdük.

– Ey, onlar hamısı cavan bir qızın qoca bir kişini öpdüyünü gördülər.

– Mənim vecimə də deyil...

Katrina məni bir də öpdü.

– İndi təyyarəyə də gecikəcəksən, – mən dedim.

– Sən də mənim yanıma gəl, Henk. Mənim çox qəşəng evim var. Mən yalqız yaşayıram. Mənim yanıma qonaq gəl.

– Gələcəyəm.

– Mənə yaz!

– Yazacam…

Katrina təyyarəyə miniş tunelinə girdi və gözdən itdi.

Mən maşın dayanacağına qayıtdım, folksvagenmə mindim və düşündüm: mənə qalan elə budur. Lənət şeytana, deməli hələ hər şey itirilməyib.

Mühərriki işə saldım.

41

Həmin axşam bərk sərxoş olana qədər içdim. Katrinasız yaşamaq elə də asan olmayacaqdı. Onun evimdə unutduğu bəzi əşyalarını tapdım: sırğalar, bilərzik.

Yenə yazı makinasına dönmək lazımdır, deyə düşündüm. İncəsənət nizam-intizam tələb edir. Hər heyvərə ətək dalınca qaça bilər. Mən bu haqda düşünə-düşünə içirdim.

Səhər saat 2:10 telefon zəng çaldı. Mən sonuncu pivəmi içirdim.

– Allo?

– Allo. – Bu, qadın səsi idi, cavan bir qadın.

– Bəli?

– Mən Henri Çinaski ilə danışıram?

– Bəli.

– Mənim bir rəfiqəm var, o sizin yazılarınıza məftundur. Bu gün onun ad günüdür və ona söz vermişdim ki, telefonla sizə zəng vuracam. Sizin telefon nömrənizi telefon kitabında tapanda elə təəccübləndik ki.

– Hə, orada mənim telefon nömrəm var.

– Bilirsinizmi, bu gün onun ad günüdür və mən düşündüm ki, sizə qonaq gəlsəydik, bu lap əla olardı.

– Yaxşı.

– Mən Arlinaya demişəm ki, yəqin sizin evinizdə qadın əlindən tərpənməyə yer yoxdur.

– Mən guşənişin həyat sürürəm.

– Deməli, onda bizim gəlməyimiz sizə narahatçılıq yaratmır, elə deyilmi?

Mən onlara öz ünvanımı söylədim və evimi necə tapacaqlarını izah elədim.

– Yalnız bir problem var, evimdə pivə qurtarıb.

– Biz özümüzlə bir az pivə gətirə bilərik. Yeri gəlmişkən, mənim adım Temmidir.

– İndi gecə saat 3-ə işləyir axı.

– Biz özümüzlə bir az pivə gətirərik, narahat olmayın. Dekolte bəzən xarüqələr yaradır.

Təxminən iyirmi dəqiqədən sonra onlar öz dekolteləri ilə, amma pivəsiz gəlib çıxdılar.

– O qancığın balası, – Arlina dedi, – əvvəllər, həmişə bizə pivə verərdi. Bu dəfə, deyəsən, nədənsə qorxmuşdu.

– Qoy sikdirsin, – Temmi dedi.

Onlar oturan kimi, ikisi də öz yaşlarını mənə söylədilər.

Əvvəlcə Arlina dedi:Mənim 32 yaşım var.

– Mənim isə 23, – bunu da Temmi söylədi.

– Öz yaşlarınızı toplayın, – mən dedim, – əldə etdiyiniz nəticə mənim yaşım olacaq.

Arlinanın saçları uzun və qara idi. O pəncərənin yanındakı kresloda oturub önündəki böyük gümüş çərçivəli güzgüyə baxa-baxa saçlarını darayır, üzünün makiyajını düzəldir və danışırdı. Deyəsən, hansısa həblərdən atmışdı. Temminin isə ideala yaxın bir gözəllikdə bədəni və təbii kürən saçları vardı. O da deyəsən, həb atmışdı, amma elə də çox yox.

– Götümün bir hissəsi sənə $100 dollara başa gələcək, – Temmi dedi.

– Məndən keçdi, mən pas.

İyirmi yaşını yenicə adlamış bütün qızlar kimi, Temmi də çətin qız idi. Onun üzü köpək balığının sifətini andırırdı. Elə ilk baxışdan ondan xoşum gəlmədi.

Səhər saat təxminən dördün yarısında onlar getdilər və mən yatağa yalqız girdim.

42

İki gün sonra, səhər saat 4-də kimsə qapımı döydü.

– Kimdir?

– Bu, kürən fahişədir.

Mən qapını açıb Temmini evə buraxdım. O bir yer tapıb oturdu. Mən iki şüşə pivə açdım.

– Ağzımdan pis iy gəlir, iki dişim çürüyüb. Mənimlə öpüşə bilməzsən.

– Yaxşı.

Biz oturub söhbət elədik. Əslində, mən qulaq asırdım. Temmi, deyəsən, yenə spid həbləri atmışdı. Mən ona həm qulaq asır, həm də onun uzun kürən saçlarına tamaşa edirdim. Başı söhbətə qızışan anlarda isə gözümü onun bədənindən ayıra bilmirdim. Bu bədən sanki hazırda onu gizlədən geyimdən azad olmaq üçün yalvarırdı, elə bil bu dəqiqə parçanı yırtıb bayıra çıxacaqdı. Temmi isə hər şeyi

unutmuşdu, durmadan elə hey danışırdı. Mən ona barmağımı belə toxundurmadım.

Təxminən səhər saat 6-da Temmi mənə öz ünvanını və telefon nömrəsini verdi.

– Daha getməliyəm, – Temmi dedi.

– Qoy səni maşına qədər ötürüm.

Temminin maşını açıq qırmızı rəngli, tamamilə dağılmış vəziyyətdə olan "Kamaro" idi. Ön hissə əzilib içəri batmış, bir böyrü cırılmışdı. Qapıların ümumiyyətlə şüşələri yox idi. Salonda əski parçaları, köynəklər, "Kleenex" salfet qutuları, qəzetlər, kağız süd qutuları, koka-kola butulkaları, məftil, kəndir, kağız salfetlər, jurnallar, kağız stəkanlar, ayaqqabılar və kokteyl içmək üçün əyri, rəngli saman çöpləri hər tərəfə səpələnmişdi. Döşəməyə tökülmüş bu zir-zibil kütləsi oturacaqların üstünə qədər qalxırdı. Yalnız sürücü üçün olan hissədə bir balaca boş yer vardı.

Temmi pəncərədən başını çıxardı və biz öpüşdük.

Sonra o, maşını səkinin kənarından ayıraraq hərəkətə gətirdi. Qarşıdakı döngəyə çatanda, maşın artıq saatda 45 mil sürətlə gedirdi. Düzdür, bəzən o, əyləcə də basırdı və

həmin anda “Kamaro” sərt bir şəkildə irəli-geri ləngər vururdu. Mən evə döndüm.

Yatağıma girdim. Onun saçları haqqında düşünməyə başladım. Həyatımda heç vaxt əsl kürən qadınlarla rastlaşmamışdım. Elə bil alov idi.

Elə bil göylərdə çaxan şimşək idi, mən düşündüm.

Nədənsə, onun üzü mən daha əvvəlki qədər sərt görünmürdü…

43

Ona zəng vurdum. Gecə saat 1 tamam olardı. Sonra onun evinə getdim.

Temmi bir binanın arxasındakı bunqaloda yaşayırdı.

O qapını açıb məni evinə buraxdı.

– Səs salma. Bircə Dansini oyatma. O mənim qızımdı. 6 yaşı var. İndi yataq otağında yuxulayır.

Mən özümlə 6 pivəlik bir paket də gətirmişdim. Temmi onları soyuducuya qoydu və iki şüşə ilə geri qayıtdı.

– Gərək qızım heç nə görməsin. İki dişim hələ də xarabdı, ona görə də ağzımdan pis iy gəlir. Biz öpüşə bilmərik.

– Yaxşı.

Yataq otağının qapısı qapalı idi.

– Bura bax, – o dedi, – mən "B" vitamini qəbul eləməliyəm. Bunun üçün gərək şalvarımı aşağı çəkib iynəni özüm götümə vurum. Sən o yana bax.

– Yaxşı.

Mən onun dərmanı şprisə necə doldurduğuna baxdım. Sonra isə üzümü yana çevirdim.

– Gərək onun hamısını vurum, – o dedi.

Bu iş başa çatandan sonra, Temmi balaca qırmızı radionu qoşdu.

– Sənin evin çox qəşəngdir.

– Evin kirayə pulunu artıq bir ay gecikdirmişəm.

– Aaa…

– Narahat olmalı bir şey yoxdu. Evin sahibi – o qarşıdakı evdə yaşayır – onun başını hələ bir az da qata bilərəm.

– Lap yaxşı.

– O evlidir, qoca düdəmə. Tap görüm nə olub?

– Tapa bilmərəm.

– Bir gün onun arvadı evdə yox idi, harasa getmişdi və bu qoca dümbələk məni öz evinə dəvət elədi. Mən də getdim və oturdum. Bilirsənmi, sonra nə oldu?

– Yəqin şeyini çıxarıb sənə göstərdi.

– Yox, pornoqrafik film qoydu. O elə düşünürdü ki, o zibil film məni həvəsə gətirəcək.

– Bəs nə oldu, həvəslənmədin?

– Ona dedim ki, mister Miller, mən getməliyəm. Dansini məktəbdən götürməliyəm.

...Temmi mənə şəhvət artıran bir həb verdi. Biz durmadan elə hey danışır, danışırdıq və bir də pivə içirdik.

Səhər saat altıda Temmi bizim üstündə oturduğumuz taxtı açdı. Onun içində odeyal vardı. Biz ayaqqabılarımızı soyunub elə paltarlarımızla odeyalın altına girdik. Mən üzümü onun kürən saçlarının içində gizlədərək onu arxadan qucaqlamışdım. Çox keçmədən şeyim bərkidi. Onun əynində paltar olsa da, şeyimi onun dalına sıxdım. Onun

dırnaqlarını taxtın kənarına keçirib taxtı necə cırmaqladığını eşidirdim.

– Artıq mən getməliyəm, – mən Temmiyə dedim.

– Bura bax, mən bircə Dansiyə səhər yeməyi verib onu məktəbə aparmalıyam, vəssalam. Onun səni görməsi problem deyil. Mən qayıdana qədər burda gözlə.

– Mən getməliyəm, – dedim.

Sərxoş halda maşınla evə qayıtdım. Günəş artıq səmada yüksəyə qalxmışdı, sapsarı və yandırıcı...

44

Neçə il idi ki, çox narahat döşəyin üstündə yatırdım. Döşəyin içindən çıxan yaylar böyür-başıma batırdı. Həmin gün yuxudan duran kimi döşəyi çarpayının üstündən götürdüm, onu dartaraq çölə çıxardım və zibil yeşiyinin yanına sürüyüb ona söykədim.

Evə döndüm və qapını açıq qoydum.

Günorta saat 2 olardı. Hava çox isti idi.

Birdən Temmi içəri daxil oldu və divanda oturdu.

– İndi gedəsi yerim var, – mən ona dedim. – Özümə yeni döşək almalıyam.

– Döşək? Yaxşı, onda mən gedim.

– Yox, Temmi, gözlə. Lütfən. Bütün bu alış-veriş cəmisi 15 dəqiqə çəkər. Burada otur və pivə içə-içə məni gözlə.

– Yaxşı, – deyə o razılaşdı...

Qərb tərəfdə, mənim evimdən cəmisi üç məhəllə aralı döşək təmir edən bir emalatxana vardı. Maşınımı emalatxananın önündə saxladım və qapıdan içəri daxil oldum.

– Uşaqlar! Mənə döşək lazımdı... özü də TƏCİLİ!

– Hansı çarpayı üçün döşək istəyirsiniz?

– İkinəfərlik.

– Bizdə belə bir döşək var, qiyməti $35 dollar.

– Alıram.

– Onu öz maşınınıza yükləyə bilərsinizmi?

– Məndə folksvagendi.

– Yaxşı, elədirsə, özümüz çatdırarıq. Ünvanınız?

Mən geri qayıdanda, Temmi hələ də orada idi.

– Bəs döşək hanı?

– Bir azdan gətirəcəklər. Gəl bir az pivə içək. Səndə həblər varmı?

O mənə bir həb verdi. Günəşin şüaları onun kürən saçlarından süzülürdü.

1973-cü ildə Portağal Vilayəti Yarmarkasında Temmini Miss Günəşli Dovşan seçmişdilər. O vaxtdan dörd il keçsə də, qızda heç nə dəyişməmişdi. Onun bütün lazım olan yerləri iri və təravətli idi.

Mal çatdıran əlində döşək artıq qapının ağzında dayanmışdı.

– İcazə verin sizə kömək eləyim.

Kuryerin mərhəmətli bir insan olduğu məlum oldu. O mənə döşəyi çarpayıya yerləşdirməyə də yardım etdi. Sonra divanda oturmuş Temmini görəndə, dişlərini ağartdı.

– Salam, – kuryer Temmiyə dedi.

– Çox sağ olun, – deyə mən ona minnətdarlıq elədim, sonra da 3 dollar verib yola saldım.

Mən yataq otağına keçib yeni döşəyə baxdım. Arxamca Temmi də otağa gəldi. Döşək sellofanla sarınmışdı. Mən onu cırmağa başladım. Temmi də yardım etdi.

– Bir buna bax, necə də qəşəngdi, – o dedi.

– Hə, qəşəngdi.

Döşək parlaq və alabəzək idi. Onun üstündə qızıl güllər, yarpaqlar və burulan tənək sarmaşıqlarının şəkilləri vardı. Elə bil lap cənnət bağı idi, özü də cəmisi $35 dollara.

Temmi də döşəyə tamaşa edirdi.

– Bu döşək məni lap həvəsə gətirir. Mən onun siftəsini eləmək istəyirəm. Səni bu döşəyin üstündə sikən ilk qadın mən olmaq istəyirəm.

– Maraqlıdır, görəsən ikinci kim olacaq?

Temmi vanna otağına keçdi. Hər yana sakitlik çökdü. Sonra duşun şırıltısını eşitdim. Mən döşəyə təzə mələfə saldım, balış üzlərini dəyişdim və soyunaraq yatağa girdim. Temmi vanna otağından çıxdı, gənc və islaq, hər yana işıq saçırdı. Onun qasığındakı tüklərin rəngi saçlarının rəngi ilə eyniydi: kürən, elə bil yanan alov idi.

O, güzgünün önündə ayaq saxlayıb özünə baxdı və sonra qarnını içəri çəkdi. Onun iri döşləri güzgüyə tərəf dikəldi. Mən eyni vaxtda həm onun arxasını, həm də önünü görə bilirdim.

O, çarpayıya yaxınlaşdı və mələfənin altına girdi.

Biz tələsmədən işimizə başladıq.

Biz başladıq, onun kürən saçları yastığa səpələndiyi vaxt, bayırda sirena səslərinin uğultusu və itlərin hürüşməsi eşidilirdi.

45

Həmin axşam Temmi yenə gəldi. Deyəsən, çoxlu narkotik həb qəbul etmişdi.

– Biz az şampan şərabı istəyirəm, – o dedi.

– Yaxşı, –mən cavab verdim.

Mən ona bir iyirmilik verdim.

– İndi qayıdıram, – deyərək o, qapıdan çıxdı.

Telefon zəng çaldı. Bu, Lidiya idi.

– Sadəcə, necə olduğunu öyrənmək üçün zəng elədim...

– Hər şey qaydasındadır.

– Burda isə qaydasında deyil. Mən hamiləyəm.

– Nə?

– Üstəlik uşağın atasının kim olduğunu da bilmirəm.

– Deməli belə?

– O hollandiyalını xatırlayırsanmı, indi mənim işlədiyim barın yanında fırlanın adamı deyirəm?

– Hə, o qoca dazbaş.

– Bilirsən, o, əslində, pis adam deyil. Mənə aşiq olub. Mənə tez-tez gül dəstələri və konfetlər gətirir. Mənimlə evlənmək fikrinə düşüb. Mənə qarşı, həqiqətən, çox mərhəmətli olub. Bir gecə evə onunla birlikdə getdim. Və biz bu işi elədik.

– Lap yaxşı.

– Ondan başqa Barni adlı birisi də var, o evlidir, amma ondan xoşum gəlir. Bardakı bütün kişilərdən bircə o mənim qarşımda oyunlardan çıxmırdı, qır-saqqız olub boğazıma yapışmırdı. Məni ona cəzb eləyən də elə bu davranışı oldu. Hə, bir də, mənim evimi satmaq istədiyimi sən də bilirsən. Ona görə də, o bir gün günorta vaxtı mənim evimə gəldi. Elə belə gəlmişdi. Mənə dedi ki, bu evə hansısa dostu üçün

baxmaq istəyir. Mən də onu içəri buraxdım. O lap münasib vaxtda gəlmişdi. Uşaqlar məktəbdə idilər və buna görə də mən ona imkan verdim... Sonra bir gün gecədən xeyli keçmiş bara gəldim. Bu yad adam da gəldi və məni öz evinə qonaq çağırdı. Mən isə onun təklifini rədd elədim. Sonra o mənə dedi ki, sadəcə, mənim maşınımda oturub mənimlə söhbət eləmək istəyir. Mən də razılaşdım. Biz maşında oturub söhbət eləməyə başladıq. Söhbət zamanı ikimizə bir pay şey çəkdik. Sonra is o məni öpdü. Hər şey də elə bundan başladı. Əgər o məni öpməsəydi, mən heç vaxt onu yaxına buraxmazdım. İndi isə mən hamiləyəm, amma kimdən hamilə qaldığımı bilmirəm. Uşağın onlardan hansına oxşadığını görmək üçün bir az gözləməli olacağam.

– Yaxşı, Lidiya, sənə uğurlar.

– Sağ ol.

Mən dəstəyi asdım. Təxminən bir dəqiqə sonra telefon bir də zəng çaldı. Bu yenə Lidiya idi.

– Ah, – Lidiya dedi, – mən axı sənin halını xəbər almaq üçün zəng eləmişdim, necəsən?

– Elə əvvəlki kimi – yenə atlar və içki.

– Deməli, sənin işlərin qaydasındadır?

– Elə deməzdim.

– Nə olub ki?

– Hə, bir qadını şampan almaq üçün göndərmişəm...

– Qadın?

– Yox, əslində, cavan qız demək istəmişdim...

– Qız?

– Ona bir iyirmilik verib şampan almağa göndərmişəm, hələ də qayıtmayıb. Məncə, məni kuzmaladılar.

– Çinaski, sənin qadınların haqqında bir söz belə eşitmək istəmirəm. Məni başa düşdünmü?

– Yaxşı, qoy sən deyən olsun.

Lidiya dəstəyi asdı. Və elə həmin anda qapı döyüldü. Gələn Temmi idi. O, əlində bir şüşə şampan şərabı və pulun qalığı ilə qayıtmışdı.

46

Ertəsi gün günorta saatlarında telefon yenə zəng çaldı. Zəng edən yenə də Lidiya idi.

– Hə, nə oldu, o qadın şampan şərabı ilə qayıtdımı?

– Kim?

– Sənin fahişən.

– Hə, qayıtdı...

– Bəs sonra nə oldu?

– Biz şampanı içdik. Əla şərab idi.

– Bəs sonra nə oldu?

– Hə, sən özün bilirsən, zibil...

Mən uzun-uzadı anlaşılmaz dəli bir fəryad eşitdim, elə bil qütb qarlarında Sibir porsuğunu güllə ilə vurmuş və qan aparıb təklikdə ölməsi üçün onu tərk eləmişdilər...

O, dəstəyi asdı.

Mən günün böyük bir hissəsini yatdım və həmin axşam qoşqu atlarının yarışına baxmağa getdim.

$32 dollar uduzdum və folksvagenimə oturub evə gəldim. Maşını evin yanında saxladım, artırmaya qalxdım və açarı qapının kilidinə saldım. Evdə bütün lampalar yanırdı. Ətrafa baxdım. Şkafın siyirmələri çıxarılmış və içindəkilər döşəməyə səpələnmişdi, çarpayının örtüyü yerə atılmışdı. Rəflərdəki bütün kitablarım, hətta öz kitablarım belə, yoxa çıxmışdı, iyirmidən artıq kitab. Mənim yazı makinam da

gözə dəymirdi, tosterim, radiom və şəkillərim də harasa qeyb olmuşdu.

Lidiya, deyə düşündüm.

O gedəndə, mənə yalnız televizoru qoyub getmişdi, çünki bilirdi ki, mən ona baxmıram.

Bayıra çıxdım, Lidiyanın maşının orada dayansa da, özü onun içində gözə dəymirdi.

– Lidiya, – deyə onu çağırdım. – Ey, əzizim!

Mən bir qədər maşına yaxınlaşdım, sonra isə küçəyə çıxdım və yaxınlıqdakı çoxmənzilli binanın yanındakı balaca ağacın arxasından onun ayaqlarının çıxdığını gördüm, hər ikisini də. Ağaca yaxınlaşdım və dedim:

– Bura bax, de görüm, lənət şeytana, sənə nə olub axı?

Lidiya dinməzcə orada dayanmışdı. Onun əllərində iki polietilen torba dolu mənim kitablarım və bir qovluq rəsm əsərlərim vardı.

Qulaq as, kitablarımı və rəsmlərimi mənə qaytarmalısan. Onlar mənə məxsusdur.

Lidiya ucadan qışqıraraq gizləndiyi ağacın dalından çıxdı. O, rəsmləri paketdən çıxarıb bir-bir cırmağa başladı.

Cırılmış rəsmin parçalarını, əvvəlcə havaya atır, onlar yerə düşəndən sonra isə onları ayaqları ilə tapdalayırdı. Ayaqlarında kovboy çəkmələri vardı. Sonra o mənim kitablarımı polietilen torbalardan çıxarıb onları ətrafa, küçənin ortasına, evin önündəki çəmənliyə, hər yerə səpələməyə başladı.

– Al, bu da sənə sənin rəsmlərin! Al, bu da sənə sənin kitabların! VƏ BİR DƏ MƏNƏ ÖZ QADINLARIN HAQQINDA HEÇ NƏ DANIŞMA! BİR DƏ MƏNƏ ÖZ QADINLARIN HAQQINDA HEÇ NƏ DANIŞMA!

Sonra əlində mənim son kitabım, “Henri Çinaskinin seçilmiş əsərləri” adlı kitabla həyətə tərəf qaçdı və ucadan ulamağa başladı:

– Hə, nədi, öz kitablarını geri istəyirsən? Hə, nədi, öz kitablarını geri istəyirsən? Al, bu da sənə lənətə gəlmiş kitabların! VƏ BİR DƏ MƏNƏ ÖZ QADINLARIN HAQQINDA HEÇ NƏ DANIŞMA!

O mənim bayır qapımın şüşələrini qırmağa başladı. “Henri Çinaskinin seçilmiş əsərləri” kitabını əlinə alıb onunla qapının şüşələrini bir-bir qırır və ucadan bağırırdı:

– Hə, nədi, öz kitablarını geri istəyirsən? Al, bu da sənə lənətə gəlmiş kitabların! VƏ BİR DƏ MƏNƏ ÖZ QADINLARIN HAQQINDA HEÇ NƏ DANIŞMA! SƏNİN QADINLARIN HAQQINDA HEÇ NƏ EŞİTMƏK İSTƏMİRƏM!

O anqıra-anqıra qapının şüşələrini qırdığı vaxt mən sakitcə durub baxırdım.

Bəs, lənətə gəlmiş polis hara itib, deyə düşünürdüm. Hansı cəhənnəmə yox olublar?

Sonra Lidiya məhəllənin cığırı ilə qaçmağa başladı, zibil yeşiyinin yanına çatanda bir sıçrayışla sola buruldu və çoxmənzilli bina istiqamətində qaçdı. Mənim yazı makinam, radiom və tosterim balaca kolun arxasına atılmışdı.

Lidiya yazı makinasını qamarladı və onunla birlikdə küçənin ortasına qaçdı. O, köhnə dəbli ağır bir yazı makinası idi. Lidiya iki əli ilə yazı makinasını başı üzərinə qaldırdı və onu var gücü ilə asfalta çırpdı. Makinanın valı və bir neçə başqa hissəsi uçaraq ətrafa səpələndi. O, yenə yazı makinasını yerdən götürdü. Başı üzərinə qaldırdı və nəfəsi yetdiyi qədər ucadan bağırdı:

– MƏNƏ ÖZ QADINLARIN HAQQINDA HEÇ NƏ DANIŞMA! – və yenə onu asfalta çırpdı.

Bundan sonra, Lidiya cəld maşına oturdu və sürərək uzaqlaşdı. O gedəndən cəmisi on beş saniyə sonra polis patrul maşını gəldi.

– Narıncı rəngdə bir folksvagen idi. Ona Zibil deyirlər, lap çənə oxşayır. Onun dövlət nömrə-nişanı yadımda deyil. Amma nömrədəki hərflər DMN, DUMANLI sözündəki kimi, başa düşdünüzmü?

– Ünvan?

Onlara Lidiyanın ünvanını verdim…

Şübhəsiz ki, onlar Lidiyanı tutub geri gətirdilər. Gətiriləndə onun arxa oturacaqda necə hönkür-hönkür ağladığını da eşitdim.

– YAXINA GƏLMƏYİN! – maşından düşən polislərdən biri dedi. O mənim arxamca gələrək evimə girdi. Evə girən kimi şüşə qırıntılarına baxdı. Sonra nədənsə fənəri ilə tavana və tavandakı gipsdən hazırlanmış yapmalara işıq saldı.

– Siz məhkəməyə şikayət ərizəsi ilə müraciət edəcəksinizmi? – polis məndən soruşdu.

– Yox. Onun balaca uşaqları var. Onun öz uşaqlarını itirməsini istəməzdim. Keçmiş əri uşaqları onun əlindən almaq istəyir. Amma sizdən çox xahiş edirəm, ona başa salın ki, insanların evinə bu şəkildə soxulub belə şeylər etmək olmaz.

– Yaxşı, – polis dedi, – onda bura imza atın.

O, vərəqləri xətlənmiş balaca bir bloknotda nəsə yazdı. Orada deyilirdi ki, mən, Henri Çinaski, Lidiya Vansa qarşı heç bir şikayət ərizəsi ilə məhkəmə qarşısına çıxmayacağam.

Mən ora qol çəkdim və o getdi.

Giriş qapısından nə qalmışdısa, onu bağladım və yerimə girib yuxuya getməyə çalışdım.

Təxminən bir saat sonra telefonum zəng çaldı. Zəng edən Lidiya idi. O artıq evə dönmüşdü.

– SƏNİ QANCIĞIN OĞLU, SƏN BİR DƏ MƏN ÖZ QADINLARIN HAQQINDA BİR SÖZ DESƏN, BU GÜN SƏNİN BAŞINA AÇDIĞIM OYUNUN EYNİSİNİ GƏLİB BİR DƏ TÖRƏDƏCƏM!

O, dəstəyi asdı.

47

İki gün sonra mən Temmi yaşadığı yerə, Kəndçilər Məhəlləsinə getdim. Qapını döydüm. Evin işıqları yanmırdı. Deyəsən, evdə heç kim yox idi. Poçt qutusuna baxdım. Qutunun içində bir neçə məktub vardı. Mən qısa bir məktub yazdım: "Temmi, mən sənə telefonla zəng vurmağa çalışdım, sənin evinə gəldim, ama səni tapa bilmədim. Sən yaxşısanmı? Mən zəng vur... Henk."

Ertəsi gün səhər saat 11-də oraya bir də gəldim. Onun maşını evin önündə görünmürdü. Qapının arasına sancdığım məktubum hələ də orada idi. Buna baxmayaraq, qapının zəngini çaldım. Poçt qutusunun işindəki məktublara da dəyilməmişdi. Yeni bir məktub yazıb bu dəfə poçt qutusuna atdım: "Temmi, hansı cəhənnəmdə itmisən? Mənimlə əlaqə saxla... Henk"

Əzilmiş qırmızı Kamaronu tapmaq üçün maşınımla bütün ətraf ərazini ələk-vələk elədim.

Həmin gecə oraya bir də qayıtdım. Yağış yağırdı. Mənim yazdığım məktublar tamam islanmışdılar. Poçt qutusundakı məktubların sayı artmışdı. Mən öz şeirlər kitabımın imzalı bir nüsxəsini qutuya qoydum. Sonra öz folksvagenimə tərəf getdim. Arxa görünüş güzgümdəm malta xaçı asılmışdı. Xaçı güzgüdən qopardım, maşından çıxıb qapıya yaxınlaşdım və xaçı qapının dəstəyinə bağladım.

Onun dostlarının, anasının, ya da sevgililərinin harada yaşadıqlarını bilmirdim.

Evimə qayıtdım və bir neçə sevgi şeiri yazdım.

48

Məhəllənin səkisində onun addım səslərini eşidəndə, mənim tərcümeyi-halımı yazan Beverli Hillzli anarxist Ben Solvnaqla oturmuşdum. Bu balaca ayaqların – onlar həmişə çevik, coşğun və seksual idilər – çıxardığı taqqıltı mənə tanış idi. Mənim evim həyətin arxa tərəfində yerləşir, qapımsa açıq idi. Temmi qaça-qaça evə girdi.

Biz bir göz qırpımında bir-birimizə sarılaraq öpüşdük.

Ben Solvnaq bizimlə xüdahafizləşdi və aradan çıxdı.

– O qancıq balaları mənim əşyalarımı müsadirə etdilər. Bütün əşyalarımı! Evin kirayə haqqını ödəyə bilmirdim! O alçaq qancıq balaları!

– Ora gedib onların dərsini verərəm. Sənin əşyalarını da geri alarıq.

– Yox, onun silahları var! Cürbəcür silahlar!

– Aaa.

– Qızım indi anamgildədir.

– Bəlkə bir şey içəsən?

– Hə, əlbəttə.

– Nə içmək istərdin?

– Həddən artıq turş şampan pis olmazdı.

– Yaxşı.

Evimin qapısı hələ də açıq idi və oradan evə düşən günorta günəşinin şüaları onun saçlarından süzülərək min rəngə boyanırdı – onun saçları necə də uzun və qırmızı idi, elə bil alov idi, alışıb yanırdı.

– Burda vanna qəbul edə bilərəmmi? – Temmi məndən soruşdu.

– Əlbəttə.

– Onda məni gözlə, – o dedi.

Ertəsi gün səhər biz onun maliyyə vəziyyəti haqqında bir az söhbət elədik. Onun alacağı pullar vardı: uşaq pulu və bir neçə dənə də işsizlik müavinəti çeki, hələ bir az da başqa pulların gəlməsi gözlənilirdi.

– Arxa tərəfdəki evdə bir mənzil boşdur, düz mənim mənzilimin üstündə.

– Kirayəsi nə qədərdir?

– $105 dollar, kommunal xidmətlərin yarısı da artıq ödənib.

– Aman Allahım, mənim pulum çatar. Bəs uşaqlar necə? Onlar bir uşağa etiraz etməzlər ki?

– Heç nə deməzlər. Mən hər şeyi yoluna qoyaram. Mənzilin sahiblərini tanıyıram.

Şənbə gününə qədər o artıq öz yeni mənzilinə köçmüşdü. İndi o düz mənim üstümdəki mənzildə yaşayırdı.

İndi o, küncdəki masanın üstündəki makinada öz yazılarımı yazdığım mətbəximə gələ bilərdi.

49

Həmin həftənin çərşənbə axşamı günü biz onunla bilikdə mənim evimdə oturub içirdik: Temmi, mən və onun qardaşı Cey. Birdən telefon zəng çaldı. Bu Bobbi idi.

– Lui ilə arvadı indi mənim evimdədirlər və qadın sənlə tanış olmaq istəyir.

Lui indi Temminin yaşadığı mənzili yenicə boşaltmış adam idi. O, balaca klublarda konsertlər verən cazz-qruplarda çalırdı və demək olar ki, bəxti heç vaxt gətirmirdi.

Amma bu adam özü çox maraqlı bir tip idi.

– Məncə dəyməz, Bobbi.

– Əgər bura gəlməsən, Lui səndən inciyər.

– Yaxşı, Bobbi, qoy sən deyən olsun, amma mən ora özümlə bir neçə dostumu da gətirəcəm.

Biz ora getdik və hamı bir-biri ilə tanış oldu. Sonra Bobbi bizi ucuz qiymətə aldığı pivələrdən bir neçəsinə

qonaq etdi. Otaqda stereo musiqi çalırdı. Musiqinin səsi çox yüksək idi.

– Sənin Cəngavər haqqındakı hekayəni oxumuşam, – Lui dedi. – Çox heyrətamiz bir hekayədir. Sən heç vaxt ölü qadın sikməmisən, düz demirəmmi?

– Yox, amma mənim qadınlarımdan bəziləri elə ölü kimi bir şey idilər.

– Nə demək istədiyini başa düşürəm.

– O musiqidən lap zəhləm gedir, – Temmi dedi.

– Musiqi ilə işlər necə gedir, Lui?

– Pis deyil, indi mənim yeni qrupum var. Əgər kifayət qədər uzun müddət bir yerdə qala bilsək, bəlkə də bəzi şeylər alına bilər.

– Belə getsə, deyəsən, burda kiminsə şeyini sormağa başlayacam, – Temmi dedi, – bəlkə də Bobbininkini əməcəm, bəlkədə Luinikini, ya da elə öz qardaşımın şeyini əməcəm!

Temminin əynində qismən gecə qonaqlıq paltarını, qismən də gecə köynəyini xatırladan uzun bir don vardı.

Bobbinin arvadı Valeri işdə idi. O, həftədə iki gün barda ofisiant işləyirdi. Lui, onun arvadı Paula və Bobbi artıq bir müddət idi ki, beləcə içki içirdilər.

Lui ucuz pivədən isəri bir udum aldı və birdən onun ürəyi bulanmağa başladı. O cəld yerində qalxaraq evin giriş qapısından bayıra qaçdı. Temmi də yerindən qalxdı və onun arxasınca bayıra qaçdı. Qısa bir müddət sonra onlar hər ikisi qapıdan içəri daxil oldular.

– Gəl burdan rədd olub gedək, – Lui arvadı Paulaya dedi.

– Necə istəyirsən, – Paula cavab verdi.

Onlar yerlərindən qalxdılar və birlikdə çıxıb getdilər.

Bobbi bir neçə pivə də gətirdi. Cey ilə mən ordan-burdan söhbət edirdik. Sonra mən Bobbinin qışqırdığını eşitdim:

– Məni günahlandırma! Ey, dayday, mənim heç bir günahım yoxdur!

Nə baş verdiyini öyrənmək üçün dönüb ona tərəf baxdım. Temmi başını onun dizlərinin üstünə qoymuşdu və əlləri ilə xayalarını oynadırdı, sonra o başını qaldırdı, onun

şeyindən yapışıb dartdı və onun şeyini əlində tutdu, bütün bu vaxt ərzində o öz gözlərini məndən çəkmir, düz gözümün içinə baxırdı.

Mən öz pivəmdən bir udum da aldım, onu masanın üstünə qoydum, sonra isə yerimdən qalxıb oradan çıxdım.

50

Ertəsi gün qəzet almaq üçün küçəyə çıxanda Bobbini gördüm.

– Lui zəng eləmişdi, – o dedi, – həmin gecə başına gələnləri mənə danışdı.

– Hə?

– Qusmaq üçün bayıra qaçanda, Temmi də onun arxasınca çıxmışdı. O əyilib qusan zaman, Temmi onun şeyindən yapışıb və deyib: “Gəl yuxarı qalxaq, mən sənin şeyini ağzıma alaram. Sonra sənin şeyini pasxa yumurtasının içinə soxarıq”. O isə yox deyərək etiraz edib. Temmi isə ona: “Sənə nə olub belə? Kişi deyilsənmi? İçkini qarnında

saxlamağı bacarmırsan? Gəl yuxarı qalxaq, mən sənin şeyini ağzıma alım!” – deyibmiş.

Mən döngədəki dükana gedib qəzet aldım. Evə qayıtdım və at yarışlarının nəticələrinə baxdım. Həmçinin bıçaqlama, zorlama və qətllər haqqında yazılmış xəbərləri də oxudum.

Birdən qapı döyüldü. Qapını açdım. Gələn Temmi idi. O otağa daxil olub oturdu.

– Bura bax, – o dedi, – əgər dünənki davranışım səni incidibsə, səndən üzr istəyirəm, amma üzrü yalnız buna görə istəyirəm. Qalan şeylərə gəlincə, bax mən beləyəm.

– Hər şey qaydasındadır, – deyə mən cavab verdim, – amma Luinin arxasınca qaçaraq bayıra çıxmağınla sən Paulanın da xətrinə dəymisən. Onlar birlikdədirlər, bunu özün də bilirsən axı.

– POX! – o mənim üstümə bağırdı, – PAULADAN MƏNƏ NƏ, QOY CƏHƏNNƏM OLSUN!

51

Həmin gecə mən Temmini at arabalarının yarışına baxmağa apardım. Biz pilləkənlər ilə yuxarı qalxdıq və ikinci mərtəbədə oturduq. Ona yarışların proqramını gətirdim və o bir müddət gözlərini həmin vərəqə zilləyərək oturdu (at arabaları yarışlarında, proqramda keçmiş yarışların nəticələri də çap edilir).

– Bura bax, o dedi, – mən həblər atmışam. Mən həblər atdığım vaxtlar bəzən başım işləmir və harda olduğumu unuduram. Gözün məndə olsun.

– Yaxşı. Mən yarışa pul qoymalıyam. Sən də bir neçə dollar qoymaq istəyirsənmi?

– Yox.

– Başa düşdüm. İndi qayıdıram.

Mən mərc qəbul edilən pəncərələrə yaxınlaşdım və 7-ci atın qələbəsinə beş dollar qoydum.

Geri qayıdanda, Temmi artıq orada yox idi. Yəqin qadınlar tualetinə gedib – deyə düşündüm.

Mən öz yerimdə oturdum və yarışlara baxmağa başladım. 7 nömrəli at birə beş gəldi. Deməli uduşum 25 dollar olmuşdu.

Temmi hələ də geri qayıtmamışdı. Atlar növbəti yarış üçün starta çıxmışdılar. Bu dəfə pul qoymamaq qərarına gəldim. Qərara gəldin ki, gedib Temmini axtarım.

Əvvəlcə, yuxarı mərtəbəyə qalxdım və ümumi tamaşaçı tribunasına, bütün keçidlərə, bufetin bütün piştaxtalarına və bara baxdım. Onu heç yerdə tapa bilmədim.

İkinci yarış artıq başlamış və çaparlar bir dövrə vurmuşdular. Aşağı mərtəbəyə enərkən, atların düz cığıra çıxmaları ilə oyunçuların necə bağırdıqlarını eşitdim. Gözlərim hər yerdə o heyrətamiz bədəni və alov kimi yanan qırmızı saçları axtarırdı. Amma onu heç yerdə tapa bilmədim.

Aşağı, ilk təcili tibbi yardım məntəqəsinə endim. Orada siqar çəkən bir kişi oturmuşdu. Ondan soruşdum:

– Sizə qırmızı saçlı cavan bir qız gətirməyiblərmi? Bəlkə də o huşunu itirib... o özünü yaxşı hiss eləmirdi.

– Burada heç bir qırmızı saçlı qız-zad yoxdu, ser.

Ayaqlarım bərk yorulmuşdu. Yenə ikinci mərtəbəyə qalxdım və növbəti yarış haqqında düşünməyə başladım.

Səkkizinci yarış başa çatanda, mən artıq $132 dollar qazancda idim. Sonuncu yarışda 4-cü atın qələbəsinə 50 dollar qoymaq qərarına gəlmişdim. Pul qoymaq üçün elə yerimdən qalxmaq istəyirdim ki, Temminin texniki xidmət otağının qapısının ağzında dayandığını gördüm. O, əlində süpürgə tutmuş qaradərili süpürgəçinin və əla geyinmiş başqa bir qaradərilinin arasında dayanmışdı. İkinci qaradərili filmlərdəki sutenyorlara bənzəyirdi. Temmi dişlərini ağardaraq mənə əl yellədi.

Mən ona yaxınlaşdım.

– Hər yerdə səni axtarıram. Elə bildim dozan artıq olub.

– Yox, mən yaxşıyam, özümü əla hiss edirəm.

– Hə, bunu eşitmək xoşdur. Onda gecən xeyrə qalsın, Kürən...

Mən ondan aralaşaraq mərcləri qəbul edən pəncərəyə tərəf getdim. Onun mənim arxamca necə qaçdığını eşidə bilirdim.

– Ey, məni burda qoyub hansı cəhənnəmə gedirsən?

– 4-cü ata pul qoymaq istəyirəm.

Ata pul qoydum. Amma 4-cü at yarışı bir burun fərqi ilə dala qalaraq uduzdu. Yarışlar başa çatmışdı. Temmi ilə mən avtomobil duracağına birlikdə getdik. Biz yanaşı addımladıqca, onun budları mənim qıçlarıma çırpılırdı.

– Sən məni əməlli-başlı qorxutdun, – mən dedim.

Biz maşınımızı tapıq və oturduq. Geri qayıdarkən, yolda Temmi 6-7 siqaret çəkdi. Əslində, siqaretləri yarıya qədər çəkəndən sonra onları külqabına basaraq əzirdi. Sonra o, radionu yandırdı. Temmi radio ilə oynayaraq gah onun səsini artırır, gah da azaldırdı, stansiyaları bir-bir dəyişir və musiqinin ahənginə uyğun çırtma vururdu.

Biz məhəlləmizə çatanda, o maşından düşüb öz evinə qaçdı və qapını arxadan kilidlədi.

52

Bobbinin arvadı həftədə iki gecə işləyirdi. O işdə olanda, Bobbi telefonun yanında otururdu. Mən bilirdim ki, çərşənbə axşamı və cümə axşamı günlərində gecələr o tək olacaq.

Mənim telefonum zəng çalanda da elə çərşənbə axşamı gecəsi idi. Zəng vuran da Bobbi idi.

– Ey, dostum, əgər sənin yanına gəlsəm və sənlə bir iki şüşə pivə içsək etiraz eləməzsən ki?

– Yox, problem deyil, Bobbi.

Temmi divanda, mən isə onunla üzbəüz kresloda oturmuşdum. Bobbi də gəlib divanda oturdu. Mən ona bir şüşə pivə açdım. Bobbi isə divana oturan kimi Temmi ilə söhbət eləməyə başladı. Onun söhbəti elə mənasız idi ki, mən daha ona qulaq asmırdım. Lakin onun dediyi sözlərin bəziləri qulağıma çatırdı.

– Səhər tezdən, – Bobbi dedi, – mən həmişə soyuq duş qəbul edirəm. Bu duş məni, həqiqətən, oyanmağa vadar edir.

– Mən də səhərlər soyuq duş qəbul edirəm, – Temmi dedi.

– Mən, əvvəlcə, soyuq duş qəbul edirəm, sonra isə dəsmalla qurulanıram, – Bobbi davam etdi, – ondan sonra isə jurnal, ya da ona bənzər bəzi şeylər oxuyuram. Bütün bunların ardınca isə özümü yeni günə başlamağa hazır bilirəm.

– Mən də soyuq duş qəbul edirəm, lakin dəsmalla özümü qurulamıram, – Temmi dedi, – dərimin üzərindəki balaca su damcılarının öz-özünə qurumasını xoşlayıram.

Bobbi dedi:

– Bəzən mən, həqiqətən, çox qaynar vanna da qəbul edirəm. Su elə qaynar olur ki, onun içinə yavaş-yavaş girməli oluram.

Bu məqamda Bobbi ayağa qalxdı və özünün çox qaynar vannasına necə girdiyini bizə nümayiş etdirdi.

Sonra onların söhbəti yavaş-yavaş kinofilmələrə və televiziya proqramlarına keçdi. Belə məlum olurdu ki, onlar hər ikisi də kinofilmləri və televiziya proqramlarını xoşlayırlar. Onlar 2 ya da 3 saat beləcə dayanmadan söhbətə davam etdilər.

Sonra Bobbi ayağa qalxdı.

– Hə yaxşı, –indi mən getməliyən.

– Ah, lütfən getmə, Bobbi, – Temmi yalvarıcı baxışlarla dedi.

– Yox, vaxtdır, artıq mən getməliyəm.

Valerinin işdən evə qayıdacağı vaxt gəlib çatmışdı.

53

Cümə axşamı gecəsi Bobbi yenə zəng vurdu.

– Ey, dostum, nə işlə məşğulsan?

– Elə bir işim yoxdur.

– Sənin yanına gəlməyimə və bir neçə şüşə pivə içməyimizə nə deyirsən, etiraz eləmirsən ki?

– Bu gün qonaq qəbul eləmək istəməzdim.

– Ah, sənə nə olub, dostum, sadəcə, bir neçə şüşə pivə içərik, çox qalmaram...

– Yox, məncə, içməsək yaxşıdı.

– BELƏ OLDU, ONDA GET SİKDİR! – deyə Bobbi telefonun o biri ucunda dəstəyə bağırdı.

Mən dəstəyi asıb o biri otağa keçdim.

– Zəng vuran kim idi, – Temmi soruşdu.

– Bura gəlmək istəyən bir nəfər.

– Bobbi idi, elə deyilmi?

– Hə, o idi.

– Sən onunla çox pis rəftar edirsən. Bilirsən ki, onun arvadı işə gedəndə, o evdə tək qalır. Lənət şeytana, sənə nə olub axı?

Temmi bir sıçrayışla ayağa qalxaraq yataq otağına qaçdı və dəstəyi götürüb nömrəni yığmağa başladı. Mən elə indicə onun üçün bir şüşə şampan şərabı almışdım, amma o, şüşəni hələ açmamışdı. Mən tez şüşəni götürdüm və onu süpürgə saxlanan şkafda gizlətdim.

– Bobbi, – o telefonun dəstəyini ağzına sıxaraq dedi, – danışan Temmidir. Elə indicə zəng edən sən idin? Sənin arvadın hardadı? Qulaq as, mən indi sənin yanına gəlirəm.

O dəstəyi asdı və yataq otağından çıxdı.

– Şampan şüşəsi hanı?

– Sikdir, – deyə çımxırdım, – sən nə şərabı buradan özünlə aparacaqsan, nə də onunla birlikdə içəcəksən.

– Mən o şampan şüşəsini istəyirəm. Onu hara qoymusan?

– Qoy o sənə şampanı özü alsın.

Temmi qəhvə masasının üstündən siqaret qutusunu qapdı və qaçaraq qapıdan çıxdı.

Mən şampan şüşəsini gizlətdiyim yerdən çıxardım, onun probkasını çıxardım və özüm üçün bir qədəh şərab süzdüm. Artıq sevgi haqqında şeirlər yazmırdım. Əslində, mən ümumiyyətlə daha heç nə yazmırdım. Daha yazmaq istəyim qalmamışdı.

Şampan boğazımdan aşağı yağ kimi getdi. Mən qədəhləri bir-birinin ardınca içəri ötürürdüm.

Sonra ayaqqabılarımı soyundum və Bobbinin evinə tərəf getdim. Pərdələrin arasından içəri baxdım. Onlar divanda bir-birinə çox yaxın oturub nə haqqındasa söhbət edirdilər.

Geri qayıtdım. Şampan şüşəsinin dibini qurutdum və sonra pivə içməyə başladım.

Telefonum yenə zəng çaldı. Yenə Bobbi idi.

– Qulaq as, – o dedi, – niyə bura gəlib Temmi və mənimlə birlikdə pivə içmirsən, hə?

Dəstəyi yerinə asdım. Bir az da pivə içdim və bir neçə ucuz siqar çəkdim. Getdikcə daha çox keflənirdim. Səbəbini özüm də bilmədən evdən çıxıb yenə Bobbinin mənzilinə tərəf getdim. Qapını döydüm. O, qapını açdı.

Temmi divanın uzaq küncündə oturub “McDonald” qaşığı ilə fınxıra-fınxıra burnuna kokain çəkirdi. Bobbi mənim əlimə bir şüşə pivə dürtüşdürdü.

– Problem ondadır ki, – o mənə dedi, – sən özündən əmin deyilsən, səndə özünəgüvən çatışmır.

Mən bir söz demədən öz pivəmi əmirdim.

– Hə düzdü, Bobbi düz deyir, – Temmi dedi.

– İçimdə nəsə bir ağrı var.

– Sən, sadəcə, özünə güvənmirsən, – Bobbi dedi, – məsələ bu qədər bəsitdir.

Məndə Coanna Doverin iki telefon nömrəsi vardı. Qalvestonda olan nömrəni yoxladım. O cavab verdi:

– Bu mənəm, Henri.

– Səsin elə gəlir, elə bil bir az keflisən.

– Hə bir balaca keflənmişəm. Sənlə görüşmək istəyirəm.

– Nə vaxt?

– Sabah.

– Danışdıq.

– Sən məni hava limanında qarşılaya bilərsənmi?

– Əlbəttə, əzizim.

– Təyyarəyə bilet alandan sonra sənə zəng vuracam.

Mən 707-ci reysə bilet sifariş etdim. Təyyarə ertəsi gün, saat 12:15-də Los-Anceles Beynəlxalq Hava Limanından uçacaqdı. Zəng edib bu məlumatları Coanna Doverə bildirdim. O da mənə dedi ki, lazımi vaxtda məni qarşılamaq üçün orada olacaq.

Telefon yenə zəng çaldı. Bu dəfə zəng edən Lidiya idi.

– Düşündüm ki, – Lidiya dedi – evimi satdığımı sənə deməliyəm. Feniksə köçürəm. Sabah səhər mən artıq buralarda olmayacağam.

– Yaxşı, Lidiya, sənə uğurlar arzulayıram.

– Uşağı saldım. Az qala öləcəkdim, çox dəhşətli bir vəziyyət idi. O qədər qan itirmişdim ki. Bununla bağlı səni narahat eləmək istəmədim.

– İndi hər şey qaydasındadırmı? Yaxşısanmı?

– Hər şey qaydasındadır. Sadəcə, bu şəhərdən baş götürüb getmək istəyirəm. Çünki bu şəhər məni cana doydurub.

Biz bir-birimizlə vidalaşdıq.

Mən daha bir şüşə pivə açdım. Giriş qapısı açıldı və Temmi içəri girdi. O gözlərini mənə zilləyib otaqda dəli kimi dövrələr vurmağa başladı.

– Valeri evə qayıtdımı? – soruşdum. Sən Bobbinin tənhalığına bir çarə edə bildinmi?

Temmi suallarımı cavabsız buraxaraq elə hey otaqda dövrə vurmağına davam edirdi. Sikilib sikilmədiyindən asılı olmayaraq, o, əyninə geyindiyi uzun ləbbadəsində çox gözəl görünürdü.

– Rədd ol burdan, – mən dedim.

O, otaqda bir dövrə də vurandan sonra qapıdan bayıra qaçdı və öz evinə getdi.

Mən heç vəchlə yuxuya gedə bilmirdim. Xoşbəxtlikdən hələ bir neçə şüşə pivəm qalırdı. Yenə pivə içməyə başladım və səhər saat 4:30 – da sonuncu şüşəni bitirdim. Yerimdə oturub səhər saat 6 olmasını gözlədim. Nəhayət, evdən çıxdım və bir az da pivə alıb qayıtdım. Zaman çox ləng keçirdi. Mən evdə ora-bura gəzişirəm. Özümü heç də yaxşı hiss eləməsəm də, mahnı oxumağa başladım. Mahnı oxuya-oxuya otaqlarda elə hey gəzişirdim – vanna otağından yataq

otağına, oradan qonaq otağına, sonra isə mətbəxə və yenə geri qayıdırdım. Özüm də durmadan elə hey mahnı oxuyurdum.

Başımı qaldırıb saata baxdım. Saat 11:15-i göstərirdi. Hava limanına getmək üçün mənə cəmi bircə saat vaxt lazım idi. Artıq paltarım əynimdəydi. Ayağımda ayaqqabılarım olsa da, corablarımı geyinməmişdim. Özümlə götürdüyüm yeganə əşya oxuyan zaman istifadə etdiyim gözlük idi. Onu da köynəyimin döş cibinə soxmuşdum. Yanımda heç bir baqaj götürmədən, özümü qapıdan bayıra atdım.

Folksvagen evin önündə dayanmışdı. Maşına mindim. Günəşin şüaları çox parlaq idi. Bir anlıq başımı aşağı salaraq sükana dayadım. Həyətdən qulağıma bir səs gəldi:

– Bu durumda o hansı cəhənnəmə getdiyini düşünür?

Mühərriki iş saldım, radionu yandırdım və qaz pedalına basaraq oradan uzaqlaşdım. Maşını idarə etməkdə çətinlik çəkirdim. Avtomobilim durmadan elə hey qoşa sarı xətti keçməyə və qarşı hərəkət zolağına çıxmağa can atırdı. Qarşıdan gələn maşınlar qeyzlə mənə siqnal çalırdılar və mən yenə öz zolağıma geri qayıdırdım.

Birtəhər hava limanına çatdım. Cəmi 15 dəqiqə vaxtım qalırdı. Bütün yol boyu qırmızı işığa, stop siqnalına məhəl qoymamışdım və hərəkət sürət həddini kobud şəkildə pozmuşdum. İndi isə 14 dəqiqə vaxtım qalırdı. Avtomobil dayanacağı ağzına qədər dolu idi. Ona görə də öz maşınım üçün yer tapa bilmirdim. Sonra gözümə liftin qarşısında, mənim folksvagenimin ancaq yerləşəcəyi bir boş yer dəydi. Həmin yerin qarşısında qoyulmuş nişanda "DAYANACAQ QADAĞANDIR" yazılmışdı. Mən maşınımı orada dayanacağa qoydum. Maşının qapısını bağlayanda, gözlüyüm köynəyimin cibindən düşdü və səkiyə çırpılaraq sındı.

Mən pilləkənlər ilə yuxarı qaçdın və sonra küçədən keçərək əvvəlcədən sifariş edilmiş biletlər masasına yaxınlaşdım. Hava çox isti idi. Bədənimdən tər lap su kimi axırdı.

– Henri Çinaskinin adına bilet sifariş etmişdim... – masanın arxasındakı əməkdaş mənim biletimi yazdı və biletin pulunu nəğd şəkildə ödədim.

– Yeri gəlmişkən, – həmin işçi dedi, – mən sizin kitablarınızı oxumuşam.

Mən cəld mühafizəçilərin yanına qaçdım. Keçiddəki yoxlama qapısının siqnalı ucadan civildədi. Cibimdə həddən artıq xırda pul, 7 açar və mini cib bıçağım vardı. Onları çıxarıb boşqabın içinə tökdüm və qapıdan bir də keçdim.

Beş dəqiqə. Qapı 42.

Hamı artıq təyyarədə öz yerini tutmuşdu. Mən yoluma davam etdim. Üç dəqiqə. Öz yerimi tapıb oturdum və təhlükəsizlik kəmərini bağladım. Təyyarənin kapitanı daxili rabitə sistemi ilə sərnişinlərə məlumat verirdi.

Biz uçuş – eniş zolağına çıxdıq. Bir neçə dəqiqədən sonra artıq havada uçurduq. Biz okeanın üzərində bir tərəfimiz üstünə əyilərək böyük bir dövrə vurduq.

54

Təyyarədən ən sonuncu düşən sərnişin mən oldum. Coanna Dover artıq məni hava limanında gözləyirdi.

– Aman Allahım! – deyə o güldü. – Sən nə gündəsən!

– Coanna, nə qədər ki, mənim baqajım gəlməyib, gəl vaxtımızı boş keçirməyək, “Qanlı Meri” içək. Lənət şeytana baqajımın olmadığını tamam unutmuşdum. Amma baqajım olmasa da, gəl “Qanlı Meri” içək.

Biz bara daxil olduq və bir yer tapıb oturduq.

– Belə eləsən, sən heç vaxt Parisə gedə bilməyəcəksən.

– Fransızlar üçün elə də ürəyim atmır. Mən Almaniyada doğulmuşam, özün də bilirsən.

– Ümid edirəm ki, mənim evim xoşuna gələcək. Çox sadə evdir. İki mərtəbəli və gen-bol.

– Bir yataqda olduğumuz müddətcə, mənim üçün hər şey əla olacaq.

– Məndə boyalar var.

– Boyalar?

– Demək istəyirəm ki, əgər istəsən, rəsm çəkə bilərsən.

– Ay səni zibil, amma yenə də çox sağ ol. Mən sənin üçün narahatlıq yaratmadım ki?

– Yox. Bir qaraj mexaniki vardı. Lakin o da bitib-tükəndi, qurudu. Mənimlə ayaqlaşa bilmədi.

– Mənimlə düz dolan, Coanna, əmişmək və sikişmək hələ hər şey demək deyil.

– Elə ona görə də boyalar almışam. Yəni istirahət edəndə, onlarla məşğul olarsan.

– Hətta altı futluq boyunu unutsaq belə, sən əla qadınsan.

– Aman Allahım, elə danışırsan elə bil bunu mən özüm bilmirəm.

Onun evi mənim çox xoşuma gəldi. Evin hər bir qapısı və pəncərəsinin üstündən tor pərdələr asılmışdı. Pəncərələr nəhəng idi. Onlar çox geniş açılmışdı. Döşəmələrə xalılar salınmamışdı. İki hamam otağı, əntiq mebel və hər yerdə irili-xırdalı masalar vardı. Hər yanda sadəlik və rahatlıq hökm sürürdü.

– Duş qəbul elə, – Coanna dedi.

Mən güldüm.

– Əynimdəkindən başqa paltarım yoxdur, bəs nə geyinəcəm?

– Sabah sənə bəzi paltarlar alarıq. Sən duş qəbul edəndən sonra biz bayıra çıxıb qəşəng dəniz məhsullarından nəsə yeyərik. Mən çox gözəl bir yer tanıyıram.

– Onlar içki də verirlərmi?

– Ay səni yaramaz.

Mən duş qəbul etmədim. Əvəzində vanna qəbul elədim.

Yemək üçün biz kifayət qədər uzun bir yol getməli olduq. Qalvestonun bir ada olduğunu heç vaxt bilməmişəm.

– Narkotik maddələri daşıyan kuryerlər bu günlərdə krevetka ovlayan qayıqları qaçırmağa dadanıblar. Onlar əvvəlcə qayıqdakıların hamısını öldürürlər və sonra qayıqla öz zibillərini daşıyırlar. Krevetkanın qiymətinin belə sürətlə qalxmasının səbəblərindən biri də budur – krevetka ovlamaq çox təhlükəli bir peşəyə çevrilib. Sənin işlərin necə gedir?

– Xeyli vaxtdır yazmıram. Düşünürəm ki, içimdə artıq hər şey bitib-tükənib.

– Nə qədər vaxtdır ki, yazmırsan?

– Altı, ya da yeddi gün olar.

– Bax, mənim dediyim yer buradır.

Coanna maşını duracağa sürdü. O, maşını çox sürətlə idarə etsə də, bunu yol hərəkət qaydalarını pozacaq qədər sürətə çatdırmırdı. Coanna maşını elə sürətlə sürürdü, elə bil ona belə bir hüquq vermişdilər. Onun maşınla davranışında bir fərq hiss olunurdu və mən də bunu qiymətləndirdim.

Biz özümüzə kütlədən uzaq bir yerdə masa seçdik. Həmin yer sərin, sakit və qaranlıq idi. Mənim xoşuma gəldi. Mən özüm üçün omar sifariş etdim. Coanna isə özü üçün çox qəribə bir şey sifariş elədi. Özü də sifarişini fransız dilində söylədi. O incə idi və çox səyahət edirdi. Nə qədər təhsilə nifrət etsəm də, təhsil menyuya baxanda və ya iş axtaranda, müəyyən mənada, insana yardım edir. Xüsusilə də menyuya baxanda. Mən həmişə ofisiantlara baxanda, öz kəmsavadlığımı hiss edirdim. Vəziyyəti dəyişmək üçün çox gecikmişdim və qazandıqlarım da çox az idi. Bütün ofisiantlar Trumen Kapoteni oxuyurdular. Mən isə at yarışlarının nəticələrini.

Nahar əla idi. Körfəz sularında isə krevetka ovçularının, patrulların və dəniz quldurlarının qayıqları üzürdü. Ağzıma atdığım omar tikələri çox dadlı idi və mən

onların üstündən əla şərab içirdim. Sən çox yaxşı oğlansan. Qırmızımtıl çəhrayı çanağında sən mənim hər zaman xoşuma gəlmisən, təhlükəli və astagəl hərəkətlərinlə.

Coanna Doverin evinə qayıdandan sonra biz əla bir qırmızı şərab şüşəsini içdik. Alaqaranlıqda oturub evin önündəki küçədən keçən təkəmseyrək maşınlara tamaşa etdik. Sakitcə oturmuşduq. Sonra Coanna dilləndi:

– Henk?

– Nədi?

– Səni buraya gəlməyə bir qadınmı vadar eləyib?

– Hə.

– Onunla münasibətlərini bitirmisənmi?

– Mən özüm də belə düşünmək istərdim. Lakin əgər mən desəm ki, ‘yox’…

– Deməli bunu hələ sən özün də bilmirsən?

– Əslində, mən də dəqiq bilmirəm.

– Görəsən, bu sualın cavabını kimsə dəqiq bilirmi?

– Məncə, yox.

– Məhz buna görə də bu işlərdən belə üfunət iyi gəlir.

– Hə, həqiqətən də bu işdən üfunət iyi gəlir.

– Gəl sikişək.

– Mən lap çox içmişəm.

– Gəl yatağa girək.

– Mən bir az da içmək istəyirəm.

– Onda sən ... bacarmayacaqsan.

– Bilirəm. Ümid edirəm ki, mənim burada hələ dörd, ya da beş gün qalmağıma etiraz etməzsən.

– Bu sənin yataqdakı qabiliyyətindən asılı olacaq, – o dedi.

– Ədalətli sözdür.

Biz şərabı bitirəndən sonra mən güclə özümü çarpayıya çatdıra bildim. Coanna hamam otağından çıxanda isə artıq çoxdan yuxuya getmişdim...

55

Səhər yuxudan ayılan kimi yerimdən qalxdım və Coannanın diş fırçasından istifadə etdim, bir-iki stəkan su içdim, əl-üzümü yudum və sonra yenidən yatağa girdim. Coanna mən tərəfə çevrildi və mənim ağzım onun dodaqlarını tapdı. Sikim yavaş-yavaş qalxmağa başladı. Mən

onun əlini tapıb aşağı çəkərək şeyimin üstünə qoydum. Onun saçlarından tutdum və başını dala çəkərək onu vəhşi kimi öpməyə başladım. Mən uzun müddət onun klitoru ilə oynadım. O tamam islanmışdı. Onun üstünə dırmaşdım və sikimi onun amına itələdim. Tərpənmədən şeyimi onun içində saxlamışdım. Bununla onun mənə necə cavab verdiyini hiss edə bilirdim. Mən onun üstündə uzun müddət işləməyə müyəssər oldum. Nəhayət, özümü daha saxlaya bilmədim: bütün bədənim tər içindəydi və ürəyimin necə sürətlə vurduğunu eşidə bilirdim.

– İndi mən heç də yaxşı formada deyiləm, – dedim.

– Amma mənim çox xoşuma gəldi. Gəl bir az ot çəkək.

O haradansa, artıq doldurulmuş bir papiros çıxardı. Biz onu bir-birimizə ötürə-ötürə çəkdik.

– Coanna, – mən dedim, – mən hələ də yuxuluyam. Hələ bir saat da yatsam heç pis olmazdı.

– Əlbəttə, biz bu otu çəkib bitirən kimi yata bilərsən.

Biz otu çəkib bitirdik və yenə çarpayıda yayılaraq uzandıq. Mən çox tez yuxuladım.

56

Həmin axşam Coanna mənə bir az meskalin[6] göstərib dedi:

– Bunu heç sınaqdan keçirmisənmi?

– Yox.

– Dadına baxmaq istəyirsənmi?

– Hə, bura ver.

Coanna masanın üstünə boyalar, fırçalar və kağız qoymuşdu. Sonra yadıma düşdü ki, o rəsm əsərlərini kolleksiyasını yığır. Birdən xatırladım ki, elə mənim də bir neçə rəsm əsərimi almışdı. Bütün axşamı biz Hayneken pivəsi içirdik, amma hələ də keflənməmişdik.

– Bu zəhrimar çox güclü şeydir.

– O necə təsir göstərir axı?

– Bu zibil insana çox qəribə kef verir. Özünü pis hiss edə də bilərsən, ürəyin bulana bilər. Əgər qusmağa başlasan, onda dəmliyin bir az da artacaq. Amma mən qusmaq

[6]İnsanın fiziki qüvvəsini stimullaşdıran narkotik maddə

istəmirəm. Ona görə də, onunla birlikdə bir qida sodası da qəbul edəcəyik. Məncə, meskalinin əsas təsiri ondan ibarətdir ki, onu qəbul edəndə, səni qorxu hissi basır.

– Kənardan heç bir kömək olmadan da mən bu hissi keçirirəm.

Mən rəsm çəkməyə başladım. Coanna stereonu işə saldı. Musiqi çox qəribə olsa da, mənim xoşuma gəldi. Dönüb ətrafıma baxdım – Coanna heç yanda gözə dəymirdi. Hara gedir, qoy getsin, mənim heç vecimə də deyildi. Mən elə indicə intihar etmiş bir adamın rəsmini çəkmişdim: bu adam çatının tirindən keçirdiyi kəndirlə özünü asmışdı. Mən ən çox sarı rəngdən istifadə etmişdim, cəsəd elə parlaq, elə qəşəng görünürdü ki... Sonra birdən bir səs eşitdim:

– Henk...

Bu səsin sahibi, deyəsən, düz mənim arxamda dayanmışdı. Mən sıçrayaraq stuldan qalxdım.

– AMAN ALLAHIM! VAY SƏNİ ZİBİLƏ QALSAN, AMAN ALLAHIM!

Biləklərimdən, çiyinlərimdən və belimdən buz kimi soyuq tər damcıları süzülürdü. Mən yarpaq kimi əsirdim, tir-

tir titrəyirdim. Dönüb arxama baxdım. Orada Coanna dayanmışdı.

– Bir də heç vaxt belə eləmə, – mən ona dedim. – Bir də heç vaxt mənə arxadan belə səssizcə yaxınlaşma, yoxsa səni öldürərəm!

– Henk, mən, sadəcə, siqaret almaq üçün çıxmışdım.

– Bu rəsmə bir bax.

– Ah, çox gözəldir, – dedi, – həqiqətən, mənim çox xoşuma gəldi!

– Bu yəqin meskalinin təsirindəndir.

– Hə, yəqin onun təsirindəndir.

– Yaxşı, mənə bir siqaret ver görüm, ay xanım.

Coanna bərkdən güldü və bizim üçün iki siqaret yandırdı.

Mən yenə rəsm çəkməyə başladım. Bu dəfə çəkdiyim rəsm, həqiqətən, yaxşı alınmışdı: nəhəng, yaşıl bir canavar kürən bir qancığı sikirdi, qancığın alov rəngli tüklərini külək arxaya dalğalandırır, yaşıl qurd isə kürən qancığın göyə qaldırılmış ayaqlarının arasından ona tıxıyırdı. Qancıq əlacsız və müti görünürdü. Qurd bütün dünyanı unudaraq elə

hey şəpliyirdi, səma isə zülmət qaranlığa bürünmüşdü. Bu sevgi oyunu açıq havada baş verdiyindən, uzun qollu ulduzlar ilə ay onlara tamaşa edirdilər. Hər yan çox isti, qaynar idi və al-əlvan rənglərə boyanmışdı.

– Henk...

Mən yerimdən dik atıldım. Və geri çevrildim. Coanna yenə arxamda dayanmışdı. Mən onun boğazından yapışdım:

– Ay səni sürtük, sənə demədimmi, bir də mənə arxadan belə səssizcə yanaşma...

57

Mən Coannanın evində beş gün və beş gecə qaldım. Ondan sonra artıq dözə bilmədim. Coanna məni öz maşını ilə hava limanına apardı. O mənə yeni çamadan və bir neçə dəst də təzə paltar almışdı. Onların Dallas-Fort Uort hava limanından lap zəhləm gedirdi. Bu hava limanı ABŞ-ın ən insanlıqdan kənar aeroportu idi.

Coanna mənə əlini yellədi və mən havaya qalxdım...

Mənim Los-Ancelesə səfərim qəza-qədərsiz keçdi. Təyyarədən düşən kimi öz Folkvagenim haqqında

düşündüm. Liftə minib yuxarı, maşın duracağına qalxdım. Amma maşını orada tapa bilmədim. Yəqin onu qoşqu ilə oradan aparıblar, deyə düşündüm. Sonra o biri tərəfə keçdim – və budur, maşın orda dayanmışdı. Yeganə problem dayanacaq üçün cərimə talonu oldu.

Maşına minib evə gəldim. Mənzilim elə həmişə olduğu kimi görünürdü – hər yana səpələnmiş şüşələr və zir-zibil. Burada bir balaca təmizlik işləri aparmalı olacaqdım. Əgər kimsə buranı belə vəziyyətdə görsəydi, mənim cəmdəyimə tüpürərdi.

Elə bu dəmdə qapı döyüldü. Qapımı açdım. Gələn Temmi idi.

– Salam! – o dedi.

– Əleyküm salam.

– Sən gedəndə yəqin ki, çox tələsirmişsən. Heç bir qapı kilidlənməmişdi. Arxa qapı isə taybatay açıq qalmışdı. Bura bax, indi sənə deyəcəyim sözü heç kimə söyləməyəcəyinə söz verirsənmi?

– Yaxşı, söz.

– Arlina bura gəlmişdi və sənin telefonundan istifadə edərək şəhərlərarası zəng vurdu və uzun-uzadı danışdı.

– Yaxşı, eybi yoxdu.

– Mən ona mane olmağa çalışdım, amma bacarmadım. Çünki o, həblər atmışdı. Dəm idi.

– Yaxşı.

– Sən hara getmişdin?

– Qalıvestona.

– Nəyə görə belə çıxıb getmişdin axı? Sənin ağlın çaşıb?

– Şənbə günü mən yenə səfərə çıxmalıyam.

– Şənbə günü? Bu gün hansı gündür?

– Cümə axşamı.

– Bəs hara gedəcəksən?

– Nyu-York Sitiyə

– Nə üçün?

– Bədii qiraət üçün. Onlar iki həftə bundan əvvəl biletləri də göndəriblər. Tamaşaçılardan yığılan puldan faiz də alacam.

– Ah, məni də özünlə apar, nə olar! Densini anamla qoyaram. Mən də sənlə getmək istəyirəm!

– Səni özümlə heç cür götürə bilmərəm. Cibim buna imkan vermir. Səni də aparsam bütün qazancımı itirərəm. Son vaxtlar çox bədxərclik eləmişəm, xərclərim çox olub.

– Mən özümü yaxşı aparacam! Söz verirəm, özümü elə yaxşı aparacam ki! Bir addım belə sənin yanından aralanmayacam! Həqiqətən, sənin üçün çox darıxırdım.

– Mən bunu edə bilmərəm, Temmi.

Temmi soyuducuya yaxınlaşıb açdı və bir pivə şüşəsi götürdü.

– Sən, sədəcə, məni heç vaxt qozuna almamısan. Sənin o sevgi şeirlərin – onların hamısı boşboğazlıq idi, heç biri səmimi deyildi.

– Onları yazanda mən səmimi idim, onlar boşboğazlıq deyildi.

Elə bu dəmdə telefon zəng çaldı. Zəng vuran mənim redaktorum idi.

– Sən hara yox olmuşdun?

– Qalıvestona getmişdim. Materiallar yığmaq üçün araşdırma aparırdım.

– Eşitdiyimə görə, bu şənbə günü Nyu-York Sitidə bədii qiraətin var.

– Hə, düzdü. Temmi də mənimlə getmək istəyir, o mənim rəfiqəmdir.

– Onu da özünlə aparacaqsanmı?

– Yox, mənim cibim buna imkan vermir.

– Səfər üçün nə qədər xərc tələb olunur?

– O baş bu başa səfər üçün $316 dollar lazımdı.

– Həqiqətən, onu da özünlə aparmaq istəyirsənmi?

– Hə, məncə, pis olmazdı.

– Yaxşı, onu da özünlə apar. Mən sənə çek göndərərəm.

– Ciddi sözündü?

– Bəli.

– Düzünü bilmək istəyirsənsə, nə deyəcəyimi, necə təşəkkür edəcəyimi bilmirəm...

– Dəyməz. Yalnız Dilan Toması xatırla yetər.

– Onlar məni öldürə bilməzlər.

Biz sağollaşdıq. Temmi isə yavaş-yavaş öz pivəsini əmirdi.

– Yaxşı, – mən ona dedim, – yola hazırlaşmaq üçün sənin iki, ya da ən çoxu üç günün var.

– Sən ciddi danışırsan, demək istəyirsən ki, məni də özünlə aparırsan?

– Hə, aparıram, sənin yol xərclərini mənim redaktorum ödəyəcək.

Temmi yerindən sıçrayaraq məni qucaqladı. O məni öpdü, xayalarımı qamarladı, şeyimi dartışdırdı.

– Sən mənim çox şirin qoca dümbələyimsən!

Nyu-York Siti. Dallas, Hyuston, Çarlston və Atlantanı çıxsaq, indiyədək gəzdiyim yerlərdən ən pisi. Temmi bütün bədəni ilə mənə sıxıldı və mənim şeyim qalxdı. Coanna Dover onun bütün gücünü ala bilməmişdi...

58

Bizim təyyarəmiz həmin şənbə günü Los-Anceles hava limanından axşam saat 3:30-da qalxacaqdı. Saat 2-də mən

evdən çıxdım və Temminin qapısına yaxınlaşıb onu tıqqıldatdım. Temmi evdə yox idi. Evə qayıdıb sakitcə oturdum. Birdən telefon zəng çaldı. Temmi idi.

– Bura bax, – mən dedim, – biz artıq səfərə çıxmaq haqqında düşünməliyik. İnsanlar məni Kennedi hava Limanında qarşılayacaqlar. Sən harda itmisən?

– Resept ilə dərman almaq üçün 6 dolarım çatmır. Mən bir az "Kuaalud" almalıyam.

– Sən indi hardasan?

– Santa Monika Bulvarı ilə Qərb küçəsinin kəsişməsindən bir az aşağı, təxminən bir məhəllə aralı. Burada bir aptek var, adı "Bayquş"dur. Onu görmədən yanından keçə bilməzsən.

Mən dəstəyi asdım, folksvagenimə mindim və onun tapmaq üçün yola düşdüm. Maşını Santa Monika Bulvarı ilə Qərb küçəsinin kəsişməsindən bir məhəllə aralı saxladım və maşından düşüb ətrafa baxdım. Ətrafda aptek dükanı gözə dəymirdi.

Yenə folksvagenimə mindim və maşını sürə-sürə Temminin qırmızı Kamarosunu axtarmağa başladım. Bir

müddət sonra, nəhayət ki, onun maşınını həmin yerdən beş məhəllə aşağıda gördüm. Maşını bir kənara çəkib saxladım, düşdüm və dükana daxil oldum. Temmi stulda oturmuşdu. Densi mənə tərəf qaçaraq guya mənə acıq verirmiş kimi üz-gözünü turşutdu.

– Biz uşağı özümüzlə götürə bilmərik.

– Bilirəm. Biz yolüstü onu mənim anamın evidə düşürərik.

– Sənin ananın evinə? Bu ki 3 mil əks istiqamətdədir.

– Anamın evi hava limanına gedən yolun üstündədir.

– Yox, ananın evi əks istiqamətdədir.

– Sənin 6 dolların varmı?

Mən Temmiyə 6 dollar verdim.

– Sənin evində görüşərik. Yola götürəcəyin şey-şüyünü yığmısanmı?

– Hə, hər şey hazır vəziyyətdədir.

Mən maşına oturub geri qayıtdım. Onu gözləməyə başladım. Nəhayət onların səs-küyünü eşitdim.

– Anacan! – Densi deyirdi, – mən "Dinq-Donq" istəyirəm!

Onlar pilləkənlərlə yuxarı qalxdılar. İndi oturub onların aşağı düşmələrini gözləyirdim. Onlar isə heç cür aşağı gəlmirdilər. Mən yuxarı qalxmalı oldum. Temmi öz əşyalarını artıq qablaşdırmışdı. Özü isə çamadanın önündə dizi üstə çöküb gah onun ağzını bağlayır, gah da açırdı.

– Qulaq as, – mən dedim, – mən sənin başqa əşyalarını aşağıya, maşına daşıyıram.

Temminin iki böyük kağız torba dolusu əşyası və asılqanlara taxılmış üç donu vardı. Bütün bunlar çamadandan əlavə əşyalar idi.

Mən kağız torbaları və donları maşına apardım. Geri dönəndə, Temmi hələ də çemodanın ağzını gah bağlayır, gah da açırdı.

– Temmi, vaxtdır, gəl gedək.

– Bir dəqiqə gözlə.

O yerə diz çöküb çemodanın qapağı ilə əlləşirdi, şimşək kilidin dəstəyini elə hey dala-qabağa, aşağı yuxarı dartırdı.

– Anacan, – Densi dedi, – – mən “Dinq-Donq” istəyirəm!

– Hə nə oldu, Temmi, gəl gedək.

– Ah, yaxşı.

Çamadanı götürdüm. Onlar da arxamca aşağı düşdülər.

Mən öz maşınımı onun qırmızı "Kamaro"sunun arxasınca – onun anasının evinə sürdüm. Biz evə daxil olduq. Temminin anası şifonerin önündə dayanıb onun qutularını aramsız şəkildə gah çölə dartmağa, gah da içəri salmağa başladı. Hər dəfə hansısa bir siyirmə qutunu çıxaranda, onun içində qurdalanır, qutunun içində hər şeyi qarmaqarışıq hala salırdı. Sonra isə həmin qutunu zərblə yerinə itələyib başqa bir qutuya keçirdi. Növbəti qutunun da başına eyni şeylər gətirirdi.

– Temmi, təyyarə bir azdan havaya qalxacaq.

– Aman Allahım, yox, bizim hələ çox vaxtımız var. Hava limanlarında boş-boşuna ora-bura veyllənməkdən zəhləm gedir.

– Densi ilə nə etmək fikrindəsən?

– Anam işdən evə qayıdana qədər onu burada qoymaq fikrindəyəm.

Densi ulamağa başladı. Nəhayət ki, o nə baş verəcəyini anlamışdı və ona görə də ağlayırdı. Onun gözlərindən sel kimi göz yaşları axırdı, birdən o səsini kəsdi, yumruqlarını düyünlədi və bərkdən qışqırdı:

– MƏN DİNQ-DONQ İSTİYİRƏM!

– Bura bax, Temmi, mən səni maşında gözləyəcəyəm.

Mən evdən çıxdım və gözləməyə başladım. Təxminən beş dəqiqə gözləyəndən sonra yenə evə geri qayıtdım. Temmi hələ də şifonerin siyirmə qutularının birini çıxarıb, o birisini içəri itələyirdi.

– Lütfən, Temmi, gəl gedək!

– Yaxşı.

O, Densiyə tərəf döndü.

– Qulaq as, nənən evə qayıdana qədər sən burda qalacaqsan. Qapıları kilidlə və nənəndən başqa heç kimi evə buraxma!

Densi yenə ulamağa başladı. Sonra bərkdən bağırdı:

– SƏNƏ NİFRƏT ELƏYİRƏM!

Temmi mənim arxamca evdən çıxdı və biz folksvagenə mindik. Mühərriki işə saldım. O qəfildən qapını açıb maşından düşdü.

– ÖZ MAŞINIMDAN BƏZİ ŞEYLƏRİ GÖTÜRMƏLİYƏM!

Bunu deyib Temmi öz "Kamaro"suna tərəf qaçdı.

– Ah, səni zəhrimara qalasan, mən axı qapını kilidləmişəm və məndə qapının açarı yoxdu! Səndə asılqan varmı?

– Yox, –mən ona qışqırdım, – məndə asılqan-zad yoxdu!

– İndi gəlirəm.

Temmi öz anasının evinə tərəf qaçdı. Qapının açıldığını eşitdim. Dansi gah ağlayır, gah da qışqırırdı. Sonra qapının zərblə çırpılaraq bağlandığını eşitdim və Temmi əlində asılqanla geri qayıtdı. O öz "Kamaro"suna tərəf getdi və qısa linglə qapını açmağa çalışdı.

Mən düşüb onun maşınına yaxınlaşdım. Temmi artıq maşının içinə girmişdi. Arxa oturacaqda oturub maşının salonuna yığılmış inanılmaz qarmaqarışıqlığın – paltarlar,

kağız torbalar, kağız stəkanlar, qəzetlər, pivə şüşələri, boş karobkaların – içində nəsə axtarırdı. Nəhayət ki, o, axtardığı şeyi tapdı: öz kamerasını, bu "Palaroid" kameranı ona ad günündə mən bağışlamışdım.

Mən maşını hava limanı istiqamətində sürəndə, "Folksvage"ni elə sürətlə sürürdüm ki, elə bil 500 dollar pul mükafatı udacaqdım. Temmi birdən irəli əyilib mənə dedi:

– Sən mən, doğrudan, sevirsən, düz deyirəmmi?

– Hə.

– Qoy bir Nyu-Yorka çataq, gör səni necə sikəcəm, elə sikəcəm ki, səni həyatında heç kim elə sikməyib!

– Doğru sözündür?

– Hə.

O mənim şeyimi qamarlayıb bütün bədəni ilə mənə qısıldı.

Mənim ilk və yeganə kürənim. Bəxtim yaman gətirmişdi...

59

Biz uzun rampanın üstü ilə qaçırdıq. Mən onun paltarları ilə kağız torbalarını daşıyırdım.

Liftə minəndə, Temmi birdən uçuşları sığortalayan avtomatı gördü.

– Lütfən, təyyarənin havaya qalxmasına cəmi beşcə dəqiqə vaxt qalır.

– Mən istəyirəm ki, bir şey olsa Densinin almağa pulu olsun.

– Yaxşı.

– Səndə iki dənə iyirmi beş sentlik olmaz?

Mən ona iki dənə iyirmi beş sentlik verdim. O bu pulları avtomarın dəliyindən içəri saldı və oradan bir vərəqə çıxdı.

– Qələmin varmı?

Temmi vərəqəni doldurdu – vərəqənin yanında bir zərf də vardı. Temmi vərəqəni zərfin içinə qoydu. Sonra isə həmin zərfi avtomatın dəliyindən içəri salmağa çalışdı.

– Bu şey avtomatın dəliyindən keçməyəcək!

– Belə getsə, təyyarəyə gecikəcəyik.

Temmi zərfi avtomatın dəliyindən içəri salmaq cəhdlərinə davam edirdi. Zərf isə heç cür dəlikdən keçmək istəmirdi.

Temmi orada dayanmışdı və zərfi avtomatın dəliyindən içəri soxuşdurmaq niyyətindən heç cür əl çəkmirdi. İndi zərf tamamilə ikiyə qatlanmışdı. Onun bütün kənarları əzik-əzik olmuşdu.

– Belə getsə, ağlımı itirəcəm, – ona dedim. – Bütün bunlara tab gətirmək iqtidarında deyiləm.

O bir neçə dəfə də zərfi dəlikdən içəri soxmağa cəhd elədi. Zərf isə tərsliyindən əl çəkmir, heç cür dəlikdən keçmirdi. O dönüb mənə baxdı.

– Yaxşı, gəl gedək.

Biz onun donları və kağız torbaları ilə birlikdə eskalatorla yuxarı qalxdıq.

Təyyarəyə minik çıxışın tapdıq. Sonra təyyarənin salonunun arxa hissəsində yerləşən iki oturacaqda özümüzə yer elədik. Təhlükəsizlik kəmərlərini bağladıq.

– Görürsənmi, – o dedi, – sənə demişdim axı bizim hələ çox vaxtımız var.

Mən öz saatıma baxdım. Təyyarə yavaş-yavaş hərəkət etməyə başladı...

60

Temmi öz əl çantasından güzgüsünü çıxarıb üzünə, xüsusilə də gözlərinə, makiyaj etməyə başlayanda, biz havada cəmi iyirmi dəqiqə idi ki uçurduq. Temmi bütün diqqətini kirpiklərinə yönəldərək əlindəki balaca fırça ilə gözlərinin kənarlarını düzəltdi. Bunu edərkən o, gözlərini bərəldərək geniş açmış və ağzını da açıq saxlamışdı. Mən ona tamaşa etdikcə, şeyim yavaş-yavaş bərkiyirdi.

Onun dodaqları elə dolu, elə yumru və açıq idi ki, ona baxmaqdan həzz alırdım. O isə dayanmadan gözlərinin kənarlarını düzəldirdi. Mən bizim üçün iki içki sifariş etdim.

İçkisini içmək üçün Temmi bu işinə ara verdi, sonra yenə də davam etdi.

Bizim sağ tərəfimizdəki oturacaqda oturmuş cavan oğlan özü ilə oynamağa başladı. Temmi isə ağzını açıq saxlayaraq güzgüdəki öz əksinə baxmağa davam edirdi.

İkimizdə də elə bir hiss yaranmışdı ki, bu ağızla Temmi, həqiqətən, yaxşı əmə bilər.

Temmi təxminən bir saat özünə bəzək vurdu. Sonra güzgü ilə balaca fırçanı çantasına qoydu və mənə qısılaraq yuxuya getdi.

Bizim sol tərəfimizdəki oturacaqda bir qadın oturmuşdu. Onun qırx-qırx beş yaşı olardı. Temmi isə mənə söykənərək artıq yuxulamışdı.

Həmin qadın mənə tərəf baxdı.

– Onun neçə yaşı var? – qadın məndən soruşdu.

Birdən təyyarənin içində qəribə bir sakitlik yarandı. Yaxınlıqda oturan hər kəs qulaq asırdı.

– 23 yaşı var.

– Görünüşünə görə ona ancaq 17 yaş vermək olar.

– Onun 23 yaşı var.

– Əvvəlcə, iki saat üz-gözünə boya çəkir, sonra isə yuxuya gedir.

– İki saat yox, təxminən bir saat.

– Siz də Nyu-Yorka gedirsiniz? – qadın məndən soruşdu.

– Bəli.

– Bu sizin qızınızdırmı?

– Yox mən onun nə atasıyam, nə də babası. Onunla heç bir qohumluq bağım yoxdur. O mənim rəfiqəmdir və biz Nyu-Yorka gedirik, – onun gözlərində artıq belə bir sərlövhə görürdüm:

ŞƏRQİ HOLİVUDDAN OLAN BİR BƏDHEYBƏT 17 YAŞINDAKI BALACA BİR QIZI NARKOTİK MADDƏLƏRLƏ KEYLƏŞDİRİR, ONU ÖZÜ İLƏ NYU-YORK SİTİYƏ APARIR VƏ ONU SEKSUAL İSTİSMARA MƏRUZ QOYUR, SONRA QIZCIĞAZIN BƏDƏNİNİ ÇOXSAYLI AVARALARA SATIR.

İstintaqçı – qadın nəhayət ki, məndən əl çəkdi. O, arxaya söykəndi və gözlərini yumdu. Onun başı sürüşərək mənə tərəf əyildi. Kənardan baxana elə gələ bilərdi ki, qadın başını mənim dizlərimin üstünə qoyaraq yuxuya gedib. Temmini əlimlə tutaraq mən bu başa tamaşa edirdim. Bir anlıq düşündüm ki, onun dodaqlarından bərk bir öpüş alsam, görəsən etiraz edərdimi?! Məndə daha bir ereksiya başladı.

Biz artıq enişə hazırlaşırdıq. Temminin bədəni tamamilə iradəsiz görünürdü. Bu məni narahat etməyə başladı. Mən onun təhlükəsizlik kəmərini bağladım.

– Temmi, biz artıq Nyu-York Sitiyə çatmışıq! Yerə enməyə hazırlaşırıq! Temmi oyan!

Heç bir cavab gəlmədi.

Bəlkə dozası artıq olub?

Mən onun nəbzini yoxladım. Nəbzi tuta bilmədim.

Mən onun nəhəng döşlərinə baxdım. Onun nəfəs alıb – almadığını bilmək üçün bir işarə görmək istəyirdim. Amma onun sinəsi tərpənmirdi. Yerimdən qalxıb stüardessanı axtarmağa getdim.

– Ser, zəhmət olmasa öz yerinizə əyləşin. Biz enməyə hazırlaşırıq.

– Baxın, məni narahat edən bir məsələ var. Mən rəfiqəmi yuxudan oyada bilmirəm.

– Düşünürsünüz ki, o ölüb? – qadın astadan pıçıldadı.

– Bilmirəm, – deyərək mən də pıçıltı ilə ona cavab verdim.

– Yaxşı, ser. Biz yerə enən kimi mən sizin yanınıza qayıdacağam.

Təyyarə yavaş-yavaş enməyə başladı. Mən tualetə getdim və bir neçə kağız dəsmalı islatdım. Sonra geri qayıtdım, Temminin yanına oturdum və nəm dəsmalla onun üzünü silməyə başladım. Onun üzündəki bütün makiyaj silinərək hədər oldu. Temmi mənim etdiklərimə heç bir reaksiya vermirdi.

– Sürtüyün biri, oyan görüm!

Mən yaş dəsmalı onun döşlərinin arasında gəzdirdim. Heç nə. Tam hərəkətsizlik. Axırda yorulub ondan əl çəkdim.

Onun cansız cəsədini bir yol tapıb geri göndərməli olacaqdım. Bütün bunları onun anasına izah etməli olacaqdım. Onun anası mənə nifrət edəcəkdi.

Biz yerə endik. İnsanlar yerlərindən qalxdılar və təyyarədən enmək üçün sıraya düzülərək növbə gözləməyə başladılar. Mən isə tərpənmədən öz yerimdə oturmuşdum. Mən gah Temmini silkələyir, gah da onu çimdikləyirdim.

– Artıq Nyu Yorl Sitidəyik, Kürən. Səni çürük alma. Artıq özünə gəl. Qurtar bu zibili.

Stüardessa yanımıza gəldi və o da Temmini silkələdi.

– Əzizim, sənə nə olub?

Temmi tərpənməyə başladı. O qımıldandı, sonra isə gözlərini açdı. Bütün məsələ, sən demə yeni bir səsdə imiş. Daha heç kim köhnə səsə qulaq asmaq istəmirmiş. Köhnə səslər, barmağındakı dırnaq kimi, sənin bədəninin bir hissəsinə çevrilirmiş. Temmi öz güzgüsünü çıxardı və saçlarını daramağa başladı. Stüardessa əli ilə onun çiynini şappıldatdı. Mən yerimdən qalxdım. Temminin paltarlarını başımızın üstündəki baqaj bölməsindən götürdüm. Kağız torbalar da elə oradaydılar. Temmi isə güzgüyə baxaraq saçlarını daramağa davam edirdi.

– Temmi, biz artıq Nyu-Yorl Sitidəyik. Gəl təyyarədən düşək.

O cəld hərəkət etməyə başladı. Mənim əlimdə kağız torbalar və paltarlar vardı. Temmi sağrılarını oynada-oynada oturacaqların arası ilə çıxışa tərəf addımladı. Mən də onun arxasınca gedirdim.

61

Qari isə durmadan avtomat kimi elə hey püləyirdi.

– Əgər etiraz eləmirsənsə, mən sənlə söhbətimi bir radio şousu üçün lentə yazmaq istərdim, səndən müsahibə də alardım.

– Ola bilər, Qari, bəlkə sabah bədii qiraətdən sonra.

– İndi mən sizi poeziya üzrə koordinator ilə görüşə aparacam. O hər şeyi artıq təşkil edib. Özü sizə harada qalacağınızı və digər vacib məsələləri izah edəcək. Onun adı Marşal Bençlidir, amma ondan zəndeyi-zəhləm getdiyini sizə söylədiyimi ona deməyin ha.

Biz yolumuza davam etdik və sonra qum daşından tikilmiş dəbdəbəli bir malikanənin önündə dayanmış Marşal Bençlini gördük. Həmin yerdə avtomobilin saxlanılması qadağan idi. O cəld bir hərəkətlə sıçrayaraq maşına mindi və Qari dərhal yoluna davam etdi. Bençli, həqiqətən, şairə bənzəyirdi. Özü də dolanışıq qazanmaq üçün heç vaxt işləmək məcburiyyətində qalmayan və şəxsi qazanc mənbəyi olan şairə: onun xarici görünüşündən bunu başa düşmək

çətin deyildi. O özünü ədəbaz və nəzakətli aparırdı. Elə bil adam yox, suyun hamarladığı çay daşı idi.

– İndi biz sizi qalacağınız yerə aparacağıq, – o dedi.

O məğrur bir görkəm alaraq mənim otelimdə qalan adamların uzun siyahısını təmtəraqla sadaladı. Adları çəkilən adamların bəzilərini tanısam da, bəzilərini tanıya bilmədim.

Qari maşını "Çelsi" otelinin qarşısındakı boşalma zonasına sürdü. Biz maşından düşdük. Qari dedi:

– Bədii qiraətdə görüşərik. Və sabah görüşənədək.

Marşal bizi otelin içinə apardı. Biz otelin qeydiyyat məmuruna yaxınlaşdıq. "Çelsi" açıq-aşkar elə də bahalı bir otel deyildi. Onun cazibəsi bəlkə də məhz bundan qaynaqlanırdı.

Marşal çevrilərək otağın açarını mənə verdi.

– 1010 nömrəli otaq, bir vaxtlar Venis Coplinin qaldığı otaqdır.

– Sağ olun.

– 1010 nömrəli otaqda bir çox görkəmli sənətkarlar qalıb.

O bizi balaca liftin qarşısına qədər ötürdü.

– Bədii qiraət saat 8-də başlayacaq. Mən sizi götürmək üçün 7:30-da gələcəyəm. Bütün biletlər iki həftə bundan əvvəl artıq satılıb qurtarıb. Biz bir az ayaq üstü yerlər üçün də biletlər satırıq, amma yanğınsöndürmə idarəsinin bizi cərimələməməsi üçün ehtiyatlı olmalıyıq.

– Marşal, buraya ən yaxın içki dükanı harada yerləşir?

– Aşağı mərtəbəyə enin və dərhal sağa dönün.

Biz Marşal ilə sağollaşdıq və liftə minərək yuxarı qalxdıq.

62

Həmin axşam, bədii qiraət zamanı çox isti idi. Tədbir Əziz Mark kilsəsində keçirilirdi. Temmi ilə mən qrim otağı kimi istifadə edilən bir məkanda oturmuşduq. Temmi öz boyuna uyğun divara söykədilmiş böyük bir güzgü tapdı və onun qarşısına keçib saçlarını daramağa başladı. Marşal məni kilsənin arxa həyətinə çıxardı. Onlar orada qəbiristanlıq salmışdılar. Sementdən düzəldilmiş balaca başdaşıları torpağın üstündə bərkidilmişdi və onların üstündə yazılar oyulmuşdu. Marşal məni ətrafda gəzdirir və

başdaşlarında oyulmuş yazıları göstərirdi. Bədii qiraət öncəsi mən həmişə həyəcan keçirirəm, çox gərgin oluram və qanım qaralır. Mən demək olar ki, hər dəfə qiraətdən əvvəl, həyəcanımdan qusurdum. İndi də belə oldu. Mən qəbirlərdən birinin üstünə qusdum.

– Siz elə indicə Piter Stuyvesantın üstünə qusdunuz, – Marşal dedi.

Mən yenidən qrim otağına qayıtdım. Temmi hələ də güzgüdə özünə baxırdı. O öz üzünə və bədəninə tamaşa edirdi. Onu həmişəki kimi ən çox narahat edənsə saçları idi. O saçlarını başının üstündə topladı və bir qədər bu vəziyyətdə necə göründüyünə tamaşa edəndən sonra yenə saçlarını açaraq aşağı tökdü.

Marşal başını qapıdan içəri saldı.

– Artıq vaxtdır, gəlin, onlar sizi gözləyirlər!

– Temmi hələ hazır deyil, – mən ona dedim.

Sonra Temmi yenə saçlarını başının üstündə topladı və bir də necə göründüyünə baxdı. Sonra yenə aşağı tökdü. Sonra o güzgüyə lap yaxınlaşdı və öz gözlərinə baxdı.

Marşal qapını döydü və otağa daxil oldu.

– Vaxtıdır, Çinaski, gəlin gedək!

– Tərpən, Temmi, getmək vaxtıdır.

– Oldu.

Temmini də yanıma alıb otaqdan çıxdım. Tamaşaçılar əl çalmağa başladılar. Qoca yabı Çinaskının adı öz işini görürdü. Temmi səhnədən enərək kütləyə qarışdı, mən isə qiraətə başladım. İçinə buz qoyulmuş vedrənin içində mənim çoxlu pivəm vardı, oxumaq üçünsə çoxlu köhnə və yeni şerlərim. Mən hədəfdən yayına bilməzdim. Əziz Mark kilsəsinin lap xaçından tutmuşdum.

63

Biz 1010 nömrəli otağımıza qayıtdıq. Mənə çeki də artıq vermişdilər. Aşağıda tapşırmışdım ki, bizi narahat etməsinlər. Temmi ilə mən oturub içkimizi içirdik. Mən onun haqqında 5, ya da 6 şeir oxumuşdum.

– Onlar mənim kim olduğumu bilirdilərmi, – o dedi. – Bəzən mən hırıldayırdım. Çox utanırdım.

Onlar Temminin kim olduğunu, əlbəttə ki, bilirdilər – bunda heç bir şübhə ola bilməz. Onun bütün görkəmindən ətrafa seks saçılırdı. Hətta mətbəx böcəkləri, qarışqalar və milçəklər də onu qayırmaq istəyirdilər.

Elə bu dəmdə, kimsə otağın qapısını döydü. Otağa iki nəfər daxil oldu: bir şair və onun qadını. Yanımıza gələn şair Vermontdan olan Morze Cenkinz idi, qadınısa Sedi Evert. Şair özü ilə dörd şüşə pivə gətirmişdi.

Şairin ayağında səndəllər, əynində isə köhnə cırıq cins şalvar; qolunda firuzə rəngli qolbaq; boynunda zəncir boyunbağı; onun saqqalı, uzun saçları və əynində narıncı köynək vardı. O durmadan, elə hey danışır, otaqda var-gəl edirdi.

Yazıçılar ilə həmişə problemli olurdu. Əgər yazıçının yazdığı hansısa bir mətn dərc edilir və onun çoxlu sayda nüsxələri satılırdısa, onda yazıçı özünü dahi hesab edirdi. Əgər yazıçının yazdığı hansısa bir mətn dərc edilir və onun nüsxələri orta sayda satılırdısa, onda yazıçı özünü dahi hesab edirdi. Əgər yazıçının yazdığı hansısa bir mətn dərc edilir və az sayda nüsxələr satılırdısa, onda yazıçı özünü

dahi hesab edirdi. Əgər yazıçının yazdığı hansısa bir mətn heç vaxt dərc edilmirdisə və onu öz hesabına dərc etdirmək üçün onun pulu olmurdusa, onda yazıçı özünü həqiqi dahi hesab edirdi. Həqiqət isə, əslində, bütün bu hallarda dahiliyin tamamilə az olmasındadır. O, demək olar ki, heç mövcud deyil, heç görünmür. Lakin siz əmin ola bilərsiniz ki, özlərindən ən çox əmin olan və öz qabiliyyətindən heç vaxt şübhəyə düşməyənlər də elə ən pis yazıçılardır. İstənilən halda, yazıçılarla görüşdən qaçmaq lazımdır. Mən hər zaman onlardan qaçmağa çalışmışam. Amma əfsuslar olsun ki, onlardan qaçmaq, demək olar ki, mümkün deyil. Onlar bir növ qardaşlıq, ya da nə bilim, birlikdəlik haqqında ümidlərə qapılırdılar. Onların heç birinin yazıçılıqla əlaqəsi yoxdur və onların heç biri yazı makinasının arxasında oturduğun zaman sənin köməyinə gəlmir.

– Mən Kley ilə, o Əli adını almamışdan öncə, rinqdə yumruq davasına çıxmışam, – Morze dedi. Morze otaqda atılıb-düşərək havanı yumruqladı, ora-bura əyildi və otaqda boksçu kimi rəqs etdi. – O elə də pis deyildi, amma mən onun dərsini yaxşıca verdim.

Morze yenə otaqda gözəgörünməz rəqibə bir neçə yumruq zərbəsi endirdi.

– Mənim ayaqlarıma baxın! – o dedi. – Mənim çox əla ayaqlarım var.

– Henkin ayaqları səninkilərdən daha gözəldir, – Temmi dilləndi.

Ayaqları ilə məşhur olan bir adam kimi, mən başımı yırğaladım.

Morze keçib yerinə oturdu. Əlindəki pivə şüşəsi ilə Sedini göstərdi.

– O tibb bacısı işləyir. O məni saxlayır. Lakin bir gün mən öz hədəfimə nail olacam. Mənim haqqımda eşitməyən qalmayacaq!

Morzenin bədii qiraət zamanı yəqinmikrofona ehtiyacı olmazdı.

O dönüb mənə baxdı.

– Çinaski, sən dövrümüzdə hələ də yaşayan ən yaxşı iki, ya da üç şairdən birisən. Bu iş, həqiqətən, sənin əlindən gəlir. Sənin misraların çox gözəl alınır. Amma mən də çox

geridə deyiləm! İcazə ver sənə öz zibilimdən bir parça oxuyum. Sedi, mənim şeirlərimi bura ver görüm.

– Lazım deyil, – mən dedim, – dayan! Mən onlara qulaq asmaq istəmirəm.

– Niyə istəmirsən, dostum? Niyə qulaq asmaq istəmirsən?

– Bu axşam şeiriyyat onsuz da çox olub, kifayət edər, Morze. Mən, sadəcə, yerimə uzanıb hər şeyi unutmaq istəyirəm.

– Hmm, yaxşı... Bura bax, sən heç vaxt mənim məktublarıma cavab vermirsən.

– Bura bax, Morze, mən snob deyiləm. Lakin hər ay mənə 75 məktub gəlir. Əgər mən onlara cavab versəm, başqa işlər üçün vaxtım qalmaz.

– Mərc gələrəm ki, sənə yazan qadınlara cavab yazırsan!

– O baxır qadına ...

– Yaxşı, dostum, mən incimirəm. Sənin yazdıqlarından hələ də xoşum gəlir. Bəlkə də mən heç vaxt məşhur birisi olmayacam, amma düşünürəm ki, məşhur olacam və

düşünürəm ki, bir vaxt gələcək sən mənimlə tanış olduğuna görə çox şad olacaqsan. Hə tərpən, Sedi, gəl gedək.

Mən onları qapıya qədər ötürdüm. Morze mənim əlimdən yapışdı, amma onu sıxmadı və biz heç bir-birimizin üzünə belə baxmadıq.

– Sən yaxşı adamsan, – o dedi.

– Sağ ol, Morze...

Və sonra çıxıb getdilər.

64

Ertəsi gün səhər Temmi öz çantasından bir resept tapdı.

– Mən bu reseptdə yazılan dərmanları almalıyam, – o dedi. – Bir buna bax.

Reseptin kağızı tamamilə əzilmiş, içindəki yazıların mürəkkəbi yayılmış və oxunmaz hala gəlmişdi.

– Nə olub ki?

– Hmm, sən mənim qardaşımı tanıyırsan axı, o narkomandır, bu həblərin aludəçisidir.

– Sənin qardaşını, əlbəttə ki, tanıyıram. O mənə iyirmi dollar pul borcludur.

– Hə, deyirəm axı, o bu resepti mənim əlimdən almaq istəyirdi. O, hətta məni boğmağa da cəhd elədi. Mən bu resepti ağzıma atdım və onu uddum. Yox, əslində, özümü onu udmuş kimi göstərdim. O isə mənə inanmadı. Bu sənə zəng edib yanıma gəlməni və onu eşşək sudan gəlincəyə qədər döyməyini xahiş etdiyim vaxt baş vermişdi. Bunu eşidəndə, o məndən əl çəkib getdi. Lakin resept hələ də mənim ağzımda idi. Mən ondan hələ istifadə etməmişəm. Lakin ondan burada istifadə edib dərmanları almaq olar. Bunu yoxlamağına dəyər.

– Yaxşı.

Biz liftlə aşağı endik və küçəyə çıxdıq. İstidən nəfəs almaq olmurdu, 100 dərəcə olardı. Mən çox çətinliklə hərəkət edə bilirdim. Temmi səkinin bir kənarından o biri kənarına ləngər vura-vura addımlamağa başladı, mən də ayaqlarımı sürüyə-sürüyə onun arxasınca.

– Hə, tərpən görüm! – o mənə dedi. – Geri qalma!

O nəsə qəbul eləmişdi, deyəsən, sakitləşdirici həblər atmışdı. O tamamilə yuxulu, məst halda idi. Temmi qəzet köşkünə yaxınlaşdı və bir jurnala baxmağa başladı. Məncə o, "Varyete" jurnalı idi. O tərpənmədən ling kimi orada dayanmışdı. Mən də, başqa əlacım olmadığından, onun yanında dayanmışdım. Darıxdırıcı və mənasız idi. O, boş gözlərini "Varyete" jurnalına zilləmişdi.

– Bura bax, bacım, ya bu lənətə gəlmiş zibili al, ya da yoluna davam elə! – Bu sözləri deyən qəzet köşkünün içindəki adam idi.

Temmi yoluna davam etdi.

– Aman Allahım, Nyu-York necə də dəhşətli yerdir! Mə, sadəcə, bədii qiraət haqqında bir şey dərc edib-etmədiklərinə baxmaq istəyirdim!

Temmi sağrılarını oynada-oynada, səkinin bir tərəfindən o biri tərəfinə ləngər vura-bura yoluna davam etdi. Hollivudda maşınları yolun bir kənarına verib saxlayar, qara dərililər Temmiyə uvertüralar oxuyar, ona yaxınlaşmağa cəhdlər edər, serenadalar oxuyar və onu

alqışlayardılar. Nyu-York isə belə deyildi, fərqli idi; bu şəhər əzgin və yorğun idi və cismaniliyə nifrət edirdi.

Biz qaradərililərin rayonuna daxil olmuşduq. Onların yanından keçərkən bizə diqqətlə baxırdılar: uzun saçlı, dəmlənmiş kürən qız və onun arxasınca yorğunluqdan ayaqlarını güclə sürüyən, saqqalına dən düşmüş qoca bir adam. Mən ara-sıra onlara baxırdım – onlar öz artırmalarında oturmuşdular; üzlərindən pislik yağmırdı. Onlar mənim xoşuma gəlirdilər, Temmidən daha çox xoşuma gəlirdilər.

Mən küçə ilə Temminin arxasınca gedirdim. Sonra qarşımıza bir mebel dükanı çıxdı. Dükanın qarşısındakı səkinin üstündə sınıq dəftərxana kreslosu vardı. Temmi köhnə dəftərxana kreslosuna yaxınlaşdı və ayaq saxlayaraq gözlərini ona zillədi. Onu elə bil hipnoz eləmişdilər. Temmi gözlərini qırpmadan dəftərxana kreslosuna baxırdı. O, əlini uzadıb barmaqlarını kresloya toxundurdu. Dəqiqələr keçirdi. Sonra o, kresloya oturdu.

– Bura bax, – mən ona dedim, – mən otelə qayıdıram. Sən isə nə istəyirsən onu da elə.

Temmi heç başını qaldırıb baxmadı da. O öz əllərini dəftərxana kreslosunun qoltuqaltılarının üstündə ora-bura gəzdirdi. İndi o öz dünyasında dalmışdı. Mən çevrildim və oradan uzaqlaşaraq "Çelsi" otelinə qayıtdım.

Bir neçə şüşə pivə aldım və liftə minərək yuxarı qalxdım. Əynimi soyundum, duş qəbul elədim, çarpayının baş hissəsinə bir neçə yastıq yığdım və yatağa uzanıb pivəmi içməyə girişdim. Bədii qiraət mənim qürurumu alçaldırdı. Qiraət bütün ruhumu əmib çıxarırdı. Bir pivə şüşəsini bitirdim və başqasını açdım. Qiraət bəzən səni götə qoyurdu. Rok ulduzları da bəzən öz göt paylarını alırdılar; moksçular da öz karyeraları ilə yuxarı dırmaşarkən öz göt paylarını alırdılar; dahi toreadorlara isə bakirələr qismət olurdu. Necə olurdusa, yalnız toreadorlar buna layiq olurdular.

Birdən qapı döyüldü. Mən yataqdan qalxıb qapını azca araladım. Gələn Temmi idi. O, qapını itələyərək açdı və otağa daxil oldu.

– Bu pozğun qancıq balası cuhudu tapdım. Reseptə görə o məndən 12 dollar tələb elədi! Sahilboyunda bu reseptin qiyməti 6 dollardır. Ona dedim ki, mənim sadəcə 6

dollarım var. Amma bu onun heç vecinə də olmadı. Harlemdə yaşayan pozğun cuhud! Mən də pivədən içə bilərəmmi?

Temmi bir şüşə pivə götürdü və pəncərədə oturdu. Bir ayağı ilə bir əlini bayıra çıxarmış, o biri ayağını içəridə saxlayaraq o biri əli ilə pəncərənin yuxarı qaldırılmış haşiyəsindən yapışmışdı.

– Mən Azadlıq Heykəlinə baxmaq istəyirəm. Koni Aylendi görmək istəyirəm, – o dedi.

Mən yeni bir pivə şüşəsi götürdüm.

– Ah, bura necə də gözəldir. Gözəl və sərin.

Temmi harasa baxaraq pəncərədən çölə uzandı.

Sonra isə bağırmağa başladı.

Onun pəncərənin haşiyəsindən tutduğu əli sürüşmüşdü. Onun bədəninin böyük bir hissəsinin ləngər vuraraq pəncərədən çölə necə əyildiyini gördüm. Sonra bədən geri qayıtdı. Necəsə o öz müvazinətini qorumağa və bədənini geri çəkməyə müvəffəq olmuşdu. Özünü itirmiş halda pəncərədə oturduğu yerdə qaldı.

– Azca qalmışdı, – mən ona dedim. – Bundan yaxşı bir şeir alına bilərdi. Mən müxtəlif yollarla çoxlu sayda qadın itirmişəm, amma bu yeni bir üsul olacaqdı.

Temmi çarpayıya yaxınlaşdı və sərələnərək onun üstündə üzüqoyulu uzandı. Mən başa düşdüm ki, o hələ də sərxoşdur. Sonra yumalanaraq çarpayıdan yıxıldı və arxası üstə döşəməyə çırpıldı. O tərpənmirdi. Mən ona yaxınlaşdım, onu yerdən qaldırıb yenidən çarpayıya uzatdım. Onun saçlarını biləyimə doladım və onu əxlaqsızcasına öpdüm.

– Ey... Sən neyləyirsən?

Birdən yadıma düşdü ki, o mənə götündən bir parça verəcəyinə söz vermişdi. Mən onu qarnının üstünə çevirdim, donunu yuxarı çəkdim və tumanını aşağı çəkib çıxardım. Onun üstünə çıxdım və onun amını tapmağa çalışaraq şeyimi irəli itələdim. Mən durmadan şeyimi ona dürtüşdürməyə çalışırdım və nəhayət, şeyim girdi. Şeyim sürüşərək, getdikcə, daha dərinə işləyirdi. Onu necə lazımdırsa, elə də qayırdım. Ondan yalnız güclə eşidilən iniltilər çıxırdı. Sonra telefon zəng çaldı. Mən şeyimi çıxarıb

yerindən qalxdım və telefona cavab verdim. Zəng vuran Qari Benson idi.

– Mən öz maqnitofonumu da götürüb səndən radio üçün müsahibə almağa gəlirəm.

– Nə vaxt?

– Təxminənn 45 dəqiqədən sonra yanında olacağam.

Mən dəstəyi asdım və yenidən Temminin yanına qayıtdım. Şeyim bərkliyini hələ də itirməmişdi. Mən onun saçından yapışdım və ona bir dənə də vəhşi öpüş bəxş elədim. Onun gözləri bağlıydı, ağzında isə həyat əlaməti yox idi. Yenə onun üstünə dırmaşdım. Bayırda onlar özlərinin yanğından təxliyə qəza çıxışında oturmuşdular. Günəş qüruba enməyə başlayanda və kölgəyə bənzər bir şeylər əmələ gələndə, onlar sərinləmək üçün oradan çıxırdılar. Nyu-York Sitinin əhalisi orada oturub pivə və soda, ya da buzlu su içirdilər. Onlar bütün bunlara tab gətirir və siqaret çəkirdilər. Sadəcə, sağ qalmaq özü də bir qələbə hesab edilə bilərdi. Onlar yanğından təxliyə qəza çıxışını müxtəlif bitkilərlə bəzəyirdilər. Onlar əllərində olanlar ilə kifayətlənirdilər.

Mən şeyimi bir başa Temminin canına yeritməyə çalışırdım. İt pozasında. Bunu itlər hər kəsdən daha yaxşı bilirlər. Onun üstündə yorulmaq bilmədən işləyirdim. Poçt idarəsindəki işimdən ayrılmağım çox yaxşı olmuşdu. Mən onun bədəninin üstündə dala-qabağa ləngər vurur və yuxarı-aşağı hərəkətlər edirdim.

– Henk.., – birdən o dilləndi.

Nəhayət ki, mən qurtara bildim, sonra onun üstündəcə uzanıb istirahət elədim. Hər ikimiz də qan-tər içində idik. Onun üstündən yuvarlanaraq düşdüm, ayağa qalxdım, paltarımı soyundum və duş almaq üçün vanna otağına getdim. Məndən 32 yaş balaca olan bu kürəni yenə qayırmışdım. Duşun altında özümü əla hiss edirdim. Mən səksən yaşına qədər yaşamağı və o yaşda olanda, 18 yaşlı qızı sikməyi planlaşdırırdım. Kondisioner sistemi işləməsə də, duş işləyirdi. Özümü, həqiqətən, əla hiss edirdim və radio müsahibəsi üçün də tamamilə hazır idim.

65

Los-Ancelesə geri qayıdandan sonra, evimdə, demək olar ki, bir həftə sülh və əmin-amanlıq hökm sürdü. Sonra isə telefon zəng çaldı. Zəng vuran Manhattan Biçdəki gecə klubunun sahibi Marti Siverz idi. Orada artıq bir neçə dəfə bədii qiraət keçirmişdim. Klubun adı "Smak-Hay" idi.

– Çinaski, gələn cümə günündən başlayaraq, mənim klubumda bir həftə bədii qiraətlə çıxış eləməyini istəyirəm. Təxminən 450 dollar qazana bilərsən.

– Yaxşı.

Orada rok qruplar çıxış edirdilər. Onların tamaşaçıları kolleclərdəkilərdən fərqlənirdilər. Onlar da mənim kimi dözülməz məxluqlarıydılar və şeirlərin arasındakı fasilələrdə bir-birimizi söyürdük. Onlar mənim daha çox xoşuma gəlirdilər.

– Çinaski, – Marti dedi, – Elə bilirsən ki, qadınlarla yalnız sənin problemlərin var. Qoy mən sənə danışım, sən də qulaq as. İndi mənimlə olan qadın pəncərə və pərdələrlə qəribə şəkildə davrana bilir. Mən rahatca yatanda, bir də görürsən səhər saat 3-də, ya da 4-də mənim yataq otağımda peyda olur. Silkələyərək məni oyadır. Bəzən məni elə

qorxudur ki, az qalıram altımı batırım. Otağın ortasında dayanıb deyir: “Mən, sadəcə, sənin tək yatdığına əmin olmaq istəmişdim!”

– Allah, sən özün qoru.

– Başqa bir gecə isə evdə oturmuşdum, birdən qap döyüldü. Qapını döyənin o olduğunu bilirəm. Qapını açıram, amma o orada yoxdur. Gecə saat 11-dir və mən tumançağam. Mən içki içirdim və bu məni narahat edir. Əynimdə paltardan bircə tumanla ilə bayıra qaçıram. Ona ad günündə 400 dollarlıq pal-paltar hədiyyə vermişdim. Mən bayıra qaçıram və budur mənim hədiyyə etdiyim paltarlar maşınımın damındadır. Onlara kimsə od vurub, onlar yanır! Paltarları maşının damından götürmək üçün ora qaçıram və o kolluqların arasından sıçrayaraq çıxıb bağırmağa başlayır. Səs – küyü eşidən bütün qonşular pəncərələrdən baxırlar və mən bayırda tumançaq vəziyyətdə maşının damından yanan paltarları əllərimi yandıra-yandıra götürməyə çalışıram.

– Sənin dediklərindən belə anlayıram ki, o mənimkilərdən birisinə bənzəyir, – mən dedim.

– Yaxşı, mən belə başa düşdüm ki, bizim aramızda artıq hər şey bitib. İki gün sonra burada oturmuşdum, klubda işim vardı, ona görə də, gecə saat üçdə sərxoş halda yenə əynimdə yalnız qısa tumanla burda oturmuşdum. Qapını kimsə döydü. Bu onun qapı tıqqıldatması idi. Mən qapını açıram və qapı dalında yenə də heç kim yoxdur. Bayıra maşınıma baxmağa çıxıram və görürəm ki, o bu dəfə daha çox paltarı benzinlə isladaraq yandırıb. Deməli birinci dəfədən geriyə bir az paltar saxlayıbmış. Bu dəfə paltarları kapotun üstündə yandırmışdı. Yenə hardansa qəfil peyda olub bağırmağa başlayır. Qonşular səsi eşidib pəncərədən çölə baxırlar. Yenə mən bircə alt tumanda maşını kapotunun üstündə yanan paltarları yerə tökməyə çalışıram.

– Əladır, heyf ki, bütün bunlar mənim başıma gəlməyib.

– Bircə mənim yeni maşınımın halını görəydin. Maşının kapotu və damının səthindəki bütün boya qabarcıqlar ilə dolu idi.

– Bəs indi o hardadır?

– Biz yenə birlikdəyik. 30 dəqiqədən sonra mənim yanıma gələcək. Yaxşı bəs səni bədii qiraət üçün burada qeydə ala bilərəmmi?

– Əlbəttə.

– Sən tamaşaçıların diqqətini rok qruplardan daha çox cəlb edirsən. Həyatım boyu heç vaxt belə bir şey görməmişəm. Əslində, istərdim ki, sən hər cümə və şənbə günləri mənim klubumda çıxış edəsən.

– Bu əmələ gələn iş deyil, Marti. Sən bir mahnını dəfələrlə oxuda bilərsən, amma poeziya belə deyil, tamaşaçılar hər dəfə yeni şeirlər eşitmək istəyirlər.

Marti mənim sözlərimə güldü və dəstəyi asdı.

66

Mən özümlə Temmini də götürüb kluba getdim. Biz ora vaxtından bir az erkən çatmışdıq. Boş vaxtdan istifadə edib küçənin qarşı tərəfindəki bara girdik. Özümüzə masa seçib oturduq.

– Bu dəfə çox içmə, Henk. Çox kefli olanda sözləri necə yediyini və misraları bəzən buraxdığını özün də bilirsən.

– Nəhayət ki, – mən dedim, – sən də ağıllı bir söz söylədin.

– Sən tamaşaçılardan qorxursan, düz demirəmmi?

– Hə, amma bu səhnəyə çıxmaq qorxusu deyil. Mən səhnədə axmaq kimi görünməkdən qorxuram. Axı onlar mənim öz poxumu necə yediyimə tamaşa etməyi xoşlayırlar. Lakin bütün bunlar mənə evimin işıq pulunu ödəməyə yardım edir və məni at yarışlarına götürür. Bunu nə üçün etdiyimə bəraət qazandırmaq fikrində deyiləm.

– Mən özüm üçün "Neştər" sifariş edəcəm, – Temmi dedi.

Ofisiant qıza bizim üçün "Neştər" və "Tumurcuq"[7] gətirməsini sifariş etdim.

– Bu gecə mənimlə heç bir problem olmayacaq, – Temmi dedi, – mənim üçün narahat olma.

[7]İçki adlarıdır

Temmi “Neştər” i bir nəfəsə içdi.

– Bu “Neştər”in içində, deyəsən, heç nə yoxdur. Mən birini də sifariş edəcəm.

Biz hərəyə bir-bir də “Neştər” və “Tumurcuq” içdik.

– Həqiqətən, – o dedi, – mənə elə gəlir ki, bu içkilərin içinə onlar heç nə qoymurlar. Yaxşısı budur mən birini də içim.

Temmi 40 dəqiqə ərzində beş qədəh “Neştər” içdi.

Biz “Smak-Hay” klubunun arxa qapısını döydük. Martinin yekəpər cangüdənlərindən birisi qapını açaraq bizi içəri buraxdı. Marti qalxanvarı vəzi düzgün işləməyən belə yekəpərləri işə götürürdü ki, hippi qızlar, uzunsaçlı gicbəsərlər, kley iyləyənlər, narkomanlar, otçəkən camaat, əyyaşlar, yəni bütün bu miskinlər, lənətə gəlmişlər, həyatından bezmişlər və riyakarlar özlərindən çıxanda, klubda qayda-qanunu bərpa etsinlər. Mən artıq qusmağa hazır idim və qusdum da. Bu dəfə bir zibil qabı tapa bildim və onun içinə qaytardım. Axırıncı dəfə mən bütün mədəmi Martinin ofisinin qabağına boşaltmışdım. Bu dəfəki dəyişiklikdən o bir xeyli məmnun qalmışdı.

67

– Nəsə içmək istəyirsən? – Marti məndən soruşdu.

– Pivə içərəm, –mən cavab verdim.

– Mən isə “Neştər” istəyirəm, – Temmi dedi.

– Ona oturması üçün bir yer tap və kredit hesabı aç, – mən Martiyə dedim.

– Yaxşı, ona bir yer taparıq. Bircə ayaq üstə durmaq üçün yerlərimiz qalıb. Təxminən yüz əlli nəfəri geri qaytarmalı olduq və bu sənin səhnəyə çıxmağından cəmi 30 dəqiqə əvvəl baş verib.

– Mən Çinaskini tamaşaçılara təqdim eləmək istəyirəm, – Temmi dedi.

– Sən etiraz eləmirsən ki? – Marti məndən soruşdu.

– Yox.

Bu klubda Dinnki Sammerz adında cavan bir uşaq öz gitarası ilə çıxış edir, tamaşaçılar da sıxıb onun suyunu çıxarırlar. Səkkiz il bundan əvvəl, Dinki qızıl disk mükafatı almışdı, amma ondan sonra isə heç nə.

Marti daxili telefonun dəstəyini qaldırdı və bir nömrə yığdı.

– Bura bax, – o dedi, – o adam, oxuduğu kimi, özü də zibildirmi?

Xəttin o biri ucundakı qadının səsi dəstəkdən eşidilirdi:

– O qorxuncdur.

Marti dəstəyi asdı.

– Biz Çinaskini istəyirik! – zaldakı tamaşaçıların bağırtıları eşidildi.

– Yaxşı, – Dinkinin dediyini eşitdik, – səhnəyə məndən sonra Çinaski çıxacaq.

O yenə oxumağa başladı. Tamaşaçılar sərxoşdular. Onlar qışqır-bağır salır və fit çalırdılar. Dinki isə mahnısını oxumağa davam edirdi. O öz mahnısını bitirdi və səhnədən getdi. Heç vaxt qabaqcadan bilmək olmur. Bəzi günlər evdən çıxmayaraq yataqda qalmaq və yorğanı başına çəkmək daha yaxşı olur.

Qapı döyüldü. Gələn Dinki idi, ayağında qırmızı, ağ və mavi rəngli tennis ayaqqabıları, əynində ağ qısaqollu köynək, başında isə qaytanlı fetr şlyapa. Şlyapa onun sarışın

saçlarının üstündən sürüşərək yana əyilmişdi. Qısaqollu köynəyinin üstündə isə belə yazılmışdı: “Allah Sevgidir.”

Dinki bizə baxdı.

– Mən mahnını doğrudanmı pis ifa elədim? Düzünü bilmək istəyirəm. Həqiqətənmi mən belə pis ifa elədim?

Heç kim onun sualına cavab vermədi.

Bu dəfə Dinki mənə baxdı.

– Henk, mahnını doğurdanmı pis ifa elədim?

– Kütlə tamamilə sərxoşdur. Karnaval vaxtıdır axı.

– Mən bilmək istəyirəm. Həqiqətənmi mən mahnını pis ifa elədim?

– Yaxşısı budur bir az içəsən.

– Mən hələ öz rəfiqəmi tapmalıyam, – Dinki dedi. – O hardasa oralarda yalqız qalıb.

– Bura bax, – mən dedim, – gəlin bu işi bitirək.

– Əla, – Marti dedi, – səhnəyə çıx və başla.

– Onu mən təqdim edəcəm, – Temmi dilləndi.

Mən səhnəyə Temmi ilə birlikdə çıxdım. Biz səhnəyə yaxınlaşanda, onlar bizi görüb qışqırmağa, söyüş söyməyə başladırlar. Stolun üstündəki içki şüşələri yerə tökülməyə

başladı. Hətta zalda ilk döyüş də oldu. Poçt idarəsindəki həmkarlarım heç vaxt buna inanmazdılar.

Temmi səhnəyə çıxıb mikrofona yaxınlaşdı.

– Xanımlar və cənablar, – o dedi, – Henri Çinaski bu gün gələ bilmədi...

Hər tərəfə sükut çökdü.

Sonra Temmi əlavə etdi:

– Xanımlar və cənablar, Henri Çinaski!

Mən səhnəyə çıxdım. Onlar qulaq batıran səs-küy qaldırdılar. Mən hələ heç nə etməmişdim. Mikrofonu götürdüm.

– Salam, mən Henri Çinaskiyəm...

Tamaşaçıların səs-küyündən bütün zal silkələndi. Mənim nəsə etməyimə heç bir ehtiyac yox idi. Onlar özləri lazım olan hər şeyi edəcəkdilər. Bununla belə, ehtiyatlı davranmaq lazım idi. Onlar nə qədər sərxoş olsalar da, istənilən qeyri-səmimi hərəkəti və ya sözü o dəqiqə anlayacaqdılar. Tamaşaçı kütləsini heç vaxt lazımi şəkildə qiymətləndirməmək olmaz. Onlar bura gələ bilmək üçün pul ödəmişdilər; öz içkiləri üçün pul ödəmişdilər; onlar nəsə

əldə etmək niyyətindədirlər və əgər sən onların gözlədikləri şeyi onlara verməsən, onlar səni kürüyüb düz okeana ata bilərdilər.

Səhnədə bir soyuducu da vardı. Mən onun qapısını açdım. Orada təxminən 40 şüşə pivə olardı. Mən əlimi uzadıb bir şüşə götürdüm, qapağını buraraq açdım və bir udum aldım. Bu içkiyə mənim çox ehtiyacım vardı.

Birdən düz mənim qabağımda oturmuş adam qışqırdı:

– Ey, Çinaski, biz bu içkilər üçün pul veririk!

Qışqıran ön cərgədə oturmuş, əyninə poçtalyon forması geyinmiş kök kişi idi.

Mən soyuducunu açıb bir şüşə də pivə götürdüm və yaxınlaşıb pivə şüşəsini ona verdim. Sonra geri qayıtdım. Soyuducunun içindən daha bir neçə pivə şüşəsi çıxardım və ön cərgədə oturan tamaşaçılara payladım.

– Ey, bəs biz, bizi unutmusan nədi? – arxa sıralardan kimsə qışqırdı.

Mən soyuducudan bir şüşə də çıxardım və onu zalın dərinliyindəki qaranlığa sarı atdım. Sonra daha bir neçə pivə şüşəsini tamaşaçılara tərəf tolazladım. Əla tamaşaçılar

gəlmişdilər, onlar havaya atdığım bütün pivə şüşələrini göydə tutmuşdular. Sonra şüşələrdən biri əlimdən çıxaraq havaya qalxdı. Onun yerə çaxalaraq necə çilik-çilik olduğunu eşitdim. Mən buna son vermək qərarına gəldim. Onlardan birisinin məni məhkəməyə verdiyini təsəvvür edirdim: beyin kəllə travması almış tamaşaçı.

Soyuducuda cəmi 20 şüşə pivə qalmışdı.

– Hə, bu qalanlar da mənim olsun!

– Siz bütün gecəni qiraət etmək niyyətindəsiniz?

– Yox, bütün gecəni içmək fikrindəyəm...

Sürəkli alqışlar, gülüşmələr və gəyirmələr...

– AY SƏNİ SİKİLMİŞ İRİ POX PARÇASI! – Tamaşaçılardan kimsə ucadan bağırdı.

– Çox sağ olun, Tilli xala, – deyərək cavab verdim.

Mən yerimə oturdum, mikrofonu düzəltdim və ilk şeirin qiraətinə başladım. Zalda sakitlik yarandı. İndi mən arenada öküzlə təkbətək qalmışdım. İçimdə qorxu hissi vardı. Amma şeirləri mən yazmışdım, elə mən də onları ucadan oxuyurdum axı. Qiraətə ən yaxşısı yüngül, ya da məzəli bir şeirlə başlamaq idi. Şeiri bitirəndə, zal elə coşdu

ki divarlar tərpəndi. Alqışlar zamanı dörd-beş nəfər dava edirdilər. Mənim bəxtim gətirməliydi. Bu anda mənim öhdəmdə yalnız bir şey vardı: səhnənin yaratdığı gərginliyə dözmək.

Onları heçə saymaq olmaz, amma onların götünə də girmək lazım deyil. Bu ikisinin arasında bir mövqe tutmaq lazım idi.

Mən bir neçə şeir də oxudum, bir az pivə içdim və nəhayət dəmləşdim. Artıq sözləri düzgün oxumaqda çətinlik çəkirdim, misraları ötürürdüm və şeir yazılmış vərəqləri əlimdən yerə salırdım. Sonra ümumiyyətlə şeir oxumağı dayandırdım və sadəcə, səhnədə oturub pivə içməyə başladım.

– Hə, bu lap əladır, – mən onlara dedim, – siz pul ödəmisiniz ki, mənim necə kefləndiyimə tamaşa edəsiniz.

Amma bir qədər səy göstərib bir neçə şeir də oxudum. Nəhayət bir neçə dənə də ədəbsiz şer oxuyandan sonra, qiraəti bitirdim.

– Hə, bu qədər yetər, – mən dedim.

Onlar qışqır-bağır salaraq yenə məndən şeir oxumamı tələb etdilər.

Sallaqxanadakı uşaqlar, “Searz Roubak”dan olan uşaqlar, mənim uşaq ikən, elə böyük vaxtımda da işlədiyim bütün ambarların işçiləri bu gün baş verənlərə heç vaxt inanmazdılar.

Ofisdə bizi daha çox içki və bir neçə marixuana doldurulmuş siqaret gözləyirdi. Marti daxili telefonla zəng edib yığılan məbləğ haqqında maraqlandı.

Temmi gözlərini Martiyə zilləmişdi.

– Sən mənim xoşuma gəlmirsən, – o dedi, – sənin gözlərin də heç xoşuma gəlmir.

– Onun gözləri qoy səni narahat eləməsin, – mən ona dedim, – gəl pullarımızı da götürüb burdan sürüşək.

Martı bir çek yazıb mənə verdi.

– Buyur, – o dedi, – 200 dollar...

– 200 dollar! – Temmi ona ucadan bağırdı. – Ay səni çürük sürtük balası!

Mən çekdə yazılanları oxudum.

– O zarafat edir, – mən Temmini sakitləşdirməyə çalışdım, – sakitləş.

Temmi mənə məhəl qoymadı.

– 200 dollar! – Temmi Martiyə dedi, – səni murdar...

– Temmi, – mən dedim, – burada 400 dollar yazılıb...

– Çekə imza at, Marti dedi, – və mən sənə nağd pul verəcəyəm.

– Mən orda əməlli başlı dəmləşmişdim, – Temmi mənə dedi. Oradakı oğlandan soruşdum: "Öz bədənimi sizin bədəninizə söykətsəm, etiraz etməzsiniz ki?" O da deyir: "Yaxşı."

Çeki imzaladım və Marti mənə bir dəstə nağd pul verdi. Mən də onları cibimə basdım.

– Bura bax, Marti, məncə biz burdan getsək yaxşıdı.

– Sənin gözlərinə nifrət edirəm, – Temmi Martidən heç cür əl çəkmək istəmirdi.

– Bəlkə bir az da qalasan bir balaca dərdləşək? – deyə Marti məndən soruşdu.

– Yox, biz getməliyik.

Temmi ayağa qalxdı.

– Mən qadınlar otağına getməliyəm.

Və getdi.

Marti ilə mən orada oturmuşduq. Təxminən on dəqiqə keçdi. Marti yerindən qalxdı və dedi:

– Burda gözlə indi gəlirəm.

Mən orada oturub gözləyirdim, 5 dəqiqə, 10 dəqiqə. Sonra ofisdən və arxa qapıdan keçərək küçəyə çıxdım. Ordan da maşın dayancağına getdim və "Folkvagen"imin içinə girib oturdum. On beş dəqiqə keçdi, sonra 20, 25.

Onu beş dəqiqə də gözləyəcəm, əgər gəlməsə çıxıb gedəcəm, deyə düşündüm.

Elə həmin an Marti ilə Temmi arxa qapıdan keçərək küçəyə çıxdılar.

Marti məni ona göstərib dedi:

– Bax o oradadır.

Temmi mənə yaxınlaşdı. Onun əynindəki paltarlar it günündəydi, tamam qırışmışdı. O, maşına arxa qapıdan mindi və bir küncdə büzüşərək oturdu.

Şosse ilə gedərkən, mən bir neçə dəfə yolumu azdım. Nəhayət, öz həyətimin önündə maşını bir kənara verib

saxladım. Temmini oyatdım. O, maşından düşdü, pilləkənlər ilə yuxarı qaçaraq öz evinə girdi və qapını zərblə bağladı.

68

Çərşənbə günü gecə saat 00:30 olardı. Özümü çox pis hiss edirdim. Qarnım bərk ağrısa da, içimdə bir neçə şüşə pivəni saxlaya bilmişdim. Temmi də mənim yanımda idi və deyəsən, mənə ürəyi yanırdı. Densini öz anasının yanına qoymuşdu.

Xəstə olmağıma baxmayaraq, deyəsən, həyatımda, nəhayət, yaxşı vaxtlar başlamışdı – sadəcə, iki adam birlikdə idilər.

Kimsə qapımı döydü. Gedib qapını açdım – Temminin qardaşı Cey balaca puertorikalı Filbert adlı bir gənc ilə birlikdə gəlmişdilər. Onlar içəri keçib oturdular. Onları pivəyə qonaq etdim.

– Gəlin pornoqrafik bir filmə baxaq, – Cey dedi.

Filbert isə dinməzcə oturmuşdu. Onun diqqət və səliqə ilə vurulmuş qara bığları vardı, üzündə isə demək olar ki,

heç bir ifadə yox idi. Ondan ətrafa heç nə saçılmırdı. Mənim ağlıma boş, taxta, ölü və sair bu kimi təyinedici terminlər gəldi.

– Sən nə üçün ağzına su alıb oturmusan, Filbert? – deyə Temmi ondan soruşdu.

O heç dodağını belə tərpətmədi.

Mən yerimdən qalxdım və mətbəxdəki çanağa yaxınlaşaraq onun içinə qusdum. Sonra geri qayıdıb yenə öz yerimə oturdum. Özümə yeni bir pivə şüşəsi açdım. Pivənin mədəmdə qalmaq istəmədiyi anlardan zəhləm gedirdi. Mən, sadəcə, aramsız olaraq neçə gün və neçə gecə idi ki, elə hey sərxoşluq edirdim. Bir balaca istirahətə ehtiyacım vardı və bir də pivə içməyə. Sadəcə, pivə. Yoxsa elə düşünmək olar ki, mən daha pivəni də mədəmdə saxlaya bilmirəm. Şüşədən böyük bir udum aldım.

Pivə içimdə özünə yer tapa bilmirdi, bayıra çıxmaq istəyirdi. Vanna otağına getdim. Temmi gəlib qapını döydü:

– Henk, hər şey qaydasındadırmı?

Mən ağzımı yaxaladım və qapını açdım.

– Sadəcə, xəstələnmişəm, vəssalam.

– Onları burdan rədd eləməyimi istəyirsənmi?

– Hə, yaxşı olardı.

Temmi oğlanların yanına qayıtdı.

– Bura baxın, uşaqlar, biz niyə mənim evimə getmirik axı?

Mən ondan bunu gözləmirdim.

Temmi, deyəsən, işıq pulu ödəməyi yaddan çıxarmışdı, ya da ödəmək istəmirdi, bilmirəm, amma onlar yuxarı qalxıb şam işığında oturmuşdular. Temmi mənim həmin gün onunla birlikdə gəzişərkən aldığım bir kvinta qarışdırılmış "marqarita" kokteylini də özü ilə yuxarı aparmışdı.

Mən evdə oturub təkbaşına içirdim. Növbəti pivəni mədəmdə saxlamağa müyəssər oldum.

Onların yuxarıdakı söhbətini eşidə bilirdim.

Bir qədər sonra Temminin qardaşı çıxıb getdi. Mən onun ay işığında öz maşınına tərəf getdiyini müşahidə etdim....

İndi Temmi ilə Filbert yuxarıda şam işığında yalnız qalmışdılar.

Mən isə işıqları yandırmadan oturub içirdim. Təxminən bir saat keçdi. Hələ qaranlıqda titrəyən şam işığını görə bilirdim. Dönüb ətrafa baxdım, Temmi öz ayaqqabılarını mənim evimdə unutmuşdu. Mən onları da götürüb pilləkənlərlə qalxdım. Onun qapısı açıq olduğundan mən onun Filbertə dediklərini eşitdim...

– Nə olursa, olsun mənim demək istədiyim bax...

O mənim pilləkənlər ilə yuxarı qalxdığımı eşitdi.

– Henri bu sənsən?

Pilləkənlərin qalan hissəsindən Temminin ayaqqabılarını yuxarı tolazladım. Onlar düz qapının önünə düşdülər.

– Sən öz ayaqqabılarını unutmusan, – dedim.

– Ah, Allah səndən razı olsun, – deyə o cavab verdi.

Ertəsi gün səhər təxminən saat 10:30-da Temmi mənim qapımı döydü. Qapını açdım.

– Ay səni lənətə gəlmiş çürük sürtük.

– Mənimlə belə danışma, – o dedi.

– Pivə istəyirsənmi?

– Hə, pis olmaz.

O içəri keçib oturdu.

– Böyük iş olub bəyəm? Biz bir şüşə “marqarita” içdik. Sonra da mənim qardaşım çıxıb getdi. Filbert özünü çox yaxşı aparırdı. O dinməzcə oturmuşdu, demək olar ki, heç ağzını açıb bir kəlmə belə söyləmədi. “Evə necə getməyi düşünürsən?” – deyə ondan soruşdum, – “Sənin maşının varmı?” O da cavab verdi ki, yox. O dinməzcə oturub matdım-matdım mənə baxırdı və mən də dedim: “Amma mənim maşınım var və səni evinə mən apara bilərəm”. Və onu evinə apardım. Necə oldusa, daha onun evinəcən gəldiyimə görə onunla birlikdə yatağa girdim. Mən əməlli-başlı sərxoş olsam da, o mənə heç barmağını da toxundurmadı. Mənə dedi ki, səhər tezdən işə getməlidir, – Temmi güldü. – Gecə yarısından sonra bir neçə dəfə mənə yaxınlaşmağa cəhdlər elədi, amma mən yastığı başımın üstünə çəkib gülməyə başlayırdım. Başımı yastığın altında gizlədib elə hey gülür, uğunub gedirdim. Sonra o bezərək məndən əl çəkdi. O işə gedəndən sonra mən maşınıma oturub anamgilə getdim və Densini oardan götürüb məktəbə apardım. Və indi də bax mən artıq burdayam...

Ertəsi gün Temmi yenə şəhvət oyadan həblər qəbul eləmişdi. O aramsız olaraq gah mənim mənzilimə girir, gah da qaçaraq bayıra çıxırdı. Nəhayət ki, mənə dedi:

– Mən bu gecə sənin yanına qayıdacağam. Bu gecə görüşərik!

– Bu gecəni unuda bilərsən, bu gecə olmaz.

– Sənə nə olub axı? Çoxları bu gecə məni öz yanlarında görmək istəyərdi, çoxları məni bu gecə görməkdən xoşbəxt olardı.

Temmi qapını çırparaq çıxıb getdi. Mənim artırmamda hamilə bir pişik yatırdı.

– Cəhənnəm ol burdan, Kürən!

Mən hamilə pişiyi götürüb onun arxasınca tolazladım, amma hədəfimdən bir fut yayındım və pişik yaxınlıqdakı kolluğa düşdü.

Növbəti axşam Temmi spid həbləri qəbul eləmişdi. Mən isə sərxoş idim. Temmi ilə Densi yuxarıdakı pəncərədən mənə qışqırırdılar:

– Get öz kəfləməni ye, göt!

– Hə, get öz kəfləməni ye, göt! HA-HA-HA!

– Bəs məmələr! – deyə mən cavab verdim, – sənin ananın böyük sallaq məmələri!

– Get siçovul poxu ye, səni göt oğlu, göt!

– Sən götsən, sən götsən, sən götsən! HA-HA-HA!

– Milçək beyinlilər, – mən cavab verdim, – mənim göbəyimə yığılmış zibili əmin!

– Sən... – deyə Temmi başlamışdı ki, birdən yaxınlıqda silah atəşlərinin səsləri eişidildi. Səslər ya küçədən, ya məhəllənin arxasından, ya da qonşuluqdakı mənzilin arxasından gəlirdi. Çox yaxından. Bura kasıblar yaşayan məhəllə olduğundan, burada fahişələr qaynaşır, narkotik maddələr satılır və ara-sıra qətllər də törədilirdi.

Densi pəncərədən bağırmağa başladı:

– HENK! HENK! YUXARI, YANIMIZA QALX, HENK! HENK! HENK! HENK! TEZ OL TƏLƏS, HENK!

Mən qaça-qaça yuxarı qalxdım. Temmi yatağa yayılaraq uzanmışdı, onun möhtəşəm kürən saçları yastığın üstünə dağılmışdı. İçəri girəndə, o məni gördü.

– Məni vurdular, – Temmi zəif bir səslə dedi. – Məni vurdular.

Temmi barmağı ilə cins şalvarındakı ləkəni mənə göstərdi. Deyəsən, o zarafat eləmirdi. O, deyəsən, bərk qorxmuşdu.

Onun şalvarında qırmızı ləkə vardı, amma ləkə quru idi. Mənim boyalarımdan istifadə etmək Temminin çox xoşuna gəlirdi. Mən əlimi aşağı uzadıb quru ləkəyə toxundum. Həbləri nəzərə almasaq, hər şey qaydasında görünürdü.

– Bura bax, – mən ona dedim, – sən salamatsan, narahat olacaq bir şey yoxdur...

Mən aşağı enərkən pilləkənlərlə ləhləyə-ləhləyə qalxan Bobbi ilə rastlaşdım.

– Temmi, Temmi, nə baş verib? Sən yaxşısanmı?

Onun gecikdiyi vaxtı nəzərə alsaq, belə çıxır ki, Bobbi əyninə paltar geyinməli olub.

O tullana-tullana mənim yanımdan keçəndə, mən macal tapıb ona dedim:

– İsah Məsih eşqinə, adamım, sən hər zaman mənim həyatıma müdaxilə edirsən.

O qaçaraq Temminin mənzilinə girdi. Arxasınca isə köhnə avtobil satıcısı və tanınmış psix olan qonşu mənzildəki oğlan mənzilə daxil oldu.

Bir neçə gün sonra Temmi əlində bir zərf ilə mənim mənzilimə gəldi.

– Henk, işlər müdiri qadın elə indicə mənə evdən çıxarılmağım haqqında bildirişi gətirdi.

Temmi zərfi mənə göstərdi.

Mən yazılanları diqqətlə oxudum.

– Belə başa düşdüm ki, onlar zarafat eləmirlər, – mən ona dedim.

– Mən o qadına dedim ki, mənzilin kirayəsi ilə bağlı bütün borclarımı ödəyəcəyəm. Amma cavabında o mənə yalnız bunu söylədi: “Biz sənin burada yaşamağını istəmirik, Temmi!”

– Kirayə haqqını uzun müddət ödəməmək olmaz.

– Bura bax, mənim pulum var. Mənim, sadəcə, pul ödəməkdən xoşum gəlmir.

Temmi öz üsulları ilə hər şeyə zidd gedirdi. Onun maşını qeydiyyata salınmamışdı, maşınının nömrə nişanının

etibarlılıq müddəti çoxdan bitmişdi və o öz avtomobilini sürücülük vəsiqəsi olmadan idarə edirdi. O öz avtomobilini günlərlə sarı zonalarda, qırmızı zonalarda, ağ zonalarda, ehtiyatda saxlanmış avtomobil duracaqlarında atıb gedərdi. Sərxoş və ya hallı vəziyyətdə, ya da şəxsiyyəti təsdiq edən sənədi üstündə olmayan vaxtlarda polis onu saxlayanda, o polislərlə söhbətə girişər, onlar da həmişə onu buraxardılar. Dayanacağın qadağan olduğu yerlərdə maşınını saxladığına görə yazılan qəbzlərini həmişə cırıb atardı.

– Mən mənzilin sahibinin telefon nömrəsini tapacam (Bizim ev sahibimiz yanımıza nadir hallarda gələrdi). Onlar məni buradan özbaşlarına çıxarıb küçəyə ata bilməzlər. Səndə onun telefon nömrəsi varmı?

– Yox.

Elə bu dəmdə, həm fahişəxana saxlayan, həm də yerli masaj salonunda qoluzorlu kimi çalışan İrv yanımızdan keçdi. İrvin boyu 6 fut 3 düym olardı və o müntəzəm olaraq anobolik həblər qəbul edirdi. Onun beyni də küçədə ilk qarşınıza çıxacaq 3000 adamın beynindən daha yaxşı işləyirdi.

Temmi küçəyə qaçdı.

– İrv! İrv!

O dayanaraq geri çevrildi. Temmi özünü iri döşləri ilə birlikdə onun üstünə atdı.

– İrv, səndə ev sahibimizin telefon nömrəsi varmı?

– Yox, məndə onun nömrəsi yoxdur.

– İrv, mənə ev sahibimizin telefon nömrəsi lazımdır. Onun telefon nömrəsini mənə ver, mən də əvəzində sənin şeyini sorum.

– Onun telefon nömrəsi məndə yoxdur.

O öz qapısına yaxınlaşdı və açarı çıxarıb kilidə saldı.

– Bəsdi naz elədin, İrv, əgər ev sahibimizin telefon nömrəsini mənə desən, sənin şeyini çalaram!

– Sən bunu ciddi deyirsən? – o, Temiyə baxaraq tərəddüdlə soruşdu.

Sonra qapını açdı, içəri daxil oldu və qapını bağladı.

Temmi başqa bir qapıya tərəf qaçdı və onu döyəcləməyə başladı. Riçard zənciri çıxarmadan qapını ehtiyatla araladı. Onun başı daz idi, tək-tənha yaşayırdı, dindar idi, təxminən 45 yaşı olardı və fasiləsiz olaraq

televizora baxırdı. Onun dərisi çəhrayı rəngə çalırdı və qadın kimi təmizkar idi. Daim mənim mənzilimdən gələn səs-küydən şikayətlənirdi – onun dediyinə görə, guya onu yatmağa qoymurmuşuq. Onun məndən lap zəhləsi gedirdi.

İndi də mənim qadınlarımdan birisi onun qapısına gəlmişdi. O da qapının zəncirini açmırdı.

– Sənə nə lazımdır, – deyə o fısıldadı.

– Qulaq as, körpəm, mənə ev sahibimizin telefon nömrəsi lazımdır... Uzun illərdir ki, sən burada yaşayırsan. Mən dəqiq bilirəm ki, səndə onun telefon nömrəsi var. Mənə onun nömrəsi lazımdır.

– Çıx get burdan, – o mırıldandı.

– Qulaq as, körpəm, sənə borclu qalmaram... Bir öpüş, sənin üçün gözəl və böyük bir öpüş!

– Gəzəyən qadın! – dedi. – Zinakar qadın!

Riçard zərblə qapını çırparaq bağladı.

Temmi mənim mənzilimə gəldi.

– Henk?

– Hə, nədi?

– Zinakar qadın nə deməkdir? Davakar qadının nə olduğunu bilirəm, bəs zinakar qadın nə deməkdir?

– Zinakar qadın, mənim əzizim, fahişə anlamına gəlir.

– Ah, onun anasını, pozğun qancıq balası.

Temmi mənim mənzilimdən çıxdı və başqa qonşuların qapılarını döyəcləməyə davam etdi. Ya onlardan heç kim evdə yox idi, ya da qapını Temmiyə açmaq istəmirdilər. Temmi geri qayıtdı.

– Bu adil deyil! Onlar nə üçün məni mənzilimdən küçəyə atmaq istəyirlər axı? Mən onlara nə pislik eləmişəm axı?

– Mən bilmirəm. Yadına sal, xatırlamağa çalış. Bəlkə də nəsə eləmisən.

– Heç nə xatırlaya bilmirəm.

– İstiyirsən, mənim mənzilimə köç.

– Sən uşağa səbr edə bilməzsən.

– Hə, düz deyirsən.

Günlər keçirdi. Ev sahibi gözümüzə dəymirdi, onun, ümumiyyətlə, kirayənişinlər ilə iş görməkdən zəhləsi gedirdi. Mənzildən çıxarılma haqqında bildirişin arxasında

işlər müdiri dayanırdı. Hətta Bobbi də az-az görünürdü, televizorun önündə yemək yeyir, öz nəşəsini çəkir və stereo musiqiyə qulaq asırdı.

– Ey, dostum, – o mənə dedi, – sənin o qoca matışkən mənim heç xoşuma da gəlmir. O sürtük bizim dostluğumuzu məhv eləyir, dostum!

– Bax bun düz dedin, Bobbi...

Mən maşına minib marketə getdim və oradan bir neçə boş karton karobka götürdüm. Həmin vaxt Temminin Denverdə yaşayan bacısı Keti – sevgilisi onun atdığına görə – ağlını itirmək həddinə gəlmişdi və Temmi Densini də özü ilə götürərək onun görüşünə getməli oldu. Mən onları maşınımla vağzala aparıb qatara mindirdim.

69

Həmin axşam telefonum zəng çaldı. Zəng vuran Mersedes idi. Venesiya Çimərliyində bədii qiraətlə çıxış edəndən sonra onunla tanış olmuşduq. Onun təxminən 28 yaşı olardı, çox gözəl baldırları vardı, boyu təxmin 5 fut 5

düym olan sarışın bir qız idi. Mavi gözlü sarışın qız. Uzun, bir qədər də dalğalı saçları vardı. Durmadan siqaret çəkirdi. Onun söhbətləri bezdirici idi. Əksərən ucadan və çox vaxt da qeyri-səmimi şəkildə gülürdü.

Bədii qiraətdən sonra onun evinə getmişdim. O sahildəki taxta səkinin yaxınlığındakı bir mənzildə yaşayırdı. Mən pianoda, o isə bonqo barabanlarında çalmışdıq. Onun evində bir küp "Qırmızı Dağ" şərabı və çoxlu marixuana vardı. Oradan çıxıb harasa getmək üçün mən həddən artıq içki içmişdim. Ona görə də həmin gecəni onun evində qalmalı olmuş və yalnız səhər oranı tərk eləmişdim.

– Bura bax, – Mersedes dedi, – İndi mən düz sənin qonşuluğunda işləyirəm. Düşündüm ki, bəlkə sənin yanına gəlim görüşək.

– Yaxşı olar.

Mən dəstəyi asdım. Telefon yenə zəng çaldı. Bu dəfə zəng vuran Temmi idi.

– Mənə bax, mən mənzildən köçmək qərarına gəlmişəm. Bir-iki gündən sonra evdə olacam. Mənzilimdən

bircə sənin xoşuna gələn o sarı donumu və bir də yaşıl tuflilərimi götür. Qalan şeylərə dəymə, onlar hamısı zibildir. Qoy elə orda qalsınlar.

– Yaxşı.

– Mənə bax, tamam pulsuzlaşmışam. Bizim ərzaq üçün belə pulumuz qalmayıb.

– Sabah səhər sənə "Üestern Uinion" ilə 40 dollar göndərərəm.

– Sən necə də şirinsən...

Mən dəstəyi asdım. Təxminən on beş dəqiqə sonra Mersedes gəlib məni tapmışdı. O çox qısa ətək geyinmişdi, ayağında səndəllər və əynində isə sinəsində dərin yarıqlı mavi köynək vardı. Qulaqlarına xırda mavi sırğalar taxmışdı.

– Bir az ot çəkmək istəyirsən?

– Əlbəttə.

O, çantasından bir az ot, bir parça da kağız çıxardı və papiros eşməyə başladı. Mən isə bir neçə şüşə pivə çıxardım. Biz divanda oturub nəşə çəkə-çəkə pivə işməyə başladıq.

Biz elə də çox söhbət eləmirdik. Onun qıçlarını əlləşdirirdim. Uzun bir zaman beləcə nəşə çəkə-çəkə pivə içdik.

Nəhayət, soyunub yatağa girdik. Əvvəlcə Mersedes, sonra isə mən. Biz öpüşdükcə, mən həm də altdan onun amını ovuşdururdum. Birdən o, mənim sikimi qamarladı. Onun üstünə dırmaşdım. Mersedes isə mənim şeyimdən tutub onu lazım olan yerə istiqamətləndirdi. Onun amının yaxış tutma qabiliyyəti vardı, özü də damdar idi. Şeyimi demək olar ki, tamam çıxarıb yalnız başını içəri salıb çıxarmaqla mən bir müddət onunla məzələndim. Sonra şeyimi ona asta-asta tənbəl bir tərzdə dibinə qədər itələdim. Amma qəfildən çox sürətlə sikimi 4-5 dəfə dala-qabağa itələdim və mənim bu hərəkətlərimin intensivliyindən onun başı yastığın üstündə atılıb düşdü.

– Arrrrqqqq.... – səs çıxararaq o pişik kimi mırıldadı. Sonra mən gərginliyi bir qədər azaldaraq aramla dala-qabağa vurmağa başladım.

Həmin gecə hava çox isti idi və hər ikimiz də bərk tərləmişdik. Mersedes pivənin və nəşənin təsirindən bir xeyli

dəmləşmişdi. Mən onun işini gözəl bir imza quyruğu ilə bitirmək qərarına gəlmişdim. Ona bir-iki fokus göstərməklə.

Mən dayanmadan nasos porşeni kimi işləyirdim. Beş dəqiqə. Daha on dəqiqə. Heç cür qurtara bilmirdim. Mən yavaş-yavaş iqtidarsızlaşmağa başladım. Şeyim getdikcə daha da yumşalırdı.

Mersedes bunu hiss edib narahat oldu.

– Hə, durma davam elə! – deyə o tələb etdi. – Ah, durma, balacam, davam elə!

Bütün bu təşviqlərin heç bir köməyi olmadı. Mən sürüşüb onun üstündən düşdüm.

Dözülməz dərəcədə isti bir gecə idi. Mələfəni götürüb üz-gözümün, bədənimin tərini sildim. Yenidən yatağa uzananda, ürəyimin çırpıntılarını qulaqlarımda eşidə bilirdim. Ürək döyüntülərimin səsi çox qəmgin idi. Mənim üçün maraqlıydı ki, görəsən, Mersedes nə düşünürdü?!

Mən ölüvay durumda yataqda uzanmışdım. Şeyim də tamam boşalmış vəziyyətdə.

Mersedes başını mənə tərəf çevirdi. Mən onu öpdüm. Öpüşmək sikişməkdən daha məhrəm bir davranışdır. Ona

görə də mənim qadınlarımın ətrafda gəzərək kişiləri öpmələrindən heç vaxt xoşum gəlməyib. Bunun əvəzinə onlarla sikişsəydilər, bu mənə daha az təsir edərdi.

Mən Mersedesi öpməyə davam edirdim. Öpüşə mənim artıq qeyd etdiyim xüsusi münasibətim olduğundan şeyim yenidən canlandı. Vaxt itirmədən öpməyə davam edərək yenə onun üstünə dırmaşdım. Onu elə öpürdüm, elə bil bu mənim yer üzündəki son saatım idi.

Sikim yağ sürtülmüş kimi sürüşərək içəri girdi.

Dəqiq bilirdim ki, bu dəfə məndə hər şey alınacaq. Mən bu möcüzəni artıq hiss edə də bilirdim. Məqsədim bu qancığın düz amının içinə qurtarmaq idi. Mən öz şirəmin hamısını düz onun içinə tökəcəkdim. Bunun qarşısını almaq üçün artıq onun əlindən gələ biləcək bir şey qalmamışdı.

O mənə məxsus idi. Mən isə istilaçı orduydum, mən təcavüzkardım, mən onun ağasıydım, mən ölümün özü idim.

O çarəsiz idi. Başı ora-bura yırğalanırdı, altımda inildədikcə məndən yapışır və ağzını açaraq hava udmağa çalşırdı....

– Arrrrqqq, uuuggg, oh oh... oooofff... oooooh!

Bu iniltilər mənim sikimi qidalandırır, ona daha da güc verirdi.

Məndən qəribə bir səs çıxdı və sonra mən qurtardım.

Beş dəqiqə sonra Mersedes artıq xoruldayırdı. Biz ikimiz də xoruldayırdıq.

Ertəsi gün səhər duş qəbul edib geyindik.

– Səni səhər yeməyi üçün bir yerə aparacam, – mən dedim.

– Yaxşı, –Mersedes razılaşdı. – Hə, yeri gəlmişkən, dünən biz sənlə sikişdikmi?

– Aman Allahım! Sən heç nə xatırlamırsan? Biz, demək olar ki, 50 dəqiqə sikişmişik!

Mən buna inana bilmirdim. Mersedes də mənim söylədiklərimə inanmış kimi görünmürdü.

Biz döngənin arxasındakı yeməkxanaya getdik. Mən özüm üçün az bişmiş yumurta, bekon, qəhvə və qızardılmış buğda çörəyi sifariş etdim. Mersedes isə qaynar piroqlar, vetçina və qəhvə sifariş etdi.

Ofisiant qız bizim sifarişlərimizi gətirdi. Mən yumurtadan bir dişləm aldım. Mersedes öz qaynar piroqlarının üstünə sirop tökdü.

– Hə, sən düz deyirsən, – o dedi, – deyəsən, sən məni sikmisən. Sənin spermanın ayaqlarımdan aşağı necə axdığını hiss edə bilirəm.

Mən qərara gəldim ki, bir daha onunla görüşməyəcəm.

70

Karton qutularını da götürüb Temminin mənzilinə getdim. Əvvəlcə onun məndən xahiş etdiyi əşyaları götürdüm. Sonra başqa əşyaları tapdım – başqa donları, köynəkləri, ayaqqabıları, ütünü, saçqurudanı, Densinin paltarlarını, qab-qacaq və mətbəx ləvazimatlarını və birdə şəkil albomunu. Orada Temmiyə məxsus olan rotanqadan toxunmuş ağır bir kreslo da vardı. Mən bütün bu əşyaları götürüb öz mənzilimə daşıdım. Əşyaları mən səkkiz, ya da on qutuya ancaq doldura bildim. Qutuları ön otağın divarının yanına yığdım.

Ertəsi gün mən Temmi ilə Densini qarşılamaq üçün maşına minib qatar stansiyasına getdim.

– Sən çox yaxşı görünürsən, – Temmi dedi.

– Sağ ol, – ona təşəkkür etdim.

– Biz hələlik anamgildə yaşamaq qərarına gəlmişik. Biz birbaşa oraya da apara bilərsən. Bu evdən çıxarma ilə mübarizə etməyə daha qərarım qalmayıb. Bundan əlavə, istənilmədiyi yerdə kim qalar ki?

– Temmi mən sənin əşyalarının əksəriyyətini oradan köçürmüşəm. Əşyaları karton qutulara yığıb evimə qoymuşam.

– Yaxşı. Onları bir müddət sənin evində saxlasam olarmı?

– Əlbəttə.

Sonra Temminin anası qızını görmək üçün Denverə getdi. Mən də bu məqamdan istifadə edib onun yola çıxdığı axşam içib sərxoş olmaq üçün Temminin yanına tələsdim. Temmi də həblər atmışdı. Mən isə bir dənə də olsun həb atmadım. 6 pivəlik paketin dördüncü şüşəsinə çatanda, ona dedim:

– Temmi, mən başa düşə bilmirəm ki, sən Bobbidə nə tapmısan. O vecsizin birisidir.

Temmi bir ayağını o birisinin üstünə aşırdı. Sonra yuxarıdakı ayağını dala-qabağa yellətməyə başladı.

– O elə düşünür ki, onun boşboğazlığı heyranedicidir, – mən dedim.

Temmi ayağını dala-qabağa yellətməyə davam edirdi.

– Filmlər, televizor, ot, komiks kitabları, pornoqrafik şəkillər – onun yanacaq çənində olan şeylər bax bunlardır.

Temmi ayağını daha sürətlə yellətməyə başladı.

– Sən ona qarşı doğrudanmı laqeyd deyilsən?

O, ayağını dala-qabağa yellətməyə davam edirdi.

– Ay səni sikilmiş sürtük! – mən dedim.

Mən qapıya tərəf addımladım, arxamca bərk çırpdım və öz folksvagenimə mindim. Maşını gah bir tərəf, gah da o biri tərəfə yönəldərək yolda hərəkət edən maşınların arası ilə sürürdüm. Qısqacı və sürət qutusunu dağıdırdım.

Öz evimə çatandan sonra onun əşyaları ilə dolu olan qutuları maşına yığmağa başladım. Bundan başqa, onun

musiqi vallarını, odeyallarını və oyuncaqlarını da. Əlbəttə ki, folksvagenə çox şey yığmaq mümkün deyil.

Mən maşını sürətlə sürərək Temminin evinə qayıtdım. Ora çatanda maşını ikinci cərgədə saxladım və qırmızı xəbərdarlıq işıqlarını yandırdım. Qutuları maşından boşaltım və artırmaya yığdım. Odeyal və oyuncaqları da onların üstünə qoydum, qapının zəngini basdım və maşına oturub oradan uzaqlaşdım.

Yükün ikinci hissəsini gətirəndə, birinci yükü artıq oradan götürmüşdülər. Artırmada bu yükdən ikinci bir təpə düzəltdim, qapının zəngini basdım və maşına oturub oradan raket kimi sürətlə uzaqlaşdım.

Yükün üçüncü partiyasını gətirəndə, ikinci yük də artıq atırmada gözə dəymirdi. Artırmada bir dənə də təpə düzəltdim, qapının zəngini basdım və sonra yenə maşına oturub erkən səhər şəfəqinə tərəf qaçaraq oradan uzaqlaşdım.

Öz evimə çatandan sonra bir az araq ilə su içdim və onun əşyalarından evimdə qalan şeylərə baxdım. Ağır toxunmuş kreslo və ayaqlı saçqurudandan başqa heç nə

qalmamışdı. Mən oraya yalnız bir səfər edə bilərdim. Ona görə də ya kreslo, ya da saçqurudanı götürməliydim. Onların hər ikisi birlikdə maşına sığmazdı.

Mən toxunmuş kreslonu aparmaq qərarına gəldim. Səhər saat 4 olardı. Maşını öz evimin önündə ikinci cərgədə saxlayıb qırmızı xəbərdarlıq işıqlarını yandırmışdım. Araq ilə suyu içib bitirdim. Mən getdikcə daha çox dəmləşir və zəifləyirdim. Toxunmuş kreslonu, o, həqiqətən də çox ağır idi, qaldırdım və onu cığırla daşıyaraq maşının yanına gətirdim. Onu yerə qoydum və sürücünün yanındakı oturacağın qapısını açdım. Kreslonu bir təhər salona soxuşdurdum və sonra qapını bağlamağa çalışdım. Kreslo qapıdan çölə çıxırdı. Onu maşından çıxarmağa səy göstərdim. Çıxmaq istəmirdi, deyəsən, ilişmişdi. Hirsimdən söydüm və kreslonu bir az da içəri itələdim. Kreslonun bir ayağı ön şüşəni qıraraq bayıra çıxdı və səmaya tuşlandı. Qapı elə əvvəlki kimi bağlanmaq istəmirdi. Heç bağlanacağına da oxşamırdı. Kreslonun həmin ayağını ön şüşədən bir az da bayıra itələməyə cəhd elədim ki, bəlkə qapını bağlaya bilim. Onu heç yerindən belə tərpədə

bilmədim. Kreslo çox bərk ilişmişdi. Çıxarmağa çalışdım. Yenə onu yerindən tərpədə bilmədim. Ümidsiz bir şəkildə onu gah içəri itələyir, gah çölə dartır, gah içəri itələyir, gah da çölə dartırdım. Əgər həmin vaxt polis gəlib çıxsaydı mənim işim bitmişdi. Axır ki, taqətdən düşdüm. Sürücü tərəfdən birtəhər maşına mindim. Küçədə maşın saxlamaq üçün boş yer qalmamışdı. Maşını sürüb pizza verilən maşın dayanacağına gəldim, açıq qalmış qapı dala-qabağa yellənirdi. Maşını qapısı açıq, salonun işığı yanan vəziyyətdə orada qoydum (salonun işığını əllə söndürmək olmurdu). Ön şüşə sınmışdı və kreslonun ayağı oradan bayıra çıxaraq ayın işığına tərəf uzanırdı. Bütün bu səhnədən nalayiqlik və dəlilik saçırdı. Ondan qətl və sui-qəsd iyi gəlirdi. Mənim gözəl maşınım hansı vəziyyətə düşmüşdü...

Küçə ilə pay-piyada evimə qayıtdım. Özümə bir qədər də araq ilə su süzdüm və Temmiyə zəng vurdum.

– Qulaq as, əzizim, mən çətinə düşmüşəm. Sənin kreslonu maşına yükləyəndə, ön şüşəni qırmışam, indi onu nə içəri salmaq olur, nə də çölə çıxarmaq, qapını da

bağlamaq mümkün deyil. Öz şüşə çilik-çilik olub. İndi mən nə edim? Allah xatirinə, mənə kömək elə!

– Özün bir şey düşünərsən, Henk.

Temmi dəstəyi asdı.

Mən nömrəni bir də yığdım.

– Əzizim...

O dəstəyi yenə asdı. Bundan sonra dəstəyi kənara qoymuşdu: bzzzzz, bzzzzzz, bzzzzzz....

Mən yatağa sərələndim. Telefon zəng çaldı.

– Temmi...

– Henk, danışan Valeridir. Mən elə indicə evə gəldim. Sənə demək istəyirəm ki, sənin maşının pitseriyanın dayanacağında saxlanıb, qapısı da açıqdır.

– Sağ ol, Valeri, amma mən qapını bağlaya bilmirəm. Maşının içində toxunmuş bir kreslo var və onun ayağı mənim ön şüşəmi sındırıb.

– Aaa, mən heç kreslonu görmədim.

– Zəng elədiyinə görə çox sağ ol.

Yuxuya getdim. Çox narahat bir yuxu görürdüm. Onlar mənim maşınımı qoşqu ilə dartıb harasa aparmaq istəyirdilər. Mənə cərimə yazacaqdılar.

Səhər saat 6:20-də ayıldım, əynimi geyindim və pitseriyaya getdim. Maşınım hələ də orada durmuşdu. Günəş yavaş-yavaş doğurdu.

Əlimi uzadıb kreslodan yapışdım. O hələ də yerində tərpənmək istəmirdi. Bərk qəzəblənmişdim deyə söyə-söyə kreslonu ora-bura dartmağa başladım. Onu çıxartmaq nə qədər çox mümkünsüz görünürdüsə, mən də bir o qədər çox ağlımı itirirdim. Qəfildən taxta şaqqıltısı eşidildi. Bu səs məni daha da ruhlandırdı, gücümə güc qatdı. Sınmış taxta parçası əlimdə qaldı. Mən taxtaya baxdım, sonra onu küçənin ortasına atdım və yenə öz işimə döndüm. Yenə nəsə sındı. Fabriklərdə keçirdiyim günlər, vaqonları boşaltmaqla keçirdiyim günlər, donmuş balıq yeşiklərini qaldırmaqla keçirdiyim günlər, öldürülmüş iribuynuzlu heyvanların cəmdəklərini çiynimdə daşımaqla keçirdiyim günlər öz bəhrəsini verirdi. Mən hər zaman nə qədər güclü bir adam olsam da, bir o qədər də tənbəl olmuşam. İndi isə o kreslonu

parçalara ayırırdım. Nəhayət ki, onu maşının içindən çıxara bildim. Mən onun üzərinə düz dayanacaqda hücum etdim. Onu əzərək parça-tikə elədim, hissələrə ayırdım. Sonra onun parçalarını topladım və kiminsə evinin önündəki çəmənlikdə səliqə ilə bir topa düzəltdim.

Folksvagenimə mindim və öz həyətimin yaxınlığında boş bir dayanacaq yeri tapdım. İndi edəcəyim bir iş qalırdı – Santa Fe Avenyuda ölüxana tapıb yeni ön şüşə almaq. Amma bu iş qaçmırdı, gözləyə bilərdi. Evə keçdim, iki stəkan buzlu su içdim və yatağıma girdim.

71

Dörd, ya da beş gün keçdi. Telefonum zəng çaldı. Temmi idi.

– Nə istəyirsən? – deyə ondan soruşdum.

– Qulaq as, Henk. Mənim anamın evinə gələndə üstündən keçdiyin o balaca körpü yadındadrmı?

– Hə.

– Həmin körpünün yaxınlığındakı bir həyətdə köhnə əşyaların satışını təşkil ediblər. Mən ora getmişdim və bir yazı makinası gördüm. Qiyməti 20 dollara, özü də yaxşı vəziyyətdədir. Lütfən, onu mənim üçün al, Henk.

– O yazı makinası sənin nəyinə lazımdır axı?

– Sənə heç vaxt deməsəm də, həmişə yazıçı olmaq arzusunda olmuşam.

– Temmi...

– Xahiş edirəm, Henk, sadəcə, bu dəfə, bu sonuncudur. Bütün ömrüm boyu sənin dostun olacam.

– Yox.

– Henk...

– Səni zibilə qalasan, yaxşı.

– On beş dəqiqədən sonra körpüdə görüşərik. Başqaları almamış, tez onu almaq lazımdır. Mən özümə yeni bir mənzil də tapmışam və Filbert ilə qardaşım ora köçməyimə yardım edirlər...

Nə on beş, nə də iyirmi beş dəqiqədən sonra Temmi körpüyə gəlmədi. Mən maşınıma oturub Temminin anasıgilə getdim. Filbert karton qutuları Temminin maşınına

yükləyirdi. O məni görmürdü. Mən maşını yarım məhəllə onların evindən aralı saxladım.

Temmi evdən çıxdı və mənim folksvagenimi gördü. Filbert isə öz maşınına minməyə hazırlaşırdı. Onun da folksvageni vardı, sarı rəngdə. Temmi ona əl yelləyib dedi:

– Sonra görüşərik!

Sonra o, küçə ilə mənə tərəf addımladı. Mənim maşınımın yanına çatanda, küçənin ortasında yerə sərələndi və bir müddət orada uzanmış vəziyyətdə qaldı. Mən isə səbirlə gözləyirdim. Sonra o ayağa qalxdı, maşınıma tərəf gəldi və mindi.

Mən maşını yerindən tərpətdim. Filbert öz maşınında oturmuşdu. Biz onun yanından keçərkən mən ona əl elədim. Bunun cavabında o bizə əl eləmədi. Onun gözlərinə qəm-qüssə çökmüşdü. Onun üçün hər şey yenicə başlayırdı.

– Bilirsənmi, – Temmi dedi, – indi mən Filbertlə birlikdəyəm.

Mən ucadan güldüm. Bu qeyri-ixtiyari bir gülüş idi.

– Biz tələssək yaxşı olar. Yazı makinasını başqası ala bilər.

– Bu sikilmiş makinanı nə üçün Filbertin almasını istəmirsən?

– Bura bax, əgər onu mənə almaq istəmirsənsə, sadəcə, maşını saxla və imkan ver mən düşüm!

Mən maşını saxladım və qapını açdım.

– Qulaq as, səni qancıq balası, sən mənə söz verdin ki, o yazı makinasını mənə alacaqsan! Əgər almasan, mən qışqır-bağır salacam və sənin şüşələrini qırmağa başlayacam!

– Yaxşı. Yazı makinası sənindir.

Biz həmin yerə getdik. Yazı makinası hələ də orada dururdu.

– Bu günə qədər bu yazı makinası özünün bütün həyatını dəlixanada keçirib, – oradakı bir xanım bizə dedi.

– O makina layiq olduğu bir sahibə məxsus olacaq, – deyə mən cavab verdim.

Mən həmin qadına bir iyirmilik ödədim və biz geri qayıtdıq. Filbert artıq oralarda gözə dəymirdi.

– Bir az oturmaq üçün içəri gəlmək istəmirsənmi? – Temmi soruşdu.

– Yox, mən daha getməliyəm.

Temmi yazı makinasını təkbaşına, mənim köməyim olmadan, evə apara bildi. Makina portativ idi.

72

Növbəti həftə boyu mən elə hey içdim. Gecə-gündüz durmadan içdim və itirilmiş məhəbbət haqqında 25, ya da 30 qəmgin şeirlər yazdım.

Telefonun zəng çalanda cümə günü idi. Mersedes idi.

– Mən ərə getmişəm, – o dedi, – Balaca Cekə. Sən Venesiyadakı qonaqlıqda qiraət edəndə, onunla görüşmüşdün. O çox yaxşı oğlandı, pulu da var. Biz Vadiyə köçürük.

– Təbrik edirəm, Mersedes, sənə uğurlar arzulayıram.

– Səninlə içki içə-içə etdiyimiz söhbətlər üçün yaman darıxmışam. Bu axşam sənin yanına gəlsəm problem deyil ki?

– Yaxşı, gəl.

On beş dəqiqə sonra o artıq mənim mənzilimdə idi, papirosa şey doldurur və mənim pivəmi içirdi.

– Balaca Cek əla oğlandı. Biz birlikdə çox xoşbəxtik.

Mən öz pivəmi əmirdim.

– Mən daha sikişmək istəmirəm, – o dedi, – abort eləməkdən yorulmuşam, düz sözümdü, abort eləməkdən lap bezmişəm...

– Biz nəsə bir şey fikirləşərik.

– Mən, sadəcə, siqaret çəkmək, söhbət eləmək və içki içmək istəyirəm.

– Bu mənim üçün kifayət eləmir.

– Siz kişilərin bütün istədikləriniz elə bircə sikişməkdir.

– Bu mənim xoşuma gəlir.

– Amma mən sikişə bilmərəm, mən sikişmək istəmirəm.

– Rahat ol.

Biz divanda oturmuşduq. Öpüşmürdük. Mersedes yaxşı söhbət eləməyi bacarmırdı. Onunla nəsə haqqında danışmaq da maraqlı deyildi. Lakin onun qəşəng qıçları, əla götü, gözəl saçları, bir də cavanlığı vardı. Allah şahidimdir ki,

mən çox maraqlı qadınlarla qarşılaşmışdım. Mersedes bu siyahının heç də baş tərəfində deyildi.

Pivə su kimi axır, nəşə basılmış papiros əldən ələ gəzirdi. Mersedes hələ də Hollivudun İnsan Münasibətləri İnstitutunda işləyirdi. Onun maşınında nəsə bir problem vardı. Balaca Cekin şeyi qısa və yoğun idi. O indi Yoko Ononun "Qreypfrut"unu oxuyurdu. O abort eləməkdən yorulmuşdu. Vadi gözəl bir məkan idi, amma Mersedes Venesiya üçün darıxırdı. Sahilyanı ilə velosiped gəzintiləri üçün onun burnunun ucu göynəyirdi.

Bizim nə qədər söhbət elədiyimizi, ya da onun nə qədər danışdığını xatırlamıram. Amma uzun müddət, özü də çox uzun müddət sonra o mənə dedi ki, maşınla evə gedə bilmək üçün çox içib.

– Paltarını soyun və yatağa gir, – mən ona dedim.

– Amma sikişmək yoxdur, – o dedi.

– Sənin amına toxunmayacam.

O soyundu və yatağa girdi. Mən isə soyunub vanna otağına getdim. O yataqda uzanıb baxırdı və mənim vanna otağından əlimdə vazelin bankası ilə gəldiyimi gördü.

– Sən neyləmək fikrindəsən?

– Sən narahat olma, əzizim, heç narahat olma.

Vazelini şeyimə sürtdüm. Sonra işığı söndürüb yerimə girdim.

– Arxanı mənə çevir, – mən ona dedim.

Mən bir qolumu onun altına keçirdim və onun bir döşü ilə oynamağa başladım. O biri əlimi isə onun üstündən uzadaraq o biri döşünü əlləşdirdim. Üzünü onun saçlarının içinə soxub bu işlə məşğul olmaq mənə ləzzət verirdi. Şeyim bərkidi və onun ucunu onun götünə soxdum, sonra onun belini qucaqlayaraq var gücümlə onun götünü özümə tərəf çəkdim və şeyim dərinə işlədi.

– Uuuuuuuuffffff, – deyə o inildədi.

Mən işləməyə başladım. Mən getdikcə şeyimi daha da dərinə itələyirdim. Onun sağrıları böyük və yumşaq idi. Ona itələdikcə, mən tərləməyə başladım. Sonra onu qarnının üstünə çevirdim və şeyimi bir az da dərinə itələdim. Onun dəliyi getdikcə darlaşırdı. Mən şeyimin onun düz bağırsağının daha da dərinliyinə itələyəndə, o ucadan bağırdı.

– Səsini kəs, səni lənətə gəlmiş qancıq!

Dəlik çox dar idi. Mən bir az da dərinə itələdim. Onun düz bağırsağının tutuculuq qabiliyyəti inanılmaz idi. Mən dala-qabağa işlədiyim zaman, böyrümdə sancı hiss elədim, dəhşətli dərəcədə yandıran bir ağrı, amma mən ona məhəl qoymadan davam elədim. Mən az qalırdım onu düz onurğa sütunundan ikiyə ayırım. Nəhayət mən dəli kimi bağıraraq qurtardım.

Sonra isə onun üstündəcə uzanaraq qaldım. Böyrümdə hiss etdiyim ağrı məni öldürürdü. Mesedes isə ağlayırdı.

– Lənət şeytana, – deyə ondan soruşdum, – nə olub, niyə ağlayırsan? Mən ki sənin amına heç toxunmadım.

Onun üstündən düşdüm.

Səhər Mersedes çox söz demədən paltarlarını geyindi və işə getdi.

Hə bax belə, deyə düşündüm, bu da belə getdi.

73

Növbəti həftə içki içməyimi bir balaca azaltmışdım. Təmiz hava almaq, günəş şüaları qəbul etmək və çoxlu piyada gəzmək üçün at yarışlarına getdim. Axşam isə nə üçün hələ də sağ qalmışam, bu mexanizm, görəsən, necə işləyir deyə təəccüblə düşünə-düşünə yenə içirdim. Katrina, Lidiya və Temmi haqqında düşünürdüm. Özümü heç də yaxşı hiss eləmirdim.

Həmin cümə axşamı telefonum zəng çaldı. Zəng vuran Mersedes idi.

– Henk, mən sənin yanına gəlmək istərdim. Amma sadəcə, söhbət eləmək, içki içmək və ot çəkmək üçün.

– Əgər gəlmək istəyirsənsə, gəl.

Yarım saatdan sonra Mersedes mənim evimdə idi. Mənə nə qədər təəccüblü gəlsə də, o gözümə çox təravətli görünürdü. Onun əynindəki qədər qısa olan mini-ətək görməmişdim. Qıçları həmişəki kimi, olduqca gözəl və cazibəli idi. Mən xoşbəxtlik duyğularına qərq olaraq onu öpdüm. O isə məndən kənarlaşdı.

– Sənlə keçirdiyim son gecədən sonra düz iki gün gəzə bilməmişəm. Bir də götümü dağıtma.

– Danışdıq, əsl hindu sözü verirəm, bir də dağıtmaram.

Sonra hər şey elə həmin axşamkı kimi davam elədi. Biz radionu da qoşub divanda oturduq, söhbət elədik, pivə içdik və siqaret çəkdik. Mən onu dəfələrlə öpdüm. Bunu etməkdən özümü heç cür saxlaya bilmirdim. O özünü elə aparırdı, elə bil o da bunu istəyirdi, amma israrla deyirdi ki, bunu edə bilməz. Balaca Cek onu sevirmiş, bu dünyada sevginin, məhəbbətin böyük anlamı varmış.

– Əlbəttə böyük anlamı var, – deyə mən onunla razılaşdım.

– Sən məni sevmirsən.

– Sən axı ərli bir qadınsan.

– Mən Balaca Ceki sevmirəm, amma o mənim üçün çox əzizdir və o məni sevir.

– Əla səslənir.

– Sən heç ömründə kimisə sevmisənmi?

– Dörd dəfə.

– Bəs nə oldu? Bu günə onlar hardadılar?

– Biri rəhmətə gedib. Qalan üçü isə indi başqa kişilərlə yaşayırlar.

Həmin gecə biz uzun-uzadı söhbət elədik və sayını xatırlamadığın qədər içinə nəşə doldurulmuş siqaret çəkdik. Gecə saat 2-də Mersedes dedi:

– Maşınla evə gedəsi vəziyyətdə deyiləm, çox sərxoşam. Maşını vurub tamam əzərəm, qəza törədə bilərəm.

– Əynini soyun və yatağa uzan.

– Yaxşı, amma mənim bir fikrim var.

– Nə fikir?

– Sənin kəfləmə atmağına tamaşa eləmək istəyirəm! Onun ucundan mayenin necə fışqırdığını görmək istəyirəm.

– Yaxşı, məncə bu ədalətlidir. Danışdıq.

Mersedes əynini soyunub yatağa girdi. Mən isə soyunub yatağın yanında ayaq üstə dayandım.

– Dur otur ki, yaxşı görə biləsən.

Mersedes qalxıb yatağın kənarında oturdu. Mən ovcuma tüpürdüm və sikimi ovuşdurmağa başladım.

– Ah, – Mersedes dedi, – o böyüyür!

– Aha haha...

– O daha da böyüyür!

– Aha haha...

– Vay səni, onun rəng bənövşəyi oldu, hələ o yoğun damarlara bir bax! Nəbz vurur! Necə də iyrəncdi!

– Aha.

Mən kəfləmə vurmağıma ara vermədən sikimi onun üzünə yaxınlaşdırdım. O isə gözlərini qırpmadan tamaşa edirdi. Elə ki, qurtarmağa hazır idim, əl saxladım.

– Oh, – o inildədi.

– Bura bax, mənim daha yaxşı bir fikrim var...

– Nə?

– Sən öz əlinlə onu dartışdır

– Yaxşı.

Mersedes işə başladı.

– Mən düzgün eləyirəm?

– Bir az sərt dartışdır. Və öz ovcuna tüpür. Və əlini onun bütün uzunluğu boyu gəzdir, yəni demək olar ki, bütün uzunluğu boyu, yalnız onun başının yaxınlığıda yox.

– Yaxşı... Ah, aman Allahım, sən buna bir bax.... Ondan şirənin necə sıçradığını görmək istəyirəm!

– Davam elə, Mersedes, dayanma! AHH, AMAN ALLAHIM!

Qurtarmağa azca qalmış onun əlini sikimdən ayırdım.

– Ay səni oğraş! – Mersedes acıqla dedi.

O irəli əyildi və şeyimi ağzına aldı. Mersedes şeyimi sormağa və şeyimi sorduqca da, dilini şeyimin bütün səthi ilə gəzdirərək onu yalamağa başladı.

– Ay səni qəhbə!

Birdən o, şeyimi ağzından çıxardı.

– Hə, nooldu, davam elə, davam elə! Məni qurtart!

– Yox!

– Belə oldu, səni məlun, onda sikdir!

Mən onu özümdən kənara, çarpayıya tərəf itələdim və onun üstünə atıldım. Onu vəhşicəsinə öpə-öpə sikimi onun içinə saldım. Mən vəhşicəsinə, nasos porşeni kimi dala-qabağa vuraraq işləyirdim. İnildədim və qurtardım. Bütün şirəmi onun içinə vurdum. Özü də şirəmin onun içinə necə töküldüyünü, onun içinə necə axdığını hiss edə-edə.

74

Universitetdə bədii qiraətlə çıxış etmək üçün mən İllinoysa uçmalı idim. Bədii qiraətdən zəhləm gedirdi, amma

bu iş mənə ev kirayəmi ödəməyə, hələ bəlkə dolayısı yolla kitablarımın satılmasına kömək edirdi. Onlar məni şərqi Hollivuddan tapıb çıxarır, onlar məni stüardessalar, biznesmenlər, buzlu içkilər, balaca salfet və ağızdan gələn pis qoxunu öldürmək üçün yeyilən yer fındığı ilə birlikdə havaya qaldırırdılar.

Məni 1966-ci ildən bəri yazışdığım şair Uilyam Kisinq qarşılamalı idi. Onun ilk işlərinə Duq Fazzikin redaktə etdiyi "Öküz" jurnalının səhifələrində rast gəlmişdim. Bu jurnal mimeoqraf yolu ilə çoxaldılan ilk jurnallardan biri və bəlkə də mimeo inqilabının öndəri idi.

Bizlərdən heç birimiz sözün əsl mənsaında ədəbiyyatçı deyildik: Fazzik kauçuk fabrikində işləmişdi. Bir vaxtlar Koreyada dəniz piyadası olmuş Kisinqsə həbsdə yatıb çıxandan sonra öz arvadı Sesiliyanın hesabına yaşayırdı. Mən isə gecələr 11 saat poçt kargüzarı vəzifəsində çalışmışdım. Elə həmin vaxtlarda Marvin özünün şeytanlar haqqında yazdığı qəribə şeirlərilə səhnəyə çıxmışdı. Marvin Vudman şeytanlar haqqında yazan ən yaxşı Amerika yazarı idi. Bəlkə də İspaniya və Peruda da. Həmin vaxtlarda mən

məktublar yazmaqla məşğul idim. Mən hər kəsə 4 və 5 səhifəlik məktublar yazır, zərflərin üstünü rəngli karandaşlarla rəngləyərək bəzəyirdim. Bax elə həmin vaxt mən keçmiş dəniz piyadası, keçmiş məhbus və narkotik aludəçisi Uilyam Kisinqə (o, əsasən, kodein qəbul edirdi) məktub yazmışdım.

İndi, illər sonra, Uilyam Kisinq özü üçün müvəqqəti bir iş tapmışdı – universitetdə dərs verirdi. Narkotiklə bağlı həbslərin arasındakı fasilələrdə o bir, ya da iki dərəcə almağa müvəffəq olmuşdu. Yazmaq istəyən hər bir adam üçün dərs tədris etməyin təhlükəli bir iş olması ilə bağlı mən ona xəbərdarlıq etmişdim. Lakin, ən azından, o tələbələrinə, əsasən, Çinaskidən tədris edirdi.

Kisinq və onun arvadı məni hava limanında gözləyirdilər. Mənim baqajım yanımda olduğundan, birbaşa maşına tərəf getdik.

– Aman Tanrım, – Kisinq dedi, – təyyarədən belə bir görünüşdə düşən ikinci bir adam gördüyümü xatırlamıram.

Mənim əynimdə rəhmətlik atamın paltosu vardı. O mənə çox böyük qalırdı. Şalvarım boyuma görə çox uzun

idi. Manjetlər ayaqqabılarımın üstünə, ordan da yerə düşürdü və bu, əslində, yaxşı idi. Çünki corablarımın rəngi müxtəlif idi, ayaqqabılarımın dabanı isə tamam yeyilmişdi. Mənim bərbərlərdən ümumiyyətlə zəhləm gedirdi və ona görə də saçlarımı kəsdirməyə bir qadın tapmayanda, onları özüm kəsirdim. Nə üzümü qırxmaqdan, nə də uzun saqqaldan xoşum gəlmədiyinə görə, iki-üç həftədə bir dəfə saqqalımı qayçı ilə qısaldırdım. Gözlərim yaxşı görməsə də, gözlük taxmağı xoşlamırdım və ona görə də, bir şey oxuduğum vaxtlar istisna olmaqla, gözlük taxmırdım. Ağzımdakı dişlərim özümünkü olsa da, onların sayı elə də çox deyildi. Üzüm və burnum içki içməkdən qızarmışdı. İşıq gözlərimi qamaşdırdığından mən gözlərimi qıyaraq balaca yarıqlardan baxırdım. İstənilən xarabalıqda məni özlərininki kimi qəbul edərdilər.

Biz yola düşdük.

– Biz başqa görünüşlü adam gələcəyini gözləyirdik, – Sesiliya dedi.

– Hə?

– Demək istəyirəm ki, sizin səsiniz elə mülayimdir, özünüz də elə həlimxasiyyət görünürsünüz ki... Bill elə düşünürdü ki, siz təyyarədən sərxoş halda, söyüş söyə-söyə və qadınlara söz ata-ata düşəcəksiniz...

– Mən heç vaxt öz vulqarlığımla kiməsə meydan oxumuram. Gözləyirəm ki, qadın özü öz xoşu ilə mənə tərəf gəlsin.

– Sən sabah axşam çıxış edəcəksən, – Bill dedi.

– Əla, onda bu gecə yaxşıca əylənərik və hər şeyi unudarıq.

Biz yolumuza davam etdik.

Həmin axşam Kisinq öz məktubları və şeirləri qədər maraqlı həmsöhbət idi. Nadir hallar istisna olmaqla, bizim söhbətimiz əsnasında ədəbiyyatdan danışmamaq üçün o kifayət qədər ağıllı adam idi. Biz başqa şeylər haqqında danışırdıq. Əksər şairlər ilə şəxsi görüşlərimdə mənim bəxtim o qədər də gətirmirdi. Onların məktub və şeirləri maraqlı olsa belə. Duqlas Fazziklə görüşümüz də valehedici sonluqla nəticələnməmişdi. Ən yaxşısı başqa yazarlardan

aralı gəzməkdi – sadəcə, öz işini gör, ya da sadəcə, öz işini görmə.

Sesiliya yatmağa erkən getdi. Səhər tezdən o, işə getməliydi.

– Sesiliya məndən boşanmaq istəyir, – Bill mənə dedi. – Mən onu qınamıram. Mənim narkotiklərim, mənim qusmalarım, ümumiyyətlə hər şeyim onu artıq cana doydurub. Uzun illərdir ki, o bütün bunlara səbrlə dözüb. Daha səbri tükənib, daha dözə bilmir. Onu lazım olduğu qədər sikmək üçün daha gücüm də qalmayıb. İndi bir yeniyetmə ilə oturub-durur. Onu günahlandırmağa haqqım yoxdur. Mən başqa yerə köçmüşəm, özümə ayrı yerdə otaq tutmuşam. İstəsən, ora gedib gecəni birlikdə qalarıq, ya da istəsən, mən ora gedib gecəni orda yataram sən isə burda qalarsan və yaxud da ikimiz də burada qala bilərik, mənim üçün bunun heç bir fərqi yoxdur.

Kisinq bir neçə həb çıxarıb onları uddu.

– Gəl ikimiz də burada qalaq, – mən dedim.

– Sən, həqiqətən, içkini su kimi içirsən.

– Başqa edəcək bir işim qalmayıb.

– Sənin bağırsaqların çuqundan olmalıdır.

– Heç də elə deyil. Bir dəfə deşilmişdi. Amma deşiklər yenidən bağlanandan sonra, deyilənə görə, ən yaxşı qaynaq işindən daha sağlam olurlar.

– Belə nə qədər davam eləməyi düşünürsən? –o soruşdu.

– Mən artıq hər şeyi planlaşdırmışam: 2000-ci ildə düz səksən yaşım olanda ölməyə hazırlaşıram.

– Qəribədir, – Kisinq dedi, – elə mən də həmin ildə ölməyi düşünürdüm. 2000-ci ili deyirəm. Bu haqda bir yuxu da görmüşdüm. Hətta ölüm günümü və saatımı da yuxuda görmüşəm. Hər nə olur-olsun, bu 2000-ci ildə baş verəcək.

– Hə, əla yuvarlaq rəqəmdir. Mənim xoşuma gəlir.

Biz bir-iki saat da içdik. Mənə ayrıca bir yataq otağı ayırmışdılar. Kisinq divanda yatdı. Belə çıxırdı ki, Sesiliyanın ondan ayrılmaq qərarı qəti idi.

Ertəsi gün səhər saat 10:30-da yuxudan ayıldım. Dünəndən bir az pivəmiz qalmışdı. Mən bir şüşəni içməyə müvəffəq oldum. Elə ikincini aşırmaq istəyirdim ki, Kisinq mənim yataq otağıma gəldi.

– Aman Tanrım, sən bunu necə eliyə bilirsən? 18 yaşlı oğlan uşağı kimi sağlam görünürsən.

– Pis açılan səhərlərim də olur, amma bu onlardan birisi deyil.

– Saat 1:00-da ingilis dili dərsim var. Mən dərhal yola düşməliyəm.

– Bir az ağdan iç.

– Mədəmə nəsə atmalıyam.

– Yumşaq bişirilmiş iki yumurta ye. Onları üyüdülmüş Çili bibəri və ya qırmızı bibər ilə yemək lazımdır.

– Sənə də ikisini qaynadımmı?

– Hə, sağ ol.

Telefon zəng çaldı. Sesiliya idi. Bill bir müddət danışandan sonra dəstəyi asdı.

– Bizə tərəf tornado gəlir. Ştatın tarixində baş vermiş ən böyük tornadolardan birisi. O buradan keçə bilər.

– Mən bədii qiraətlə çıxış edəndə, həmişə nəsə baş verir.

Birdən bayırda havanın necə qaraldığını sezdim.

– Onlar bədii qiraəti ləğv edə bilərlər. Bunu dəqiq söyləmək çətindir. Yaxşısı budur mən yeməyimi yeyim, – deyərək Bill yumurtaları bişməyə qoydu.

– Səni yaxşı başa düşürəm, – mən dedim, – səndə heç xumarlıq da hiss olunmur.

– Mən hər səhər özümü bərk sərxoşluqdan sonra sustalmış kimi hiss edirəm. Bu normal haldır. Mən buna artıq vərdiş eləmişəm.

– Bütün bu əyyaşlığına baxmayaraq, sən öz poxlu şeirlərini hələ də çox gözəl yazırsan.

– Gəl bu mövzuya toxunmayaq. Bəlkə də bu əlimə keçən amların çoxluğundandır. Yumurtaları çox qaynatma.

Vanna otağına getdim və sıçdım. Qəbz olmaq mənim problemim deyildi. Mən oaradan çıxmaq istəyəndə Billinin qışqırığını eşitdim:

– Çinaski!

Sonra onu həyətə çıxıb orada qusduğunu eşitdim. O içəri qayıtdı.

Biçarənin halı doğrudan da xarab idi.

– Biz az sodalı su iç. Səndə valium varmı?

– Yox.

– Onda sodalı sudan sonra təxminən 10 dəqiqə gözlə və sonra isti pivə iç. Pivəni indidən stəkana süz ki, qazı çıxsın.

– Məndə amfetamin həbləri var.

– O da yarıyar, iç.

Getdikcə hava daha da qaralırdı. Amfetamin həbini qəbul etdikdən on beş dəqiqə sonra Bill duş qəbul etdi. Duşdan çıxanda, onun görünüşü normallaşmışdı. O, dilimlənmiş banan və fındıq yağından hazırlanmış buterbrod yedi. Deyəsən, vəziyyəti getdikcə düzəlirdi.

– Sən hələ də öz qoca xanımını sevirsən, elə deyilmi? – mən ondan soruşdum.

– Aman Allahım, hə.

– Kömək eləməyəcəyini bilirəm, amma başa düşməyə çalış ki, bu hamımızın başına, ən azı bir dəfə, gəlib.

– Bu işə yaramır.

– Əgər qadın sənə qarşı çevrilirsə, bunu yaddan çıxara bilərsən. Onlar əvvəlcə səni sevə də bilərlər. Amma sonra onların içində elə bil nəsə dəyişir. Onlar sənin üstündən maşının keçməsinə, arxda uzanıb can verməyinə sakitcə

dayanıb tamaşa eləyə və hətta sənin üstünə tüpürə də bilərlər.

– Sesiliya əla qadındır.

Hava daha da qaralırdı.

– Gəl bir az da pivə içək, – mən təklif elədim.

Biz oturub pivə içməyə başladıq. Hər tərəf, həqiqətən, qaranlıqlaşdı və elə həmin vaxt güclü külək əsməyə başladı. Biz çox danışmırdıq. Yenə görüşdüyümüzə görə mən çox sevinirdim. Bu adamın içində pislik çox az idi. O çox yorulmuşdu, bəlkə də buna görə. Şeirləri ilə ABŞ-da onun heç vaxt bəxti gətirməmişdi. Avstraliyada isə onu çox sevirdilər. Bəlkə də onu burada bir gün kəşf edəcəkdilər, bəlkə də yox. Bəlkə də 2000-ci ilə qədər kəşf ediləcəkdi. Bəstə boylu, dolu və möhkəm bədənli adam idi. Ona baxanda başa düşürdün ki, istəsə sındırar, başa düşürdün ki, o həyatı görüb, orada olub. Ondan çox xoşum gəlirdi.

Biz sakitcə oturub içirdik. Birdən telefon zəng çaldı. Yenə Sesiliya idi. Tornado bitmiş, ya da yan keçmişdi. Bill öz dərsinə getməyə hazırlaşırdı. Mən isə həmin axşam bədii

qiraətlə çıxış edəcəkdim. Hə lap əla. Hər şey qaydasında idi. Bizim hamımızın görəcək işlərimiz vardı.

Təxminən saat 12:30 – da Bill öz bloknotlarını və başqa əşyalarını da bel çantasına yığdı, öz velosipedinə mindi və pedalları fırlada – fırlada universitetə yollandı.

Sesiliya evə təxminən günorta vaxtı gəldi.

– Bill qaydasında idi?

– Hə, velosipedinə də minib işə getdi. Yaxşı görünürdü.

– Nə qədər yaxşı? Yenə pox günündəydi?

– O əla görünürdü. Yeməyini yedi və qalan hər şeyi də.

– Mən onu hələ də sevirəm, Henk. Sadəcə, bütün bunlara dözməyə daha taqətim qalmayıb.

– Əlbəttə.

– Sən heç təsəvvür edə bilməzsən ki, sənin buraya gəlişin onun üçün nə deməkdir. O həmişə sənin yazdığın məktubları mənə oxuyardı.

– Pozğun olanları, hə?

– Yox, məzəli olanları. Sən bizi güldürürdün.

– Gəl sikişək, Sesiliya.

– Sən yenə öz oyunlarına başladın, Henk.

– Sən balaca toppuş şeysən. Qoy sənə itələyim.

– Sən sərxoşsan, Henk.

– Hə, düz deyirsən. Yaddan çıxar.

75

Həmin axşam daha bir pis bədii qiraətlə çıxış etdim. Vecimə də deyildi. Heç onların da vecinə deyildi. Əgər Con Kace bir alma yeməyə görə min dollar ala bilərsə, deməli mən də limon almağıma görə 500 dollar üstəgəl bilet pulunu qəbul edə bilərəm.

Qiraətdən sonra hər şey elə həmişəki kimi oldu. Balaca tələbə qızlar öz cavan və hərarətli bədənləri və alışıb yanan gözləri ilə mənə yaxınlaşdılar və bir neçə kitabımı imzalamağımı xahiş etdilər. Onlardan ən azı beşini bir gecədə sikmək istərdim. Sonra da onları öz sistemimdən həmişəlik çıxarardım.

Bir neçə professor da mənə yaxınlaşdı. Mənim belə uzunqulaq olduğuma görə gülümsədilər. Bundan onların ürəkləri təskinlik tapmışdı. Düşünmüşdülər ki, yazı makinasının arxasında oturmağa onların da şansı olub.

Mən çeki aldım və oradan rədd oldum. Qiraətdən sonra Sesiliyanın evində xüsusi dəvət almış adamlar üçün balaca bir məclis olmalıydı. Bunu yazılmamış müqavilənin bir hissəsi hesab etmək olar. Qızlar nə qədər çox olsa, bir o qədər yaxşıdır, amma Sesiliyanın evində mənim bəxtimin gətirəcəyinə ümid çox azdı. Mən də bunu dərk edirdim. Və əlbəttə ki, növbəti gün səhər yuxudan ayılanda, öz yatağımda tək idim.

Ertəsi gün səhər Bill yenə özünü pis hiss edirdi. Onu yenə saat 1:00-da dərsi vardı. Evdən çıxmazdan əvvəl mənə dedi:

– Səni hava limanına Sesiliya aparacaq. Mən isə indi getməliyəm. Gəl ayrılarkən ağlaşma qurmayaq.

– Yaxşı.

Bill bel çantasını belinə taxdı və velosipedini evdən çıxardı.

76

LosAncelesə gəldiyim artıq həftə yarım olardı. Gecə idi. Telefon zəng çaldı. Zəng vuran Sesiliya idi. O hıçqıra-hıçqıra ağlayırdı.

– Henk, Bill vəfat etdi. Zəng vurduğum ilk adam sənsən.

– Aman Allahım, Sesiliya, nə deyəcəyimi bilmirəm.

– O vaxt gəldiyinə görə elə şadam ki. Sən gedəndən sonra Bill elə hey səndən danışırdı. Sən təsəvvür edə bilməzsən, sənin bizə gəlişin onun üçün nə qədər əziz idi.

– Nə baş verib?

– O şikayətlənirdi ki, özünü, həqiqətən, çox pis hiss edir və biz də onu xəstəxanaya apardıq. İki saatdan sonra isə o öldü. Bilirəm ki, bəzi adamlar onun aşırı dozadan öldüyünü düşünəcəklər, amma o bundan ölməyib. Onunla boşanmaq istəməyimə baxmayaraq, mən onu sevirdim.

– Sənə inanıram.

– Bütün bunlarla səni narahat eləmək istəməzdim.

– Hər şey qaydasındadır. Bill bunu başa düşərdi. Sənin vəziyyətini yüngüllədirəcək bir söz tapıb deyə bilmirəm.

Mən özüm də elə bil şokdayam. Qoy mən sənə bir az sonra zəng vurum, görüm necəsən.

– Zəng vuracaqsan?

– Əlbəttə.

İçki ilə bağlı problem də elə bundadır, özümə içki süzə-süzə düşündüm. Bədbəxt bir hadisə baş verəndə, dərdini unutmaq üçün içirsən; xoşbəxt bir hadisə baş verəndə, onu bayram eləmək üçün içirsən və əgər heç bir şey baş verməyəndə isə, içirsən ki, nəsə baş versin.

Görüşlərimiz zamanı nə qədər xəstə və bədbəxt olsa da, Bill belə tezliklə vəfat edəcək bir adama oxşamırdı. Belə qəfil ölümlər çox olub. Baxmayaraq ki, biz öləcəyimizi bilirik və ölüm haqqında, demək olar ki, hər gün düşünürük, bizim üçün xüsusi və əziz olan bir adam gözlənilmədən vəfat edəndə, çox çətin olur, həddən artıq çətin, nə qədər yaxşı, pis və ya tanımadığımız insanlar ölür-ölsün, fərqi yoxdur, biz bu hissləri keçirməyə məhkumuq.

Həmin gecə mən Sesiliyaya zəng vurdum, növbəti gecə də ona zəng vurdum, ondan sonra bir də zəng vurdum və sonra isə daha zəng eləmədim.

77

Təxminən bir ay keçdi. “Doqbayt Press”in redaktoru R.A.Duayt mənə məktub yazdı və Kisinqin seçilmiş şeirləri kitabına ön söz yazmağımı xahiş etdi. Kisinq, ən azından, öz ölümünün sayəsində, deyəsən, Avstraliyadan başqa bir yerdə də tanınma imkanı qazanmışdı.

Sonra Sesiliya yenə zəng etdi.

– Henk, mən R.A.Duayt ilə görüşmək üçün San Fransiskoya gedirəm. Məndə Billin bir neçə fotoşəkili və bəzi çap edilməmiş şeirləri var. Onları Duaytla birlikdə gözdən keçirmək və sonra da nəyi çap edib-nəyi çap etməyəcəyimizə qərar vermək istəyirəm. Amma əvvəlcə, bir neçə günlük Los-Ancelesə gəlmək istərdim. Sən məni hava limanında qarşılaya bilərsənmi?

– Əlbəttə, üstəlik mənim evimdə də qala bilərsən, Sesiliya.

– Çox sağ ol.

O mənə gələcəyi vaxtı bildirdi. Mən qarşıdakı zamanda öz tualetimi təmizlədim, vannanı qazıyıb yudum, yatağımın döşək ağlarını və balış üzlərini dəyişdirdim.

Sesiliya səhər saat 10 reysi ilə gəldi. Bu saatda yuxudan durmaq mənim üçün cəhənnəm əzabı idi. Amma buna baxmayaraq, o bir qədər gombul olsa da, yaxşı görünürdü. O, möhkəm və güclü bədənli, bəstəboylu qadın idi, orta qərbli kimi və səliqəli görünürdü. Kişilər onun arxasınca baxırdılar, o öz dalını xüsusi bir tərzdə yırğaladaraq hərəkət edirdi. Onun arxası güclü, bir qədər məşum və ürküdücü, amma çox cazibədar idi. Sesiliya spirtli içki içmirdi, özü üçün portağal şirəsi sifariş etmişdi.

– Mənim hava limanlarından və sərnişinlərdən çox xoşum gəlir, bəs sənin?

– Yox.

– Burada insanlar adama elə maraqlı gəlir ki.

– Sadəcə, qatar və avtobuslarla səfərə çıxan insanlarla müqayisədə onların pulu çoxdur.

– Bura gələrkən yolda “Böyük Kanyon”un üstündən keçdik.”

– Hə, o sizin yolunuzun üstündədir.

– Bu ofisiantlar necə də qısa ətəklər geyiniblər! Bir bax, onların trusikləri bayırda qalıb.

– Yaxşı bəxşiş üçündür. Onlar hamısı çoxmənzilli evlərdə qalır və "M.Q." sürürlər.

– Təyyarədəki sərnişinlər hamısı elə nəzakətli idilər ki! Mənim yanımda oturmuş bir kişi, hətta mənə içki sifariş etməyi təklif elədi.

– Gəl gedib sənin baqajını alaq.

– R.A. Mənə zəng edib dedi ki, Billin seçilmiş şeirlər kitabı üçün sənin yazdığın ön sözü alıb. Onun bir hissəsini, hətta telefonda mənə oxudu da. Çox gözəl sözlər yazılmışdı. Sənə təşəkkür eləmək istəyirəm.

– Dəyməz.

– Bunun əvəzini necə çıxacağımı bilmirəm.

– Sən içki içmək istəmədiyinə əminsənmi?

– Mən çox nadir hallarda içirəm. Bəlkə daha sonra.

– Sən hansı içkini xoşlayırsan? Evə gedəndə, yolda alardım. İstəyirəm ki, özünü mənim evimdə rahat hiss edəsən.

– Əminəm ki, indi Bill bizə yuxarıdan baxır və özünü xoşbəxt hiss edir.

– Sən, doğrudan, elə düşünürsən?

– Hə!

Biz baqajı aldıq və dayanacağa tərəf getdik.

78

Həmin gecə Sesiliyaya 2, ya da 3 qədəh içki içirməyə müvəffəq oldum. O dəmləşərək hər şeyi unutdu və bir ayağını çox yuxarı qaldıraraq o birisinin üstünə aşırdı. Mən əla ətli budun bir hissəsini görə bildim. Möhkəm. İnək kimi bir qadın, inək əmcəklər, inək gözləri. O çox şeyə dözüm gətirə bilərdi. Kisinqin gözlərinin itiliyinə söz ola bilməzdi.

O heyvanların öldürməsinə qarşı idi. Ona görə də ət yemirdi. Məncə, onun özündə kifayət qədər bol ət vardı. Hər şey əladır, deyə o mənimlə söhbət edirdi – dünyada bizə lazım olan hər cür gözəllik var imiş və biz, sadəcə, əlimizi uzadıb bu gözəlliyə toxuna bilərmişik. Bəli, hər şey varmış və biz istədiyimizi əldə edə bilərmişik.

– Düz deyirsən, Sesiliya, – mən onunla razılaşdım. – Bir qədəh də iç.

– İçki məni yüngülxasiyyət edir.

– Bir balaca yüngülxasiyyət olmağın nəyi pisdir ki?

Sesiliya yenə bir ayağını o biri ayağının üstünə aşırdı və onun ətli budlarının üstü açıldı. Paltarı çox yuxarı dartıldığından budları tamam çöldə qalmışdı.

Bill, sən daha onlardan istifadə edə bilməzsən. Sən yaxşı şair idin, Bill, amma, lənət şeytana, axı nə üçün sən öz yazdıqlarından daha çox şey, özü də bu qədər çox şey qoyub getdin. Özü də sənin yazdıqlarının heç vaxt belə ombaları və belə budları olmayıb.

Sesiliya bir qədəh də içdi, sonra isə daha içməkdən imtina elədi, amma mən davam edirdim.

Bütün bu qadınlar hardan çıxırdılar? Elə bil qadın ehtiyatı tükənməz idi. Hər biri bir aləmdi, fərqliydi. Onların amları da müxtəlif idi, öpüşləri fərqliydi, döşləri fərqliydi, amma dünyada heç bir kişi onları əmib quruda bilməzdi, çünki onların sayı-hesabı yox idi. Onlar bir ayağını o

birisinin üstünə aşırmaqla kişiləri başdan çıxarırdılar. Nə gözəl məclis imiş!

– Mən çimərliyə getmək istəyirəm. Sən məni çimərliyə apararsanmı, Henk? – Sesiliya dedi.

– Bu gecə?

– Yox, bu gecə yox. Mən burdan getməzdən öncə, nə vaxt olur-olsun.

– Yaxşı.

Sesiliya amerikalı hinduların necə əsarətdə saxlanıldığı, necə zülümlərə məruz qaldıqları haqqında danışırdı. Sonra o mənə özünün də bir şeylər yazması, amma onları heç yerə təqdim etməməsi və yazdıqlarını, sadəcə, öz bloknotunda saxlaması haqqında danışdı. Bill onu təşviq edirmiş. Hətta bəzi yazılarında ona kömək də edirmiş. O, Billə universiteti bitirməyə yardım etmişdi. Əlbəttə ki, əsgər Bill də borclu qalmamış və bir işə yaramışdı. Və kodein də hər zaman işin içində olmuşdu. O, kodeinə oturmuşdu və daim kodeindən məsti-xumar olardı. Sesiliya nə qədər onu tərk edəcəyi ilə hədələsə də, bunun heç bir yararı olmamışdı. Amma indi...

– İç bunu, Sesiliya, – mən dedim, bu sənə hər şeyi unutdurar.

Mən onun üçün uzun bir stəkana içki süzdüm.

– Ah, mən bunun hamısını içə bilmərəm axı!

– Ayağını o birisinin üstünə aşır və yuxarı qaldır, qoy sənin ayaqlarına yaxşı-yaxşı tamaşa eliyim.

– Bill mənə heç vaxt belə sözlər deməyib.

Mən içməyə davam edirdim, Sesiliya isə danışmağa. Bir müddət sonra, mən artıq ona qulaq asmırdım. Gecə yarısı çoxdan gəlib keçmişdi.

– Qulaq as, Sesiliya, gəl yatağa girək. Mən yükümü tutmuşam.

Mən yataq otağına keçdim, paltarlarımı soyundum və odeyalın altına girdim. Onun mənim yanımdan keçərək hamam otağına getdiyini eşitdim. Yataq otağının işığını söndürdüm. Çox keçmədən o geri qayıtdı və çarpayının o biri tərəfindən yanıma necə girdiyini hiss etdim.

– Gecən xeyrə qalsın, Sesiliya, – mən dedim.

Onu özümə tərəf çəkdim. O tamam çılpaq idi. Aman Allahım, deyə düşündüm. Biz öpüşdük.

O heç də pis öpüşmürdü. Bu çox uzun və şəhvani bir öpüş idi. Biz dayandıq.

– Sesiliya?

– Nədi?

– Səni başqa bir vaxt qayıracam – dedim və ona arxamı çevirib yuxuya getdim.

79

Bobbi ilə Valeri bizə gəldilər və mən hamını bir-biri ilə tanış etdim.

– Valeri ilə mən məzuniyyətə getməyə hazırlaşırıq. Manhetten Biçdə dəniz kənarında ev kirayəliyəcəyik, – Bobbi dedi. – Bəlkə siz də bizimlə gedəsiniz? Biz kirayə haqqını sizinlə bölərdik. Orada iki yataq otağı var.

– Yox, Bobbi, mən elə düşünmürəm.

– Ah, Henk, lütfən! – Sesiliya dilləndi. – Mən okeanı çox sevirəm! Henk, əgər biz də onlarla getsək, mən hətta sənlə içki də içərəm. Söz verirəm!

– Yaxşı, Sesiliya.

– Əla, – Bobbi dedi. – Bu axşam biz yola düşürük. Uşaqlar, onda sizi götürmək üçün axşam saat 6-da gələsiyik. Bir yerdə şam da edərik.

– Qulağa çox xoş gəlir, – Sesiliya dedi.

– Henklə çörək yemək çox əyləncəlidir, – Valeri dedi. – Biz onunla sonuncu dəfə yeməyə gedəndə, gözəl bir restorana girdik və o dərhal baş ofisianta dedi: "Mənə və dostlarıma doğranmış kələm salatı və qızardılmış kartof gətir! Hərəyə iki porsiya, bir də içkilərimizə su qatmağı ağlının ucundan belə keçirmə, yoxsa livreyanı və qalstukunu çıxararam!"

– Lap səbirsizləşdim, vaxtı necə keçirəcəyimi bilmirəm! – Sesiliya dedi.

Təxminən saat iki radələrində Sesiliya gəzintiyə çıxmaq istəyirdi. Biz əhatədən keçəndə, o südləyən kolunu gördü. Sesiliya kola lap yaxınlaşdı, üzünü onun güllərinin arasına soxdu və barmaqalarının ucu ilə onları oxşadı.

– Ah, onlar necə də gözəldilər!

– Onlar ölmək üzrədirlər, Sesiliya. Görmürsənmi, onlar necə büzüşüblər? Qatı duman onları məhv edir.

Biz palmaların altı ilə yolumuza davam etdik.

– Hər yan quşlarla doludur! Burda yüzlərlə quş var, Henk!

– Və onlarla pişik.

Bobbi və Valeri ilə birlikdə biz də Manhetten Biçə getdik. Düz suyun kənarında bir ev kirayələdik və sonra çörək yeməyə getdik. Şam yeməyi əla idi. Yemək zamanı Sesiliya bir qədəh spirtili içki içdi və özünün vegetarianlığı haqqında bizə hər şeyi izah etdi. O özü üçün sup, salat və yoqurt sifariş etmişdi; qalanlarımız isə qızardılmış mal əti, qızardılmış kartof, fransız çörəyi və salat yeyirdik. Bobbi ilə Valeri duz və istiot qablarını, iki bifşteks bıçağını və mənim ofisiant üçün qoyduğum çay pulunu oğurladılar.

Biz içki, buz və siqaret üçün bir dükanın yanında dayanmalı olduq. Tədarükümüzü görəndən sonra evə getdik. Bir qədəh içki Sesiliyanın dilini tamam açmışdı: o durmadan hırıldayır, danışır və bizə heyvanların da ruhu olduğunu izah etməyə çalışırdı. Heç kim onun bu fikrinə qarşı çıxmadı. Bunun olduğunu biz də bilirdik. Amma bir şeyi dəqiq bilmirdik – bizim ruhumuzun olub – olmamasını.

80

Spirtli içkilər içməyə davam edirdik. Sesiliya bir qədəh də içdi. Sonra dayandı.

– Mən çölə çıxıb ay-ulduzlara tamaşa eləmək istəyirəm, – o dedi – bayırda hər şey necə də gözəldir!

– Yaxşı, Sesiliya, get.

Sesiliya evdən çıxdı və hovuzun yaxınlığındakı şezlonga oturdu.

– Billinin öldüyünə heç təəccüblənmirəm, – mən dedim. – O aclıqdan öldü. Ona heç vaxt heç nə vermirdi.

– Nahar zamanı sən tualetə gedəndə, o da sənin haqqında bəzi şeylər söylədi, – Valeri dedi. – O dedi ki, Henkin şeirləri ehtirasla doludur, amma bir şəxsiyyət kimi həyatda o özü heç də belə deyil!

– Allah ilə mən heç vaxt eyni atları seçmirik.

– Sən onu qayırmısanmı?

– Yox.

– Kisinq necə adamıydı?

– Normal adam idi. Amma mənim üçün çox maraqlıdır, görəsən, onunla bu qədər uzun müddət birlikdə yaşamağa o necə dözə bilib. Bəlkə də kodein ilə həblər ona kömək edib. Bəlkə də Sesiliya onun üçün böyük bir gül-uşaq-tibb bacısı imiş.

– Qoy sikdirsin, – Bobbi dedi, – ondansa gəlin içkimizi içək.

– Hə, düzdü. Əgər mən sikişməklə içki içmək arasında seçim etməli olsaydım, zənnimcə, sikişməyə son verərdim.

– Sikişmək problemlərə səbəb ola bilər, – Valeri dedi.

– Mənim arvadım kiminləsə sikişmək üçün harasa gedəndə, mən pijamamı geyinirəm, odeyalı başıma çəkirəm və yuxulayıram, – Bobbi dedi.

– O belə şeylərdə çox soyuqqanlıdır, – Valeri dedi.

– Aramızda heç kim seksdən necə yararlanmaq, onunla nə etmək lazım olduğunu dəqiq bilmir, – mən dedim. – Bir çox insanlar üçün seks, sadəcə, bir oyuncaqdır – onun yayını qur və burax getsin.

– Bəs sevgi, məhəbbət necə olsun? – Valeri soruşdu.

– Sevgi psixoloji gərginliyin öhdəsindən gələ bilənlər üçün yaxşıdır. Bu, belinizdə zibil ilə dolu çəni sürətlə axan sidik çayının üstündən daşımağa bənzəyir.

– Oh, bu dediyiniz qədər də pis deyil.

– Sevgi yanlış mühakimənin bir formasıdır. Mənim bir çox başqa yanlış mühakimələrim də var.

Valeri pəncərəyə yaxınlaşdı.

– Bayırda camaat kef edir, hovuza atılırlar. O da orda oturub aya tamaşa eləyir.

– Onun qocası təzəcə rəhmətə gedib, – Bobbi dedi. – Ona bir az vaxt vermək lazımdır.

Mən öz şüşəmi də götürüb yataq otağına getdim. Əynimdə bircə tuman qalana qədər soyundum və yatağıma girdim. Heç şey heç vaxt öz ayarında olmur. İnsanlar ağına-bozuna baxmadan qarşılarına çıxan hər şeyi qamarlayırlar: kommunizm, sağlam qida, dzen-buddizm, serfinq, balet, hipnoz, qrup görüşləri, eyş-işrət, velosiped gəzintiləri, otlar, katolisizm, ağırlıqqaldırma, səyahət, özünəqapılma, vegetarianlıq, Hindistan, rəssamlıq, yazmaq, heykəltaraşlıq, bəstəkarlıq, dirijorluq, piyada turizm, yoqa, cinsi əlaqə,

qumarbazlıq, əyyaşlıq, avaraçılıq, dondurulmuş yoğurt, Bethoven, Bax, Budda, İsa Məsih, taktiki raketlər, Heroin, yerkökü şirəsi, intihar, əl işi kostyumları, reaktiv təyyarədə səyahət, Nyu-York Siti və sonra bütün bunlar hamısı buxarlanıb yox olur, dağılıb tökülür. Öz ölümlərini gözlədikləri vaxt ərzində insanlar özlərini nə iləsə məşğul etməlidirlər. Məncə, seçim imkanının olması çox gözəldir.

Mən öz seçimimi artıq etmişəm. Araq şüşəsini qaldırıb onun düz boğazından bir udum aldım. Rusların bu işdən başı yaxşı çıxır.

Qapı açıldı və Sesiliya içəri girdi. Özünün bəstə boylu və güclü bədəni ilə o çox qəşəng görünürdü. Amerikan qadınlarının böyük əksəriyyəti ya çox arıqdılar, ya da onlarda həyat enerjisi ümumiyyətlə yoxdur. Əgər onlardan kobud bir şəkildə istifadə etsən, onların içində nəsə qırılacaq, onlar əsəbi məxluqlara, ərləri isə ya idmançı əbləhlərə, ya əyyaşlara, ya da avtomobil manyaklarına çevriləcəklər. Norveçlilər, İslandiyalılar və Finlandiyalılar əsl qadının necə olmalı olduğunu çox gözəl bilirlər: enli və möhkəm, böyük götlü, iri ombalı, yoğun budlu, iri başlı,

böyük ağızlı, iri döşlü, çoxlu tüklü, iri gözlü, iri burun dəlikli və bədənin ortasında – lazımi qədər böyük və kifayət qədər balaca.

– Salam, Sesiliya. Gəl yatağa, gəl görüm.

– Bu axşam bayırda elə yaxşı idi ki.

– Yəqin ki, sən deyən kimidir. Gəl görüm, gəl bir salam ver.

O hamam otağına getdi. Mən isə yataq otağının işığını söndürdüm.

Bir müddət sonra o vanna otağından çıxdı. Onun yatağa necə girdiyini hiss etdim. Otaq qaranlıq olsa da pərdələrdən içəri bir az işıq süzülürdü. Mən araq şüşəsini ona ötürdüm. Sesiliya araqdan balaca bir udum alandan sonra onu mənə qaytardı. Biz çarpayının baş tərəfində yığılmış yastıqlara söykənərək yerimizdə oturmuşduq. Bizim ombalarımız bir-birinə toxunurdu.

– Henk, ay lap nazik bir talaşaya oxşayırdı. Amma ulduzlar isə elə parlaq, elə gözəl idilər ki. Onlar adamı düşünməyə vadar edir, düz demirəmmi?

– Hə.

– Onlardan bəziləri milyon işıq illəridir ki, artıq məhv olublar, amma biz hələ də onları görə bilirik.

Mən əlimi uzadıb Sesiliyanın başını özümə tərəf çəkdim. Onun ağzı açıldı. O yaş və əla idi.

– Sesiliya, gəl sikişək.

– Mən heç istəmirəm.

Bir tərəfdən baxanda, heç mən özüm də istəmirdim. Məhz ona görə də ondan soruşdum:

– Sən istəmirsən? Bəs onda niyə məni belə ehtirasla öpürsən?

– Məncə insanlar bir-birilərini tanımaq üçün tələsməməlidirlər. Bunu üçün onlara müəyyən vaxt lazımdır.

– Bəzən kifayət edəcək qədər zaman olmur axı.

– Mən bunu eləmək istəmirəm.

Mən yataqdan çıxdım. Əynimdə paltardan bircə tumanla Bobbi ilə Valerinin otağının qapısına yaxınlaşdım və onu döyəclədim.

– Nə olub yenə? – Bobbi soruşdu.

– O mənimlə sikişmək istəmir.

– Nə olsun ki?

– Gəlin üzməyə gedək.

– Artıq çox gecdir. Hovuz bağlıdır.

– Bağlıdır? Hovuzda su var axı, elə deyilmi?

– Mən demək istəyirəm ki, oranın işıqlarını söndürüblər.

– Bu problem deyil. O mənimlə sikişmək istəmir.

– Sənin çimərlik paltarın yoxdur axı.

– Mənim tumanım var.

– Yaxşı, bir dəqiqə gözlə...

Bobbi ilə Valeri əyinlərinə kip oturan yeni və qəşəng çimərlik kostyumlarını da geyinib çıxdılar. Bobbi mənə Kolumbiya arağını uzatdı və mən şüşədən bir udum aldım.

– Sesiliyaya nə olub elə?

– Xristianlığı tutub.

Biz hovuza getdik. Həqiqətən də Bobbi düz deyirmiş, işıqları söndürmüşdülər. Bobbi ilə Valeri sinxron şəkildə hovuzun içinə daldılar. Mən isə hovuzun kənarında ayaqlarımı suya sallayaraq əyləşdim. Mən araq şüşəsindən özümçün yavaş-yavaş udumlar alırdım.

Bobbi ilə Valeri birlikdə suyun üzünə çıxdılar. Bobbi hovuzun kənarına tərəf üzdü. Mənim topuğumdan dartaraq dedi:

– Hə, tərpən görüm, səni taxtabaş! Biz az ürəkli ol! SUYA DAL!

Mən araqdan bir udum da aldım, sonra şüşəni yerə qoydum. Mən suya baş vurmadım. Hovuzun kənarından özümü ehtiyatla aşağı buraxdım və sonra suya düşdüm. Qaranlıq suda özümü çox qəribə hiss edirdim. Mən yavaş-yavaş hovuzun dibinə doğru dalmağa başladım. Mənim 6 fut boyum və 225 funt çəkim vardı. Mən hovuzun dibinə çatacağın anı gözləyirəm ki, ayaqlarımla təkan verib suyun səthinə qalxım. Bu dib hara cəhənnəm olmuşdu axı? Hə budur və mənim ciyərlərimdəki oksigen artıq bitmək üzrəydi. Mən yavaş-yavaş yuxarı qalxmağa başladım. Nəhayət, suyun üzünə çıxdım.

– Mənə qarşı öz ayaqlarını bir-birinə sıxan bütün fahişələrə ölüm! – deyə bağırdım.

Qapı açıldı və alt mərtəbədəki mənzildən bir adam çıxıb qaçaraq bizə tərəf gəldi. O işlər müdiri idi.

– Ey, gecənin bu vaxtında hovuzda üzməyə icazə verilmir! Hovuzun işıqları söndürülüb!

Mən tələsmədən ona tərəf üzdüm. Hovuzun kənarına çatdım və başımı qaldırıb altdan-yuxarı ona baxdım.

– Bura bax, anası qəhbə, mən hər gün iki çəllək pivə içirəm, amma özüm mən peşəkar güləşçiyəm. Təbiətim etibarilə çox mərhəmətliyəm. Amma mən indi üzmək niyyətindəyəm və istəyirəm ki, işıqları YANDIRSINLAR! ELƏ BU DƏQİQƏ! Səndən yalnız bir dəfə xahiş edirəm!

Mən üzərək ondan uzaqlaşdım.

İşıqlar yandı. Hovuz nura qərq oldu. Elə bil kimsə sehrli çubuğunu fırlatmışdı. Mən araq şüşəsinə tərəf üzdüm, onu hovuzun kənarından götürdüm və ondan yaxşı bir udum aldım. Şüşə demək olar ki, tamam boşalmışdı. Aşağı baxdım – Valeri ilə Bobbi suyun altında bir-birinin ətrafında sevgili balıqlar kimi dövrə vururdular. Bu cür üzmək onlarda çox əla alınırdı. Onların hərəkətləri əsnək və zərif görünürdü. Necə də qəribə idi – ətrafımdakı hər kəs məndən cavan idi.

Hovuzda üzməyi başa vurdum. Əynimdəki yaş tumanla işlər müdirinin qapısına yaxınlaşdım. O qapını açdı. O mənim xoşuma gəlmişdi.

– Hə, dostum, indi işıqları söndürə bilərsən. Mən doyunca üzdüm. Sən əlasan, körpəm, sən əlasan.

Biz mənzilimizə qayıtdıq.

– Gəl bir az içək, – Bobbi dedi. – Bilirəm ki, qanın qaradır.

Mən içəri girdim və iki qədəh içdim.

Valeri dedi:

– Qulaq as, Henk, sən və sənin qadınların! Sən axı onların hamısını sikə bilməzsən, başa düşürsənmi?

– Ya qələbə, ya ölüm!

– Gecəni rahat yat, keçib gedər, Henk.

– Gecəniz xeyrə qalsın, dostlar və sağ olun...

Mən öz yataq otağıma qayıtdım. Sesiliya arxası üstə uzanıb xoruldayırdı:

– Xorrrrr, xorrrr, xorrrrr...

O mənim gözümə çox piyli göründü. Yaş tumanımı çıxardım və yatağa girdim. Onu silkələdim

– Sesiliya, sən XORULDUYURSAN!

– Ahmmm, ohmmm... üzr istəyirəm....

– Yaxşı, Sesiliya. Bu lap evlilikdə olduğu kimidir. Səhər sənin işinə baxaram, ona qədər özümə gəlmiş olacam.

81

Məni nəsə bir səs yuxudan oyatdı. Dan yeri hələ tam sökülməmişdi. Sesiliya ətrafda gəzərək əynini geyinirdi.

Mən öz saatıma baxdım.

– Səhər saat beşdir. Sən neyləyirsən?

– Günəşin doğuşuna tamaşa eləmək istəyirəm. Günəşin doğmasına baxmağı xoşlayıram!

– İndi məlum oldu sən niyə içmirsən.

– Mən qayıdaram, sonra birlikdə səhər yeməyi yeyərik.

– Qırx ildir ki, mən səhər yeməyini yeyə bilmirəm.

– Mən günəşin doğuşuna tamaşa eləməyə gedirəm, Henk.

Ağzı qapaqlı pivə şüşəsini tapdım. Pivə isti idi. Onu açdım və bir neçə udum içdım. Sonra yenə yuxuya getdim.

Təxminən səhər saat 10:30-da qapı döyüldü.

– Buyurun...

Qapıda Bobbi, Valeri və Sesiliya göründülər.

– Biz elə indicə birlikdə səhər yeməyini yedik, – Bobbi dedi.

– İndi isə Sesiliya ayaqqabılarını da çıxarıb çimərlikdə gəzmək istəyir, – Valeri dilləndi.

– Mən həyatımda heç vaxt Sakit Okeanı görməmişəm, Henk. O necə də gözəl imiş!

– Mən indi geyinib gəlirəm...

Biz sahil boyu gəzişməyə başladıq. Sesiliya çox xoşbəxt görünürdü. Dalğalar sahilə çatıb onun yalın ayaqlarının üstündən keçəndə o, uşaq kimi qışqırırdı.

– Uşaqlar, siz davam edin, – mən dedim, – mən burada bar olub olmadığına baxacam.

– Mən də sənlə gəlirəm, Bobbi dilləndi.

– Mən isə Sesiliyaya göz-qulaq olaram, – Valeri dedi....

Biz ən yaxınlıqdakı barı tapdıq. Orada yalnız iki boş kətil qalmışdı. Biz həmin kətillərdə oturduq. Bobbi kişi üçün olan kətildə, mən isə qadın üçün olan kətildə oturdum. İçki sifariş etdik.

Mənim yanımda əyləşmiş qadının 26-27 yaşı olardı. Onu nə isə yorub əldən salmışdı – onun gözləri ilə ağzı çox yorğun görünürdü – amma buna baxmayaraq, o özünü sındırmırdı. Onun tünd rəngli və yaxşı qulluq görmüş səliqəli saçları vardı. Əyninə ətək geyinmişdi, ayaqları da çox qəşəng idi. Ruhən o topaz idi, bunu onun gözlərindən görmək olurdu. Mən qıçımı onun qıçına söykədim. O isə heç yerindən qımıldanmadı. Mən öz qədəhimi aşırdım.

– Mənə bir qədəh içki al, – deyə ondan xahiş etdim.

O, başı ilə barmenə işarə etdi. Barmen bizə yaxınlaşdı.

– Bu cənab üçün bir qədəh araq-7 süz.

– Sağ olun...

– Babetta.

– Sağ olun Babetta. Mənim adın Henri Çinaskidir, əyyaş şair.

– Sənin haqqında heç eşitməmişəm.

– Mən də sənin haqqında.

– Mən çimərliyin yaxınlığındakı dükanı işlədirəm. Bəzək-düzək və zir-zibil satıram, əsasən, zir-zibil.

– Biz tən gələrik. Mənim də yazdıqlarımın çoxusu zir-zibildir.

– Əgər bu dərəcədə pis yazıçısınızsa, bəs nə üçün buna son vermirsiniz?

– Mən bəzi şeylər yeməliyəm, haradasa yaşmalıyam və nəsə geyinməliyəm axı. Mənə bir qədəh də içki alın.

Babetta yenə başı ilə barmenə işarə etdi və mənim bir qədəh də içkim oldu.

Biz qıçlarımızı bir-birinə yapışdırıb oturmuşduq.

– Mən siçovulam, – ona dedim, – daim qəbiz oluram, üstəlik şeyim də durmur.

– Sənin bağırsaqların haqqında bir söz deyə bilmərəm. Lakin sən siçovulsan və şeyin də durur.

– Sizin telefon nömrəniz neçədir?

Babetta qələm çıxarmaq üçün öz çantasında eşələndi.

Elə bu dəmdə Sesilya ilə Valeri bara daxil oldular.

– Aaa, – Valeri dedi, – budur bizim düdəmələrimiz burdadılar. Sənə demişdim axı. Ən yaxın barda olacaqlar!

Babetta sürüşüb öz kətilindən düşdü və bardan çıxdı. Pəncərədən asılmış pərdələrin arxasından onun siluetini görə

bilirdim. O, sahilyanı səki ilə bizdən uzaqlaşırdı və onun əla bədəni vardı. Söyüd ağacı kimi incə və əsnək. Küləkdə ora-bura əyilirdi və beləcə, gözdən itdi.

82

Sesiliya oturub bizim içki içməyimizə tamaşa edirdi. Bunun onda necə ikrah hissi doğurduğunu görə bilirdim. Mən ət yeyirdim. Mənim Allahım yox idi. Sikişməkdən xoşum gəlirdi. Təbiət məni maraqlandırmırdı. Heç vaxt səsvermədə iştirak etməmişdim. Müharibələrdən xoşum gəlirdi. Ətraf mühit məni darıxdırırdı. Beysbol məni darıxdırırdı. Tarix məni darıxdırırdı. Heyvanat parkı məni darıxdırırdı.

– Henk, – Sesiliya dedi, – mən bir az bayıra çıxmaq istəyirəm.

– Bayırda nə var axı?

– Hovuzda üzən insanlara tamaşa etməkdən çox xoşum gəlir. Onların sevinməsinə baxmaqdan xoşum gəlir.

Sesiliya yerindən qalxıb bardan çıxdı.

Valeri ucadan qəhqəhə ilə güldü. Bobbi də güldü.

– Yaxşı, söz verirəm ki, daha onun tumanına girməyə çalışmayacam.

– Bəs istərdinmi? – deyə Bobbi soruşdu.

– Bu, əslində, mənim şəhvani hisslərimi yox, eqomu zədələyir.

– Hə, bir də öz ahıl yaşını unutma, – Bobbi dedi.

– Qoca şovinistdən pis heç nə ola bilməz, – deyə mən cavab verdim.

Biz sükut içində içki içməyimizə davam etdik.

Təxminən bir saat sonra Sesiliya bizim yanımıza qayıtdı.

– Henk, mən getmək istəyirəm.

– Hara?

– Hava limanına. San-Fransiskoya uçmaq istəyirəm. Bütün əşyalarım yanımdadır.

– Mən buna etiraz eləmirəm. Lakin bizi buraya Valeri ilə Bobbi öz maşınlarında gətiriblər. Bəlkə onlar hələ buranı tərk eləmək istəmirlər.

– Eybi yoxdur, biz onu Los-Ancelesə apararıq, – Bobbi dedi.

Biz öz hesabımızı ödədik və maşınımıza mindik: Bobbi sükan arxasında, Valeri onun yanındakı ön oturacaqda, Sesiliya ilə mən isə arxada. Sesiliya qapıya tərəf sıxılaraq məndən mümkün olduğu qədər aralı oturmağa çalışırdı.

Bobbi maqnitofonu işə saldı. Musiqi sədaları arxa oturacağa sahilə çırpılan dalğa kimi vurdu. Bob Dilan oxuyurdu. Valeri bizə nəşə dolu bir siqaret uzatdı. Mən bir qullab vurandan sonra onu Sesiliyaya ötürmək istədim, amma o büzüşərək məndən bir az da uzaqlaşdı. Əlimi uzadın onun dizini oxşadım, sıxdım. O, mənim əlimi özündən kənara itələdi.

– Ey, siz, arxadakılar orda necəsiniz? – deyə Bobbi bizdən soruşdu.

– Bu sevgidir, – deyə cavab verdim.

Biz təxminən bir saat yol getdik.

– Hə, bu da hava limanı, – Bobbi dedi.

– Sənin hələ düz iki saat vaxtın var, – Mən Sesiliyaya dedim. – Biz mənim evimə qayıdıb orada gözləyə bilərik.

– Bu problem deyil, – deyə Sesiliya cavab verdi. – Mən indi getmək istəyirəm.

– Yaxşı, bəs hava limanında iki saat neyləyəcəksən? – mən ondan soruşdum.

– Ah, – Sesiliya dedi, – Mən hava limanlarını çox sevirəm.

Biz maşını terminalın önündə saxladıq. Mən sıçrayaraq maşından düşdüm və onun əşyalarını boşaltdım. Biz yanaşı dayanarkən, Sesiliya pəncələrinin üstünə qalxaraq mənim yanağımdan öpdü. Mən onu ötürmədim.

83

Mən şimalda bədii qiraətlə çıxış etməyə razılıq vermişdim. Qiraət başlamazdan əvvəl, günorta vaxtı "Holidey İnn" otelinin nömrəsində oturub gecənin təşkilatçısı Cou Vaşinqtonla, yerli şair Dadli Barri və onun dostu Pol ilə pivə içirdim. Dadli tualet otağından çıxıb bizə elan etdi ki, o homoseksualdır. O əsəbi, piyli və təkəbbürlü bir adam idi. Aramsız olaraq otaqda var-gəl edirdi.

– Sənin bədii qiraətin yaxşımı olacaq?

– Bilmirəm.

– Sən kütlələri özünə cəlb edə bilirsən. Aman Allahım, sən bunu necə edirsən axı? Onlar növbəyə durmaq üçün bütün məhəlləni dövrəyə alıblar.

– Onların qan axıdılmasına tamaşa etməkdən xoşları gəlir.

Dadli Polun sağrılarından yapışdı.

– Sənin götünü dağıdacam, körpəm! Sonra da sən mənim dalımı dağıdarsan!

Cou Vaşinqton pəncərənin önündə dayanmışdı.

– Ey, bir ora baxın yolun qarşı tərəfi ilə Uilyam Berrouz gəlir. Onun mehmanxanadakı nömrəsi sənin otağının qonşuluğundadır. O sabah axşam qiraətlə çıxış edəcək.

Mən pəncərəyə yaxınlaşdım. Hə, doğrudan da bu gələn Uilyam Berrouz idi. Mən pəncərədən geri çevrildim və yeni bir pivə şüşəsi açdım. Bizim otağımız üçüncü mərtəbədə yerləşirdi.

Berrouz pilləkənlərlə yuxarı qalxdı, mənim pəncərəmin önündən keçdi, öz otağının qapısını açdı və otağa girdi.

– Onunla tanış olmaq istəyirsənmi? – Cou məndən soruşdu .

– Yox.

– Mən bir dəqiqəlik onun yanına getməliyəm.

– Yaxşı.

Dadli ilə Pol bir-biri ilə “göttütdü” onayırdular. Dadli gülür, Pol isə, əvvəlcə, irişir, sonra isə qızarırdı.

– Uşaqlar, siz niyə xəlvətə çəkilib bu oyununuzu oynamırsınız axı?

– O necə də qəşəngdir, düz demirəmmi? – Dadli soruşdu. – Cavan oğlan uşaqlarından ötrü ölürəm!

– Məni daha çox qadınlar maraqlandırır.

– Sən nə itirdiyinin fərqində deyilsən.

– Mənim üçün narahat olma.

– Cek Mitçel transcestitlərlə oturub durur. Onlara şeirlər həsr edir.

– Onlar, heç olmasa, qadınlara bənzəyirlər.

– Bəziləri, hətta qadınlardan da gözəl görünürlər.

Mən susaraq içməyə davam elədim.

Cou Vaşinqton yanımıza qayıtdı.

– Berrouza sənin qonşu nömrədə olduğunu söylədim. Ona dedim: “Berrouz, Henri Çinaski qonşu nömrədə qalır” . O isə: “Ah, eləmi?” – dedi. Ondan səninlə tanış olmaq istəyib-istəmədiyini soruşdum. O “yox” – cavabını verdi.

– Belə məkanlarda soyuducu qoymaq lazımdır, – mən dedim. – Bu lənətə gəlmiş pivə o dəqiqə isinir.

Mən buz generatoru tapmaq üçün otaqdan çıxdım. Berrouzun otağının yanından keçəndə, o, pəncərənin yanında qoyulmuş kresloda oturmuşdu. Laqeydliklə dönüb mənə baxdı.

Buz generatorunu tapdım. Ordan buz götürərək otağıma qayıtdım. Buzları əlüzyuyanın çanağına tökdüm və pivə şüşələrini onların içinə saldım.

– Məncə sən içib tamamilə sərxoş olmaq fikrində deyilsən, – Cou dedi. – Sərxoş olan kimi dilin çox pis topuq vurmağa başlayır.

– Bu onların heç vecinə də deyil. Onlar məni, sadəcə, dara çəkilmiş vəziyyətdə görmək istəyirlər.

– Bir saatlıq işə görə 500 dollar? – Dadli soruşdu. – Sən bunu dara çəkilmək adlandırırsan?

– Hə, elədi.

– Hə, sən əsl Məsihsənmiş!

Daddli ilə Pol getdilər, Cou ilə mənsə çörək yemək və içmək üçün yerli qəhvəxanaya girdik. Özümüz üçün boş bir masa tapıb oturduq. İlk nəzərimizə çarpan şey tanımadığımız insanların öz stullarını bizim masamıza tərəf çəkmələri oldu. Hamısı da erkək. Nə zibilə düşdük. Orada bir neçə qəşəng qız da vardı. Amma onlar, sadəcə, bizə baxaraq gülümsəyirdilər, ya da bizə baxmır və gülümsəmirdilər. Mən belə qərara gəldim ki, gülümsəməyən qızlar qadınlara qarşı göstərdiyim münasibətə görə mənə nifrət edənlər idi. Qoy sikdirsinlər.

Cek Mitçel ilə Mayk Tafts da orada idilər. Onların hər ikisi şairdi. Poeziyadan bir qara qəpik belə qazana bilməsələr də, onların heç biri pul qazanmaq üçün heç bir işlə məşğul olmurdu. Onlar öz iradələrinin gücünə və verilən sədəqələrin hesabına birtəhər həyatlarını sürdürürdülər. Mitçel, həqiqətən də yaxşı şair idi, amma bəxti gətirmirdi. O daha yaxşı həyata layiq idi. Sonra müğənni Blast Qrimly içəri daxil oldu. Blast hər zaman sərxoş olardı. Onu heç vaxt

ayıq görməmişəm. Masanın arxasında daha bir neçə nəfər vardı. Onları tanımırdım.

– Cənab Çinaski?

Mənə yaxınlaşan qısa ətəkli yaşıl don geyinmiş qəşəng və şirin bir qız uşağı idi.

– Buyurun?

– Bu kitabı mənim üçün imzalayardınızmı?

Bu mənim ilk şeir kitablarımdan biri idi. Həmin şeirləri poçt idarəsində işlədiyim zaman yazmışdın – "Otağın və Mənim Ətrafımda Dolanan" adlı şeir kitabı. Kitabı imzaladım, bir rəsm cızdım və onu geri qaytardım.

– Ah, çox təşəkkür edirəm!

Qız çıxıb getdi. Ətrafıma toplaşmış bu əclaflar mənim hərəkət etmək şansımı məhv eləmişdilər.

Çox keçmədən masamızın üstündə 4, ya da 5 dənə pivə qrafini peyda oldu. Mən özüm üçün bir buterbrod sifariş etdim. 2-3 saat içdik, sonra mən öz nömrəmə qayıtdım. Soyumaq üçün çanağa qoyduğum pivələri də içib bitirəndən sonra yatağa girib yuxuladım.

Bədii qiraət haqqında demək olar ki, heç nə xatırlamasam da, ertəsi gün yatağımda tək-tənha ayıldım. Təxminən səhər saat 11-də Cou Vaşinqton qapımı döydü.

– Ey, dostum, bu sənin ən yaxşı qiraətlərindən biri idi!

– Doğrudan? Sən məni dolamırsan ki?

– Əlbəttə, yox. Sən əla oxuyurdun. Al, bu da çek.

– Sağ ol, Cou.

– Sən Berrouzla tanış olmaq istəmədiyinə əminsənmi?

– Əminəm.

– O bu gün axşam qiraətlə çıxış edəcək. Onun qiraətinə qulaq asmaq üçün qalacaqsanmı?

– Yox, mən geri – Los-Ancelesə dönməliyəm, Cou.

– Onun qiraətinə heç qulaq asmısanmı?

– Cou, mən duş qəbul edib buradan sürüşmək istəyirəm. Sən məni öz maşınınla hava limanına apararsanmı?

– Əlbəttə.

Biz nömrəni tərk edəndə, Berrouz pəncərənin yanındakı kreslosunda oturmuşdu. O məni gördüyünü heç biruzə vermədi. Bir anlıq ona baxdım və keçib getdim. Çek

əlimdə idi. At yarışlarına tələsdiyimdən səbrimi basa bilmirdim...

84

San – Fransiskoda yaşayan bir xanımla bir neçə ay olardı ki, məktublaşırdım. Onun adı Liza Ueston idi. O, öz studiyasında həm balet, həm də rəqs dərsləri verməklə dolanırdı. 32 yaşı vardı. Bir dəfə ərdə olmuşdu. Onun çəhrayı rəngli vərəqlərə yazdığı bütün məktubları çox uzun olurdu. Amma onları yazı makinasında səhvsiz çap edirdi. Yazı üslubu pis deyildi – ağıllı və demək olar ki, mübaliğəsiz yazırdı. Onun məktublarını oxumaqdan həzz alırdım və məktubları cavablandırırdım. Liza ədəbi üsluba çox girişmir və ədiblərin dili ilə desək, böyük məsələlərdən kənarda dururdu. O mənə adi və balaca hadisələr haqqında yazırdı. Amma yazdıqlarını çox dərindən dərk edərək və bir az da yumor hissi ilə təsvir edirdi. Bir gün elə alındı ki, o, rəqs kostyumları almaq üçün bir neçə günlüyünə Los-Ancelesə gəlməli olduğu haqqında mənə yazdı və məktubunda mənim onunla görüşmək istəyib-istəmədiyimi

soruşdu. Cavabında əlbəttə görüşmək istədiyimi qeyd etdim. Üstəlik bildirdim ki, hətta istəsə mənim evimdə qonaq da qala bilər. Amma aramızdakı yaş fərqini nəzərə alaraq, mən öz çarpayımda, o isə divanda yatmalı olacaq. O isə cavab məktubunda yazdı ki, gəlişini xəbər vermək üçün mənə zəng vuracaq. Üç, ya da dörd gün sonra telefonum zəng çaldı. Bu, Liza idi.

– Mən indi şəhərdəyəm, – Liza dedi.

– Siz hava limanındasınızmı? Gəlib sizi oradan götürərəm.

– Taksi tutmaq fikrindəyəm.

– Taksi bahadır axı.

– Mənim üçün belə daha rahatdır.

– Siz nə içirsiniz?

– Mən elə də çox içmirəm. Ona görə də, siz nə içsəniz...

Evdə oturub onun gəlişini gözləməyə başladım. Belə vəziyyətlərdə, həmişə özümü çox narahat hiss edirəm. Onlar faktiki olaraq mənim yanıma gələndə, içimdə bir hiss az qala bunun baş verməməsini arzulayır. Liza məktublarında

qəşəng olduğunu yazmışdı. Amma fotoşəkillərini görməmişdim. Bir dəfə həyatımda məktublaşdığım qadına onu görmədən evlənəcəyimə söz vermişdim. O da mənə çox ağıllı məktublar yazırdı, amma iki il yarım çəkən evliliyim fəlakətlə nəticələndi. İnsanlar çox zaman öz məktublarında həyatda olduqlarında daha yaxşı "görünürlər". Bu baxımdan onlar şairlərə çox bənzəyirlər.

Mən otaqda əsəbiliklə var-gəl edirdim. Birdən həyətin cığırı ilə kiminsə gəldiyini eşitdim. Pərdəyə yaxınlaşdım və onun arasından bayıra baxdım. Pis deyildi. Qara saçları vardı. Səliqəli geyinmişdi, uzun yubkasının ətəkləri topuqlarını örtürdü. Başını dik tutaraq vüqarla addımlayırdı. Gözəl burnu və adi ağzı vardı. Əyninə don geymiş qadınlar çox xoşuma gəlirdilər. Onlar mənə keçmiş günlərimi xatırladırdılar. Onun əlində balaca bir çemodan vardı. Qapı döyüldü, Qapını açdım.

– Buyurun, içəri keçin.

Liza çemodanını döşəməyə qoydu.

– Buyurun, əyləşin.

O, üzünə çox az makiyaj sürtmüşdü. Qəşəng idi. Saçları dəbə uyğun və qısa kəsilmişdi.

Ona bir qədəh araq-7 təklif etdim və bir qədəh də özüm üçün süzdüm. Çox sakit görünürdü. Onun üzündə bir zamanlar çəkdiyi əzab-əziyyətin izlərini görmək olurdu – yəqin həyatında bir – iki çətin dövrdən keçməli olub. Elə mən özüm də.

– Sabah bir neçə kostyum almalıyam. Los-Ancelesdə bir maqazin var, çox qeyri-adi maqazindir.

– Sizin əyninizdəki donu çox bəyəndim. Məncə, tam qapalı geyinmiş qadın çox cazibəli olur. Əlbəttə, belə əyin-başla qadının qaməti haqqında bir söz söyləmək çətin olur, amma bu haqda mühakimə yürütmək mümkündür.

– Siz lap elə sizin haqqınızda düşündüyüm kimisiniz. Siz, ümumiyyətlə, heç nədən çəkinmirsiniz.

– Sağ olun.

– Siz mənə utancaq adam təsiri bağışlayırsınız.

– Bu mənim üçüncü qədəhimdir.

– Bəs dördüncü qədəhdən sonra nə baş verir?

– Demək olar ki, heç nə. Mən onu içirəm və beşinci qədəhin vaxtının gəlib çatmasını gözləyirəm.

Qəzet almaq üçün evdən çıxdım. Evə geri qayıdanda, Liza uzun ətəkli yubkasını dizlərindən bir qədər yuxarı qaldırmışdı. Çox gözəl görünürdü. Onun əla dizləri və qəşəng qıçları vardı. Bu günüm (əslində gecəm) canlanmağa başlamışdı. Onun məktublarından bilirdim ki, o da Sesiliya kimi sağlam qida tərəfdarıdır. Bununla belə o özünü Sesiliyadan tamamilə fərqli aparırdı. Mən divanın o bir başında oturub hərdənbir onun qıçlarına oğrun-oğrun baxırdım. Axı, bütün həyatım boyu qadın qıçlarından coşan bir adam olmuşam.

– Sənin çox gözəl qıçların var, – nəhayət, dözməyib Lizaya dedim.

– Qıçlarım xoşuna gəlir? – deyərək o, ətəyini bir düym də yuxarı qaldırdı. Lap dəli olmaq olardı. O gözəl ayaqlar parçanın altından xilas olaraq gün işığına çıxırdılar. Bu, qısa ətəklərdəkindən daha cazibəli bir mənzərə idi.

Növbəti qədəhdən sonra, mən divanda sürüşərək Lizaya yaxınlaşdım.

– Sən gəlib mənin rəqs studiyamı görməlisən, – o dedi.

– Mən rəqs edə bilmirəm.

– Bilərsiniz. Mən sizə öyrədərəm.

– Pulsuz?

– Əlbəttə. Sizin kimi iri bədənli birisi üçün sizin ayaqlarınız çox çevikdir. Sizin gəzişinizə baxmaqla mən deyə bilərəm ki, siz gözəl rəqs edə bilərsiniz.

– Onda danışdıq. Sizin divanınızda da mən yatacam.

– Mənim çox gözəl bir mənzilim var. Amma yatmaq üçün su yatağından başqa heç nəyim yoxdur.

– Yaxşı.

– Amma gərək sizin üçün yemək bişirməyimə icazə verəsiniz. Sağlam yemək.

– Qulağa çox xoş gəlir, – mən bir daha onun qıçlarına baxdım. Sonra onun bir dizini oxşadım. Onu öpdüm. O, bir yalnız qadın kimi mənim öpüşümə öpüşlə cavab verdi.

– Sizcə, mən cazibədar qadınammı? – Liza soruşdu.

– Hə, əlbəttə. Amma sizdə ən çox xoşuma gələn cəhət sizin üslubunuzdur. Sizdə nəsə yüksək bir çalar, nəsə yüksək bir ahəng var.

– Siz yaxşı xətt götürmüsünüz, Çinaski.

– Belə olmalıyam. Mənim artıq 60 yaşım var.

– Sizə ən çoxu 40 yaş vermək olar, Henk.

– Siz də yaxşı xətt götürmüsünüz, Liza.

– Belə olmalıyam. Mənim də artıq 32 yaşım var.

– Mən şadam ki, siz 22 yaşında deyilsiniz.

– Mən də şadam ki, siz 32 yaşında deyilsiniz.

– Bu, tam bir şadlıq gecəsi oldu, – mən dedim.

Hər ikimiz də öz içkilərimizdən udumlar alırdıq.

– Siz qadınlar haqqında nə düşünürsünüz? – Liza məndən soruşdu.

– Mənim çox düşünməklə aram yoxdur, mütəfəkkir deyiləm. Hər bir qadın fərqlidir. Ümumiyyətlə götürdükdə isə qadınlar yaxşı və pisin qarışığı kimi görünürlər – həm sehrli, həm də qorxunc.

– Onlarla necə rəftar edirsiniz?

– Onlar mənimlə mənim onlara rəftarımdan daha yaxşı rəftar edirlər.

– Sizcə bu ədalətlidirmi?

– Ədalətli deyil, amma real vəziyyət belədir.

– Siz səmimisiniz.

– O qədər də yox.

– Sabah yeni kostyumları alandan sonra onları geyinib baxmaq istəyirəm. Onlardan hansının əynimdə yaxşı oturduğunu, hansını ən çox bəyəndiyinizi mənə deyərsiniz.

– Əlbəttə. Amma uzun donlar mənim daha çox xoşuma gəlir. Tərz dediyim budur.

– Mən hər cür kostyum alacam.

– Əynimdəki köhnə paltarlar cırılıb tamam dağılmayanadək yenisini almıram.

– Sizin xərcləriniz bir balaca fərqlidir.

– Liza, bu qədəhdən sonra mən yatmağa gedirəm, yaxşımı?

– Əlbəttə.

Onun yorğan-döşəyini döşəməyə təpə kimi yığdım.

– Bu odeyallar bəs edərmi?

– Hə.

– Bəs yastıqlar necə, yaxşıdırmı?

– Əlbəttə.

Mən öz qədəhimi aşırdım, yerimdən qalxdım və giriş qapısının cəftəsini bağladım.

– Sizi bu otaqda bağlamıram, özünüzü rahat hiss edin.

– Mən rahatam...

Yataq otağına keçdim. İşığı söndürdüm, əynimi soyundum və odeyalın altına girdim.

– Görürsünüzmü, – deyə ucadan ona dedim, – sizi heç zorlamadım da.

– Oh, – deyə o cavab verdi, – kaş siz bunu edəydiniz!

Mən onun sözlərinə heç də inanmadım. Amma bunu eşitmək qulağıma nə qədər xoş gəldi. Mən onunla kifayət qədər ədalətlə oynamışdım. Liza gecəni qalacaqdı.

Yuxudan ayılanda, onun vanna otağında olduğunu eşitdim. Bəlkə ona şəpləməliydim? İnsan nə etməli olduğunu necə bilsin axı? Beləliklə, qərara gəldim ki, əgər birisinə qarşı içində hansısa hisslərin yaranması ehtimalı varsa, gözləmək ən yaxşısıdır. Əgər ondan dərhal zəhlən gedərsə, onu dərhal sikməkdən yaxşısı yoxdur; amma əgər vəziyyət başqa cürdürsə, onda gözləməyinə dəyər, sonra onu qayırarsan və ondan bir qədər gec zəhlən gedər.

Liza vanna otağından əynində orta uzunluqlu qırmızı bir donla çıxdı. Paltar onun əyninə kip otururdu. Onun gözəl qaməti və tərzi vardı. O mənim yataq otağındakı güzgümün qarşısında dayanıb öz saçları ilə oynayırdı.

– Henk, mən indi kostyumları almağa gedirəm. Sən isə yataqda qal. Dünənki içkidən sonra, yəqin özünü pis hiss edirsən.

– Niyə axı? Bizim ikimiz də eyni qədər içmişdik.

– Sənin mətbəxdə gizlicə içdiklərindən də xəbərim var. Sən niyə belə edirdin?

– Bəlkə də qorxurdum.

– Sən? Qorxurdun? Mən elə bilirdim ki, sən iri, sərt, içki içən və qadın sikənsən, hə?

– Sənin ümidlərini boşamı çıxardım?

– Yox.

– Mən qorxurdum. Mənim sənətim mənim qorxularımdır. Mən onlardan hərəkətə başlayıram.

– Mən bir neçə kostyum almalıyam, Henk.

– Sən mənə acıqlanmısan. Səni pis vəziyyətdə qoydum.

– Yox, bu əsla belə deyil. Mən qayıdacam.

– Yaxşı, bəs dükan harda yerləşir?

– 87-ci küçədə.

– 87-ci küçədə? Aman Tanrım, bu ki “Uotts”dur!

– Sahilboyunda ən yaxşı kostyumlar onların dükanındadır.

– Ora zəncilərin yaşadığı rayondur!

– Nədi, sən zəncilərə qarşısan?

– Mən hər şeyə qarşıyam.

– Mən taksi ilə gedəcəm. Təxminən 3 saatdan sonra qayıdacam.

– Sən qisası bu yollamı almağı düşünürsən?

– Axı sənə dedim ki, qayıdacam. Öz əşyalarımı burda qoyub gedirəm.

– Sən bir də heç vaxt geri gəlməzsən.

– Qayıdacam. Hələ özümü idarə edə bilirəm.

– Yaxşı, onda bura bax... onda taksi tutma.

Mən yerimdən qalxdım, cins şalvarımı tapdım, cibimdən folksvagenin açarını çıxarıb dedim:

– Al mənim folksvagenimlə get. Nömrəsi TRV 469-dur, bayırda saxlamışam. Amma muftaya ehtiyatla bas,

ikinci sürət pilləsi də yetişib, deyəsən, çünki rıçaqı 3-dən 2-yə atanda xır-xır səs çıxarır...

O açarları aldı. Mən yatağa uzandım. Liza mənim üstümə əyildi. Mən ondan yapışıb bir az da aşağı, özümə tərəf çəkdim və onun boyun-boğazını öpüşlərə qərq elədim. Ağzımdan pis qoxu gəlirdi.

– Hə, burnunu sallatma, – o dedi. – İnan mənə. Bu gecə biz bayram edəcəyik və moda nümayişi olacaq.

– Mən artıq səbirsizlənirəm, ürəyim partlamaq üzrədir.

– Partlamaz, gözləyərsən.

– Gümüşü rəngli açar sürücünün qapısını açır. Qızılı rəngli açar isə mühərriki işə salır...

O əynindəki orta uzunluqlu qırmızı donu ilə çıxıb getdi. Qapının örtülməyini eşitdim. Ətrafa baxdım. Onun balaca çemodanı hələ də orada idi. Və onun ayaqqabıları da xalının üstündə dururdu.

85

Mən yuxudan ayılanda, saat 1:30 idi. Vanna qəbul etdim, əynimi geyindim və poçtumu yoxladım. Qlendeyldə yaşayan bir cavan oğlandan məktub gəlmişdi.

“Hörmətli, cənab Çinaski,

Mən gənc yazıçıyam və düşünürəm ki, yaxşı yazıçıyam, çox yaxşı yazıçı. Amma nədənsə, mənim şeirlərim daima geri – üstümə göndərilir. Bu oyuna insanlar necə daxil olurlar? Bunun sirri nədir? Bunun üçün kimləri tanımaq lazımdır? Sizin şeirlərinizin qızğın pərəstişkarıyam və istərdim ki, yanınıza gəlib bu məsələləri sizinlə müzakirə edim. Gələndə özümlə bir cüt 6-lıq pivə paketi gətirəcəyəm ki, rahat oturub söhbət edə bilək. Sizə, həmçinin, öz şeirlərimdən bir neçəsini oxumaq istərdim...”

Bu zavallı dümbələyin heç vaxt mamışı olmayıb. Məktubu zibil qabına atdım.

Təxminən bir saat sonra Liza qayıtdı.

– Oh, mən ən gözəl kostyumları tapmışam!

Onun qucağı paltar ilə dolu idi. Yataq otağına keçdi. Bir müddət keçəndən sonra Liza geri mənim olduğum otağa qayıtdı. Əynində hündür yaxalıqlı uzun bir don vardı və o

qarşıma gəlib fırlandı. Don onun sağrılarının üstünə çox gözəl otururdu. Qızılı və qara rənglərin qarışığı bir don, ayaqlarında isə qara tuflilər. Qarşımda bir balaca rəqs də etdi.

– Xoşuna gəlir?

– Ah, əlbəttə... – Mən oturdum və sonra nə olacağını gözləməyə başladım.

Liza yenə yataq otağına qayıtdı. Sonra isə içində gümüşü parıltıların olduğu yaşıl və qırmızı rənglərin qarışığından ibarət bir donla gəldi. Donun düz orta hissəndə dəlik vardı və oradan Lizanın göbəyi görünürdü. Kostyumları nümayiş etdirərək qarşımdan keçərkən, o mənim düz gözlərimin içinə çox qəribə bir ifadə ilə baxırdı. Bu baxışlarda nə utancaqlıq, nə də seksuallıq vardı, sadəcə, mükəmməllik.

Mənə neçə kostyum nümayiş etdirdiyini xatırlamıram. Amma sonuncusu məni lap valeh etdi. Paltar onun bədən formalarını təkrar edir və ətəklərinin hər tərəfindən kəsiklər keçirdi. O, otaqda dövrə vuraraq gəzdikcə, əvvəlcə kəsiklərin arasından bir qıç görünür, sonra isə o birisi bayıra

çıxırdı. Don qara rəngdə idi və parıldayırdı, yaxasında isə dərin bir dekolte vardı.

O, otaqda gəzişdiyi vaxt mən yerimdən qalxdım və onu qamarladım. Onu arxaya əyərək qızğın öpüşlərə qərq etdim. Onu öpməyimə ara vermədən onun uzun ətəkli donunu yuxarı qaldırmağa başladım. Donun ətəyini arxadan tutaraq lap yuxarı dartdım və onun sarı tumanını gördüm. Sonra donun ön ətəyini yuxarı qaldırdım və öz şeyimi onun qarnına dürtməyə başladım. Lizanın dili mənim ağzıma girdi – çox sərin idi, elə bil indicə buzlu su içmişdi. Onu geri-geri addımladaraq yataq otağına apardım. Əvvəlcə onun sarı tumanını, sonra isə mənim qısa tumanımı çıxardıq. Öz təxəyyülümə sərbəstlik verdim. Mən onun üstünə əyilərək durduğum zaman, Lizanın qıçları mənim boynuma dolanmışdı. Onun qıçlarını araladım, ona bir az yaxınlaşdım və şeyimi asta-asta onun içinə itələdim. Əvvəlcə, müxtəlif sürətlərdən istifadə edərək, onunla bir az oynaqladım, sonra isə qəzəbli təkanlara, sevgi təkanlarına, qıcıqlandırıcı təkanlara və qaba təkanlara keçdim. Arada bir şeyimi bayıra çıxarır, sonra isə yenidən içəri salırdım və hər şeyi yenidən

başlayırdım. Sonra isə daha özümü saxlamadım, onu son bir neçə dəfə içəridən sığalladım, qurtardım və halsız halda onun yanına uzandım.

Liza məni öpməyə davam edirdi. Mən onun qurtarıb qurtarmadığına əmin deyildim. Mən isə qurtarmışdım.

Biz fransız restoranında nahar etdik. Burada kifayət qədər ucuz qiymətə yaxşı Amerika yeməkləri də verirdilər. Restoranda həmişə müştəri çox olurdu, ona görə də bir az barda oturmağa vaxtımız oldu. Həmin axşam mən özümü Lanselot Lavcoy kimi təqdim eləmişdim və 45 dəqiqə sonra bu adı çağıranda onu yadda saxlamaq üçün kifayət qədər ayıq idim.

Biz bir şüşə şərab sifariş etdik. Şam yeməyin bir qədər təxirə salmaq qərarına gəlmişdik. İçmək üçün üstünə ağ süfrə salınmış balaca bir masanın arxasında qəşəng bir qadınla oturmaqdan daha gözəl bir şərait təsəvvür etmək çətindir.

– Sən, – Liza mənə dedi, ömründə ilk dəfə sikişən bir adam kimi həvəslə qayrışırsan, amma bunula belə, bunu böyük yaradıcılıqla edirsən.

– Bunu köynəyimin qoluna qeyd edə bilərəmmi?

– Əlbəttə.

– Bəlkə nə vaxtsa ondan istifadə edə bilərəm.

– Bircə məndən istifadə etmə, səndən istədiyim sadəcə budur. Sənin növbəti qadınlarından birisi olmaq istəmirəm.

Mən cavab vermədim.

– Bacımın səndən zəhləsi gedir, – Liza dedi. – O mənə dedi ki, sən, sadəcə, məndən istifadə edəcəksən.

– Sənin tərzin birdən hara yox oldu, Liza? Sən də hamı kimi danışmağa başladın.

Şam yeməyinə biz elə də başlaya bilmədik. Evə qayıdandan sonra biz bir neçə qədəh də içdik. O, həqiqətən, mənim çox xoşuma gəlirdi. Mən onu bir balaca sözlə təhqir etməyə başladım. Deyəsən o təəccüblənmişdi, gözlərində yaş damcıları görünürdü. Vanna otağına qaçdı və orada təxminən on dəqiqə qaldı, sonra isə qayıdıb gəldi.

– Mənim bacım haqlı imiş. Sən əclafsanmış!

– Gəl yatağa gedək, Liza.

Biz yatmağa hazırlaşdıq. Çarpayıya uzandıq və mən dərhal onun üstünə dırmaşdım. Sevgi öncəsi oxşamalar,

əzizləmələr olmadan ona itələmək çətin olsa da, mən nəhayət ki, şeyimi ona basa bildim. İşləməyə başladım. Mən elə hey durmadan işləyirdim. Daha bir isti və bürkülü gecə idi. Elə bil təkrarlanan kabus görürdüm. Tərləməyə başlamışdım. Qara qul kimi yorulmaq bilmədən işləyirdim. Şeyim nə boşalır, nə də qurtarmaq istəyirdi. Mən nasos porşeni kimi dala-qabağa vururdum. Nəhayət bezdim və onun üstündən sürüşüb düşdüm.

– Bağışla məni körpəm, deyəsən, həddən çox içmişəm.

Liza başını astaca sinəmdən, sonra da qarnımdan aşağıya sürüşdürdü və şeyimin yanına çatdı, onu yalamağa başladı, yorulmaq bilmədən yaladı, yaladı və elə hey yaladı, sonra onu ağzına aldı və onun üstündə işləməyə başladı...

San-Fransiskoya Liza ilə birlikdə mən də uçdum. Onun mənzili dik bir təpənin üstündə yerləşirdi. Çox gözəl mənzil idi. Orada ilk etdiyim iş sıçmaq oldu. Vanna otağına keçib unitaza oturdum. Hər yanda yamyaşıl üzüm tənəkləri vardı. Hə, çox əcəb unitaz idi. Xoşuma gəldi. Mən hamamxanadan çıxandan sonra, Liza məni iri yastıqların üstünə otuzdurdu. Motsartın musiqisini qoşdu və mənə soyudulmuş şərab

süzdü. Nahar vaxtı gəlib çatmışdı və Liza mətbəxə keçib nəsə bişirməyə başladı. Ara-sıra mənə şərab süzməyi də unutmurdu. Qadınların evində qonaq olmaq, həmişə onları öz evimdə qəbul etməkdən daha çox xoşuma gəlib. Çünki onların evində olanda, istədiyim vaxt oranı tərk edə bilərdim.

Liza məni nahar yeməyinə çağırdı. Masanın üstündə salat, buzlu çay və toyuq soyutması vardı. Dadı da əla idi. Mən özüm çox pis aşpaz idim. Bircə, mal ətinin qızartmasını bişirə bilirdim, baxmayaraq ki, mal ətinin buğlaması da məndə pis alınmırdı, xüsusilə də sərxoş olan vaxtlarımda. Mal ətinin buğlamasını bişirərkən onunla qumar oynamağı xoşlayırdım. Bu yeməyin içinə əlimə keçən hər şeyi atırdım. Bəzən heç pis də alınmırdı.

Nahardan sonra biz “Fisherman's Wharf”[8] adlanan bir restorana getdik. Liza öz maşınını çox diqqətlə sürürdü. Bu da məni əsəbiləşdirirdi. Yolayrıcına çatanda, o, maşını saxlayıb hər iki tərəfə baxaraq yolda başqa maşınların

[8]Balıqçı Limanı

hərəkət edib-etmədiyinə baxırdı. Heç bir istiqamətdən maşın gəlməsə belə, o yenə oturub gözləyir, məni də gözləməyə məcbur edirdi.

– Liza, lənət şeytana, di tərpən daha. Ətrafda bircə maşın belə yoxdu axı.

Yalnız bundan sonra maşını yerindən tərpədirdi. İnsanlarla həmişə belə olur. Onlarla nə qədər uzun müddət ünsiyyətdə olursansa, onların qəribəliklərini bir o qədər yaxşı görməyə başlayırsan. Bəzən onların qəribəlikləri əyləncəli və gülməli olur – əlbəttə ki, başlanğıcda.

Biz limanda gəzişməyə başladıq. Sonra gedib qumluq bir yerdə əyləşdik. Bura elə də qəşəng çimərlik deyildi.

Söhbətlərində mənə son zamanlarda oğlan dostu olmadığını demişdi. Onun tanıdığı kişilərin onlar üçün vacib olan şeylər haqqında nələr danışdıqlarına inana bilmirdi.

– Qadınlar da heç kişilərdən fərqlənmirlər, – mən ona dedim. – Bir zamanlar Riçard Börtondan soruşanda ki, siz qadınlarda hər şeydən əvvəl hansı xüsusiyyətləri axtarırsınız, o cavab vermişdi: “Onun, ən azından, 30 yaşı olmalıdır”.

Hava qaralırdı və biz onun mənzilinə qayıtdıq. Liza bir şüşə şərab çıxardı və biz yenə yastıqların üstündə oturduq. Liza pəncərənin qapaqlarını açdı və biz gecə səmasına tamaşa etməyə başladıq. Öpüşməyə başladıq. Sonra bir az içdik. Və yenə bir az öpüşdük.

– Sən nə zaman öz işinə qayıdacaqsan?, – mən ondan soruşdum.

– Sən mənim işə getməyimi istəyirsən?

– Yox, amma sən dolanmaq üçün işləməlisən axı.

– Bəs sən özün necə, sən də işləmirsən.

– Niyə ki, müəyyən mənada işləyirəm.

– Demək istəyirsən ki, sən yazmaq üçün yaşayırsan?

– Yox, mən, sadəcə, öz mövcudluğumu sürdürürəm. Bir müddət keçəndən sonra isə xatırlamağa çalışıram və bəzi şeyləri qələmə alıram.

– Mən öz rəqs studiyamı həftədə yalnız üç gün işlədirəm.

– Bu üsulla da dolana bilirsən?

– Hələlik məndə alınır.

Biz daha çox öpüşməyə başladıq. O mənim içdiyim qədər çox içmirdi. Biz su çarpayısına tərəf getdik, əynimizi soyunduq və onun üstünə çıxdıq. Su çarpayısında sikişmək haqqında əvvəllər çox eşitmişdim. Deyilənə görə, əla olmalıydı. Amma mənə bu iş çox çətin gəldi. Altımızdakı su kütləsi aramsız çalxalanır və dalğalanırdı. Mən hərəkət etdikcə, su da bir tərəfdən o biri tərəfə axaraq yırğalanırdı. Onu mənə tərəf itələmək əvəzinə, deyəsən, onu məndən daha da uzaqlaşdırırdı. Bəlkə də mənim bir balaca praktikaya ehtiyacım vardı. Mən yenə özümün yabanı ritualıma başladım: onun saçlarından tutub arxaya çəkirdim, elə bil onu zorlayırdım. Deyəsən bu onun xoşuna gəlirdi, ya da özünü elə göstərirdi, onun ağzından qırıq-qırıq məftunedici iniltilər çıxırdı. Mən bir müddət öz vəhşi hərəkətlərimə davam elədim, sonra birdən, belə başa düşdüm ki, Liza orqazma çatdı – ən azından ondan çıxan səslər belə söyləməyə əsas verirdi. Bu məni daha da həyəcanlandırdı və onun orqazmı bitər-bitməz mən də qurtardım.

Biz yuyunub təmizləndik və yenə yastıqlarla şərabın olduğu yerə döndük. Liza başını mənim dizimin üstünə qoyub yuxuladı. Mən təxminən bir saat beləcə oturdum. Sonra arxası üstə uzanaraq yuxuya getdim. Biz bütün gecəni həmin yastıqların üstündə yuxuladıq.

Ertəsi gün Liza məni özünün rəqs studiyasına apardı. Biz yolun qarşı tərəfində yerləşəm kafedən özümüz üçün buterbrodlar və içki aldıq, onları özümüzlə onun studiyasına apardıq və yedik. Bu, üçüncü mərtəbədə yerləşən böyük bir zal idi. Orada yalın döşəmə, stereo avadanlıq və bir neçə stuldan başqa heç nə yox idi. Yuxarıda isə, lap tavanın dibi ilə kəndirlər çəkilmişdi. O iplərin nəyə lazım olduğu haqda heç bir fikrim yox idi.

– Sənə rəqs etməyi öyrədimmi? – o məndən soruşdu.

– Bilirsən, mən indi rəqs edəsi ovqatda deyiləm, – deyə cavab verdim.

Növbəti gündüzlər və gecələr də elə buradakı ilk günümdən fərqli olmadı. Nə pis deyə bilərdim, nə yaxşı. Su yatağında bir balaca təcrübə qazanmağıma baxmayaraq,

mən yenə də bu işi normal çarpayıda icra etməyə üstünlük verirdim.

Onun evində daha 2-4 gün qalandan sonra, Los-Ancelesə qayıtdım.

Biz bir-birimizlə məktublaşmağa davam edirdik.

Bir ay sonra o yenə Los-Ancelesə gəldi. Bu dəfə mənim qapıma gələndə, onun əynində enli şalvar vardı. O nəsə başqa cür görünürdü, bunun nə olduğunu heç özüm üçün də izah edə bilmirdim, amma o fərqli görünürdü. Onunla bir otaqda oturmaqdan o qədər də ləzzət almadığımdan onu at yarışlarına, kinoya, boxs yarışlarına apardım və ümumiyyətlə, zövq aldığım qadınlarla elədiyim hər şeyi etdim. Amma yenə də elə bil nəsə çatışmırdı. Biz yenə də sekslə məşğul olurduq, amma bu iş daha əvvəlki kimi məni həyəcanlandırmırdı. Özümü onunla evli kimi hiss edirdim.

Beş gün sonra Liza divanda oturmuşdu, mən isə qəzet oxuyurdum və o birdən dedi:

– Henk, heç nə alınmır, düz demirəmmi?

– Hə.

– Problemimiz nədədir?

– Bilmirəm.

– Mən gedirəm. Daha burada qalmaq istəmirəm.

– Sakitləş, vəziyyət sənin düşündüyün qədər də pis deyil.

– Mən, sadəcə, başa düşə bilmirəm.

Mən ona cavab vermədim.

– Henk, məni Qadın Azadlığı Sarayına apar. Binanın harda yerləşdiyini bilirsənmi?

– Hə, Uetsleyk rayonundadır, əvvəllər orada incəsənət məktəbi də vardı.

– Bunu hardan bilirsən?

– Bir vaxtlar oraya başqa bir qadını da aparmışdım.

– Səni vələdüzzina.

– Yaxşı, yaxşı özündən çıxma...

– Orada mənim bir rəfiqəm işləyir. Onun mənzilinin harda olduğunu bilmirəm. Telefon kitabı ilə də onu tapa bilmədim. Amma bilirəm ki, o, Qadın Azadlığı Sarayında işləyir. Bir-iki gün onunla qalmaq istəyirəm. Belə vəziyyətdə San Fransiskoya qayıtmaq istəmirəm...

Liza öz əşyalarını topladı və onları çemodana yığdı. Biz evdən çıxıb maşına mindik və Uetsleyk rayonuna yola düşdük. Bir vaxtlar mən qadınların incəsənət sərgisində iştirak etməsi üçün Lidiyanı ora aparmışdım. Həmin sərgidə Lidiyanın düzəltdiyi bir neçə heykəl fiquru da nümayiş etdirilirdi.

Maşını binanın qarşısında saxladım.

– Sənin rəfiqənin orada olduğuna əmin olmaq üçün səni burda gözləyəcəm.

– Hər şey qaydasındadır. Gedə bilərsən.

– Yox, gözləyəcəm.

Mən gözlədim. Liza bayıra çıxıb mənə əlini yellədi. Mən də əlimi yelləyərək ona cavab verdim, mühərriki işə saldım və maşını sürərək oradan uzaqlaşdım.

86

Təxminən həmin hadisədən bir həftə sonra, günorta vaxtı əynimdə yalnız qısa tumanla evdə oturmuşdum. Kimsə qapımı incə bir şəkildə döydü.

– Bir dəqiqə, – deyə qışqırdım. Əynimə xalatımı geyinəndən sonra qapını açdım.

– Biz Almaniyadan gəlmiş iki qızıq. Sizin kitablarınızı oxumuşuq.

Birisinin 19, digərinin isə, bəlkə də, 22 yaşı olardı.

Mənim bir neçə kitabım Almaniyada məhdud tirajla nəşr edilmişdi. Özüm 1920-ci ildə Almaniyanın Andernax şəhərində doğulmuşdum. Uşaqlıq dövründə yaşadığım evi indi fahişəxanaya çevirmişdilər. Alman dilində danışa bilmirdim. Amma, əvəzində, onlar ingilis dilində danışa bilirdilər.

– İçəri gəlin.

Onlar içəri keçib divanda əyləşdilər.

19 yaşı olan qız dedi:

– Mənim adım Hildadır,

– Mən isə Gertrudayam, – bunu 22 yaşlı qız söylədi.

– Mən də Henkəm.

– Bizim fikrimizcə, sizin kitablarınız həm çox kədərli, həm də çox məzəlidir, – Gertruda.

– Çox sağ ol.

Mən mətbəxə keçib üç qədəh araq-7 süzdüm. Həm onların, həm də özümün qədəhimi ağzınacan doldurdum.

– Biz Nyu-York Sitiyə gedirik. Düşündük ki, yolüstü sizə baş çəkə bilərik, – Gertruda dedi.

Sonra onlar söhbət əsnasında Mexikoda olduqlarını da deməyi unutmadılar. İngilis dilində çox yaxşı danışırdılar. Gertruda ətli-canlı idi. Ona tosqun da demək olardı, başdan-ayağa döşlər və götdən ibarət idi. Hilda isə arıq idi. Sanki, daim nəsə gərginlik içindəydi... elə bil qəbizlikdən əziyyət çəkirdi, amma çox cazibədar görünürdü.

Qədəhimi dodaqlarıma yaxınlaşdıranda, bir ayağımı o birisinin üstünə aşırdım. Xalatımın ətəyi aşağı sürüşərək önümü açdı.

– Ooo, – Gertruda dedi, – sizin çox seksi qıçlarınız var!

– Hə, elədir, – deyə Hilda da onunla razılaşdı.

– Blirəm, –dedim

Qızlar mənzilimdə qalaraq içki məclisində mənimlə həmsöhbət oldular. Mən gedib üç qədəh də içki süzdüm. Bu dəfə yerimə oturanda diqqətli davranaraq xalatımın açılmamasına fikir verdim.

– Qızlar, istəsəz bir neçə gün burada qalıb istirahət edə bilərsiniz.

Onlar cavabında heç nə demədilər.

– Əgər istəmirsinizsə, gedə də bilərsiniz, – mən dedim. – Problem deyil. Oturub bir az söhbət edərik. Sizdən heç nə tələb eləmək fikrində deyiləm.

– Mərcə gələrəm ki, siz çoxlu qadın tanıyırsınız, – Hilda dedi. – Sizin kitablarınızı oxumuşuq.

– Mən yazdıqlarım belletristikadır.

– Belletristika nədir?

– Belletristika real həyatın bəzədilmiş versiyasdır.

– Demək istəyirsiniz ki, sız yalan-əfsanə yazırsınız, – Gertruda soruşdu.

– Hə, bir balaca. Amma çox yox.

– Sizin rəfiqəniz varmı? – Hilda soruşdu.

– Yox. Hazırda yoxdur.

– Biz qalırıq, – Gertruda dedi.

– Mənim evimdə yalnız bir çarpayı var.

– Bu problem deyil.

– Bir də bir şey...

– Nə?

– Baxın ha, mən ortada yatmalıyam.

– Bu da problem deyil.

Mən aramsız olaraq içkiləri qarışdırmağa davam edirdim və çox keçmədi ki, içkimiz qurtardı. Ona görə də şərab dükanına zəng vurdum.

– Mən istərdim ki...

– Bir dayanın görək, dostum, xəttin o biri ucundan dedilər, – axşam 6-ya qədər biz evlərə spirtli içki çatdırmırıq.

– Ciddi deyirsiniz? Mən sizin boğazınıza hər ay 200 dollar dürtürəm...

– Danışan kimdir?

– Çinaski.

– Ahhh, Çinaski... Hansı içkidən istəyirsiniz?

Ona hansı içki lazım olduğunu dedim. Sonra isə əlavə etdim:

– Mənim evimin yerini bilirsinizmi?

– Oh, əlbəttə.

Kuryer 8 dəqiqədən sonra gəldi. Bu həmişə tərləyən kök avstraliyalı idi. İki karobkanı ondan aldım və stulun üstünə qoydum.

– Salam, xanımlar, – tosqun avstraliyalı dedi.

Onlar avstraliyalının salamını almadılar.

– Borcum nə qədərdi, Arbakl?

– Hə, cəmisi 17.94 dollar edir.

Bir iyirmilik verdim. O cibini eşələyərək xırda pul axtarmağa başladı.

– Deyəsən, sənin başqa işin-gücün yoxdu. Gedib özünə yeni bir ev alarsan.

– Sağ olun ser!

Sonra o mənə tərəf əyilərək az qala pıçıltı ilə soruşdu:

– Aman Tanrım, siz bunu necə edirsiniz?

– Makinada yazmaqla, – deyə cavab verdim.

– Makinada yazmaqla?

– Hə, dəqiqədə təxminən 18 söz.

Mən onu bayıra itələdim və qapını bağladım.

Həmin gecə onlarla birlikdə yatağa girdim və onların arasında özümə yer elədim. Hamımız sərxoş idik. Əvvəlcə

onlardan birini qamarlayaraq öpdüm, əlləşdirdim, sonra isə əks tərəfə çevrilib o birisini qamarladım. Gah bit tərəfə, gah da o biri tərəfə çevrilirdim, çox əyləncəli idi. Sonra uzun bir müddət diqqətimi birisini üzərində cəmlədim, daha sonra isə o biri tərəf çevrildim və ikinci qıza keçdim. Onlar səbrlə məni gözləyirdilər. Mən tamam özümü itirmişdim. Gertruda çoxehtiraslı, Hilda isə daha cavan idi. Mən onların götünü dağıdırdım, hər birisinin üstünə çıxırdım amma şeyimi onların amına soxmurdum. Nəhayət, Gertrudanı qayırmaq qərarına gəldim. Amma heç nə edə bilmədim. Çünki həddən artıq çox içmişdim. Gertruda ilə yuxuya getdik, onun əli mənim şeyimdəm yapışmışdı, mənim əllərim isə onun döşlərindən. Mənim şeyim boşalsa da, onun döşləri daş kimi bərk qalmışdı.

Ertəsi gün hava çox isti idi, amma içkimiz ondan da çoxdu. Mən zəng edib yemək sifariş etdim. Sərinkeşi qoşdum. Elə də çox söhbət eləmirdik. Bu alman qızları içkini çox xoşlayırdılar. Sonra onlar ikisi də ön artırmaya çıxıb mənim köhnə taxtımda oturdular – Hildanın əynində trusik və lifçik, Gertrudanın əynində isə nə trusik, nə də

lifçik vardı, bircə çəhrayı rəngli dar gecə köynəyi. Pomtalyon Maks gəldi. Mənim poçtumu ondan Gertruda aldı. Zavallı Maks az qala huşunu itirəcəkdi. Onun gözlərindəki həsədi və heyrəti görə bilirdim. Lakin, bunun əvəzində, onun məşğulluq zəmanəti vardı...

Günorta təxminən saat 2-də Hilda gəzməyə gedəcəyini bizə elan etdi. Gertruda ilə mən içəri girdik. Nəhayət ki, mən bunu edə bildim. Çarpayıda uzanıb oynaşırdıq. Bir müddət keçəndən sonra "işə" başladıq. Onun üstünə çıxdım və şeyimi soxdum. Amma necə oldusa, sərt soxdum və şeyim dərhal sola tərəf əyildi, elə bil orada sola döngə vardı. Belə olan yalnız bir qadın tanıyırdım – amma o vaxt hər şey əla alınmışdı. Sonra düşünməyə başladım – o, deyəsən məni ələ salır, bəlkə də heç onun içinə girməmişəm. Ona görə də şeyimi çıxardım və yenə içəri itələdim. Şeyim onun içinə girən kimi yenə sola əyildi. Nə zibilə düşmüşdüm. Ya onun amı çox sikilmişdi, ya da mən yerinə düz düşə bilmirdim. Özümü inandırmağa çalışdım ki, onun amcığı normal deyil. Şeyimin bu kəskin döngədə yana əyilməsinə fikir

verməyərək mən porşeini dala-qabağa itələyərək işləməyə başladım.

Mən yorulmaq bilmədən elə hey işlədim. Sonra məndə elə bir hiss yarandı, elə bil şeyim sümüyə dirənir. Bu çox sarsıdıcı bir hiss idi. Mən təslim oldum və onun üstündən düşdüm.

– Bağışla, – dedim, – deyəsən bu gün formada deyiləm.

Gertruda bir söz söyləmədi.

Biz ikimiz də yataqdan qalxdıq və əynimizi geyindik. Sonra qonaq otağına keçib Hildanın gəlişini gözləməyə başladıq. Biz onu gözləyərkən içirdik. Hilda isə gəlmək bilmirdi. Onu çox, özü də lap çox gözləməli olduq. Nəhayət, o gəlib çıxdı.

– Salam, – mən dedim.

– Sizin rayonunuzdakı bütün bu qara dərili adamlar kimdir? – Hilda soruşdu.

– Onların kim olduğunu bilmirəm.

– Onlar mənə edilər ki, mən həftədə 2000 dollar pul qazana bilərəm.

– Hansı yolla?

– Yolunu demədilər.

Alman qızlar mənim evimdə daha 2-3 gün qaldılar. Mən yenə Gertrudanın içində sol döngəyə düşməkdə davam edirdim, hətta ayıq olanda belə. Hilda aybaşı olduğunu və buna görə də mənə heç cür kömək edə bilməyəcəyini söylədi.

Nəhayət, onlar öz əşyalarını topladılar. Onları öz maşınıma mindirdim. Çiyinlərində iri parusin çantaları vardı. Alman hippiləri. Yolu mənə onlar göstərirdilər. Bura dön, ora dön. Biz getdikcə daha çox yuxarı, Hollivud təpələrinin lap başına dırmaşırdıq. Varlılar yaşayan əraziyə gəlib çıxmışdıq. Buraya gəlib çıxmasaydıq, mən böyük əksəriyyətin qəhvəaltıda öz poxlarını yedikləri zaman, bir ovuc insanın əla yaşadığını tamam unutmuşdum. Mənim yaşadığım kimi bir rayonda yaşasanız, siz də bütün başqa yerlərin sizin yaşadığınız yer kimi bitxana olduğuna inanmağa başlayarsınız.

– Hə, bax bura. – Gertruda dedi.

“Folksvagen” uzun və dolanbaclı bir yolun başlanğıcında dayanmışdı. Haradasa yuxarılarda bir ev

görünürdü – çox böyük, olduqca böyük bir ev, içi və ətrafı yalnız belə evlərdə olan əşyalarla dolu bir ev.

– Bundan sonra piyada getsən daha yaxşı olar – Gertruda dedi.

– Əlbəttə, – mən cavab verdim.

Qızlar maşından düşdülər. Mən "Folksvagen"in ağzını geri döndərdim. Onlar kürəklərinə sadıqları iri çantalarla yolun ağzında durub mən əl yellədilər. Mən də onlara əl yellədim. Sonra isə maşını yerindən tərpətdim, sürət rıçaqını neytral vəziyyətə saldım və təpədən üzü-aşağı süzməyə başladım.

87

Hollivud Bulvardakı "Ulan" adlanan məşhur bir gecə klubunda bədii qiraətlə çıxış etməyimi məndən xahiş etdilər. Mən iki gecə çıxış etməyə razılıq verdim. Hər iki çıxışımı da "Böyük Zorlama" rok qrupunun çıxışından sonra etməli idim. Şou biznes labirinti məni getdikcə öz ağuşuna çəkirdi. Mənim bir neçə əlavə biletim vardı. Ona görə də Temmiyə

zəng vurub gəlmək istəyib-istəmədiyini soruşdum. O gəlmək istədiyini bildirdi və beləliklə birinci gecəyə onunla birlikdə getdim. Onlara Temmi üçün kredit açmalarının vacib olduğunu söylədim. Biz barda oturub mənim çıxışımın başlanmasını gözləyirdik. Temminin davranışı da mənimkinə bənzəyirdi. O dərhal dəmləşdi və barda ora-bura gəzərək insanlarla söhbət eləməyə başladı.

Mənim çıxışımın vaxtı çatanda, Temmi artıq masaların üstünə yıxılırdı. Onun qardaşını tapıb dedim:

– Allah xatirinə, onu burdan apar. Mənə bu yaxşılığı edərsənmi?

O, Temmini bardan gecənin qaranlığına çıxardı. Mən özüm də bərk sərxoş olmuşdum. Bir müddət sonra Temminin buradan aparılmasını özüm xahiş etdiyimi belə unutdum.

Bədii qiraət elə də yaxşı keçmədi. Tamaşaçıların bütün fikri yalnız rok musiqi ilə məşğul olduğundan onlar misraları və misraların altındakı mənaları anlamaqda çətinlik çəkirdilər. Lakin bunda mənim də günahım az deyildi. Bəzi vaxtlarda mən rok musiqi həvəskarlarının arasına, sadəcə,

bəxtimə güvənərək çıxırdım. Amma həmin gecə bəxtim yavər getmədi. Məncə, Temminin orada olmaması məni narahat edirdi. Evə qayıdandan sonra ona zəng vurdum. Telefona anası cavab verdi.

– Sizin qızınız, – mən ona dedim, – YARAMAZDIR!

– Henk, mən bu boşboğazlığa qulaq asmaq istəmirəm.

Qadın dəstəyi asdı.

Növbəti gecə mən təkbaşına getdim. Barda bir masanın arxasında oturub içirdim. Masama yaşlı və nəcib bir qadın yaxınlaşıb özünü təqdim etdi. Qadın ingilis ədəbiyyatından dərs deyirdi və bu gecəyə öz şagirdlərindən, Nensi Friz adlı tosqun bir qızı da gətirmişdi. Nensi, deyəsən, hövrə gəlmişdi, axıdırdı. Onlar sinif üçün bəzi suallara cavab verməyə razı olub-olmayacağımı öyrənmək istəyirdilər.

– Başlayın görək.

– Sizin sevimli müəllifiniz kimdir?

– Fante.

– Kim?

– Con F-a-n-t-e. “Tozda soruş”. “Bahara qədər gözlə, Bandini”.

– Bu kitabları haradan tapmaq olar?

– Mən bu kitabları şəhərin göbəyində yerləşən mərkəzi kitabxanada tapmışdım. Yanılmıramsa, Beşinci küçə ilə Zeytunluğun kəsişməsində, elə deyilmi?

– Onun nəyi sizin xoşunuza gəlir?

– Mütləq emosiyası. Çox cəsarətli adamdır.

– Bəs ondan başqa?

– Selin.

– Bəs onu nə üçün xoşunuz gəlir?

– Onun qarnını yarıb bağırsaqlarını çölə tökmüşdülər, amma o həm özü gülür, həm də başqalarını gülməyə məcbur edirdi. Çox cəsarətli adamdır.

– Cəsurluğa inanırsınızmı?

– Bunu hər bir canlıda – heyvanlarda, quşlarda, sürünənlərdə və insanlarda – görməyi xoşlayıram.

– Nə üçün?

– Nə üçün? Ona görə ki, o zaman özümü daha yaxşı hiss edirəm. Məsələ heç bir şansın olmadığı bir vəziyyət qarşısında tərz nümayiş etdirməkdədir.

– Bəs Heminquey?

– Yox.

– Nə üçün?

– Çox məşum və çox ciddidir. Yaxşı yazardır, cümlələri də əladır. Lakin onun üçün həyat hər zaman total müharibədən ibarət olub. O heç vaxt öz hisslərinə sərbəstlik verməyib, heç vaxt rəqs etməyib.

Onlar öz bloknotlarını da bağlayıb aradan çıxdılar. Çox təəssüf. Elə indicə onlara mənə həqiqətən təsir etmiş müəllifləri Geybl, Keqni, Boqart və Errol Flin olduğunu söyləməyə hazırlaşırdım.

Bundan sonra yadımda qalan yalnız odur ki, mən Sara, Kessi və Debra adlı üç gözəl qadınla bir masanın arxasında oturmuşdum. Saranın 32 yaşı vardı, əla qadındı, yaxşı tərzi və mərhəmətli ürəyi vardı. Onun açıq sarışın rəngli uzun saçları çiyinlərindən aşağı tökülürdü. Bir az vəhşi, bir az da dəlisov gözləri vardı. Onun üzündə kifayət qədər səmimi şəfqət ifadəsi də hiss olunurdu və deyəsən, bu onun üçün dəyərliydi. Debra yəhudi idi, onun iri qonur gözləri, iri ağzı vardı, dodaqlarına qalın çəkdiyi qan kimi qırmızı boya par-par işıldayırdı. Onun alışıb yanan ağzı məni özünə tərəf

çəkirdi. Zənnimcə, onun 30-35 yaşı olardı və mənə anamın 1935-ci ildəki görünüşünü xatırladırdı (baxmayaraq ki, mənim anam ondan qat-qat gözəl idi). Kessinin uzun boyu və uzun sarışın saçları vardı. O, çox cavan idi, əyninə bahalı və dəbli paltarlar geyinmişdi. Bir az əsəbi, amma gözəl görünürdü. Onlardan mənə ən yaxın oturan da elə o idi. Əlimi əlində sıxaraq budunu qıçıma sürtürdü. O mənim əlimi sıxanda, birdən anladım ki, onun əlləri mənimkilərdən bir xeyli böyükdü (Mən iri cüssəli adam olsam da, həmişə əllərimin balaca olmasına görə xəcalət çəkmişəm. Cavan vaxtlarımda Filadelfiya barlarında dalaşan zaman, əllərin iri olmasının əhəmiyyətini çox tez başa düşmüşdüm. Öz döyüşlərimin 30 faizini necə udmağa müvəffəq olduğum özümə də təəccüblü gəlir). İstənilən halda, Kessiyə elə gəlirdi ki, mənim gözümdə öz rəfiqələrindən daha üstündür. Düzdür, mən əvvəlcə buna o qədər də əmin deyildim, amma sonra razılaşmalı oldum.

Bədii qiraət üçün səhnəyə çıxmalıydım. Budəfəki gecə daha düşərli oldu. Kütlə həmin tamaşaçılar olsa da, mən bütün diqqətimi qiraətə cəlb etmişdim. Tamaşaçı kütləsi

getdikcə daha çox qızışır, azğınlaşır və həyəcanlanırdı. Gözəl anların yaranmasına bəzən onlar, bəzən isə mən səbəb olurdum. Çox vaxt da, əlbəttə ki, mən. Bu peşəkar rinqə çıxmağa çox bənzəyir: onlara nəsə borclu olduğunu hiss etməliydin, yoxsa ora çıxa bilməzdin. Mən yumruqlar atır, yerimi dəyişir, fəndlərə əl atırdım. Sonuncu raundda isə tamamilə açılışdım və hakimi nokauta göndərdim. Tamaşa elə tamaşadır. Keçən gecə nəyi var vurduğuma görə, mənim bu gecəki uğurum onlara təəccüblü gəlməliydi. Ən azından, mənim özüm üçün, heç şübhəsiz, təəccüblü idi.

Kessi barda oturub gözləyirdi. Sara isə cibimə öz telefon nömrəsi ilə birlikdə qısa bir sevgi məktubu soxuşdurdu. Debra onun kimi yaradıcı deyildi – o, sadəcə, öz telefon nömrəsini bir parça kağıza yazıb mənə verdi. Bir anlıq, nə qədər qəribə də olsa, mən Katrina haqqında düşündüm, sonra isə Kessiyə bir qədəh içki aldım. Katrinanı bir daha görməyəcəkdim. Mənim balaca texaslı qızım, gözəllər gözəli. Əlvida, Katrina.

– Bura bax, Kessi, sən məni evimə apara bilərsənmi? Çox içmişəm maşını idarə edə bilmərəm. Əgər məni bir dəfə də sükan arxasında sərxoş halda saxlasalar, işim bitdi.

– Yaxşı, mən səni evə apararam. Sənin maşının varmı?

– Qoy cəhənnəm olsun. Onu burda qoyacam.

Biz onun "MQ"-si ilə yola düşdük. Lap konifilmdəki kimi. Mənə elə gəlirdi ki, istənilən vaxt o məni növbəti döngələrin birində maşından düşürə bilər. O iyirmi yaşını yenicə keçmiş olardı. Maşını idarə edə-edə Kessi mənimlə söhbət edirdi. O bir musiqi şirkətində işləyirdi. Özü də işindən çox razı idi. İşə saat 10:30-dan tez gəlmək tələb olunmurdu. Günortadan bir az keçmiş, yəni saat 15.00-dasa işdən çıxırdı.

– Pis deyil, – o dedi, – mənim xoşuma gəlir. Mən adamları işə götürə və işdən çıxara bilərəm. Vəzifəmi də artırıblar. Amma indiyə qədər heç kimi işdən çıxarmalı olmamışam. İşçilərimiz yaxşı insanlardır. Ona görə də işimiz yaxşı alınır. Biz artıq bir neçə dahiyanə vallar buraxmışıq...

Mənim evimə çatdıq. Bir araq şüşəsi açdım. Kessinin saçları arxadan az qala götünə çatırdı. Artıq sizə də sirr deyil ki, mən hər zaman saç və qıçların pərəstişkarı olmuşam.

– Bu gecə, həqiqətən, çox gözəl oxudun, – Kessi dedi. – Dünənlə müqayisədə, bu gecə sən tamamilə başqa bir adam idin. Bunu necə izah edəcəyimi bilmirəm, amma sən yaxşı formada olanda, səndə insanlıqmı deyim, bilmirəm... buna bənzər bir şey özünü göstərir. Əksər şairlər isə çox özündən razı və poxlu insanlar olur.

– Onlardan mənim də xoşum gəlmir.

– Və sən də onların xoşuna gəlmirsən.

Biz bir neçə qədəh də içəndən sonra yatağa girdik. Onun inanılmaz dərəcədə gözəl bədəni vardı. Lap "Pleyboy" tərzində. Amma əfsuslar olsun ki, mən sərxoş idim. Bununla belə, şeyimi durquza bildim, onun üstünə çıxıb gərgin bir şəkildə yorulmaq bilmədən pompaladım. Uzun saçlarından yapışdım, onun altında qalan saçları da dartıb çıxardım, saçlarımı onların arasında gəzdirdim, nə qədər ehtiraslı olsam da, nəhayətində qurtara bilmədim. Sürüşüb onun

üstündən düşdüm, Kessiyə xeyirli gecələr arzuladım və içimdə qaynayan günahkar hisslərlə yuxuya getdim.

Səhərisi gün yuxudan ayılanda xəcalət çəkirdim. Elə bilirdim ki, Kessini bir daha heç vaxt görməyəcəyəm. Biz durub əynimizi geyindik, səhər saat 10 olardı. Biz "MQ"-nin yanına çatıb ona mindik. Nə mən, nə də o danışırdı. Özümü əbləh kimi hiss edirdim. Amma deyəcək bir söz tapa bilmirdim. Biz "Ulan"a çatdıq. Folksvagen orada durmuşdu.

– Hər şeyə görə çox sağ ol, Kessi. Çinaski haqqında yaxşı şeylər düşün.

O mənə cavab vermədi. Mən uzanıb onun yanağından öpdüm və maşından düşdüm. Kessi isə "MQ"-si ilə məni orda qoyub getdi. Əslində, Lidiya da mənə tez-tez belə deyərdi: "Əgər içmək istəyirsənsə, iç; yox əgər qayrışmaq istəyirsənsə, onda içki şüşəsini bir kənara at getsin".

Amma mənim problemim onda idi ki, mən bunların hər ikisini istəyirdim.

88

Bir neçə gün sonra telefonum zəng çalanda və xəttin o biri başında Kessinin səsini eşidəndə çox təəccübləndim.

– Nə var, nə yox, nə edirsən, Henk?

– Elə boş-boşuna oturmuşam...

– Bəlkə durub mənim yanıma gələsən?

– Mən çox istərdim...

O mənə öz ünvanını dedi, indi xatırlamıram – ya Vestvud, ya da qərbi Los-Anceles.

– Evimdə çoxlu içki var, – Kessi dedi, – sənin gətirməyinə ehtiyac yoxdur.

– Bəlkə mən heç içməyim?

– Necə istəyirsən, elə də elə.

– Əgər mənim üçün süzsən, əlbəttə, içərəm. Yox əgər süzməsən, onda içmərəm.

– Buna görə heç narahat olma.

Paltarlarmı geyindim. Maşınla onun verdiyi ünvana getdim. İnsanın necə dəfə bəxti gətirə bilər? İlahlar son zamanlar mənə qarşı çox mərhəmətliydilər. Bəlkə bu bir sınaq idi? Bəlkə də nəsə bir fənd idi? Çinaskini bəsləyib

kökəltmək, sonra isə onun ikiyə şaqqalamaq. Bunun da başvermə ehtimalının olduğunu bilirdim. Əgər cəmi iki raund qalıbsa və hakim sənin üçün artıq iki dəfə 8-ə qədər sayıbsa, əlindən nə gələr?

Kessinin mənzili üçüncü mərtəbədə yerləşirdi. Deyəsən, Kessi məni görməyinə şad olmuşdu. Zorba bir qara köpək üstümə atıldı. İt nəhəng və sallaq dərili erkək idi. O pəncələrini çiyinlərimə qoyaraq üzümü yalayırdı. Mən onu özümdən kənara itələdim. O qarşımda dayanıb quyruğunu yelləyir və yalvarışla zingildəyirdi. Onun uzun və qara tükləri vardı və deyəsən, mələzdi, amma necə də nəhəng köpək idi.

– Bu Eltondur, – Kessi dedi.

Sonra soyuducunu açıb bir şüşə şərab çıxardı.

– Bax əsl içməli şey budur. Bundan məndə "en" qədərdir.

O, bədəninə kip yapışam yamyaşıl bir don geyinmişdi. Lap ilana bənzəyirdi. Ayağında üstünə yaşıl rəngli daşlar düzülmüş ayaqqabılar vardı. Mən bir daha onun saçlarının necə uzun olduğunun fərqinə vardım – sadəcə, uzun deyil,

həm də sıx, qalın bir saç kütləsi. Saçlar, ən azı onun sağrılarına qədər çatırdı. Onun gözləri iri, mavimtil yaşıl rəngli idi. Bu gözlər, işığın düşmə bucağından asılı olaraq, bəzən daha çox yaşıl, bəzən də daha çox mavi rəngə çalırdı. Onun kitab rəfində öz kitablarımdan ikisi gözümə dəydi. Ən yaxşı iki kitabım.

Kessi əyləşdi, şərab şüşəsini açdı və hərəmizə bir qədəh şərab süzdü.

– Keçən dəfə biz sənինlə görüşəndə, necə olduğunu bilmirəm, amma içimdə nəyəsə toxundun. Bunun boşa getməsini istəmədim, Kessi dedi.

– Bu görüşdən mən ləzzət aldım, – deyə cavab verdim.

– Həb atmaq istəyirsənmi?

– Olar.

O iki dənə həb gətirdi. Qara qalpaq. Ən yaxşısı. Mən öz həbimi şərabla içdim.

– Şəhərdəki ən yaxşı alverçidən alıram. Bu zibili mənə çox baha qiymətə satmır, – Kessi dedi.

– Əla.

– Sən indiyə qədər heç hallanmısanmı? – o soruşdu.

– Bir müddət kokain qəbul etmişəm, amma onun sonrakı ağrılarına dözə bilmirdim. Ertəsi gün mətbəxə keçməyə qorxurdum. Çünki orada mətbəx bıçağı vardı. Bir də ki, hər gün 50 – 70 dollar bu zibilə pul xərcləmək mənim cibimə görə deyildi.

– Məndə bir az kokain də var.

– Mən pas.

O hərəmizə bir qədəh də şərab süzdü.

Bilmirən niyə, amma hər dəfə yeni bir qadınla qarşılaşanda, özümü qadınla ilk dəfə görüşürmüş kimi hiss edirdim. Elə bil həyatımda heç vaxt qadınla olmamışdım. Kessini öpdüm. Onu öpərkən, bir əlimi uzun saçlarının içinə saldım.

– Musiqiyə qulaq asmaq istəyirsənmi?

– Yox, lazım deyil.

– Sən Di Di Bronsonu tanıyırsan, elə deyilmi? – Kessi soruşdu.

– Hə, tanıyırdım, amma ayrılmışıq.

– Onun başına nə gəldiyindən xəbərin varmı?

– Yox.

– Əvvəlcə, o öz işini itirdi. Sonra isə Meksikaya getdi. Orada keçmiş toreadorla tanış oldu. Bu toreador onu eşşək kimi döyüb, sonra da onun yığdığı bütün pullarını – 7000 dolları, əlindən alıb.

– Zavallı Di Di: əvvəlcə mən, sonra da bu.

Kessi yerindən qalxdı. Mən onun otaqda gəzməyinə tamaşa edirdim. Onun sağrıları növbə ilə enib qalxır və bədəninə kip yapışan yaşıl donu parıldayırdı. Əlində bir parça kağız və bir az ot ilə qayıtdı və şey doldurmağa başladı.

– Sonra o avtomobil qəzasına düşdü.

– O heç vaxt maşın sürə bilməyib. Sən onu yaxşı tanıyırsan?

– Yox. Amma bizim çevrələrdə baş verənlər tez yayılır.

– Sadəcə, ölənə qədər yaşamaq ağır işdir, – mən dedim.

Kessi şeyi mənə ötürdü.

– Sənin həyatında isə deyəsən hər şey qaydasındadır, – Kessi dedi.

– Eləmi düşünürsən?

– Demək istəyirəm ki, sən bəzi kişilər kimi qır-saqqız olub təəssürat yaratmağa çalışmırsan. Və məzəlilik sənin təbiətindədir.

– Sənin arxandan və saçlarından xoşum gəlir, – dedim, – sənin dodaqlarından, sənin gözlərindən, sənin şərabından, sənin evindən və doldurduğun otdan da. Amma mənim həyatım elə də nizamlı deyil.

– Sən qadınlar haqqında çox yazırsan.

– Bilirəm. Bəzən özümə də maraqlı gəlir: görəsən ondan sonra nə haqda yazacam?!

– Bəlkə də bu mövzu heç vaxt tükənməyəcək.

– Hər şey nə vaxtsa bitir.

– Şeydən bir az mənə də saxla, bir az mən də çəkim.

– Əlbəttə, Kessi.

O, şeydən bir qullab vurdu. Onu öpdüm. Onun saçlarından tutub başını geriyə dartdım. Zorla onun dodaqlarını araladım. Bu çox sürəkli bir öpüş idi. Bu öpüşdən sonra onu buraxdım.

– Sənin belə xoşuna gəlir, düz demirəmmi? – Kessi soruşdu.

– Mənə görə bu sikişməkdən daha məhrəm və daha seksualdır.

– Məncə, sən haqlısan, – deyərək Kessi razılaşdı.

Bir neçə saat beləcə şey çəkdik və şərab içdik. Sonra yatağa girdik. Biz öpüşür və oynaşırdıq. Özümü yaxşı hiss edirdim, şeyim də daş kimi durmuşdu və onun yaxşıca sığallayırdım, amma on dəqiqə sonra başa düşdüm ki, heç nə alınmayacaq. Yenə də içkini həddən artıq içmişdim. Mən tərləməyə və gərginləşməyə başladım. Bir müddət şeyimi dala qabağa itələdim, sonra süst bir halda onun yanına sərələndim.

– Bağışla məni Kessi...

Mən onun başının mənim penisimə tərəf necə hərəkət etdiyinə baxırdım. O hələ də boşalmamışdı. Kessi onu yalamağa başladı. İt qəfildən çarpayının üstünə atıldı, amma mən onun itələyib yerə saldım. Kessinin şeyimi yalamağına tamaşa edirdim. Ayın işığı pəncərədən içəri düşdüyündən onu aydın şəkildə görə bilirdim. O mənim şeyimi ağzına alaraq onun ucundan yüngülcə dişləyirdi. Birdən, o şeyimi dibinə qədər uddu və onu sormağa başladı, dilini sikimin

ucundan dibinə qədər gəzdirir və yaxşıca əmirdi. Bu, sözlə ifadə edilməsi mümkün olmayacaq dərəcədə əla idi.

Mən bir əlimi aşağı uzadıb saçlarından yapışdım və onu yuxarı qaldırdım. Bütün bu saç kütləsini onun başının üstündən yuxarı dartdım, o isə mənim şeyimi sorurdu. Bu proses çox uzun çəkdi, amma nəhayət hiss etdim ki, yavaş-yavaş qurtarmağa hazırlaşıram. O da bunu hiss edib öz səylərini ikiqat gücləndirdi. Mən artıq inildəməyə başlamışdım və yatağın yanındakı xalının üstündə uzanmış itin də mənimlə birlikdə zingildədiyini eşitdim. Bu mənim xoşuma gəldi. Bu həzz anlarını uzatmaq üçün bacardığım qədər dayandım. Sonra hələ də onun saçlarını əlimdə tutaraq və oxşayaraq bütün yükümü onun ağzına boşaltdım.

Ertəsi gün səhər yuxudan ayılanda, Kessi əynini geyinirdi.

– Hər şey qaydasındadır, – o dedi, – sən burada qala bilərsən. Amma gedəndə qapını bağlamağı unutma.

– Yaxşı.

Kessi gedəndən sonra, mən duş qəbul etdim. Sonra soyuducuda bir şüşə pivə tapdım, onu içdim, əynimi

geyindim, Eltonla vidalaşdım, qapını bağladığıma əmin oldum və “Folksvagen”imə minərək evə getdim.

89

Üç-dörd gün sonra Debranın mənə verdiyi məktubu tapdım və ona zəng vurdum. O dedi:

– Mənim yanıma gəl. – O mənə Playa del Reyə necə gələcəyimi izah etdi. Maşına minib oraya getdim. O, önündə bağçası olan balaca bir evi kirayəyə götürmüşdü. Maşınımı ön həyətin içinə sürdüm, saxladım, maşından düşdüm və qapıya yaxınlaşıb onu döydüm, sonra isə zəngi basdım. Bu iki tonlu zənglərdən idi. Debra qapını açdı. O elə onu son gördüyümdə olduğu kimi idi: dodaqlarında qalın boya qatı, qısa saçlar, parlaq sırğalar, duxulanmış, və demək olar ki, üzündən heç vaxt əskilməyən o geniş təbəssüm.

– Ah, Henri, içəri gəl!

Mən evə daxil oldum. Otaqda bir oğlan oturmuşdu. Amma, deyəsən, homoseksual idi, ona görə də bunu özüm üçün təhqir hesab etmədim.

– Bu mənim qonşum Larridir. O, arxadakı evdə yaşayır.

Biz əl verib görüşdük və mən oturdum.

– İçməyə bir şeyin tapılarmı, – deyə Debradan soruşdum.

– Ay səni, Henri!

– Mən gedib özüm də bəzi şeylər ala bilərəm. Əslində alardım, amma sənin nə içdiyini bilmirdim axı.

– Oh, məndə içməyə nəsə olmalıdır.

Debra mətbəxə keçdi.

– İşlərin necə gedir, – deyə Larridən soruşdum.

– Əvvəllər elə də yaxşı deyildi, amma indi qaydasına düşür. Özünə təlqinlə məşğul oluram. Bu mənimlə möcüzələr edir.

– Sən də nəsə içmək istəyirsənmi, Larri? – Debra mətbəxdən qışqıraraq soruşdu.

– Ah, yox, çox sağ ol...

Debra əlində qırmızı şərab dolu iki qədəhlə yanımıza gəldi. Debranın evi həddən artıq bərli-bəzəkli idi. Hər yerdə nəsə qoyulmuşdu. Evin hər tərəfində bahalı əşyalardan

ibarət xaos hökm sürürdü. Balaca dinamiklərdən gələn rok musiqisinin səsləri evin hər tərəfinə yayılırdı.

– Larri özünətəlqin praktikası ilə məşğul olur.

– O bunu mənə dedi.

– Təsəvvür edə bilməzsiniz ki, indi necə rahat yatıram, təsəvvür edə bilməzsiniz ki, indi necə yaxşı münasibət qura bilirəm, – Larri dedi.

– Nədi, düşünürsən ki, biz hamımız bunu sınaqdan çıxarmalıyıq? – Debra ondan soruşdu.

– Hmm, bunu söyləmək çətindir. Bircə onu bilirəm ki, mənə çox köməyi dəyir.

– Halloun[9] günü qonaqlıq təşkil edəcəm, Henri. Çox adam gələcək. Bəlkə sən də bizə qoşulasan? Sən necə düşünürsən, Larri, bayram günü ona hansı maskarad paltarı yaraşar?

Onlar ikisi də gözlərini zilləyib mənə baxırdılar.

[9]Bütün Əzizlər Günü – xristianların dini bayramı

– Hmm, mən bilmirəm, – Larri dedi. – Həqiqəti bilmirəm. Bəlkə?... ah, yox... Yox məncə yox, düşünmürəm ki...

Qapının zəngi çalındı və Debra onu açmağa getdi. Əynində köynəyi olmayan başqa bir mavi gəlmişdi. Üzünə bir xanavar maskası taxmışdı və maskanın ağzında uzun rezin bir dil sallanırdı. O əsəbi və əzgin görünürdü.

– Vinsent, bu Henridir. Henri bu isə Vinsentdir...

Vinsent məni qozuna almadı. O rezin dilini də bayıra çıxarıb elə ordaca durmuşdu.

– İşdə günüm çox pis keçib. Daha buna dayana bilmirəm. Belə getsə, deyəsən, işdən çıxmalı olacam.

– Bəs, sonra nə edəcəksən, Vinsent? – Debra ondan soruşdu.

– Bilmirəm. Amma əlimdən çox iş gəlir. Onların poxunu yeməyə məcbur deyiləm!

– Sən qonaqlığa gələcəksənmi? Gələcəksən, Vinsent, elə deyilmi?

– Əlbəttə gələcəm, gör neçə gündür öz rolumu öyrənirəm.

– Tamaşadakı rolunun sözlərini əzbərləmisən?

– Hə, əzbərləmişəm, amma düşünürəm ki, bu dəfə pyesi oyunlardan əvvələ salmalıyıq. Keçən dəfə pyesi oynamağa başlayanadək o qədər içdik ki, onu lazım olduğu kimi oynaya bilmədik.

– Yaxşı, Vinsent, sənin istədiyin kimi eləyərik.

Bu mükalimədən sonra, Vinsent və onun rezin dili geri çevrilərək qapıdan çıxdılar.

Larri də yerindən qalxdı.

– Yaxşı, artıq mən də getməliyəm. Sizinlə tanış olmağıma çox şad oldum, – o mənə dedi.

– Yaxşı, Larri.

Biz bir-birimizin əlini sıxdıq və Larri mətbəxdən keçərək arxa qapıya tərəf addımladı. Oradan çıxaraq öz evinə getdi.

– Larri mənə çox kömək eləyir, çox yaxşı qonşudur. Şadam ki, sən onunla xoş rəftar elədin.

– Hmm, o normal adamdır. Birdə ki, o bura məndən əvvəl gəlmişdi.

– Biz onunla sekslə məşğul olmuruq.

– Heç biz də məşğul olmuruq.

– Mənim nə demək istədiyimi sən çox gözəl anladın.

– Qoy gedim özümüzə içməyə nəsə alım.

– Henri, mənim evimdə bizə lazım olan hər şey var. Sənin gələcəyini bilirdim axı.

Debra bizim qədəhlərimizi təzələdi. Mən başımı qaldırıb ona baxdım. O cavan idi, amma elə görünürdü, elə bil 1930-cu illərdən elə indicə gəlmişdi. Onun əynində dizləri ilə topuqlarının arxasında yerə qədər uzanan qara ətək, dik yaxalıqlı kofta, ayaqlarında hündür dabanlı qara ayaqqabılar, boynunda boyunbağı, qulağında sırğalar, qolunda bilərziklər vardı. Dodaqlarına boya, üzünə qalın ənlik-kirşan qatı çəkmişdi və üstünə çoxlu ətir vurmuşdu. Onun gözəl bədən quruluşu vardı – əla döşlər və sağrılar. Üstəlik də yeriyəndə sağrıları çox əcaib yırğalanırdı. O tez-tez siqaret alışdırırdı və hər yer onun dodaq boyalarına bulaşmış siqaret kötükləri ilə dolu idi. Birdən içimdə elə bir hiss yarandı, elə bil öz uşaqlıq dövrümə qayıtmışdım. O əyninə kalqotka da geyinməmişdi. Ara-sıra öz uzun corablarını yuxarı çəkirdi. Bu zaman bir az qıçlarını, bir az

da dizlərini açıb göstərməli olurdu. Debra atalarımızın xoşladığı qızlardandı.

O bir müddət mənə öz işi haqqında danışdı. Hər nə iş idisə, məhkəmə iclaslarında deyilənlərin qeydə alınması və hüquqşünaslar ilə əlaqəliydi. Bu iş onu əsəbiləşdirsə də, bu iş ona yaxşı qazanc gətirirdi.

– Bəzən yardımçılarımın üstünə qışqırıram. Sonra özümü ələ alıram, onlar da məni bağışlayırlar. Sən heç bu lənətə gəlmiş hüquqşünasların necə insanlar olduğunu bilmirsən! Onlar hər şeyin dərhal hazır olmasını tələb edirlər və tapşırığın yerinə yetirilməsi üçün lazım olan vaxt haqqında isə heç düşünmürlər.

– Hüquqşünaslar və həkimlər cəmiyyətin haqq etdiklərindən artıq məvacib alan və ərköyün üzvləridirlər. Bu siyahıdakı növbəti adam sənin döngədəki qarajda işləyən avtomobil mexanikindir. Ondan sonra isə bu siyahıya öz diş həkimini də əlavə edə bilərsən.

Debra bir ayağını o birisinin üstünə aşırdı və onun ətəyi bir balaca yuxarı qalxdı.

– Sənin çox qəşəng qıçların var, Debra. Və sən nə geyinmək lazım olduğunu çox gözəl bilirsən. Sən mənə anamın cavanlıq dövründəki qızları xatırladırsan. O vaxtlar qadınlarda qadınlıq vardı.

– Çox gözəl dedin, Henry.

– Mənim nə demək istədiyimi yəqin ki, başa düşdün. Bu xüsusilə Los-Ancelesin timsalında özünü doğruldur. Bir dəfə, bu yaxınlarda, şəhəri tərk etməli olmuşdum. Geri qayıdanda, şəhərə qayıtdığımı nədən anladığımı bilirsənmi?

– Hmm, yox...

– Küçədə yanımdan ötüb keçən ilk qadından. Əyninə elə qısa ətək geymişdi ki, trusiyinin aralığını asanlıqla görmək olurdu. Və trusiyinin ön tərəfindən – səndən çox-çox üzr istəyirəm – onun amının tükləri görünürdü. O an başa düşdüm ki, artıq Los-Ancelesdəyəm.

– Sən hardaydın? Meyn Stritdə?

– Meyn Strit, yox əşşi. Beverli və Ferfaksın kəsişməsində.

– Şərab xoşuna gəldimi?

– Hə, sənin evini də çox bəyəndim. Mən hətta şey-şüyümü yığıb buraya köçə də bilərdim.

– Mənim ev sahibim çox qısqancdır.

– Səni qısqanacaq başqaları da varmı?

– Yox.

– Niyə yoxdur?

– Mən çox işləyirəm və axşamları evə gəlib istədiyim kimi dincəlməyi xoşlayıram. Buranı bəzəməyi çox sevirəm. Rəfiqəmlə, o mənim işçimdir, sabah əntiq əşyalar dükanlarını gəzməyə gedəcəyik. Sən də bizimlə gəlmək istəyirsənmi?

– Sabah səhər mən burda olacam ki?

Debra cavab vermədi. O mənə bir qədəh də şərab süzdü. Gəlib divanda yanıma oturdu. Mən əyilib onu öpdüm. Öpərkən, onun ətəyini bir az da yuxarı çəkib onun neylon corablı qıçlarını baxdım. Çox cazibədar görünürdülər. Mən onu öpəndən sonra o, yubkasının ətəyini yenə aşağı dartdı. Amma mən onun qıçlarının formasını artıq yaddaşıma həkk eləmişdim. O divandan qalxdı və vanna otağına getdi. Unitazın suyunun şırıltısını eşitdim.

Sonra bir müddət səssizlik oldu. Yəqin ki, dodaqlarının boyasını təzələyirdi. Mən cib dəsmalımı çıxardım və dodaqlarımı sildim. Dəsmalıma qırmızı ləkələr bulaşmışdı. Orta məktəbdə oxuyan, yaxşı geyinmiş və gözəl avtomobillərə sahib olan varlı və qəşəng oğlanların əldə etdikləri hər şeyə mən də öz köhnə və səliqəsiz əyin-başım və sınıq-salxaq velosipedimlə nail olmuşdum.

Debra vanna otağından çıxdı. Gəlib divanda oturaraq bir siqaret yandırdı.

– Gəl sikişək, – mən təklif etdim.

Debra yerindən qalxıb yataq otağına keçdi. Qəhvə masasının üstündəki şərab şüşəsində yarısına qədər şərab qalmışdı. Özüm üçün bir qədəh şərab süzdüm və Debranın siqaretlərindən birisini alışdırdım. O, rok musiqini söndürdü. Bu lap yerinə düşdü.

Hər tərəfə sakitlik çökdü. Mən bir qədəh də şərab süzdüm. Bəlkə doğrudan da bura köçüm? Bəs yazı makinamı haraya qoya bilərdim?

– Henri?

– Nədi?

– Harda qaldın?

– Bir dəqiqə gözlə. İndi içkimi bitirib gəlirəm.

– Yaxşı.

Mən qədəhimdəki şərabı bitirdim və sonra şüşədə qalan şərabın hamısını qədəhimə südüm. Hə, bax beləcə Playa del Reydə oturmuşdum. Əynimi soyundum və paltarlarımı səliqəsiz şəkildə divanın üstünə təpə kimi yığdım. Mən heç vaxt əyin-başıma elə də diqqətli olmamışam. Köynəklərimin hamısının 5-6 yaşı olardı. Onların rəngi solmuş, özləri də elə süzülmüşdü ki, bir tərəfindən baxanda, o bir tərəfi görmək olurdu. Şalvarlarımın da vəziyyəti elə köynəkləriminki ilə eyni idi. Univermaqlardan və orada işləyən satıcılardan zəhləm gedirdi, çünki özlərini çox təkəbbürlü aparırdılar. Elə bil həyatın bütün sirlərinə vaqif idilər, onlarda elə bir özünəinam vardı ki, mən ona heç vaxt sahib olmamışdım. Ayaqqabılarım hər zaman dağılmış vəziyyətdə və köhnə olardı, ayaqqabı dükanlarına da nifrət edirdim. Mən bir əşyam tam yararsız hala gəlməmiş yenisini heç vaxt almıram. Bu sıraya hətta avtomobillər də daxildir. Problem qənaətcillikdə deyildi. Sadəcə mənim bir satıcıya ehtiyacı

olan alıcı olmaqdan zəhləm gedirdi. Hələ mən satıcıların nə qədər qəşəng, laqeyd və təkəbbürlü olmalarından danışmıram. Bundan əlavə, bütün bunlar vaxt tələb edir, halbuki, bu vaxtı boş-boşuna uzanıb içki içməyə də sərf etmək olar.

Əynimdə paltardan bircə tursiklə yataq otağına getdim. Trusiyimin üstündən önə sallanan ağ tuluğumdan xəcalət çəkirdim. Amma qarnımı heç olmasa, bir balaca içəri çəkmək üçün heç bir səy göstərmədim. Çarpayının yanında dayandım, trusiyimi aşağ saldım və adlayaraq onların içindən çıxdım. Heç gözlənilmədən yenə içmək istədim. Çarpayının üstünə dırmaşdım və odeyalın altına girdim. Sonra isə Debraya tərəf çevrildim. Onu qucaqladım. Biz bir-birimizə qısılmışdıq. Onun dodaqları aralanmışdı. Mən onu öpdüm. Onun ağzı elə bil sulanmış amcıq idi. O hazır idi. Mən bunu hiss edə bilirdim. Sevgi öncəsi mazaqlaşmaya ehtiyac olmayacaqdı. Biz öpüşürdük və onun dili gah mənim ağzıma girir, gah da çölə çıxırdı. Onun dilini dişlərimlə tutdum və yüngülcə sıxdım. Sonra Debranın üstünə dırmaşdım və şeyini ehmallıca ona itələdim.

Məncə, onu qayırarkən məni ən çox cuşa gətirən şey başını yana çevirməsi idi. Bu məni həqiqətən coşdururdu. Onun başı yana çevrilmişdi və hər dəfə şeyimi irəli itələyəndə, bu baş yastığın üstündə iradəsiz bir şəkildə atılıb düşürdü. Onun qayırarkən ara-sıra başını özümə tərəf çevirib onun qırmızı boyalı ağzından öpürdüm. Nəhayət ki, hər şey lazım olduğu kimi işləyirdi. İndi bu yataq da 1937-ci ildə, bu depressiyanın ən qorxuncu iliydi, o vaxt bir tikə götün qiyməti cəmisi iki dollar idi və heç kimdə pul (ya da ümid) qalmamışdı, Los-Ancelesin yollarında arxasınca ehtirasla baxdığım bütün qadınları qayırırdım. Orqazma çatmaq üçün çox gözləməli oldum. Mən yorulmaq bilmədən işləyir, nasos porşeni kimi vururdum. Dəmir kimi qızarmış qaynar və faydasız seks! Mən Debranın başını bir də qamarladım, onun dodaq boyalı ağzına tərəf uzandım və bütün yükümü onun içinə boşaltdım, düz onun diafraqmasına.

90

Ertəsi gün şənbə idi və Debra bizim üçün səhər yeməyi hazırlamışdı.

– Bu gün bizimlə əntiq əşyalar ovuna gəlirsənmi?

– Yaxşı, gəlirəm.

– Başın ağrıyırmı? Xumarlığın varmı?

– Elə də yox.

Biz bir müddət danışmadan qəhvəaltımızı etdik, sonra isə birdən Debra dedi:

– "Ulan"dakı bədii qiraətini çox bəyəndim. Sən sərxoş olsan da, hər şeyi çox aydın şəkildə tamaşaçılara çatdıra bildin.

– Bəzən yaxşı alınmadığı vaxtlar da olur.

– Bir də haçan qiraətlə çıxış etməyə hazırlaşırsan?

– Bir nəfər Kanadadan zəng vurmuşdu. Onlar pul yığmağa çalışırlar.

– Kanada! Mən də sənlə gedə bilərəmmi?

– Baxarıq.

– Bu gün də qalacaqsanmı?

– Sən qalmağımı istəyirsənmi?

– Hə.

– Onda qalaram.

– Əla...

Biz səhər yeməyini bitirdik və Debra qab-qacağı yuyarkən, mən vanna otağına keçdim. Şeyimi yudum, quruladım, sonra yenə yudum. əllərimi də yuyandan sonra otağa qayıtdım. Debra mətbəx çanağını yuyub təmizləyirdi. Mən onu arxadan qamarladım.

– Əgər istəsən mənim diş fırçamdan istifadə edə bilərsən, – o dedi.

– Ağzımdan pis iy gəlir?

– Hər şey qaydasındadır.

– Sən dedin, mən də inandım.

– İstəsən duş da qəbul edə bilərsən...

– Onu da...?

– Bəsdi, qurtar. Tessi hələ bir saatdan sonra gələcək. Biz isə bu vaxt ərzində üstümüzdəki hörümçək torunu təmizləyə bilərik.

Mən hamamxanaya gedib vannaya suyu açdım. Duş qəbul etməkdən yalnız bir dəfə xoşum gəlmişdi, o da bir moteldə. Vanna otağının divarından bir kişinin şəkili

asılmışdı – qara uzun saçlar, standart, qəşəng sima, amma bu simadan adı səfehlik də özünü büruzə verirdi. Özünü ağ dişlərini göstərərək mənə gülümsəyirdi. Rəngi qaçmış dişlərimdən nə qalmışdısa, onları fırçaladım. Debra sözarası keçmiş ərinin psixoterapevt olduğunu demişdi.

Mən çıxandan sonra, Debra da duş qəbul etdi. Mən özüm üçün balaca bir qədəhə şərab süzdüm və kresloya oturub pəncərədən bayıra baxmağa başladım. Birdən yadıma düşdü ki, keçmiş rəfiqəmə uşaq üçün pul yollamağı unutmuşam. Eh, eybi yoxdur. Bazar ertəsi göndərərəm.

Playa del Reydə özümü çox rahat hiss edirdim. Mənim yaşadığım darısqal və çirkli həyətdən kənara çıxmaq adama yaxşı təsir edirdi. Məhəlləmizdə bir qarış belə kölgəli yer yox idi və günəş öz şüaları ilə bizi amansızcasına yandırırdı. Hamımız bu ya da digər formada divanə idik. Hətta itlər və pişiklər də dəli idilər, quşlar da, qəzet satan uşaqlar və fahişələr də.

Şərqi Hollivudda yaşayan bizlər üçün tualetlər heç zaman düzgün işləməyib və ev sahibinin yarı qiymətə tutduğu su kəməri işçisi onu heç vaxt lazım olduğu kimi

düzəldə bilməyib. Biz həmişə çənin qapağını açıq qoyardıq və onun tıxacını əl ilə dartıb çıxarardıq. Su kranları damırdı, hər yerdə tarakanlar gəzişirdi, itlər sıçıb hər yeri batırırdılar, Setkalarda iri dəliklər vardı və bu dəliklərdən milçəklər və başqa hər növ uçan qəribə həşaratlar içəri girirdi.

Qapının zəngi çalındı. Yerimdən qalxıb onu açdım. Gələn Tessi idi. Yaşı qırxdan keçmiş olardı, müasir qadına oxşayırdı, kürən saçları da çox ehtimal ki, rənglənmişdi.

– Siz Henrisiniz, elə deyilmi?

– Bəli, Debra vanna otağındadır. Lütfən əyləşin.

Onun əynində qısa ətək vardı. Budları pis görünmürdü. Topuqları ilə baldırları da pis deyildi. Görünüşündən belə anlaşılırdı ki, sikişməyi xoşlayandır. Mən hamam otağına yaxınlaşıb qapını döydüm.

– Debra, Tessi gəldi...

Birinci əntiq əşyalar dükanı sahildən bir-iki məhəllə aralı idi. Biz folksvagenlə ora gedib içəri girdik. Onlarla birlikdə mən də ətrafı dolanırdım. Bütün əşyalara yapışdırılmış qiymət kağızlarının üstündə $800, $1500 yazılmışdı... köhnə saatlar, köhnə kreslolar, köhnə masalar.

Qiymətlər inanılmaz idi. Ətrafımızda dayanmış iki, ya da üç satıcı böyük ümidlə əllərini bir-birinə sürtürdülər. Onlar yəqin ki, həm məvacib, həm də satılan maldan faiz alırdılar. Dükanın sahibinin bütün bu əşyaları ya Avropadan, ya da Ozark dağlarından demək olar ki, dəyər-dəyməzinə, ya da müftə alıb gətirdiyinə heç bir şübhə yox idi. Bu bahalı qiymət kağızlarına baxmaqdan artıq bezmişdim. Qızlara onları maşında gözləyəcəyimi deyib oranı tərk etdim.

Yolun qarşı tərəfində bir bar tapıb ora daxil oldum və özümə yer seçib oturdum. Bir şüşə pivə sifariş etdim. Bar gənc oğlanlar ilə dolu idi. Əksəriyyətinin yaşı 25-dən aşağı olardı. Onlar sarışın və qamətli, ya da qaraşın və qamətli idilər. Əyinlərində çox gözəl tikilmiş şalvarlar və köynəklər vardı. Onların üzlərində heç bir ifadə yox idi və çox rahat görünürdülər. Zalda iki qadın da vardı. Böyük ekranlı televizor qoşulmuş olsa da, səssiz işləyirdi və ona heç kim baxmırdı. Heç kim danışmırdı da. Mən öz pivəmi bitirib oradan çıxdım.

Yaxınlıqda bir içki dükanı tapdım və altı pivəlik bir paket aldım. Sonra maşınımın yanına qayıdıb öz yerimə

oturdum. Pivə yaxşı idi. Maşınımı əntiq əşyalar dükanının arxasındakı dayanacaqda saxlamışdım. Məndən sol tərəfdəki küçədə maşınlar tıxac yaratmışdılar. Mən öz maşınlarında oturub səbrlə yolun açılmasını gözləyən sürücülərə tamaşa edirdim. Hər maşında, demək olar ki, bir qadın və bir kişi oturmuşdu və onlar bir-biri ilə söhbət etmədən gözlərini önə zilləmişdilər. Nə etsən də fərqi yoxdu, nəhayətində, hamı gözləməyə məhkum idi. Sən oturub gözləyir, elə hey gözləyirdin – xəstəxananı, su kəməri işçisini, dəlixananı, həbsxananı, ölüm atanın özünü. Əvvəlcə işarə qırmızı idi, sonra isə yaşıl oldu. Nəsə gözlədikləri zaman dünya əhli qidalanır, televizora baxır və işlərinə, ya da işsizliklərinə görə narahat olurdular.

Mən əntiq əşyalar dükanında almağa bəzi şeylər axtaran Debra ilə Tessi haqqında düşünməyə başladım. Əslində Debradan heç xoşum gəlmirdi. Amma budur, mən onun həyatına girmişdim. Özümü gizlincə dəlikdən baxaraq kimisə pusan pozğun kimi hiss edirdim.

Sükanın arxasında oturub pivəmi içirdim. Sonuncu pivə bankasına təzəcə çatmışdım ki, nəhayət, onlar dükandan çıxdılar.

– Ah, Henri, – Debra dedi, – Cəmisi 200 dolara üstü mərmər bir masa tapdım!

– O doğrudan da, inanılmaz dərəcədə qəşəngdir, – Tessi dilləndi.

Onlar maşına mindilər və Debra öz qıçını mənim ayağıma sıxdı.

– Yəqin bütün bunlar səni lap bezdirdi? –Debra məndən soruşdu.

Mən mühərriki işə saldım və maşını şərab dükanına tərəf sürdüm 3-4 şüşə şərab və siqaret aldım.

Şərab dükanının satıcısına aldığım şeylərin pulunu ödəyərkən öz-özümə düşündüm: sən bu qısa ətəkli qırmızı yubka və neylon corablar geyinmiş ləçərə bir bax. . Mərc gələrdim ki, o heç düşünmədən, ən azı, on-on beş erkəyin öhdəsindən gələ bilərdi. Mən belə qərara gəldim ki, onun problemi elə düşünə bilməməsindədir. Onun düşünməklə heç arası yox idi. Əslində bu problem deyildi, çünki bu

prosesi tənzimləyən nə bir qayda, nə də bir qanun vardı. Amma bir neçə ildən sora 50 yaşına çatanda, o düşünməyə başlayacaqdı! Həmin vaxt o supermarketə kassada növbəyə durarkən öz arabasını başqalarının arxasına və topuqlarına vuran xalaya çevriləcəkdi; onun gözlərinə tünd şüşəli gözlük, üzü şüşkin və bədbəxtlik hakim olacaqdı. Arabasına isə kəsmik, kartof çipsiləri, əzmə donuz əti, qırmızı soğan və bir kvart "Cim Bim" dodurulacaqdı.

Mən qayıdıb maşına oturdum və biz Debranın evinə getdik. Qızlar oturdular. Mən şüşəni açıb üç qədəh şərab süzdüm.

– Henri, – Debra dedi, – Mən gedib Larrini də çağırmaq istəyirəm. Masanı dükandan götürmək üçün o məni öz furqonunda oraya aparacaq. Səni narahat etmək istəmirəm, sən buna şadsanmı?

– Hə.

– Tessi burada qalıb səni darıxmağa qoymayacaq.

Olar.

– Amma hər ikinizə də deyirəm, özünüzü yaxşı aparın!

Larri arxa qapıdan keçərək Debra ilə birlikdə içəri gəldi. . Onlar ön qapıdan çıxdılar. Larri furqonun mühərrikini işə salaraq qızdırdı və onlar yola düşdülər.

– Hə, bax indi biz yalqız qaldıq, – mən dedim.

– Hə, – deyə Tessi razılaşdı. O dinməzcə oturub gözlərini önünə, harasa məchul bir nöqtəyə zilləmişdi. Mən öz şərabımı bitirdim və işəmək üçün vanna otağına keçdim. Geri qayıdanda, Tessi hələ də divanda səssizcə oturmuşdu.

Mən divanın arxasına keçdim. Arxadan onun yanına çatanda, onun çənəsindən tutub üzünü yuxarı qaldırdım. Ağzımı onun dodaqlarına yapışdırdım. Onun çox iri başı vardı. Bənövşəyi makiyajını gözlərinin alt hissəsində yaymışdı. Ondan meyvə – ərik şirəsinin – iyi gəlirdi. Qulaqlarından incə bir gümüş zəncir sallanırdı, Zəncirlərin hər birinin ucundan isə bir dənə balaca şarlar asılmışdı: bu çox simvolik idi. Biz öpüşən zaman mən bir əlimi onun koftasının yaxalığından içəri saldım. Əlimə onun döşü keçdi və onu ovcuma alaraq oxşamağa başladım. Əyninə lifçik geyinməmişdi. Sonra dikəldim və əlimi onun yaxasından

çıxardım. Divanın ətrafında dövrə vurub onun yanında əyləşdim. Hər ikimizə bir qədəh içki süzdüm.

– Qoca idbar üçün sən çox ürəklisən, – o mənə dedi.

– Bəlkə Debra gələnədək, tez bu işi bitirək, necə bilirsən?

– Yox.

– Məndən zəhlən getməsin. Mən sadəcə məclisimizi canlandırmağa çalışıram.

– Məncə, sən həddini aşmısan. Elə indicə etdiyin şey iyrənc və bayağı idi.

– Yəqin mənim təxəyyülüm elə də güclü deyil.

– Hələ deyirsən ki, yazıçısan?

– Mən yazıram. Amma, əsasən, fotoşəkillər çəkirəm.

– Məncə sən qadınları sikirsən ki, sonra onları necə sikdiyin haqqında yaza biləsən.

– Bilmirəm.

– Məncə, hər şeyi çox yaxşı bilirsən

– Yaxşı, yaxşı, yaddan çıxar. Hə, iç görüm.

Tessi yenidən öz qədəhinə qayıtdı. Öz içkisini bitirdi və sonra siqaretini əzib söndürdü. Başını qaldırıb öz süni və

uzun kirpiklərini tez-tez döyərək mənə baxdı. Qalın boya qatı çəkilmiş dodaqları ilə lap Debranı xatırladırdı. Amma Debranın dodaqlarının rəngi daha tünd idi və bu qədər güclü parıldamırdı. Tessinin dodaqları al-qırmızı rəngə boyanmışdı və bərq vurur, o öz ağzını aralı saxlayırdı və aramsız olaraq dilini çıxarıb alt dodağını yalayırdı. Qəfildən Tessi məni qamarladı. Onun iri ağzı mənim ağzımın üstünü qapatdı. Çox həyəcanlı idim, elə bil məni zorlayırdılar. Yavaş-yavaş sikim qalxmağa başladı. O məni öpərkən, mən əlimi aşağı uzatdım və onun yubkasının ətəyini geri atdım və biz öpüşməyə davam edərkən əlimlə onun sol qıçını sığalladım.

– Hər gəl görüm, – öpüşdən sonra ona dedim.

Onun əlindən tutdum və Debranın yataq otağına apardım. Onu itələyib yatağa yıxdım. Çarpayının üstünə örtük çəkilmişdi. Mən, əvvəlcə öz ayaqqabılarımı və şalvarımı soyundum, sonra isə onun ayaqqabılarını soyundurdum. Ona uzun və ehtiraslı bir öpüş bəxş elədim, sonra isə onun ətəyini belinə qədər qaldırdım. Onun əynindəki kolqotka deyilmiş, uzunboğazlı neylon corablar

və trusik. Dartıb onun trusiyini çıxardım. Tessi gözlərini yummuşdu. Haradasa, yaxınlıqda stereoda simfonik musiqi çalındığını eşidə bilirdim. Barmağımı onun amcığına sürtdüm. Çox keçmədən onun mamışı islanmağa və açılmağa başladı. Barmağımı onun içinə itələdim. Sonra barmağımı çıxardım və onun klitoruna sürtməyə başladım. O çox qəşəng və şirəli olmuşdu. Onun üstünə çıxdım və şeyimi soxandan sonra bir neçə dəfə sürətlə və qəzəblə dala-qabağa itələdim, daha sonra isə sürətimi azaltdım, yavaşladım. Sonra qəfildən yenə bir neçə kəskin təkan verdim. Onun pozğun və sadə üzünə baxdım. Bu üz məni həqiqətən riqqətə gətirirdi. Mən yenə təkanlarımı bərpa elədim.

Sonra Tessi məni itələyərək öz üstündən saldı.

– Düş üstümdən!

– Nə? Nə?

– Furqonun yaxınlaşdığını eşidirəm! Məni işdən qovacaq! Mən öz işimi itirəcəm!

– Yox, yox, səni LƏÇƏR!

Mən onu amansızcasına sikməyə davam elədim, dodaqlarımı onun parıldayan qorxunc ağzına sıxdım və elə həmin an onun içinə tökdüm, yaxşıydı. Onun üstündən qalxdım. Tessi öz ayaqqabıları ilə trusiyini yerdən götürdü və vanna otağına qaçdı. Cib dəsmalımla üz-gözümü sildim, yatağın örtüyünü düzəltdim və yastıqları çırparaq düzəltdim. Elə şalvarımın qabağını bağlayırdım ki, qapı açıldı. Mən ön otağa keçdim.

– Henri, masanı evə daşımaqda Larriyə kömək edərsənmi? O çox ağırdır.

– Əlbəttə.

– Bəs Tessi hanı?

– Məncə, vanna otağındadır.

Mən Debranın ardınca bayıra, yük maşınının yanına çıxdım. Biz masanı sürüşdürərək furqondan yerə düşürdük. Sonra hərəmiz bir tərəfindən yapışıb onu evə gətirdik. Biz evə girəndə, Tessi barmaqlarının arasında bir siqaretlə artıq divanda oturmuşdu.

– Malı yerə salmayın, uşaqlar! – Tessi dedi.

– Elə şey ola bilməz!

Biz masanı Debranın yataq otağına apardıq və çarpayının yanına qoyduq. Orda olan başqa masanı isə otaqdan çıxardıq. Sonra masanın ətrafında toplaşıb onun mərmər səthinə tamaşa edirdik.

– Ah, Henri... sadəcə, 200 dollar... xoşuna gəlirmi?

– Hə, çox gözəldir, Debra, sadəcə, əladır.

Vanna otağına getdim. Əl-üzümü yudum, saçlarımı daradım, sonra isə şalvarımla trusiyimi aşağı saldım və səssizcə öz salxımlarımı yudum. İşədim, unitazın suyunu buraxdım və yenə otağa qayıtdım.

– Şərab içərsənmi, Larri? – mən ondan soruşdum.

– O, yox, amma çox sağ olun...

– Kömək etdiyinə görə sənə minnətdaram, Larri, – Debra dedi.

Larri arxa qapıdan keçərək evdən çıxdı.

– İlahi, o qədər həyəcanlıyam ki! – Debra dedi.

Tessi divanda oturub şərab içə-içə bizimlə 10-15 dəqiqə söhbət elədi və sonra dedi:

– Mən artıq getməliyəm.

– Əgər istəyirsənsə, qala bilərsən, – deyə Debra təklif etdi.

– Yox, yox, mən getməliyəm. Bu gün mənzilimdə təmizlik işləriylə məşğul olmalıyam. Lap zibilxayana dönüb.

– Mənzilini yığışdırmalısan? Bu gün? Sənin iki yaxın dostunun burda oturub içki içdiyi bir vaxtda? – deyə Debra soruşdu.

– Burada oturub, sadəcə, öz evimdəki səliqəsizlik haqqında düşünürəm və heç cür rahatlaşa bilmirəm. Bunu özünüzə qarşı bir şey kimi qəbul etməyin.

– Yaxşı, Tessi, onda gedə bilərsən. Sənin günahından keçərik.

– Yaxşı, əzizim...

Onlar qapının ağzında öpüşdülər və Tessi getdi. Debra mənim əlimdən tutub yataq otağına apardı. Biz masanın mərmər səthinə tamaşa elədik.

– Düzünü de, bu masa haqqında nə düşünürsən, Henri?

– Hmm, bəzən at yarışlarında 200 dollar uduzduğumu və sonra da öz əməlimlə nə qazandığımı göstərə bilmədiyimi nəzərə alsaq, məncə, sənin aldığın bu masa heç də pis deyil.

– Bu gecə biz birlikdə yatanda, bu masa bizim yanımızda olacaq.

– Bəlkə mən onun yerində dayanım, sən isə yatağa bu masa ilə girəsən?

– Sən qısqanırsan!

– Əlbəttə.

Debra mətbəxə getdi və əlində əsgi parçaları və nəsə təmizləyici maye ilə geri qayıtdı. Onlarla masanın mərmər səthini silməyə başladı.

– Görürsənmi, mərməri içindəki damarları nəzərə çarpdırmaq üçün onu xüsusi üsulla silib təmizləmək lazımdır.

Mən əynimi soyundum və bircə trusiklə çarpayının kənarında oturdum. Sonra isə arxası üstə yastıqların və çarpayının örtüyünün üzərinə uzandım. Sonra yenə dikələrək oturdum.

– İlahi, Debra, mən sənin yataq örtüyünü əzişdirdim.

– Eybi yoxdur.

Mən o biri otağa keçib iki qədəh şərabla qayıtdım və qədəhlərdən birisini Debraya verdim. Onun masanın üstünü silməsinə tamaşa etdim. Sonra o dönüb mənə tərəf baxdı:

– Xəbərin varmı, sənin qıçların həyatımda kişilərdə gördüyüm ən gözəl qıçlardır.

– Mənim kimi bir qoca üçün heç də pis deyil, hə, qızcığaz?

– Qətiyyən pis deyil.

Debra masanın üstünü bir qədər də siləndən sonra, nəhayət, ondan əl çəkdi.

– Tessi ilə necə yola getdiniz?

– Heç bir problem olmadı. Əslində, ondan xoşum gəlir.

– O çox yaxşı işçidir.

– Bu haqda mən bilmirdim.

– Onun belə çıxıb getməsi mənə pis təsir elədi. Məncə, o bizim tək qalmağımıza şərait yaratmaq üçün belə elədi. Ona zəng vurmalıyam.

– Niyə də zəng eləmiyəsən, axı?

Debra telefona yaxınlaşdı. Telefonda Tessi ilə bir xeyli söhbət elədi. Hava qaralmağa başlamışdı. Şam yeməyinə nə

olacaq görəsən? Debra telefonu çarpayının düz ortasına qoymuşdu və ayaqlarını altına yığaraq oturmuşdu. Onun əla arxası vardı. Debra ucadan güldü və sonra sağollaşaraq dəstəyi asdı. Dönüb mənə baxdı:

– Tessi deyir ki, sən çox sevimlisən

Yenə içki gətirmək üçün mən yataq otağından çıxdım. Geri qayıdanda böyük ekranlı televizor qoşulmuşdu. Biz çarpayının üstündə yanaşı oturub televizora baxırdıq. Televizora baxarkən də, arxamızı divara söykəyib şərab içirdik.

– Henri, – o dedi, – Şükran günü sən nə edəcəksən?

– Heç nə.

– Bəs onda Şükran gününü nə üçün mənimlə birlikdə keçirməyəsən? Mən hind toyuğu bişirməyi planlaşdırıram. Bir neçə dostum da gələcək.

– Yaxşı olar, qulağa da xoş gəlir.

Debra irəli əyilərək televizoru söndürdü. O çox xoşbəxt görünürdü. Sonra isə işıqlar söndü. Debra vanna otağına getdi və oradan nəsə çox nazik bir şeyə bürünərək geri qayıtdı. Sonra isə yatağa, mənim yanıma girdi. Biz bir-

birimizə qısıldıq. Mənim şeyim bərkidi. Onun dili gah mənim ağzıma girir, gah da çıxırdı. Onun iri və isti dili vardı. Mən aşağı sürüşdüm. Tükləri araladım və dilimlə işləməyə başladım. Sonra bir qədər burnumu da işə saldım. O buna reaksiya verirdi. Mən yenə normal vəziyyətə qayırdım, onun üstünə çıxdım və şeyimi soxdum.

... Durmadan elə hey dala-qabağa yırğalanırdım. Əynində qırmızı qısa ətəklə Tessini xəyalımda canlandırmağa çalışırdım. Bu da kömək eləmədi. Əslində bütün enerjimi Tessiyə sərf etmişdim. Mən nasos porşeni kimi durmadan vururdum.

– Bağışla məni, əzizim, yenə çox içmişəm. Əlini sinəmə qoyub bir ürəyimi hiss elə!

O əlini mənim sinəmə qoydu.

– Hə, yaman bərk döyünür, – o dedi.

– Mən hələ də Şükran gününə dəvətliyəmmi?

– Əlbəttə, mənim əziz zavallım, narahat olma, lütfən.

Mən ona şirin yuxu arzulayaraq onu öpdüm, sonra yana çevrilib yuxulamağa çalışdım.

91

Ertəsi gün Debra işə gedəndən sonra vanna qəbul etdim, sonra televizora baxmağa çalışdım. Otaqda bir balaca lüt gəzişdim və birdən başa düşdüm ki, küçədən keçənlər ön pəncərədən məni görə bilərdilər. Ona görə də, bir stəkan qreypfrut şirəsi içəndən sonra əynimi geyindim. Nəhayət, evə getməkdən başqa bir işim qalmamışdı. Yəqin poçtumu gətirmişdilər, bəlkə də kimdənsə məktub da vardı. Bütün qapıların bağlı olduğuna əmin olandan sonra öz folksvagenimə tərəf addımladım, maşına minib mühərriki işə saldım və geriyə, Los-Ancelesə sürdüm.

Yolda gedərkən, birdən "Ulan"da bədii qiraətlə çıxış edərkən tanış olduğum qız – Sara yadıma düşdü. Onun telefon nömrəsi mənim portmanemdəydi. Evə çatdım, sıçdım və sonra ona zəng vurdum.

– Allo, – mən dedim, – danışan Çinaskidir, Henri Çinaski...

– Hə, mən sizi xatırlayıram.

– İşləriniz necədir? Birdən düşündüm ki, gəlib sizinlə görüşə bilərəm.

– Bu gün mən öz restoranımda olmalıyam. Bəlkə restorana gələsiniz?

– Hə, o sağlam qida verilən yeri deyirsiniz, elə deyilmi?

– Hə, sizin üçün yaxşı sağlam bir buterbrod düzəldə bilərəm.

– Hə?

– Axşam saat 4-də bağlanırıq. Çalışın həmin vaxtdan bir az əvvəl gələsiniz.

– Danışdıq. Bəs ora necə gəlim?

– Bir qələm götürün və dediklərimi qeyd edin.

Onun dediklərini bir kağıza yazdım.

– Saat təxminən 3:30-da görüşərik, – mən dedim.

Təxminən saat 2:30-da folksvagenə mindim. Deyəsən o yolun hansısa hissəsində səhvə yol vermişdi, ya da mən nəyisə qarışdırmışdım. Şosse yollardan da, təlimatlardan da zəhləm gedirdi. Mən hardansa döndüm və Leykvuda gəlib çıxdığımı gördüm. Benzindoldurma stansiyasına gəldim və Saraya zəng vurdum.

– "Qonaq Gəlin" meyxanası, – o dedi.

– Ay səni zibil, – mən dedim.

– Nə olub? Səsiniz yaman əsəbidir.

– Mən Leykvuda gəlib çıxmışam. Sənin verdiyin təlimatlar bir poxa yaramadı!

– Leykvuda? Bir dəqiqə gözləyin.

– Mən geri qayıdıram. Mən nəsə içməliyəm.

– Səbr eləyin, bir dəqiqə gözləyin. Mən sizi görmək istəyirəm! Leykvudada hansı küçədə olduğunuzu və ən yaxın döngənin adını mənə deyin.

Telefonun dəstəyini havadan asılı qoyub harada olduğuma baxmağa getdim. Bunu öyrənəndən sonra olduğum yer haqqında Saraya məlumat verdim. O məni yenidən istiqamətləndirdi.

– Bu çox asandır, – o dedi. – İndi isə söz verin ki, gələcəksiniz.

– Yaxşı.

– Əgər bir də yolu itirsəniz, mənə yenə zəng vurun.

– Məni bağışlayın, amma bilirsinizmi, mənim qətiyyən istiqaməti müəyyən etmə qabiliyyətim yoxdur. Yuxularımda tez-tez kabus görürəm, görürəm ki, hardasa yolumu azıb

qalmışam. Mənə elə gəlir ki, mən başqa planetdən gəlmişəm.

– Hə, problem deyil. Bircə mənim izah etdiyim kimi hərəkət edin.

Mən yenə maşına mindim və bu dəfə həqiqətən də hər şey çox asan oldu. Tezliklə Sakit Okean Şossesinə çıxmışdım və mənə lazım olan döngəni axtarırdım. Onu tapdım. Bu yol məni okeanın düz yanındakı darıxdırıcı alış-veriş rayonuna gətirib çıxardı. Maşını lap yavaş sürürdüm və birdən onu gördüm: əl ilə "Qonaq Gəlin" meyxanası yazılmış lövhəni. Meyxananın pəncərələrinə fotoşəkillər və balaca kartlar yapışdırılmışdı. Aman Tanrım, həqiqi sağlam qida restoranı. Restorana girmək istəmirdim. "Qonaq Gəlin" meyxanasının yanından yavaşca keçərək bir məhəllə aralaşdım. Sağa döndüm, sonra bir də sağa döndüm və orada "Krab Limanı" adlı bir bar gördüm. Maşını kənarda verib saxladım və bara daxil oldum.

Saat günortadan sonra 3:45 idi. Bardakı bütün masalar doluydu. Müştərilərin əksəriyyəti artıq öz yüklərini tutmuşdular. Mən piştaxtanın yanında dayandım və bir

qədəh araq-7 sifariş etdim. Qədəhi də əlimə alıb telefon aparatına yaxınlaşdım və Saraya zəng vurdum.

– Allo, bu Henridir. Mən burdayam.

– Restoranın önündən iki dəfə keçdiyinizi gördüm. Qorxmayın. İndi haradasınız?

– "Krab Limanı"nda. Oturub özüm üçün vururam. Bir azdan yanınıza gələcəm.

– Danışdıq. Amma çox içməyin.

İlk qədəhdən sonra birini də içdim. Boş bir kabinet tapdım və orada oturdum. Həqiqətən oraya getmək istəmirdim. Heç Saranın necə göründüyünü də xatırlamırdım.

İçkimi bitirdim və onun restoranına getdim. Maşından düşdüm, setkalı qapını açdım və içəri daxil oldum. Sara piştaxtanın arxasında dayanmışdı. O məni gördü.

– Salam, Henri! – o dedi, – bir dəqiqə sonra sizin yanınıza gələcəm.

O nəsə hazırlayırdı. Ətrafda dörd, ya da beş kişi gözə dəyirdi, bəziləri oturmuşdu, bəziləri isə ayaq üstə dayanmışdılar. Bəzi adamlar divanda oturmuşdular, bəziləri

döşəmədə. Onların hamısı iyirmi-iyirmibeş yaşlarında olardılar, hamısı bir-birinə bənzəyirdilər, əyinlərində gəzinti üçün qısa tuman vardı və sadəcə oturmuşdular. Ara-sıra onlardan birisi bir ayağını o biri ayağının üstünə aşırır, ya da öskürürdü. Əslində, Sara kifayət qədər qəşəng qadın idi, qədd-qamətliydi və zalda çox çevik hərəkət edirdi. Onun açıq kürən saçları vardı. Çox qəşəng görünürdü.

– İndi sizin qayğınıza qalarıq, – o mənə dedi.

– Yaxşı, – mən dedim.

Zalda bir kitab rəfi vardı. Orada mənim də üç, ya da dörd kitabım qoyulmuşdu. Rəfdən Lorkanın kitablarından birini tapıb yerimə oturdum və özümü oxuyurmuş kimi göztərdim. Belə etməklə mən, heç olmasa, bu oğlanların əynindəki gəzinti tumanlarını görmürdüm. Onlar elə görünürdülər, elə bil həyatda heç bir pis şey onlara toxunmamışdı – analarının onların qayğısına yaxşı qalmışdı və onları qorumuşdu, üzlərindən də həyatdan məmnunluq ifadəsi əskik olmurdu. Onlardan heç biri, deyəsən, həbsxanaya düşməmişdi və ya ağır əl əməyi ilə məşğul olmamışdı, ya da polis onları yol hərəkəti qaydalarını

pozduqlarına görə cəzalandırmamışdı. Bütün bu kütlə elə bil süddən yığılmış qaymaq idi.

Sara mənə bir dənə sağlam qidadan hazırlanmış buterbrod gətirdi.

– Al, bunun bir dadına bax.

Bu oğlanlar zalda veyilləndikləri vaxt mən buterbrodu həzmi-rabedən keçirdim. Çox keçmədən onlardan biri yerindən qalxıb çölə çıxdı. Sonra onun arxasınca birisi də çıxdı. Sara təmizlik işləri ilə məşğul idi. Zalda oğlanlardan yalnız birisi qalmışdı. Onun təxminən 22 yaşı olardı. O, döşəmədə oturmuşdu. Uzundraz idi və beli yay kimi əyilmişdi. Ağır qara sağanaqlı gözlük taxmışdı. Yoldaşları ilə müqayisədə o daha yalqız və daha əbləh görünürdü.

– Ey, Sara, – oğlan dedi, – gəl bu axşam pivə içməyə gedək.

– Yox, bu axşam olmaz, Mayk. Sabah axşam getsək necə olar?

– Danışdıq, Sara.

O yerindən qalxıb piştaxtaya yaxınlaşdı. Oraya bir sikkə qoydu və özü üçün sağlam qidadan hazırlanmış bir

peçenye seçdi. Piştaxtanın yanında dayanıb öz sağlam qidadan hazırlanmış peçenyesini yeyirdi. Peçenyeni bitirəndən sonra dönərək restorandan çıxdı.

– Buterbrodu bəyəndinmi? – Sara məndən soruşdu.

– Hə, pis deyildi.

– Bayırda yolun kənarına düzülmüş masanı və stulları içəri gətirə bilərsinizmi?

Mən masanı və stulları içəri gətirdim.

– İndi nə eləmək istəyirsiniz? – o soruşdu.

– Hmm, barları xoşlamıram. Orada hava ağır olur. Gəl içməyə nəsə alıb sənin evinə gedək.

– Yaxşı. Mənə zibili çölə çıxarmağa kömək edin.

Ona zibili çölə çıxarmağa kömək etdim. Sonra Sara restoranı bağladı.

– Maşını mənim furqonumun arxasınca sürün. Çox əla şərablar satılan bir dükan tanıyıram. Sonra isə maşını arxamca mənim evimə sürərsiniz.

Onun furqon folksvageni vardı və mən maşınımı onun arxasınca sürdüm. Onun maşınının arxa şüşəsinə hansısa bir kişinin rəsmi olan bir plakat yapışdırılmışdı. “Gülümsəyin

və sevinin” – şəkil mənə məsləhət görürdü, plakatın altında isə kişinin adı yazılmışdı – Drayer Baba.

Onun evinə çatandan sonra biz şərab şüşəsini açdıq və divanda oturduq. Onun evinin düzəni mənim çox xoşuma gəldi. Evindəki bütün mebeli, çarpayı da daxil olmaqla, özü düzəltmişdi. Hər yerdə Drayer Babanın şəkilləri vardı. Özünün Allah olduğunu iddia edən bu adam Hindistanda doğulmuş və 1971 – ci ildə vəfat etmişdi.

Sara ilə oturub birinci şüşə şərabımızı içdiyimiz dəmdə, qapı açıldı və dişləri qabağa çıxan uzun saçlı və çox uzun saqqallı bir gənc adam içəri daxil oldu.

– Bu Rondur, mənim otaq yoldaşım, – Sara onu mənə təqdim edərək dedi.

– Salam Ron, şərab istəyirsənmi?

Ron da bizimlə şərab içdi. Sonra isə gombul bir qızla başı daz qırxılmış arıq bir oğlan içəri daxil oldular. Bu gələnlərin adı Perl və Cek idi. Onlar da bizimlə əyləşdilər. Daha sonra başqa bir gənc oğlan gəldi. Onun adı Cin Con idi. Cin Con da bizim yanımızda oturdu. Sonra Pet gəldi.

Petin qara saqqalı və uzun saçları vardı. O, döşəmədə, düz mənim ayaqlarımın yanında oturdu.

– Mən şairəm, – Pet dedi.

Mən şərabdan bir udum aldım.

– Yazılarını çap etdirmək üçün neyləmək lazımdır? – deyə o məndən soruşdu.

– Yazıları redaktorlara təqdim etmək.

– Amma mən hələ tanınmış birisi deyiləm.

– Hamı bu işə başlayanda tanınmamış olur.

– Mən həftədə üç gün bədii qiraətlə çıxış edirəm. Üstəlik də mən aktyoram, ona görə də yaxşı qiraət edirəm. Belə düşündüm ki, öz şeirlərimi oxusam kifayət edər, bəlkə də kimsə mənim qiraətimi eşidib şeirlərimi çap eləmək istəyə bilər.

– Bu mümkün deyil.

– Məsələ ondadır ki, mən qiraət edəndə, heç kəs dinləməyə gəlmir.

– Sizə nə məsləhət görəcəyimi bilmirəm.

– Öz kitabımı özüm çap etdirmək qərarına gəlmişəm.

– Uitman da belə eləmişdi.

– Siz bir neçə şeirinizi bizim üçün oxuyarsınızmı?

– İlahi, yox.

– Niyə axı yox?

– Mən, sadəcə, içmək istəyirəm.

– Siz kitablarınızda içki haqqında çox yazırsınız. Sizcə içki sizə kitablarınızı yazmağa kömək edibmi?

– Yox. Mən, sadəcə, günortaya qədər yataqda qala bilmək üçün yazıçı olmuş içki düşkünüyəm. – Saraya tərəf döndüm. – Sənin bu qədər dostun olduğunu heç bilmirdim.

– Həmişə belə olmur. İndiyə qədər belə olduğunu heç xatırlamıram.

– Şərabımızın bu qədər çox olması məni sevindirir.

– Əminəm ki, onlar tezliklə çıxıb gedəcəklər, – Sara dedi.

Qalanları oturub bir-biri ilə söhbət edirdilər. Söhbətin mövzusu tez-tez dəyişdiyindən daha onlara qulaq asmırdım. Sara gözümə çox qəşəng görünürdü. O ağzını açıb nəsə deyəndə, çox ağıllı və kəskin sözlər deyirdi. Onun iti beyni vardı. Əvvəlcə Perl ilə Cek bizi tərk etdilər. Sonra Cin Con getdi. Sonra isə şair Pat müraxxəs oldu. Ron Saranın bir

tərəfində, mən isə o biri tərəfində oturmuşduq. Yalnız üçümüz qalmışdıq. Ron özü üçün bir qədəh şərab süzdü. Mən onu günahlandıra bilməzdim, çünki o, Saranın otaq yoldaşı idi. Orada ondan daha uzun müddət oturacağıma ümid edə bilməzdim. Çünki o öz evindəydi. Bir qədəh Sara üçün. Bir qədəh də özümə şərab süzdüm. Qədəhi boşaldandan sonra Ron ilə Saraya dedim:

– Hə, daha vaxtdı, mən getməliyəm.

– Ay, yox, – deyə Sara etiraz etdi, – belə tez getməyin. Sizinlə danışmaq üçün heç imkan tapa bilmədim. Sizinlə söhbət eləmək istəyirdim. – Sara dedi və dönüb Rona tərəf baxdı. – Ron, sən mənim nə demək istədiyimi başa düşürsən, elə deyilmi?

– Əlbəttə.

O ayağa qalxdı və evin arxa hissəsinə getdi.

– Ey, – mən dedim, – mən burda nəsə bir pox qaynatmaq istəmirəm.

– Hansı poxdan danışırsınız?

– Sən və sənin otaq yoldaşının arasında.

– Bizim aramızda heç bir münasibət yoxdur. Nə seks, nə də başqa bir münasibət. O, evin arxasındakı otağı kirayələyib.

– Aha.

Qulağıma gitara səsi gəldi. Sonra isə kimsə ucadan mahnı oxumağa başladı.

– Bu Rondur, – Sara izah etdi.

O, sadəcə, böyürürdü. Elə bil donuzları çağırırdı. Onun səsi elə pis idi ki, heç bir şərhə ehtiyac qalmırdı.

Ron təxminən bir saat beləcə anqıraraq oxudu. Sara ilə mən bir az da şərab içdik. O bir neçə şam da yandırdı.

– Alın bir dənə bidinin dadına baxın.

Mən birisinin dadına baxdım. Bidi Hindistandan gətirilmiş mixəyi rəngli balaca siqaretdir. Onun qəşəng ağız büzüşdürən acı dadı vardı. Mən Saraya tərəf döndüm və biz ilk dəfə öpüşdük. O yaxşı öpüşürdü. Axşamımız deyəsən düzəlirdi.

Birdən setka qapı zərblə açıldı və otağa cavan bir oğlan daxil oldu.

– Barri, – Sara dedi, – Mən daha heç bir qonaq qəbul eləmirəm.

Qapı yenə çırpıldı və Barri gözdən itdi. Mən artıq gələcək problemləri görə bilirdim: guşənişin birisi olduğumdan, bu qədər çox adamların gəlib-getməsinə səbrim çatmırdı. Qısqanclıqla bunun heç bir əlaqəsi yox idi. Sadəcə, insanları və kütlələri, harada olmasından asılı olmayaraq xoşlamırdım, əlbəttə ki, bədii qiraətlə çıxış etdiyim hallar buna aid deyil. İnsanlar məni əskildirdilər, mənim həyat enerjimi əmib qurudurdular.

“İnsanlıq, bu sənin içində elə əvvəldən olmayıb.” Bu mənim devizim idi.

Sara ilə mən yenidən öpüşdük. Hər ikimiz də çox içdiyimizdən lül-qəmbər idik. Sara bir şüşə də şərab açdı. O şərabı öz içində saxlamağı yaxşı bacarırdı. Onunla nə haqqında söhbət etdiyimizi xatırlamıram. Saranın ən yaxşı cəhəti mənim yaradıcılığıma çox az istinadlar etməsi idi. Sonra son şüşəmiz də boşaldı, mən Saraya dedim ki, maşın sürmək iqtidarında deyiləm və ona görə də evə gedə bilməyəcəyəm.

– Oh, sən mənim çarpayımda yata bilərsən, amma seksdən söhbət gedə bilməz.

– Niyə axı?

– Evlənmədən sekslə məşğul olmaq olmaz.

– Olmaz deyirsən?

– Drayer Baba buna inanmır.

– Bəzən Allah da səhvə yol verə bilər.

– Heç vaxt.

– Yaxşı, sən deyən olsun, gəl yatağa girək.

Biz qaranlıqda bir də öpüşdük. İstənilən halda mən öpüşmək dəlisiydim və Sara da həyatımda rast gəldiyim insanlar arasında ən yaxşı öpüşən qadın idi. Onunla müqayisə edilə biləcək birisini tapmaq üçün mən xəyalən Lidiya ilə birlikdə olduğum dövrə qədər geri qayıtmalı olacaqdım. Nə deyirsiniz deyin, amma hər bir qadını fərqləndirən şeylər var. Onların hər biri fərqli, özünəməxsus bir şəkildə öpüşür. İndi bəlkə də Lidiya haradasa hansısa əclafı öpür, ya da daha pisi onun şeyini öpürdü. Katrina yəqin indi Ostidə yataqda yuxulayıb.

Sara mənim şeyimi əlinə almışdı, onu oynadır və ovuşdururdu. Sonra şeyimi öz amına sıxdı və aşağı-yuxarı, aşağı-yuxarı, yalnız sürtməyə başladı. O öz Allahına, Drayer Babaya itaət edirdi. Mən onun amı ilə oynamırdım, çünki hiss edirdim ki, mənim bu hərəkətim Drayer Babanı təhqir edə bilərdi. Biz, sadəcə öpüşürdük, o isə şeyimi əlində tutaraq öz amcığına, bəlkə də klitoruna sürtüşdürməyə davam edirdi, mən bunu dəqiq bilmirdim. Mən yerimdə uzanıb, sadəcə, onun mənim şeyimi nə vaxt öz amına dürtəcəyi anı gözləyirdim. Amma o elə hey şeyimi sürtüşdürürdü. Onun tükləri artıq şeyimin başını yandırmağa başlamışdı. Ona görə də, kənara çəkildim.

– Gecən xeyri qalsın, balacam, – mən dedim. Sonra isə əks tərəfə çevrildim və kürəyimi ona söykətdim. Drayer Beybi, deyə düşündüm, bu yataqda sənə sidqi-ürəkdən inanan birisi var.

Ertəsi gün səhər biz yenə də bir müddət öz sürtüşməyimizə davam elədik, amma nəticə keçən gecəki ilə eyni oldu. Düşündüm ki, qoy cəhənnəm olsun, bu cür fəaliyyətsizlik mənə lazım deyil.

– Vanna qəbul eləmək istəyirsənmi? – Sara soruşdu.

– Əlbəttə.

Mən vanna otağına getdim və suyu açdım. Dünən gecə necə olmuşdusa, Saraya etiraf etmişdim ki, mənim çılğınlıqlarımdan biri də gündə dörd-beş dəfə qaynar vanna qəbul etməyimdir. Su ilə müalicənin qədim üsulu.

Saranın vannası mənimkindən daha çox su tuturdu və su da daha qaynar idi. Mənim boyum 5 fut on bir düym olsa da, bu vannanın içində rahat uzana bilirdim. Keçmiş zamanlarda vannaları imperatorlar üçün düzəldirdilər, beş fut boyu olan bank əməkdaşları üçün deyil.

Vannanın içinə girib uzandım. Bu əla hiss idi. Sonra ayağa qalxdım və amcıq tükləri ilə sürtüb yara elədiyi zavallı sikimə baxdım. Çətin dövrü yaşayırsan, qoca oğlan, amma hədəfdən elə də uzaq deyildin. Bəlkə, heç olmamaqdan daha yaxşıdır? Yenə vannanın içinə oturdum və uzandım. Telefon zəng çaldı. Pauza oldu.

Sara qapını döydü.

– Gəl!

– Henk, zəng eliyən Debradır.

– Debra? Mənim burda olduğumu hardan bildi?

– O bütün tanışlara zəng eləyib. Bəlkə deyim bir az sonra zəng vursun?

– Yox, de ki, bir az gözləsin.

Böyük bir dəsmal tapıb belimə doladım. O biri otağa keçdim. Sara telefonda Debra ilə danışırdı.

– Hə, budur o da gəldi...

Sara dəstəyi mənə verdi.

– Allo, Debra?

– Henk, harda idin?

– Vanna otağında.

Vanna otağında?

– Bəli.

– Ordan elə indi çıxmısan?

– Hə.

– Bəs əynində nə var?

– Belimə dəsmal dolamışam.

– Belində dəsmalı tutub necə telefonla danışa bilirsən?

– Lap rahat.

– Aranızda nəsə olubmu?

– Yox.

– Bəs niyə?

– Necə yəni, niyə?

– Demək istəyirəm ki, bəs onu niyə qayırmamısan?

– Bura bax, sən nə demək istəyirsən, mən ətrafda gəzib ancaq bu işləmi məşğul oluram? Nədi, düşünürsən ki, əlimdən bundan başqa heç nə gəlmir?

– Deməli, heç nə baş verməyib?

– Hə.

– Nə?

– Hə, heç nə baş verməyib.

– Onun evindən çıxandan sonra hara getmək fikrindəsən?

– Öz evimə.

– Bura gəl.

– Bəs sənin hüquqi işlərin necə olsun?

– Biz, demək olar ki, bütün işlərimizi bitirmişik. Qalan şeyləri Tessi özü də yoluna qoya bilər.

– Yaxşı.

Dəstəyi asdım.

– Sən neyləmək fikrindəsən? – Sara məndən soruşdu.

– Debranın evinə gedirəm. Ona dedim ki, 45 dəqiqədən sonra orda olacam.

– Amma mən düşünmüşdüm ki, biz birlikdə nahar edərik. Mən yaxşı bir meksikan restoranı tanıyıram.

– Qulaq as, o çox narahatdır axı. Belə olan halda biz nahar masasının arxasında necə oturub söhbət eləyə bilərik.

– Mən fikrimdə artıq sənlə nahar eləməyi planlaşdırmışdım.

– Nə zibilə düşdük, sən öz restoranını nə vaxt açırsan?

– Saat on birdə, indi isə saat hələ ondur.

– Yaxşı, gəl gedib nahar edək...

Bu, Hermoza Biçdəki iyrənci hippi rayonunda yerləşən meksikan restoranı idi. Zövqsüz, laqeyd tiplər. Çimərlikdə ölüm. Özünü unut, dərindən nəfəs al, ayağına səndəllər geyin və özünü dünyanın gözəl olduğunu düşünürmüş kimi göstər.

Sifarişlərimizin gətirilməsini gözləyərkən, Sara əlini uzadıb barmağını istiotlu sousa batırdı və sonra onu yaladı. Sonra barmağını sousa bir də batırdı. O, başını sous qabının

üstünə əydiyindən onun düz saçları gözlərimə girirdi. O isə barmağını istiotlu sousa batırıb yalamağına davam edirdi.

– Qulaq as, – mən ona dedim, – Bu sousdan başqa insanlar da istifadə edəcəklər. Sənə baxanda lap ürəyim bulanır! Daha bəsdi, dayan.

– Yox, onlar hər dəfə bu qabı yenidən doldururlar.

Mən ümid etdim ki, onlar həqiqətən də bu qabı hər dəfə yenidən doldururlar. Sonra yeməyimiz gəldi və Sara heyvan kimi irəli əyilərək ona hücuma keçdi, elə Lidiya da belə edərdi. Biz yeməyimizi bitirib bayıra çıxdıq və Sara öz furqonuna minib öz sağlam qida verən restoranına, mən isə öz folksvagenimə minib Playa del Rey istiqamətində getməyə başladım. Yolu mənə müfəssəl şəkildə izah etmişdilər. Təlimatlar bir qədər qarışıq olsa da, mən onlara riayət edirdim və hərəkət edərkən, heç bir problemim olmadı. Bu bir balaca qanqaraldıcı idi, çünki mənim gündəlik həyatımda gərginlik və dəlilik olmayanda, elə bil həyatda söykənəcəyin bir şey qalmırdı.

Maşını Debranın həyətinə sürdüm. Pərdələrin arxasında hərəkətlər sezdim. Deyəsən, Debra pərdənin arxasında

dayanıb mənim gəlişimi gözləyirdi. Maşından düşdüm və hər iki qapının bağlı olub-olmadığını yoxladım, çünki sığortamın müddəti bitmişdi.

Qapıya yaxınlaşıb Debranın zəngini basdım. O, qapını açdı və deyəsən, məni görməyinə şad olmuşdu. Bu normal idi, amma məhz belə şeylər bir yazıçıya öz işlərini bitirməsinə mane olur.

92

Həftənin qalan günləri elə də çox işim olmadı. "Ouktri" yarışları davam edirdi. İki-üç dəfə at yarışlarına getsəm də, bir şey uda bilmədim. Elə başa-baş çıxdım. Seks jurnalı üçün ədəbsiz bir hekayə, 10, ya da 12 şeir yazdım. Demək olar ki, hər gün masturbasiya ilə məşğul olurdum və hər axşam Sara ilə Debraya zəng edirdim. Bir gecə Kessiya zəng vurdum və telefona bir kişi cavab verdi. Əlvida, Kessi.

Həmişə kiminləsə ayrılmağın çətin olduğu haqqında düşünmüşəm. Amma yenə də bir qadınla ayrılandan sonra başqa birisi ilə tanış olurdun. Qadınları həqiqətən tanımaq

üçün onların dadına baxmalı, içlərinə girməliydim. Mən beynimdə bir kişi obrazı yarada bilərdim. Çünki özüm də kişi idim, amma qadınlara yaxşı bələd olmadan onların bədii obrazını yaratmaq demək olar ki, mümkün deyildi. Ona görə də, onları, bacardığım qədər yaxşı tədqiq edir və onların içində insan varlıqlarını aşkar edirdim. Bir epizod başa çatana qədər yazıçılıq unudulurdu. Amma bəzən bu epizod yazının özündən daha böyük olurdu. Mətn, sadəcə, nəyinsə qalığına çevrilirdi. Bir kişinin real hisslər keçirməsi üçün əslində ona qadın lazım deyildi. Amma bununla belə, bir neçə qadını dərindən tanıması ona heç də ziyan etməzdi. Məhəbbət macərasında işlər düz getməyəndə, o həqiqətən yalqız qalmağın və ağlını itirməyin nə demək olduğunu başa düşəcək. Bu isə ona, nəhayət özünün sonuna çatanda, hansı aqibətlə üzləşməli olacağını anlamaqda yardımçı olacaq.

Mən bir çox şeylərə qarşı həssasam: çarpayının altındakı qadın ayaqqabısı; komodun üstündə unudulmuş saç sancağı; onların necə nazlanaraq: “Mən işəməyə gedirəm...” – deməsi; saç lentləri; günorta saat 1:30 –da onlarla bulvarda gəzişmək, sadəcə iki insanın qoşa addımlaması; uzun

küçələrdə içmək, siqaret çəkmək və söhbət eləmək; mübahisələr; intihar haqqında düşünmək; birlikdə yemək yeyərkən özünü əla hiss etmək; zarafatlar, səbəb olmadan gülmək; havada möcüzələr uçuşduğunu hiss etmək; dayanacaqdakı maşında birlikdə oturmaq; gecə saat 3-də keçmiş sevgililərinlə onu müqayisə etmək; sənə xoruldayırsan deyilməsi, onun xorultusunu eşitmək; analar, qızlar, oğullar, pişiklər, itlər; bəzən ölüm, bəzənsə boşanma, amma hər zaman davam etmək, sonuna qədər getmək; buterbrod verilən yeməkxanada yalqız oturub qəzet oxumaq və sənin qadınının intellekt səviyyəsi 95 olan bir diş həkiminə ərə getməsinə görə ürəyinin bulanması; ippodromlar, parklar, parklarda pikniklər; hətta həbsxanalar; onun maraqsız dostları, sənin maraqsız dostların; sənin içməyin, onun rəqs etməsi; sənin mazaqlaşman, onun mazaqlaşması; onun həbləri, sənin başqası ilə kənarda sikişmən və onun da eyni şey etməsi; birlikdə yatmaq...

Burda heç bir mühakiməyə yer yoxdur. Amma bununla belə, zərurət qarşısında seçim etməli olursan. Xeyir və şərdən kənarda olmaq, əlbəttə ki, nəzəriyyədə mümkündür.

Lakin yaşamına davam eləməyin üçün seçim etməli olursan: bəziləri başqaları ilə müqayisədə daha mərhəmətli olurlar. Bəzilərinin, sadəcə sənin lə bağlı maraqları olur və bəzən görünüşcə gözəl, daxilən isə soyuq olmaq zərurətə çevrilir. Bütün bunlar həyatın qanlı və iyrənc zərbələri səbəbindən baş verir. Lap elə qanlı və iyrənc filmlərdəki kimi. Daha mərhəmətli olanlar daha yaxşı sikişirlər, həqiqi sözümdü, və bir müddət birlikdə olandan sonra onlar sənin gözündə daha da gözəlləşirlər, çünki onlar həqiqətən gözəldirlər. Mən Sara haqqında düşündüm, bax onda nəsə belə bir şey var, əlbəttə, əgər bu lənətə gəlmiş STOP nişanını əlində tutan Drayer Baba olmasaydı.

Sonra Saranın ad günü gəldi: 11 Noyabr, Veteranlar Günü. Biz iki dəfə də görüşmüşdük – bir dəfə mənim evimdə, bir dəfə də onun evində. Aramızda əyləncə və ümid havası dolaşırdı. O qəribə qadın olsa da, başqalarından fərqlənirdi. Özü də çox yaradıcı idi; aramızda xoşbəxtlik hökm sürürdü... əgər yataqdakı vəziyyəti nəzərə almasaq... o yanırdı... lakin Drayer Baba bizi bir-birimizdən aralı tuturdu. Mən bu döyüşü Allah qarşısında uduzmaqda idim.

– Sikişmək əsas məsələ deyil, – o mənə deyirdi.

Hollivud Bulvarı ilə Fontan Evenyunun kəsişməsində yerləşən “Bessi Xalagildə” adlı ekzotik ərzaq dükanına getdim. Oradakı satıcılar ürəkbulandıran məxluqlardılar – yüksək intellektləri yüksək snobizmə çevrilmiş cavan qaradərili oğlanlar və cavan ağdərili oğlanlar. Onlar üzlərində təkəbbürlü bir ifadə ilə dükanın içində ora-bura gəzişir, müştərilərə məhəl qoymur, onları təhqir edirdilər. Orada işləyən qadınlar tosqun və yuxulu görünürdülər. Əyinlərinə enli koftalar geyinmiş, başlarını aşağı dikmişdilər. Elə bil bir növ yuxulu utancaqlıq içindəydilər. Alıcılar isə özlərini boz hamam kisəsi kimi aparır, bu təhqirlərə dözür və sonra daha çox təhqir üçün bir də geri qayıdırdılar. Satıcı oğlanlar mənə ilişmədilər. Ona görə də onların daha bir gün yaşamasına icazə verildi...

Mən Saranın ad gününə bir hədiyyə aldım. Hədiyyə, əsas etibarilə arı cekresiyasından ibarət idi – kollektiv pətəklərindən iynə vasitəsilə sorularaq çıxarılmış bir çox arı beyni. Əlimdə toxunma səbət vardı, səbətin içində isə arı cekresiyası ilə yanaşı yemək üçün çubuqlar, dəniz duzu, iki

ədəd nar (orqanik), iki ədəd alma (orqanik) və bir qədər də günəbaxan tumları vardı. Səbətimdəki əsas şey arı cekresiyası idi və qiyməti də çox bahaydı. Sara bu haqda mənə çox danışmışdı. Sözarası onu da qeyd etmişdi ki, onu çox istəsə də, baha olduğundan ala bilmir.

Maşını Saranın evinə tərəf sürdüm. Yanımda bir neçə şərab şüşəsi də vardı. Əslində, üzümü qırxarkən onlardan birini boşaltmışdım. Üzümü nadir hallarda qırxırdım. Amma Saranın ad günündə və Veteranlar Günü axşamı bunu etməyə bilməzdim. O yaxşı qadın idi. Onun heyranedici dərrakəsi vardı və nə qədər qəribə olsa da, onun nikahsızlığını da başa düşmək olardı. Demək istədiyim odur ki, yəni onun buna münasibətinə görə, bunu o daha yaxşı bir insan üçün qorumalıydı. Mən yaxşı adam olduğumu iddia eləmirəm. Amma mən, nəhayət ki, məşhurlaşandan sonra Parisdə bir qəhvəxanada masanın arxasında onun öz əla tərzi ilə mənim yanımda oturması heç də pis görünməzdi. O çox cazibədar, dinc intellektual bir qadındı və bunlardan ən yaxşısı isə onun qızılı saçlarının arasında kürən çalarının olmasıdır. Mənə elə gəlir ki, bir çox onilliklər ərzində...

bəlkə də daha uzun müddət, mən məhz bu rəngdə saçların axtarışında olmuşam.

Maşını Sakit Okean Şossesinin kənarındakı bir barın yanında saxladım və ikiqat porsiya araq -7 içdim. Saranın vəziyyəti məni çox narahat edirdi. O deyirdi ki, seks yalnız evlənəndən sonra mümkündür. Mən isə onun bu sözləri tam ciddi söylədiyinə inanırdım. Onda qəribə bir bakirəlik havasını açıq-aşkar sezə bilirdim. Amma bununla belə, özünü rahatlatmaq üçün onun bir çox yollar bildiyinə və onun amcığına sürtülərək yara salan yeganə sik mənimki olmadığına əmin idim. Mənə elə gəlirdi ki, o da elə hamı kimi çaşqınlıq içindədir. Onun istəklərinə nə üçün boyun əyməyim mənim özüm üçün də bir sirr olaraq qalırdı. Əslində, onu sındırmaq üçün elə də alışıb yanmırdım. Fikirlərini bəyənməsəm də, onun özü çox xoşuma gəlirdi. Bəlkə də mən tənbəlləşməyə başlamışdım. Bəlkə də daha seksdən yorulmuşdum. Bəlkə də artıq qocalmağa başlamışdım. Ad günün mübarək olsun, Sara.

Maşını onun evinin yanına sürdüm və sağlam qidalar ilə dolu səbəti özümlə içəri apardım. O mətbəxdə nə iləsə məşğul idi. Əlimdə şərab və səbətlə oturdum.

– Mən gəldim, Sara!

O mətbəxdən çıxıb yanıma gəldi. Ron evdə gözə dəymirdi. Amma Sara onun stereosunun səsini tam gücü ilə açmışdı. Kasıbların məhəlləsində yaşayırsansa, daim başqa insanların hay-küyünü, eləcə də onların sikişərkən çıxardıqları səsləri eşidirsən. Ən dözülməz olansa onların tam səslə oxuyan musiqisinə saatlarca, özü də ürəyin bulanana qədər qulaq asmaq məcburiyyətində olmağındır. Bu azmış kimi, onlar çox vaxt pəncərələri açıq qoyurlar. Elə bil onların həzz aldıqları bu musiqidən sənin də həzz alacağına əmindirlər.

Saranın evində Cudi Qarlandın musiqisi çalınırdı. Cudi Qarlanddan xoşum gəlir, az-maz, xüsusilə də onun Nyu-York Metdəki çıxışından. Amma bu dəfə, gözlənilmədən onun at peyini haqqında bağıraraq oxuduğu sentimental musiqinin səsi mənə çox yüksək gəldi.

– Allah xatirinə, Sara onun səsini bir az aşağı al!

O bir az səsi azaltdı. Amma elə də çox yox. Sara şərab şüşələrindən birisini açdı və biz masanın arxasında üzbəüz oturduq. Mən özümü çox qəribə, əsəbi hiss edirdim.

Sara əlini səbətə uzatdı və onun içindəki arı sekresiyasını tapdı. Bunu görəndə, çox şad oldu. Qabın qapağını açdı və sekresiyanın dadına baxdı.

– Bu çox güclü şeydir, – o dedi. – Bu lap cövhərin özüdür... Bir balaca dadına baxmaq istəyirsənmi?

– Yox, sağ ol.

– Özümüz üçün nahar yeməyi hazırlayıram.

– Əla. Amma səni harasa aparmaq istəyirdim.

– Mən artıq yemək bişirməyə başlamışam.

– Yaxşı, onda qoy qalsın başqa vaxta.

– Amma bir az yağ almaq lazımdır. Mən özüm gedib alaram. Bir də sabah restoran üçün bir az xiyar-pomidor almalıyam.

– Mən alaram. Bu gün sənin ad günündür.

– Bir az arı sekresiyasının dadına baxmaq istəmədiyinə əminsənmi?

– Yox, istəmirəm. Sağ ol, hər şey qaydasındadır.

– Bu balaca bankanı doldurmaq üçün neçə dənə arı lazım olduğunu təsəvvür edə bilməzsən.

– Ad günün mübarək. Mən gedib yağ və o biri şeyləri alaram.

Bir qədəh də şərab içindən sonra, folksvagenimə minib yaxınlıqdakı balaca ərzaq mağazasına sürdüm. Mən yağ tapdım, amma xiyar və pomidorlar köhnə, büzüşmüş görünürdülər. Yağın pulunu ödədim və maşına minərək başqa, daha böyük ərzaq dükanı axtarmağa getdim. Bir mağaza tapıb orada xiyar və pomidor aldım, Sonra maşına minib Saranın evinə sürdüm. Evə yaxınlaşdıqca, mən yenə bu səs-küyü eşitməyə başladım. O, stereonun səsini yenə sonuna qədər açmışdı. Cığırla addımlayaraq evə yaxınlaşanda, ürəyim bulanmağa başladı; sinirlərim qırılmaq həddinə qədər gərildi və sonra partladı. Əlimdə təkcə yağ bankası ilə evə daxil oldum; xiyar-pomidorları maşında qoymuşdum. Stereoda nə oxutduğunu bilmirəm; səs elə yüksək idi ki, bir səsi o birisindən ayıra bilmirdim.

Sara mətbəxdən çıxdı.

– ALLAH SƏNƏ LƏNƏT ELƏSİN! – deyə ucadan bağırdım.

– Nə olub axı? – Sara soruşdu.

– HEÇ NƏ EŞİDƏ BİLMİRƏM!

– Nə?

– SƏN BU SİKİLMİŞ STEREONUN SƏSİNİ LAP ÇOX AÇMISAN! HƏDİ, DEDİKLƏRİMİ ANLAMIRSAN?

– Nə?

– MƏN GEDİRƏM!

– Yox!

Mən çevrildim və setka qapını zərblə çırparaq evdən çıxdım. Folksvagenə yaxınlaşanda, gördüm ki, xiyar-pomidorları maşında unutmuşam. Onları götürüb cığırla geri qayıtdım. Biz üz-üzə gəldik. Torbanı onun əlinə dürtüşdürdüm.

– Al.

Sonra dönüb getməyə başladım.

– Səni iyrənc, iyrənc, iyrənc əclaf! – o arxanca qışqırdı.

Sara torbanı arxamca tolazladı. İçi dolu torba düz kürəyimin ortasından dəydi. O geri çevrilərək evə qaçdı. Mən ayın işığında yerə səpələnmiş xiyar və pomidorlara baxdım. Bir anlıq onları yerdən yığmaq haqqında düşündüm. Sonra isə dönərək çıxıb getdim.

93

Vankuverdə bədii qiraətlə çıxış etdim, 500 dollar qazanc, üstəgəl təyyarə bileti və orada qalmaq. Sponsorum Bart Makintoş sərhəddinin keçilməsi ilə bağlı narahat idi. Mən Sietlə uçmalıydım, orada o məni qarşılayacaqdı, sonra isə onun maşınında sərhəddi keçməli olacaqdıq, qiraəti bitirəndən sonra isə Vankuverdən təyyarə ilə birbaşa Los-Ancelesə uçacaqdım. Bütün bunların nə anlama gəldiyini başa düşməsəm də, onun təklifi ilə razılaşdım.

Beləliklə, mən yenə havada idim və ikiqat araq-7 içirdim. Təyyarədə kommivoyajorlar və biznesmenlərlə birlikdə oturmuşdum. İçində ehtiyat köynəklər, alt paltarı, corablar, 3-4 şeir kitabı, üstəgəl makinada çap edilmiş on-on iki yeni şeir vərəqləri olan balaca çemodanım da

yanımdaydı. Diş fırçası ilə diş pastasını da götürməyi unutmamışdım. Şeir oxuyacağına görə sənə pul ödəmələri üçün harasa getmək mənə çox gülməli gəlirdi. Bu mənim heç xoşuma gəlmirdi. Və bunun necə axmaq bir iş olması fikrini başımdan heç cür çıxara bilmirdim. Əlli yaşına qədər mənasız və aşağı işlərdə qatır kimi işləyəsən və sonra birdən əlində içki qədəhi tutmuş bir mozalan kimi uçaraq bütün ölkəni ayaqdan salasan.

Makintoş məni Sietldə gözləyirdi. Biz onun maşınına mindik. Səfərimiz əla alındı. Səbəbi sadə idi. Heç birimiz yol boyu boşboğazlıq etmədik. Bədii qiraət gecəsi özəl şəxs tərəfindən maliyyələşdirilirdi və mən universitetlərin sponsorluq etdiyi qiraət gecələrindənsə, buna üstünlük verirdim. Universitetlə elə bil nədənsə qorxurdular; başqa şeylərlə yanaşı, onlar aşağı təbəqələrdən olan şairlərdən qorxurdular, digər tərəfdən isə belə şairlərə məhəl qoymamaq üçün onlar həddən artıq hər şeylə maraqlanırdılar.

Sərhəddə çox gözləməli olduq. Yüzlərlə maşın yığılmışdı. Sərhədçilər isə, deyəsən, heç tələsmək fikrində

deyildilər. Onlar ara-sıra cərgənin içindən köhnə bir maşını çıxarır, yalnız bir-iki sual verməklə kifayətlənir, sonra da maşının yoluna davam etməsi üçün əllərini yelləyirdilər. Bütün bu prosedurla bağlı Makintoşun keçirdiyi tələşı heç cür anlaya bilmirdim.

– Dostum, – o mənə dedi, biz sərhəddi keçdik!

Vankuver sərhəddən çox da uzaq deyildi. Makintoş maşını mehmanxananın önündə saxladı. Bina pis görünmürdü. Düz suyun yanında yerləşirdi. Biz nömrənin açarını aldıq və yuxarı qalxdıq. Otaq qəşəng idi. İçində bir soyuducu da vardı, Hansısa mərhəmətli bir ürək sahibi onun içinə pivə də qoymuşdu.

– Götür birisini aşır, – mən ona dedim.

Biz oturub pivə içməyə başladıq.

– Keçən il Krili bura gəlmişdi, – o mənə dedi.

– Eləmi?

– Bura bir növ kooperativ İncəsənət Mərkəzidir, özü də öz xərclərini ödəyən. Bu qurumda üzvlük haqları çox yüksəkdir. Yeri icarəyə götürürlər və sair və ilaxır. Sənin çıxışın üçün biletlər artıq satılıb. Silver deyir ki, əgər

biletlərin qiymətini bir az qaldırmış olsaydı, yaxşı pul tuta bilərdi.

– Silver kimdir?

– Mayron Silver. Direktorlardan biri.

Söhbətin maraqsız hissəsinə girmişdik.

– Səni şəhərdə gəzdirə bilərəm, – Makintoş mənə təklif etdi.

– Problem deyil. Özüm də gəzib dolaşa bilərəm.

– Nahar haqqında nə düşünürsən? Pulunu müəssisə ödəyir.

– Sadəcə, buterbrod. Elə də ac deyiləm.

Belə düşünürdüm ki, əgər onu burdan bayıra çıxara bilsəm, yeməyi bitirəndən sonra onu tərk edə bilərəm. Ona görə yox ki, o pis adam idi, sadəcə, insanlar məni maraqlandırmırdı.

Üç-dörd məhəllə aralıda bir yer tapdıq. Vankuver çox təmiz bir şəhər idi və buranın insanlarının çöhrəsindən böyük şəhərlərin sakinlərinə xas olan zəhrimar yağmırdı. Restoranı bəyəndim. Lakin menyuya baxanda buradakı qiymətlərin Los-Ancelesin mənim yaşadığım rayonu ilə

müqayisədə, təxminən 40 faizdən yüksək olduğunu gördüm. Qızardılmış mal ətindən hazırlanmış bir buterbrod yedim və bir şüşə də pivə içdim.

ABŞ-dan kənara çıxmaq çox gözəl idi. Yalnız bu zaman real fərq hiss olunurmuş. Qadınlar daha gözəl görünürdülər. İnsan özünü daha dinc hiss edirdi. Riyakarlıq da burda az idi. Buterbrodumu bitirəndən sonra Makintoş məni yenidən mehmanxanaya gətirdi. Maşının yanında onunla vidalaşdım və içəri girərək liftə mindim. Otağımda duş qəbul etdim. Amma əynimə paltar geyinmədim. Pəncərənin yanında dayanıb aşağıya, suya baxırdım. Sabah axşam hər şey bitəcəkdi. Onlardan pulumu alıb günorta vaxtı yenidən havada olacaqdım. Heyff, çox heyf. Daha üç-dörd şüşə pivə içəndən sonra yatağıma girərək yuxuladım.

Məni qiraət edəcəyim zala vaxtından bir saat əvvəl gətirdilər. Səhnədə cavan bir oğlan mahnı oxuyurdu. Oğlan mahnı oxuyarkən tamaşaçılar fasiləsiz olaraq bir-biri ilə söhbət edirdilər. Şüşələrin cingiltisi, gülüş səsləri eşidilirdi; yaxşıca dəmləşmiş kütlə; bunlar əsl mənim

tamaşaçılarımdılar. Makintoş, Silver, mən və başqa bir neçə nəfər səhnə arxasında dayanıb bala-bala gillədirdik.

– Siz bizim son vaxtlar bura gətirməyə müvəffəq olduğumuz yeganə kişi şairsiniz, – Selver dedi.

– Anlamadım, bununla nə demək istəyirsiniz?

– Demək istədiyim odur ki, burada həmişə mavilərin uzun növbəsi olub. Bu dəyişiklik lap yerinə düşdü.

– Sağ olun.

Mən onlar üçün doğrudan da qiraət etdim. Qiraətin sonunda özüm də hallanmışdım, sərxoş idim, onlar da. Biz bir-birimizlə didişdik, bir balaca bir-birimizə çımxırdıq, amma, ümumiyyətlə, hər şey qaydasında getdi. Qiraətə başlamazdan əvvəl mənə çeki vermişdilər və bu da mənim qiraət yüksək səviyyədə yerinə yetirməyimə müəyyən dərəcədə yaxşı təsir etmişdi.

Qiraətdən sonra böyük bir evdə ziyafət təşkil edilmişdi. Çox keçmədi ki, özümü ziyafətdəki iki qadının arasında gördüm. Onlardan biri sarışın idi. Onu elə bil fil dişindən yonub hazırlamışdılar: gözəl gözləri və cazibədar bədəni vardı. Həmin qadın məclisə öz sevgilisi ilə gəlmişdi.

– Çinaski, – bir müddət sonra o mənə dedi, – mən sizinlə gedəcəyəm.

– Bir dəqiqə, –dedim, – Sən axı öz sevgilinlə gəlmisən.

– Qoy rəd olsun, – o dedi, – mənim üçün o heç kimdir! Mən sizinlə gedəcəyəm!

Mən dönüb oğlana baxdım. Onun gözlərində yaş damlaları vardı. O tir-tir əsirdi. O aşiq idi, zavallı adam.

Mənim yanımda dayanmış o biri qızın saçlarının rəngi tünd idi. Onun da bədəni çox gözəl idi, amma üzü o qədər də qəşəng deyildi.

– Gəlin mənimlə gedək, – o qız dedi.

– Nə?

– Deyirəm ki, məni özünüzlə aparın.

– Bir dəqiqə.

Mən sarışın qıza tərəf döndüm.

– Bura bax, sən qəşəng qızsan, amma mən sənlə gedə bilmərəm. Sənin dostunun qəlbini qırmaq istəməzdim.

– Qor sikdirsin, qancıq balası. O pox dağarcığıdır.

Saçları tünd rəngdə ola qız mənim qolumdan dartdı.

– Elə indicə ya məni özünüzlə aparırsınız, ya da mən gedirəm.

– Yaxşı, – mən razılaşdım, – gəl gedək.

Axtarıb Makintoşu tapdım. Deyəsən, o heç bir işlə məşğul deyildi. Bəlkə də, ziyafətlərdən xoşlanmırdı.

– Hə, dostum Mak, bizi mehmanxanaya apar.

Məclisə əlavə pivə şüşələri gətirildi. Qara saçlı qız mənə adının Ayris Düart olduğunu söylədi. Bir tərəfi hindistanlı olan Ayris oriental rəqqasə kimi işləyirdi. O, ayağa qalxıb qarnını oynatdı. Çox cazibədar görünürdü.

– Tam effekt yaratmaq üçün gərək əyninə rəqs paltarı geyinəsən, – qız dedi.

– Yox, mənə lazım deyil.

– Bilirsənmi, demək istədim ki, rəqs zamanı yaxşı görünmək üçün mən bu paltarı geyinməliyəm.

O doğrudan da hindistanlıya bənzəyirdi. Onun hindli burnu və ağzı vardı. Yaşı təxminən 23 olardı, tünd qonur gözləri vardı, çox sakit danışırdı və qaməti möhtəşəmdi. Mənim üç-dörd kitabımı oxumuşdu. Əlaydı.

Biz təxminən bir saat da içəndən sonra yatağa girdik. Onu yeyib bitirdim, amma üstünə dırmaşıb bir neçə dəfə dala-qabağa itələyəndən sonra başa düşdüm ki, heç nə alınmayacaq. Hə, çox təəssüf.

Ertəsi gün səhər dişlərimi fırçaladım, üzümə soyuq su vurdum və yenə yatağa qayıtdım. Onun amı ilə oynamağa başladım. Bir az sonra amı nəmləşdi, elə mən də. Onun üstünə qalxdım. Cazibədar bədənini – o cavan və təravətli bədəni xəyalımda canlandıraraq şeyimi ona itələdim. Ona nə verə bilirdimsə, Ayris hamısını qəbul etdi. Bu dəfə hər şey əla alınmışdı. İşimizi bitirdikdən sonra, Ayris hamam otağına getdi.

Mən isə arxam üstə yataqda uzanıb hər şeyin necə əla alındığı haqqında düşünürdüm. Ayris vanna otağından çıxdı və gəlib yenidən yatağa girdi. Biz danışmırdıq. Təxminən bir saat keçdi. Sonra biz bu işi təkrarən bir də, eyni qaydada sikişdik.

Yuyunub təmizləndik. Əynimizi geyindik. O mənə öz ünvanını və telefon nömrəsini verdi, mən də ona öz telefon nömrəmi yazdım. Deyəsən, mən həqiqətən onun xoşuna

gəlmişdim. Təxminən 15 dəqiqə sonra Makintoş qapını döydü. Biz Ayrisi onun iş yerinin yaxınlığındakı döngəyə çatdırdıq. Belə məlum oldu ki, Ayris, əslində, ofisiant işləyirmiş, oriental rəqs isə, sadəcə, şöhrətpərəstlikdən başqa bir şey deyilmiş. Sağollaşarkən onu öpdüm. O, maşından düşdü. Geri çevrilərək bizə əl yelləyəndən sonra getdi. Getdikcə məndən uzaqlaşan bu inanılmaz qamətə arxadan tamaşa edirdim.

– Çinaski yenə xal toplayır, – maşını hava limanı istiqamətinə döndərərkən Makintoş dedi.

– Boş ver getsin, – mən dedim.

– Mənim özümün də naxışım pis işləmədi, – o dedi.

– Hə?

– Hə. Sənin o sarışınını da mən aparmışdım.

– Nə?

– Bəli, – deyərək o güldü, – bəs nə bilmişdin.

– Məni hava limanına apar, vələdüzzina!

Artıq üç günü idi ki, Los-Ancelesdə veyillənirdim. Həmin axşam Debra ilə görüş təyin eləmişdim. Telefon zəng çaldı.

– Henk, danışan Ayrisdir!

– O-o, Ayris, nə gözəl sürpriz oldu. İşlərin necə gedir?

– Henk, mən Los-Ancelesə uçuram. Oraya sənlə görüşmək üçün gəlirəm!

– Əla! Bəs haçan?

– Çərşənbə günü uçuram, Şükran Günündən əvvəl.

– Şükran Günü?

– Və növbəti bazar ertəsinə qədər orada qala bilərəm!

– Yaxşı.

– Qələmin varmı? Sənə reysin nömrəsini vermək istəyirəm.

Həmin axşam Debra ilə mən dəniz kənarında gözəl bir restoranda şam edirdik. Masaları bir-birinə sıx . Bu restoranın özəlliklərindən biri də onların dəniz məhsullarından əla yeməklər hazırlamaları idi. Biz bir şüşə ağ şərab sifariş etdik və yeməyimizin gəlməsini gözləməyə başladıq. Debra son vaxtlarda olduğundan daha qəşəng görünürdü, lakin işinin getdikcə çoxalmasından şikayətlənirdi. O, əlavə bir qızı da işə götürməyi

planlaşdırırdı. Bacarıqlı bir işçi tapmağın çox çətin, insanlarınsa çox qabiliyyətsiz olduğunu deyirdi.

– Düz deyirsən, –onunla razılaşdım.

– Saradan bir xəbər varmı?

– Ona zəng vurmuşdum. Aramızda balaca bir mübahisə oldu. Amma birtəhər könlünü aldım.

– Kanadadan qayıdandan sonra onunla görüşmüsənmi?

– Yox.

– Şükran Günü üçün 25 funtluq bir hind toyuğu sifariş eləmişəm. Onu doğraya bilərsənmi?

– Əlbəttə.

– Lütfən, bu gün çox içmə. Çox içəndə nə hala düşdüyünü özün yaxşı bilirsən. Lap islaq əriştəyə dönürsən.

– Yaxşı.

Debra əlini uzadıb mənim əlimə toxundu.

– Mənim sevimli qartımış islaq əriştəm!

Şam yeməyindən sonra, özümlə yalnız bir şüşə şərab götürdüm. Biz Debranın divanında oturub onun böyük ekranlı televizoruna baxa-baxa asta-asta şərab içirdik. Birinci proqram heç nəyə yaramırdı. İkincisi isə babat idi.

Bu, seksual pozğun ilə inkişafdan geri qalmış bir kəndli oğlan haqqında proqram idi. Bir dəli həkim bu pozğunun başını kəndli oğlanın bədəninə köçürmüşdü. Oğlanın bədəni isə iki başlı formada qaçıb aradan çıxmışdı. İndi o kəndin ətrafında gəzərək müxtəlif qorxunc əməllər törədirdi. Bu proqram mənim ovqatımı bir qədər yaxşılaşdırdı.

Bir şüşə şərabdan və iki başlı kəndli oğlan haqqındakı proqramdan sonra Debranı mindim və bu dəfə, başqa vaxtlardan fərqli olaraq, bəxtim bir qədər gətirdi. Yükümü onun içinə boşaltmazdan əvvəl, onu uzun müddət yaxşıca dördnala çapdım. Çapmağım zamanısa çoxlu gözlənilməz variasiyalardan və təxəyyülümün yaradıcılığından bolluca istifadə etdim.

Ertəsi gün Debra məndən qalmağımı və onun işdən qayıtmasını gözləməyimi xahiş etdi. Mənə söz verdi ki, əla nahar hazırlayacaq.

– Yaxşı, – deyərək razılaşdım.

O gedəndən sonra, bir az yuxulamağa çalışdım, amma yata bilmədim. Şükran Günü haqqında düşünürdüm – düşünürdüm ki, onunla ola bilməyəcəyimi ona necə deyim.

Bu məni çox narahat edirdi. Yerimdən qalxdım və otaqlarda gəzişdim. Vanna qəbul elədim. Heç nə kömək eləmirdi. Bəlkə Ayris fikrini dəyişərdi, bəlkə onun təyyarəsi qəzaya uğrayardı. Onda Şükran Günü səhər zəng vurub Debraya gələcəyimi deyə bilərdim.

Mən evdə gəzişirdim və getdikcə özümü daha da pis hiss edirdim. Bəlkə də yalnız evimə getmədiyimə görə. Bu elə bil mənim çəkdiyim iztirabları bir qədər də uzadırdı. Mən nə poxidim? Nəyi də bacarmasan, murdar və qeyri-real oyunlar oynamağı yaxşı bacarırdım. Mənim məqsədim nə idi? Bəlkə mən nəyinsə əvəzini çıxmağa çalışırdım? Mən hələ də bunun sadəcə tədqiqat – qadınları öyrətmək üçün bir üsul olduğuna özümü inandırmağa davam edə bilərdimmi? Heç nə haqqında düşünmədən, sadəcə onların baş verməsini laqeydliklə kənardan müşahidə edirdim. Öz xudbin və ucuz zövqlərimdən başqa heç nə məni düşündürmürdü. Mən ərköyün böyüdülmüş yuxarı sinif şagirdinə bənzəyirdim. Mən fahişədən də pis idim; fahişə səndən yalnız pullarını alırdı, başqa heç nə. Mən isə həyatlar və ruhlar ilə təcrübələr aparırdım. Elə bil onlar mənim oyuncaqlarımdılar. Mən

özümü necə insan adlandıra bilərdim axı? Şeirləri necə yaza bilərdim? Mən nədən təşkil olunmuşdum? Mən aşağı ayarlı de Sad idim, amma onda olan ağıla sahib deyildim. Qatil məndən daha dürüst və daha səmimi idi. Elə qadınları zorlayan cinayətkar da. Axı mən özüm də ruhumla kiminsə oynamasını, ələ salmasını, onun üstünə işəməsini istəməzdim; ən azından, bunu yaxşı başa düşürdüm. Mən həqiqətən də yaxşı adam deyildim. Otaqdakı xalının üstü ilə ora-bura gəzişərkən bunu hiss edə bilirdim. Bir poxa yaramırdım. İşin ən pis tərəfi də o idi ki, məni layiq olmadığım bir adam kimi qəbul edirdilər – yaxşı adam kimi. İnsanlar mənə etibar etdiklərinə görə onların həyatlarına daxil ola bilirdim. Ona görə də öz murdar işimi görməkdə çətinliyim olmurdu. Mən "Kaftarın Sevgi Dastanını" yazırdım.

Öz düşüncələrimdən təəccüblənərək otağın düz ortasında dayanmışdım. Birdən yatağın kənarında oturduğumu və ağladığımı anladım. Gözümdən üzümə axan yaş damlalarını barmaqlarımın ucu ilə hiss edə bilirdim.

Ağlım hələlik başımda olsa da, beynimdə fırtınalar əsirdi. Mənə nə olduğunu dərk edə bilmirdim.

Telefonu götürüb Saranın sağlam qida restoranına zəng vurdum.

– Sən çoxmu məşğulsan? – ondan soruşdum.

– Yox. Restoranı elə indicə açmışam. Sən qaydasındasanmı? Səsin qəribə məzəli gəlir.

– Lap dibə vurmuşam.

– Nə baş verib axı?

– Hmm, Debraya söz verdim ki, Şükran Günün onunla keçirəcəm. O bunun belə olacağına çox ümid edir. Amma başqa şeylər də baş verib.

– Məsələn, nə?

– Hmm, sənə əvvəllər deməmişdim. Sənin lə mən hələlik sekslə məşğul olmamışıq, özün bilirsən. Seks hər şeyi dəyişir.

– Nə baş verib axı?

– Kanadada bir oriental rəqqasə ilə tanış olmuşam.

– Ciddi deyirsən? Bəlkə ona aşiq də olmusam?

– Yox, ona aşiq olmamışam.

– Bir dəqiqə gözlə müştəri var. Xəttə gözləyə bilərsənmi?

– Problem deyil...

Telefonun dəstəyini qulağıma sıxaraq oturmuşdum. Hələ də çılpaq idim. Başımı aşağı salıb öz penisimə nəzər saldım: səni murdar əclaf! Öz doymaq bilməyən kütbeyin hərisliyinlə mənə nə qədər ürək ağrısı verdiyini heç bilirsənmi?

Telefonun dəstəyini qulağıma sıxaraq orada təxminən beş dəqiqə oturdum. Bu, şəhərlərarası telefon əlaqəsi idi. Ən azından bu danışıq üçün hesabı Debra ödəməli olacaqdı.

– Hə, mən gəldim, – Sara dedi. – Davam elə.

– Hə, Vankuverdə olanda, həmin oriental rəqqasəyə dedim ki, istədiyi vaxt Los-Ancelesə gəlib mənimlə görüşə bilər.

– Nə olsun ki?

– Hmm, sənə dedim axı, artıq Debraya Şükran Gününü onunla keçirəcəyimə söz vermişəm...

– Sən mənə də söz vermisən.

– Ciddi deyirsən?

– Hə, amma həmin vaxt kefliydin. Dedin ki, bütün amerikalılar kimi, sən də bayramları tənha keçirməyi xoşlamırsan. Sonra məni öpdün və Şükran Günü birlikdə keçirə bilib-bilməyəcəyimi soruşdun.

– Məni bağışla, amma xatirimdə deyil...

– Problem deyil. Dəstəyi asma... başqa bir müştəri gəldi...

Dəstəyi bir kənara qoydum və otaqdan çıxıb özümə bir qədəh şərab süzdüm. Yataq otağına geri qayıdanda, güzgüdə öz sallanmış qarnımı gördüm. İyrənc və ədəbsiz görünürdü. Bu qadınlar nə üçün axı mənə qatlaşırdılar?

Bir əlimlə telefonun dəstəyini qulağıma tutmuşdum, o biri əlimlə isə şərabdan içirdim. Sara geri döndü.

– Hə, davam elə.

– Yaxşı. Demək istədiyim vəziyyət indi belədir. Bir axşam bu oriental rəqqasə mənə zəng elədi. Əslinə baxsan, bu qız heç oriental rəqqasə də deyil, sadəcə, ofisiant işləyir. Telefonda mənə dedi ki, Los-Ancelesə gəlir və Şükran Gününü mənimlə keçirmək fikrindədir. Onun səsindən xoşbəxtlik saçılırdı.

– Başqasına söz verdiyini ona deməliydin.

– Mən deyə bilmədim...

– De ki, götün çatmadı.

– Ayrisin elə gözəl bədəni var ki...

– Həyatda gözəl bədənlərdən başqa şeylər də var.

– İş-işdən artıq keçib, indi Debraya Şükran Gününü onunla keçirə bilməyəcəyimi deməliyəm. Amma necə deyim... bunu bilmirəm.

– Sən indi hardasan?

– Debranın yatağında oturmuşam.

– Bəs Debra hardadı?

– O işdədir. – Bu an boğazıma dirənmiş hıçqırığımı saxlaya bilmədim.

– Sən əsil yekə götlü mızmızasan.

– Bilirəm. Amma bunu ona deməliyəm. Bu fikir məni dəli edəcək.

– Özün-özünü bu zibilə salmısan. İndi problemi də özün həll eləməlisən.

– Düşündüm ki, bəlkə mənə sən kömək eləyərsən, düşündüm ki, mənə nə edəcəyim haqqında bir məsləhət verərsən.

– Sən istəyirsən ki, sənin əskilərini dəyişdirim? Sənin əvəzinə ona zəng eləməyimi istəyirsən?

– Yox, hər şey qaydasındadır. Mən kişiyəm. Ona özüm zəng vuraram. Elə indicə ona zəng vuracam. Ona bütün həqiqəti olduğu kimi deyəcəm. Bu zəhrimara qalmış məsələnin axırına çıxacam!

– Bax belə danış, deyim hə. Sonra hər şeyin necə bitdiyini mənə danışarsan.

– Bilirsənmi, hər şey uşaqlıqda yaşadıqlarıma görə oldu. Uşaq vaxtı sevginin nə olduğunu heç vaxt bilməmişəm...

– Sonra mənə zəng edib hər şeyi danışarsan.

Sara dəstəyi asdı.

Özümə bir qədəh də şərab süzdüm. Həyatımda nə baş verdiyini anlaya bilmirdim. Öz zərafətimi itirmişdim, öz praqmatikliyimi itirmişdim, öz qalın müdafiə qabığımı itirmişdim. Başqa insanların problemləri qarşısında öz

yumor hissimi də itirmişdim. Onların hamısını geri qaytarmaq, onlara yenidən sahib olmaq istəyirdim. Hər şeyin asanlıqla əmələ gəlməsini arzulayırdım. Amma nədənsə, onların geri qayıtmayacağını bilirdim. Ən azından dərhal qayıtmayacaqdılar. Özünü günahkar və müdafiəsiz hiss etməyə məhkum olunmuşdum.

Özümü günahkarlıq hissinin bir növ xəstəlik olmasına və yalnız günahsız insanların həyatda irəliləyişlərə nail olmalarına inandırmağa çalışırdım. Yalan danışan, başqalarını aldada bilən insanlar, hədəfə çatmanın bütün ən qısa yollarını bilən insanlardır. Kortez. O, qabağına keçəni sikmirdi. Eləcə də Vins Lombardi. Bu haqda nə qədər düşünsəm də bir fərqi olmadı. Əksinə özümü əvvəlki kimi, pis hiss edirdim. Qərara gəldim ki, buna son vermək lazımdır. Özümü hazır hiss edirdim. Tövbə köşkü. Yenə Katolikliyə qayıdacaqdım. Buna başlamaq, bitirmək və sonra da bağışlanmağı gözləmək. Qədəhimdəki şərabı bitirdim və telefonun dəstəyini qaldırıb Denranın ofisinin nömrəsini yığdım.

Telefona Tessi cavab verdi.

– Salam, əzizim! Danışan Henkdir! İşlər necədir?

– Hər şey yolundadır, Henk. Sənin işlərin necədir?

– Hər şey qaydasındadır. Bura bax, sən mənə qarşı acıqlı deyilsən, hə?

– Yox, Henk. Bu bir az iyrənc idi, hahaha, amma əyləncəli idi. İstənilən halda, bu bizim sirrimizdir.

– Sağ ol. Bilirsən, mən əslində heç...

– Bilirəm.

– Hmm, qulaq as, Debra ilə danışmaq istəyirdim. Oralarda gözə dəyirmi?

– Yox, indi o məhkəmə zalındadır, prosesin stenoqramını yazır.

– Bəs nə vaxt qayıdar?

– Adətən, məhkəməyə gedəndən sonra bir də ofisə qayıtmır. Əgər birdən qayıtsa ona bir şey söyləməyimi istəyirsənmi?

– Yox, Tessi, çox sağ ol.

Hə, işim bitmişdi. Mən hətta heç bir şeyə müdaxilə belə edə bilmirəm. Tövbəkarlığın Qəbizləşməsi. Rabitənin Olmaması. Yüksək Dairələrdə Düşmənlərim varmış. Bir

qədəh də şərab içdim. Havanı təmizləməyə artıq tam hazır idim. Digər şeylər qoy elə havadan asılı qalsın. İndi mən, sadəcə, oturub gözləməliydim. Getdikcə özümü daha da pis hiss etməyə başlamışdım. Depressiya, intihar – bunlar düzgün olmayan dietanın nəticəsində baş verirdi. Lakin mən yaxşı yeyirdim. Keçmiş günləri xatırladım, o vaxtlar mən gün ərzində bircə şokolad batonu ilə kifayətlənir və aylıq "Atlantik" və "Harperz" jurnallarına əl ilə yazılmış hekayələrimi göndərirdim. Bütün günü yalnız yemək haqqında düşünürdüm. Bədən qida qəbul etmədikdə, ağıl da ac qalırdı. Amma son vaxtlar əla qidalanırdım və dəyişiklik üçün, əla şərablar içirdim. Bu isə o anlama gəlirdi ki, mənim düşündüklərim böyük ehtimalla həqiqətdir. Hamı özünü xüsusi, imtiyazlı və müstəsna təsəvvür edirdi. Hətta özünün ön artırmasında ətirşah gülünü sulayan iyrənc qoca qarğalar da. Mən özümü ona görə xüsusi birisi hesab edirdim, çünki əlli yaşından sonra zavod dəzgahının arxasından çıxaraq şair olmuşdum. Yekə qozdaq. Ona görə də, bir vaxtlar çarəsiz qalanda rəhbərlərimin və müncerlərimin mənim üstünə işədikləri kimi, indi mən də başqalarının üstünə işəyirdim.

Nəticə eyni alınırdı. Mən çox az, kiçicik şöhrət qazanmış əyyaş və murdar bir əclaf idim.

Təhlillərim yanıb alışan yaralarıma məlhəm olmadı.

Telefon zəng çaldı. Sara idi.

– Sən zəng edəcəyini demişdin. Nə oldu?

– Onu iş yerində tapa bilmədim.

– İşdə deyildi?

– Məhkəməyə getmişdi.

– Bəs onda nə eləmək fikrindəsən?

– Gözləyəcəm. O gələndə isə hər şeyi açıb danışacam.

– Düzgün düşünürsən.

– Səni bu poxlu işlərə gərək qatmayaydım.

– Problem deyil.

– Səninlə yenə görüşmək istəyirəm.

– Nə vaxt? Oriental rəqqasə ilə görüşəndən sonra?

– Hmm, hə.

– Çox sağ ol, amma lazım deyil.

– Sənə zəng vuracam...

– Yaxşı, danışdıq. Əskilərini yuyub sənin üçün hazır saxlayacam.

Mən şərabdan udumlar ala-ala gözləyirdim. 3 saat, 4 saat, 5 saat. Nəhayət, çılpaq olduğumu xatırladım və paltarlarımı geyindim. Debranın maşını evin önündə dayananda, əlimdə şərabla dolu qədəhlə oturmuşdum. Gözləyirdim. O, qapını açdı. Əlində ərzaq torbası vardı. Çox cazibədar görünürdü.

– Salam, – o dedi, – mənim kemiş islaq əriştəciyəzim necədir?

Ona yaxınlaşdım və qollarımı onun belinə doladım. Birdən titrəməyə və ağlamağa başladım.

– Henk, sənə nə olub?

Debra əlindəki ərzaq torbasını döşəməyə qoydu. Bizim şam yeməyimizdir. Onu qucaqlayıb özümə sıxdım. Mən hıçqıra-hıçqıra ağlayırdım. Gözümdən yaşlar şərab kimi süzülürdü. Özümü heç cür ələ ala bilmirdim. Əsas hissəm səmimi idi. Qalan hissəmsə burdan baş götürüb qaçmaq istəyirdi.

– Henk, nə baş verib?

– Şükran Gününü sənlə birlikdə keçirə bilməyəcəm.

– Niyə? Niyə? Bir de görüm nə olub axı?

– O olub ki, mən BÖYÜK BİR POX QALAĞIYAM!

Daxilimdəki günahkarlıq hissi içimi eşirdi. İçimdə spazmalar baş qaldırmağa başladı. Çox dözülməz ağrıydı.

– Kanadadan bir oriental rəqqasə Şükran Gününü mənimlə keçirmək üçün yanıma gəlir.

– Oriental rəqqasə?

– Hə.

– O qəşəngdirmi?

– Hə çox qəşəngdir. Bağışla məni, bağışla məni...

Debra məni özündən kənara itələdi.

– İmkan ver ərzaqları yerinə qoyum.

O, ərzaq torbasını döşəmədən qaldırıb mətbəxə keçdi. Soyuducunun qapısının açılıb-bağlandığını eşitdim.

– Debra, — mən gedirəm.

Mətbəxdən heç bir səs gəlmədi. Giriş qapısını açdım və evdən çıxdım. Maşının mühərrikini işə saldım. Radionu qoşdum, faraları yandırdım və geriyə – Los-Ancelesə tərəf istiqamət aldım.

94

Çərşənbə günü artıq hava limanında Ayrisi gözləyirdim. Bir yerdə oturub qadınlara göz qoyurdum. Onlardan heç birinin xarici görünüşü – bir neçəsi istisna olmaqla – Ayris ilə müqayisəyə gəlmirdi. Mənə nəsə olmuşdu: seks haqqında həddən çox düşünürdüm. Gözümə dəyən hər bir qadını özümlə yataqda təsəvvür edirdim. Bu, hava limanında gözləyərkən vaxt öldürməyin maraqlı üsulu idi. Qadınlar: onların paltarlarının rəngi, nazlana-nazlana gəzmələri, bəzi simalardakı əzazillik, ara-sıra qarşıma çıxan əsl və valehedici qadınların üzlərində gördüyüm xalis gözəlliyi xoşuma gəlirdi. Onlar bizə üstün gələ bilərdilər: onlar bizdən daha yaxşı plan qurur və bizdən daha yaxşı təşkilatlanırlar. Kişilər oturub peşəkar futbola baxdıqları, pivə içdikləri, ya da boulinq oynadıqları vaxt, onlar, qadınlar bizim haqqımızda düşünür, bütün diqqətlərini üstümüzdə cəmləyir, bizi tədqiq edir və qərar verirlər – bizi qəbul etsinlər, yoxsa lazımsız bir şey kimi kənara atsınlar, bizi başqası ilə dəyişsinlər və ya öldürsünlər, ya da sadəcə bizi tərk etsinlər. Nəticə etibarilə bunun demək olar ki, heç bir

əhəmiyyəti yoxdur, onların hansı qərarı verməsindən asılı olmayaraq, sonunda biz yalqız qalır və ağlımızı itiririk.

Ayrislə özüm üçün 18 funtluq bir hind toyuğu almışdım. Onu çanağın içinə qoymuşdum ki, buzu ərisin. Şükran Günü. Bu bayram sübut edirdi ki, bütün müharibələrə, inflyasiyaya, işsizliyə, qatı tüstüyə, dumana, ağıllı və ya ağılsız prezidentlərə rəğmən, sən daha bir ili sağ qalmısan. Bu bayram nəhəng ailə klanlarının əsəbi toplantısı idi: səs-küylü əyyaşların, nənələrin, bacıların, xalaların, qışqır-bağır salan uşaqların və potensial intiharçıların. Hə, bir də, mədə pozulmalarını unutmayın. Mən də başqalarından heç nə ilə seçilmirdim: mənim də mətbəximdəki çanaqda ölü, yonulmuş, içalatı tamamilə çıxarılmış 18 funtluq bir quş vardı. Ayris onu mənim üçün qızardacaqdı.

Həmin gün poçt ilə bir məktub almışdım. Məktubu cibimdən çıxarıb yenidən oxumağa başladım. Onu Berklidən göndərmişdilər:

Hörmətli cənab Çinaski,

Siz məni tanımırsınız, amma mən qəşəng qancığam. Mən dənizçilərlə və bir də bir yük maşını sürücüsü ilə oturub-dururdum, amma onlar mənim cinsi ehtiyaclarımı təmin edə bilmirlər. Demək istədiyim odur ki, biz sikişirik və sonra daha heç nə olmur. O zırramalarda heç bir mahiyyət yoxdur. 22 yaşım var. Beş yaşında bir qızım da var, adı Asterdir. Bir oğlanla yaşayıram, amma aramızda seks münasibətləri yoxdur. Sadəcə, birlikdə yaşayırıq. Onun adı Reksdir. Gəlib sizinlə görüşmək istərdim. Mən sizin yanınızda olduğum zaman qızım Asterə anam baxa bilər. Zərfin içinə öz şəklimi qoyuram. Əgər istəsəniz, mənə cavab yazın. Sizin bir neçə kitabınızı oxumuşam. Onları kitab dükanlarında tapmaq çox çətindir. Əsərlərinizdə ən xoşuma gələn cəhət onların asan başa düşülməsidir. Üstəlik siz çox məzəlisiniz.

Sizin,

Tanya

Sonra Ayrisin təyyarəsi yerə endi. Mən pəncərənin önündə dayanıb onun təyyarədən enməsinə tamaşa etdim. O, əvvəlki kimi, gözəl görünürdü. O qədər uzun yolu, düz

Kanadadan bura qədər mənimlə görüşmək üçün gəlmişdi. Əlində bircə çemodan vardı. Ayris başqa sərnişinlərlə birlikdə keçiddə dayanıb növbə gözləyərkən, mən ona əl elədim. Gömrük məntəqəsindən keçəndən sonra, Ayris bütün bədəni ilə mənə qısıldı. Biz öpüşdük və mənim şeyim yüngülcə bərkidi. Onun əynində don vardı, bədəninə kip oturan mavi bir don, ayaqlarına hündürdaban tufli geyinmişdi, başına geyindiyi balaca şlyapanı yanakı qoymuşdu. İndi əyninə don geyinmiş qadınları nadir hallarda görmək olur. Los-Ancelesdəki qadınlar əyinlərinə daim şalvar geyinirdilər...

Dayanıb baqaj gözləməli olmadığımızdan, maşına oturub dərhal mənim evimə sürdük. Maşını evin önündə saxladım və biz birlikdə cığırla evə gəldik. İçki süzdüyüm zaman o divanda özünə yer elədi. Ayris mənim əl işindən olan kitab rəfimə göz gəzdirdi.

– Bütün bu kitabları sən yazmısan?

– Bəli.

– Mən heç təsəvvür eləməzdim ki, sən bu qədər çox kitab yazarsan.

– Onları mən yazmışam.

– Neçə kitab yazmısan?

– Dəqiq bilmirəm. Bəlkə iyirmi, iyirmi beş...

Bir qolumu Ayrisin belinə dolayaraq onu özümə tərəf çəkdim və öpdüm. O biri əlimi isə onun dizinə qoymuşdum.

Telefon zəng çaldı. Yerimdən qalxıb dəstəyi qaldırdım.

– Henk? – bu Valeri idi.

– Bəli?

– O kim idi?

– Kim kim idi?

– O qızı deyirəm...

– Ah, o mənim Kanadadan gəlmiş bir rəfiqəmdir.

– Henk, yenə sən və sənin lənətə gəlmiş qadınların!

– Hə.

– Bobbi öyrənmək istəyirdi ki, sən və...

– Ayris.

– O bilmək istəyirdi görsün sən və Ayris bizə gəlib bizimlə içmək istərdinizmi.

– Yox, bu axşam yox. Yağış yağmayanda gələrik.

– Onun necə gözəl bədəni var!

– Bilirəm.

– Yaxşı, onda bəlkə sabah.

– Ola bilər...

Deyəsən, Valerinin qadınlardan da xoşu gəlir, deyə düşünərək dəstəyi asdım. Xoşu gəlir, qoy gəlsin, mənim üçün problem deyil. Daha iki qədəh içki süzdüm.

– İndiyə qədər hava limanında neçə qadın qarşılamısan? – Ayris məndən soruşdu.

– Sənin düşündüyün qədər də çox deyil.

– Onların sayını itirmisənmi? Kitablarının sayını unutduğun kimi?

– Riyaziyyat mənim zəif yerlərimdən biridir.

– Hava limanlarında qadın qarşılamaqdan xoşun gəlir?

– Hə. – Ayrisin belə dilli-dilavər olduğunu heç xatırlamırdım.

– Ay səni donuz! – deyərək Ayris güldü.

– Bizim ilk didişməmiz. Uçuş yaxşı keçdi?

– Bir zırramanın yanında oturmuşdum. Bir qələt elədim və ona mənim üçün içki almasına razı oldum. Oğraş o qədər danışdı ki, baş-beynim getdi.

– O, sadəcə, sənə valeh olubmuş. Sən çox cazibədar qadınsan axı.

– Məndə elə bunu görürsən?

– Səndə bunun çox olduğunu görürəm. Bəlkə də münasibətimiz davam elədikcə, başqa şeylər də görəcəyəm.

– Bu qədər çoxlu qadın sənin nəyinə lazımdır?

– Bilirsənmi, bunun səbəbi mənim uşaqlıq çağlarımda keçirdiyim həyatdır. Nə sevgi görmüşəm, nə də qayğı. İyirmi, hətta otuz yaşlarımda da bu dediklərim o qədər də çox olmayıb. O vaxt məhrum olduğum şeylərin indi əvəzini çıxıram...

– O boşluğun yeri dolanda, sənin xəbərin olacaqmı?

– İndi içimdə elə bir hiss var ki, bunun üçün mənə ikinci həyat lazım olacaq.

– Sən necə də lovğa pisliksən!

Mən güldüm.

– Ona görə də, yazıram.

– Gedib düş qəbul eləmək və əynimi dəyişmək istəyirəm.

– Əlbəttə.

Mətbəxə keçdim və hind toyuğuna əlimlə toxunaraq onun donunun açılıb-açılmamasını yoxladım. O mənə öz ayaqlarını, qasıq tüklərini, dəliyini, ombalarını göstərdi; çanağın içində sakitcə oturmuşdu. Nə yaxşı ki onun gözləri yox idi. Hə, biz ondan bəzi şeylər hazırlamağa çalışarıq. Bu növbəti addım olacaqdı. Unitazın suyunun buraxılmasını eşitdim. Əgər Ayris onu qızartmaq istəməsə, onda özüm qızardaram.

Cavan vaxtlarımda daim depressiyada olardım. Lakin indi intifart mənim üçün artıq bir həyat seçimi deyildi. Mənim yaşımdakı bir adamın öldürə biləcəyi şeylər çox az olur. Onlar nə deyirlər, desinlər, qocalığın da öz üstün cəhətləri vardı. Məncə, insanın ağıla batan nəsə yaza bilməsi üçün onun ən azı əlli yaşı olmalıdır. Nə qədər çox çaylardan keçsən, çaylar haqqında bir o qədər çox şeylər biləcəksən – yəni, ağ suyun və sualtı daşların içindən salamat çıxa bilsən. Bəzən həyat kifayət qədər amansız və çətin ola bilər.

Ayris vanna otağından çıxdı. İndi onun əynində göyümtül qara rəngli bir don vardı. Deyəsən ipəkdən idi və onun bədəninə kip otururdu. O, orta statistik amerikalı

qızlardan deyildi. Ona görə də, çox müəmmalı görünürdü. O, sözün əsl mənasında qadın idi. Amma öz qadınlığını birbaşa sənin üzünə çırpmırdı. Amerikalı qadınlar çox qızğın şəkildə sövdələşirdilər və sonunda da başları bunun ağrısını çəkirdi. İndi təbii amerikalı qadınlara az sayda yalnız Texas və Luizianada rast gələcək olurdu.

Ayris mənə baxaraq gülümsədi. O hər ovcunda nəsə tutmuşdu. Sonra əllərini başının üzərinə qaldırdı və onları şaqqıldatmağa və ardınca rəqs etməyə başladı. Ya da, sadəcə, bədənini titrətməyə. Elə bil onu elektrik cərəyanı çarpmışdı. Ruhunun mərkəzi isə qarın hissəsi idi. Çox gözəl və təbii alınırdı. Üstəlik onda yüngül yumor da hiss olunurdu. Bütün rəqsin, bu zaman o bir an olsun belə gözlərini məndən çəkmirdi, öz xüsusi mənası, insanı öz cazibəsinə salan, öz –özlüyündə çox qiymətli olan bir sehr vardı.

Ayris rəqsi bitirdi, mən əl çaldım və sonra ona bir qədər içki süzdüm.

– Mən bu rəqsi lazım olduğu kimi ifa eləmədim, – Ayris dedi. – Bunun üçün xüsusi bir kostyuma və musiqiyə ehtiyac vardı.

– Amma mənim çox xoşuma gəldi.

– Mən içində lazım olan musiqi yazılmış bir kaset gətirmək istəyirdim, amma sənin evində maqnitofon olmadığını bilirdim.

– Haqlısan. Yenə də çox əla idi.

Ayrisi nəvazişlə öpdüm.

– Niyə gəlib Los-Ancelesdə yaşamırsan? – deyə ondan soruşdum.

– Mənim bütün köklərim şimal-qərbə aiddir. Oradakı həyatımdan məmnunam. Valideynlərim, dostlarım, hamısı oradadır, başa düşmürsənmi?

– Başa düşürəm.

– Bəs sən niyə Vankuverə köçmürsən? Sən öz əsərlərini Vankuverdə də yaza bilərdin.

– Bəlkə də bilərdim. Mən öz əsərlərimi aysberqin üstündə də yaza bilərəm.

– Bəlkə bir sınayasan?

– Nə?

– Vankuver.

– Bəs sənin atan buna nə deyər?

– Necə yəni nə deyər?

– Yəni bizim haqqımızda.

95

Şükran Günü Ayris hind toyuğunu hazırladı və onu sobaya qoydu. Bobbi ilə Valeri də gəlmişdilər, bizimlə içdilər, amma yeməyə qalmadılar. Hər şey elə bil ruhumu təzələyirdi. Ayris əyninə başqa bir don geyinmişdi. Amma elə bu paltarı da əvvəlki don kimi onu çox cazibədar göstərirdi.

– Bilirsənmi, – o dedi, – özümlə kifayət qədər paltar gətirməmişəm. Sabah Valeri ilə "Frederikin" dükanından alış-veriş etməyə gedirik. Özüm üçün əsl fahişə tufliləri almaq istəyirəm. Onlardan xoşun gələcək.

– Əlbəttə, xoşum gələcək, Ayris.

Mən vanna otağına girdim. Tanyanın mənə göndərdiyi fotoşəkili dərman şkafında gizlətmişdim. Şəkildə Tanya öz donunun ətəyini yuxarı qaldırıb əynində trusik olmadığını mənə göstərirdi. Onun amını görə bilirdim. O, həqiqətən də, gözəl qancıq idi.

Mən vanna otağından çıxanda, Ayris çanaqda nəsə yuyurdu. Onu arxadan qucaqladım və özümə tərəf çevirərək öpdüm.

– Ay səni şəhvətli qoca köpək! – o dedi. – Bu gecə sənin canını alacam, əzizim!

– Lütfən, al!

Biz bütün günü durmadan içdik. Sonra isə təxminən saat 5, ya da 6-da hind toyuğuna girişdik. Yemək bizi bir qədər ayıltdı. Bir saat sonra yenidən içməyə başladıq. Həmin axşam yatağa erkən girdik. Təxminən axşam saat 10-da. Heç bir problem olmadı. Uzun və keyfiyyətli performansı təmin etmək üçün kifayət qədər ayıq idim. Ona basmağa başladığım an başa düşdüm ki, bu gecə hər şey alınacaq. Ayrisi məmnun etmək üçün əlavə xüsusi səylər də göstərmirdim. Mən nasos kimi pompalamağıma davam

elədim və ona köhnə dəbli at sikişinin nə olduğunu göstərdim. Çarpayı cırıldayır, Ayris isə ağız-burnunu əyirdi. Sonra asta iniltilərin zamanı gəldi. Bir balaca sürətimi azaltdım. Az, sonra isə yenidən sürətləndim və şeyimi dibinə qədər itələyərək yükümü onun içinə tökdüm. Deyəsən, o da mənimlə birlikdə qurtarmışdı. Əlbəttə, kişilər heç vaxt bunu dəqiq bilmirlər. Onun üstündən düşdüm. Hər zaman Kanada bekonundan xoşum gəlib.

Ertəsi gün Valeri gəldi və Ayris ilə birlikdə "Frederikin" dükanına getdilər. Onlar gedəndən təxminən bir saat sonra poçt gəldi. Onların arasında Tanyanın yazdığı məktub da vardı:

Henri, əzizim...

Bu gün küçə ilə gedərkən kənarda dayanmış oğlanlar arxamca fit çaldılar. Buna heç bir reaksiya vermədən onların yanından ötüb keçdim. Ən zəhləm gedənləri isə maşın yuyan oğlanlardır. Onlar nalayiq sözlər qışqırır və dillərini çölə çıxarırlar, sanki onunla həqiqətən nəsə eləmək iqtidarındadırlar, amma bilirəm ki, onların arasında bunu etməyə qadir olan əsl kişilər yoxdur. Özün də bilirsən ki,

bunu başa düşmək elə də çətin deyil. Reksə şalvar almaq üçün dünən bir paltar dükanına getmişdim. Bunun üçün Reks mənə pul vermişdi. O özünə heç vaxt heç nə ala bilmir. Onun bu işlərdən zəhləsi gedir. Hə, deməli, kişi paltarları satan bu dükana getdin və onun üçün bir cüt şalvar seçdim. Dükanda orta yaşlı iki kişi də vardı. Onların birisi əsil heyvərəydi. Şalvar seçən zaman, o mənə yaxınlaşdı və əlimdən tutub onu öz sikinin üstünə qoydu. Mən ona dedim: "Sahib olduğun şey elə budur, səni zavallı şey!" O ucadan güldü və nəsə məzəli bir söz dedi. Reks üçün həqiqətən də bir cüt gözəl şalvar tapdım – yaşıl rəngdə nazik ağ zolaqlarla. Reksin yaşıl rəngdən çox xoşu gəlir. Hə, bu arada, həmin oğlan mənə deyir: "Gəl səninlə bax o paltar geyinmə kabinlərinə girək." Bilirsənmi, mən həmişə sarkastik heyvərələrə meylli olmuşam. Ona görə də onunla həmin kabinələrdən birinə girdim. O biri kşi isə bizim kabinəyə girdiyimizi gördü. Biz öpüşməyə başladıq və o öz şalvarının qabağını açdı. Mənim əlimi bərkimiş şeyinin üstünə qoydu. Biz öpüşməyə davam edirdik, o mənim donumun ətəyini yuxarı qaldırdı və güzgüdən trusiyimə

baxdı. Götümü əlləşdirməyə başladı. Lakin onun siki heç əməlli-başlı bərkimədi də, yarımçıq bərkidi və elə də qaldı. Ona dedim ki, o heç bir işə yarıyan pox deyil. O, şalvarının qabağından siki sallanmış vəziyyətdə kabinədən çıxdı və öz dostunun önündə şalvarın qabağını bağladı. Onlar gülürdülər. Mən kabinədən çıxıb şalvarın pulunu ödədim. O, şalvarları torbaya qoyarkən: "Ərinə deyərsən ki, ona aldığın bu yeni şalvarla geyinmə kabinəsinə girmişdin!" – dedi və ucadan güldü. "Sən, sadəcə, sikilmiş götəşsən!" – ona dedim. – "Sənin dostun da götün dal ayağıdı!" Onlar doğrudan da girdirmələrdilər. İndi, demək olar ki, bütün kişilər mavidirlər, götün dal ayağıdırlar. İndi qadın üçün doğrudan da çətindir. Mənim bir rəfiqəm bir adama ərə getmişdi. Bir gün evə gələndə isə, öz ərini yataqda başqa bir kişi ilə birlikdə tutmuşdu. Bu günlərdə, bütün qızların vibirator almaq məcburiyyətində qalması heç də təəccüblü deyil. Çarələri nədir ki?!. Yaxşı, cavab yaz.

Sənin,

Tanyan

Əzizim, Tanya.

Sənin məktublarını və fotoşəkilini aldım. Şükran Günündən sonra öz evimdə tək-tənha oturmuşam. Dünən çox içdiyimdən, bu gün başım çatlayır. Fotoşəkilini çox bəyəndim. Yenə şəkillərin varmı?

Sən heç Selinin yazdıqlarını oxumusanmı? "Gecənin Sonuna Səyahət" kitabını nəzərdə tuturdum. Bu kitabdan sonra, o ağlını itirdi və axmağın biri oldu – öz redaktorları oxucuları haqqında durmadan şikayətlənməyə başladı. Adamın ona həqiqətən yazığı gəlir. Ağlını tamamilə itirdi. Məncə, o əla həkim idi, bəlkə də deyildi. Bəlkə də onun ürəyi bu işə yatmırdı. Bəlkə də öz pasientlərini öldürməklə məşğuldu. Bax bundan əla bir roman alınardı. Əksər həkimlər bunu edirlər. Onlar sənə bir dənə həb verib yenidən küçəyə yollayırlar. Onlar öz təhsillərini sərf etdikləri pulu nədənsə çıxarmalıdırlar. Ona görə də öz qəbul otaqlarını xəstələrlə doldurur və onları bir-bir qəbul edib göndərirlər. Onlar adamı tərəzidə çəkir, qan təzyiqini yoxlayır, sonra da bir həb verib küçəyə yollayırlar. Amma bütün bunlardan sonra xəstə özünü daha da pis hiss etməyə başlayır. Diş

cərrahı xəstənin əlində olan bütün pullarını ala bilər. Amma diş cərrahları heç olmasa adamın dişlərinə nəsə edirlər.

Bütün bunlara baxmayaraq, mən hələ də yazıram və belə görünür ki, öz mənzil kirayəmi hələlik ödəmək iqtidarındayam. Sənin yazdığın məktublar mənə çox maraqlı gəlir. Sənin o trusiksiz şəklini bəs kim çəkib? Şübhə etmirəm ki, həmin şəxs sənin yaxın dostundur. Reks? Görürsənmi, mən artıq qısqanmağa başlayıram! Bu yaxşı əlamətdir, düz demirəmmi? Gəl bunu hələlik, sadəcə, maraq adlandıraq. Ya da rəğbət.

Tez-tez öz poçt qutuma baxacağam. Başqa fotoşəkillər də olacaqmı?

Sənin, hə, hə,

Henri.

Qapı açıldı və kandarda Ayris göründü. Mən vərəqi yazı makinasından çıxardım və onun üzünü aşağı çevirərək masanın ütünə qoydum.

– Oh, Henri! Mən fahişə tuflilərini aldım!

– Əla! Əla!

– İndi onları sənin üçün geyinəyəcəyəm! Onları bəyənəcəyindən əminəm!

– Əzizim, tez geyin!

Ayris yataq otağına keçdi. Tanyaya yazdığım məktubu götürüb başqa vərəqlərin arasına soxdum.

Ayris geri qayıtdı. Ayaqqabıların rəngi al qırmızı idi və çox hündür dabanları vardı. O, bütün zamanların ən möhtəşəm fahişələrindən birisi kimi görünürdü. Tuflilərin arxa hissəsi yox idi və onun ayaqları şəffaf materialın altından görünürdü. Ayris otaqda var-gəl elədi. Onun çox təhrikedici bədəni və, əlbəttə ki, götü vardı. Üstəlik həmin ayaqqabılarla otaqda ora-bura gəzişməklə, Ayris bu təhrikin dozasını göylərə qaldırırdı. Bu mənzərə insanın ağlını başından ala bilərdi. Ayris birdən ayaq saxladı və başını döndərib çiyninin üstündən mənə baxaraq gülümsədi. Amma nə möhtəşəm sürtükdü bu! Onun bədənində mənim indiyə qədər gördüyümdən daha çox omba, daha çox göt və daha çox baldır vardı. Cəld sıçrayaraq yerimdən qalxdım və özümüz üçün iki qədəh içki süzdüm. Ayris də gəlib oturdu və bir ayağını o birisinin üstünə aşıraraq onu yuxarı dartdı.

O, otağın o biri başındakı kresloda mənimlə üzbəüz oturmuşdu. Həyatımda inanılmaz möcüzələr baş verməyə davam edirdi. Bunun səbəbini özüm də başa düşə bilmirdim.

Sikim daş kimi bərkimişdi, şalvarımın qabağına dirənərək sərçə ürəyi kimi döyünürdü.

– Kişilərin xoşuna ən çox nə gəldiyini bilirsən, – mən Ayrisə dedim.

İçkilərimizi bitirdik. Sonra onun əlindən tutub yataq otağına apardım. Onu itələyib çarpayıya yıxdım. Donunun ətəyini yuxarı qardırdım və trusiyindən yapışdım. Bu çox çətin iş imiş. Trusiyi ayaqqabısına ilişdi, kabluka keçmişdi, nəhayət ki, onu çıxara bildim. Ayrisin donu hələ də onun budlarını örtürdü. Onun sağrılarından tutub qaldırdım və donun ətəklərini onun arxasından kürəyinə tərəf yuxarı itələdim. O artıq islanmışdı. Bunu barmaqlarımla yoxladım. Ayris, demək olar ki, həmişə islaq, həmişə hazır olurdu. Onunla olmaq tam bir sevinc idi. Onun qıçlarında qırmızı gül ilə bəzədilmiş mavi dizbağılı uzun boğazlı neylon corablar vardı. Onları düz onun nəmişliyinə soxdum. Onun qıçları yuxarı, hava qalxmışdı və mən ona nəvaziş

göstərərkən, onun ayaqlarındakı fahişə tuflilərini görürdüm, ayaqqabıların qırmızı dabanları qınından çıxarılmış xəncər kimi görünürdü. Deyəsən, Ayris daha bir köhnə dəbli at sikişinə hazır idi. Məhəbbət gitara çalanlar, katoliklər və şahmatçılar üçündü. Amma bu sürtük, ayağındakı qırmızı tuflilər və uzun corabları ilə məndən alacağı şeyi tamamilə haqq edirdi. Onu ikiyə cırmağa çalışırdım, onu ikiyə ayırmaq üçün əlimdən gələni edirdim. Pərdələrin arxasından zəif süzülən günəşin mülayim işığında bu qəribə yarım-hindistanlı üzə tamaşa edirdim. Bu lap qətlə bənzəyirdi. O mənim hakimiyyətim altında idi. Əlimdən canını qurtara bilməzdi. Onu cırır və nərildiyirdim, üzünə şillələr şappıldadırdım və az qala, onun iki yerə ayırmışdım.

Bütün bunlardan sonra hələ də üzündə təbəssümlə yerindən qalxaraq vanna otağına getmək iqtidarında olması məni çox təəccübləndirdi. Demək olar ki, xoşbəxt görünürdü. Tufliləri ayağından çıxaraq çarpayının yanına düşmüşdü. Sikim, əvvəlki kimi, bərk idi. Yerdən tuflinin bir tayını götürdüm və şeyimi ona sürtüşdürdüm. Bu əla hiss

idi. Sonra tuflini yenə yerə qoydum. Ayris üzündə həmin təbəssümlə hamamxanadan çıxanda, şeyim boşaldı.

96

Bundan sonra onun mənim evimdə qonaq qaldığı vaxt ərzində elə də çox şey baş vermədi. Biz yedik, içdik, bir də sikişdik. Aramızda mübahisələr heç olmadı. Biz dəniz kənarında maşınla uzun-uzadı gəzintilərə çıxır, oradakı kafelərdə dəniz məhsullarından hazırlanan yeməklər yeyirdik. Yazılarım haqqında heç narahat olmurdum. Bəzən elə anlar olur ki, yazı makinasından uzaq dursan yaxşıdır. Yaxşı yazıçı nə vaxt yazmamalı olduğunu çox gözəl bilir. Makinada hamı nəsə çap edə bilər. Mən heç də yaxşı makinaçı olduğumu iddia eləmirəm; üstəlik nə sözlərin düzgün yazılışını, nə də qrammatikanı bilirəm. Amma nə zaman yazmağı dayandırmalı olduğumu yaxşı bilirəm. Bu da sikişmək kimi bir şeydir. Ara-sıra Tanrıya da istirahət verməlisən. Vaxtaşırı mənə məktublar yazan Cimmi Şannon adında köhnə bir dostum vardı. O ildə 6 roman yazırdı,

hamısı da insest haqqında. Onun ac qalmasında təəccüblü heç nə yox idi. Mənim də problemim vardı: öz sikimə, yazı makinamın tanrısına verdiyim kimi, istirahət verə bilmirdim. Bunun səbəbi qadınların sənin yanına sürü ilə gəlmələrində idi. Və ona görə də, başqa birisinin tanrısı işə qarışana qədər, onlardan, mümkün olduqca, daha çox istifadə etməliydin. Məncə, on il ərzində öz yazılarıma ara verməyim həyatımda başıma gələn ən xoşbəxt hadisələrdən bir idi (Düşünürəm ki, bəzi tənqidçilər isə bunun oxucuların həyatımda onların başıma gələn ən xoşbəxt hadisə olduğunu da iddia edə bilərdilər). Hər iki tərəf üçün on illik bir istirahət. Görəsən içkini on il müddətinə atsaydım, nə baş verərdi?

Ayris Düartı yenidən təyyarəyə mindirməyin vaxtı gəlib çatdı. Bu, səhər reysi olduğundan, mənim üçün bir az çətinlik yaradırdı. Mən yuxudan günortalar ayılmağa adət etmişdim: bu, içki xumarlığına qarşı yaxşı əlac idi və mənim ömrümə beş il də əlavə edə bilərdi. Onu Los-Anceles Beynəlxalq Hava Limanına apararkən içimdə qətiyyən kədər hiss etmirdim. Seks əla idi; bir az da gülüb əylənmişdik.

Bundan daha mədəni vaxt keçirdiyimi xatırlaya bilmirdim, Heç birimiz heç nə tələb etməsək də, bununla belə, aramızda səmimiyyət və mehribanlıq vardı. Baş verənlərdə duyğularımız da yox deyildi, bir ölü ət o biri ölü ət ilə cütləşirdi. Mən belə münasibətlərə nifrət edirdim – seksin Los-Anceles, Hollivud, Bel Eyer, Malibu, Laquna Biç kimi növlərinə. Görüşəndə də, ayrılanda da bir-birinə yad olmaq – bir-birini tanımadan masturbasiya edən bədənlərlə dolu idman zalları. Mənəviyyatı olmayan insanlar çox vaxt özlərini daha azad hesab edirdilər. Amma onların əksəriyyəti duyğulanmaq və ya sevgi hissini yaşamaq qabiliyyətindən məhrum varlıqlardılar. Ona görə də onlar svingerlərə çevrilirdilər. Bir ölü başqa bir ölünü sikir. Onların oyununda nə bir ehtiras, nə də yumor var – sadəcə, bir cəsəd başqa bir cəsədi sikirdi. Mənəviyyat insanları bəzi şeyləri etməkdən çəkindirir. Çünki o, həqiqətən əsrlərdən bəri toplanmış insan təcrübəsinə əsaslanır. Bəzi əxlaqı dəyərlər insanları fabriklərdə və kilsələrdə qul olmağa, bəziləri isə dövlətə sədaqətli olmağa sövq edir. Digər mənəvi dəyərlərdə isə müdrik mənalar mövcuddur. Zəhərli və yeməli meyvələr ilə

dolu olan bir baxça kimi. Onlardan hansının yeməli, hansınınsa boş buraxılmalı olduğunu necə seçməyin yollarını bilmək lazımdır.

Mənim Ayris ilə yaşadığım təcrübə valehedici və məmnunedici olmuşdu. Baxmayaraq ki, nə mən ona aşıq idim, nə də o mənə. Bir insanın qayğısına qalmaq onun qayğısına qalmamaqdan daha asandır. Mən insanların qayğısına qalırdım. Biz maşın duracağının yuxarı rampasında folksvagenin içində oturmuşduq. Bizim hələ bir az boş vaxtımız vardı. Radionu qoşdum. Brams.

– Səni bir də görə biləcəyəmmi? – deyə ondan soruşdum.

– Məncə, yox.

– Barda nəsə içmək istiyirsənmi?

– Sən məni lap əyyaş eləmisən, Henk. Elə zəifləmişəm, güclə yeriyirəm.

– Bunun səbəbi yalnız spirtli içkidirmi?

– Yox.

– Onda gedək içməyə.

– İçmək, içmək, içmək! Düşünə bildiyin şey yalnız budurmu?

– Yox, amma indikinə bənzər məkanlardan rahat keçə bilmək üçün bu yaxşı üsuldur.

– Sən qarşına çıxan şeylərlə üzləşə bilmirsənmi?

– Bilirəm, amma üzləşməməyə üstünlük verirəm.

– Buna eskapizm[10] deyirlər.

– Hər şey eskapizmdir: qolf oynamaq, yatmaq, qida qəbul eləmək, piyada gəzmək, mübahisə eləmək, qaçmaq, nəfəs almaq, sikişmək...

– Sikişmək?

– Bax, əzizim, biz lap məktəbli uşaqlar kimi danışırıq. Yaxşısı budur, gəl səni təyyarəyə mindirək.

Söhbətimiz yaxşı alınmırdı. Onu öpmək istəsəm da, özünü təmkinlə aparmasını hiss etdim. Elə bil divar idi. Məncə, Ayris özünü yaxşı hiss etmirdi, elə mən özüm də.

– Hə, yaxşı, – o dedi, biz indi qeydiyyatdan keçərik, sən gedib öz içkimi içərsən. Sonra isə mən həmişəlik uçub

[10]Həyat reallıqlarından qaçmaq

burdan gedərəm: çox rahat, çox asanlıqla, heç bir ağrı hiss etmədən.

– Yaxşı! – mən dedim.

Hər şey onun dediyi kimi alındı.

Geri qayıdarkən: Sençuri Bulvarla şərqə, sonra üzü aşağı Krenşouya qədər, 8-ci Avenyu ilə üzü yuxarı, sonra Arliqtondan Uiltona. Yolda öz camaşırlarımı götürmək qərarına gəldim, ona görə də sükanı sağa fırladaraq Beverli Bulvara döndüm, maşını "Silverette" camaşırxanasının arxasındakı dayanacağın içinə sürdüm və orada saxladım. Maşını dayanacaqda elə yenicə saxlamışdım ki, yanımdan qırmızı don geyinmiş qaradərili bir qız keçdi. Onun sağrıları valehedici bir tərzdə yırğalanırdı, bu gördüyüm ən ecazkar hərəkət idi. Sonra aralıdakı bir bina mənim görmə sahəmin qarşısını kəsdi. Bax bu qızın hərəkət etməsinə varam: elə bil həyat ancaq bir neçə qadına belə elastik hərəkət qabiliyyətini bəxş etmiş, qalanlarını isə yaddan çıxarmışdı. Bax bu qızın hərəkətlərində mənim dediyim vəsfəgəlməz incəlik vardı.

Mən küçənin səkisinə çıxıb ona arxadan da tamaşa elədim. Onun geriyə çevrilib baxdığını da görə bildim.

Sonra o, hərəkətini dayandırdı və çiyninin üstündən boylanaraq gözlərini mənə zillədi. Camaşirxanaya daxil oldum. Camaşırlarımı da götürüb oradan çıxanda, o qızın mənim folksvagenimin yanında dayandığını gördüm. Əlimdəki şeyləri sərnişin tərəfdən maşına yüklədim. Sonra maşının ətrafında dolanaraq sürücü qapısına yaxınlaşdım. O isə qarşımda dayanmışdı. Qızın təxminən 27 yaşı olardı, dəyirmi və laqeyd üzü vardı. Biz bir-birimizə çox yaxın dayanmışdıq.

– Sizin mənə baxdığınızı gördüm. Nə üçün mənə elə baxırdınız?

– Mən üzr istəyirəm. Sizi incitmək niyyətim yox idi.

– Mən nə üçün mənə elə baxdığınızı bilmək istəyirəm. Siz açıq-aşkar gözlərinizi mənə zilləmişdiniz.

– Bura baxın, siz gözəl bir qadınsınız. Sizin çox gözəl bədəniniz var. Yanımdan keçdiyinizi gördüm və sizə baxdım. Özümlə bacara bilmədim, qeyri-iradi alındı.

– Bu gün axşam mənimlə görüşmək istərdinizmi?

– Hmm, bu çox əla olardı. Amma bu axşam mən artıq bir görüşüm var. Bu gün bəzi işlərim var.

Onun yanından keçib sürücü qapısına yaxınlaşdım. Qapını açdım cə maşına əyləşdim. O isə çıxıb getdi. Gedərkən onun astadan mırıldandığını eşitdim:

– Ağdərili dümbələk.

Poşt qutusunu qapağını açdım – heç nə. Mənim yenidən qruplaşmağa ehtiyacım vardı. Nəsə vacib bir şey çatmırdı. Soyuducunun qapısını açıb içinə baxdım. Bomboş idi. Evdən çıxdım, folksvagenə mindim və "Mavi Fil" içki dükanına sürdüm. Bir kvinta "Smirnov" və bir az da "7-UP" aldım. Geri qayıdarkən, artıq yolda başa düşdüm ki, siqaret almağı unutmuşam.

Qərbi Avenyu ilə cənuba istiqamətləndim. Sonra sola dönərək Hollivud Bulvarına çıxdım. Sonra isə sağa, Serranoya döndüm. Siqaret almaq üçün bir dükan tapmağa çalışırdım. Serrano ilə Sansetin düz kəsişməsində başqa bir qaradərili qız dayanmışdı. Ayaqlarında açıq sarı ilə qara rəngin qarışığında hündürdaban tufli və əynində mini-ətək vardı. Qız orada öz mini-ətəyi ilə dayanarkən, onun maviyə çalan trusiyinin balaca bir hissəsini görə bildim. Qız səki ilə

getməyə başladı, mən isə maşını yavaş-yavaş onun arxasınca sürdüm. O özünü elə aparırdı, elə bil məni görmür.

– Ey, balaca!

Qız dayandı. Maşını səkinin kənarına verdim. Qız maşına yaxınlaşdı.

– İşlər necə gedir? – ondan soruşdum.

– Qaydasında.

– Hə, nədi, səni tələ yemi tutublar? – mən ondan soruşdum.

– Nə mənada deyirsən?

– O mənada deyirəm ki, – deyə mən izah etdim, – sənin polis olmadığını mən hardan bilim?

– Sənin polis olmadığını bəs mən hardan bilim?

– Bir mənim üzümə bax. Gör mən heç polisə oxşayıram?

– Yaxşı, – qız dedi, – qarşıdakı döngəyə burul və maşını orada saxla. Döngənin dalında maşına minərəm.

Həmin döngəyə buruldum və maşını "Cənab Məşhur Nyu Cersi Buterbrodları" kafesinin qarşısında saxladım. O, qapını açaraq maşına oturdu.

– Hə, nə istəyirsən?, – o məndən soruşdu. Onun yaşı otuzdan keçmiş olardı və gülümsəyərkən öndəki qızıl dişi parıldayırdı. O heç vaxt mülis olmazdı.

– Minet, – mən dedim.

– İyirmi dollar.

– Danışdıq. Gəl getdik.

– Qərblə Franklinə qədər sür, sola dön, Harvarda qədər get və sonra sağa dön.

Biz Harvarda çatanda, artıq maşını saxlamaq üçün yer qalmamışdı. Nəhayət, maşını qırmızı zonada saxladım və maşından düşdük.

– Arxamca gəl, – o mənə dedi.

Bu, dağılmaqda olan hündürmərtəbəli bir bina idi. Biz vestibülə çatar-çatmaz o sağa döndü və mən də gözlərimi onun götünə zilləyərək onun arxasınca beton pilləkənlərlə qalxdım. Çox qəribə idi, axı hamının götü vardı. İçimdə kədərə bənzər bir hiss baş qaldırmışdı. Lakin onun götünü istəmirdim. Onun arxasınca dəhlizlə gedəndən sonra bir neçə sement pilləkən də qalxdıq. Biz lift əvəzinə yanğın çıxışına bənzər pilləkəndən istifadə edirdik. Bunu etməkdə

onun məqsədinin nə olduğu mənə aydın deyildi. Amma bir balaca hərəkət etməyin mənə xeyri vardı – əlbəttə, əgər mən də Knut Hamsun kimi qoca yaşlarımda qalın romanlar yazmaq fikrindəydimsə.

Nəhayət, biz onun mənzilinə çatdıq. O, mənzilin açarını çıxardı. Mən onun əlindən yapışdım.

– Bir dəqiqə dayan, –dedim.

– Nə olub?

– Mənzilində bir neçə zorba qaradərili heyvərə var, onlar məni yaxşıca kötəkləyib qol-qabırğamı sındıracaq və cibimdə nə varsa, əlimdən alacaqlar, hə?

– Orda heç kim yoxdur. Bu mənzildə bir rəfiqəm ilə birlikdə qalıram, o da indi evdə deyil. O, Brodvey Univermağında işləyir.

– Açarı mənə ver, görüm.

Mən qapını ehtiyatla araladım və sonra təpiklə vurara onu açdım. İçəri göz gəzdirdim. Bıçağım yanımda olsa da, əlimi ona uzatmadım. O, qapını arxamızca bağladı.

– Gəl yataq otağına keçək, – o mənə təklif etdi.

– Gözlə bir az...

Divar şkafının qapısını çevik bir hərəkətlə açdım və əlimi içəri salıb paltarlara toxundum. Heç nə.

– Sən hansı zibildən qəbul eliyirsən, dostum?

– Mən heç bir zibil qəbul eləmirəm!

– Ah, ilahi....

Cəld vanna otağına qaçdım düşün pərdəsini geri çəkdim. Yenə heç nə. Mətbəxə keçdim, su çanağının altındakı plastik pərdəni kənara çəkdim. Orada, sadəcə, içi ağzına qədər dolu plastik zibil vedrəsindən başqa heç nə yox idi. İkinci yataq otağına baxdım. Ordakı şkafın içini yoxladım. İkinəfərlik çarpayının altına baxdım: orada yalnız boş bir "Ripple" şüşəsi vardı. Yataq otağından çıxdım.

– Hə, di bura gəl, – o mənə dedi.

Bu balaca bir otaq idi, daha çox taxçaya, ya da yük yerinə oxşayırdı. Otaqda üstündə çirkli ağlar olan balaca bir çarpayı qoyulmuşdu. Odeyal isə yerə atılmışdı. Mən miyançamı açdım və şeyimi çıxardım.

– İyirmi baks, – o dedi.

– Əvvəlcə öz dodaqlarını bu zəhrimara yapışdır! Onu qurudana qədər sor!

– İyirmi dollar.

– Qiyməti bilirəm. Onu qazan. Xayalarımı boşalt.

– Əvvəlcə, iyirmiliyi görüm...

– Lap elə? Sənə iyirmiliyi verim, bəs nə bilim ki, haray-həşir qaldırıb polisləri çağırmayacaqsan? Hardan bilim ki, sənin 7 futluq basketbolçu qardaşın əlində behbud bıçaqla gəlməyəcək?

– Əvvəlcə, iyirmilik. Və heç narahat olma. Sənin şeyini çalacam. Sənin şeyini ürəyinin istədiyi kimi soracam.

– Sənə inanmıram, səni qəhbə.

Şalvarımın qabağını bağladım və cəld mənzili tərk etdim. Çox cəld, gəldiyim bütün sement pilləkənləri qaçaraq düşdüm. Ən aşağı mərtəbəyə qədər qaçdım, küçəyə çıxaraq tez folksvagenə mindim və qaza basaraq sürətlə evim istiqamətində hərəkət etməyə başladım.

İçməyə başladım. Mənim ulduzlarım qaydasında deyildilər.

Telefon zəng çaldı. Bu, Bobbi idi.

– Sən Ayrisi təyyarəyə mindirdinmi?

– Hə, Bobbi. Hə bir də bir az müxtəliflik üçün bu dəfə əllərini ondan uzaq tutduğuna görə də sənə təşəkkür edirəm.

– Qulaq as, Henk, bu problemi sən öz başında yaratmısan. Sən qocasan və o cür cavan və qəşəng mamışları öz evinə gətirirsən, sonra da cavan pişiklər oralara hərlənəndə dəliliyin tutur. Sənin, sadəcə, götün əsməyə başlayır.

– Özünə şübhə eləmək... özünə inamın olmaması, düz demirəmmi?

– Hmm...

– Yaxşı, Bobbi.

– Hə, deyirəm Valeri maraqlanırdı ki, sən gəlib bizimlə içmək istəyirsənmi?

– Hə, olar.

Bobbidə çox pis zibil vardı, həqiqi zibil. Biz onu növbə ilə bir-birimizə ötürdük. Stereo aparat üçün Bobbinin çoxlu yeni kasetləri vardı. Onda mənim sevimli müğənnim Rendi Nyumanın da kaseti vardı və o Rendinin kasetini stereoya taxdı, amma mənim xahiş etdiyim kimi orta səslə.

Beləliklə, biz oturub Rendiyə qulaq asır və siqaret çəkirdik. Birdən Valeri moda nümayişinə başladı. Onun "Frederik"dən bir düjin paltarı vardı. Vanna otağının qapısının iç tərəfindən Valerinin 30 cüt ayaqqabısı asılmışdı.

Valeri ayağında 8 düymlük dabanları olan ayaqqabılarını geyinərək təşəxxüslü bir görkəmlə qarşımıza çıxdı. O çox çətinliklə gəzirdi. Valeri hündür dabanların üstündə ləngər vura-vura, ayağı dolaşa-dolaşa otaqda gəzişdi. Gəzişdikcə götü dala çıxırdı. Şəffaf köynəyinin altında dik dayanmış balaca məməcikləri bərk və sərtləşmiş görünürdü. O, topuğuna nazik qızıl zəncir taxmışdı. Dabanının üstündə fırlanaraq bizimlə üzbəüz dayandı və bir neçə incə seksual hərəkətlər etdi.

– İlahi, – Bobbi dedi, – Oh... Aman Tanrım!

– Aman Alahım, Sənə həmd və səna olsun! – mən dilləndim.

Valeri mənim yanımdan keçəndə, əlimi uzadıb onun götünü sıxdım. Mən yaşayırdım. Özümü əla hiss edirdim. Valeri paltarını dəyişmək üçün tualetə girdi.

Valeri hər dəfə oradan çıxanda, daha yaxşı, daha canalıcı və daha təhrikedici görünürdü. Bütün bu proses özünün hansısa zirvə nöqtəsinə doğru inkişaf etməkdəydi.

Biz oturub içir və siqaret çəkirdik. Valeri isə yeni paltarlarla qarşımızda dövrə vurmağa davam edirdi. İnanılmaz bir şou gedirdi.

Valeri gəlib mənim qucağıma oturdu, Bobbi izə bu pozada fotoşəkillərimizi çəkdi.

Gecə tükənməkdə idi. Sonra birdən ətrafıma baxdım və Valeri ilə Bobbini yanımda görmədim. Onların yataq otağına girdim, budur Valeri tamamilə çılpaq, əlbəttə əgər onun ayağındakı hündürdaban ayaqqabıları saymasaq, yatağın üstündə uzanmışdı. Onun bədəni möhkəm və qəşəng biçimliydi.

Bobbi hələ əynini soyunmamışdı və Valerinin döşlərini, gah birinə, gah da o birisin keçməklə əmirdi. Onun döşləri mıx kimi dik durmuşdular.

Bobbi başını qaldırıb mənə baxdı.

– Ey, qoca adam, eşitdiyimə görə sən amcıq yalamaq sənətinlə yaman öyünürmüşsən. Bəs buna nə deyirsən?

Bobbi aşağı əyildi və Valerinin ayaqlarını araladı. Onun amcığının tükləri uzun, dolaşıq və pırtlaşıq idi. Bobbi başını Valerinin ayaqlarının arasına soxub onun klitorunu yalamağa başladı. Bu onda heç də pis alınmırdı, amma bunu elə də həvəslə eləmirdi.

– Bir dəqiqə dayan, Bobbi, sən bunu düzgün eləmirsən. Kənara çəkil sənə göstərim.

Mən də oraya əyildim. İşimə çox uzaqdan başladım və yavaş-yavaş hədəfimə yaxınlaşdım. Sonra isə hədəfə girişdim. Mənim dil hərəkətlərinə Valeri dərhal cavab verdi. Özü də çox çevik cavab verdi. O öz ayaqlarını mənim boynuma doladı, az qala boğulacaqdım. Qulaqlarım əzilərək yastılaşmışdı. Başını Valerinin ayaqlarını arasından çıxardım.

– Hə, Bobbi, indi gördünmü necə lazımdır?

Bobbi mənə cavab vermədi. O dönərək vanna otağına getdi. Ayaqqabılarım ilə şalvarımı artıq soyunmuşdum. Sərxoş olduğum vaxtlarda öz qıçlarımı nümayiş etdirməkdən həzz alırdım. Valeri əlini uzadıb məni çarpayıya tərəf çəkdi. Sonra sikimin üstünə əyilərək onu

ağzına aldı. Bir çox başqa qadınlar ilə müqayisədə o bu işi elə də yaxşı bacarmırdı. O köhnə arvadlar kimi şeyimin başını sormağa başladı və bundan əlavə elə də çox şey təklif eləmədi. O uzun müddət şeyimi əmdi, amma mən hiss edirdim ki, bir şey alınmayacaq. Mən onun başını kənara çəkib yastığın üstünə qoydum və onu öpdüm. Sonra isə onun üstünə çıxdım. 8-10 dəfə dala-qabağa itələməyə macal tapmamış, arxamızda Bobbinin hənirtisini eşitdim.

– İstəyirəm ki, sən bizim evimizi tərk edəsən, dostum.

– Bobbi, yenə nə baş verdi, bunun anasını?

– İstəyirəm ki, öz evinə qayıdasan.

Şeyimi çıxardım, ayağa qalxdım, ön otağa keçdim və şalvarımla ayaqqabılarımı geyindim.

– Ey, Sərt Adam, – deyə Bobbini çağırdım, – nə baş verib?

– Səni, sadəcə, öz evimdə görmək istəmirəm.

– Yaxşı, yaxşı...

Öz evimə qayıtdım. Ayris Düartı təyyarəyə mindirdiyim vaxtdan elə bil əsrlər keçmişdi. İndiyə qədər o

artıq Vankuverə çatmış olardı. Ay sənə zibil. Ayris Düart gecən xeyrə qalsın.

97

Poçt qutumda bir məktub vardı. Məktubu hardansa Hollivuddan göndərmişdilər.

Hörmətli, Çinaski:

Mən, demək olar ki, sizin bütün kitablarınızı oxumuşam. Özüm Çeroki Avenyuda yerləşən bir idarədə makinaçı işləyirəm. Mən öz iş yerimdə sizin şəklinizi divardan asmışam. Bu, sizin bədii qiraət gecələrinizin birində çəkilmiş plakatdır. İnsanlar tez-tez məndən soruşurlar: "Bu kimdir?" Mən də cavab verirəm: "Bu mənim dostumdur." Onlar isə deyirlər "Aman Allahım!"

Sizin "Üz Ayaqlı Yırtıcı" adlı hekayələr kitabınızı oxuması üçün öz rəisimə vermişdim. Kitabınızı oxuyandan sonra dedi ki, onu bəyənməyib. O dedi ki, sizin yazıçılıqdan başınız çıxmır. Bir də dedi ki, bu kitab ucuz zibildir. Kitabınızı oxuyandan sonra əməlli-başlı əsəbiləşmişdi.

Bütün bunlara baxmayaraq, sizin əsərlərinizi sevirəm və sizinlə görüşməyi çox istərdim. Ətrafımdakıların dediyinə görə, mən qəşəngəm və gözəl qamətim var. Bunun belə olub-olmadığını yoxlamaq istərdinizmi?

Sevgilərlə,

Valensiya

Məktuba iki telefon nömrəsi də qeyd etmişdi – biri iş, o birisi isə ev telefonu. Saat təxminən 2:30 olardı. Ona görə də, iş nömrəsini yığdım.

– Bəli? – deyə bir qadın səsi cavab verdi.

– Danışan Valensiyadır?

– Bəli, Valensiyadır.

– Sizə zəng vuran Çinaskidir. Sizdən məktub almışam.

– Mən bilirdim ki, siz mənə zəng vuracaqsınız.

– Sizin əcəb məlahətli və seksual səsiniz var, –dedim.

– Elə sizin də. –o cavab verdi.

– Sizinlə nə vaxt görüşə bilərik? – ondan soruşdum.

– Hmm, məsələn, bu gün axşam heç bir işim yoxdur.

– Yaxşı. Bəs onda bu axşam görüşməyə nə deyirsiniz?

– Olar, – deyə o cavab verdi, – onda işdən sonra görüşək. Kahuenqa Bulvarındakı o barda, “Tülkü Yuvası” barında görüşə bilərik. O barın harda olduğunu bilirsinizmi?

– Hə, bilirəm.

– Onda saat təxminən 6-da orada görüşərik...

Ora getdim və maşını “Tülkü Yuvası” barının yaxınlığında saxladım. Bir siqaret alışdırdım və bir müddət maşından düşməyərək oturdum. Sonra maşından düşdüm və bara daxil oldum. Görəsən onlardan hansı Valensiyadır? Orada eləcə dayanmışdım. Heç kim mənə yaxınlaşıb bir söz demirdi. Barın piştaxtasına yaxınlaşıb özüm üçün ikiqat araq-7 sifariş etdim. Və elə həmin an kiminsə məni səslədiyini eşitdim:

– Henri?

– Dönüb ərafıma baxdım, kabinələrin birində sarışın bir qadın yalnız oturmuşdu. İçkimi də götürüb ona tərəf getdim və içəri girərək oturdum. Onun təxminən 38 yaşı olardı. Qədd-qamətli görünmürdü. Saçlarına artıq dən düşməyə başlamışdı və bir qədər də artıq çəkisi vardı. Döşləri çox iri olsa da, yıpranaraq sallanmışdılar. Sarışın saçları qısa

kəsilmişdi. Üz-gözünə qalın ənlik qatı yaxmışdı. Çox yorğun görünürdü. Onun əynində şalvar, kofta və çəkmələr vardı. Solğun mavi gözlər. Hər qoluna çoxlu sayda bilərzik taxmışdı. Bəlkə də nə vaxtsa çox gözəl olmuşdu. Amma üzünə baxanda onun nə vaxtsa gözəl olduğunu aydınlaşdırmaq çətin görünürdü. Bu, həqiqətən də lənətlənmiş, acınacaqlı bir gün idi, – o dedi. – Götüm çıxana qədər makinada yazı yazmışam.

– Onda bəlkə bu görüşü özünüzü yaxşı hiss edəcəyiniz başqa bir axşama saxlayaq, – mən dedim.

– Ah, zibilə qalsın, yox, hər şey qaydasındadır. Bir qədəh də içəndən sonra turp kimi olacam.

Valensiya əli ilə ofisianta işarə etdi.

– Bir qədəh də şərab gətirin.

O, ağ şərab içirdi.

– Hə, yazılarınız necə gedir? – deyə məndən soruşdu. – Yeni kitablarınız çıxıbmı?

– Yox, amma bir roman üzərində işləyirəm.

– Romanın adı nədir?

– Hələ adını düşünməmişəm.

– Maraqlı roman olacaq?

– Bilmirəm.

Bir müddət heç birimiz danışmadıq. Mən öz arağımı bitirib yenisini sifariş etdim. Valensiya sözün hər mənasında, sadəcə, mənim tipim deyildi. Ondan xoşum gəlməmişdi. Belə insanlar olur – elə ilk görüşdəcə onlara nifrət etməyə başlayırsan.

– Mənim işlədiyim yerdə bir yapon qız var. Məni işdən qovdura bilmək üçün min oyundan çıxır. Rəisimlə aram çox yaxşıdır. Amma bu yapon qancığı günümü qara eləməyə çalışır. Belə getsə, bir gün doğrudan da ayağımı onun götünə soxmalı olacam.

– Bəs siz özünüz haralısınız?

– Çikaqodanam.

– Çokaqodan heç xoşum gəlmir, – mən dedim.

– Amma mənim çox xoşuma gəlir.

Mən öz içkimi bitirdim, o da öz içkisini. Valensiya öz hesab çekini masanın üstü ilə mənə tərəf sürüşdürdü.

– Bu hesabı ödəməyə etiraz etməzsiniz ki? Krevet salatı da yemişəm.

Maşının qapısını açmaq üçün cibimdən açarları çıxardım.

– Bu sizin maşınınızdır?

– Bəli.

– Siz mənim belə sınıq-salxaq maşında yol gedəcəyimi zənn edirsiniz?

– Bura baxın, əgər bu maşına minmək istəmirsinizsə, onda minməyin.

Valensiya maşına oturdu. Biz yerimizdən təzəcə tərpənmişdik ki, o, çantasından öz güzgüsünü çıxarıb üz-gözünün makiyajını təzələməyə başladı. Həmin bar mənin evimdən elə də uzaq deyildi. Maşını saxladım.

Evə girən kimi o dedi:

Bura lap zibillikdir ki. Gərək buranı qaydasına salmaq üçün bir adam çağırasınız.

Mən bir araq və 7-UP şüşəsi çıxardım və iki qədəh içki süzdüm. Valensiya çəkmələrini soyundu.

– Bəs yazı makinanız hardadır?

– Mətbəxdəki masanın üstündə.

– Sizin yazı masanız yoxdur? Mən düşünürdüm ki, bütün yazıçıların yazı masaları olur.

– Bəzi yazarların heç mətbəx masaları da olmur.

– Siz evli olmusunuzmu?

– Bir dəfə.

– Bəs nə baş verdi?

– Biz bir-birimizə nifrət eləməyə başlamışdıq.

– Mən dörd dəfə ərdə olmuşam. Hələ də öz keçmiş ərlərim ilə görüşürəm. Biz dostluğumuzu davam etdiririk.

– Hə, içkinizi için.

– Bir az əsəbi görünürsünüz, – Valensiya dedi.

– Mən qaydasındayam.

Valensiya öz içkisini bitirdi, sonra isə divana uzandı və başını düzlərimin üstünə qoydu. Mən onun saçlarını sığallamağa başladım. Ona bir qədəh də içki süzəndən sonra yenə onun saçlarını sığallamağa davam etdim. Mən onun koftasının yaxalığından döşlərini görə bilirdim. Onun üzərinə əyildim və dodaqlarımı ağzına dayayaraq ona çox uzun bir öpüş bəxş etdim. Onun dili oynamağa başladı, gah ağzıma girir, gah da çıxırdı. Ondan zəhləm gedirdi. Sikim

yavaş-yavaş qalxmağa başladı. Biz yenə öpüşdük və mən öz əlimi onun koftasının yaxasına uzatdım.

– Sizinlə nə vaxtsa görüşəcəyimizi bilirdim, – o dedi.

Onu bir də öpdüm, amma bu dəfə vəhşi kimi. Valensiya mənim bərkimiş şeyimin başına dirəndiyini hiss etdi.

– Ey! –dedi.

– Boş şeydi, fikir vermə, – mən söylədim.

– Yaman da boş şeydi, – o dedi. – Sən neyləmək fikrindəsən?

– Bilmirəm...

– Mən isə bilirəm.

Valensiya divandan duraraq vanna otağına getdi. Vanna otağından geri qayıdanda, artıq onun əynində paltarları yox idi. Odeyalın altına girdi. Mən bir qədəh də içib əynimi soyundum və çarpayıya girdim. Onun üstündən odeyalı aşağı çəkdim. Necə də nəhəng döşlər idi. Elə bil onun bədəninin yarısı ancaq döşlərdən ibarət idi. Mən əlimlə bu döşlərdən birisini tutaraq var gücümlə sıxdım və onun məməsini əmməyə başladım. Məmə bərkimirdi. Sonra o

birisinə keçdim və onun məməsini əmdim. Yenə heç bir reaksiya görmədim. Onun döşlərini şappıldadaraq oynatdım. Şeyimi onların arasına qoydum. Məmələr elə əvvəlki kimi boş qalaraq bərkimirdilər. Sikimi onun ağzına soxmaq istəyəndə, başını yana çevirdi. Birdən ağlıma gəldi ki, bəlkə siqaretlə onun götünü yandırım. Lap elə bil ət yığını idi. Yıpranmış, ayaqlar altında tapdalanmış küçə fahişəsi. Qəhbələr adətən mənim şəhvət hissimi oyada bilirdilər. Şeyim bərkimiş olsa da, ruhum onun içində deyildi.

– Sən yəhudisənmi? – mən ondan soruşdum.

– Yox.

– Sən yəhudiyə bənzəyirsən.

– Yəhudi deyiləm.

– Sən Feərfaks rayonunda yaşıyırsan, elə deyilmi?

– Hə.

– Sənin valideynlərin yəhudi deyillərmi?

– Bura bax, nə yəhudu, yəhudi deyib başımı xarab eləyirsən.

– Səni təhqir eləmək istəmirdim. Mənim ən yaxın dostlarımdan bəziləri yəhudilərdir.

Yenə onun döşlərini ora-bura yırğaladım.

– Deyəsən, qorxursan, Valensiya dedi. – Gözümə bir az gərgin görünürsən.

Onun üzünün qarşısında şeyimi ora-bura yellədim.

– Heç qorxmuş adama oxşayıram?

– Qorxunc görünür. O qalın venaları səndə hardandı elə?

– Mənim isə xoşuma gəlir.

Onun saçlarından tutub başını divara sıxdım və gözlərinin içinə baxa-baxa zəli kimi dodaqlarına yapışdım. Sonra onun amcığı ilə oynamağa başladım. Onun özünə gəlməsi üçün uzun müddət lazım oldu. Sonra o yavaş-yavaş açılışmağa başladı və mən barmağımı onun amına saldım. Klitorunu tapdım və onu ovuşdurdum. Sonra isə onun üstünə dırmaşdım. Sikim artıq onun içindəydi. Biz əməlli-başlı sikişməyə başlamışdıq. Onu məmnun etmək üçün alışıb yanmırdım. Valensiyanın amının tutma qabiliyyəti heç də pis deyildi. Şeyimi onun içinə kifayət qədər dərinə itələməyimə baxmayaraq, ondan heç bir cavab reaksiyası gəlmirdi. Bu mənim heç vecimə də deyildi. Mən nasos kimi

vurmağımdaydım. Daha bir sikişmə. Daha bir tədqiqat işi. Burada heç bir zorakılıqdan söhbət belə gedə bilməzdi. Yoxsulluq və cəhalət öz həqiqətini yaradırdı. Valensiya mənə məxsusdu. Elə bil meşədəki iki heyvan idik və mən onu öldürürdüm. O, yavaş-yavaş özünə gəlirdi, oyanmağa başlayırdı. Onu öpdüm və nəhayət onun dodaqları açıldı. Şeyim bir az da dərinə işlədi. Mavi divarlar bizə tamaşa edirdilər. Valensiya artıq yüngülcə inildəməyə başlamışdı. Bu səslər məni bir az da cuşa gətirdi.

Valensiya vanna otağından çıxanda, mən artıq əynimi geyinmişdim. Masanın üstündə iki qədəh içki vardı. Biz öz içkilərimizdən balaca udumlar alırdıq.

– Bəs sən niyə Feərfaks rayonunda yaşayırsan? – ondan soruşdum.

– Orada hər şey xoşuma gəlir.

– Səni evinə aparımmı?

– Əgər sənə əziyyət olmazsa.

Valensiyanın evi Feərfaksin şərqində, oradan iki məhəllə aralıda yerləşirdi.

– Bax mənim evim budur, – o dedi, – setkalı qapısı olan.

– Qəşəng yerdir.

– Hə, elədir.

– Bir neçə dəqiqəlik içəri gəlmək istəyirsənmi?

– İçməyə bir şeyin varmı?

– Şerri içə bilərsənmi?

– Əlbəttə...

Biz evə daxil olduq. Döşəməyə dəsmallar atılmışdı. Onların yanından keçəndə, Valensiya ayağı ilə vuraraq onları divanın altına tolazladı. Sonra əlində bir şüşə şerri ilə yanıma gəldi. Ucuz zibil idi.

– Vanna otağında hansı tərəfdədir? – deyə ondan soruşdum.

Səsim eşidilməsin deyə unitazın suyunu buraxdım və qusaraq şerrini geri qaytardım. Suyu bir də buraxandan sonra vanna otağından çıxdım.

– Bir qədəh də istəyirsənmi? – o soruşdu.

– Əlbəttə.

– Uşaqlar gəlmişdilər, – o dedi, ona görə buralar belə günə düşüb.

– Sənin uşaqların da var?

– Hə, amma onların qayğısına Sem qalır.

Mən öz qədəhimi boşaltdım.

– Hə, yaxşı, içkiyə görə də çox sağ ol. Artıq getməliyəm.

– Yaxşı, telefon nömrəm səndə var.

– Hə, düzdü.

Valensiya məni setka qapıya qədər ötürdü. Biz qapıda öpüşdük. Sonra folksvagenimə yaxınlaşdım, mindim və mühərriki işə salaraq oradan uzaqlaşdım. Döngədən buruldum, düz yolun ortasında maşını saxlayıb qapısını açdım və ikinci qədəhi də qusaraq bədənimdən çıxardım.

98

Hər üç-dörd gündə bir dəfə Sara ilə gah mənim, gah da onun evində görüşürdük. Eyni çarpayıda birgə yatsaq da, aramızda seks olmurdu. Əslində bu prosesə çox

yaxınlaşmışdıq. Amma bu işə lazım olduğu kimi girişmirdik. Drayer Babanın göztərişlərinə ciddi şəkildə əməl olunurdu.

Çilad və Yeni İl bayramlarını mənim evimdə birlikdə keçirməyə qərar vermişdik.

Sara öz furqon folksvageni ilə ayın 24-də təxminən günorta vaxtı gəlib çıxdı. Onun öz maşınını saxlamasına tamaşa etdim. Evdən bayıra çıxıb onu qarşıladım. Furqonun damına taxtalar bağlanmışdı. Bu yəqin ki, onun mənə edəcəyi milad hədiyyəsiydi: o mənim üçün çarpayı düzəltməyə hazırlaşırdı. Çünki indiki çarpayım gülünc bir şey idi: sadəcə yayları olan yeşik. Döşəyin içalatı isə bayıra çıxırdı. Bundan əlavə, Sara özü ilə bir orqanik hind toyuğu və onun bişirilməsinə lazım olacaq qarnir də gətirmişdi. Bu şeylərin və bir də ağ şərabın pulunu mən ödəməliydim. Bir-birimiz üçün balaca hədiyyələr də almışdıq.

Taxtaları, hind toyuğunu və başqa xırda-xuruş şeyləri evə daşıdıq. Çarpayının çərçivəsini, başlığını və döşəyi evdən çıxarıb bayıra qoydum və onların üstünə bir elan asdım: “Pulsuz”. Öncə çarpayının baş hissəsini apardılar,

sonra çarpayının çərçivəsi getdi və nəhayət, kim isə döşəyi də apardı. Mənim yaşadığım rayonda insanlar çox kasıb dolanırdılar.

Mən Saranın çarpayısını görmüşdüm. Üstündə uzanıb yatmışdım və o çox xoşuma gəlmişdi. Ortabab döşəklərdən hər zaman zəhləm gedib, ən azından, mənim almaq iqtidarında olduqlarımdan. Həyatımın, demək olar ki, yarısını yalnız qarmağa taxılmış qurdlar üçün rahat olan çarpayılarda keçirmişdim.

Sara öz çarpayısını özü düzəltmişdi, indi isə birini də mənim üçün düzəltməli idi. Dördün dördə olan yeddi ayaqlı (yeddinci ayaq çarpayının düz ortasında) bərk ağacdan hazırlanmış platforma, üstündə isə 10 sm qalınlığında sərt köpük kütləsi. Saranın bəzi gözəl fikirləri vardı. Mən taxtaları tuturdum o isə mismarları vururdu. Çəkiclə çox məharətlə davranırdı. Onun çəkisi cəmisi 105 funt olsa da, mismarları vura bilirdi. Deyəsən, əla çarpayı alınacaqdı.

Bu iş Saranın çox vaxtını almadı. Sonra biz onu sınaqdan çıxardıq – sekslə yox – Drayer Baba da səmadan bizə gülümsəyirdi.

Biz maşınla ətrafı gəzib milad bayramı üçün yolka ağacı axtardıq. Bu ağacı tapmaq üçün elə də əldən-ayaqdan getmirdim (uşaqlıq çağlarımda milad bayramı mənim üçün həmişə kədərli bayram olmuşdu) və bu ağacların satıldığı bütün meydançaların boş olduğunu görəndə, qanım heç də qaralmadı. Biz geri qayıdanda, Saranın çox qəmgin olduğunu hiss etdim. Amma biz evə qayıdıb bir neçə qədəh ağ şərab içəndən sonra, onun ovqatı düzəldi və otağın hər yerinə milad bəzəklərini, işıqlar, parıldayan zəncirlər asmağa başladı – mənim saçlarıma da bər-bəzək vurdu.

Mən oxumuşdum ki, insanlar, başqa günlərlə müqayisədə, ən çox Milad Bayramı ərəfəsində və Milad Günündə intihar edirmişlər. Əslində, gün kimi aydındır ki, bu bayramın Məsihin doğumu ilə ya az əlaqəsi var, ya da heç yoxdur.

Radioda oxuyan musiqi ürəkbulandırıcı, televizordakı proqramlar isə bərbad olduğundan, onları söndürdük. Sara Men ştatında yaşayan anasına zəng vurdu. Onun anası ilə mən də danışdım və bu qadının heç də bəd insan olmadığını anladım.

– Əvvəlcə, – Sara dedi, – sənin anamı tanış eləmək fikrindəydim. Amma o səndən yaşca böyükdür.

– Bunu yaddan çıxara bilərsən.

– Onun çox qəşəng qıçları var.

– Yaddan çıxar.

– Sənin yaşlı insanlara qarşı önyarğılarınmı var?

– Bəli, məndən başqa hamı yaşlıdır.

– Sən özünü kino ulduzu kimi aparırsan. Nədi, sənin qadınların həmişə səndən 20-30 yaş cavan olublar?

– Mən iyirmi yaşlarında olanda bu belə olmayıb.

– Onda de görüm, sənin heç yaşca səndən böyük bir qadının olubmu? Demək istəyirəm ki, belə bir qadınla yaşamısanmı?

– Hə, iyirmi beş yaşım olanda, 35 beş yaşlı bir qadınla yaşayırdım.

– Hə, necəydi?

– Qorxunc idi. Mən ona aşiq olmuşdum.

– Qorxunc olan nəydi?

– O məni kollecə getməyə məcbur edirdi.

– Bunda qorxmalı nə var ki?

– Bu sənin düşündüyün kolleclərdən deyildi. O, fakultəydi, mən isə tələbə.

– Bəs ona nə oldu?

– Onu basdırdım.

– Hörmət və ehtiramla? Onu öldürdünmü?

– Onu spirtli içki öldürdü.

– Milad bayramın mübarək!

– Sənin də. Mənə özününkülərdən danış

– Mən pas.

– Nədi, həddən çoxdu?

– Həm çoxdu, həm də az.

Təxminən otuz, ya da qırx dəqiqə keçəndən sonra, qapı döyüldü. Sara yerindən qalxdı və qapını açdı. İçəriyə bir seks simvolu daxil oldu. Özü də Milad ərəfəsində. Onun kim olduğu haqqında heç təsəvvürüm belə yox idi. Əynində damdar bir paltar vardı. İri döşləri isə elə bil indicə paltarın yaxalığından pırtlayaraq bayıra çıxacaqdılar. İnanılmaz bir mənzərəydi. Kinofilmləri nəzərə almasaq, həyatımda heç vaxt bu tərzdə sərgiyə qoyulmuş döşlər görməmişdim.

– Salam, Henk!

Deməli, o məni tanıyırmış.

– Mən Ediyəm. Bir gecə sənlə Bobbinin evində görüşmüşdük.

– Hə?

– Nədi, çox içmişdin, məni xatırlamırsan?

– Salam Edi. Bu Saradır.

– Bobbini axtarırdım. Birdən ağlıma gəldi ki, bəlkə sənin yanındadır.

– Keç otur, bizimlə iç.

Edi mənim sağ tərəfimdəki kresloya oturdu, özü də çox yaxınıma. Onun iyirmi beş yaşı olardı. Bir siqaret yandırdı və öz qədəhindən balaca bir udum aldı. O hər dəfə qəhvə masasının üzərinə əyiləndə, mən əmin idim ki, nəsə baş verəcək, əmin idim ki, onun döşləri yay kimi gərilərək paltarının yaxasından çölə çıxacaq. Və əgər bu baş verərsə, mən özümün nə edəcəyimdən qorxurdum. Mən, sadəcə, bunu bilmirdim. Heç vaxt döşlərə pərəstiş edən birisi olmamışam, həmişə qıçlardan cuşa gəlmişəm. Amma Edi onlarla necə davranacağını, həqiqətən, yaxşı bilirdi. Mən isə qorxu içində onun döşlərinə altdan-altdan ac pişik kimi

baxır, nə istədiyimi heç özüm də bilmirdim – bu döşlər paltarın yaxalığında bayıra çıxsın, ya çıxmasın.

– Menni ilə tanışsanmı, – o mənə dedi, – yəni Bobbinin evində onu görmüsənmi?

– Hə.

– Onun dalına yaxşı bir təpik vurmalı oldum. Köpək oğlu çox qısqanc idi. Hətta məni izləmək üçün bir dümbələk də tutmuşdu. Yox bir özün təsəvvür elə! Beləsinə nə deyəsən – pox torbası, – vəssalam.

– Hə.

– Səfil kişilərdən lap zəhləm gedir! Götə girən yaltaqlara da nifrət eliyirəm!

– İndiki zamanda yaxşı insan tapmaq çox çətindir, – mən dedim. Belə bir mahnı da var. İkinci Dünya Müharibəsi vaxtı yazılıb. Bir mahnı da vardı: "Məndən başqa heç kim ilə alma ağacının altına sıçma".

– Henk, sən ağzına gələni danışırsan... – Sara dilləndi.

– Bir qədəh də iç, Edi, – mən dedim və onun qədəhinə içki süzdüm.

– Kişilər elə alçaqdılar ki! – o söhbətinə davam edirdi. – Bu yaxınlarda bir bara girdim. Yanımda dörd oğlan vardı, hamısı da yaxın dostlarımdı. Oturub qrafinlərdə pivədən gillədirik, sadəcə, vaxtımızı şən keçirməyə çalışırıq, özü də heç kimə dəyib-dolaşmırıq. Sonra birdən ağlıma gəldi ki, bir az bilyardda pul oynamaq pis olmazdı. Pul oyunundan çox xoşum gəlir. Məncə bir qadın pul oynayırsa, bu onun tərzinin nə olduğunu göstərir.

– Mən də pul oynamağı bacarmıram, – mən dedim. – Mən bu oyunu oynayanda, hər dəfə bilyard masasının parçasını cırıram. Mən heç qadın da deyiləm.

– Hə, mən bilyard masasına yaxınlaşdım, orada isə bir oğlan təkbaşına pul oynayırdu. Ona yaxınlaşıb dedim: “Qulaq asın, siz bu masada uzun müddətdir ki, öz-özünüzlə oynayırsınız. Mən və dostlarım bu masada bir az pul oynamaq istəyirik. Bizim bu masada bir müddət pul oynamağımıza etiraz etməzsiniz ki?” – O dönüb mənə baxdı. Bir müddət susub gözlədi. Sonra isə rişxəndlə gülərək dedi: – “Buyurun”.

Edi həyəcanlanmışdı və öz söhbətinə davam edərkən ətrafda atılıb düşürdü, mən isə oğrun-oğrun onun döşlərinə baxırdım.

– Öz masamıza qayıtdım və dostlarıma dedim: “Masa bizimdir”. Nəhayət ki, həmin oğlan sonuncu şara çatanda, onun bir tanışı yaxınlaşıb ona deyir: “Ey, Erni, eşitdim ki, sən bu masanı kiməsə güzəştə gedirsən”. Təsəvvür edirsinizmi bu oğlan öz dostuna nə cavab verir? O deyir: “Hə, elədi. Masanı bax o qancığa verirəm!” Mən onun dediyi bu sözləri eşitdim və hər tərəfi QIRMIZI görməyə başladım! Həmin oğlan sonuncu şarı luzaya salmaq üçün masanın üstünə əyilmişdi. Əlimə bir kiy götürdüm və o masanın üstünə əyilmiş vəziyyətdə ikən, kiyi var gücümlə onun başına çırpdım. Oğlan meyit kimi masanın üstünə düşdü. Onu həmin barda çoxları tanıdığından, bir neçə nəfər cəld yerindən qalxıb bizə yaxınlaşdı, amma çox keçmədən mənim dörd dostum da tələsik yanımıza gəldilər. İlahi, bir görəydiniz necə səs-küylü dalaşma idi! Sınmış butulkalar, çilik-çilik olmuş güzgülər... Ordan necə çıxdığımızı dəqiq

xatırlamıram. Amma necəsə çıxa bilmişdik. Çəkmək üçün bir zibilin varmı?

– Var, amma mən yaxşı eşə bilmirəm.

– Onu mən özüm eşərəm.

Edi, əsil peşəkar kimi, sıx və nazik bir şey eşdi. Ondan bir udum alıb tüstünü fışıltı ilə havaya buraxandan sonra, mənə ötürdü.

– Hə, növbəti axşam oraya təkbaşıma getdim. Barın sahibi, həm də barmen işləyir, məni tanıdı. Onun adı Kloddur. "Klod, – ona dedim, – dünənkinə görə məni bağışla, amma masanın yanındakı o oğlan əsl heyvərəydi. O məni söydü, mənə qancıq dedi".

Mən hamının qədəhlərindəki içkiləri təzələdim. Bir dəqiqə də keçsə, onun döşləri bayırda qalacaqdı.

– Barın sahibi mənə dedi: "Hər şey qaydasındadır, unut getsin". Yaxşı oğlana oxşayırdı. "Nə içmək istəyirsən?" – deyə məndən soruşdu. Bir az barda veylləndim, bir-iki qədəh müftə içki içdim və həmin an o mənə dedi: "Bilirsənmi, mənim əlavə bir nəfər ofisianta ehtiyacım var".

Edi eşmədən bir qullab da aldı və söhbətinə davam etdi:

– O mənə o biri ofisiant haqqında danışdı: “O, kişiləri bara cəlb eləyə bilirdi, amma mənim üçün çoxlu problemlər də yaradırdı. O, müştərilərin arasını vurur, bir-biri ilə dalaşdırırdı. Həmişə bütün hadisələrin mərkəzində olurdu. Sonra öyrəndim ki, kənarda da pul qazanır. Mənim barımdan istifadə edərək öz amcığına müştərilər tapır!”

– Ciddi deyirsən? – Sara ondan soruşdu.

– Hə, bunu o özü mənə dedi. Hər nəcə olsa da, o mənə barda ofisiant işləməyi təklif elədi. Və dedi: “Bax ha, işdə fırıldaqçılıqla məşğul olmaq yoxdur!” Ona boş sözlər danışmamağı məsləhət gördüm, mən o qızlardan deyildim. Həmin an düşündüm ki, bəlkə bu işdə bir az pul toplayaram, kimyaçı olmaq və fransız dilini öyrənmək üçün Los-Ancelesin Kaliforniya Universitetinə gedə bilərəm – bütün həyatım boyu bunu arzulamışam. Sonra o mənə dedi: “Bura gəl artıq malları harada saxladığımızı sənə göstərmək istəyirəm, hə bir də bizim uniformamız var, onu əyninə geyinib baxmanı istəyirəm. Bu formanı indiyə qədər heç

kim geyinməyib və məncə, lap sənin əyninə olacaq”. Ona görə də, onunla birlikdə qaranlıq və balaca bir otağa girdim. O isə məni orada əlləşdirməyə çalışdı. Onu özümdən kənara itələdim. Elə bu vaxt mənə dedi: “Bircə öpüş istəyirəm”. Mən isə – “Get sikdir başımdan!” – dedim. Onun başı daz, özü isə tosqun, balacaboy idi, ağzında protez dişlər, yanaqlarında isə içində tüklər çıxan qara ziyillər vardı. Qəfildən üstümə şığıdı, bir əli ilə götümdən, o biri əli ilə bir döşümdən yapışıb məni öpməyə çalışdı. Onu yenə özümdən kənara itələdim. “Mənim arvadım var, – mənə deyir, – narahat olma, mən onu sevirəm”. Yenə gözlənilmədən üstümə şığıdı və bu dəfə dizimlə ona yaxşı bir zərbə endirdim, yəqin harasına vurduğumu deməyə ehtiyac yoxdur. Deyəsən, onun orasında heç nə yox idi, çünki zərbəni heç vecinə də almadı. “Sənə pul da verərəm, – mənə deyir, – sənin lə xoş rəftar edərəm”. Mən isə ona dedim ki, poxunu ye və öl.

– Çox qəmgin hekayədir, – mən dedim.

– Bura baxın, – Edi dedi, – mən daha getməliyəm. Milad bayramınız mübarək. İçkilərə görə də çox sağ olun.

Yerindən qalxdı. Onu qapıya qədər ötürdüm və qapını açdım. O məhəllədən keçərək uzaqlaşdı. Mən isə geri qayıdaraq öz yerimə oturdum.

– Ay səni qancıq balası, – Sara mənə dedi.

– Nə olub?

– Əgər mən burda olmasaydım, sən onu çoxdan sikib buraxmışdın.

– Bu xanımı, demək olar ki, tanımıram.

– O nəhəng məmələr! Sən əməlli-başlı qorxuya düşmüşdün! Sən, hətta ona baxmağa belə qorxurdun!

– Bu Milad bayramı ərəfəsində nə qapı-qapı düşüb veyllənir, başqa içi-gücü yoxdu bəyəm?

– Bəs niyə onun özündən soruşmadın?

– O dedi ki, Bobbini axtarır.

– Əgər burda olmasaydım, yəqin bilirəm ki, onu sikərdin.

– Bax bunu bilmirəm. Bunu öyrənməyin yolunu da bilmirəm...

Sonra Sara birdən ayağa qalxıb anqırmağa başladı. Hıçqıra-hıçqıra ağladı və o biri otağa qaçdı. Mən öz

qədəhimə içki süzdüm. Divarlardan asılmış rəngbərəng işıqlar gah yanır, gah da sönürdü.

99

Sara hind toyuğu üçün qarnir hazırlamaqla məşğul idi. Mən isə mətbəxdə oturub onunla söhbət edirdim. İkimiz də ağ şərabdan bala-bala gillədirdik.

Telefon zəng çaldı. Mən yerimdən qalxıb zəngə cavab verdim. Zəng edən Debra idi.

– Sadəcə, sənin Milad bayramını təbrik eləmək istəyirdim, səni islaq əriştə.

– Sağ ol, Debra. Sənin də bayramın mübarək.

Onunla bir müddət söhbət edəndən sonra, mətbəxə qayıdıb öz yerimə oturdum.

– Zəng vuran kimiydi?

– Debra.

– Özünü necə hiss edir?

– Məncə, yaxşı.

– Bəs nə istəyirdi?

– Mənim Milad bayramımı təbrik elədi.

– Bu orqanik hind toyuğu sənin xoşuna gələcək. İçinə doldurduğum şeylər də əladır. İnsanlar zəhər yeyirlər, əsl zəhər. Amerika yoğun bağırsaq xərçənginin geniş yayıldığı bir neçə ölkədən birisidir.

– Hə, mənim də götüm tez-tez gicişir. Amma bunun səbəbi babasildir. Bir dəfə əməliyyata girərək onu kəsdirmişdim. Əməliyyatdan əvvəl həkimlər xərçəng olub-olmadığına əmin olmaq üçün adamın bağırsağına ucunda işıq olan ilanabənzər bir şey soxurlar. Bu ilan əməlli-başlı uzundur. Onu elə hey içinə dürtürlər!

Yenə telefon zəng çaldı. Mən gedib cavab verdim. Kessi idi.

– Necəsən?

– Sara ilə birlikdə hind toyuğu hazırlayırıq.

– Sənin üçün yaman darıxmışam.

– Sənin də Milad bayramın qutlu olsun. İşlərin necə gedir?

– Qaydasındadır. Yanvarın 2-nə qədər istirahətdəyəm.

– Yeni ilin mübarək, Kessi!

– Sənə nə olub axı, lənət şeytana?

– Bir az havalıyam. Günün günorta çağı ağ şərab içməyə vərdiş eləməmişəm.

– Vaxtın olanda, mənə zəng vur.

– Əlbəttə.

Yenidən mətbəxə qayıtdım.

– Kessiydi. Milad bayramında hamı bir-birinə zəng vurub bayramlaşır. Bəlkə Drayer Baba da bizə zəng vurdu.

– O zəng vurmaz.

– Niyə axı?

– O heç vaxt uca səslə danışmır. Heç vaxt danışmayıb və heç vaxt da pula toxunmayıb.

– Bax bu heç də pis görünmür. O bişməmiş qarnirdən bir az ver dadına baxım.

– Yaxşı.

– Bura bax, lap əladır ki!

Yenə telefon zəng çaldı. Həmişə belə olurdu. Bir dəfə zəng çalanda daha dayanmaq bilmirdi. Yataq otağına gedib zəngə cavab verdim.

– Allo, –dəstəyə dedim. – Siz kimisiniz?

– Səni yaramaz köpək. Kim olduğunu bilmirsən?

– Yox, heç tanıya bilmədim, – xəttin o biri başındakı sərxoş bir qadın idi.

– Tap görüm.

– Bir dəqiqə gözləyin. Hə, tapdım! Sən Ayrissən!

– Hə, mənəm. Və mən hamiləyəm!

– Bəs uşağın atasının kim olduğunu bilirsənmi?

– Bunun nə fərqi var ki?

– Məncə, sən haqlısan. Vankuverdə vəziyyət necədir?

– Hər şey qaydasındadır. Sağ ol.

– Salamat qal.

Yenə mətbəxə qayıtdım.

– Kanadalı rəqqasə idi, – Saraya dedim.

– Bəs onun işləri necə gedir?

– Milad bayramı sevinci ilə coşub daşır.

Sara hind toyuğunu sobanın içinə qoydu və biz ön otağa keçdik. Bir müddət ordan-burdan söhbət elədik. Sonra isə telefon cingildədi.

– Allo, –dedim.

– Danışan Henri Çinaskidir? – xəttin o biri ucunda cavan bir kişi səsi eşidildi.

– Bəli.

– Siz yazıçı Henri Çinaskisiniz?

– Bəli.

– Ciddi deyirsiniz?

– Bəli.

– Hmm, biz Bel Erdən olan bir dəstə oğlanlarıq və sizin yazdıqlarınızı dərindən başa düşə-düşə oxuyuruq! Biz hər şeyi elə gözəl anlayırıq ki, sizi mükafatlandırmaq istəyirik, dostum!

– Nə danışırsınız?

– Hə, biz indi özümüzlə bir neçə dənə 6-lıq pivə paketi də götürüb sizin yanınıza gəlirik.

– Al o pivəni öz götünə sox.

– Nə?

– Dedim ki, al o pivə şüşəsini sox götünə!

Dəstəyi asdılar.

– Zəng vuran kim idi? – Sara soruşdu.

– Elə indicə Bel Erdə bir neçə oxucumu itirdim. Amma bunu etməyinə dəyərdi.

Hind toyuğu hazır idi. Onu sobadan çıxardım, iri bir dövrənin içinə qoydum, mətbəx masasının üstündəki yazı makinamı və bütün kağız-kuğuzumu yığışdırıb hind toyuğunu masanın üstünə yerləşdirdim. Sara əlində göy-göyərti ilə mətbəxə girəndə, quşu doğramağa başladım. Biz masanın arxasına oturduq. Mən öz boşqabıma, Sara isə öz boşqabına yemək çəkdi. Çox gözəl və dadlı görünürdü.

– Ümid edirəm ki, o yekə məmə bir də gəlməz, – Sara dedi.

Onun haqqında düşünmək, deyəsən, Saraya acı verirdi.

– Əgər yenə gəlsə, ona da bir tikə verəcəyəm.

– Nə?

Mən əlimlə hind toyuğuna işarə elədim.

– Deyirəm ki, ona da bir tikə verəcəyəm. Baxarsan.

Sara bərkdən qışqırdı. Sıçrayaraq yerindən qalxdı. Onun bütün bədəni tir-tir əsirdi. Sonra isə yataq otağına qaçdı. Mən isə dinməzcə öz hind toyuğuma baxırdım. Onu yeməyə iştahım qalmamışdı. Deyəsən, yanlış düyməyə basmışdım. Öz qədəhimi də əlimə alıb ön otağa keçdim və

əyləşdim. Təxminən 15 dəqiqə gözlədim, sonra isə hind toyuğu ilə göyərtiləri soyuducuya qoydum.

Ertəsi gün Sara öz evinə getdi, mən isə günorta təxminən saat 3-də soyuq hind toyuğundan hazırlanmış bir buterbrod yedim. Saat təxminən 5 radələrində kimsə az qala qapımı sındıracaqdı. Qapını açdım. Gələnlər Temmi ilə Arlinaydı. Onlar atdıqları spid həblərindən uçurdular. İçəri girdilər və otaqda at kimi ora-bura çaparaq ikisi də birlikdə danışmağa başladılar.

– İçməyə bir şeyin varmı?

– Zibil, Henk içməyə bir şeyin varmı?

– Sənin sikilmiş Milad bayramın necə keçdi?

– Hə, düz deyir, sənin sikilmiş Milad bayramın necə keçdi, hə, dostum?

– Buzqabında bir neçə pivə şərab şüşəsi qalıb, – onlara dedim.

(Əski dəbli insanları o dəqiqə tanımaq olur: onlar soyuducuya buz qutusu deyirlər).

Onlar ləngər vura-vura mətbəxə keçdilər və buz qutusunu açdılar.

– Ey, burda hind toyuğu da var!

– Biz ac olmuşuq, Henk! Sənin bu hind toyuğundan bir az yemək olarmı?

– Əlbəttə.

Temmi əlində bud ilə mətbəxdən çıxdı və dişləri ilə onu gəmirməyə başladı.

– Ey, bu hind toyuğu lap elə bil zəhrimardır! Ona bir az ədviyyat vurmaq lazımdır!

Arlina əlində ət tikələri ilə yanımıza gəldi.

– Hə, buna bir az ədviyyat vurulsa, pis olmazdı. Çox duzsuzdur! Sənin evində bir az ədviyat tapılar?

– Bufetdə olmalıdır, – deyə cavab verdim.

Onlar itələşə-itələşə yenidən mətbəxə qayıtdılar və hind toyuğunun üstünə ədviyyat səpməyə başladılar.

– Bax indi oldu! İndi dadı daha yaxşıdır!

– Hə, indi dadı bir şeyə bənzədi!

– Orqanik hind toyuğu, poxdur!

– Hə, özüdür ki var!

– Mən bir az da istəyirəm!

– Mən də. Amma ədviyyat da lazım olacaq.

Temmi mətbəxdən çıxdı və gəlib oturdu. Hind toyuğunun budunu, demək olar ki, gəmirib bitirmişdi. Sonra sümüyü dişləyərək onun ikiyə böldü və sümüyün içini əmməyə başladı. Heyrətimdən nitqim tutulmuşdu. Temmi budun sümüyünü gəmirir, sümüyün qırıntılarını isə xalının üstünə tüpürürdü.

– Ey, sən sümüyü də yeyirsən!

– Hə, çox dadlıdır!

Bir az da quş əti götürmək üçün Temmi yenə mətbəxə qaçdı.

Tezliklə, onlar hər ikisi də əllərində bir şüşə pivə ilə mətbəxdən çıxdılar.

– Sağ ol, Henk.

– Hə, çox sağ ol, dostum.

Oturub pivə şüşələrini əmməyə başladılar.

– Hə, – Temmi dedi, – indi isə getmək vaxtıdır.

– Hə vaxtdır, indi biz gedib bir neçə məktəbli oğlan zorlamalıyıq!

– Hə!

Hər ikisi sıçrayaraq ayağa qalxdı və qapıdan çıxaraq gözdən itdilər. Mən mətbəxə keçib soyuducuya baxdım. Hind toyuğuna elə bil pələng hücum eləmişdi – onun gövdəsi düz iki hissəyə bölünmüşdü. Çox ədəbsiz mənzərəydi. Ertəsi gün axşam Sara mənim yanıma gəldi.

– Hə, hind toyuğu necədir? – o məndən soruşdu.

– Pis deyil.

O içəri daxil oldu və soyuducunun qapısını açdı. Ucadan bağırdı. Sonra qaçaraq mətbəxdən çıxdı.

– Aman Allahım, burda nə baş verib?

– Temmi ilə Arlina gəlmişdilər. Elə yeyirdilər, elə bil bir həftə dillərinə yemək dəyməmişdi.

– Ohh, bu ürəkbulandırıcıdır. Ürəyim qan ağlayır!

– Məni bağışla. Onları dayandırmalıydım. Amma onlar narkotik həblər qəbul eləmişdilər.

– Yaxşı, burda mənim edə biləcəyim bir şey qalır.

– O nədi elə?

– Hind toyuğunun qalıqlarından sənə yaxşı bir sup bişirə bilərəm. Gedim bir az göy-göyərti alım.

– Yaxşı, – ona bir iyirmilik verdim.

Həmin axşam Sara söz verdiyi kimi supu bişirdi. Çox dadlı alınmışdı. Ertəsi gün səhər çıxıb gedəndə, Sara supu necə qızdıracağıma dair mənə göstərişlər də verdi.

Həmin gün axşam, saat təxminən 4 radələrində Temmi qapımı döydü. Qapını açıb onu içəri buraxdım, o isə birbaşa mətbəxə yollandı. Soyuducunun qapısı açıldı.

– Ey, indi də sup hə?

– Hə.

– Dadı yaxşıdır?

– Pis deyil.

– Bir az dadına baxsam etiraz etməzsən ki?

– Nə istəyirsən, elə.

Əvvəlcə yeməyi sobaya qoyduğunu, sonra isə yeməyin içinə qaşıq saldığını eşitdim.

– İlahi! Bu yemək necə də duzsuzdur! Buna ədviyyat tökmək lazımdır!

Yeməyə qaşıqla ədviyyat tökdü. Sonra dadına baxdı.

– Hə indi yaxşıdır! Amma bir az da tökmək lazımdır! Bilirsənmi, mən italiyalıyam axı. İndi... bax belə... hə indi

daha yaxşı oldu! İndi isə qoyaq bir az qızsın. Pivə də içə bilərəmmi?

– Hə.

Temmi əlində bir şüşə ilə yanıma gəlib oturdu.

– Mənim üçün heç darıxırsanmı? – o soruşdu.

– Sən bunu heç vaxt bilməyəcəksən.

– Deyəsən, "Oyun Maneji"ndəki işimə geri qayıdacam.

– Lap yaxşı.

– Orada yaxşı çaypulu verirlər. Bir oğlan hər axşam mənə 5 dollar çaypulu verərdi. O mənə aşiq olmuşdu. Amma bir dəfə belə olsun məni görüşə dəvət eləmədi. Sadəcə, gözlərini mənə zilləməklə kifayətlənirdi. Qəribə oğlan idi. Düz bağırsaq cərrahı idi və bəzən mən ətrafda gəzərkən mənə baxıb masanın altında kəfləmə vururdu. Bilirsənmi, bunu onun üstündən gələn qoxudan başa düşürdüm.

– Hə, deməli, sən onun hislərini oyadırmışsan...

– Məncə sup artıq qızmış olar. Sən də yeyirsən?

– Yox, sağ ol.

Temmi mətbəxə getdi. Onun qazanın içindən qaşıqla yemək çəkdiyini eşitdim. O uzun müddət mətbəxdən çıxmadı. Sonra isə yanıma gəldi.

– Gələn cümə gününə qədər mənə beş dollar borc verə bilərsən?

– Yox.

– Onda heç olmasa, bir-iki dollar ver.

– Yox.

– Onda bir dollar ver.

Cibimdəki bütün xırda pulları çıxarıb Temmiyə verdim. Məbləğ bir dollar otuz yeddi sent oldu.

– Sağ ol, – o dedi.

– Problem deyil.

Sonra isə qapının arxasında gözdən itdi.

Ertəsi gün axşam Sara gəldi. O çox nadir hallarda belə tez-tez mənə baş çəkərdi. Məsələ yəqin bayramlardaydı: hamı çaşqın, yarı-dəli və qorxmuş idi. Evimdə ağ şərabım hazır idi və mən hər ikimizə bir qədəh şərab süzdüm.

– Meyxanada işlər necə gedir? – ondan soruşdum.

– Poxlu biznesdir. Qazancım meyxananı saxlamağa güclə yetir.

– Bəs müştərilərin hara yox olublar?

– Hamısı şəhəri tərk edib; hamı harasa gedib.

– Bizim bütün planlarımızda dəliklər olur.

– Hamısında yox. Bəzi insanların naxışı tutur, hər istədikləri alınır.

– Hə, düzdür.

– Sup necəydi?

– Demək olar ki, qurtarıb.

– Xoşuna gəldimi?

– Mənə elə də çox pay düşmədi.

Sara mətbəxə getdi və soyuducunun qapısını açdı.

– Bu supa nə olub belə? Qəribə görünür.

Onun supun dadına baxdığını eşitdim. Sonra o, çanağa tərəf qaçaraq ağzındakını tüpürdü.

– Aman Tanrım, buna elə bil zəhər qatılıb! Burda nə olub? Temmi ilə Arlina yenə gəlib bu supdan da yeyiblər?

– Temmi tək gəlmişdi.

Bu dəfə Sara haray salmadı. O, sadəcə, supun qalığını çanağın içinə boşaltdı və zibil doğrayan qurğunu iş saldı. Onun səsini boğmağa çalışaraq necə hıçqırdığını eşidə bilirdim. Zavallı orqanik hind toyuğu çox çətin bir Milad bayramı keçirmişdi.

100

Yeni il gecəsi yaşamalı olduğum daha bir axmaq gecə oldu. Yadımdadır, valideynlərim həmişə bu gecəni böyük sevinclə qarşılayardılar: radioya qulaq asaraq yeni ilin şəhərbəşəhər bizə yaxınlaşmasını, ta Los-Ancelesə çatanadək izləyərdilər. Havaya fişənglər atılardı, fit və şeypurlar çalınardı. Həvəskar əyyaşlar içdiklərini qaytarar, ərlər başqa kişilərin arvadları ilə oynaşar, arvadlar isə önlərinə gələn hər kəs ilə mazaqlaşardılar. Tualetlərdə, ya da hamamxanalarda hamı bir-biri ilə öpüşər və bir-birinin götünü çimdikləyərdi, bəzən isə bütün bunları açıq-aşkar hamının gözü qarşısında edərdilər, xüsusilə də gecə yarısı yetişəndə. Ertəsi gün isə dəhşətli ailə münaqişələri

başlayardı. Mən hələ Qızıl Gül Paradını və Qızıl Gül Kasası oyununu demirəm.

Yeni il axşamı Sara çox erkən gəldi. Sehrli Dağ, açıq kosmik fəza, "Ulduz Yolu" kimi filmlər, həmçinin müəyyən rok qruplar, xamalı ispanaq və təmiz qida kimi şeylər onu çox həyəcanlandırırdı. Amma bununla belə, həyatımda qarşılaşdığım bütün qadınlar ilə müqayisədə Sara daha güclü idi. Əsasən də sağlam düşüncəyə sahib idi. Bəlkə də Saranın sağlam düşüncəsi və rəhmdilliyi ilə yalnız Coanna Dover müqayisə edilə bilərdi. Mənimlə hal-hazırda münasibətdə olan bütün qadınların arasında Sara ən gözəli və ən sədaqətlisiydi, deməli, bu yeni il elə də bərbad olmayacaqdı.

Elə indicə yerli televiziyanın xəbərlər proqramının əbləh aparıcısı mənim "Yeni İl" bayramımı təbrik etdi. Tanımadığım insanların mənim yeni ilimi təbrik eləmələrindən heç xoşlanmıram. O mənim kim olduğumu hardan bilir? Bəlkə də mən öz beş yaşlı qızının ağzına tıxac basaraq onu topuqlarından bağlayaraq tavandan asan

adamam və yavaş-yavaş uşağı tikə-tikə doğramaqla məşğulam.

Sara ilə oturub bayramı qeyd etməyə və bala-bala vurmağa başlamışdıq. Lakin dünyanın yarısının sənlə birlikdə sərxoş olmaq üçün səy göstərdiyi bir vaxtda dəmləşmək o qədər də asan məsələ deyildi.

– Hə, – Sara dedi, – bu ili elə də pis keçirmədik. Heç kim məni öldürmədi.

– Və sən hələ də hər axşam içə və hər gün günortaya qədər yatağında xumarlana bilirsən.

– Kaş bir il də dözə biləydim.

– Bu, sadəcə, sənin köhnə əyyaş duyğularındır.

Elə bu dəmdə qapı döyüldü. Gözlərimə inana bilmirdim. Gələnlər folk-rokçu Dinki Sammers və onun rəfiqəsi Cenis idi.

– Dinki! – deyə bağırdım. Ey, lənət şeytana, dostum, nə baş verir.

– Heç özüm də bilmirəm, Henk. Sadəcə, düşündüm ki, gəlib sənlə görüşməliyəm.

– Cenis, bu Saradır. Sara... Cenis.

Sara otaqdan çıxdı və əlavə iki qədəhlə geri döndü. Mən qədəhlərə içki süzdüm. Danışası elə də çox şey yox idi.

– Təxminən on yeni əsər yazmışam. Məncə, getdikcə, daha yaxşı yazmağa başlayıram.

– Mən də elə düşünürəm, – Cenis dedi, – həqiqətən.

– Bura bax, dostum, yadındadırmı, sənin çıxışından əvvəl gecəni açmışdım... Bir mənə de görün, Henk, mən yəni elə pis çıxış elədim?

– Qulaq as, Dinki, sənin hisslərini incitmək istəməzdim, amma həmin axşam mən qulaq asmaqdan daha çox içirdim. Səhnəyə çıxacağıma görə, özüm haqqında düşünürdüm, mən bu çıxışa hazırlaşırdım, özümü toplayırdım, hətta ürəyim bulanırdı.

– Mən isə tamaşaçı kütləsinin qarşısına çıxmağı çox xoşlayıram. Səhnəyə çıxanda, kütlənin də mənim mahnılarımı sevdiyini görüb göyün yeddinci qatına qalxıram.

– Yazmaq bir qədər fərqlidir. Hər şeyi təkbaşına edirsən. Canlı tamaşaçı kütləsi ilə təmasda olmursan.

– Bəlkə də sən doğru deyirsən.

– Mən də orada idim, – Sara dedi. Səhnəyə çıxmaq üçün iki nəfər Henkə yardım elədi. Çünki o tamamilə sərxoş idi və özünü çox pis hiss edirdi.

– Bura bax, Sara, – Dinki dedi, – mənim çıxışım yəni belə pisiydi?

– Yox, heç də pis deyildi. Sadəcə, tamaşaçılar Henki səhnədə görmək üçün səbrsizlənirdilər. Ona görə də hər şey onları qıcıqlandırırdı.

– Sağ ol, Sara.

– Bilmirəm, yəqin mənim folk-rokdan başım çıxmır, – dedim.

– Bəs nə sənin xoşuna gəlir?

– Demək olar ki, bütün alman klassik musiqi bəstəkarları. Hə, bir də bəzi rus bəstəkarlar.

– Təxminən on dənə yeni mahnı yazmışam.

– Bəlkə onlardan bir neçəsinə qulaq asaq? – deyə Sara ondan soruşdu.

– Amma deyəsən, özünlə gitaranı gətirməmisən, düz demirəmmi? – mən soruşdum.

– Ah, gətirib, gitarasını gətirib, – Cenis dilləndi, – gitaranı hər zaman özü ilə daşıyır!

Dinki ayağa qalxdı, evdən çıxdı və öz alətini maşından götürdü. Bardaş quraraq xalçanın üstündə oturdu və gitaranı kökləməyə başladı. Elə indicə canlı ifaya qulaq asaraq əylənəcəkdik. Çox keçmədən Dinki öz ifasına başladı. Onun qalın və güclü səsi vardı və divarlarda əks-səda verirdi. Mahnı bir qadın haqqındaydı. Dinki ilə hansısa qadın arasında baş vermiş ayrılıq haqqında. Əslində, mahnı elə də pis deyildi. Bəlkə də tamaşaçıların bilet aldığı bir gecə səhnədə elə də pis səslənməzdi. Amma tamaşaçılar xalçanın üstündə düz sənin qənşərində oturduğu zaman bunu söyləmək çox çətin idi. Mövzu çox özəl və utancvericiydi. Bununla belə, onun elə də pis olmadığı qənaətinə gəldim. Amma onun başqa bir problemi vardı. O qocalmağa başlamışdı. Onun qızılı saçları, əvvəlki tək qızılı deyildi. İri və məsum gözlərinin altında tuluqlar əmələ gəlmişdi. Çox qısa bir müddətdən sonra onun problemləri əmələ gələcəkdi.

Biz hamımız ona əl çaldıq.

– Çox əla idi, dostum, – mən dedim.

– Həqiqətən, xoşuna gəldi, Henk?

Mən əlimi havada yellədim.

– Bilirsənmi, sənin mahnıların həmişə içimə nüfuz edir, – mən dedim.

– Çox sağ ol, dostum.

O dərhal ikinci mahnıya keçdi. Bu mahnı da hansısa bir qadına həsr edilmişdi. Onun qadını, keçmiş qadınına: bu qadın bütün gecəni haralardasa veyllənirmiş. Mahnıda yumor çalarları da hiss olunurdu, amma bunu bilərəkdən etdiyinə əmin deyildim. Hər halda, Dinki öz mahnısını bitirdi və biz onu alqışladıq. Sonra başqa mahnıya keçdi.

Dinki lap həvəsə gəlmişdi. Çox ucadan oxuyurdu. Onun ayaqları tennis ayaqqabılarının içində qıvrılır və burulurdu. O bunu bizdən gizlətməyə çalışmırdı. Faktiki olaraq, bizim qarşımızda rola girmirdi, olduğu kimi oturmuşdu. O heç də düzgün görünmür və düzgün səslənmirdi, amma mahnı başqa vaxtlar eşitməyə adət etdiklərimizdən daha yaxşı idi. Vicdanımı əymədən onu tərifləyə bilmədiyimə görə özümü çox pis hiss edirdim. Amma bir adam sənin qarşında oturub deyə onun istedadı

haqqında yalan danışsan, bu bütün yalanlar içərisində ən bağışlanmazı olar. Çünki bu ona belə davam eləməsini deməyə bərabər bir şeydir. Bu da nəhayətində, həqiqi istedadı olmayan bir insanın öz həyatını boşuna sərf etməsinin ən pis üsuludur. Lakin əksər insanlar məhz belə edirlər. Əsasən də dostlar və qohumlar. Dinki növbəti mahnıya keçdi. Deyəsən, o mahnıların onunu da bizə oxumaq fikrindəydi. Biz ona qulaq asır və mahnı bitəndə onu alqışlayırdıq. Lakin əl çalanların arasında mənim alqışlarım heç olmasa ən təmkinli olanı idi.

– O üçüncü misra mənim heç xoşuma gəlmədi, Dinki, – mən dedim.

– Amma o misraya ehtiyac var, başa düşürsənmi, çünki...

– Bilirəm.

Dinki mahnılarının ifasına davam elədi. Bütün mahnıları bir-bir bizə oxudu. Bu mahnılar kifayət qədər uzun çəkdi. Mahnıların arasında bəzən istirahət fasilələri də olurdu. Nəhayət, yeni ilin vaxtı gəlib yetişəndə, Dinki,

Cenis, Sara və Henk hələ də birlikdəydilər. Amma şükürlər olsun ki, gitaranın futlyarı artıq bağlanmışdı.

Gecə təxminən saat 1 radələrində Dinki ilə Cenis bizi tərk etdilər və Sara ilə yatağımıza girdik. Mən onu qucaqlamağa və öpməyə başladım. Əvvəldə qeyd elədiyim kimi, mən öpüşdən cuşa gələn bir adamam. Bu istəyimin qarşısını, demək olar ki, heç vaxt ala bilməmişəm. Əla öpüşmələr çox az, nadir hallarda baş verirdi. Kinofilmlərdə və televiziyada heç vaxt lazım olduğu kimi öpüşmürlər. Sara ilə mən bədənlərimizi bir-birinə sürtərək və bir-birimizi ehtiraslı öpüşlərə qərq edərək yataqda uzanmışdıq. Bu gecə Sara öz hisslərinə tam sərbəstlik vermişdi. Əvvəllər isə hər şey eynilə təkrarlanırdı. Drayer Baba yuxarıdan bizə tamaşa edir – Sara isə mənim sikimdən yapışır, mən isə onun amcığı ilə oynayırdım. Sonra o mənim sikimi öz amcığına sürtməyə başlayır və hər şey eyni sonluqla nəticələnirdi – yəni ertəsi gün səhər sikimin dərisi sürtülməkdən qızarmış və yaralanmış olurdu.

Biz sürtüşmə prosesinə başladıq. Sonra Sara gözlənilmədən sikimdən tutub onu öz amcığına soxdu.

Mən heyrət içində çaşıb qalmışdım. Nə edəcəyimi bilmirdim.

Yuxarı və aşağı, düz demirəmmi? Ya da daha doğrusu, içəri və çölə. Bu velosiped sürməyə bənzəyir: heç vaxt yadırğamırsan. Sara, həqiqətən də çox gözəl qadın idi. Mən özümü çox saxlaya bilmədim. Onun qızılı saçlarından yapışdım və onları dartaraq Saranın ağzını öz ağzıma yaxınlaşdırdım və dərhal qurtardım.

Sara yataqdan qalxıb hamam otağına getdi, mən isə nəzərlərimi qaldırıb öz yataq otağımın mavi tavanına baxdım və dedim: “Drayer Baba keç onun günahından”.

Lakin o heç vaxt danışmadığından və əlini pula toxundurmadığından, nə ondan cavab verməsini gözləyə, nə də ona pul ödəyə bilərdim.

Sara hamam otağından qayıtdı. Onun nazik və incə qaməti vardı. O arıqdı və bir azca gündə qaralmışdı. Amma tamamilə heyranedici görünürdü. Sara yenidən yatağa girdi və biz öpüşdük. Bu, açıq ağızla edilən çox yüngül sevgi öpüşü idi.

– Yeni İlin mübarək olsun, – o mənə dedi.

Biz bir-birimizi qucaqlayaraq yuxuya getdik.

101

Mən Tanya ilə məktublaşmağıma davam edirdim. Yanvarın 5-də axşam vaxtı o mənə zəng vurdu. Onun səsi çox yüksək, həyəcanlı və seksual idi, lap bir vaxtlar Bett Bupun səsi kimi.

– Sabah axşam təyyarə ilə sənin yanına gəlirəm. Məni hava limanında qarşılaya bilərsənmi?

– Bəs səni necə tanıyacam?

– Mənim paltarımda ağ qızılgül olacaq.

– Əla.

– Bura bax, sən mənim gəlməyimi, həqiqətən də istəyirsənmi?

– Əlbəttə.

– Yaxşı, sabah orada olacam.

Dəstəyi asdım. Sara haqqında düşündüm. Amma Sara ilə mən evli deyildik. Kişinin haqqı var. Mən yazıçı idim. Mən pozğun bir qoca idim. İstənilən halda, insan münasibətləri onsuz da işləmir. Yalnız birinci iki həftə

ərzində həvəs və həyəcan olur, sonra isə münasibətin tərəfləri öz maraqlarını tamamilə itirirlər. Maskalar düşür və insanların əsl sifətləri ortalığa çıxmağa başlayır: qəribə insanlar, ağıldankəmlər, dəlilər, kin saxlayanlar, sadistlər və qatillər. Müasir cəmiyyət öz növlərini yaratmışdır. Onlar bir-birinin ətini yeyirlər. Bu, zibil quyusunda ölümlə nəticələnəcək bir duel idi. Mən belə qərara gəlmişdim ki, ən çox ümid edə biləcəyimiz şey iki insan arasında münasibətlərin ən çoxu iki il yarım davam etməsidir. Siam kralı Monqutun 9000 arvadı və cariyəsi; Tövratdan tanıdığımız kral Süleymanın 700 arvadı; Saksoniyalı Avqus Güclünün isə 365 arvadı vardı – ilin hər günü üçün bir arvad. Təhlükəsizlik saydadır.

Saranın telefon nömrəsini yığdım. O evdəydi.

– Salam, – dedim.

– Zəng vurduğuna çox sevindim, – o cavab verdi, – elə indicə sənin haqqında düşünürdüm.

– Sağlam qida verən köhnə meyxanada işlər necə gedir?

– Bu gün elə də pis olmadı.

– Sən gərək yeməklərin qiymətini bir balaca qaldırasan. Sən öz malını, demək olar ki, müftə paylayırsan.

– Əgər bu alverdən başa-baş çıxsam, onda vergi ödəməli olmayacam.

– Qulaq as, bu gün mənə bir nəfər zəng elədi.

– Kim?

– Tanya.

– Tanya?

– Hə, bir müddətdir ki, onunla məktublaşırıq. Mənim şeirlərimdən onun xoşu gəlir.

– Həmin məktubu görmüşdüm. Onun yazdığı məktubu deyirəm. Onu ortalıqda qoymuşdun. Sənə öz amcığının şəklini göndərən qadını deyirsən?

– Hə.

– Və sənlə görüşmək üçün yanına gəlir.

– Hə.

– Henk, mən daha bezmişəm, bezməkdən də betər olmuşam. Nə edim, bilmirəm.

– O gəlir. Mən ona dedim ki, onu hava limanında qarşlaya bilərəm.

– Sən neyləməyə çalışırsan? Bütün bu sözlərlə nə demək istəyirsən?

– Bəlkə də mən yaxşı adam deyiləm. İnsanların müxtəlif xasiyyətləri və dərəcələri olur, özün də yaxşı bilirsən.

– Bu mənim sualımın cavabı deyil. Bəs sən, ya da mən neyləyim? Bəs biz nə edək? Seriallardakı kimi danışmaqdan lap zəhləm gedir. Amma öz hisslərimə sərbəstlik verdim...

– O isə sabah gəlir. Deməli, bizim aramızda hər şey bitdi, eləmi?

– Henk, mən bilmirəm. Bəlkə də hə. Mən belə bacarmaram.

– Sən mənə qarşı həmişə mərhəmətli olmusan. Hər zaman nə etdiyimi bildiyimə əmin deyiləm.

– O sənin evində nə qədər qalacaq?

– Zənn edirəm ki, iki, ya da 3 gün.

– Nədi, mənim nə hisslər keçirdiyimi anlamırsan?

– Məncə, anlayıram...

– Yaxşı, o gedəndən sonra mənə zəng vurarsan, onda baxarıq.

– Yaxşı.

Hamam otağına keçib güzgüdə öz üzümə baxdım. Qorxunc görünürdüm. Saqqalımdakı və qulağımın ətrafındakı bəzi ağ tükləri dartıb çıxardım. Salam olsun sənə, ey ölüm. Amma mən, demək olar ki, artıq altmış il yaşamışam. Sənin atəş açmağın üçün o qədər aşkar hədəf olduğum hallar olub ki... artıq çoxdan sənin şikarın olmalıydım. Cıdırın yanında basdırılmağımı istərdim... çünki oradan sonuncu yarışın səsini eşitmək olur.

Ertəsi gün axşam hava limanında dayanıb gözləyirdim. Vaxtından əvvəl gəlmişdim, ona görə də bara getdim. Özüm üçün içki sifariş etdim və birdən kiminsə hıçqırtılarını eşitdim. Dönüb ətrafıma baxdım. Zalın dərinliyindəki masanın arxasında oturmuş bir qadın ağlayırdı. Gənc bir qaradərili xanım idi – dərisinin rəngi çox açıq çalarlıydı – əynində mavi rəngli dar bir don vardı, özü də kefli haldaydı. O ayaqlarını yuxarı qaldıraraq önündəki stulun üstünə qoyduğundan donunun ətəkləri dala sürüşmüş və bu uzun, məxmər kimi yumşaq dərili yeməli budlar açıqda qalmışdı. Bardakı bütün kişilərin hər birinin şeyi yəqin ki, dəmir kimi

bərkimişdi. Mən gözümü ondan çəkə bilmirdim. Qadın qızmar dəmir kimi qaynar idi. Mən onu artıq öz divanımda, öz qıçlarının tamamını mənə göstərərkən təsəvvür edirdim. Mən bir qədəh də içki alıb ona yaxınlaşdım. Onun yanına çatanda elə dayandım ki, ereksiyam gözə çarpmasın.

– Siz yaxşısınızmı, – ondan soruşdum, – sizin üçün nəsə edə bilərəmmi?

– Mənə bir qədəh "neştər" al.

Əlimdə bir qədəh "neştər" ilə geri qayıtdım və onun masasına oturdum. O öz ayaqlarını stuldan götürmüşdü. Kabinəyə girib düz onun yanında oturdum. O bir siqaret yandırdı və budunu mənim qıçıma sıxdı. Mən də bir siqaret yandırdım.

– Mənim adım Henkdir, – özümü təqdim etdim.

– Mən Elsiyəm, – deyə o cavab verdi. Mən öz qıçımı onun buduna sıxdım və ayağımı yavaş-yavaş aşağı-yuxarı hərəkət etdirdim.

– Mən santexnika avadanlığının təchizatı ilə məşğul oluram, –dedim. Elsi cavab verməyərək susdu.

– O qancıq balası məni tərk elədi, – nəhayət, Elsi dilləndi, – aman Allahım, ona necə də nifrət edirəm. Ona necə nifrət etdiyimi heç təsəvvür edə bilməzsiniz!

– Bu hamının başına gəlir. Heç olmasa altı, ya da səkkiz dəfə.

– Bəlkə də haqlısınız. Amma bu mənim dərdimi yüngülləşdirmir. Onu, sadəcə, öldürmək istəyirəm.

– Belə olmaz, özünüzü bir az ələ alın.

Mən əlimi masanın altına uzadıb onun dizini sıxdım. Şeyim elə durmuşdu ki, ağrı hiss etməyə başlamışdım. Qurtarmağa çox yaxın idim.

– Əlli dollar, Elsi dedi.

– Nəyə görə?

– Ürəyin istəyən hər şeyə görə.

– Nədi, sən hava limanında işləyirsən?

– Hə, "Görl Skaut" peçenyeləri satıram.

– Məni bağışlayın. Elə bildim ki, sizin probleminiz var. Beş dəqiqə sonra anamı qarşılamalıyam.

Masanın arxasından qalxıb oradan uzaqlaşdım. Səni fahişə! Çevrilib geri baxdım. Elsi öz ayaqlarını yenidən

stulun üstünə qoymuşdu, bu dəfə budlarını əvvəlkindən daha çox açmışdı. Az qala geri qayıdacaqdım. Allah sənin canını almasın, Tanya.

Tanyanın təyyarəsi hava limanına yaxınlaşdı və qəzavü-qədərsiz yerə endi. Gələnləri qarşılamaq üçün basabas salan kütlədən bir az aralı dayanıb gözləyirdim. Görəsən, o necə görünür? Özümün nəyə oxşamağım haqqında heç düşünmək istəmirdim. Sərnişinlərin ilk dəstəsi çıxışda göründü. Mən isə gözləyirdim.

Ah, bir ona baxın! Kaş bu gələn Tanya olaydı!

Ya da bu. İlahi! Bir o buda baxın. Sarı paltar geyinib, özü də gülümsəyir. Ya da bax o... mənim mətbəximdə qab-qacağı yuyur.

Ya da bax o... mənim üstümə qışqırır, bir döşü də yaxalığından bayıra çıxıb.

Deməli, təyyarədə, həqiqətən, bir neçə əsl qadın var imiş.

Kiminsə kürəyimi şappıldatdığını hiss etdim. Geri çevrildim və qarşımda balaca bir qızcığaz dayanmışdı. Ona 18 yaşdan artıq vermək olmazdı. İncə uzun boynu, bir

balaca yumru çiyinləri və uzun burnu vardı, amma döşləri, hə, elə qıçları ilə dalı da pis deyldi.

– Bu da mən, – o dedi.

Onun yanağından öpdüm.

– Baqajdan-zaddan bir şeyin varmı?

– Hə.

– Gəl onda bara gedək. Boş dayanıb baqaj gözləməkdən zəhləm gedir.

– Yaxşı.

– Gör sən necə də balacasanmış...

– Doxsan funt.

– Aman Tanrım... – Onu ikiyə ayıra bilərdim. Bu, yetkinlik yaşına çatmamış birisini zorlamağa bənzəyəcəkdi.

Biz bara daxil olub bir kabinə seçdik. Ofisiant qadın Tanyanın şəxsiyyət vəsiqəsinə baxmaq istədi. Tanya vəsiqəsini hazır tutubmuş.

– Sizə 18 yaşdan çox verməzdim, – ofisiant dedi.

– Bilirəm, – deyə Tanya Betti Bupun səsinə bənzəyən yüksək səsi ilə cavab verdi. – Mən limonlu viski kokteyli içəcəm.

– Mənə konyak verin, – mən ofisianta dedim.

Bizdən iki kabinə aralı həmin zənci qadın hələ də donunun ətəklərini götünə qədər qaldırıb oturmuşdu. Onun trusiyi çəhrayı rəngdə idi. O, gözlərini çəkmədən mənə baxırdı. Ofisant qadın içkilərimizi gətirdi. Biz qədəhlərimizdən yavaş-yavaş udumlamağa başladıq. Zənci qadının ayağa qalxdığını gördüm. Ləngər vura-vura bizim kabinəmizə tərəf gəldi. Hər iki əlini də masamızın üstünə qoyub irəli əyildi. Onun nəfəsindən içki qoxusu gəlirdi. Zənci qadın mənə baxdı:

– Hə, deməli sənin anan budur hə, sənin ananı?

– Anam gələ bilmədi.

Elsi başını çevirib Tanyaya baxdı.

– Körpəm, sən nə qədər alırsan?

– Sikdir burdan, – Tanya dedi.

– Yaxşı çalırsan?

– Hə, belə də davam elə. Sənə elə bir dərs verəcəm ki, sarıdan qara və maviyə çevriləcəksən.

– Bunu necə etməyi düşünürsən? Bir torba lobyayla?

Sonra Elsi götünü də bizə yelləyə-yelləyə uzaqlaşdı. Öz kabinəsinə çatar-çatmaz, Elsi yenə öz canalan qıçlarını stulun üstünə uzatdı. Niyə axı bunların ikisi də mənim olmamalıdır? Kral Monqutun 9000 arvadı vardı. Bir düşünün: ilin 365 gününü 9000-nə bölsək. Nə bir mübahisə, ya da narazılıq, nə menstruasiya dövrü, nə də psixi gərginlik olar. Sadəcə, keyf məclisi, keyf məclisi və yenə də keyf məclisi. Yəqin ki, kral Monqut üçün ölmək elə də asan olmamışdır, ya da çox asan olmuşdur. Bu məsələdə orta vəziyyət ola bilməz.

– O kim idi? – deyə Tanya soruşdu.

– O Elsi idi.

– Onu tanıyırsan?

– Məni ovlamaq istəyirdi. Ağzına alması üçün məndən 50 dollar istədi.

– Məni lap hövsələdən çıxardı... Mən çox qroid tanımışam, amma...

– Qroid nədir?

– Qroid zənci deməkdir.

– Aaaa.

– Bu sözü heç vaxt eşitməmisən?

– Yox, heç vaxt.

– Hə, mən isə çox qroid tanımışam.

– Yaxşı.

– Amma onun qıçları heç də pis deyil ha. Az qala məni də həvəsə gətirəcəkdi.

– Tanya, ayaqlar, sadəcə, onun bir hissəsidir.

– Hansı hissəsi?

– Böyük hissəsi.

– Gəl gedib sənin baqajını alaq...

Biz bardan çıxanda, Elsi arxamızca bağırdı:

– Salamat qal, anacan!

Bu sözü hansımıza söylədiyini elə də anlaya bilmədim.

Mənim evimə çatandan sonra, biz divanda oturub içirdik.

– Mənim gəlişimə görə, qanın qaralıb? –Tanya soruşdu.

– Sənin yanında qanım qaralmaz...

– Sənin rəfiqən olduğunu bilirəm. Mənə onun haqqında məktubda yazmışdın. Siz hələ də birlikdəsiz?

– Bunu heç özüm də bilmirəm.

– Mənim çıxıb getməyimi istəyirsən?

– Yox, elə düşünmürəm.

– Qulaq as, mənim fikrimcə sən əla yazıçısan. Mənim oxuya bildiyim azsaylı yazıçılardan birisisən.

– Hə? Bəs qalan bicbalalar kimlərdi?

– İndi onlardan heç birisinin adını xatırlaya bilmirəm.

Mən irəli əyilərək onu öpdüm. Onun dodaqları aralı və nəmli idi. O çox asanlıqla təslim oldu. Əcəb şey idi. Doxsan funt. Biz fil ilə kilsə siçovulunu xatırladırdıq. Tanya əlində qədəhlə divandan qalxdı və yubkasının ətəklərini yuxarı qaldıraraq, at belində otururmuş kimi, dizlərimin üstündə mənimlə üzbəüz oturdu. Əynində tuman yox idi. Öz amcığını mənim durmuş şeyimə sürtməyə başladı. Biz onunla qucaqlaşaraq öpüşürdük. O isə paralel olaraq, sürtüşməyinə davam edirdi. Çox effektli alınırdı. Hə, qıvrıl, səni ilan balası!

Sonra Tanya əlini uzadıb şalvarımın qabağını açdı. Əli ilə şeyimdən yapışıb onu öz amına itələdi. Tanya işləməyə başladı, elə bil at çapırdı. Bu iş onun əlindən gəlirdi, bütün 90 funtu ilə birlikdə. Mən, demək olar ki, düşünmək

iqtidarında deyildim. Onun hərəkətlərinə ara-sıra cavab verərək asta və ürəksiz hərəkətlər edirdim. Bəzən də öpüşürdük. Özümü iyrənc hiss edirdim, elə bil balaca uşaq məni zorlayırdı. Tanya yorulmaq bilmədən atılıb düşürdü. O məni küncə qısmışdı, tələyə salmışdı. Bu dəlilik idi. Sevgi yox idi, sadəcə, şəhvət. Biz havanı saf seksin qoxusu ilə doldurmaqdaydıq. Mənim balam, mənim balam. Sənin bu cılız bədənin bütün buları necə edə bilirdi? Qadını kim icad eləmişdi? Bunun icadından məqsəd nə idi? Bu dəyənəyi öz içinə qəbul elə! Və biz bir-birini tanımayan əla yad insanlar idik! Elə bil öz poxunu sikirdin.

O, boynuna xalta vurulmuş meymun kimi cəld işləyirdi. Tanya mənim kitablarımın sadiq oxucusuydu. O ara vermədən öz hücumlarını davam etdirirdi. Bu körpə nə etdiyini yaxşı bilirdi. O mənim çəkdiyim əzabları hiss edə bilirdi. Başını arxaya ataraq, bir barmağı ilə öz klitorunu ovuşdura-ovuşdura var qüvvəsi ilə işləyirdi. Biz ikimiz də ən qədim və ən ehtiraslı bir oyunun cənginə keçmişdik. İkimiz də eyni vaxtda qurtardıq və orqazm elə uzun çəkdi ki, elə bildim ürəyim bu dəqiqə yerindən çıxacaq. O halsız bir

şəkildə mənim üstümə yıxıldı, balaca və zərif gövdəsi ilə. Saçlarına toxundum. Tərdən tamam islanmışdı. Sonra mənim qucağımdan düşdü və vanna otağına getdi.

Uşağın zorlanması aktı başa çatmışdı. İndiki dövrdə uşaqları yaxşı öyrədirdilər. Zorlayanın özü zorlanmışdı. Bu, ədalətin son həddiydi. O, "azad edilmiş" bir qadın idimi? Yox, sadəcə, ehtirasdan qızmış birisiydi.

Tanya vanna otağından geri qayıtdı. Biz yenə içdik. Lənət şeytana! O, gülməyə və söhbət eləməyə başladı, elə bil heç nə baş verməmişdi. Hə, əsas məsələ də elə bundaydı. Bu, onun üçün, sadəcə, idman hərəkəti kimi bir şey idi, qaçmaq kimi, hovuzda üzmək kimi.

Tanya dedi:

– Deyəsən, mən yaşadığım evdən köçməli olacam. Reks məni cana doydurub.

– Oh.

– Demək istəyirəm ki, biz sekslə məşğul olmuruq, heç vaxt da məşğul olmamışıq, amma yenə də qısqanclıq edir. Mənim zəng vurduğun axşam yadındadırmı?

– Yox.

– Hmm, mən dəstəyi asandan sonra, o, telefonun şnurunu dartıb divardan qopardı.

– Nə bilirsən, bəlkə də o səni sevir. Yaxşısı budur, onunla xoş davran.

– Bəs sən necə, səni sevənlərlə xoşmu rəftar edirsən?

– Yox, yaxşı rəftar eləmirəm.

– Bəs niyə?

– Mən uşaq kimiyəm; özümlə bacara bilmirəm.

Biz gecənin qalan hissəsini də içki içməklə keçirdik və dan yerinin sökülməsinə çox az vaxt qalmış yatağımıza girdik. Bu 90 funtluq bədəni ikiyə ayıra bilməmişdim. O mənim öhdəndən çox asanlıqla gəlmişdi və elə düşünürəm ki, məndən qat-qat artıqlarının da öhdəsindən asanlıqla gələ bilərdi.

102

Bir neçə saat sonra mən yuxudan ayılanda, Tanyanı yataqda görmədim. Saat hələ səhər 9 idi. Onu ön otaqda tapdım, divanda oturub viski içirdi.

– Aman Tanrım, sən içkiyə çox erkən başlayırsan.

– Mən həmişə səhər saat 6-da oyanıram və yatağımdan qalxıram.

– Mən isə günortaya qədər yatıram. Bu isə o deməkdir ki, bizim problemimiz olacaq.

Tanya dinməzcə öz viskisini içməyə davam etdi. Mən isə yenidən yatağıma döndüm. Səhər 6-da yuxudan durmaq dəlilik idi. Onun əsəbləri tarıma çəkilmiş olmalıdır. İndi onun belə arıq olması mənə daha heç də təəccüblü gəlmirdi.

Tanya yataq otağına daxil oldu:

– Mən gəzməyə gedirəm.

– Yaxşı.

Mən yenə yuxuya getdim.

Mən bir də yuxudan ayılanda, Tanya məni minmişdi. Şeyim daş kimi bərkimişdi və dibinə kimi onun amcığına girmişdi. O yenə məni at kimi çapırdı. O, belini yay kimi əyərək başını arxaya atmışdı. Bütün işi özü görürdü. O, ara-sıra aldığı ləzzətdən inildəyirdi və bu iniltilər getdikcə daha tez-tez eşidilirdi. Mən də zarımağa başladım. Çıxardığımız səslər getdikcə ucalmağa başlayırdı. Artıq sona yaxınlaşdığımı hiss edirdim. Həmin an gəlib çatmışdı. Sonra

birdən bu baş verdi – çox əla, uzun və sərt bir orqazm. Tanya üstümdən düşdü. Şeyim hələ də boşalmamışdı. Tanya qasığıma tərəf əyildi və düz gözlərimin içinə baxa-baxa dili ilə şeyimin başındakı spermanı yalamağa başladı. Elə bil əsl qabyuyan idi.

O, ayağa qalxdı və vanna otağına getdi. Vannaya axan suyun səsini eşidə bilirdim. Saat hələ 10:15 idi. Yenə yuxuladım.

103

Tanyanı Santa Anitaya apardım. Mövsümün əsl sensasiyası olan 16 yaşlı jokey öz çəkisinin 5 funtluq üstünlüyü ilə atını çapırdı. O, hardansa, şərqdən gəlmişdi və Santa Anitada ilk dəfə yarış zolağına çıxmışdı. İppodrom xüsusi yarışın qalibini tapan adama 10 000 dollar mükafat təyin etmişdi. Lakin qalibi müəyyən eləmək üçün onun adı bütün başqa adların arasında seçilməli idi. Hər at üçün bir adam seçilmişdi və hər şey bu andan başladı.

Biz ippodroma çatanda, artıq dördüncü yarış başlamaq üzrəydi və bu südəmərlər artıq tribunaları ağzınacan

doldurmuşdular. Bütün yerlər tutulmuşdu. Hətta maşını saxlamaq üçün boş yer qalmamışdı. İppodromun işçiləri bizi yaxınlıqdakı ticarət mərkəzinə göndərdilər. Bizi cıdıra gətirmək üçün onların orada avtobusu varmış. Sonuncu yarışdan sonra isə ayaqla getməli olacaqdıq.

– Bu axmaqlıqdır. Mən geri qayıtmaq istəyirəm, – mən Tanyaya dedim.

O öz şüşəsindən iri bir udum aldı.

– Qozuma da deyil, – Tanya dedi, biz artıq burdayıq.

İçəri daxil olduq. Mən oturmaq üçün rahat və tənha bir yer bilirdim və onu həmin yerə apardım. Bir problem vardı – uşaqlar da həmin yeri tapmışdılar. Onlar toz-duman qaldırmaqla qışqır-bağır salaraq ətrafda qaçışırdılar. Amma ayaq üstə durmaqdansa, orada oturmaq daha yaxşı idi.

– Səkkizinci yarışdan sonra, biz getməliyik, – Tanyaya dedim. – Bu kütlənin sonuncusu gecə yarısına qədər burdan çıxa bilməyəcək.

– Mərc gələrəm ki, kişiləri yoldan çıxarmaq üçün bu at yarışları əla yerdir.

– Fahişələr klubun bunasında işləyirlər.

– Hansısa bir fahişə səni burda ovlayıbmı?

– Bir dəfə, amma o sayılmır.

– Niyə sayılmır?

– Çünki onu artıq tanıyırdım.

– Xəstəliyə yoluxmaqdan heç qorxmursan?

– Əlbəttə, qorxuram. Elə buna görə də, kişilərin çoxu ancaq onların ağzına verirlər.

– Sənin çaldırmaqdan xoşun gəlir?

– Hə, əlbəttə.

– Biz nə vaxt pul qoyasıyıq?

– Elə indicə.

Tanya mənimlə birlikdə totalizatorun pəncərələrinə qədər gəldi. Mən 5 dollarlıq pəncərəyə yaxınlaşdım. O isə mənim yanımda dayanmışdı.

– Hansı ata pul qoyacağını hardan bilirsən?

– Bunu heç kim bilmir. Amma sistem özü-özlüyündə çox sadədir.

– Necə yəni?

– Hmm, ümumiyyətlə, ən yaxşı atlara verilən uduşlar aşağı olur. Amma atların keyfiyyəti pisləşdikcə, onlara

verilən uduşların da məbləği artır. Yadda saxlamaq lazımdır ki, ən yaxşı adlandırılan atlar birə nisbətindən də aşağı şansla cəmisi üç yarışdan birini qazanırlar.

– Yarışdakı bütün atlara birdən pul qoymaq olarmı?

– Hə, əgər çox tez dilənçi vəziyyətinə düşmək istiyirsənsə.

– Çoxmu adam udur?

– Mən deyərdim ki, təxminən hər 20-25 nəfərdən birisi.

– Bəs onlar bura niyə gəlirlər?

– Mən psixoloq deyiləm. Amma burdayam və məncə, tamaşaçıların arasında, istəsən, bir neçə psixoloq da tapmaq olar.

Mən 6 nömrəli atın qələbəsinə 5 dollar pul qoydum və yarışlara baxmaq üçün oradan bayıra çıxdıq. Mən hər zaman startda önə çıxan atları çox xoşlamışam, xüsusilə də, əgər onlar sonuncu yarışda yarışı tərk etmişlərsə. Oyunçular belə atları "tənbəllər" adlandırırdılar. Amma sən eyni qabiliyyətə görə yarışın sonunda sürətlə qaçaraq finişə öndə çatan atlar üçün aldığın məbləğdən daha çox pul alırsan. Mən öz "tənbəlim" üçün birə dörd nisbətində uduş qazandım; o

özünün ən yaxın rəqibini iki korpus yarım arxada qoymuşdu və ona qoyduğum hər 2 dollar üçün 10.20 dollar qazanmışdım. Cəmi uduşum 25.50 dollar idi.

– Gəl özümüz üçün içməyə nəsə alaq, – mən Tanyaya dedim. Bütün Cənubi Kaliforniyada ən yaxşı "Qanlı Meri" kokteylini buranın barmeni düzəldir.

Biz bara getdik. Barda Tanyadan şəxsiyyət vəsiqəsini tələb etdilər. İçkilərimizi aldıq.

– Növbəti yarışda qaçan atlardan hansı xoşuna gəlir?

– Zaq-Ziq.

– Səncə, o qalib gələcək?

– Sənin iki məmən var?

– Sən görmüsən?

– Hə.

– Qadınlar tualeti hansı tərəfdədi?

– Belə get, iki dəfə sağa dönərsən.

Tanya gedən kimi mən bir qədəh də QM sifariş etdim. Qara dərili bir kişi mənə yaxınlaşdı, onun təxminən 50 yaşı olardı.

– Henk, dostum, işlərin necə gedir?

– Birtəhər dayanıram.

– Dostum, biz poçt idarəsində sənin üçün, həqiqətən, çox darıxırıq. Sən bizim idarəmizdəki ən məzəli adamlardan biri idin. Demək istiyirəm ki, sənin yerin, doğrudan da görsənir.

– Uşaqlara məndən salam deyərsən.

– Bəs indi hansı işlə məşğulsan, Henk?

– Oh, yazı makinasının düymələrini şaqqıldadıram.

– Necə yəni?

– Yazı makinasının düymələrini şaqqıldadıram...

Mən hər iki əlimi də irəli uzadıb havada çap elədim.

– Demək istəyirsən ki, kargüzar-makinaçı işləyirsən?

– Yox, mən yazıram.

– Nə yazırsan?

– Şeirlər, qısa hekayələr, romanlar. Buna görə mənə pul ödəyirlər.

O bir müddət dinməzcə mənə baxdı, sonra isə dönərək çıxıb getdi.

Tanya qayıdıb gəldi.

– Qancıq balası, məni aparmaq istəyirdi!

– Hə? Məni bağışla. Gərək sənlə bilikdə mən də gedəydim.

– Sən bir buna bax, qaba köpək oğlu! Belə zibillərdən zəhləm gedir! Qır-saqqızdılar elə bil!

– Onların davranışlarında bir azca orijinallıq olsaydı, bəlkə də işə yarayardı. Bu zibillərin qətiyyən təxəyyülləri yoxdur. Bəlkə də buna görə yanlarında heç kimləri yoxdur.

– Mən Zaq-Ziqa pul qoymaq istəyirəm.

– Gedim sənə bilet alım...

Zaq-Ziq, sadəcə, lazım qədər qızışa bilmədi. Start qapısına sürünə-sürünə gəldi, jokey öz qamçısı ilə ağ dirəyi vurdu. Zaq-Ziq startda ümidverici heç nə göstərmədi və sonra isə atıla-atıla qaçmağa başladı. Yalnız bir atı qabaqlaya bilmişdi. Biz yenə bara getdik. Özümüz üçün yenə iki qədəh "Meri" sifariş etdik.

– Ağıza verməkdən xoşun gəlir? – Tanya məndən soruşdu.

– Baxır adamına. Bəziləri bunu peşəkarcasına edirlər, əksəriyyət isə elə belə.

– Sən burada öz dostlarınla görüşürsənmi?

– Elə indicə, yarış öncəsi bir dostumla görüşdüm.

– Qadınla?

– Yox bir oğlanla, poçt idarəsində işləyir. Əslində, mənim, demək olar ki, dostum yoxdur.

– Yox var, mən varam.

– Doxsan funtluq nərildəyən seks.

– Məndə görə bildiyin elə budur?

– Əlbəttə yox. Sənin çox gözəl iri, çox iri gözlərin var.

– Sən elə də lütfkar deyilsən.

– Gəl gedək, yoxsa növbəti yarışa çatmarıq.

Növbəti yarışa lap vaxtında çatdıq. O öz atına, mən isə öz atıma pul qoymuşduq. Hər ikimiz də uduzduq.

– Gəl burdan gedək, – mən dedim.

– Yaxşı, – Tanya razılaşdı.

Evə qayıdandan sonra, biz divanda oturub içməyə başladıq. Əslində, Tanya heç də pis qız deyildi. Onun üzündə nəsə qəribə bir qəmgin ifadə vardı. Donlar və dikdaban ayaqqabılar geyinir, topuqları da qəşəngdir. Məndən nə gözlədiyi haqqında dəqiq bir fikrim yox idi. Onun qəlbini qırmağı heç istəmirdim. Onu öpdüm. Tanyanın

uzun və nazik dili mənim ağzımda oynamağa başladı. Onun dili mənə gümüşü rəngli tarpon balığını xatırlatdı. Hər şeyin mayasında o qədər çox qəm-qüssə vardı ki, hətta hər şey alınanda belə.

Sonra Tanya şalvarımın qabağını açdı və sikimi ağzına aldı. Onu ağzından çıxardı və mənə baxdı. O mənim qıçlarımın arasında dizlərinin üstünə oturmuşdu. Düz gözlərimin içinə baxaraq dili ilə şeyimin başını yalayırdı. Onun arxasında isə günəşin son şüaları mənim çirkli pərdələrimin arasından otağa süzülürdü. Sonra isə o, işə daha ciddi-cəhdlə girişdi. Bu işin üslubundan qətiyyən başı çıxmırdı; nə etmək lazım olduğundan da, demək olar ki, xəbəri yox idi. Onun etdiyi şey, sadəcə, yüngülcə dişləmək və sormaqdan ibarət idi. Düz qrotesk kimi bu əla idi, amma düz qrotesk ilə qurtarmaq çox çətin idi. Mən buna qədər çox içmişdim və onun hisslərini incitmək istəmirdim. Ona görə də xəyallar aləminə baş vurdum: biz çimərlikdə uzanmışdıq. Ətrafımızda qadın və kişilərdən ibarət 45-50 nəfər toplaşmışdı və onların əynində çimərlik paltarları vardı. Onlar bizim yaxınlığımızda dövrə vurub dayanmışdılar.

Günəş yüksəkdə, düz başımızın üstündəydi, dənizin dalğaları sahilə çırpılır, sonra da geri qayıdırdı, dalğaların səsi aydın eşidilirdi. Qağayılar alçaqdan uçaraq ara-sıra başımızın üstündə dövrələr vururdular.

Onlar bizə tamaşa edərkən, Tanya gah dişləyir, gah da sorurdu və mən ətrafımıza toplaşmış insanların replikalarını eşidirdim:

– Aman Tanrım, bir onun sormağına, şeyi tutmağına baxın!

– Ağlını itirmiş ucuz fahişə!

– Özündən 40 yaş böyük bir adamın şeyini əmir!

– Qızı ondan ayırın! Bu qancıq lap ağlını itirib!

– Yox, bir dayanın! O elə bil lap ac qurddur!

– Bu şeyə bir BAXIN!

– DƏHŞƏT!

– Ey! O bu şeyi əmdiyi vaxt, mən onu daldan qayıracam!

– O lap AĞLINI İTİRİB! BU QOCA ƏBLƏHİN ŞEYİNİ AĞZINA ALIR!

– Gəlin onun kürəyini kibritlə yandıraq!

– BİR ONA BAXIN, GÖRÜN NƏ OYUNLAR ÇIXARIR!

– O ZIR DƏLİDİR!

Mən əlimi aşağı uzadıb Tanyanın saçlarından yapışdım və sikimi onun kəlləsinin düz ortasına itələdim.

Tanya vanna otağından qayıdanda, mən artıq iki qədəh içki süzmüşdüm. Tanya öz qədəhindən bir udum aldı və mənə baxdı.

– Sənin xoşuna gəldi, hə? Məncə, gəldi.

– Hə, düz deyirsən, – deyə cavab verdim. – Sinfonik musiqidən xoşun gəlirmi?

– Folk-rok, – deyə Tanya cavab verdi.

Mən radioqəbulediciyə yaxınlaşdım, əqrəbi 160-a keçirdim, onu qoşdum, səsini açdım və budur, bizə lazım olan musiqi.

104

Ertəsi gün Tanyanı hava limanına apardım. Biz hava limanındakı barda içdik. Zənci qadın oralarda gözə

dəymirdi. Deməli, o qıçların arasında indi kimsə başqası vardı.

– Sənə məktub yazacam, – Tanya dedi.

– Hə, yaz.

– Səncə, mən fahişəyəmmi?

– Yox. Sən, sadəcə, sekslə məşğul olmağı çox xoşlayırsan. Bunda isə pis heç bir iş yoxdur.

– Elə sən özün də seksdən ağlını itirirsən.

– Mənim içimdə puritanlıq həddən artıqdır. Əslində, puritanlar seksdən hər kəsdən daha artıq həzz ala bilirlər.

– Sən özünü həyatımda gördüyüm bütün kişilərdən daha məsum aparırsan.

– Müəyyən mənada, mən bütün həyatım boyu bakir olmuşam...

– Kaş mən də belə deyə biləydim.

– Bir qədəh də istəyirsən?

– Əlbəttə.

Biz dinməzcə oturub içdik. Sonra isə təyyarəyə minmək vaxtı gəlib çatdı. Təhlükəsizlik nəzarət məntəqəsinin yaxınlığında mən Tanyanı öpərək onunla

vidalaşdım. Sonra isə eskalatora minərək aşağı mərtəbəyə endim.

Evə qayıdarkən yolda başıma heç bir hadisə gəlmədi. Mən düşündüm: hə, yenə də tək qaldım. Ya nəsə yazmalıydım, ya da dalandar işinə girməliydim. Poçt idarəsi məni bir də heç vaxt işə götürməzdi. Onların dediyi kimi, hər kəs öz işi ilə məşğul olmalıydı.

Öz məhəlləmizə çatdım. Poçt qutusunda heç nə yox idi. Mən oturdum və Saraya zəng vurdum. O öz meyxanasında idi.

– İşlər necədir? – ondan soruşdum.

– O qəhbə rədd olub getdi?

– Hə getdi.

– Çoxdan gedib?

– Onu elə indicə təyyarəyə mindirdim.

– Hə nədi, o sənin xoşuna gəldi?

– Hə, onun bəzi məziyyətləri vardı.

– Onu sevirsən?

– Yox. Bura bax sənlə görüşmək istəyirəm.

– Mən bilmirəm. Bütün bunlar mənə çox ağır gəldi. Mən hardan bilim ki, sən bir də belə etməyəcəksən?

– Heç kim nə edəcəyindən heç vaxt əmin ola bilməz. Sən özün də nə edəcəyindən, məncə, əmin deyilsən.

– Mən nələr hiss etdiyimi çox yaxşı bilirəm.

– Bura bax, Sara, mən, hətta səndən bu günlərdə nə ilə məşğul olduğunu soruşmuram.

– Çox sağ ol, sən çox lütfkarsan.

– Sənինlə görüşmək istəyirəm. Bu axşam. Yanıma gəl.

– Henk, mən hələ bilmirəm...

– Mənim evimə gəl. Oturub, sadəcə, söhbət eləyərik.

– Qanım çox qaradır. Lap cəhənnəm əzabı çəkmişəm.

– Qulaq as, gör nə deyirəm: sən mənim bir nömrəli qadınımsan və ikinci nömrəli qadın isə heç yoxdur.

– Yaxşı. Axşam təxminən saat yeddidə gələcəm. Bura bax, indi məni iki müştəri gözləyir...

– Yaxşı. Onda axşam yeddidə görüşərik.

Dəstəyi asdım. Saranın, həqiqətən, çox mərhəmətli qəlbi vardı. Tanyaya görə onu itirmək gülünc olardı. Amma Tanya da mənə bəzi şeylər bəxş eləmişdi. Sara daha yaxşı

rəftara layiq idi. İnsanlar, evli olmasalar belə, bir-birinə sədaqətli olmalıdırlar. Müəyyən mənada etibar daha dərin bir hiss olmalıdır. Çünki o, qanunlarla tənzimlənmir.

Hmm, bizə əla şərab lazım idi. Özü də əla ağ şərab.

Evdən çıxdım. Folksvagenə mindim və supermarketin yanındakı şərab dükanına sürdüm. Şərab dükanlarını tez-tez dəyişməyi xoşlayırdım. Çünki əgər gecə və gündüz gedib bir dükandan çoxlu içki alanda, satıcılar sənin vərdişlərini öyrənir və onları yadda saxlayırdılar. Mənim hələ də nə üçün ölmədiyimə onların təəccübləndiyini hiss edə bilirdim. Və bu da məni narahat edirdi. Bəlkə də onlar mənim haqqımda belə şeyləri heç düşünmürdülər də. Amma əgər bir adamın il ərzində 300 günü xumarlıqda keçirdisə, əlbəttə ki, o sonunda paranoikə çevrilə bilərdi.

Yeni dükanda dörd şüşə əla ağ şərab tapdım və onları alaraq bayıra çıxdım. Bayırda dörd cavan meksikalı oğlan dayanmışdı.

– Ey, cənab! Bizə bir az pul verin! Ey, dostum, bizə bir az pul ver!

– Nəyə görə?

– Bizə lazımdı, dostum, çox ehtiyacımız var, özün başa düşmürsənmi?

– Koka almaq istəyirsiz?

– Pepsi-Cola, dostum!

Onlara 50 sent verdim.

(ÖLMƏZ YAZIÇI KÜÇƏ UŞAQLARININ YARDIMINA GƏLİR)

Pulu alan kimi, qaçıb getdilər. Folksvagenin qapısını açıb şərab şüşələrini içəri qoydum. Şüşələri elə yenicə maşına qoymuşdum ki, bir furqon sürətlə mənə yaxınlaşdı və qapısı zərblə açıldı. Bir qadını zorla itələyib furqondan yerə atdılar. Bu, gənc meksikalı bir qadın idi. Təxminən 22 yaşı olardı. Döşləri hələ heç çıxmamışdı, əynində boz rəngli şalvar vardı. Onun qara saçları çirkli və səliqəsiz haldaydı. Furqondakı adam onun üstünə qışqırdı:

– SƏNİ LƏNƏTƏ GƏLMİŞ FAHİŞƏ! SƏNİ XƏSTƏ LƏNƏT FAHİŞƏ! SƏNİN GÖTÜNƏ TƏPİYİ VURUB ÇOXDAN QOVMAQ LAZIM İDİ!

– SƏNİ TAXTABAŞ HEYVƏRƏ! – deyə cavabında qadın da onun üstünə bağırdı. – SƏNDƏN POX İYİ GƏLİR!

Həmin adam bir sıçrayışla furqondan yerə atıldı və qadına tərəf qaçdı. Qadın isə ondan canını qurtarmaq üçün şərab dükanına tərəf götürüldü. Adam məni gördü və qadını qovalamaqdan vaz keçdi, qayıdıb furqona mindi, dayanacaqda təkərləri qışqırdaraq geri döndü və Hollivud Bulvarı istiqamətində hərəkət edərək gözdən itdi.

Mən qadına yaxınlaşdım.

– Siz yaxşısınızmı?

– Hə.

– Sizə necəsə yardımım toxuna bilərmi?

– Hə, məni Van Nessə aparın. Van Ness ilə Franklinin kəsişməsindəki döngəyə.

– Yaxşı.

Qadın folksvagenə mindi və biz Hollivudun içərilərinə tərəf hərəkətə başladıq. Bir dəfə sağa döndüm, sonra sola və budur, biz gəlib Franklinə çatdıq.

– Səndə çoxlu şərab var, hə? – deyə o məndən soruşdu.

– Hə.

– Məncə, bir az içkiyə ehtiyacım var.

– Demək olar ki, hamının içkiyə ehtiyacı var. Amma onların bundan xəbəri yoxdu.

– Mənim isə xəbərim var.

– Mənim evimə gedə bilərik.

– Olar.

Mən folksvagenin yönünü dəyişdim və biz mənim evimə yollandıq.

– Mənim bir az pulum var, – ona dedim.

– 20 dollar, – deyə o cavab verdi.

– Sən ağzına alırsan?

– Sənətkaram, bunu məndən yaxşı heç kim edə bilməz.

Evə çatan kimi ona bir qədəh şərab süzdüm. Şərab isti idi. Amma o, isti şərabdan imtina etmədi. Mən özüm də bir qədəh bu isti şərabdan içdim. Sonra şalvarımı soyunub çarpayıya sərələndim. O da mənim arxamca yataq otağına gəldi. Mən öz cansız şeyimi tumanımdan bayıra çıxardım. O dərhal şeyimin üstünə düşdü. Sən demə, onun əlindən heç nə gəlmirmiş, qətiyyən təxəyyülü yox imiş.

İşlər tamam poxdur, deyə düşündüm.

Başımı yastıqdan qaldırdım.

– Hə, tərpən, hərəkət elə, əzizim! Sən orda nə pox qayırırsan axı?

Şeyim heç cür bərkimək istəmirdi. O mənim gözlərimin içinə baxa-baxa onu əmirdi. Bu həyatımda başıma gələn ən pis minet idi. Şeyimi təxminən iki dəqiqə sorandan sonra, o, kənara çəkildi. Çantasından burun dəsmalını çıxarıb onun içinə tüpürdü, guya ağzındakı spermanı tüpürürdü.

– Ey, – deyə mən qışqırdım, – sən mənə nə sikiş gəlməyə çalışırsan? Mən hələ qurtarmamışam.

– Yox, qurtardın, qurtardın!

– Ey, mən bunu hiss eləməliydim axı!

– Sən düz mənim ağzıma qurtardın.

– Bəsdi, məni ələ saldın! Tez elə, yerinə qayıt!

O yenə işə başladı, amma bunu əvvəlki kimi pis edirdi. Hər şeyin alınacağına ümid edərək ona mane olmadım. Ay səni qəhbə. O gah şeyimi dişləyir, gah da sorurdu. Elə bil özünü sorurmuş kimi göstərməyə çalışırdı, elə bil biz ikimiz

də yalandan özümüzü bu işlə məşğul olurmuş kimi göstərirdik. Şeyim bir az da boşaldı. O isə davam edirdi.

– Hmm, yaxşı, yaxşı, – mən səbr edə bilməyərək dilləndim, – daha bəsdir, yaddan çıxar.

Əlimi şalvarıma uzadıb portmanemi çıxardım.

– Al, bu da sənin iyirmiliyin. Daha gedə bilərsən.

– Maşında bir az gəzməyə nə deyirsən?

– Sən elə indi məni yaxşıca gəzdirdin.

– Franklin ilə Van Nessin kəsişdiyi döngəyə getməliyəm.

– Yaxşı.

Biz evdən çıxaraq maşına mindik və onu Van Nessə apardım. Maşını sürərkən onun başbarmağını qaldırdığını gördüm. Deməli, avtostopla gəzməyə vərdiş edib.

Evə qayıdandan sonra, Saraya bir də zəng elədim.

– İşlərin necə gedir? – ondan soruşdum.

– Bu gün nəsə zəifdir.

– Bu axşam gəlirsən də, fikrini dəyişməmisən?

– Sənə dedim ki, gələcəm.

– Əla ağ şərab almışam. Hər şey keçmiş vaxtlarımızdakı kimi olacaq.

– Sən Tanya ilə yenə görüşəcəksənmi?

– Yox.

– Mən ora gəlincə dilinə bir damcı da içki vurma.

– Danışdıq.

– Daha getməliyəm... Elə indicə içəri bir müştəri girdi.

– Yaxşı. Axşam görüşənədək.

Sara yaxşı qadın idi. Özümü bir az yığıb yığışdırmalıydım. Bir erkəyin çoxlu qadınlara ehtiyacı yalnız bu qadınların heç birinin bir qara qəpiyə dəymədiyi zaman olur. Erkək şeyini də əlinə alıb qabağına keçəni qayırdığı zaman, öz şəxsiyyətini də itirə bilər. Sara mənim ona verdiyimdən qat-qat daha yaxşısına layiq idi. İndi hər şey məndən asılı idi. Çarpayıda uzandım və çox keçmədən yuxuya getdim.

Telefonun zəngi məni yuxudan oyatdı.

– Buyurun? – mən dedim.

– Siz Henri Çinaskisiniz?

– Bəli.

– Sizin əsərləriniz məni hər zaman valeh edib. Sizdən daha yaxşı yazan bir yazıçı tanımıram!

Onun səsi gənc və ehtiraslı idi.

– Yaxşı alınmış bəzi yazılarım, əlbəttə ki, var.

– Bilirəm. Bilirəm.

– Kitablarınızda təsvir etdiyiniz bütün macəraları, doğrudan da həyatda qadınlarla yaşamısınızmı?

– Bəli.

– Bura baxın, mən də yazıram. Özüm də Los-Ancelesdə yaşayıram və gəlib sizinlə görüşmək istərdim. Sizə öz yazdığım şeirlərdən bəzilərini göstərmək istərdim.

– Mən nə redaktoram, nə də naşir.

– Bilirəm. Bura baxın. Mənim cəmisi 19 yaşım var. Sadəcə, ora gəlib sizinlə görüşmək istiyirəm.

– Bu axşam məşğulam.

– Ah, sizə uyğun olan istədiyiniz axşam görüşə bilərik.

– Yox, sizinlə görüşə bilmərəm.

– Siz, həqiqətən də Henri Çinaskisiniz, yazıçı?

– Əlbəttə.

– Mən çox gözəl bir fərəyəm.

– Ola bilər ki, bu belədir.

– Adım Roşeldir.

– Əlvida, Roşel.

Mən dəstəyi asdım. Hə, axır ki, mən bunu edə bildim – bu dəfə.

Mətbəxə keçdim. Hər həbində 400 beynəlxalq vahid olan E vitamin şüşəsinin ağzını açdım və yarım stəkan "Perye" suyu ilə bir neçə həb atdım. Çinaski üçün bu gecə yaxşı olacaqdı. Günəş şüaları Venesiya pərdələrində qıyğacı süzülərək xalının üstündə tanış naxışlar yaradırdı. Ağ şərab isə soyuducuda soyumaqdaydı.

Qapını açdım və artırmaya çıxdım. Orada yad bir pişik oturmuşdu. Çox nəhəng məxluqdu. Qorxunc görünürdü. Parıldayan qara kürkü və işıldayan sarı gözləri vardı. Deyəsən, məndən heç qorxmurdu. Mırıldayaraq mənə yaxınlaşdı və özünü ayaqlarıma sürtdü. Mən yaxşı adam idim. Görünür, o da bunu bilirdi. Heyvanlar belə şeyləri asanlıqla hiss edə bilirlər. Onların instinktləri var. Mən evə qayıtdım. O da mənin arxamca evə girdi.

Onun üçün bir banka “Star-Kist” ağ tuna balığının konservini açdım. Balıq çeşmə suyunda bağlanmışdı. Xalis çəki – 7 unsiya.